# İlyas Əfəndiyev

## Seçilmiş əsərləri



İlyas Əfəndiyev

Ш6
Ә34

*İlyas Əfəndiyev*

233736

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

***Yeddi clddə***

**"ÇİNAR-ÇAP"**
**BAKI – 2002**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**BİRİNCİ**

**CİLD**

**Baş redaktor:**

**ELÇİN**

xalq yazıçısı, filologiya elmləri doktoru, professor

**Redaksiya heyəti:**

Ağamusa AXUNDOV – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü, ANAR – xalq yazıçısı, Vaqif BAYATLI ÖNƏR – şair, Bəxtiyar VAHABZADƏ – xalq şairi, filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının həqiqi üzvü, Bəkir NƏBİYEV – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının həqiqi üzvü, Dilsuz MUSTAFAYEV – yazıçı, Əmin ƏFƏNDİYEV – filologiya elmləri namizədi, dosent, Əziz MİRƏHMƏDOV – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü, Həsənağa TURABOV – xalq artisti, İlham RƏHİMLİ – sənətşünaslıq doktoru, professor, Əməkdar incəsənət xadimi, İnqilab KƏRİMOV – sənətşünaslıq doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü, Kamal TALIBZADƏ – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının həqiqi üzvü, Timurçin ƏFƏNDİYEV – filologiya elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi, Vilayət QULİYEV – filologiya elmləri doktoru, professor, Yaqub İSMAYILOV – filologiya elmləri namizədi, Yaşar QARAYEV – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü.

Az2
Ə 92

*Redaktor:*
*Dilsuz*

Əfəndiyev İlyas.
Ə 92 "Seçilmiş əsərləri" 7 cilddə, 1-ci cild. Bakı,
"ÇİNAR-ÇAP" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002, – 448 s.

XX əsr Azərbaycan ədəbiyyatının klassiki, xalq yazıçısı İlyas Əfəndiyevin yeddi cildlik «Seçilmiş əsərləri»nin birinci cildinə ədibin əlli beş il müddətində yazdığı hekayələr toplanmışdır. Bu hekayələr, İlyas Əfəndiyevin «Kənddən məktublar» adlı ilk kitabının 1939-cu ildə nəşr edildiyi vaxtdan etibarən son hekayələrini yazdığı 90-cı illərə kimi, oxucuların böyük rəğbətini qazanmış, daima onların diqqət mərkəzində olmuş, dəfələrlə nəşr edilmiş, radio və televiziyada səhnələşdirilmiş, bir çox xarici dillərə tərcümə olunmuşdur. İllər bir-birini əvəz etmiş, ictimai formasiyalar dəyişmiş, bu hekayələr isə özünün yüksək bədii-estetik xüsusiyyətlərini qoruyub saxlamışdır və onlar bədii dilin gözəlliyinə, incə lirikasına, insani hiss-həyəcanların dolğun ifadəsinə görə XX əsr Azərbaycan hekayəsinin ən gözəl nümunələri sırasındadır. Hekayələrin bir qismi indiyədək yazıçının heç bir kitabına daxil edilməmişdir.

Ə $\frac{4702060200}{122}$

© ÇİNAR-ÇAP, 2002

# İLYAS ƏFƏNDİYEV. ŞƏXSİYYƏTİ VƏ SƏNƏTİ HAQQINDA BİR NEÇƏ SÖZ.

## 1.

*İlyas Əfəndiyev* ən dəruni hisslər ilə Azərbaycana, Azərbaycanın içində – Qarabağa, Qarabağın içində isə – Füzuliyə, öz nəsil-nəcabətinə bağlı bir adam idi və onun, hərdən uşaqlıq illəri haqqında danışdığı xatirələr, o xatirələrdəki etnoqrafik detalların zənginliyi, müşahidələrin dərinliyi, çoxdan haqq dünyasına köçüb getmiş insanlara, o dövrün mənəvi dəyərlərinə ehtiramı, üç cümlə ilə uşaqlıq dövrünün koloritini, onu əhatə edən adamların xarakterini verə bilmək bacarığı adama elə təsir edirdi ki, elə bil, özün bütün vaxt, zaman qanunlarını pozub, onunla birlikdə onun o uşaqlıq dövrünə getmisən.

Mən deyə bilmərəm ki, İlyas Əfəndiyev keçmişlə yaşayırdı, çünki belə deyildi, bəlkə də, əksinə idi, o, gələcəklə yaşayan bir adam idi və onun yaradıcılığındakı daimi yenilik meyli də, şəxsiyyətindəki xüsusiyyət – həmişə təzəlik, yenilik sorağında olması da, güman ki, elə buradan gəlirdi, amma bir cəhət də həqiqət idi: keçmiş həmişə İlyas Əfəndiyevin içində idi, həmişə onunla birlikdə idi.

İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» və «Üçatılan» romanları, əslində, avtobioqrafik əsərlərdir və o romanlarda, eləcə də 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində yazdığı bir sıra xatirə-esselərdə, xüsusən «Çovğunlu bir qış günündə», «Orfey quyudan çıxandan sonra nə gördü?..», «Axund Molla Şükürün cənnət bağı necə oldu?»da həyatının ilkin mərhələləri, soyu-kökü haqqında ətraflı yazıb və bu əsərlər yalnız onun özünün həyatının yox, ümumiyyətlə, xalqımızın yaxın keçmişdəki güzəranının, məişətinin, psixologiyasının, Qarabağ elatının etnoqrafik xüsusiyyətlərinin öyrənilməsi baxımından zəngin bir mənbədir.

Bizim görkəmli tənqidçimiz Yaşar Qarayev yazır: «Azərbaycan tarixi barədə klassik sənədlər – yeddi «Qarabağnamə» var. Bütünlükdə, İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci «Qarabağnamə» hesab edirəm.»

Bütün bunlar, əlbəttə, ayrıca bir mövzudur, mən isə, bu kiçik «Bir neçə söz»də İlyas Əfəndiyevin xatirələrinə və sonralar əldə etdiyim materiallara istinadən, oxuculara onun əsli-kökü barədə qısaca məlumat vermək istəyirəm.

İlyas Əfəndiyevin ulu babası Xoca Əhməd Əfəndi XVIII yüzilin sonlarında Ərzurumun Kars mahalından gəlib Qarabağda, indiki Füzuli (o zamankı Qarabulaq, sonralar isə, orada öldürülmüş çar polkovniki Karyaginin şərəfinə «Qaryagin» adlandırılıb) rayonunun Sarıcıq deyilən obasında yurd salıb, orada evlənib, görkəmli din xadimi, islamşünas alim kimi məşhurlaşıb və onun nəsli «Əfəndi uşağı» kimi hörmət və nüfuz qazanıb.

«Əfəndi uşağı» Xoca Əhməd Əfəndidən gələn dini ənənələri davam etdirib və o nəslin nümayəndələri tanınmış, savadlı və nüfuzlu din xadimləri olublar.

Ancaq təxminən yüz ildən sonra, XIX əsrin sonlarında nəslin bu ənənəsi pozulub: Xoca Əhməd Əfəndinin nəticəsi Axund Molla Ağa Məhəmmədin böyük oğlu Məhəmməd, həmin ənənəyə uyğun, nəsillikcə din xadimi olmaq əvəzinə, ilkin dini təhsilini başa vurduqdan sonra, ticarətə meyl edib və gənc yaşlarından etibarən bacarıqlı, işgüzar, geniş əlaqələrə malik, ziyalı bir tacir kimi bütün Füzuli və ümumiyyətlə, Qarabağ camaatının hörmətini qazanıb. O həm də igid, qabağından yeməyən, sərt xarakterə malik, at çapan, nişan vuran bir adam idi.

İlyas Əfəndiyev 1993-cü ildə uşaqlıq çağlarını xatırlayaraq yazırdı ki, «mənim dünyada fərəhləndiyim, fəxr etdiyim iki şey var idi: bunun biri Göydəmir atımızın Füzulidə, Şuşada heç bir cıdırda məğlub olmaması, ikincisi, atamın tapança ilə sərrast nişan vurması idi. Novruz bayramında atamın, dostları ilə mərcləşib neçə metr hündürlüyə atılan almanı, yumurtanı havada necə vurduğunu çox görmüşdüm.»

Tacir Məhəmmədin Füzulidə müxtəlif mallar satılan doqquz dükanı, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Ağcabədidə qumaş dükanları, Bakıda, Həştərxanda, Vladiqafqazda, Tehranda, Təbrizdə şərikləri var idi və Füzulidə tikilən ilk ikimərtəbəli böyük daş bina da onunku idi. Bolşeviklər gələndə soldatlar o binada yerləşdirilmişdi və sonralar bu barədə İlyas Əfəndiyev yazırdı:

«On birinci ordu Azərbaycanı istila edəndə atamın mağazaları, bütün var-yoxu əlindən çıxmışdı. Biz qorxub Qaryagin şəhərindən kən-





də qaçmışdıq. Evlərimiz xalça-gəbəylə, mebellə dolu qalmışdı. On birinci ordunun bir batalyonu bizim evlərdə yerləşmişdi. Aralıq düzələndə, biz şəhərə – öz evimizə qayıdanda gördük ki, var-yoxumuzdan heç nə qalmayıb. Əsgərlər atamın Peterburqdan gətirdiyi mebelləri sındırıb taxtalarını ocaqda yandırmış, məxmərlərini də atlara çul etmişdilər.»

Məhəmmədin elə gənc yaşlarında da ailə qurduğu Bilqeyis xanım isə, əsli-nəcabəti ilə bütün Qarabağda məşhur olan Bayram bəyin qızı idi və o, «Əfəndi uşağı»ndan fərqli olaraq, tamam dünyəvi bir nəslin nümayəndəsi idi. Orasını da deyim ki, bu iki müxtəlif təmayüllü nəslin qohumluğunun da maraqlı bir tarixçəsi var idi: Məhəmməd, Bilqeyis xanımı qaçırmışdı və yeniyetməlik vaxtlarımda babamla nənəmin bu tarixçəsi Romeo və Cülyettanın hisslər aləmindən xəbər verən çox romantik bir əhvalat kimi mənə təsir edirdi.

1988-ci ildə çap etdirdiyi «Çovğunlu bir qış günündə» adlı sənədli hekayəsində İlyas Əfəndiyev, 1934-cü ildə Pedaqoji İnstitutun tələbəsi ikən, qış vaxtı ata-anasının, bacı-qardaşlarının öz evlərindən çıxarıldığını, çadır qurub suyun-palçığın içində həyətdə yaşadıqlarını, üstəlik, atasının da xəstə olduğunu eşidib Füzuliyə qayıtmasını təsvir edir və yazır ki, onu Horadiz stansiyasından evlərinə köhnə tanışları – Həbib kişi öz faytonunda aparır.

«Qədim Xorasan kürkünə bürünərək faytonun qozlasında əyləşmiş Həbib dayı keçən günlərdən, özünün cavan vaxtlarından danışırdı:

– O vaxt atan (tacir Məhəmməd. – *E.*) cavan, gözəl bir oğlan idi. Bilqeyis xanımı götürüb mənim faytonumda Ağdama qaçıranda, Pirağbulaq dərəsində Qaçaq Xanmuradın (XX əsrin onuncu illərində bütün Qarabağ mahalında məşhur bir qaçaq olub. – *E.*) dəstəsinə rast gəldik... Atanın kimlərdən olduğunu, kiminlə qaçdıqlarını mən danışandan sonra, Qaçaq Xanmurad barmağındakı brilyant üzüyü çıxarıb Bilqeyis xanıma verib dedi:

– Bacı, bunu sənə boygörüncəyi verirəm.

İnqilabdan sonra tez-tez gəlib, evimizi axtarıb, bizdən əsassız olaraq qızıl, tapança tələb eləyən başabəla inzibati işçilər anamın dədə-babadan qalma ziynət şeyləri ilə birlikdə, Qaçaq Xanmuradın bağışladığı o üzüyü də aparmışdılar.»

Şuşadakı rus gimnaziyasını bitirmiş Bayram bəy yalnız Füzuli tərəfin deyil, bütün Qarabağın çox sayılan adamlarından biri idi və bu nüfuzuna, hörmət-izzətinə görə, Azərbaycanda Demokratik Cümhuriyyət yarandıqda, onu Ağdam qəzasının rəisi (naçalniki) təyin edirlər.

Ağdam qəzası o zaman Gəncə quberniyasına daxil idi və Bayram bəylə qubernator Xudadat bəy arasında səmimi və məhrəm bir münasi-

bət var idi. Yadıma gəlir, nənəm Bilqeyis xanım tez-tez xatırlayırdı ki, «Xudadat bəy dədəmə (yəni Bayram bəyə) demişdi ki, İsfəndiyar bəy Şuşa realnı məktəbini bitirsin, onu Parisə oxumağa göndərəcəyik, Teymur bəyi də Fransada diplomatiya məktəbinə göndərəcəyik.»

İsfəndiyar bəy – Bilqeyis xanımın kiçik qardaşı idi, amma tale ona başqa bir həyat yolu hazırlayıbmış: Şuşa realnı məktəbini qurtarandan sonra, XI rus-bolşevik ordusu Azərbaycanı istila etdi və gümüş xəncəri belinə bağlayıb köhlən atın belində həmişə cıdır yarışlarını udan, davranışı, geyim-kecimi, igidliyi ilə «plov yemirəm ki, bığım yağa batar» deyən, eyni zamanda, rus ədəbiyyatını dərindən bilən, ümumiyyətlə, dünya mədəniyyətinə yaxşı bələd olan İsfəndiyar bəyin başına dünyanın min bir müsibəti gəldi və onun ömrü 1956-cı ildə Bakının keçmiş Poluxin küçəsində, Axund hamamının yanındakı birmərtəbəli binanın ikiotaqlı darısqal mənzilində sona yetdi.

Teymur isə – Bilqeyis xanımın dayısı oğlu Teymur bəy Bağdadbəyov idi və o yaraşıqlı, savadlı gəncə də diplomatlıq qismət olmadı – 1919-cu ildə erməni millətçiləri onu Şuşada xaincəsinə qətlə yetirdilər.

İlyas Əfəndiyev bütün bunlar barədə Nigar Rəfibəylidən bəhs etdiyi «Şairənin qisməti» adlı essesində yazıb və ümumiyyətlə, o, ömrünün sonuna qədər Bayram bəyi tez-tez və xüsusi bir hərarətlə xatırlayırdı.

Babası rəhmətə gedəndə (Əfəndiyevlər ailəsinə sonralar da çox zülm çəkdirmiş yerli bolşeviklər 1923-cü ildə onu zəhərləyib öldürmüşdülər.) İlyas Əfəndiyevin doqquz yaşı var idi, amma onun Bayram bəylə bağlı xatirələri çox səlis və ən kiçik detallarına qədər təfərrüatlı idi, mən, hətta, mat qalırdım ki, o yaşda uşaq bütün bunları necə yadında saxlayıb.

Orasını da deyim ki, İlyas Əfəndiyev 1971-ci ildə tamaşaya qoyulmuş «Mahnı dağlarda qaldı» dramında Böyük bəy adı ilə Bayram bəyin obrazını yaratmışdı və bu surətin xarakteristikası ilə bağlı hər gün tamaşanın quruluşçu rejissoru Əliheydər Ələkbərovla danışması ilə kifayətlənməyib, günorta teatrdakı məşqlərdən sonra, hər axşam da telefonla bu rolun ilk ifaçısı İsmayıl Dağıstanlıya zəng edirdi, rolu təhlil edirdi, nüanslarını çatdırırdı.

İlyas Əfəndiyevi narahat edən cəhət o idi ki, Böyük bəy – o dövrün ibarələri ilə desək, «sinfi düşmən» idi, amma müəllif onu ləyaqət, mərdlik, ağayanalıq, vətənpərvərlik, ailəcanlılıq timsalı kimi təsvir etmişdi və bütün bunları, necə deyərlər, akvarellə canlandırmaq lazım idi, çünki bu obraz və ümumiyyətlə, bu əsər, sovet yazıçısı tərəfindən,





özü də dövrün hakim ideologiyası üçün çox mühüm olan bir mövzu ilə bağlı, gəmidə oturub gəmiçi ilə dava eləmək demək idi.

İlk dəfə 1971-ci ilin 12 fevralında göstərilən bu tamaşada Böyük bəyin (Bayram bəyin!) obrazı İlyas Əfəndiyevin düşündüyü kimi də alındı və o dövrün ədəbi təsnifatı ilə desəm, Böyük bəy Azərbaycan sovet teatr sənətinin tarixinə «müsbət» bəy kimi düşdü. Bura orasını da əlavə edim ki, tamaşanın müvəffəqiyyəti o qədər böyük oldu və tamaşaçılar da, nüfuzlu tənqidçilər də onu elə yüksək qiymətləndirdilər ki, əsər Dövlət Mükafatı aldı.

Sonralar mən «Mahnı dağlarda qaldı»nın əsasında «Mən hələ qayıdacağam» adlı kinossenari yazdım və rəhmətlik Kamil Rüstəmbəyov o ssenari əsasında eyniadlı film çəkdi və o film bir o qədər uğurlu alınmasa da, Həsənağa Turabovun ifasında Böyük bəy surəti filmdə də yaxşı çıxmışdı.

Amma mən, deyəsən, mövzumdan bir az uzaqlaşıram...

Məhəmmədlə Bilqeyis xanımın yeddi uşağı olur: ilk övlad İlyas, sonra Məhbub, Mustafa, Tofiq, Məhluqə, Arif, Nəzihə.

Və bolşeviklər gəldikdən sonra, bu ailənin başına gətirilən məşəqqət, onların düçar olduğu min bir əzab-əziyyət barədə İlyas Əfəndiyev yuxarıda adını çəkdiyim əsərlərində, müsahibələrində bəhs edib, amma o məşəqqətə, o əziyyətlərə baxmayaraq, o yeddi uşağın yeddisi də («səsi alınmış» – yəni, hakimiyyət tərəfindən bütün vətəndaş hüquqlarından məhrum edilmiş keçmiş tacir Məhəmməd 1933-cü ildə 46 yaşında vəfat etmişdi, nənəm Bilqeyis xanımın sözü ilə desəm, «bolşeviklər kişini çərlədib öldürdülər.») böyüyüb təhsil aldı və cəmiyyətdə öz nəsillərinə layiq yer tutdu.

Məhbub xanım və Məhluqə xanım (şair Çingiz Əlioğlunun anası) – müəllimə idilər, Arif Əfəndiyev – hüquqşünas, Nəzihə xanım – həkimdir.

Yəqin, qəribə cəhətlərdən biri odur ki, İlyas Əfəndiyevin həm ata, həm ana tərəfdən nəslində ədəbiyyatçılar, ümumiyyətlə, sənət adamları olmamışdı (yalnız dayısı, yəni Bilqeyis xanımın böyük qardaşı Cəlil bəy Bağdadbəyov tanınmış teatr xadimi, bir sıra pyeslərin, eləcə də çox maraqlı xatirələrin müəllifi idi, amma bu, – artıq onuncu illərin və sonraların hadisəsi idi), ancaq bu yeni nəsildə İlyas Əfəndiyevdən başqa, qardaşları da ədəbiyyatçı idi: Mustafa Əfəndiyev (Məhəmməd ikinci oğluna babası, Axund Molla Ağa Məhəmmədin atası Xoca Mustafa Əfəndinin adını qoymuşdu) Moskva Dövlət Universitetini bitirmişdi, tərcüməçi (onun ən yaxşı tərcümələrindən biri Lev Tolsto-

yun «Hacı Murad»ı idi) və naşir (1982-ci ildə vəfatına qədər uzun müddət Azərnəşrin direktoru olmuşdu), Tofiq Əfəndiyev isə yazıçı idi.

## 2.

Qəribədir, İlyas Əfəndiyev uşaqlıq illərinə, soyuna-kökünə, iti hafizəsinin ötüb-keçmiş günlərlə bağlı ömrünün son günlərinədək dəqiq təfərrüatlarıyla qoruyub saxladığı xatirələrə nə qədər bağlıydısa, bir o qədər də öz şəxsi arxivinə fikir verməyən, nəinki mətbuatda çap olunmuş əsərlərini, onun haqqında yazılmış məqalələri, hətta, öz kitablarının belə nüsxələrini özündə saxlamağa əhəmiyyət verməyən bir insan idi. Bizim tapıb, alıb gətirdiyimiz kitabları da, görürsən ki, hansısa oxucusuna, qələm yoldaşına, yanına gələn hansısa jurnalistə bağışlayırdı və təkrar nəşrləri hazırlayarkən, məcbur olurduq ki, əvvəlki nəşrləri kitabxanadan xahiş edib götürək, makinada üzünü çıxartdıraq.

O, öz şöhrətinin, öz yaradıcılıq taleyinin rejissoru deyildi və təbiəti etibarilə həmin sənətkarlardan biri idi ki, sənətinin taleyini zamanın (tarixin!) öhdəsinə buraxmışdı, onun üçün mübahisəsiz (və qəbul etdiyi!) bir həqiqət ondan ibarət idi ki, sən nə edirsən, et, – göyə çıx, yerə düş, nə yazmısansa, onu zaman süzgəcdən keçirəcək və kafi, ya qeyri-kafi qiymətini verəcək – nə bundan yuxarı olacaq, nə də bundan aşağı.

Və İlyas Əfəndiyev burasını da yaxşı bilirdi ki, sənəti süzgəcdən keçirəcək, saf-çürük edəcək o qüvvə – zaman! tarix! – tamam amansız bir şeydir və heç bir şəxsi cidd-cəhdə baxmır.

Bu, əlbəttə, o demək deyildi ki, İlyas Əfəndiyev yaradıcılığına qarşı biganə idi, əksinə, «yaradıcılığın taleyi» – bu mövzu onu daima düşündürürdü, bəzən tərəddüdlərə, hətta, müvəqqəti bir mənəvi böhrana da gətirib çıxarırdı.

Misal üçün, bir epizodu xatırlamaq istəyirəm, hərçənd bunu mən artıq hansı yazımdasa demişəm, amma indi də təkrar edirəm, çünki elə bilirəm ki, İlyas Əfəndiyevin yaradıcılıq psixologiyası, yazıçı xarakteri və ümumiyyətlə, təbiətinin xüsusiyyətləri barədə az şey demir.

Bir dəfə axşamçağı mən ona baş çəkməyə getmişdim və onu görən kimi hiss etdim ki, fikirlidir, düşüncələri haradasa, başqa sferalardadır. Onun yaxşı kitabxanası var idi: müasir dünya ədəbiyyatı, klassiklər... və birdən İlyas Əfəndiyev iş otağında gəzişə-gəzişə kitab rəflərinin qarşısında dayandı və o, kitabları göstərərək soruşdu:

– Bunlardan sonra bizim yazmağımızın bir mənası var?

«Bunlar» – Şekspir, Servantes, Molyer, Şiller, Höte, Lev Tolstoy, çox qiymətləndirdiyi Balzak, sevdiyi Flober...

O zaman mən İlyas Əfəndiyevə belə bir cavab verdim:





– Hər bir yazıçını öz xalqının taleyi, tarixi kontekstində qiymətləndirmək lazımdır. Hərənin öz yeri var. Yoxsa, hər şey, sənin şübhələndiyin kimi, mənasız olar.

Mən bu gün də güman edirəm ki, onda atama düz cavab verdim. Amma bu cavab onun o dəmdəki hisslər aləminə nəsə bir təsir etdimi? – bunu deyə bilmərəm...

Elə bilirəm ki, bu epizod onun öz yaradıcılığına və ümumiyyətlə, yaradıcılıq məsələlərinə, sənətə tələbkarlığından, daxili mübahisələrindən, yalnız sənətin yox, həyatın mənası barədə düşüncələrindən xəbər verirdi.

Bəzən qəribə hadisələr olurdu.

14 sentyabr 1943-cü ildə – gənc bir yazıçı olarkən – «Ədəbiyyat» qəzetində İlyas Əfəndiyevin «Tar çalındı» adlı bir hekayəsi çap olunub – bu tarixi mən sonralar dəqiqləşdirdim, o hekayəni isə, necə olmuşdusa, ikinci nüsxəsi qorunub saxlanmış – indiki kimi yadımdadır – sap-sarı, qıraqları didilmiş köhnə makina yazısından oxumuşdum, sonralar elə o köhnə makina yazısının sayəsində İlyas Əfəndiyev onu 1959-cu ildə nəşr olunmuş bircildlik «Seçilmiş əsərləri»nə, eləcə də 1964-cü ildə nəşr olunmuş ikicildliyinin birinci cildinə daxil etmişdi.

60-cı illərin əvvəllərində, əgər, səhv etmirəmsə, 1966-cı ildə – onda mən aspiranturaya yenicə qəbul olunmuşdum – bizim gözəl yazıçımız İsa Hüseynovun «Saz» adlı povesti çap olundu və mən o povesti «Azərbaycan» jurnalında oxuyanda mat qaldım: eynilə İlyas Əfəndiyevin həmin hekayəsindəki süjet idi.

O süjet bundan ibarət idi ki, qoca yaxşı tar çalır, yeganə qızı atasının tar çalmağını çox sevir, qız könüllü müharibəyə gedir, bundan sonra qocanın tarı divardan asılı qalır, çünki o da tarı, əslində, qızı üçün çalırdı və bir gün cəbhədən qızın qara xəbəri gəlir, həmin gecə qoca uzun fasilədən sonra, tarı sinəsinə sıxıb çalır.

Gənc İlyas Əfəndiyevə xas olan lirik-romantik bir üslubda yazılmış bu əhvalat İsa Hüseynovun «Saz» povestində tar əvəzinə saz və qız əvəzinə oğlan olmaq etibarilə eynilə təkrar olunurdu.

Düzdü, «Saz»da qələmə alınan material da başqa idi, təhkiyə də başqa idi, amma fakt, fakt olaraq qalırdı, necə deyərlər, kor-kor, gör-gör və mən bir gənclik hikkəsi və təəssübkeşliyi ilə bunu İlyas Əfəndiyevə deyəndə, o, əvvəlcə povesti oxudu, sonra mənim:

– Heç olmasa, zəng elə İsaya, soruş ki, bu nə məsələdi belə? – deyə təhriklərimə gülümsəyə-gülümsəyə:

– İsa yaxşı yazıçıdı, – dedi. – Görmürsən, elə bu povesti də yaxşı

yazıb. Yəqin haçansa, yeniyetməlik vaxtlarında-zadda hekayəni oxuyub, o vaxtdan fikrində qalıb, sonra da sövq-təbii ortaya çıxıb...

Bu barədə o, nə İsaya, nə də bir başqasına bir kəlmə dedi, hətta, o hekayəni yeni kitablarına salmaq da istəmirdi və yalnız mənim təkidimlə həmin hekayə 1969-cu ildə nəşr olunan dördcildliyinin birinci cildində, 1981-ci ildə «Qırçı və qırmızı çiçək» hekayələr kitabında, 1984-cü ildə altıcildliyinin birinci cildində çap olundu və oxucular hazırkı nəşrin ilk cildində də həmin hekayəni – «Qoca tarını çaldı» – oxuya bilərlər.

Mən bu hadisəni ona görə xatırlamadım ki, sonradan-sonraya İsa Hüseynovu suçlayım, əksinə, mən İsa Hüseynovu xüsusən 60–70-ci illərin ən yaxşı Azərbaycan nasirlərindən biri hesab edirəm və yeri düşmüşkən deyim ki, İlyas Əfəndiyev hələ 1957-ci ildə İsa Hüseynovun hekayələri haqqında «Yoldaşlıq söhbəti» adlı ayrıca məqalə yazıb «Ədəbiyyat və incəsənət» qəzetinin 3 avqust nömrəsində çap etdirmişdi. Bu hadisəni də yalnız ona görə xatırladım ki, İlyas Əfəndiyevin xasiyyəti haqqında, mənim fikrimcə, çox şey deyir.

3.

İlyas Əfəndiyev 80-ci illərin sonlarından etibarən mənim xahişimlə bir sıra xatirələr yazdı və elə bilirəm ki, o xatirə-esselərin onun yaradıcılığında xüsusi yeri var. Ona görə «mənim xahişimlə» deyirəm ki, İlyas Əfəndiyev ömrünün sonuncu günlərinə qədər daima yeni mövzular üzərində işləyirdi və onun xatirələr yazmağa, sadəcə olaraq, vaxtı yox idi. Bir də ki, xatirələr yazmağa o, bir az «yaradıcılığın sonu» kimi baxırdı və onun daim işləyən bədii təfəkkürü, bədii fantaziyalar aləmi belə bir «yaradıcılıq sonu»nu heç vəchlə yaxına buraxmırdı.

Onun 1987-ci ildə Əli Vəliyev haqqında yazdığı xatirə belə başlayırdı:

«Mən keçmiş Qaryagin (indiki Füzuli) şəhərində coğrafiya müəllimi idim. Orada da yazmış olduğum «Kənddən məktublar» adlı hekayələr məcmuəmi 1938-ci ildə, məktəblilərin qış tətilində Bakıya gətirib Yazıçılar İttifaqında nəsrə baxan mərhum yazıçımız Əbülhəsənə təqdim etdim. O, mənim təhər-töhürümə, ayağımdakı uzunboğaz çəkmələrə baxaraq soruşdu:

– Nəçisən?

Nəçi olduğumu dedikdə, o:

– Əzzim, əzzim, – dedi, – coğrafiya müəllimi hara, yazıçılıq hara?»

Ədəbiyyat aləminə ilk addımını belə atan 25 yaşlı coğrafiya müəllimi İlyas Əfəndiyevin ilk kitabı – həmin «Kənddən məktublar» – 1939-cu ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxdığı vaxtdan





etibarən, o – İlyas Əfəndiyev həmişə ədəbi tənqidin diqqət mərkəzində olub və bu uzun dövr ərzində onun yaradıcılığı haqqında yazılanlar həcm etibarilə, bəlkə də, onun özünün yazdıqlarından da çoxdur.

İlyas Əfəndiyev haqqında elə yalnız Azərbaycan mətbuatında yazılanları xronoloji bir ardıcıllıqla gözdən keçirdikdə, haqsız, vulqar sosioloji tənqidlərlə də rastlaşırıq, haqlı iradlara da rast gəlirik, amma bir həqiqət gün işığı kimi aşkardır: bir küll halında ədəbi tənqid və ümumiyyətlə, ədəbi ictimaiyyət İlyas Əfəndiyev yaradıcılığını həmişə yüksək qiymətləndirmiş, onun XX əsr Azərbaycan ədəbiyyatında tutduğu məxsusi yeri müəyyənləşdirməyə, yaradıcılığının poetikasını, «İlyas Əfəndiyev teatrı»nın bədii-estetik xüsusiyyətlərini açmağa çalışmışdır.

Səməd Vurğun, İlyas Əfəndiyevin sadə adamları «böyük məhəbbətlə və hərarətlə» təsvir etdiyini, «onların zəhmətini parlaq və real boyalarla» göstərdiyini deyirdi, Nazim Hikmət İlyas Əfəndiyevin dramaturgiyasını yüksək qiymətləndirirdi və məqalələrindən birində belə maraqlı bir fikir söyləyirdi: «Süleyman Rüstəmin, Səməd Vurğunun, Rəsul Rzanın arasında kökün dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni kök üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm oxşayırlar, həm oxşamırlar. Mirzə İbrahimovla Mehdi Hüseynin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür.»

Məmməd Arif İlyas Əfəndiyev haqqında bir sıra məxsusi məqalələr yazmışdı və onu «hər cür milli məhdudluqdan uzaq bir yazıçı» hesab edirdi. Mehdi Hüseyn İlyas Əfəndiyevi «insan psixologiyasını təbii və sadə boyalarla göstərdiyi üçün» həmişə yüksək qiymətləndirirdi, hələ 1944-cü ildə, – o vaxt İlyas Əfəndiyev cəmi beş il idi ki, ədəbiyyata gəlmişdi – «Bir nasirimiz haqqında» adlı çox xeyirxah bir məqalə yazıb o zamanın ən nüfuzlu qəzetində – «Kommunist»də dərc etdirmişdi və özünə xas olan ədəbi intuisiya ilə Azərbaycan ədəbiyyatına yeni, heç kimə bənzəməyən bir istedadın gəldiyini göstərirdi. Eyni zamanda, aydın hiss olunur ki, Mehdi Hüseyn bu məqaləni «baş ideoloji tribunada» – «Kommunist» qəzetində dərc etdirməklə, həm də gənc yazıçını – İlyas Əfəndiyevi dövrün ideoloji hücumlarından qorumaq məqsədini də güdmüşdür.

Sonralar Mehdi Hüseyn İlyas Əfəndiyevin «İşıqlı yollar», «Atayevlər ailəsi» və başqa əsərləri haqqında geniş və dövrün kontekstində prinsipial əhəmiyyətli resenziyalar yazmışdı, Azərbaycan

ədəbiyyatının aktual problemlərinə həsr olunmuş bir çox məqalələrində İlyas Əfəndiyevin yaradıcılıq xüsusiyyətlərinin üzərində dayanmış, bu xüsusiyyətlərin ədəbiyyata gətirdiyi yeniliklərdən bəhs etmiş, lazım olan məqamlarda – belə məqamlar isə az olmamışdı – öz prinsipial sözünü demişdi.

Yeri düşmüşkən deyim ki, İlyas Əfəndiyev də Mehdi Hüseyn haqqında öz sözünü həmişə demişdir. Hələ 1946-cı ildə ««Fəryad» haqqında mülahizələrim» adlı məqaləsini yazmışdı («Ədəbiyyat» qəzeti, 3 iyul 1946), sonrakı illərdə də Mehdi Hüseynin yaradıcılığından, o cümlədən kino yaradıcılığından ayrıca bəhs etmişdi və ümumiyyətlə, deməliyəm ki, həyatda da İlyas Əfəndiyevlə Mehdi Hüseyn çox yaxın dost idilər və mən gözümü açandan bu saf, necə deyərlər, «ürək dostluğunun» şahidi olmuşam və bir az sonra qısaca da olsa, bu barədə ayrıca yazacağam.

Onlar 1942-ci ildə – Mehdi Hüseyn artıq tanınmış və iti qələmi, ədəbi mübarizədə kompromissiz və impulsiv xarakteri ilə özünə nüfuz qazanmış bir yazıçı və ədəbiyyatşünas, İlyas Əfəndiyev isə üç il əvvəl ilk hekayələr kitabını nəşr etdirmiş gənc bir yazıçı – birlikdə ilk yazılarını – Natəvan haqqında dövrü üçün çox maraqlı və cəsarətli bir məqalə yazmışdılar. İlyas Əfəndiyev 1944-cü ilin 26 dekabrında Akademik Milli Dram Teatrımızda (o zaman Məşədi Əzizbəyov adına Dövlət Dram Teatrı adlanırdı) tamaşaya qoyulmuş ilk səhnə əsəri «İntizar»ı da öz hekayələri əsasında Mehdi Hüseynlə birlikdə yazmışdı, 1948-ci ildə yenə birlikdə A.Ostrovskinin «Son qurban» komediyasını Azərbaycan dilinə çevirmişdilər.

Orası da mənim yadıma gəlir ki, həmin 40-cı illərin sonlarında – o zaman mən hələ heç məktəbə getmirdim – onlar birlikdə dublyaj üçün filmlərin mətnini tərcümə edirdilər və bəzən, həmin vaxt kino nazirinin müavini işləyən İmran Qasımov da onlarla birlikdə pulsuzluğun məcbur etdiyi belə bir müştərək «qonorar yaradıcılığına» qoşulurdu.

Ancaq Mehdi Hüseynlə İlyas Əfəndiyevin bu dostluğu «bir-birilərini tərifləmək mənbəyi» deyildi, ədəbiyyatın, sənətin marağı İlyas Əfəndiyev üçün də, Mehdi Hüseyn üçün də son dərəcə vacib bir cəhət idi və mən dəfələrlə onların hansısa bir ədəbiyyat məsələsi ətrafında, hansısa bir əsərlə, o cümlədən, öz yazıları ilə bağlı necə qızğın, hətta, müəyyən dövrlərdə bir-birindən inciyəcək dərəcədə kəskin mübahisələrinin şahidi olmuşam və onların ya bizdə, ya Mehdi Hüseyngildə bəzən gecənin yarısına kimi uzanan o ədəbi mübahisələri bu gün ən işıqlı xatirələr kimi tez-tez mənim yadıma düşür.

İlyas Əfəndiyev ömrünün sonuna kimi Mehdi Hüseyni böyük hərarətlə, onun vaxtsız ölümünü böyük bir ürək ağrısı ilə yada salırdı, onun haqqında «Yeri görünən adam» adlı xatirə-esse yazmışdı («Azərbaycan» jurnalı, 1988, № 2.), ancaq bu, başqa bir mövzudur və sağlıq olsun, haçansa bu barədə yəqin mən də geniş yazacağam...





İndi isə yenə demək istədiyimə qayıdıram.

Mirzə İbrahimov yazırdı:

«Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir.»

Süleyman Rəhimov özünəməxsus olan bir təhkiyə ilə yazırdı:

«İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan, rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq istedadlı nasirlə mahir dramaturqu birləşdirib, birlikdə söykək-söykək qaldırır...»

Mehdi Məmmədov göstərirdi ki, İlyas Əfəndiyev «mövzu seçməyi, məntiqli süjet qurmağı, dramatik vəziyyətlər, xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrlə, yığcam dialoqlarda, əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır.»

İsmayıl Dağıstanlı isə, 1974-cü ildə yazırdı ki, Akademik Milli Dram Teatrımızın «son otuz ildəki inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil.»

Orasını da deyim ki, İsmayıl Dağıstanlının bu fikri söylədiyi vaxtdan sonrakı iyirmi iki il ərzində İlyas Əfəndiyevin həmin teatrın səhnəsində daha doqquz əsəri tamaşaya qoyulmuşdu...

Kamal Talıbzadə üçün «İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan» bir yazıçıdır, bəstəkar Səid Rüstəmova görə, İlyas Əfəndiyev «bütün əsərlərində» «al-əlvan rənglər, naxışlar» görünən, «zəngin təfəkkürə, geniş müşahidə qabiliyyətinə malik» «bəstəkar qəlbli sənətkar» idi.

Bu sitatları gətirdikcə gətirmək mümkündür. Cəfər Cəfərov və Məmməd Cəfər, Əli Vəliyev və Osman Sarıvəlli, Cəfər Xəndan və Əli Sultanlı, Mehdi Məmmədov və Əkbər Ağayev, Firidun Köçərli və Əzizə Cəfərzadə, Abbas Zamanov və Orucəli Həsənov və bir çox başqaları kimi tamamilə müxtəlif, bir-birindən fərqli qələm sahibləri, sonrakı ədəbi nəsillərin Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı, Bayram Bayramov və Bəkir Nəbiyev, Məsud Əlioğlu və Qulu Xəlilov, Cəlal Məmmədov və Əhəd Hüseynov kimi və bir çox başqa nümayəndələri, daha sonralar Xəlil Rza Ulutürk və Yaşar Qarayev, Seyfulla Əsədullayev və Təhsin Mütəllimov, Şamil Salmanov və Arif Səfiyev, Gülrux

Əlibəyli və İnqilab Kərimov, Çingiz Hüseynov və İslam İbrahimov, Arif Hacıyev və Abbas Hacıyev, Ədilə Səfərova və Həsən Quliyev, daha sonralar Aydın Məmmədov və Vilayət Quliyev, Kamil Vəliyev və İlham Rəhimli, Nizaməddin Şəmsizadə və Məryəm Əlizadə, Vaqif Yusifli və Akif Hüseynov, yenə də bir çox başqaları dəfələrlə İlyas Əfəndiyev yaradıcılığına müraciət etmiş və bu yaradıcılığı Azərbaycan xalqının XX əsrdəki tarixi və taleyi kontekstində yüksək qiymətləndirmişlər.

İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub İsmayılov, Aida Salahova, Yaşar Qarayev onun haqqında beş elmi monoqrafiya yazıb nəşr etdirmiş, XX əsr Azərbaycan nəsri və dramaturgiyasının, Azərbaycan ədəbi dilinin, Azərbaycan teatr sənətinin inkişafında İlyas Əfəndiyev yaradıcılığının rolunu və bədii-estetik xüsusiyyətlərini təhlil və tədqiq etmişlər. (*Yəhya Seyidov.* İlyas Əfəndiyev. Bakı, Azərnəşr, 1975; *Aida Salahova.* İlyas Əfəndiyevin yaradıcılığının poetikası. Bakı, «Yazıçı», 1984; *Yaşar Qarayev.* İlyas Əfəndiyev. Bakı, «Bilik», 1987; *Yaqub İsmayılov.* İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı, «Elm», 1991; *Yaşar Qarayev.* Xarı bülbülün nağılı. Bakı, Azərnəşr, 1995.) Əmin Əfəndiyevin tərtib etdiyi geniş biblioqrafik göstərici nəşr edilmiş (İlyas Əfəndiyev, Biblioqrafik göstərici. Bakı, Azərnəşr, 1985.), İlyas Əfəndiyevin yaradıcılığı haqqında dissertasiyalar müdafiə olunmuşdur. (A v t o r e f e r a t l a r: «*H.H.Nəsirov.* İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı, 1967; *B.A.Məmmədov.* İlyas Əfəndiyevin dramaturgiyası. Bakı, 1974; *İ.B.Salmanov.* Azərbaycan sovet ədəbiyyatında lirik-psixoloji dramların dil və üslub xüsusiyyətləri. İlyas Əfəndiyevin frazeologiyası əsasında. Bakı, 1983; *M.Ə.Əlizadə.* Lirik-psixoloji dramda qəhrəman problemi, İlyas Əfəndiyevin yaradıcılığı əsasında. Bakı, 1990 və s.)

Eyni zamanda, deməliyəm ki, İlyas Əfəndiyevin yaradıcılığından bəhs edən bu çoxsaylı məqalələr, istedadlı müəlliflərin ciddi tədqiqat əsərləri, təbii ki, Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında da az rol oynamamışdır.

Bəli, bütün bunlar belə idi.

Amma tamam səmimi deyirəm və istəyirəm ki, oxucular buna inansınlar: İlyas Əfəndiyevin, bəzən, özü haqqında yazılanları axıracan oxumağa hövsələsi çatmırdı və bu baxımdan onun üçün bəlkə də qat-qat artıq dərəcədə maraqlısı, bir insan və yazıçı kimi, onun hisslər aləmində daha artıq dərəcədə təsirlisi ardı-arası kəsilmədən gələn oxucu məktubları idi. Yeni bir əsəri nəşr olunanda (misal üçün, «Söyüdlü arx» romanı), yaxud yeni bir əsəri tamaşaya qoyulanda (1964-cü





ildə tamaşaya qoyulan «Sən həmişə mənimləsən»dən üzü bəri) isə poçtalyonlar hər gün onlarla, bəzən daha artıq oxucu məktubları gətirməkdən, o poçtalyonlardan birinin yadımda qalmış sözləri ilə desəm, onların «başmaqları yırtılırdı».

Bir də ki, tanınmaz-bilinməz adamların – oxucuların, tamaşaçıların (və xüsusən də qadınların!) – telefon zəngləri... Onların etibarla söylədikləri həyat tarixçələri... hisslərin etirafı... müşkül suallar... və bu suallara cavab axtarışları...

İlyas Əfəndiyevin xasiyyəti elə idi ki, bütün bunlarda onun üçün, hansısa bir iclasda, hansısa yüksək rütbəli bir çinovnikin, yaxud ədəbiyyat funksionerinin deyəcəyi tərifli sözdən, müqayisə olunmayacaq dərəcədə artıq bir hərarət – bəlkə də bu yerdə məhrəmlik sözünü işlətmək olar – var idi.

İlyas Əfəndiyev heç bir bəhanəni, bəraəti, səbəbi yaxına buraxmadan, şüurlu surətdə öz yazı masasının arxasındakı kreslonu – özünün vəzifə kreslosu seçmişdi, onun iş kabineti mənzilindəki iş otağı idi və belə bir seçim onun təbiətinin, xarakterinin çox təbii bir cəhəti, xüsusiyyəti idi.

233436

İlyas Əfəndiyevin ən yüksək vəzifəsi 1958-ci ildən 1961-ci ilin əvvəllərinə qədər işlədiyi Yazıçılar İttifaqının məsul katibi vəzifəsi olmuşdu (o zaman Yazıçılar İttifaqının rəhbərliyi sədrdən və məsul katibdən ibarət idi).

Yaxşı yadımdadı, bu vəzifəyə razılıq verməsi üçün, həmin ərəfədə Mehdi Hüseyn bir neçə gün axşamlar bizə gəlirdi, atamı dilə tuturdu, dost kimi xahiş edirdi, əsəbiləşib ədəbiyyat naminə tələb edirdi. O zaman Mehdi Hüseyn Yazıçılar İttifaqının məsul katibi işləyirdi və bir neçə gündən sonrakı plenumda İttifaqın sədri seçilməli idi, İlyas Əfəndiyev isə, orada dramaturgiya üzrə məsləhətçi işləyirdi və Mehdi Hüseyn sidq-ürəkdən istəyirdi ki, o, məsul katib vəzifəsinə gəlsin.

İlyas Əfəndiyev isə razılıq vermirdi və onun təkrar-təkrar dediyi söz indiyəcən mənim qulağımdadır:

– Mehdi, hərə gərək öz işi ilə məşğul olsun də!.. Mənimki yazı-pozudu!..

Təbiətən əsəbi bir adam olan Mehdi Hüseyn o saat partlaşıb alışırdı:

– Bəs, mənə yazı-pozunun dəxli yoxdu?

İlyas Əfəndiyev:

– Sən başqa... – deyib gülürdü.

Həmin gecələrdən birində Mehdi Hüseynin vəfalı həyat yoldaşı və İlyas Əfəndiyevin də çox hörmət etdiyi Fatma xanımın (mən tez-tez



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

onlarda olurdum və ona «Fatma xala» deyirdim) bir zəngindən və dediyi:

– İlyas, sən Allah, onu orada tək qoyma! – sözlərindən sonra məsul katib seçilməyinə razılıq verdi.

«O» – Mehdi Hüseyn.

«Ora» – Yazıçılar İttifaqı.

Fatma xanımın o zəngindən bir gün sonra Mehdi Hüseyn «ora» sədr, İlyas Əfəndiyev isə məsul katib seçildi.

Ömrünün son illərində qələmə aldığı bir məqalədə İlyas Əfəndiyev katiblik fəaliyyətinə başlamasını belə xatırlayırdı:

«Bu yaxınlarda çox sevdiyim Amerika yazıçısı Mark Tvenin «Məni necə deputat seçdilər» adlı hekayəsini təzədən oxuyurdum. O hekayə vaxtilə mənə özümün Yazıçılar İttifaqının necə katibi olduğumu xatırlatdı. Mən katib seçildiyimin lap ilk günü İttifaqın çox hörmət etdiyimiz işlər müdiri poçtanı gətirib mənə təqdim etdi. Bir neçə məktub, teleqram və sairə verib, iki bağlı konverti saxladı. Mən dedim:

– Onları da açın, görək, nə var?

İşlər müdiri həmişəki kimi ciddi cavab verdi:

– Yoldaş İlyas, bu məktublar sizə aid deyil.

Mən təəccüblə soruşdum:

– Niyə?

– Çünki siz partiyaçı deyilsiniz!

– Deməli, bu məktubları ancaq partiyaçı katib oxuya bilər?

– Bəli!»

Beləcə fantasmoqorik iş günündən yeddi il sonra, 1965-ci ilin soyuq bir mart günündə Mehdi Hüseyn elə «oradaca» öz kabinetində haqq dünyasına köçdü...

İlyas Əfəndiyev isə bir müddət yeni vəzifəsində işləyəndən sonra, getməyi barədə söz saldı və 1960-cı ilin ortalarından etibarən işə çıxmadı. Sonralar İlyas Əfəndiyev ömründəki yeganə «vəzifədə» işləməyini belə xatırlayırdı:

«Ədəbi əsərlərin yüksək bədii keyfiyyəti, səmimiliyi uğrunda nələr etmək, qrafoman əsərlərlə necə mübarizə aparmaq haqqında, tarixi keçmişimizin bədii ədəbiyyatda əksi haqqında düşünürdüm. Lakin bütün bunlar barəsində tezliklə partiyaçı «yuxarı» ilə aramızda gizli konfliktlər başladı. Məsələn, mən «avtoritetli» müəllifin filan nəşriyyatda təzə çapdan çıxan filan «romanını» və ya «poemasını» oxuyub görürdüm ki, sünidir, quraşdırmadır. Fikirləşirdim ki, yazıçılar məclisində müzakirə eləyib, qüsurlarını göstərsək, başqalarına da görk olar. Müəllif yanıma gəlib, məmnun halda, əsərinin «yuxarıda» çox





bəyənildiyini, yoldaş «rəhbərlərin» onu təbrik elədiyini söyləyirdi və bu söhbətdən çox keçməmiş görürdün ki, «Kommunist» qəzetində elə ağlasığmaz təriflərlə dolu bir məqalə çıxdı ki, adamın matı-qutu qurudu. Doğrusu, bu, mənim vəzifə borcuma toxunduğu və özümü, bir növ, təhqir olunmuş hiss elədiyim üçün, redaktora zəng eləyib soruşurdum ki, siz özünüz o əsəri oxumusunuz?

Redaktor:

– Vallah, doğrusu, özüm oxumağa vaxt tapa bilməmişəm, gecə-gündüz rəsmi materiallarla məşğulam. Ancaq «yuxarıda» oxuyublar. Çox xoşlarına gəlib, – deyirdi.

... Bir gün öz-özümə haqq-hesab verdim ki... məndən İttifaqa nə xeyir dəyib və özüm nə yazmışam? Baxıb gördüm ki, bu sualların cavabı çox yarıtmazdır. Ona görə də, günlərin birində papağımı götürüb, heç kəsə heç nə demədən çıxıb getdim.»

Və həmin gündən sonra İlyas Əfəndiyev Yazıçılar İttifaqında işə çıxmadı.

O, əslində, mehriban adam idi (düzdü, özü bunu büruzə vermirdi və ümumiyyətlə, İlyas Əfəndiyev hisslərin ifadəsi baxımından, əgər belə demək mümkünsə, qapalı adam idi, kimisə öz hisslər aləminə yaxınlaşdırmaqla arası yox idi, o aləm yalnız onun özünə məxsus idi), amma hərdən möhkəm sərtliyi də var idi və bir dəfə axşam eləcə bir sərtliklə telefonla Mehdi Hüseynə dediyi sözlər həmişəlik mənim yaddaşıma hopub:

– Bilirsən nə var, Mehdi? Birtərəfli dostluq olmaz! Mən ömrümün üç ilini «orada» çürütdüm! Daha bəsdir! İndi sən də yaxşı dost ol, get, yuxarıda mənim məsələmi həll elə! Mən işə çıxmayacağam!

«Yuxarı» – yəni ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və orada da İlyas Əfəndiyevin getməyinə razılıq vermirdilər, yəqin o «gizli konfliktin» aşkar olmasına ehtiyac yox imiş... Söhbət, əlbəttə, Mərkəzi Komitədə işləyən ayrı-ayrı adamlardan yox, Sistemdən gedir.

Yaxşı yadımdadır, bir gün Mərkəzi Komitənin ideoloji işlər üzrə katibi və İlyas Əfəndiyevin də xətrini istəyən Nazim Hacıyev evimizə telefon açdı, İlyas Əfəndiyevlə xeyli söhbət edib, onu yola gətirmək, hətta, şirnikləndirmək («İttifaqın məsul katibini deputat verəcəyik!») istədi, amma bir şey çıxmadı.

Mehdi Hüseyn ilə o zaman Mərkəzi Komitənin birinci katibi işləyən Vəli Axundovun hələ xeyli əvvəllərdən yaxın münasibətləri var idi və mən atamla Mehdi Hüseynin oğlu Əlinin ad günlərinə gedəndə, Vəli Axundov da həyat yoldaşı Sara xanımla həmişə onlarda olardı. Bunu

ona görə xatırlayıram ki, Nazim Hacıyevin zəngindən bir-neçə gün sonra, çox güman, Mehdi Hüseynin təhriki ilə Vəli Axundov evə telefon açıb İlyas Əfəndiyevlə söhbət etdi, işdən çıxmaq istəməyinin səbəbini soruşdu. İlyas Əfəndiyev:

– Ancaq bir səbəb var: yaradıcılıqla məşğul olmaq istəyirəm, – dedi, amma çox da qəti dedi.

Bundan sonra, yalnız 1961-ci ilin ortalarında, təxminən doqquz ay işə çıxmayandan sonra İlyas Əfəndiyevi vəzifəsindən azad etdilər və o yerə, İlyas Əfəndiyevin Mehdi Hüseynə tövsiyəsi ilə, rəhmətlik İmran Qasımov seçildi və bir azdan, həqiqətən də, o, Azərbaycan SSR Ali Sovetinin deputatı «seçildi».

Orasını da deyim ki, xeyirxah bir insan, dostların, tanışların, lap uzaqdan-uzağa tanışların belə, hər mənada «təcili yardımı» olan İmran Qasımovla da İlyas Əfəndiyev lap gənclık çağlarından istiqanlı bir münasibətdə idi və həmişə cavanlıqda tez tez İmrangilə getməklərini, İmranın atası Həşim kişinin baməzə işlərini xüsusi bir şövq ilə danışırdı.

Tale belə gətirdi ki, mən 1975-ci ildə, 32 yaşında ikən – o zaman Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində işləyirdim – Yazıçılar İttifaqının katibi seçildim və SSRİ respublikalarındakı Yazıçılar İttifaqlarının ən gənc katibi oldum, özüm də vaxtilə İlyas Əfəndiyevin oturduğu kabinetdə oturdum.

Bu, elə bil ki, hərdən İlyas Əfəndiyevə həyatın qəribə işlərindən biri kimi görünürdü və hərdən də mənə deyirdi:

– Vallah, sən gül kimi Akademiyadan nahaq «ora» getdin. Səhərdən axşamacan intriqalar, o, bundan deyir, bu, ondan deyir, boş-boş da iclaslar!.. – Sonra gülümsəyib deyirdi: – Düzdü e, Akademiyada da boş iclaslar az olmur...

Həmin 1961-ci ildən 1996-cı ilin 3 oktyabrına – ömrünün son gününə qədər İlyas Əfəndiyev heç yerdə işləmədi və onun ən çox xoşlamadığı, ürəyini darıxdıran şey – iclas idi və demək olar ki, heç bir iclasa getmirdi, çox nadir hallarda, xüsusi bir səbəb olanda gedirdi.

Bəxtiyar Vahabzadənin müşahidəsi dəqiqdir:

«İlyas Əfəndiyev həmişə yazıb-yaratmışdır. Onun gurultulu məclislər, təntənəli yığıncaqlarla arası yox idi. Onun «sakit» fəaliyyəti həmişə oxucu və tamaşaçılar üçün partlayış və güclü sevinc gətirmişdir.»

İlyas Əfəndiyev yalnız Azərbaycanın yox, Sovet İttifaqının barmaqla sayılacaq çox az yazıçılarından biri idi ki, Kommunist Partiyasının üzvü deyildi.





Düzdü, İlyas Əfəndiyev SSRİ-nin demək olar ki, mülki şəxslərə verilən bütün ordenlərini – Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf Nişanı – almışdı, xalq yazıçısı, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı idi, amma bunların bir çoxu onun özü üçün də gözlənilməz olmuşdu. Xasiyyətində təbii bir qürur olan İlyas Əfəndiyev, bu mükafatlara qarşı həqiqətən biganə idi.

İndi çoxları belə deyir: guya, sovet mükafatlarına, ümumiyyətlə, bütün mükafatlara qarşı biganədirlər, onlar üçün əsas mükafat xalqın məhəbbətidir və s. və i.a.

Mən 70–80-ci illərdə, dediyim kimi, Yazıçılar İttifaqının katibi işləmişəm, sonra da başqa vəzifələrdə olmuşam və bu «biganələrin» həmin mükafatları almaq üçün hansı dəridən-qabıqdan çıxdıqları, bəzilərinin hansı şərəfsizliyə belə, getdikləri mənim gözlərimin qabağındadı...

Ancaq mən mövzumdan uzaqlaşmayım.

Bir dəfə söhbət düşəndə İlyas Əfəndiyev mənə dedi:

– Bəyəm, Füzuliyə Lenin ordeni vermişdilər?

Amma elə bilirəm ki, mənim ona verdiyim cavabda da bir az həqiqət var:

– Füzulinin dövründə Lenin ordeni yox idi. Olsaydı, verərdilər...

Bəlkə də yanılırdım? Bilmirəm...

Yeri düşmüşkən, bir hadisəni də qeyd etmək istəyirəm.

1984-cü ildə İlyas Əfəndiyevin 70 yaşı tamam olurdu və həmin ərəfədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi rəhmətlik Kamran Bağırov məni yanına dəvət etdi (bu da qəribə bir ənənəyə çevrilmişdi ki, lap cavan yaşlarımdan etibarən, «yuxarılar» atamla bağlı bir məsələ olanda, onun özünü yox, məni dəvət edib, sözlərini mənə deyirdilər). Kamran Bağırov, açıq-aşkar hiss olunan bir təəssüf hissi ilə və tamam səmimi şəkildə mənə dedi ki, çox çalışmasına baxmayaraq, Sov.İKP Mərkəzi Komitəsi İlyas Əfəndiyevə Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə razı olmur.

– Mən bu məsələdən ötrü Qorbaçovun yanınacan gedib çıxdım (o zaman Baş katib Çernenko, Qorbaçov isə katib idi. – *E.*). Dedi ki, 70 yaşına qədər heç Sov.İKP-yə üzv də olmayan bir yazıçıya biz Sosialist Əməyi Qəhrəmanı adını necə verək? – mədəni bir adam olan Kamran Bağırov az qala üzrxahlıq edirdi...

Doğrusu, bu söhbət mənim üçün gözlənilməz oldu, çünki o vaxta qədər belə bir söz eşitməmişdim və axşam İlyas Əfəndiyevin yanına gedib bu əhvalatı ona danışanda, bərkdən şaqqanaq çəkib güldü:

– Bəlkə ərizə verib Kommunist Partiyasına girim?

İlyas Əfəndiyevin indiyəcən mənim qulağımda olan o şaqqanağı, o dəm, Çernenkoya da, o ada da, Kommunist Partiyasına da sidq-ürəkdən gələn bir lağın, istehzanın ifadəsi idi və həmin axşam biz yaxşıca konyak içib ədəbiyyatdan, sənətdən, necə deyərlər, İrandan, Turandan xeyli söhbət etdik.

70 illiyində isə Lenin ordeni aldı.

Ancaq yalnız bir orden – Azərbaycanın «Şöhrət» ordeni onu həqiqətən sevindirmişdi. Bəlkə də «sevindirmişdi» sözünü bu yerdə mən bir o qədər də dəqiq işlətmirəm, «fərəhlənirdi» demək daha düz olardı, həm də, əslində, Azərbaycan üçün fərəhlənirdi, Azərbaycanın müstəqilliyinə görə, Azərbaycan dövlətinin öz ordeni olduğuna görə.

İlyas Əfəndiyev müstəqil Azərbaycanın Dövlət ordenini alan ilk yazıçı, ümumiyyətlə, ilk mədəniyyət xadimi idi və bu yerdə mən ən səmimi surətdə Heydər Əliyevin adını çəkmək istəyirəm.

Heydər Əliyev həmişə İlyas Əfəndiyevə qarşı diqqətli olmuşdu və hələ 1980-ci ildə deyirdi:

«İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm neftçilərin qəhrəman əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks etdirilmişdir. Öz yaradıcılığında yazıçı cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır. O öz sənətkarlığı ilə zəhmətkeşlərin mənəvi tərbiyəsində fəal iştirak edir.»

Və İlyas Əfəndiyev də həmişə Heydər Əliyevə böyük hörmətlə yanaşırdı.

İlyas Əfəndiyev vəfat etdiyi gün Heydər Əliyev Sərəncam verərək Baş nazirin birinci müavini Abbas Abbasovun sədrliyi ilə Rəfael Allahverdiyev (Bakı şəhər icra hamiyyətinin sədri), Ağa Bala Hacıyev (Nazirlər Kabineti İşlər idarəsinin müdiri), İsmayıl Sadıqov (Nazirlər Kabineti Elm, mədəniyyət və təhsil şöbəsinin müdiri), Polad Bülbüloğlu (Mədəniyyət naziri), Anar Rzayev (Yazıçılar Birliyinin sədri) və Çingiz Abdullayevdən (Yazıçılar Birliyinin katibi) ibarət «İlyas Əfəndiyevin dəfnini təşkil etmək üçün Hökumət Komissiyası» yaratdı və səhərisi gün – 4 oktyabrda Şəhriyar adına Mədəniyyət Mərkəzində İlyas Əfəndiyevlə son vida mərasimi keçirildi.

O mərasimdə iştirak edən Heydər Əliyev mənə başsağlığı verərkən bu sözləri də dedi:





– Xalqımız böyük sənətkarını itirdi...

Akademik Dövlət Milli Dram Teatrının təmiri çox uzandığına görə, İlyas Əfəndiyev özü həmin teatrın səhnəsində tamaşaya qoyulan on doqquzuncu əsərinin – «Hökmdar və qızı» tamaşasını görə bilmədi. İlk tamaşa onun vəfatından düz qırx dörd gün sonra – 1996-cı ilin 17 noyabrında böyük müvəffəqiyyətlə göstərildi (o vaxtdan da bu günə kimi səhnədədir!) və 1997-ci il sentyabrın 20-də Heydər Əliyev gəlib o tamaşaya baxdı, əsəri çox yüksək qiymətləndirdi, tamaşadan sonra yaradıcı heyətlə görüşərək dedi:

«Şübhəsiz ki, biz bu gün, ilk növbədə, əsərin müəllifinin – böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik...

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu məsələlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün, qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri – bu gün sizin təqdim etdiyiniz əsər həyatımız üçün çox əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yeni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcədə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız, – o cümlədən mənə də, – heç hiss etmədim ki, nə qədər vaxt keçibdir. Bu da ona görədir ki, birincisi – əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İlyas

Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir...» («Azərbaycan» qəzeti, 23 sentyabr 1997.)

Bir müddət keçdikdən sonra, Heydər Əliyev «İ.M.Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında» 2001-ci ilin 9 martında Sərəncam imzaladı və İlyas Əfəndiyevin «Seçilmiş əsərləri»nin bu nəşri də elə həmin Sərəncamın sayəsində işıq üzü görür.

Ancaq mən, deyəsən, yenə də bayaqkı mövzumdan uzaqlaşdım...

Yadıma gəlir, «Körpüsalanlar» povestini İlyas Əfəndiyev 1959-cu ilin sonunda yazıb bitirmişdi və unudulmaz Sona xanımın – mən gözümü açandan Yazıçılar İttifaqında işləyən və İlyas Əfəndiyevin ərəb əlifbası ilə xəttini oxuyan yeganə makinaçının çap etdiyi əlyazmanın ilk oxucusu mən oldum. O zaman 10-cu sinifdə oxuyurdum və «Körpüsalanlar»ın romantikası, o əsərdəki lirika, psixoloji məqamlar mənə çox təsir etmişdi, hətta, o qədər təsir etmişdi ki, bunu atamdan gizlətməyə çalışırdım...

İlyas Əfəndiyev «Körpüsalanlar»ı da, başqa əsərləri kimi, əvvəlcə «Azərbaycan» jurnalına vermək istəyirdi.

Ancaq hər şey başqa cür oldu.

O zaman ən nüfuzlu qəzet Azərbaycan Kommunist Partiyasının orqanı olan «Kommunist» qəzeti idi və o qəzetin redaktoru rəhmətlik İsrafil Nəzərov həmin ərəfədə İlyas Əfəndiyevdən qəzet üçün bir yazı istədi. İlyas Əfəndiyev isə ayrıca bir yazı yazmağa vaxtı və həvəsi olmadığı üçün, «Körpüsalanlar»dan kiçik bir parça seçib ona göndərdi (orası da yadımdadı ki, həmin parçanı mən aparıb İsrafil Nəzərovun katibəsinə verdim).

Bir gündən sonra, İsrafil Nəzərov dedi ki, parça çox xoşuna gəlib və povestin hamısını oxumaq istəyir. İlyas Əfəndiyev əsəri ona göndərdi və təxminən on-on beş gündən sonra İsrafil Nəzərov İlyas Əfəndiyevə telefon açdı, dedi ki, bütün redaksiya heyəti povesti oxuyub, çox xoşlarına gəlib və qərara alıblar ki, əsəri nömrədən nömrəyə əvvəldən axıracan çap etsinlər.

Bu, o zaman üçün çox əlamətdar bir hadisə idi, çünki «Kommunist» qəzeti o vaxta qədər belə böyük əsər dərc etməmişdi, belə bir ənənə yox idi.

Beləliklə, 1960-cı ilin 7 sentyabrından başlayaraq «Körpüsalanlar» «Kommunist» qəzetində çap olunmağa başladı və oxucular arasında geniş əks-səda doğurdu.

İlyas Əfəndiyev Füzulidə coğrafiya müəllimi işləyəndə, onunla birlikdə Qulam adlı bir müəllim də eyni məktəbdə dərs deyirmiş və onlar yaxın dost imiş. Sonra rayonun «təşəbbüskar bolşevikləri» Qulam





müəllimi «xalq düşməni» kimi ifşa edir və onu Sibirə göndərirlər. Mən uşaq vaxtı evimizdə Qulam müəllim haqqında çox eşitmişdim: «Görəsən, başına nə iş gəldi? Sağdı? Yoxsa güllələyiblər?» – nənəmin, atamın, Qulam müəllimin şagirdi olmuş kiçik bibim Nəzihənin o pıçıltısını, elə bil, indi də eləcə eşidirəm. 1956-cı ilin mənim üçün tamam heyrətamiz bir günündə Sibirdən sağ-salamat qayıtmış Qulam müəllim birdən-birə bizim qapımızı döydü...

Deyəsən, qələm məni yenə başqa istiqamətə aparır...

Uzun sözün qısası, Qulam müəllim uzun müddət işsiz qaldı, axırda Bakıdakı qəzet köşklərindən birində satıcı işləməyə başladı və o rəhmətlik həmin o 1961-ci ilin sentyabr ayında fasilə vaxtı tez-tez bizə gəlirdi və Bilqeyis xanımın açdığı balaca süfrənin arxasında oturub «Körpüsalanlar»a qədər köşkdə yatıb qalan «Kommunist» qəzetinin səhər-səhər yarım saatın içində satılıb qurtardığını, camaatın isə, elə hey «Kommunist» istədiklərini xüsusi bir ləzzətlə danışırdı.

Ancaq on üç nömrədən sonra, əsər yarıya çatmış, sentyabrın 21-də qəzet birdən-birə elan dərc etdi ki, povestin çapını dayandırır.

Bu – İlyas Əfəndiyev üçün həm gözlənilməz oldu, həm də əsərin beləcə yarımçıq qalması, təbiidir ki, ona ağır təsir etdi.

Sonra məlum oldu ki, povestin çapı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun tapşırığı ilə dayandırılıb və bu hadisə İsrafil Nəzərovun özünü də çox pərt edib.

Yadıma gəlir, həmin sentyabr axşamlarından birində İsrafil Nəzərov, İlyas Əfəndiyevə ürək-dirək vermək üçün bizə gəldi, oturub bir az yeyib-içdilər və iş elə gətirdi, söhbət elə alındı ki, İlyas Əfəndiyev özü İsrafil Nəzərova ürək-dirək verməyə başladı...

Bir müddət keçdikdən sonra, Azərbaycan mətbuatında «Körpüsalanlar»a qarşı Stalinin ölümündən sonra Azərbaycan ədəbi həyatında misli görünməmiş bir cəhalət hücumu kampaniyası və həmin kampaniyanın yaratdığı ajiotaj başladı: əsərin bədii-estetik cəhətləri qaldı bir tərəfdə və Stalin dövrünə məxsus bir vulqar-sosioloji cəbhədən, sovet cəmiyyətinin mənəvi qələbələr əldə etdiyi bir zamanda bu povestdə «əxlaq normaları pozulur», «müasir əxlaq normasından kənara çıxan sərbəst hərəkətlərə» yol verilir, «Səriyyə Qəribcanla hadisələrin əvvəlindən sonuna qədər açıq-saçıq bir şəkildə, təsəvvürə sığışmayan (! – *E.*) bir tərzdə davranır» (Səriyyə haqlıdırmı? «Ədəbiyyat və incəsənət» qəzeti, 17 iyun 1961; «Sevil»dən «Saçlı»ya», «Azərbaycan» jurnalı, 1962. və s.) deyə, povest nadan mülahizələrlə «ifşa» edilirdi, hətta, iş o yerə gəlib çıxmışdı ki, misal üçün, «Azərbaycan qadını»

jurnalı «Körpüsalanlar»ı «ifşa» edən xüsusi rubrika açmışdı və nömrədən-nömrəyə təşkil etdiyi «hiddətlənmiş oxucu məktubları» çap edirdi.

Müharibədən sonrakı dövr Azərbaycan ədəbi tənqidini və ümumiyyətlə, ictimai fikrini tədqiq edərkən, elə bilirəm ki, həmin illərdə ortaya çıxmış «Səriyyə məsələsi» xüsusi əhəmiyyət kəsb edir və ən başlıcası isə, bir tərəfdən vulqar-sosioloji təfəkkür tərzində, digər tərəfdən isə, yalançı xəlqilik konsepsiyasının süqutu üçün dönüş mərhələsi təşkil edir.

«Körpüsalanlar» və bu povestin qəhrəmanı Səriyyə obrazı həm bədii-estetik cəhətdən, həm də mövzu baxımından Azərbaycan nəsrində tamam yeni bir hadisə idi və özü ilə keyfiyyət dəyişikliyi gətirdi, ədəbi mərhələyə çevrildi, eyni zamanda, ədəbi tənqiddə həmin dediyim dönüş mərhələsinin yaranmasına səbəb oldu.

İlyas Əfəndiyev yaradıcılığının ən səriştəli tədqiqatçılarından biri, bizim gözəl tənqidçimiz Yaşar Qarayev yazırdı: «Söyüdlü arx» (1958), «Körpüsalanlar» (1960), «Dağlar arxasında üç dost» (1963) – bu əsərlərdə ifadə olunan yenilik, hər şeydən əvvəl, müəllifin «müsbət qəhrəman» və «mənəvi gözəllik» anlayışını o illərin stereotip ölçü, qəlib və normalarından fərqləndirən cəhətlərdə idi. Belə ki, müəllif bilavasitə mövcud ədəbi ənənədən yox, həyatdan, ictimai və mənəvi-əxlaqi inkişafda yeni mərhələnin formalaşdırdığı nəslin üzərində müşahidələrdən çıxış edərək, müasir insan, məişət və əxlaq haqqında öz anlayışlarını irəli sürürdü.» («Xarı bülbülün nağılı», Bakı, 1995, səh. 19.)

Mən «Körpüsalanlar»a qarşı həmin qaragüruh hücumunun təfərrüatına varmaq istəmirəm, onsuz da, aradan keçən bu qırx il hər şeyi yerbəyer etdi, bu gün oxucular ən müxtəlif dillərdə «Körpüsalanlar»ı oxuyurlar, onun haqqında o vaxt Azərbaycan mətbuatını dolduran o cahil və nadan mülahizələr isə, indi yalnız təbəssüm doğurur, – bundan artıq deyil.

Maraqlananlar isə, o dövrün mətbuatına baxa bilərlər və mən özüm də vaxtilə ədəbiyyatımız üçün bu prinsipial məsələ ilə bağlı ətraflı yazmışam. (Ədəbi tənqid və xarakter məsələsi. ADU-nun elmi əsərləri, Dil və ədəbiyyat seriyası, 1968, 2.; Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, 1981, səh. 174 – 189.)

Yuxarıda dediyim ədəbi tənqiddəki həmin «dönüş mərhələsi»nin prinsipial xarakterini göstərən cəhətlərdən biri bu idi ki, Məmməd Arif (Keçən ilin nəsri haqqında qeydlər. «Ədəbiyyat və incəsənət» qəzeti, 25 mart, 1961), Məmməd Cəfər (Həyatın romantikası. Bakı, 1968, səh. 149.) və başqaları kimi nüfuzlu qələm sahibləri «Körpüsalanlar»a qarşı nadan hücumlara tutarlı cavablar verdi.





Yalnız bir misal gətirmək istəyirəm: Cəfər Cəfərov Azərbaycan yazıçılarının IV qurultayında «Ədəbi tənqid haqqında» söylədiyi məruzəsində, bu tənqidçiyə xas olan bir açıqlıqla deyirdi: «Körpüsalanlar» povesti ilə əlaqədar olaraq özünü göstərən avamlıqlara yol verilməməli, vaxtilə Mustafa Quliyevin dediyi «müsəlman tənqidinin» qalıqları ilə mübarizə edilməlidir.» (Əsərləri. İki cilddə, 2-ci cild, Bakı, 1968, səh. 388 –389.)

Mən «Körpüsalanlar»a qarşı bu qaragüruh hücumunu ona görə xatırladım ki, İlyas Əfəndiyev belə gərgin bir vaxtda da o yazılara xüsusi əhəmiyyət vermirdi və onun üçün yenə də oxucuların məktubları qat-qat artıq dərəcədə maraqlı idi. Oxucular isə, «Körpüsalanlar»la bağlı ardı-arası kəsilmədən məktublar yazırdı və qəribə bir ehtirasla Səriyyəni müdafiə edirdilər.

Əlbəttə, onlar «Azərbaycan qadını» jurnalının «təşkil etdiyi» oxucular deyildi...

Bu sətirləri yazarkən, kiçik bir hadisə də yadıma düşdü.

O zaman mən gənc idim, universitetin ilk kurslarında oxuyurdum və atamdan fərqli olaraq, o qaragüruh hücumu mənə çox təsir edirdi. «Azərbaycan qadını» jurnalında çap olunan və Səriyyə surətini «ifşa» edən məktublardan birinin müəllifinin müəllimə olduğu göstərilirdi. Mən soraqlaşıb o müəllimənin dərs dediyi məktəbə telefonla zəng etdim və məlum oldu ki, həmin məktəbdə o adda müəllimə işləmir. Bunu atama danışdım və dedim ki, bu məsələni açmaq lazımdı, qoy redaksiya cavab versin ki, bu müəlliməni haradan tapıb, niyə belə təxribatlarla məşğuldu?

İlyas Əfəndiyev gülə-gülə:

– Əşşi, sənin də işin qurtarıb də!... – dedi və bununla elə mən özüm də sakitləşdim (sonralar da onun məni beləcə «sakitləşdirmələri» çox olub...).

O dövrün kontekstində mənim üçün çox maraqlı görünən və ədəbi tənqiddəki bayaq dediyim həmin «dönüş mərhələsi» baxımından əhəmiyyətli olan bir məsələni də qeyd etmək istəyirəm: «Körpüsalanlar»a qarşı Azərbaycan KP MK Bürosunun təzyiqi ilə «Kommunist» qəzetindəki dərcin dayandırılmasından sonra başlayan hücum kampaniyası ictimaiyyətdə elə bir ajiotaj yaratdı, elə bir çaxnaşma saldı, oxucuların, aparıcı tənqidçilərin bu əsəri müdafiəsi elə bir müstəviyə gəlib çıxdı ki, sözün əsl mənasında, ədəbi-ideoloji bumeranqa çevrildi və o «ifşa» məqalələri Azərbaycan KP MK-nın 29 avqust 1962-ci il tarixli plenumunda, eləcə də Yazıçılar İttifaqı partiya təşkilatının yığıncağında çox ciddi tənqid olundu. (Bax: «Ədəbiyyat və incəsənət»

qəzeti, 1 sentyabr 1962-ci il; «Ədəbiyyat və incəsənət» qəzeti, 15 sentyabr 1962-ci il.)

İlyas Əfəndiyev üçün bu – oxucularının qələbəsi idi.

Mənim üçün qiymətli cəhətlərdən biri odur ki, İlyas Əfəndiyevin vəfatından keçən bu beş ildə, onun haqqında sağlığında olduğundan daha artıq yazılıb.

Yalnız elə onun xatirəsinə həsr edilmiş «Sən həmişə bizimləsən» kitabına (Bakı, «Gənclik», 1999.) ədəbiyyatımızın, mədəniyyətimizin ağbirçək və ağsaqqalları Mirvarid Dilbazidən, Tofiq Quliyevdən, Qılman İlkindən, Leyla Bədirbəylidən, Əziz Mirəhmədovdan, Kamal Talıbzadədən, Süleyman Ələsgərovdan, Bəxtiyar Vahabzadədən, Nəbi Xəzridən, Hüseyn Abbaszadədən, Qabildən və başqalarından tutmuş Yazıçılar İttifaqının sürücüsü Kərbəlayı Əliyə qədər 70-dən çox müəllifin ən səmimi hisslərinin ifadəsi olan məqalələri, esseləri, şerləri, çıxışları toplanmışdır və mən fürsətdən istifadə edib onların hamısına, eləcə də o kitabı tərtib etmiş qələm dostlarım Dilsuza və Abid Tahirliyə ailəmizin təşəkkürünü bildirirəm.

İlyas Əfəndiyevin vəfatından sonra yazılmış o esselərdən, məqalələrdən, xatirələrdən bəzi kiçik fraqmentləri oxuculara təqdim etmək istəyirəm.

«İlyas Əfəndiyevin dili başdan-başa musiqidir» – deyən və uzun illər boyu onunla, necə deyərlər, «az-az görüşən, tez-tez yada düşən» dost olan bəstəkar *Tofiq Quliyev:*

«İlyas Əfəndiyev qüdrətli sənətkar idi.
İlyas Əfəndiyev qayğıkeş ata idi.
İlyas Əfəndiyev gözəl baba idi.
İlyas Əfəndiyev yaxşı dost idi.
Sənətsevərlər qüdrətli sənətkar itiriblər.
Oğulları qayğıkeş ata itiriblər.
Nəvələri gözəl baba itiriblər.
Mən də yaxşı dost itirmişəm. Heyf, çox heyf.
Allah ona rəhmət eləsin.»

Rəssam *Tahir Salahov:*

«Elə sənətkarlar var ki, yaratdığı əsər, fərqi yoxdur, pyes olsun, tablo olsun, musiqi olsun, insanı düşündürür, onun hisslərinə hakim kəsilir, gözəlliklər aləminə çəkib aparır, haqq-ədalət uğrunda mübarizəyə səsləyir, həqiqəti axtarıb tapmaqda ona kömək edir. Mənim hörmətli dostum İlyas Əfəndiyev də belə sənət adamı idi.»

*Leyla Bədirbəyli:*

«İlyas müəllimin yoxluğundan ürək ağrısı ilə söhbət açanda, daha





qüvvətli bir duyğu qəlbimi bürüyür: İlyas müəllim yaşayır, Azərbaycan xalqı kimi, Cəfər Cabbarlı kimi, Üzeyir Hacıbəyov kimi, Hüseyn Cavid kimi...»

Akademik *Fərəməz Maqsudov:*

«Mən «Hökmdar və qızı» pyesinə İlyas müəllimsiz baxmışam. Tamaşa, eyni zamanda, İlyas müəllimin yoxluğu mənə bərk təsir etdi. Milli Akademik Dram Teatrından çıxanda bir də baxdım ki, Fəxri Xiyabanda, İlyas müəllimin məzarı önündə dayanmışam...

Gecə vaxtı məni bura çəkib gətirən, heç şübhəsiz ki, İlyas müəllimin şəxsiyyəti və sənətinin gücü idi...

Qəribədir, Fəxri Xiyabandan ayrılarkən birdən-birə mənə elə gəldi ki, İlyas müəllim gələcəkdən – iyirmi birinci, iyirmi beşinci, bəlkə də otuzuncu əsrdən gəlmiş bir insandır.

Biz – yeni-yeni nəsillər onun öz əsrində (yəni bütün əsrlərdə!) onunla həmişə yenidən görüşəcəyik...»

*Polad Bülbüloğlu:*

«Nə İlyas müəllimin dəfnində, nə də teatrın açılışında mən böyük ağsaqqalımıza demək istədiyim sözləri deyə bilmədim. Kövrək hisslər məni bürüdü. Gözlərim doldu. Sözlər qırıq-qırıq oldu. Amma indi, elə həmin ovqatla demək istədiklərimi ağ vərəqlərə köçürə bilirəm:

– İrəliyə baxın, əziz İlyas müəllim! Və inanın ki, nə qədər səhnəmiz var, o heç vaxt Nərminsiz, Kamransız, Nargiləsiz, Natəvansız – qəribə talelər yaşayan, mahnıları ulu dağlarda qalan insanlarsız olmayacaq. Xoşbəxt ruhunuz həmişə səhnəmizin divarları arasında, başımızın üstündə olacaq!

Rahat yatın, ustad!
Siz həmişə bizimlə olacaqsınız!»

*Həsənağa Turabov:*

«Azərbaycan milli teatr sənəti möhtəşəm bir binadır. Bu sənət sarayı «Axundov teatrı» təməli üzərində yüksəlirsə, onun özünəməxsus mərtəbələrini «Mirzə Cəlil teatrı», «Hüseyn Cavid teatrı», «Cəfər Cabbarlı teatrı» təşkil etməkdədir. Aydın məsələdir ki, milli dramaturgiyamızdakı imzalar çoxdur, amma müəllifin adı yalnız o zaman müstəqil teatr lövhəsinə yazılır ki, yazar öz taleyini məhz teatrla bağlasın, Belinskinin təbirincə desək, «teatrda doğulsun və teatrda da ölsün». Burada fiziki ölüm yeni – mənəvi, bədii, sənət həyatına keçid kimi anlaşılır və hər hansı sənətçidən ötrü bundan xoşbəxt tale yoxdur...

İlyas Əfəndiyev ömrü boyu bu xoşbəxtliyə doğru getməkdəydi və sonuncu niyyəti onu arzuladığı mənzilə çatdırdı.

Çünki Azərbaycan milli teatr sənətinin ulu binasının ən incə, lirik,

həssas və qeyrətli mərtəbəsi artıq «İlyas Əfəndiyev teatrına» məxsusdur...»

*Vaqif Bayatlı Önər:*

«Əziz İlyas müəllim! Siz çiyinlərinizi, ürəyinizi, həyatınızı verib Azərbaycanı XXI yüzilliyin astanasına gətirib çıxardınız...»

Bəlkə də sitatları həddən artıq gətirdim, amma buna məni o yazıların (həm də yalnız sitat gətirdiklərimin yox, hamısının!) səmimiliyi, orada ifadə olunan hissiyyatın saflığı sövq etdi, çünki o səmimilik də, o hissiyyat saflığı (və zənginliyi!) da İlyas Əfəndiyevin özünün təbiətinə çox xas olan bir cəhət idi və başqalarında da həmin səmimiyyəti, həmin hissiyyatı yüksək qiymətləndirirdi.

Mən İlyas Əfəndiyev haqqındakı xatirələrdən, məqalələrdən bu kiçik parçaları ağ kağıza köçürürəm və qoca Abbas Tufarqanlının fikrimin dərinlərində həmişəlik ilişib qalmış iki misrasını eşidirəm:

Bu dünya karvansaradı,
Hər gələn qonar, əylənməz...

O xatirələr, məqalələr, esselər müəlliflərinin də bir işıqlı qismi bu gün artıq haqq dünyasındadı...

Vəfatından sonra İlyas Əfəndiyevdən bəhs edən böyük albom nəşr olundu (Bakı, «İşıq», 1996.), Əmin Əfəndiyev «İlyas Əfəndiyevin yaradıcılığı» mövzusunda doktorluq dissertasiyası müdafiə etdi və həmin dissertasiya əsasında yazılmış eyni – adlı monoqrafiya çapdan çıxdı (Bakı, «Elm», 2000.) və yeri düşmüşkən, mən, İlyas Əfəndiyevin ədəbi irsinin öyrənilməsində və xüsusən toplanmasında bu tədqiqatçının xidmətlərini xüsusi qeyd etmək istəyirəm.

Bu müddət ərzində İlyas Əfəndiyevin əsərləri müxtəlif teatrlarda tamaşaya qoyuldu, ömrünün son illərində yazdığı əsərlərdən ibarət «Sən ey böyük yaradan» adlı kitabı nəşr olundu (Bakı, «Şərq – Qərb», 1997.), bir sıra əsərləri ilk dəfə dərc edildi, o tamaşalar da, o kitab da, o əsərlər də mətbuatda geniş işıqlandırıldı, böyük uğur qazandı...

Bu müddət ərzində mətbuat ondan çox yazdı...

Onu xatırladılar, onu alqışladılar, ona məşhur pyesinin adına uyğun, «sən həmişə bizimləsən» dedilər...

Və yeganə çatışmayan cəhət isə o oldu ki, daha onun özünə oxucu məktubları yazılmadı, onun iş kabinetində onun özünə ünvanlanmış telefon zəngləri daha səslənmədi...





**4.**

Bu gün mənim üçün əlamətdar görünən bir cəhət də odur ki, İlyas Əfəndiyevin dostları da, eyni zamanda, onun oxucuları idi və onların həm İlyas Əfəndiyevin şəxsiyyətinə, həm də yaradıcılığına böyük hörmət və məhəbbətləri var idi. Əslində bu, eyni zamanda, ədəbiyyatla, sənətlə bağlı mövqelərin, zövqlərin, istəklərin birliyi idi.

Onun dostları elə də çox deyildi (Molla Cumanın məşhur misrası, elə bilirəm ki, burada yerinə düşür: «Dərdi qanan ya bir olar, ya iki...»), amma düşməni isə, ümumiyyətlə, yox idi. Paxıllıq edən, ədəbi qısqanclıq hissini boğa bilməyən, gözü götürməyən, əlbəttə, var idi, amma – düşmən – yox idi və elə bilirəm ki, yazıçılar aləmindəki, – xüsusən 40–50–60-cı illərdə – intriqalar burulğanını nəzərə alsaq və bura onu da əlavə etsək ki, dövrün, hakim ideologiyanın, sistemin yaratdığı ab-hava həmin «intriqalar burulğanının» daha da qızışması üçün gözəl münbit zəmin, əlverişli şərait yaradırdı, bu fakt, yəni İlyas Əfəndiyev «düşmənsizliyi» onun şəxsiyyəti haqqında az söz demir. Bununla əlaqədar orasını da xüsusi qeyd etmək istəyirəm ki, İlyas Əfəndiyev ötkəm adam idi, sözü şax üzə deyən və heç kimdən çəkinməyən, öz sərbəstliyini, ləyaqətini qiymətləndirməyi və qorumağı bacaran bir şəxsiyyət idi.

Yenə Bəxtiyar Vahabzadədən bir sitat gətirmək istəyirəm, çünki İlyas Əfəndiyevlə bağlı bu da dəqiq bir müşahidədir: «İlyas Əfəndiyev hər adamla ünsiyyət bağlamaz, onun öz ətrafı, öz həmsöhbətləri olardı. O, istedadsız, sırtıq, mütaliəsiz, dayaz adamlardan qaçardı. Amma istedadlı, mütaliəli və ziyalı adamlarla... söhbətdən ləzzət alardı. Çünki özü daxilən ziyalı adam idi. Dərin mütaliəsi var idi. Mən cəsarətlə deyə bilərəm ki, yazıçılar içərisində Qərb və rus ədəbiyyatını onun qədər dərindən bilən qələm sahiblərini barmaqla saymaq olar».

Mən, indi əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış 60-cı illərin ikinci yarısında namizədlik dissertasiyası yazırdım və o zaman M.F.Axundov adına kitabxanada həmin 30 –40 –50-ci illərin bütün respublika mətbuatını səhifə-səhifə vərəqləmişdim: İlyas Əfəndiyevin kimisə «ifşa» etməsinə, sonralar peşmançılığını çəkəcəyi, cürbəcür bəraət bəhanələri gətirməyə məcbur olacağı hansısa bir «ifşa» məktubuna (o zamanın geniş yayılmış «ədəbi janrına»!) imza atmasına rast gəlməmişəm, çünki belə hadisə olmayıb.

O dövrün ədəbi-ictimai həyatını öyrənənlər bu faktın nə demək olduğunu daha yaxşı qiymətləndirə bilərlər (və qiymətləndirirlər!).

Amma onu «ifşa» edən yazılar var...

İlyas Əfəndiyevin uşaqlıq dostlarından mən ancaq heykəltəraş Cəlal Qaryağdını tanıyırdım və onlar sonralar da əlaqə saxlayırdılar,

hərdən görüşürdülər, hərdən də uzun illər görüşmürdülər. Buna görə də İlyas Əfəndiyev vəfat edəndə və Cəlal Qaryağdı başsağlığı verməyə gələndə, məni qucaqlayıb uşaq kimi ağlaması və:

– İlyasın ölümü mənim belimi sındırdı, – deməsi, bu sözləri dedirdən kədərin təbiiliyi, doğrusu, mənim üçün bir az gözlənilməz oldu və hətta, mən, nədənsə, elə bil ki, onun qarşısında özümü bir az günahkar hiss etdim.

Beş ildən sonra, 2001-ci ildə Cəlal Qaryağdı da rəhmətə getdi və bu sözləri yazarkən bu uşaqlıq dostlarının haqq dünyasındakı ruhları qarşısında indi özümü bir balaca rahat hiss edirəm: Cəlal müəllim uzun illərdən bəri üzərində işlədiyi Cəfər Cabbarlı heykəlini bitirmişdi və o heykəl Xızıda ucaldılmalı idi, ancaq bunun üçün vəsait çatışmırdı. Mən BMT-nin Azərbaycandakı nümayəndəliyini bu işə cəlb edə bildim və indi Cəlal Qaryağdının əsl sənətkarlıqla yaratdığı o heykəl Cəfərin ana yurdunda ucalmaqdadır.

İlyas Əfəndiyevin daima xatırladığı bir uşaqlıq və yeniyetməlik dostu haqqında da yazmaq istəyirəm: Məhəmməd adlı o oğlanla Füzulidə bir məktəbdə oxuyublar. Məhəmməd iki sinif irəlidə imiş və təxminən 16–17 yaşları olanda – 30–31-ci illərdə – yeni hakimiyyəti, yerli bolşeviklərin rəhbərliyini və əməllərini heç cürə qəbul etmədikləri üçün, İlyasla Məhəmməd qərar veriblər ki, İrana qaçıb, oradan Türkiyəyə gedib Azərbaycan uğrunda mübarizə aparacaqlar, həmfikirlərini başlarına toplayıb yenidən Azərbaycana qayıdacaqlar. Nəhayət, bir gün sözləşirlər ki, səhər tezdən görüşüb Arazı keçsinlər. Sübh tezdən sözləşdikləri yerdə görüşürlər.

İlyas Əfəndiyev deyirdi: «Çayı keçməyə hazırlaşırdıq ki, birdənbirə anam, atam, balaca qardaşlarım, bacılarım yadıma düşdü. Fikirləşdim ki, bunları burada qoyub gedirəm, axırları necə olacaq? Bolşeviklər atama, anama, bütün ailəmizə zülm edirdilər, fikirləşdim ki, bu zülmə necə tab gətirəcəklər? Bunlar bu vəziyyətdə qalır burada, mən Türkiyədə necə rahat yaşaya bilərəm? Məhəmmədə dedim ki, yox, mən getmirəm. Nə qədər elədisə də, getmədim. Məhəmmədlə vidalaşdıq, onu ötürdüm, üzüb Arazı keçdi, mən geri qayıtdım.»

İlyas Əfəndiyev, dediyim kimi, Məhəmmədi tez-tez xatırlayırdı, onun çox ağıllı və bacarıqlı olduğunu deyirdi və şübhə etmirdi ki, əgər, salamat qalıbsa, hörmətli bir adam olub.

Sonralar mən Türkiyə səfərlərim zamanı həmişə bu adamı axtarırdım, onun haqqında soraqlaşırdım və nəhayət 90-cı illərin əvvəllərində Türkiyədəki azərbaycanlıların – Məhəmməd Kəngərlinin, Əhməd Qaracanın, Cəmil Ünalın köməkliyi ilə onun kimliyini müəyyənləşdirə bil-





dim: mühacirətdəki Azərbaycan milli azadlıq hərəkatının görkəmli xadimlərindən biri Məmməd Azər Aran.

52 –53 illik xəbərsizlikdən sonra gələn bu soraq İlyas Əfəndiyevi çox sevindirdi və ona çox da təsir etdi. Atam Məmməd Azər Arana məktub yazdı və mən o məktubu Əhməd Qaracanın vasitəsilə ünvanına çatdırdım. Əhməd bəyin dediyinə görə, Məmməd Azər Aran da bu məktuba çox sevinib, sovet rejimindən İlyas Əfəndiyevlə birlikdə qaçmaq istədiklərini təfərrüatı ilə xatırlayıb, ancaq çox da təəssüf ki, o zaman o, artıq ağır parkenson xəstəliyinə tutulmuşdu və azacıq sonra da vəfat etdi.

Mən onun vəfat etdiyini atama demədim və məktubuna cavabın gəlməməyinə belə bir bəhanə gətirdim ki, ağır xəstədir, deyir, belə bir vəziyyətdə mən İlyasa cavab yazmaq istəmirəm, sağalan kimi Bakıya gedib özüm İlyasla görüşəcəyəm. İlyas Əfəndiyev sidq-ürəkdən gələn bir pərişanlıqla:

– Bəs həkimləri nə deyir? – soruşurdu.

Mən də:

– Deyirlər sağalacaq, – deyirdim.

Sonra İlyas Əfəndiyev özü vəfat etdi...

Türk Kültür Dərgisi «Azərbaycan» 1996-cı il, oktyabr nömrəsində yazırdı:

«Bakıdan aldığımız acı xəbər Azərbaycan Kültür Dərnəyi Yönetimi və mənsublarını acılara boğdu.

Azərbaycan Cümhuriyyətinin olduğu qədər, Türk Dünyasının da ən böyük dram yazarlarından biri olan İlyas Əfəndiyev Bakıda Tanrının rəhmətinə qovuşdu.

İlyas Əfəndiyev 72 illik kommunist rus işğalı dönəmində Kommunist Partiyasına üzv olmağı rədd edən görkəmli şəxsiyyətlərdən biri idi. O, Sovet ordusunun Azərbaycanı işğal etdiyini, Azərbaycan xalqının bir müstəmləkə həyatı yaşadığını gördükdən sonra, mühacirətdə Müsavat Partiyasının rəhbəri olmuş Məmməd Azər Aranla birlikdə Türkiyəyə qaçmağa qərar vermişdir. Lakin son anda atası onun qaçmasına mane olmuşdur.»

Bu hadisənin əslində necə olduğunu mən yazdım. «Azərbaycan» dərgisi isə, İlyas Əfəndiyevin xatirəsinə həsr olunmuş həmin yazıda Məmməd Azər Aran haqqında da məlumat verir: «Məmməd Azər Aran İrandan keçməklə Türkiyəyə gəlmiş, Hərbi tibb fakültəsinə daxil olmuş və buranı bitirdikdən sonra türk ordusunda hərbi həkim kimi xidmət etmişdir. Əsəb xəstəlikləri üzrə mütəxəssis olan Məmməd Azər Aran polkovnik rütbəsinə kimi yüksəlmişdir. O, Türkiyəyə gəldikdən

sonra, Müsavat Partiyası sıralarına üzv yazılmış və Məmməd Əmin Rəsulzadənin ən mötəbər silahdaşlarından biri olmuşdur. Məmməd Azər Aran, Kərim Odər rəhmətə getdikdən sonra Müsavat Partiyasına rəhbərlik etmişdir.»

Orası da yadıma gəlir ki, 60-cı illərin əvvəllərində Türkiyəyə getməyə hazırlaşan Mehdi Hüseyn bir axşam bizə gəlmişdi. O zaman Türkiyəyə getmək, az qala, Aya uçmaq kimi bir şey idi, amma atam üçün də, Mehdi Hüseyn üçün də, Aya uçmaqdan daha maraqlı və daha arzulanan bir səfər idi. Onda Mehdi Hüseyn zarafatla atama dedi:

– Bəlkə orada sənin o Məhəmmədini də tapdım...

İlyas Əfəndiyev:

– Sən elə özün sağ-salamat qayıt gəl, bəsdi, – dedi. – O boyda Türkiyədə sən Məhəmmədi haradan tapacaqsan?

Sən demə, «o boyda Türkiyədə» Məhəmmədi tapmaq mümkün imiş...

Mən artıq yazdım ki, atamın Mehdi Hüseynlə xüsusi dostluğu var idi (mən ona «Mehdi əmi» deyirdim) və İlyas Əfəndiyev sonralar yazdığı xatirəsində 1939-cu ildə Yazıçılar İttifaqında, elə indiki Xaqani 25-dəki binada onunla ilk görüşlərini xatırlayaraq belə yazırdı:

«Mehdi o zaman tanınmış, məşhur yazıçı idi. Mən onun məqalələrini çox oxumuşdum və etiraf eləyim ki, onu (xüsusən Cəfər Cabbarlı haqqındakı məlum məqalələrinə görə) quru, amansız bir adam kimi təsəvvür edirdim, hətta şəklini qəzetlərdə görəndə onun sərt ifadəli simasına baxıb fikirləşirdim ki, «görəsən bu adam heç gülümsəyirmi?»

İndisə o, açıq, səmimi ifadə ilə gülümsəyən iri qara gözlərilə, şən zarafatıyla birdən-birə mənə başqa cür təsir bağışladı və onda heç bir xudbinlik, yekəxanalıq əlaməti hiss eləməməyim mənə xoş gəldi. İnsanın istər müsbət və istərsə də mənfi hərəkətlərində elə anlar, elə çalarlar olur ki, onlar heç bir zaman unudulmur... Və sanki həmin adamın ruhi aləminə pəncərə açır.

Mehdi Hüseynlə gələcəyin iyirmi beş illik dostluğuna çevriləcək ilk tanışlığımız belə oldu.»

İlyas Əfəndiyev həmin xatirəsini belə bitirirdi:

«Heyf ki, ədəbiyyatımızın bu unudulmaz xadimi çox yaşamadı. O, bir anın içində qartal kimi uçub əbədiyyətə getdi.

Rəyasət heyətinin iclasında idik. Yazıçılar qurultayına hazırlıq işlərini müzakirə edirdik. Mehdi sədr stolu arxasında ayaq üstə dayanaraq papiros çəkə-çəkə çıxış eləyən hansı yazıçını isə dinləyirdi. Birdən stula əyləşərək başını mizə əyib hərəkətsiz dayandı və Hüseyn Abbaszadə dəhşətlə səsləndi:





– Mehdi getdi ki!

Mən hər dəfə Mehdinin dəniz kənarındakı evinin qabağından keçəndə onun yazda-yayda əyləşib söhbət elədiyimiz balkonuna baxıram və o balkon mənə o qədər kədərli, o qədər kimsəsiz, o qədər yazıq görünür ki, elə bil Mehdi ilə orada keçirdiyimiz vaxtlardan yüz il keçir... Min il keçir...»

İlyas Əfəndiyevin bu cümlələri yazdığı 1988-ci ildə «o vaxtdan» düz iyirmi üç il keçirdi...

Onun üçün dost ayrılığının yüz ilə, min ilə bərabər cəmi iyirmi üç ili...

İlyas Əfəndiyevin yaxın dostlarından biri də Adil İsgəndərov idi.

«İntizar»dan sonra İlyas Əfəndiyev ilk müstəqil pyesini – «İşıqlı yollar»ı yazmışdı və 1947-ci ildə Akademik Milli Dram Teatrında səhnəyə qoyulmuş bu tamaşanın quruluşçu rejissoru Adil İsgəndərov idi. Bir il sonra, 1948-ci ildə Adil İsgəndərov həmin teatrda «Bahar suları»na quruluş verdi və ümumiyyətlə, İlyas Əfəndiyev həmişə deyirdi ki, məni teatra Adil gətirdi. İlyas Əfəndiyev yazırdı:

«Mən neftçilərin həyatından yazacağım pyesin (söhbət «İşıqlı yollar»dan gedir. – *E.*) süjetini təxmini olaraq Adilə nağıl elədim. O diqqətlə qulaq asıb, öz qeydlərini, arzularını dedi. Mən birinci dəfəydi ki, Adil İsgəndərovla müstəqil yaradıcılıq işinə başlayırdım. Mənim düşündüyüm, qısa ştrixlərlə təsvir elədiyim surətləri onun dərhal necə aydın duyduğunu, hətta, bəzən onun necə vəcdə gəldiyini hiss edirdim. Və bu cəhət, yaradıcılıqda təbiətən vasvası olan məni ruhlandırırdı. Mən onun necə gözəl tamaşalar verdiyini görmüşdüm. Buna görə də, indi fikirlərimin onu necə maraqlandırdığını hiss etməyim mənim dramaturgiya sahəsində özümə inamımı artırırdı.»

Görünür, onların gələcək dostluğunun da bünövrəsində bir-birilərini beləcə «dərhal» anlamaq dayanırdı və bu dostluq zamanın sınağından çıxmış bir dostluq idi.

İş belə gətirmişdi ki, Adil İsgəndərov «Bahar suları»ndan sonra İlyas Əfəndiyevin başqa bir əsərinə quruluş verməmişdi. 1948-ci ildən sonra «Atayevlər ailəsi» pyesini 1954-cü ildə Adil İsgəndərovun razılığı ilə o zaman yeni fəaliyyətə başlamış Tofiq Kazımov tamaşaya qoymuşdu, onillik fasilədən sonra «Sən həmişə mənimləsən» yazılanda isə, Adil İsgəndərov artıq çox haqsız bir surətdə teatrdan uzaqlaşdırılmışdı.

Ancaq Adil İsgəndərov, teatrda olanda da, olmayanda da, İlyas Əfəndiyevin Sona xanımın makinasından çıxmış yeni əsərlərinin əlyazmalarının ilk oxucularından biri olurdu. Və vacib deyildi ki, pyes olsun,

– İlyas Əfəndiyev yeni hekayələrini, povest və romanlarını da hələ çapdan əvvəl oxuyub fikir deməsi üçün Adil İsgəndərova verirdi və Adil müəllim də o əlyazmalarını həmişə maraqla qarşılayırdı, onları çox ciddi oxuyurdu, axşam bizdə çay içə-içə fikrini deyirdi, qeydlərini bildirirdi və belə bir ənənə yaranmışdı ki, sonra da köhnə «İnturist»in restoranına gedirdilər. İlyas Əfəndiyev evdən çıxanda deyirdi:

– Bax, Adil, bu dəfə hesabı mən verəcəyəm!

Adil İsgəndərov:

– Hələ bir gedək, qadam... – deyirdi.

Mən də maraqlanırdım ki, görəsən, restoranda hesabı kim verəcək və gecə, ya səhəri gün atamdan soruşanda, gülümsəyə-gülümsəyə başını bulayırdı:

– Adil...

Adil İsgəndərov İlyas Əfəndiyevin 60–70-ci illərdə yazdığı yeni pyeslərini oxuyurdu, amma həmin əsərlərin tamaşalarına getmirdi, çünki uzun illər boyu, necə deyərlər, canını qoyduğu teatra daha ayaq basmırdı və onun teatrdan beləcə uzaqlaşdırılmasını, teatra getməməyini, xüsusən ilk vaxtlarda, atam çox ürəyinə salırdı.

Bir çox illərdən sonra İlyas Əfəndiyev «Sənətkarın taleyi» adlı essesində yazırdı:

«Bir dəfə ona dedim:

– Adil, bəlkə, bir neçə yazıçı, yuxarı təşkilatlardan xahiş eləyək, səni qaytarsınlar teatra?..

Dərindən nəfəs alıb:

– Yox, – dedi, – işləyə bilmərəm, ürəyim sınıb...

Mən də kədərlə hiss elədim ki, Adil haqlıdır... İşləyə bilməz.

Taleyin qəribə işləri olur...

Bəzən bizlərdən birimiz ürəyimizdən şikayət eləyəndə Adil zarafatyana deyərdi ki:

– Qadam, ürək adamın harasında olur?..

Özü isə heç gözlənilmədən ürəyindən öldü...»

Mən indi bu sətirləri oxuyuram, bu sözlərin deyildiyi, bu ovqatın yaşandığı günlər, illər gözlərimin qabağına gəlir və elə bil, İlyas Əfəndiyevlə bir yerdə fikirləşirəm ki, əlbəttə, ürək neyləsin?..

İlyas Əfəndiyevin Tofiq Kazımovla da hələ 50-ci illərin əvvəllərindən etibarən yaxın dostluqları var idi və bu dostluq da bir tərəfdən, təbii ki, şəxsi hisslərin ifadəsi idi, digər tərəfdən isə bədii-estetik əqidə, ədəbi məfkurə dostluğu idi.

Tofiq Kazımov «Atayevlər ailəsi»nə verdiyi quruluşdan düz on il sonra, 1964-cü ildə «Sən həmişə mənimləsən» pyesini tamaşaya qoydu





və o tamaşa Azərbaycan teatrının tarixində prinsipial əhəmiyyətli mühüm hadisəyə çevrildi.

Bundan sonra Tofiq Kazımov 1968-ci ildə «Unuda bilmirəm»i, 1969-cu ildə «Məhv olmuş gündəliklər»i, 1975-ci ildə isə «Bağlardan gələn səs»i Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoydu.

Bu tamaşalar haqqında, onların Azərbaycan teatr sənətinin inkişafındakı rolu barədə müxtəlif teatrşünaslar nəslinin Cəfər Cəfərov və Yaşar Qarayevdən tutmuş Məryəm Əlizadə və İlham Rəhimliyə qədər, demək olar ki, bütün səriştəli nümayəndələri çox yazıblar və indiki kontekstdə mənim üçün vacib cəhət odur ki, təkrar edirəm, İlyas Əfəndiyev ilə Tofiq Kazımovun dostluğu şəxsi dostluq ilə sənət dostluğunun birliyi idi.

Sultan Hacıbəyovla dost idilər və bu dostluğun isə bünövrəsi uzaq keçmişlərə gedib çıxırdı: Sultan Hacıbəyovun anası Zəhra xanımla İlyas Əfəndiyevin anası Bilqeyis xanım gənclik rəfiqələri idi və mənim onların söhbətinə qulaq asmağa xüsusi azarım var idi: tez-tez xatırlayırdılar ki, yayda Şuşada Üzeyir Hacıbəyovun anası Şirin xanıma necə gedib baş çəkirdilər, Cıdır düzündə, Ərimgəldidə necə gəzməyə çıxırdılar, Şuşadan kəsə Molla Nəsrəddin yolu ilə faytonla Füzuliyə (o vaxtkı Qaryaginə) necə gedirdilər və o rəhmətliklər o söhbəti elə canlı aparırdılar, elə şövqlə danışırdılar ki, elə bil, o faytonda elə mən özüm də o kəsə Molla Nəsrəddin yolu ilə üzüaşağı Füzuliyə tərəf düşürdüm, mən özüm də onlarla bir yerdə gedib Üzeyir bəyin qoca anası Şirin xanımı yoluxurdum, Cıdır düzündə, Ərimgəldidə onlarla bir yerdə gəzirdim.

Sonralar İlyas Əfəndiyev Şuşanın o səfalı və unudulmaz yerləri barədə yazırdı:

«Yay zamanı aran Qarabağın – Yevlağın, Bərdənin, Tərtərin, Ağdamın, Ağcabədinin, Füzulinin, Cəbrayılın, Beyləqanın camaatı Şuşaya yaylağa gedərdilər. Bu əhalinin Şuşada iki məşhur gəzmək yeri var idi. Biri cənub hündürlüyündəki məşhur Cıdır düzü, digəri Ağdama gedən yolun üstündəki Ərimgəldi idi. Axşamçağı camaatın yarısı Cıdır düzünə, yarısı da Ərimgəldiyə gəzintiyə çıxardı. Arvadlar Şuşadan Ağdama gedən yola baxıb, arandan gələcək ərlərinin yolunu gözləyərdilər... Ərləri də cümə axşamları dal-dala düzülmüş faytonlarda, ucaboylu qaçağan Qarabağ atlarında dolayı yolla Şuşaya qalxardılar. Özləri ilə arandan təzə dəymiş yemiş, qarpız, üzüm gətirərdilər. Cümə günü evlərdən qalxan kabab iyi şəhərə yayılardı. Axşam çağları Xanın (Xan Şuşinskinin. – *E.*) dəstəsi Cıdır düzündə, Bahadurun, Qaçayba-

lanın dəstələri də Ərimgəldidə çalıb-oxuyardılar. Biz uşaqlar həmişə anamızla Cıdır düzünə gəzməyə çıxardıq.»

Sultan Hacıbəyovun əsərləri arasında İlyas Əfəndiyevin ən çox xoşuna gələni «Karvan» simfonik qravyürası idi, deyirdi:

– Soltan (onu belə çağırırdı, «Sultan» yox), hər dəfə sənin «Karvan»ına qulaq asanda, mənə elə gəlir ki, ömrümdə görmədiyim səhraları görürəm, dəvə karvanlarını görürəm, o karvanla addımlayan, o dəvələrin üstündə oturan adamları görürəm... Hətta onların nə hiss elədiklərini hiss edirəm...

1967-ci ildə səhnəyə qoyulmuş «Mənim günahım» tamaşasının da musiqisini İlyas Əfəndiyevin istəyi ilə Sultan Hacıbəyov yazmışdı: «Bu pyesə sənin musiqin lazımdı!»

Ümumiyyətlə, deməliyəm ki, İlyas Əfəndiyev musiqiyə çox həssas adam idi və «Tofiq Kazımovu xatırlayarkən...» adlı essesində yazırdı ki, «pyeslərimin ilk işığı fikrimə həmişə hansı mahnıyla, muğamlasa daxil olmuşdur. «Sən həmişə mənimləsən»də «Qaragilə» mahnısı, «Mahnı dağlarda qaldı»da «Aman ovçu, vurma məni» mahnısı... və s. «Məhv olmuş gündəliklər» pyesi mənim fikrimə «Pəncərədən daş gəlir...» mahnısıyla daxil olmuşdu.»

Və yəqin bu da o səbəblərdən biri idi ki, İlyas Əfəndiyevin bir sıra bəstəkarlarla yaxın, məhrəmanə münasibəti var idi. Mən artıq Tofiq Quliyev haqqında dedim. Eləcə də Fikrət Əmirov, Səid Rüstəmov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov onun tez-tez görüşdüyü, zəngləşdiyi, hal-əhval tutduğu adamlar sırasında idi və bu bəstəkarlarla onu, eyni zamanda, birgə yaradıcılıq işi də birləşdirirdi.

Fikrət Əmirov hələ 1947-ci ildə «İşıqlı yollar» tamaşasının musiqisini yazmışdı və çox-çox sonralar da cavanlıq dövrlərindəki həmin birgə yaradıcılıq işlərini xüsusi bir hərarətlə xatırlayırdı: «İlyas, yadındadı də...»

40-cı illərin sonları, 50-ci illərin əvvəllərində İlyas Əfəndiyevlə Fikrət Əmirov yay aylarını bir yerdə Şuşaya, yazıçıların oradakı məşhur Yaradıcılıq Evinə gedirdilər və biz iyul, avqust aylarını orada qonşu olurduq.

Fikrət Əmirovla birlikdə İsa bulağında, Daşaltıda, Səkili bulaqda, Turşsuda keçirdiyimiz ailəvi məclislər, o məclislərdə Şuşa xanəndələrinin, yeniyetmələrin oxumaqları, «Qarabağ şikəstəsi», «Şuşanın dağları», «Qaçaq Nəbi», «Tel nazik, bel nazik» mahnıları, o zaman müharibədən qayıtdıqdan sonra universiteti yenicə bitirmiş cavan bir tarixçi olan rəhmətlik Firudin Şuşinskinin də o şikəstəyə, o mahnılara qu-





laq asa-asa həvəsə gəlib tın-tın səsiylə pəsdən gözəl zümzümə eləməyi mənim heç vaxt yadımdan çıxmayan uşaqlıq xatirələrimdəndir.

Yeri düşmüşkən deyim ki, Şuşadakı həmin Yaradıcılıq Evi yay aylarında həqiqi mənada bir ədəbiyyat, ümumiyyətlə, mədəniyyət ocağına çevrilirdi və oranın təkrarsız ab-havasını, orada Süleyman Rəhimovla, Bayram Bayramovla, Qasım Qasımzadə ilə, gənc Əliağa Kürçaylı və Məsud Əlioğluyla qonşuluğumuzu, onlarla söz-söhbətini İlyas Əfəndiyev, xüsusən 90-cı illərdə – ömrünün son illərində tez-tez xatırlayırdı.

«İşıqlı yollar»dan düz on yeddi il sonra, 1964-cü ildə «Sən həmişə mənimləsən»in də musiqisini İlyas Əfəndiyevin təklifi ilə Fikrət Əmirov bəstələmişdi.

Əfrasiyab Bədəlbəyli 1944-cü ildə «İntizar» tamaşasının, Səid Rüstəmov 1948-ci ildə «Bahar suları»nın, Niyazi 1954-cü ildə «Atayevlər ailəsi»nin, Süleyman Ələsgərov 1971-ci ildə «Mahnı dağlarda qaldı»nın musiqisini bəstələmişdilər.

Maestro Niyazi hər dəfə məni görəndə:

– İlyasa de ki, – deyirdi, – heç Həcərin plovu da Bilqeyis xanımın plovuna çata bilmir!

Qara Qarayevlə də ılıq münasibətləri var idi, həmişə bayramlarda, yeni əsərləri meydana çıxanda zəngləşirdilər və bu münasibətlərin əsasında, gənclik illərindən etibarən, hər ikisinin İmran Qasımovla dostluğu dururdu.

1968-ci ildə, Q. Qarayevin 50 illik yubileyi zamanı İlyas Əfəndiyev yazırdı:

«Bütün böyük sənətkarlar kimi, Qara Qarayev insan qəlbinin, insan ruhunun indiyə nüfuz edilməyən dərinliklərinə gedir, bu vaxtadək duyulmayan sirlərini tərənnüm edir. Buna görə də, bəstəkarın əsərlərində fəlsəfi axtarışlarla, kəşflərlə müasirlik birləşib qüdrətli bir gözəlliklə səslənir. O, Heminquey kimi fikrinin yalnız müəyyən hissəsini açıq ifadə edir. Qalan böyük hissəsini duyub dərk etməyi dinləyicinin öhdəsinə buraxır. Böyük və dərin fikir sahibi olan sənətkarlarda həmişə belə olmuşdur. Bethovendə də, Şekspirdə də belə olmuşdur...»

Orası da heç yadımdan çıxmır ki, 1974-cü ilin küləkli-yağışlı bir noyabr gecəsinin yarısı tez-tez arası kəsilən uzun telefon zənglərindən və bizim də bu zənglə bağlı nigarançılığımızdan sonra, Qara Qarayev, səhv etmirəmsə, Vyanadan bizə telefon açıb İlyas Əfəndiyevi 60 illiyi münasibətilə təbrik etmişdi. (Atam ona, İmran Qasımovdan gələn gənclik illərinin deyim ənənəsi ilə, «Karik», o isə, atama elə həmin ənənə ilə «İlyuşa» deyirdi.)

İlyas Əfəndiyevin yaxın dostlarından biri də fizika-riyaziyyat

elmləri doktoru, professor Əmir Həbibzadə idi. Əmir müəllim başqa sahə ilə məşğul olsa da, daxili aləmi etibarilə sənət adamı idi, zəngin hissiyyatı, gözəl zövqü var idi, yaxşı geyinirdi və İlyas Əfəndiyev də səliqə və zövqlə, həmişə yeni dəbdə geyinməyi xoşladığı üçün, kostyum otrezlərini Əmir müəllimlə birlikdə alardılar. Əmir müəllim yaxşı dərzilər tapardı və atam da Sadıqovdan xəlvət, bəzən kostyumlarını o dərzilərə tikdirərdi. Sadıqov Bakının məşhur dərzilərindən biri idi və yadıma gəlir, bütün Sovet İttifaqında Lenin ordeni almış yeganə dərzi idi. İlyas Əfəndiyev uzun illər boyu kostyumlarını Sadıqova tikdirərdi, amma hərdən, Sadıqov inciməsin deyə, gizlincə, Əmir müəllimin tapıb təriflədiyi dərzilərə də sifariş verərdi.

Bizim, Sultan Hacıbəyovun və Əmir müəllimin 50-ci illərin sonlarında, 60-cı illərdə yayda yığışıb ailəvi surətdə maşınla Kislovodskiyə getməyimiz, orada bütün yay aylarını İosif Samoyloviç Bass adlı çox koloritli və qılıqlı bir yəhudinin müdir olduğu pansionatda qalmağımız mənim ən unudulmaz yeniyetməlik və gənclik xatirələrimdən biridir. İlyas Əfəndiyevin qardaşı, yazıçı Tofiq Əfəndiyev də, bacısı, həkim Nəzihə xanım həyat yoldaşı, həkim Üzeyir Məmmədovla və uşaqlarla birlikdə, bəstəkar Səid Rüstəmov da, Nazim Hacıyevin böyük qardaşı professor Ağa Hacıyev də ailələri ilə gəlib orada qalırdılar və Kislovodskidəki o pansionat ədəbi-mədəni klub kimi bir şeyə çevrilmişdi. Qara Qarayev də, İmran Qasımov da, Nazim Hacıyev də hərdənbir o «kluba» baş çəkərdi, orada qalardı.

Mənim üçün olduqca xoş bir hadisədir ki, yaşı 85-i keçmiş Əmir müəllim bu gün də sağ-salamatdır, Bakı Universitetində dərs deyir, eləcə səliqə-sahmanla, eləcə zövqlə geyinir və mən sidq-ürəkdən arzu edirəm ki, Əmir müəllim 100-ü də beləcə keçsin, ondan o tərəflərə də getsin.

Əmir müəllim 85 illiyi münasibətilə nəşr olunmuş kitabda yazır ki, «Azərbaycanda iki görkəmli şəxslə – sənət dahisi ilə dostluq etmişəm. Biri xalq yazıçısı İlyas Əfəndiyev, o biri isə bəstəkar Sultan Hacıbəyovdur. Bunların hər ikisi vasitəsilə mən digər sənət xadimləri ilə – bəstəkarlarla, rəssamlarla, yazıçılarla tanış olmuşam və onlarla tez-tez ünsiyyətdə olmuşam... Adam gözəl, klassik musiqi əsərlərinə qulaq asarkən çox yüksək mənəvi zövq alır və bu cür musiqiyə dəfələrlə qulaq asmaq istəyir. Lakin bu əsərlərin bəzi hissələrini nə zümzümə edə, nə də fortepianoda çala bilirsən. Mən, dostum İlyas Əfəndiyevin bir çox əsərlərini oxumaqla bərabər, dram əsərlərinə qulaq asmışam və sevmişəm. Lakin bu əsərlərə lazımi qiymət verməyə mənim gücüm çatmır...»





Əmir müəllim hər dəfə məni görəndə özünü saxlaya bilməyib doluxsunur:

– İlyassız da dünya olar?.. Soltan hardadı indi?.. – deyir...

Və Əmir müəllim bu gün də İlyas Əfəndiyevin tamaşalarına gedir, onu oxuyur, onun haqqında yazılanları izləyir, xüsusi bir həvəs və təəssübkeşliklə onun maraqlarını güdür – dostluq davam edir...

Cəfər Cəfərov yadıma düşür...

İlyas Əfəndiyev Cəfər Cəfərovu bir insan kimi də, teatrşünas tənqidçi kimi də yüksək qiymətləndirirdi və xüsusən 60-cı illərdə onlar çox yaxınlaşmışdılar. Həmin 60-cı illərdə Cəfər Cəfərov tez-tez bizə gələrdi, baməzə bir adam olan memar Qəzənfər Əlizadəni də hərdən özü ilə birlikdə gətirərdi və o teatr söhbətləri, o zarafatlar dövrün ideoloji mühiti ilə heç vəchlə bir araya sığmırdı və yəqin o söhbətlərin, o zarafatların gözəlliyi də elə onda idi.

Cəfər Cəfərov Bakıda anadan olub, Bakıda böyümüşdü, şəhər adamı idi və İlyas Əfəndiyev zarafatla: «Əbülhəsən demiş, əzzim, əzzim, həyatı öyrənmək lazımdır!» – deyərək onu tez-tez rayonlara, xüsusən Qarabağ tərəflərə aparırdı və mənim də onlarla birlikdə getdiyimiz o səfərlərdən biri həmişəlik olaraq xatirəmə hopub qalıb.

60-cı illərin ortaları idi, mən universiteti yenicə bitirib aspiranturaya girmişdim və biz bir gözəl payız günü Cəfər Cəfərovu da götürüb Sabirabada, İlyas Əfəndiyevin dostu həkim-yazıçı Əli Ağabəyligilə getdik. Maşını Timurçin sürürdü və bütün yol boyu Cəfər müəllimlə atam cürbəcür məzəli əhvalatları xatırlayıb gülürdülər, bir sözlə, kefləri kök idi. Sabirabadda doktor (Əli Ağabəylini belə çağırırdıq) bərə kirayələmişdi və Kürlə Arazın qovuşağında lap astadan o bərə ilə üzə-üzə gözəl və xudmani bir məclis keçirdik. Gün bata-batda idi və o suyun qovuşduğu yerə birdən-birə elə bir payız gözəlliyi çökdü ki, istər-istəməz hamımız susub suyun xəfifcə şırıltısı içində xəzan yarpaqlarının sarısına, batan günəşin qırmızısına, səmanın getdikcə tündləşən gömgöylüyünə bürünmüş o mənzərəyə baxırdıq və birdən Cəfər müəllim bayaqkı o şadyanalıqla, zarafatlarla heç cür uyuşmayan kədərli bir səslə:

– Hayıf!.. – dedi. – Ömrümüzün çox vaxtını hədərə sərf elədik...

Sonra atama baxdı:

– Səni demirəm, İlyas, özümü deyirəm... Sən elə cavanlıqdan yazıb-pozursan... Amma mənim indiki ağlım olsaydı, hər şeyi atıb, indiyə qədər çox şey yazardım... Həyatdı də...

İlyas Əfəndiyev:

– Sən də az yazmamısan... – dedi və bu, əlbəttə, yalnız Cəfər müəllimin könlünü almaq üçün deyilən sözlər deyildi, həqiqət idi.

Amma o kədərin akvareli qovuşaqdakı o payız axşamından tamam çəkilib yox olmadı...

Cəfər Cəfərov bir müddət Mərkəzi Komitədə şöbə müdirinin müavini vəzifəsində işləmişdi və güman ki, onun o payız axşamı səsindəki o kədər də, onun üçün həmin illərdə itirilmiş günlərin yaratdığı daxili ab-havanın ifadəsi idi.

Sonradan iş belə gətirdi ki, həmin payız axşamından bir-iki il sonra, 1967-ci ildə Cəfər Cəfərov yenidən Mərkəzi Komitəyə qayıdası oldu və bu dəfə ideoloji katib vəzifəsinə...

Nə etmək olar, Cəfər müəllimin o payız axşamı dediyi kimi, həyatdı də...

Cəfər Cəfərov İlyas Əfəndiyevin dramaturgiyası barədə yüksək fikirdə idi. Vaxtilə «Bahar suları» haqqında da, «Atayevlər ailəsi» barədə də yazmışdı, amma 1964-cü ildə onun «Sən həmişə mənimləsən»in tamaşası haqqında yazdığı «Təklik faciədir» məqaləsi, ədəbi prosesdə, həqiqi mənada, səs saldı və mən deyə bilərəm ki, o pyes dramaturgiyamızın, o tamaşa teatr sənətimizin inkişafında hansı rolu oynamışdısa, o məqalə də teatr tənqidinin inkişafında o rolu oynadı.

Unudulmaz Əli Vəliyev yadıma düşür...

İlyas Əfəndiyevin Əli Vəliyevlə xüsusi məhrəmanə münasibətləri var idi və Əli müəllim rəhmətə gedəndən sonra, ən hərarətli hisslərlə tez-tez onu xatırlayırdı, bu vicdanlı, təmiz adamın baməzə əhvalatlarını yadına salırdı, bizə də danışıb ürəkdən gülürdü və deyirdi ki, yazmağı bacarasan, Əli özü gözəl bir əsərin, «Don Kixot» səviyyəli bir əsərin qəhrəmanının prototipi ola bilər.

«Dostumuzu xatırlayarkən» adlı essesində İlyas Əfəndiyev 30-cu illərin sonlarını, 40-cı illərin əvvəllərini xatırlayıb yazırdı:

«Doğrusu, o zaman biz gənc yazıçılar özümüzdən yaşlı şairlərdən, yazıçılardan həmişə iki adamın – Səməd Vurğunla Əli Vəliyevin köməyinə güvənirdik. Çətinliyə düşəndə onlara müraciət edirdik. Əli bizim nöqsanlarımıza qarşı nə qədər sərt idisə, xahişimizə qarşı da o qədər qayğıkeş idi. Səməddə də, Əlidə də bizim ata-babalarımızdan, xalqdan gələn bir mərdanəlik var idi.»

Mən bu yerdə Sabirabadda yaşayan və artıq adını çəkdiyim həkim-yazıçı Əli Ağabəylini də xatırlamaq istəyirəm. Əli bəy Tibb İnstitutunda (indiki Tibb Universitetində) Mehdi Hüseynin həyat yoldaşı Fatma xanımla bir yerdə oxumuşdu və onu atamla Mehdi Hüseyn tanış etmişdi. O tanışlıqdan sonra Əli Ağabəyli ömrünün sonuna kimi İlyas





Əfəndiyevin və ümumiyyətlə, bizim evin, ailənin sadiq və etibarlı bir dostuna çevrildi.

Əli Ağabəyli çox koloritli, mədəni və çox da mütaliəli bir adam, yaxşı şahmatçı və böyük kitab həvəskarı idi. Moskvada yeni və maraqlı nə kitab çıxırdısa, o saat xəbər tuturdu və o kitabı əldə edirdi. İlyas Əfəndiyev üçün isə mütaliə, dediyim kimi, klassikləri oxumaq da, müasir dünya ədəbiyyatındakı maraqlı hadisələrin içində olmaq da, gündəlik həyatının yemək kimi, içmək kimi atributlarından biri idi.

Əli Ağabəyli, İlyas Əfəndiyevlə, onun ətrafı ilə elə qaynayıb-qarışmışdı ki, o da Kislovodskidəki o pansionat – klubun daimi yay üzvlərindən birinə çevrilmişdi...

İlyas Əfəndiyev Mirmehdi Seyidzadə ilə həm uzun müddət qonşu oldu, həm də çox duzlu zarafatları var idi və İlyas Əfəndiyev hər dəfə Hüsü Hacıyev küçəsindəki məşhur Yazıçılar Binasının balkonunda Ağanı (Mirmehdiyə belə deyirdilər) görəndə, onun öz sözləri ilə:

– Ey zalım, necəsən? – deyirdi. – Təzə qəzəl zühur eləyib, yoxsa, yox?

Və belə balkon görüşləri və zarafatları çox zaman ya Ağa əmigildə (mən də ona belə müraciət edirdim), ya da bizdə gözəl ekspromt bir məclislə qurtarırdı, illah da ki, Ağa əmi yeni bir qəzəl yazmışdısa, o məclislər lap aləm olurdu.

Ağa deyirdi:

– Ey zalım! Klassiklər yüz gözələ cəmi bir qəzəl yazırdı, mən isə, bir gözələ yüz qəzəl yazıram!

İlyas Əfəndiyev 40-cı illərdə kinostudiyada ssenari şöbəsinin müdiri işləmişdi və elə o vaxtlardan da Lətif Səfərovla, Muxtar Dadaşovla yaxın münasibətləri var idi. Lətif Səfərov hərdənbir axşamlar bizə gələrdi («Körpüsalanlar»ın əsasında film çəkmək istəyirdi) və həmin axşamlardan birində, faciəli ölümündən – intiharından təxminən bir həftə – on gün əvvəl, içi araqla dolu qədəhi başına çəkib İlyas Əfəndiyevə dediyi sözlər heç vaxt mənim yadımdan çıxmır:

– Tofiqə gözəl mahnılar yazdırdım, Rəşidi də saxladım gələcək nəsillərə. Elə bu – mənim bəsimdi!

Lətif Səfərov «Bəxtiyar» filminin quruluşçu rejissoru idi və söhbət Tofiq Quliyevin o film üçün bəstələdiyi mahnılardan, Rəşid Behbudovun da baş rolda o mahnıları ifa etməsindən gedirdi.

İndi – rəhmətlik Lətif Səfərovun dediyi həmin «gələcək nəsillər»in yetişdiyi, bir-birini əvəz etdiyi bir vaxtda, mən hər dəfə Rəşidin ifasında o mahnıları eşidəndə, televizorda o filmdən fraqmentləri görəndə, bizim evdəki o axşamı xatırlayıram.

Mən bu mövzunu qurtarmağa çətinlik çəkirəm, çünki hər dəfə son nöqtəni qoymaq istəyəndə yeni bir işıqlı sima gözlərimin qarşısında canlanır və mən onun barəsində, onunla İlyas Əfəndiyevin münasibətləri barədə, bu münasibətlərin də, öz növbəsində, sənət aləminin, Azərbaycan ədəbi-mədəni mühitinin bir hissəsi, bir parçası olması haqqında yazmaya bilmirəm, yazmasam, elə bil ki, onların ruhu qarşısında, nəsə, bir günah işlədirəm...

Onların hamısı yazılmalıdı.

Sağlıq olsun...

5.

Artıq, dediyim kimi, İlyas Əfəndiyev ədəbiyyata 1939-cu ildə «Kənddən məktublar» kitabındakı hekayələrlə gəldi və vəfatından sonra nəşr olunmuş «Sən ey böyük Yaradan» kitabındakı hekayə və kiçik povestlər isə onun son əsərləri oldu.

Bu 57 yaradıcılıq ili ərzində İlyas Əfəndiyev altı roman («Söyüdlü arx» – 1958; «Körpüsalanlar» – 1960; «Dağlar arxasında üç dost» – 1963; «Sarıköynəklə Valehin nağılı» – 1976; «Geriyə baxma, qoca» – 1980; «Üçatılan» – 1981; bu romanların bəzisi povest kimi də təqdim olunub), beş povest («Kənddən məktublar» – 1939; «Aydınlıq gecələr» – 1941; «Torpağın sahibi» – 1952; «Qaçaq Süleymanın ölümü» – 1993; «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» – 1996), böyüklü-kiçikli qırx yeddi hekayə, bir çox oçerklər və xatirələr yazmışdır və bu nəsr yaradıcılığı onun yaradıcı fəaliyyətinin daimi tərkib hissəsi olmuşdur, İlyas Əfəndiyev nəsri və İlyas Əfəndiyev dramaturgiyası daima bir-birini əvəz və davam etdirmişdir.

Orası da maraqlıdır ki, İlyas Əfəndiyev heç bir nəsr əsərini səhnələşdirməmişdir və o, bunu, ümumiyyətlə, qəbul etmirdi, «Pyes lap başlanğıcdan səhnə üçün düşünülməli, səhnə üçün yazılmalıdır!» – deyirdi, yazıçının öz romanını, povestini, hekayəsini səhnələşdirməsi barədə isə, yəqin bir az da hissə qapılaraq: «Aşığın sözü qurtaranda, sazım, dınqıl-dınqıl deyər!» – deyirdi.

İlyas Əfəndiyevin hekayələri haqqında və bu hekayələrin Azərbaycan hekayəçiliyinin və ümumiyyətlə, Azərbaycan nəsrinin, Azərbaycan bədii dilinin inkişafında, janrın poetikası baxımından estetik rəngarəngliklərin əldə edilməsindəki rolu barədə çox yazılıb və bu da çox maraqlı və yəqin ki, əlamətdar bir faktdır: onun o ilk hekayələr kitabının – «Kənddən məktublar»ın düz 63 il (!) bundan əvvəlki rezonansı bu gün də hələ unudulmayıb.





Oxucuların İlyas Əfəndiyevin hekayələrinə marağı ilə bağlı uzaq keçmişdə qalmış bir epizodu xatırlayıram.

1954-cü ilin yayında – o zaman mən beşinci sinfə keçmişdim – biz Şuşadakı Yaradıcılıq Evinə getmişdik və həmin yay İlyas Əfəndiyevin yeni yazdığı «Su dəyirmanı» hekayəsi radio ilə verildi, hekayə böyük olduğu üçün, üç gün dalbadal oxundu. Şuşanın Bazarbaşı deyilən mərkəzində, taxta elektrik dirəyinin (şalbanın) başında gur səsi aləmi bürüyən bir radio aparatı var idi və o hekayə oxunan həmin üç gündə Bakıdan, ətraf rayonlardan Şuşaya istirahətə gələnlərin, Şuşa cavanlarının necə geyinib-kecinib Bazarbaşına yığışaraq hansı bir maraqla o radioya qulaq asmaları, Bazarbaşını bürümüş o gözəl hiss-həyəcan, Şuşadakı o «radio bayramı» və mənim də o adamların arasında daxili bir qürur və çox ciddi bir görkəmlə gözümü o radio aparatına zilləməyim tez-tez mənim yadıma düşür və elə bil, o hissləri yenidən yaşayıram...

Mən «radio bayramı» dedim, bəlkə də Şuşadakı «hekayə bayramı» demək daha düz olardı...

Və İlyas Əfəndiyev 1958-ci ildə ilk romanı «Söyüdlü arx»ı yazanda, bu, ədəbi ictimaiyyətdə, bir növ, «sürpriz» kimi bir şey oldu, çünki o, artıq 20 il idi bir hekayəçi və dramaturq kimi tanınırdı, amma bu roman da ilk dəfə «Azərbaycan» jurnalının həmin ildəki 10 və 11-ci nömrələrində dərc olunan kimi, həm ədəbi tənqiddə, həm də oxucuların arasında böyük rezonans doğurdu.

Yadıma gəlir, jurnal romanın çapını təzəcə bitirmişdi ki, «Azərbaycan gəncləri» qəzetində Xəlil Rzanın, bu şairə xas olan bir emosionallıqla yazdığı «Söyüdlü arx» romanının qəhrəmanı «Nuriyyəyə açıq məktub»u dərc olundu (11 yanvar 1959), sonra Süleyman Rəhimovun «Ədəbiyyat və incəsənət» qəzetində ««Söyüdlü arx» barəsində» adlı iki böyük podvallıq məqaləsi çıxdı, bundan sonra məqalələr bir-birini əvəz etdi və o dövrün mətbuatını nəzərdən keçirən olsa, bunun şahidi ola bilər ki, «Söyüdlü arx» Azərbaycan ədəbi tənqidində, o vaxta qədər olmayan bir bədii-estetik təlatüm yaratdı.

Bunu mən ona görə xüsusi qeyd edirəm ki, o vaxta qədər Azərbaycan ictimai fikrindəki «ədəbi təlatümlər» ideoloji xarakter daşıyırdı, bədiiyyat, poetika, estetik xüsusiyyətlər ədəbi tənqiddə ideoloji aktuallıqdan sonra gələn və haqqında ötəri bəhs olunan (ya da heç bəhs olunmayan!) ikinci dərəcəli əhəmiyyətə malik cəhətlər idi...

Çox keçmədi ki, «Söyüdlü arx» Tamara Kalyaginanın tərcüməsində Moskvada, «Drujba narodov» jurnalında (1960, 12) dərc edildi, elə həmin 60-cı illərin əvvəllərində çex, slovak, gürcü, erməni, qırğız, eston, ukrayna, latış dillərində nəşr olundu, sonra başqa dillərə çevrildi.

«Söyüdlü arx»ın oxucular tərəfindən, xüsusən gənc qızlar, gəlinlər tərəfindən necə qarşılanması ilə bağlı, yalnız bir faktı (belə faktlar isə, olduqca çox idi!) misal gətirsəm, elə bilirəm ki, bugünün oxucusunda 50-ci illər oxucusunun «Söyüdlü arx»la bağlı hiss-həyəcanlarının koloriti haqqında təsəvvür yarana bilər: Bakıdakı 190 nömrəli məktəbin tanınmış ədəbiyyat müəllimi Sürəyya Mirabdullayeva bu romanı birinci cümləsindən tutmuş sonuncu cümləsinə qədər əzbər bilirdi (!).

«Körpüsalanlar»la bağlı mən artıq yazmışdım və İlyas Əfəndiyevin sonrakı romanlarının da ədəbi taleyi beləcə uğurlu oldu, amma «uğurlu oldu» o demək deyildi ki, hər şey hamar gedirdi, heç bir maneə yox idi və s.

Yox, belə deyildi.

Yenə bir hadisə yadıma düşür.

«Sarıköynəklə Valehin nağılı» romanının çapından sonra, oxucuların böyük marağını, tənqidçilərin istəyini nəzərə alaraq, Yazıçılar İttifaqı, bu romanın da, İlyas Əfəndiyevin başqa romanları və ümumiyyətlə, başqa əsərləri kimi, sovet ideoloji tələbləri baxımından ögeyliyinə baxmayaraq, Mərkəzi Komitədən də heç bir icazə almadan, məşhur Natəvan adına klubda romanın geniş müzakirəsini keçirdi və «Ədəbiyyat və incəsənət» qəzeti bu müzakirəni geniş işıqlandırdı (14 may, 1977).

Və birdən-birə Mərkəzi Komitənin yüksək rütbəli çinovnikləri böyük bir cidd-cəhd və kin-küdurətlə Yazıçılar İttifaqından izahat tələb etməyə başladı ki, kimdən icazə alıblar və nə üçün bu romanın müzakirəsini keçiriblər, «Ədəbiyyat və incəsənət» qəzetindən də başqa bir izahat tələb etdilər ki, nə üçün bu müzakirənin materiallarını dərc edib?

O zaman mən Yazıçılar İttifaqının katibi işləyirdim və o «MK tələbi»nin bütün təfərrüatı mənim yaxşı yadımdadır. İmran Qasımovu tez-tez MK-ya çağırırdılar, izahat tələb edirdilər, MK-nın ideoloji katibi, bilmirəm, romanı oxumuşdu, ya yox, amma İmran Qasımova: «– Bu roman inkişaf etmiş sosializm cəmiyyətinə (o zaman belə bir termin dəbdə idi. – *E.*) yad bir əsərdir» – deyirdi, İmran Qasımov isə, heç bir izahat verməyəcəklərini bildirir və romanı müdafiə edirdi.

Nəhayət, rəhmətlik İmran Qasımov, görəndə ki, Yazıçılar İttifaqından da, «Ədəbiyyat və incəsənət» qəzetindən də əl çəkmirlər, təlimat almış peşəkar «keçi suyu bulandırma mütəxəssisləri» artıq fəaliyyətə başlayıb və məsələ «Sarıköynəklə Valehin nağılı»na qarşı əməlli-başlı bir ideoloji «ifşa» kampaniyası ərəfəsinə gəlib çatıb, MK-nın o zamankı birinci katibi Heydər Əliyevin yanına getdi, məsələdən onu agah etdi və Heydər Əliyevin də elə İmranın yanında selektorun





düymələrini basıb hadisəyə çox kəskin reaksiya verməsi ilə, həmin «izahat» tələbləri yox oldu...

Bu gün bütün bunları xoş bir əhvalla xatırlamaq da, eləcə bir əhvalla oxumaq da mümkündür, çünki bu gün bunların hamısı artıq tarixin səhifələridir, o vaxt isə həmin bu tarixin yarandığı günlər idi və əhvalı pozurdu, qanı qaraldırdı, əsəbləri gərginləşdirirdi, bir sözlə, həyatı zəhərləyirdi...

Amma o vaxt da həyat davam edirdi...

Və İlyas Əfəndiyev həmişəki səliqə-sahmanıyla öz yazı mizinin arxasında idi.

«Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» adlı povestini o, yuxarıda göstərdiyim kimi, 1996-cı ilin 28 mayında bitirdi və bir gənclik həvəsi, şövqü ilə, həmişə müəllifinə xas olmuş lirik-romantik üslubda qələmə alınmış bu kiçik psixoloji povest İlyas Əfəndiyevin yazdığı sonuncu bədii əsərdir.

İlyas Əfəndiyev nəsrlə ədəbiyyata gəldi, nəsrlə də getdi...

O, 1983-cü ildə yazdığı «Duyğuların estafeti» adlı essedə uşaqlıq çağlarını xatırlayır, nənəsinin ona danışdığı bir əhvalatı uşaqlıq dostu Əhəd Bağırzadəyə danışmasını və həmin əhvalatın onlara necə təsir etməsini yazırdı:

«Mən bu əhvalatı qoca nənəmdən eşitmişdim. Nənəm Sadıqcanı (söhbət Azərbaycan ifaçılıq sənətinin klassiki, məşhur tarzən Sadıqcandan gedir. – *E.*) görmüşdü. Deyirdi, olduqca gözəl, yaraşıqlı bir oğlan idi. Sadıqcan tar çalanda güllüklərdə bülbüllər susub ona qulaq asarmışlar. Xanlıqdan gözəl, zərif bir qız Sadıqcana aşiq olubmuş. Lakin Sadıqcan evli olduğu üçün qızın sevgisinə cavab verə bilməyib, aldatmaq da istəməyib. Qız isə, bu sevgidən dərdə düşüb, vərəm olub. Biz bir tərəfdən qızın halına acıyır, bir tərəfdən də Sadıqcanın kişi hərəkətini, arvadına, ailəsinə sədaqətini hiss edib mütəəssir olurduq. Sanki heç özümüz də hiss etmədən insanların gözəl rəftarları, hissləri bizi ucaldırdı, bizə səbəbini, mahiyyətini dərk etmədiyimiz şairanə bir ilham verirdi. Biz tanıyıb-tanımadığımız bütün yaxşı insanları sevməyə, özümüz də onlar üçün fədakarlıqlar etməyə hazır idik. İndi bu sətirləri yazarkən də mənə elə gəlir ki, bütün uşaqlar göz açıb ilk dəfə dünya ilə tanış olmağa başlayanda, o hisslərlə yaşayırlar.»

Və daha səkkiz ildən sonra, İlyas Əfəndiyev 70 il içində gəzdirdiyi o «mütəəssirliyi», o hissləri kağıza köçürür...

Bu fakt mənim üçün ona görə əlamətdardır ki, İlyas Əfəndiyevin ən kiçik uşaqlıq çağları ilə, ömrünün hətta 80-ni keçən sonrası arasında da bir harmoniya, hissiyyat dəyişməzliyi və zənginliyi var idi və o bir

uşaq kimi həyata hansı hissiyyatla gəlmişdisə, elə həmin hissiyyatlarla da həyatdan köçdü.

6.

Teatr İlyas Əfəndiyev üçün gündəlik həyatının nəfəs almaq, su içmək, yemək kimi tamam təbii, mübahisəsiz bir atributu idi və onun həyatının xüsusən son 32 ili («Sən həmişə mənimləsən»dən sonra) ən sıxı surətdə teatrla bağlı keçmişdir.

Bu yerdə «teatr» məfhumu yalnız İlyas Əfəndiyevin tamaşalarından ibarət deyil, onun ehtiva dairəsi çox genişdir: bura Akademik Milli Dram Teatrının qapıçısı ilə hal-əhval tutmaqdan, yaradıcı heyətin, bütün işçilərin dərdindən-sərindən xəbərdar olmaqdan, onların ailə-məişət problemləri ilə bağlı xahişlərinə çarə qılmaqdan tutmuş, teatrın bədii-estetik simasının müəyyənləşdirilməsinə, gənc istedadların səhnəyə gətirilməsinə, yeni-yeni aktyor nəslinin yetişdirilməsinə qədər – hər şey onunla bağlı o «teatr» məfhumunun içində idi.

Mən yuxarıda qeyd elədim ki, İlyas Əfəndiyev öz şəxsi arxivinə fikir verən adam deyildi, bəzən özü haqqında yazılan məqalələri belə, axıracan oxumağa hövsələsi çatmırdı, amma Akademik Milli Dram Teatrına bir əsər verdikdən sonra, onun mizarxası oxunuşundan tutmuş bütün məşqlərində iştirak edirdi, hətta 80–90-cı illərdə hərdən nasaz olanda da məşqlərə gedirdi və biz buna etiraz etmirdik, çünki o məşqlərdən sonra özünü daha yaxşı hiss edirdi, ovqatı dəyişirdi, bəlkə özü də bunun fərqində deyildi, amma teatr ona açıq-aşkar müsbət emosiyalar verirdi və bu müsbət emosiyaların yalnız gözəl mənəvi deyil, cismani təsiri də açıq-aşkar idi.

İlyas Əfəndiyev teatra necə bağlıydısa, teatr da ona eləcə bağlı idi.

Aktrisa *Şəfiqə Məmmədova:*

«Bu gün teatra onu yalnız və yalnız İlyas müəllim kimi sevə bilən, onu İlyas müəllim kimi duya və qiymətləndirə bilən bir sənət bilicisi, sənət fədaisi gərəkdir. İlyas müəllim səviyyəsində və masştabında bir sənətkarın teatrla birgə işi, sənət ünsiyyəti böyük nəticələr verdi ki, bu, göz qabağındadır. Özünü bütünlüklə teatra həsr edən bu böyük sənətkara mənim mənsub olduğum sənətkarlar nəsli də çox borcludur.»

Rejissor *Mərahim Fərzəlibəyov:*

«Onun nüfuzu, istedadı, qələminin qüdrəti qarşısında hamı baş əyirdi, bir sözünü iki edən yox idi. O, bəyəndiyi rejissoru hər hansı incəsənət müəssisəsindən çağırıb tamaşasının səhnə təcəssümünü verdirə bilərdi... İlyas Əfəndiyev dramaturgiyası məni bir rejissor kimi yetişdirdi. Mən hər gün İlyas Əfəndiyev dramaturgiyası ilə ünsiyyətdəyəm. Teatrda quruluşunu verdiyim tamaşalar səhnədə olan günlərdə tamaşalarla, yerdə qalan günlərdə pyesləri ilə ünsiyyətdə oluram. Bu zaman İlyas müəllimin müqəddəs ruhi varlığı ilə hər gün dialoqa girir, xəyalən onunla söhbətləşir, məsləhətləşir, əsərlərini müzakirə edirəm. İlyas Əfəndiyevin nəfəsi teatrımızın hər daşına hopmuşdur. Mən onu hər gün tamaşa salonunda hiss edirəm. Mən onu qrim, məşq otaqlarında görürəm. Teatrın hər qarışı, hər bir işığı İlyas Əfəndiyevlə bağlıdır.»





Artist *Səyavuş Aslan:*

«Mən bir sənətkar kimi teatr sənətində başqalaşmağımın, az-çox nəyəsə nail olmağımın səbəbini o qüdrətli sənətkarın öyüd-nəsihətlərində görürəm.»

Artist *Əliabbas Qədirov:*

«Şəxsən mən 30 ilə yaxın yaradıcılığımda az-çox nəyə nail ola bilmişəmsə, bunun üçün İlyas Əfəndiyevə, böyük dramaturq və gözəl insana minnətdaram.»

Artist *Fuad Poladov:*

«Əgər, teatrımızın yaşlı nəslinə mənsub olan aktyorlar söhbətlərində bir aktyor kimi yetişmələrində müasirləri Cəfər Cabbarlının və onun dramaturgiyasının böyük rolundan fəxrlə danışırdılarsa, biz də, yəni altmışıncı illərdə səhnəyə gəlmiş gənclər, cəsarətlə deyə bilərik ki, səhnəyə gəlişimizdə, bir aktyor kimi püxtələşməyimizdə müasirimiz İlyas Əfəndiyevin və onun zəngin dramaturgiyasının müstəsna rolu olmuşdur.»

Aktrisa *Bəsti Cəfərova:*

«Onun teatr sənətinə ülvi, təmiz, yüksək məhəbbəti, sənətkarlara münasibəti, tamaşa üzərində aktyorlarla işləmək bacarığı, tamaşa hazırlanıb istehsalata buraxılandan sonra da tamaşanın qayğısını çəkməyi, tamaşa ilə bağlı hər bir məsələ ilə maraqlanması, sənətdə heç bir kompromisə getməməsi bizə həmişə dərs idi.»

Aktrisa *Firəngiz Mütəllibova:*

«Həyatda kimə və nəyə görə yaşamağımın səbəbini dərk etdiyimə və bir də Vətənimə, xalqıma olan sonsuz sevgimə görə tək bir insana – unudulmaz İlyas Əfəndiyevə borcluyam.»

Aktrisa *Kübra Əliyeva:*

«Mənə hər dəfə sual verirlər: – Kübra xanım, bu sənətə gəlməkdə sənə kim kömək edib, müəllimin, rejissorun kim olub?

Hər yerdə, hər zaman və ömrümün sonuna qədər cavabım budur:

– İlyas Əfəndiyev! İlyas Əfəndiyev! İlyas Əfəndiyev!»

Mən bu mülahizələri oxuyuram və fikirləşirəm ki, İlyas Əfəndiye-

vin teatrla belə bir qarşılıqlı bağlılığının, onun, hələ gənc yaşlarından etibarən, bir yazıçı kimi daima dramaturgiyaya meyl etməsinin, «İlyas Əfəndiyev teatrı»nın Azərbaycan mədəniyyətində yeni keyfiyyətli bədii-estetik bir hadisə kimi meydana çıxmasının, görünür, lap uşaq çağlarından bir işıq kimi içinə dolmuş teatr təəssüratının rolu böyük olmuşdur.

İlyas Əfəndiyev uşaq ikən, Füzulidə, onun özünün sözləri ilə desəm, «kiçik, amma maraqlı, sevincli bir dram dərnəyi var idi» və bu dərnəyi yoxsullaşmış zadəganlardan olan Şamxal bəy Vəzirov təşkil etmişdi. Balaca İlyas o dərnəyin ifasında «Məşədi İbad»a, «Arşın mal alan»a, «Laçın yuvası»na, «Dağılan tifaq»a, «Zorən təbib»ə, «Müfəttiş»ə baxmışdı və bu tamaşalar, şübhəsiz ki, təbiətən çox təəssüratlı bir uşaq olan İlyasa çox təsir etmişdi.

O kiçik dərnəyin fəaliyyət göstərdiyi klub, az bir zaman içində, İlyas Əfəndiyevin sonralar yazdığı kimi, «şəhər əhalisinin yeganə sevinc yeri» oldu. Gənc artistlərin hərəsinin parlaq bir yaradıcılıq xüsusiyyəti meydana çıxırdı: paxlava-peşmək satan Mehdi kişinin oğlu Mürşüd Həşimli şəhərin məşhur tragiki olub, Oqtay Eloğlu, Aydın, Əmiraslan bəy rollarını xüsusi məharətlə oynayırdı. Evlərdə günəmuzd iş görən, xeyirdə-şərdə fəal iştirak edən Xeyransa xalanın oğlu Təhməz, məsələn, «Hacı Qara»da Kərəməli, «Məşədi İbad»da Hambal rollarını oynamaqla şöhrət qazanmışdı. Aşpaz Məmmədəli əminin oğlu Səfər komik rollarda səhnəyə çıxanda tamaşaçılar gülməkdən qəşş edirdilər. Truppanın rejissoru olan Cəmil Vəzirov (Şamxal bəyin kiçik qardaşı. – *E.*) özü Məcnun, Kərəm, Aşıq Qərib kimi rolları məharətlə oynayırdı... Hamı yeni tamaşaların afişalarını böyük həvəslə oxuyurdu, izləyirdi. Rəngli qələmlərlə çəkilmiş afişaların başında həmişə yazılardı: «Həyat müvəqqəti, sənət daimidir.»

İlyas Əfəndiyev bu həvəskar artistləri, onların göstərdiyi o tamaşaları ömrünün sonuna kimi tez-tez yada salırdı və bu zaman açıq-aşkar hiss olunurdu ki, o, həmin cavan artistlərin göstərdiyi tamaşaların əhvali-ruhiyyəsini yenidən yaşayır, yetmiş il əvvəl olduğu kimi, yenə də həmin təəssüratın sirri, sehri və sevinci içindədir.

O da mənim yaxşı yadımdadır ki, 48–49-cu illərdə – onda mənim 5–6 yaşım vardı – yayda, Füzulidə, İlyas Əfəndiyev hansı bir həvəslə məni o teatra aparırdı və artıq tanınmış yazıçı olsa da, Akademik Milli Dram Teatrının səhnəsində böyük aktyorların ifasında üç əsəri tamaşaya qoyulsa da, Füzuli klubunun binasında hansı bir maraqla «Əsli və Kərəm»ə tamaşa edirdi.

İlyas Əfəndiyevin uşaqlıq dövründə gördüyü və dediyim kimi,





sonralar tez-tez xatırladığı həvəskar teatr fədailərinin böyük əksəriyyəti repressiyaların qurbanı olmuş, güllələnmiş, Sibir çöllərinin gedib-qayıtmazlarında itib-batmışdı, salamat qalanlar isə müharibədən qayıtmamışdı və həmin 48–49-cu illərdə o «köhnə qvardiya»dan yalnız Mürşüd Haşımlı – artıq professional əməkdar artist 20–25 il əvvəllərdə olduğu kimi, Qara Keşişi oynayırdı.

Əlbəttə, İlyas Əfəndiyevin teatrla bağlılığı öz başlanğıcını Füzulidəki o kiçik dram dərnəyindən götürmüşdü, amma, eyni zamanda, mən düşünürəm ki, «İlyas Əfəndiyev teatrı»nı yaradan bədii-estetik xüsusiyyətlərin də bünövrəsi elə o dərnəyin sənət ehtirasında, daimi yenilik axtarışlarında, eksperimentlərdən çəkinməməsində qoyulmuşdur.

«İlyas Əfəndiyev teatrı» uzun fasilədən sonra, Azərbaycan teatrına insani hiss-həyəcanların bədii ifadəsini gətirdi və yalnız gətirmədi, onları ön plana çəkdi, hər cür ideoloji şüarçılığı insan psixologiyasının lirik təqdimatı ilə əvəz etdi, sovet dövründəki hakim ideologiyanın yaratdığı sosializm realizmi estetik təmayülünün ziddinə olaraq yaxşıya şirə qatmadı və pisi də gizlətmədi, həyatı bütün mürəkkəbliyi, ziddiyyəti ilə səhnəyə çıxartdı və parlaq istedada malik aktyor nəsillərini yetişdirdi.

Azərbaycan teatrının 37-ci ilin cəhənnəmindən (İlyas Əfəndiyev bu «teatr cəhənnəmini» «Sevgililərin cəhənnəmdə vüsalı» faciəsində təsvir edib) salamat qurtarmış Azərbaycan səhnəsinin, demək olar ki, bütün böyük aktyorları, yaşlı nəslin nümayəndələri İlyas Əfəndiyevin əsərlərində oynamışlar və yəqin ki, oxucular üçün maraqlı olacağını düşünüb, mən, aşağıdakı siyahını tərtib etdim:

Mirzəağa Əliyev – Zeniş («İntizar»), Babadayı («İşıqlı yollar»), Sidqi Ruhulla – Alxas bəy («İntizar»), Ağasadıq Gəraybəyli – Alxas bəy («İntizar»), Vasilyev («İşıqlı yollar»), Nəcəf («Bahar suları»), Qoca knyaz («Xurşidbanu Natəvan»), Əli Qurbanov – Fərrux Haşımzadə («İntizar»), Babadayı («İşıqlı yollar»), Qalmaqal Mədəd («Bahar suları»), Mustafa Mərdanov – Cəfər («İntizar»), Kərim («İşıqlı yollar»), Sadıq Sadıqov («Atayevlər ailəsi»), Əjdər Sultanov – Tofiq («İntizar»), Zəfər («Bahar suları»), Xosrov Atayev («Atayevlər ailəsi»), İsmayıl Osmanlı – Fərrux Haşımzadə («İntizar»), Kefli Bəşir («Bahar suları»), Səxavət («Mənim günahım»), Məmmədəli Vəlixanlı – Zeniş («İntizar»), Hökümə Qurbanova – Sürəyya («İntizar»), Gülarə («İşıqlı yollar»), Şəfəq («Bahar suları»), Lətifə («Atayevlər ailəsi»), Möhsün Sənani – Cəfərqulu («İşıqlı yollar»), Xanmurad («Bahar suları»), Q.Topuriya – Gövhər xanım («İntizar»), Süleyman Tağızadə – Qambay («İntizar»), İsmayıl Dağıstanlı – Qambay («İntizar»), Elmar

(«İşıqlı yollar»), Tahir («Mənim günahım»), Böyük bəy («Mahnı dağlarda qaldı»), Ələsgər Ələkbərov – Alxan («Bahar suları»), Sona Hacıyeva – Gülyaz («İntizar»), Səadət («Bahar suları»), Əli Zeynalov – Səlim («İşıqlı yollar»), İldırım Atayev («Atayevlər ailəsi»), Həsənzadə («Sən həmişə mənimləsən»), Sahib («Mənim günahım»), Leyla Bədirbəyli – Lalə («İşıqlı yollar»), Mehriban («Atayevlər ailəsi»), Nurcahan («Mənim günahım»), Fəxrəndə xanım («Mahnı dağlarda qaldı»), Barat Şəkinskaya – Turac («Bahar suları»), Dilşad («Atayevlər ailəsi»), Mirvari Novruzova – Gülyaz («İntizar»), Turac («Bahar suları»), Gözəl («Mənim günahım»), Yeva Olenskaya – Narıngül («Bahar suları»), Əminə Sultanova – Gövhər xanım («İntizar»), Ballı xala («Bahar suları»), Məlik Dadaşov – Ziya Şahsuvarov («Atayevlər ailəsi»), Həsənağa Salayev – Laçın («İşıqlı yollar»), Ağahüseyn Cavadov – Usta Fayiz («İşıqlı yollar»), Almurad («Mənim günahım»), Sofa Bəsirzadə – Reyhan («Atayevlər ailəsi»), Səadət xanım («Unuda bilmirəm»), Cəvahir xanım («Büllur sarayda»), Məmmədrza Şeyxzamanov – Mövsümzadə («Unuda bilmirəm»), Barsuq («Qəribə oğlan»), Həsənalı («Mahnı dağlarda qaldı»), Əliağa Ağayev – Dadaş («Qəribə oğlan»), Nəcibə Məlikova – Məlahət («Qəribə oğlan»), Qönçə («Büllur sarayda») və başqa sənətkarlar.

Və aktyor oyunu baxımından belə bir zəngin təcrübəyə malik «İlyas Əfəndiyev teatrı», yuxarıda yazdığım kimi, yeni sənətkarlar nəsli yetişdirdi.

Ədəbi tənqidin də, bu sənətkarların özlərinin də dəfələrlə yazdıqları, dedikləri kimi, 60-cı illərdə və sonralar sənətə gəlmiş Həsənağa Turabov, Amalya Pənahova, Şəfiqə Məmmədova, Ələbbas Qədirov, Kamal Xudaverdiyev, Hamlet Xanızadə, Səməndər Rzayev, Hamlet Qurbanov, Səyavuş Aslan, Mikayıl Mirzə, Səfurə İbrahimova, Vəfa Fətullayeva, Fuad Poladov, Yaşar Nuri, Bəsti Cəfərova, Rəfael Dadaşov, Firəngiz Mütəllimova, Nurəddin Mehdixanlı, Ramiz Məlikov və başqa istedadlı aktyorlarımızın yetişməsində, onların sənətinin formalaşmasında, eləcə də Azərbaycan teatr rejissorluğunun, teatr tərtibatının, teatr musiqisinin inkişafında «İlyas Əfəndiyev teatrı»nın böyük, bir çox məqamlarda isə həlledici rolu olmuşdur.

Və bu proses bu gün də davam edir.

Vaqif Yusifli 2002-ci ildə yazır: «Bu gün belə bir etiraf bəlkə daha ucadan səslənməlidir: İlyas Əfəndiyev Cəfər Cabbarlıdan sonra Azərbaycan dramaturgiyasına yeni bir üslub və nəfəs gətirdi, onun pyesləri uzun illər teatrımızın repertuar siyasətində mühüm rol oynadı. «İlyas Əfəndiyev teatr məktəbi» öz missiyasını indi də davam etdirir:






lirik-psixoloji üslub tərzi, həyatın, gerçəkliyin zərif, incə hisslərlə təqdimi, gözəlliyin, həyat poeziyasının bədii-estetik təsdiqi İlyas Əfəndiyevdən sonra da davam edir. «İlyas Əfəndiyev teatr məktəbi» məkanında formalaşan rejissorlar, onun pyeslərinin «qəhrəmanı» olan aktyorlar indi də o böyük sənətkarı minnətdarlıqla xatırlayırlar.»

Bu yerdə mən, bir unikal faktı xatırlamaq istəyirəm: İlyas Əfəndiyevin təkcə bir teatrın – Akademik Milli Dram Teatrının səhnəsində 19 pyesi tamaşaya qoyulmuşdur və bu, müasir dünya teatr tarixində analoqu olmayan bir hadisədir.

Həmin tamaşalar bunlardır:

«İntizar» (Mehdi Hüseynlə birlikdə yazılıb) – ilk tamaşası 26 dekabr 1944-cü ildə oynanılıb. Quruluşçu rejissoru Səftər Turabov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Əfrasiyab Bədəlbəyli idi.

«İşıqlı yollar» – ilk tamaşası 19 iyul 1947-ci ildə oynanılıb. Quruluşçu rejissoru Adil İsgəndərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, geyim eskizlərinin müəllifi Bədurə Əfqanlı, bəstəkarı Fikrət Əmirov idi.

«Bahar suları» – ilk tamaşası 11 dekabr 1948-ci ildə oynanılıb. Quruluşçu rejissoru Adil İsgəndərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, geyim eskizlərinin müəllifi Bədurə Əfqanlı, bəstəkarı Səid Rüstəmov idi.

«Atayevlər ailəsi» – ilk tamaşası 9 oktyabr 1954-cü ildə oynanılıb. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Sadıq Şərifzadə, bəstəkarı Niyazi idi. (Həmin tamaşa yenidən bərpa olundu və 4 dekabr 1960-cı ildə ilk tamaşası göstərildi.)

«Sən həmişə mənimləsən» – 14 noyabr 1964-cü ildə oynanıldı. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Elçin Aslanov, bəstəkarı Fikrət Əmirov idi.

«Mənim günahım» – ilk tamaşası 5 may 1967-ci ildə oynanıldı. Quruluşçu rejissoru Əşrəf Quliyev, quruluşçu rəssamı Böyükağa Mirzəzadə, bəstəkarı Sultan Hacıbəyov idi.

«Unuda bilmirəm» – ilk tamaşası 1 noyabr 1968-ci ildə oynanıldı. Quruluşçu rejissoru – Tofiq Kazımov, quruluşçu rəssamı Sənan Qurbanov, bəstəkarı Emin Sabitoğlu idi.

«Məhv olmuş gündəliklər» – ilk tamaşası 29 noyabr 1969-cu ildə oynanıldı. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Sənan Qurbanov, bəstəkarı Emin Sabitoğlu idi.

«Mahnı dağlarda qaldı» – ilk tamaşası 12 fevral 1971-ci ildə oynanılıb. Quruluşçu rejissoru Əliheydər Ələkbərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Süleyman Ələsgərov idi.

«Qəribə oğlan» – ilk tamaşası 17 fevral 1973-cü ildə oynanılıb.

Quruluşçu rejissoru Ağakişi Kazımov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Emin Sabitoğlu idi.

«Bağlardan gələn səs» – ilk tamaşası 1 oktyabr 1975-ci ildə oynanılıb. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Emin Sabitoğlu idi.

«Xurşidbanu Natəvan» – ilk tamaşası 11 sentyabr 1981-ci ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Elçin Aslanov, bəstəkarı Arif Məlikov idi.

«Büllur sarayda» – ilk tamaşası 17 sentyabr 1983-cü ildə oynanılıb. Quruluşçu rejissoru Ağakişi Kazımov, quruluşçu rəssamı Tahir Tahirov, bəstəkarı Oqtay Kazımov idi.

«Şeyx Məhəmməd Xiyabani» – ilk tamaşası 20 dekabr 1986-cı ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, musiqisi isə seçmə tərtibatlı idi.

«Bizim qəribə taleyimiz» – ilk tamaşası 9 aprel 1988-ci ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Emin Sabitoğlu idi.

«Sevgililərin cəhənnəmdə vüsalı» – ilk tamaşası 21 aprel 1989-cu ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rasim Nəzirov, bəstəkarı Cavanşir Quliyev idi.

«Tənha iydə ağacı» – Akademik Milli Dram Teatrı təmirdə olduğu üçün, ilk tamaşa 6 mart 1991-ci ildə Respublika Sarayında oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rafiz İsmayılov, bəstəkarı Cavanşir Quliyev idi.

«Ağıllılar və dəlilər» – Akademik Milli Dram Teatrının təmiri uzandığı üçün, ilk tamaşa 9 noyabr 1992-ci ildə Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rafiq Abdullayev, bəstəkarı Vasif Adıgözəlov idi. Bu tamaşa İlyas Əfəndiyevin özünün gördüyü sonuncu premyera idi.

«Hökmdar və qızı» – altı il çəkən təmirdən sonra Akademik Milli Dram Teatrı 1996–1997-ci il teatr mövsümünü ilk tamaşası 17 noyabr 1996-cı ildə oynanılan bu əsərlə açdı. Quruluşçu rəssamı Mərahim Fərzəlibəyov, quruluşçu rejissoru İsmayıl Məmmədov, musiqisinin tərtibatında isə Vasif Adıgözəlovun və Polad Bülbüloğlunun əsərlərindən istifadə olunmuşdur.

Sonuncu tamaşa göstərilərkən, artıq İlyas Əfəndiyevin vəfatından 44 gün keçmişdi...

Bu tamaşaların, demək olar ki, hamısı tamaşaçılar tərəfindən böyük





maraq və hərarətlə qarşılanıb və orasını da deyim ki, İlyas Əfəndiyevin tamaşaları, demək olar ki, həmişə anşlaqla gedirdi.

Akademik Milli Dram Teatrının arxivində qorunub saxlanmış məlumatlar əsasında İlyas Əfəndiyevin həmin teatrdakı tamaşalarının sayı barədə bəzi rəqəmləri oxuculara təqdim etmək istəyirəm:

«Unuda bilmirəm» – 424 dəfə (müxtəlif bölgələrə qastrollarla birlikdə 500-dən çox);

«Büllur sarayda» – 304 dəfə (qastrollarla birlikdə 400-dən çox);

«Qəribə oğlan» – 285 dəfə (qastrollarla birlikdə 300-dən çox);

«Sən həmişə mənimləsən» – 143 dəfə (qastrollarla birlikdə 250-dən çox);

«Xurşidbanu Natəvan» – 106 dəfə (qastrollarla birlikdə 150-dən çox);

«Bizim qəribə taleyimiz» – 103 dəfə (qastrollarla birlikdə 140-dan çox);

«Ağıllılar və dəlilər» – 103 dəfə (qastrollarla birlikdə 130-dan çox) və s.

Bu tamaşaların səhnə ömrünə nəzər salaq:

«Unuda bilmirəm» – 1 noyabr 1968-ci ildə tamaşaya qoyulub, son tamaşası isə 4 iyul 1985-ci ildə göstərilib. 17 il fasiləsiz repertuarda olub.

«Qəribə oğlan» – 8 aprel 1973-cü ildə tamaşaya qoyulub, son tamaşası 8 yanvar 1988-ci ildə göstərilib. 15 il fasiləsiz repertuarda olub.

«Mahnı dağlarda qaldı» – 12 fevral 1972-ci ildə tamaşaya qoyulub, son tamaşası isə 23 sentyabr 1983-cü ildə göstərilib. 11 il fasiləsiz repertuarda olub.

Və s., onun 3–4 ildən az repertuarda olan tamaşası, demək olar ki, yoxdur.

Bir neçə il bundan əvvəl, «İlyas Əfəndiyev teatrı»nın istedadlı tədqiqatçılarından biri olan İlham Rəhimli yazırdı: «Azərbaycan teatrının 123 illik tarixində ona xidmət edən yüzlərlə milli dramaturqlarımız olub. Ancaq onların arasında öz teatrını yaradan, öz səhnə estetikasını, öz poetika göstəricilərini müəyyənləşdirən dramaturqlar çox azdır: Mirzə Fətəli, Mirzə Cəlil, Cəfər Cabbarlı, Əbdürrəhimbəy, Hüseyn Cavid... Bu siyahıda İlyas Əfəndiyevin adı ən ləyaqətli yerlərdən birini tutur. «İlyas Əfəndiyev teatrı» son otuz ilin milli səhnə fəaliyyətinin tənzimləyicisi, mənəvi-əxlaqi problemlərin bədii təcəssümçüsü, yeni teatr poetikasının müəyyənləşdiricisi, təzə aktyor nəslinin formalaşdırıcısı olub.»

İlyas Əfəndiyev və teatr mövzusu ilə bağlı bu kiçik qeydləri bitirmək istərkən bir epizod yadıma düşdü. Təxminən iki il bundan

əvvəl, soyuq bir qış axşamı Akademik Milli Dram Teatrının o zamankı direktoru və bədii rəhbəri Həsənağa Turabovun iş kabinetində idim. Rəhmətlik Eldəniz Zeynalov kabinetə girdi və məni görəndə özünü saxlaya bilməyib qucaqladı və dolmuş bir halda:

– İlyas müəllimdən sonra, teatr yetim qalıb!.. Hamımız yetim qalmışıq!.. – dedi.

Mən bu kiçik (amma heç vaxt mənim yadımdan çıxmayacaq!) epizodu ona görə xatırladım ki, əgər səhv etmirəmsə, Eldəniz Zeynalov İlyas Əfəndiyevin yalnız bir əsərinin – «Ağıllılar və dəlilər» – tamaşasında epizodik Ağadadaş Nəcəfov rolunda Hacı İsmayılovun dublyoru olub və o da İlyas Əfəndiyevsiz teatrda özünü yetim hiss edirdi...

Və nəhayət «İlyas Əfəndiyev və teatr» mövzusu ilə bağlı bir faktı da demək istəyirəm, çünki bu fakt da İlyas Əfəndiyevin şəxsiyyəti, xasiyyəti barədə az söz demir: o, Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü deyildi...

Və həmin İttifaqa üzv olmaq üçün İlyas Əfəndiyevdən zəmanət almaq istəyən cavan (və qeyri-cavan!) dramaturqlar, ümumiyyətlə, teatr sənəti ilə bağlı olan adamlar bu faktı biləndə mat qalırdılar...

## 7.

İlyas Əfəndiyevin «Seçilmiş əsərləri»nin bu yeni nəşrinin oxucuları, yaxşı tanıdıqları nasir İlyas Əfəndiyev ilə, yaxşı tanıdıqları dramaturq İlyas Əfəndiyev ilə bərabər, güman edirəm ki, bir o qədər də yaxşı tanımadıqları tənqidçi İlyas Əfəndiyevi də oxumaq imkanı əldə edəcəklər.

Doğrusunu deyim ki, İlyas Əfəndiyevin məqalələrini müxtəlif illərdə ayrı-ayrılıqda oxusam da, bu dəfə onları bir yerdə, bir toplu şəklində oxuduqda, mən özüm də maraqlı bir faktla qarşılaşdım: söhbət ədəbiyyatın aktual problemləri ilə bağlı və ardıcıl surətdə məqalələr yazan yazıçı İlyas Əfəndiyevdən yox, professional nasir, professional dramaturq kimi, professional da tənqidçi İlyas Əfəndiyevdən gedir.

Bu məqalələrin elmi-nəzəri səviyyəsi, bədii-estetik maraqları güdmək ehtirası, mövzu genişliyi, təhlil obyekti seçilən əsərlərin janr müxtəlifliyi bu fikri söyləməyə əsas verir və bu mənada İlyas Əfəndiyev XX əsrdə bizim yazıçı-tənqidçi müştərəkliyini qələmində üzvi şəkildə birləşdirən sənətkarlarımızdan biridir.

İlyas Əfəndiyevin məqalələrini xronoloji ardıcıllıqla oxuduqda, professionallığa aparan elmi-nəzəri xəttin necə formalaşmasının, necə sabitləşməsinin əyani şahidi oluruq.

Onun ilk məqaləsi – «Bataqlıq soldatları» adlı film haqqında





Ə.Bəbirlə birlikdə yazdığı resenziya «Yeni yol» qəzetinin 14 dekabr 1938-ci il nömrəsində çap olunub və həmin məqalə, ümumiyyətlə, İlyas Əfəndiyevin mətbuatda çıxmış ilk yazısıdır.

Orası da, yəqin, maraqlı (və əlamətdar!) bir cəhətdir ki, bu ilk yazıdan sonra, İlyas Əfəndiyevin «Ədəbiyyat» qəzetində dərc olunmuş ilk müstəqil məqaləsi Milli Dram Teatrımızın səhnəsində tamaşaya qoyulmuş «Müsibəti Fəxrəddin» tamaşası haqqında resenziyadır; bu mənada maraqlıdır ki, gənc yazıçı ilk müstəqil tənqidi fikrini gələcək yaradıcılıq həyatının (və ümumiyyətlə, həyatının) 1944-cü ildə «İntizar»ın tamaşasından sonrakı 52 ili ilə ən sıxı surətdə bağlı olacaq bir sənət ocağı haqqında söyləmişdir.

Bu məqaləni mən 60-cı illərin ikinci yarısında mətbuatı araşdırarkən tapıb oxumuşdum və 30 ildən sonra – vəfatından bir-iki il əvvəl mən bu ilk müstəqil məqaləni İlyas Əfəndiyevin yadına saldım və soruşdum ki, necə oldu, bu ilk məqalə o teatrdan bəhs etdi?

İlyas Əfəndiyev:

– Yəqin təhtəlşüur olub... – dedi.

Və biz fikir versək, görərik ki, Akademik Milli Dram Teatrının, qismən də başqa teatrların tamaşaları haqqında, daha geniş götürsək, ümumiyyətlə, teatr, dramaturgiya və kino problematikası İlyas Əfəndiyevin ədəbi tənqidində çox mühüm yer tutur.

Yəqin bu da təsadüfi deyil ki, Azərbaycan yazıçılarının II qurultayına (1954) və III Qurultayına (1958) dramaturgiya haqqında məruzələri İlyas Əfəndiyev etmişdir və onun, həmin məruzələrin əsasında yazdığı «Müasir dramaturgiyamız», «Son illərdəki dramaturgiyamız haqqında», eləcə də «Cavan dramaturqlar» və s. kimi sanballı məqalələri, «Kəndçi qızı»ndan tutmuş «Antoni və Kleopatra»yacan bir çox tamaşalar haqqında geniş və ciddi resenziyaları, teatr xadimləri barədə esseləri bir tərəfdən Azərbaycan teatr sənətinin, digər tərəfdən isə Azərbaycan sənətşünaslığının inkişafında, yüksək bədii-estetik meyarların formalaşmasında az rol oynamamışdır.

Ancaq eyni zamanda, Azərbaycan nəsri və poeziyası da, İlyas Əfəndiyev ədəbi tənqidinin əsas mövzuları idi və bu yerdə söhbət yalnız həmin məqalələrin kəmiyyət göstəricilərindən getmir – bu, öz yerində (bu nəşrin yeddinci cildinə 95 məqalə, 14 geniş müsahibə daxil edilmişdir, bir çox məqalə və müsahibələr isə, cildin həcmi imkan vermədiyi üçün, kənarda qalmışdır), söhbət, bəlkə də daha artıq dərəcədə ondan gedir ki, bütün bu janrlar İlyas Əfəndiyev üçün ədəbiyyat haqqında, sənət haqqında, daha geniş götürsək, mədəniyyət və

mənəviyyat haqqında fikirlərini söyləmək üçün eyni dərəcədə münbit zəmin yaradırdı.

Tənqidçi Şamil Salmanov yazır: «Hər bir böyük yazıçı kimi, İlyas Əfəndiyev də öz dövrünün ədəbi prosesinə, ədəbi düşüncəsinə qüvvətli təsir göstərmiş sənətkarlardandır.»

Bu fikrə yalnız onu əlavə etmək olar ki, həmin «qüvvətli təsir»də İlyas Əfəndiyevin qələmi sırf tənqidçi qələmi kimi də ciddi rol oynamışdır.

İlyas Əfəndiyevin bədiiliyə münasibəti və bu münasibətdən doğan estetik tələbatı hələ gənc yaşlarından etibarən dəqiq və aydın idi.

O, 1945-ci ildə, müharibənin yenicə bitdiyi günlərdə «Ədəbiyyat» qəzetində çap etdirdiyi «Yüksək sənət uğrunda» adlı məqaləsində dövrün (hakim və qorxunc sovet – Stalin ideologiyasının!) ən çox təbliğ etdiyi və bir çox istedadsız «yazı-pozuçuların», sırf bədii-estetik tələblər qarşısında polad qalxanına, zirehli əbasına çevrilmiş müqəvva «müsbət qəhrəman»la bağlı yazırdı:

«Həyatda tez-tez, bəlkə də, hər gün təsadüf etdiyimiz adamı biz, təəssüf ki, hekayə və romanlarımızda ya heç görmürük və ya görsək də, sevə bilmirik. Çünki müəllif onu hadisələrin təbii gedişində deyil, havadan asılı vəziyyətdə saxlamağa, qəsdən «yaxşı» göstərməyə çalışır, başını tumarlayır, yerli-yersiz ona «hakimanə sözlər» dedirtməyə cəhd edir. Bu «hakimanə sözlər» neçə yüz il bundan qabaq dəfələrlə deyilmişdir. Müəllif insanın mürəkkəb daxili aləmini, onun saysız-hesabsız ziddiyyətlərini unudaraq, qəhrəmanın hər bir hərəkətini «yaxşılıq», «əlalıq» kimi qələmə verir. Yazıq adam, Balaşın ölü paltarı geymiş atasının vəziyyətinə düşür, quruyub qalır, boynunu belə tərpədə bilmir. Sonra müəllif, metaldan qayrılmış mexaniki adamı radio ilə idarə etdikləri kimi, öz qəhrəmanını başlayır hərəkət etdirməyə: «Sağa dön! Filankəsə bax! Burada əxlaq barəsində nitq irad et!» Nəticədə belə olur ki, oxucu müəllifin hamıya çoxdan məlum olan çeynənmiş sözlərini «mexaniki qəhrəmanın» ağzından eşidərkən əsnəməyə başlayır və axırda yadında heç nə qalmır.

O yerdə ki, oxucular qeyd etməyə başlayır ki, sən filan sözü qəhrəmanına qəsdən dedirdirsən, çünki sənə belə lazımdır, orada artıq sənət öz təsir gücünü itirməyə başlayır. Flober bu məsələ haqqında yazır: «Mən elə güman edirəm ki, romançı heç bir münasibətlə öz fikrini açıqdan-açığa qeyd etməməlidir.»

Bir daha yada salaq ki, ən qəti (və qatı!) surətdə sosializm realizmi ədəbi prinsiplərinin əleyhinə deyilən, hakim ideologiyanın heç cürə qəbul etmədiyi və buna görə də, əslində, yasaqda saxladığı «insanın





mürəkkəb daxili aləmini, onun saysız-hesabsız (! – *E.*) ziddiyyətlərini» bədii ədəbiyyatda görmək istəyən bu fikirlər, 1945-ci ildə, yəni «radio ilə idarə edilən» həmin «mexaniki adam»ın ədəbiyyatda hegemonluq etdiyi, yüksək qiymətləndirildiyi, dərsliklərə salındığı, müəlliflərinin mükafatlandırıldığı, «canlı klassik» elan edildiyi bir vaxtda söylənilib...

Və bu xətt – ədəbiyyata, sənətə belə bir psixoloji-estetik meyarlarla yanaşmaq – İlyas Əfəndiyev estetikasının əsas müddəalarından biri və bəlkə də, başlıcası idi və illər ötdükcə bu xətt onun özünün bədii yaradıcılığında da, onun ədəbi tənqidində də açıq-aşkar aparıcı magistrala çevrilmişdi.

Mən artıq yazmışam ki, mütaliə İlyas Əfəndiyevin gündəlik həyatının çox mühüm və dəyişməz bir hissəsi idi və onun bədii-estetik zövqünün formalaşmasında, şübhəsiz ki, mühüm rol oynamışdı.

İlyas Əfəndiyevin mütaliəsi azad, sərbəst və eyni dərəcədə də özünəməxsus bir mütaliə idi, yəni bu mənada ki, xoşuna gəlməyən əsəri, kim nə qədər tərifləyir, təriflənsin, özünü məcbur edib axıra qədər oxumazdı, yaxud rus klassik ədəbiyyatını, xüsusən Lev Tolstoyu və Anton Çexovu mükəmməl bilirdi və yüksək qiymətləndirirdi, amma müasir rus ədəbiyyatını izləmirdi, çünki, ümumiyyətlə, sovet ədəbiyyatı onun üçün maraqlı deyildi, hərçənd «Sakit Don»u və ümumiyyətlə, Şoloxovu, Fadeyevin «Tar-mar»ını, Katayevin son povestlərini, Trifonovu, Belovu, Rasputini yüksək qiymətləndirirdi, Aleksey Tolstoyu və Konstantin Fedini istedadlı yazıçılar hesab edirdi.

Ən çox sevdiyi yazıçılardan biri, bəlkə də birincisi Stendal idi. Balzakı, Floberi, Dikkensi, XX əsr yazıçılarından Stefan Sveyqi, Folkneri, Heminqueyi, Remarkı, Apdaykı çox bəyənirdi. Şekspiri, Lope de Veqanı, Molyeri, Qaldonini, Bomarşeni, Şilleri tez-tez xatırlayırdı, onların əsərlərindən misallar çəkirdi.

XX əsr dramaturgiyasında Pirandellonu, Şounu, O'Keysini, O'Nili, Artur Milleri, Anuyu, Piter Ustinovu, Eduardo de Flipponu maraqla oxuyurdu. Rus dramaturgiyasında Çexovun pyeslərini böyük hadisə hesab edirdi, Ostrovskinin, Qorkinin isə dramaturgiyasını qəbul etmirdi. Rus sovet dramaturqlarından yalnız Rozov onun üçün maraqlı idi.

Çox sevdiyi kitablar «Don Kixot» və «Robinzon Kruzo» idi və bu kitabları yeniyetmə çağlarında oxuduğuna baxmayaraq, bütün epizodlar təfərrüatlarına kimi yadında idi. Ümumiyyətlə, onun oxucu yaddaşı, həqiqi mənada, heyrətamiz bir şey idi.

1988-ci ildə yazdığı bir essedə belə bir hadisəni xatırlayırdı:

«Bir dəfə Lev Tolstoy barədə söhbət edirdik. Mehdi (söhbət Mehdi Hüseyndən gedir. – *E.*) Tolstoyun bir-iki ştrixlə obrazın portretini oxu-

cunun gözü qarşısında necə canlandırdığından danışırdı. Andrey Balkonskinin arvadı Lizanın təsvirindən danışanda, onun üst dodağının alt dodağından bir qədər uzun olduğunu söylədikdə mən dedim:

– Əksinə, üst dodağı alt dodağından qısa təsvir edilmişdir.

Mehdi dərhal hirslənib:

– Gəl, mərcləşək! – dedi.

Dedim:

– Mərcləşək!

– Bir «İnturist» qonaqlığından?!

Dedim:

– Oldu!

Mehdi «Hərb və sülh» romanının birinci cildini götürüb həmin yeri açdı və məlum oldu ki, mən deyən kimidir. Mehdinin əməlli-başlı pərt olduğunu görüb dedim:

– Yəqin sən çoxdan oxumusan, Mehdi, amma mən bu yaxınlarda oxumuşam. Ona görə də yadımda qalıb.

Həqiqətdə isə, mən o romanı yalnız bir dəfə, özü də hələ yazıçı olmayanda – Füzulidə oxumuşdum. Hafizəm çox yaxşı olduğundan, «Hərb və sülh»ü çox sevdiyimdən detalların yadımda qalması təəccüblü deyildi.

Fatma xanım bərkdən gülüb:

– A kişi, – dedi, – uduzdun, apar uşaqların qonaqlığını ver.»

40–50-ci illərdə, hətta, 70 –80-ci illərdə də ədəbi dairələrdə yalançı bir şüar hökm sürürdü: «Həyatı öyrənmək lazımdır!» və bu zaman həmin «həyat» məfhumu, əslində, kolxozdan, sovxozdan, fabrikdən, zavoddan, bir sözlə, istehsalatdan ibarət idi.

Bu şüarın əks qütbündə isə, bu gün nə qədər qəribə səslənsə də, kitab dayanırdı, yəni, filankəs həyatı (neft istehsalını, baramaçılığı, camışçılığı, yaxud qaynaqçı peşəsini və s.) bilmir, kitabdan gəlir...

İlyas Əfəndiyev söhbətlərində tez-tez bu mövzuya toxunurdu:

– Həyat ilə kitabı qarşı-qarşıya qoymaqdan da əbləh bir şey tapmaq mümkün deyil! – deyirdi. – Onda Qraf Tolstoy, ya lord Bayron gərək əllərinə qələm almayaydılar... Özləri kitab oxumur, çünki kitaba yad adamlardı, ona görə də ortaya belə şüarlar atırlar!..

Bir də İlyas Əfəndiyev deyirdi:

– Həyatı öyrənmək lazım deyil, həyatı hiss etmək lazımdır!

İlyas Əfəndiyev heç vaxt redaksiyaların sifarişi, yaxud kiminsə xahişi ilə məqalə yazmırdı, o, ədəbi tənqiddə də tamam sərbəst, azad bir adam idi və onun qələmə aldığı mövzunu, onun hissiyyatı, zövqü,





sənət düşüncələri diqtə edirdi, o, həvəsi olmasa, qələmini nəyi isə yazmağa məcbur edən adam deyildi.

Artıq çox uzaqlarda qalmış bir epizodu da xatırlamaqla bu barədə söhbətimi yekunlaşdırmaq istəyirəm.

Mən 1969-cu ildə, 26 yaşında namizədlik dissertasiyası müdafiə etdim və o müdafiə çox uğurlu keçdi, rəhmətlik Abbas Zamanov, opponentim olan Mehdi Məmmədov, Məmməd Hüseyn Təhmasib, Mirəli Seyidov və başqaları təklif etdilər ki, mənə birdən-birə doktorluq adı verilsin. O zamanın qaydasına görə dissertasiyanın avtoreferatını, sənədləri təsdiq olunmaqdan ötrü Moskvaya, Ümumittifaq Attestasiya Komissiyasına göndərdim. O materialların ardınca Moskvaya təcili anonim bir məktub göndərmişdilər ki, Elçinin dissertasiyasını özü yox, atası İlyas Əfəndiyev yazıb.

Bu hadisə İlyas Əfəndiyevi qəzəbləndirmək əvəzinə, ona ləzzət eləmişdi və gülə-gülə deyirdi:

– Əşşi, mənim dissertasiya yazmaq həvəsim olsaydı, indiyə qədər elə oturub özüm üçün yazardım də!..

## 8.

Mən artıq qeyd etdim ki, İlyas Əfəndiyev ömrü boyu vəzifəni, iclasları, bürokratik aparatı, sovet ədəbi-ictimai həyatının cürbəcür «seçkili» orqanlarını heç vəchlə yaxına buraxmayan bir adam idi (yalnız cavan çağlarından etibarən həmişə Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin, bir də ki, Akademik Milli Dram Teatrı Bədii Şurasının üzvü olmuşdu, vəssalam!), onda, bütün bunlara qarşı təbii bir allergiya var idi, amma eyni zamanda o, (və bu, xüsusən sovet gerçəklikləri kontekstində qəribə görünürdü) dünəninə, bugününə və sabahına görə hər an xalqının təəssübünü çəkməyə hazır olan (və çəkən!) bir ictimai xadim idi, oxucular da, ictimai mühit də onu ictimai xadim kimi qəbul edir və ona hörmət bəsləyirdilər.

Unudulmaz maestro Tofiq Quliyev hələ İlyas Əfəndiyevin sağlığında ikən yazırdı:

«Mənim əziz dostum İlyas Əfəndiyev böyük dramaturq və nasirdir, onun müasir Azərbaycan ədəbiyyatının və teatr sənətinin inkişafında müstəsna xidmətləri var, o ən çox oxunan, sevilən Azərbaycan yazıçılarından biridir... Bir cəhəti də qeyd etmək istəyirəm: İlyas Əfəndiyev canı ilə, qanı ilə ədəbiyyata, sənətə bağlılığı ilə bərabər, həm də görkəmli ictimai xadimdir.»

Doğrudan, qəribədir, Sovet İttifaqında yaşayasan, heç zaman deputat seçilməyəsən, nəinki heç vaxt partiyanın rəhbər orqanlarında,

ümumiyyətlə, heç Kommunist Partiyasının sıravi üzvü də olmayasan və səni ictimai xadim kimi də qəbul etsinlər – SSRİ-də çətin analoqu tapılan bir hadisədir.

Şəxsən mənim üçün, burada bir sirri-xuda yoxdur: İlyas Əfəndiyevin ictimai xadimliyi də onun qələminin bəhrəsi idi. Onun ictimai xadimliyini «yüksək» tribunalarda boğazdan yuxarı bir səmimiyyətlə söylənən «atəşin» çıxışlar yox, təyinatlı deputat fəaliyyəti, icazəsi verilmiş təşəbbüskarlıq, tapşırılmış bəyanatlar, çağırışlar yox, qələminin vətəndaş ehtirası müəyyən edirdi.

İlyas Əfəndiyev hələ Sovet İttifaqı vaxtında həmin vətəndaş ehtirası ilə yazırdı: «Axı, biz, tribunalarda «vicdan, vicdan!» deyə bağıraraq, Didrodan, Aristoteldən sitatlar gətirən, əslində, pambıqla baş kəsən, hər hökumət, partiya başçısının vaxtında bir dona girən, bu gün təriflədiyi «rəhbəri» sabah bağıra-bağıra pisləyən buqələmunları çox görmüşük.»

Həmin buqələmun ictimai xadimlər həmişə həm yazıçı İlyas Əfəndiyevin, həm də ictimai xadim İlyas Əfəndiyevin qələminin hədəfi idi.

1991-ci ilin yanvarında – hələ sovet imperiyasının şərəfsizcəsinə süqutundan əvvəl, İlyas Əfəndiyev «Mənliyimiz və mədəniyyətimiz» adlı məqaləsində yazırdı:

«Son yetmiş ildə Stalin repressiyası insanlarda bütün müqəddəs ideyalara inamı məhv etdi. İş o dərəcəyə çatdı ki, hətta, genlərin təsirinə, kibernetikaya inanmaq qadağan edildi. Stalinin zorla yaratdığı kollektivləşmə, yalançı beynəlmiləlçilik, kobud ateizm adamlarda paxıllıq, ikiüzlülük, közü öz qabağına eşmək, yaltaqlıq, satqınlıq kimi keyfiyyətləri sürətlə artırdı. Qardaş qardaşa, ata oğula inanmadı. Beləliklə, dəmir hasara alınmış sovet cəmiyyətində insanın daxili-ülvi mədəniyyətini cəhənnəm adamının soyuq amansızlığı əvəz etdi. Cəmiyyətin insani müvazinəti pozuldu.»

İlyas Əfəndiyevin ictimai xadimliyi, öz imkanları daxilində, amma ehtirasla güddüyü həmin «insani müvazinəti pozulmuş cəmiyyətdə» doğma xalqının marağı idi.

Mən heç vəchlə istəməzdim ki, oxucu, mənim nəyisə ideallaşdırmaq meylimdən şübhələnsin (onsuz da belə bir «ideallaşdırmanın» heç bir perspektivi, deməli, heç bir mənası yoxdur, İlyas Əfəndiyev demişkən, saf-çürüyü – tarix aparır və tarixin işinə də qarışmaq lazım deyil, çünki mümkün deyil!).

Bəli, İlyas Əfəndiyevin də elə publisist yazılarında, ciddi məqalələrində elə abzaslara rast gəlmək mümkündür ki, orada hakim ideologiyanın tələb etdiyi tərənnümlər, xeyli dərəcədə az da olsa,





təkrar olunur, ancaq bu, onun yaradıcılığının və vətəndaş mövqeyinin fonunda, bəlkə də, çox birbaşa deyirəm, açıq-aşkar bir komfulyaj rolu oynayır və bunu görmək üçün xüsusi cidd-cəhd də lazım deyil.

Sovet İttifaqında yaşamayan, sovet gerçəkliyini gözü ilə görməyən və o mühitdə yaradıcılıqla məşğul olmayan bir kəs bəlkə də, belə bir komfulyajı qəbul edə bilməz, çünki bunu başa düşmək, hiss eləmək çətin məsələdir.

Bir epizod yadıma düşür.

2001-ci ilin yanvarında, Nyu-Yorkda, BMT-nin fəaliyyətini işıqlandıran və ədəbiyyatdan da yaxşı xəbərdar olan jurnalist Con Lafeytlə söhbət əsnasında bu mövzu gəlib ortaya çıxdı və o, açıqca mənə dedi:

– Bilirsiz, cənab Elçin, mən belə bir komfulyajı heç cürə qəbul edə bilmərəm. Çünki mənim gözümün qabağına Bulqakov gəlir. Mənim üçün «Ustad və Marqarita» nümunəsi var!

O zaman mən:

– Əzizim, Con! – dedim, – onda gedin, elə həmin Bulqakovun Koba haqqında yazdığı pyesi oxuyun...

Bununla mən, təbii ki, həmin «ədəbi komfulyaja» bəraət qazandırmaq məqsədi güdmürəm, sadəcə olaraq, izah etmək istəyirəm ki, «sovet ədəbi komfulyajı» bir sıra həqiqi sənətkarlar üçün parovoz rolu oynayırdı, sistemə yad, ögey, hətta, qərəzli əsərləri öz ardınca çəkib apara bilirdi...

İlyas Əfəndiyevin vətəndaş mövqeyi və fəaliyyəti ilə bağlı yalnız bir nümunənin üzərində qısaca dayanmaq istəyirəm: Cənub mövzusu.

Hələ 1983-cü ildə, uşaqlıq yoldaşı, Füzulidə bir məktəbdə oxuduqları, sonradan tanınmış tarixçi olan professor Əhəd Bağırzadə haqqında yazdığı bir essedə, İlyas Əfəndiyev həmin uşaqlıq illərini keçirdiyi yerləri xatırlayır və yazırdı:

«Şəhərin (Füzuli nəzərdə tutulur. – *E.*) bir kilometr şimalında Hacılı arxı keçirdi. Əslində bu arx deyildi, qış-yay axan balaca bir çay idi. Hacılı arxından yüz əlli-iki yüz metr şimalda, yazda daşıb göylə gedən gurultulu Quruçay, ondan da bir qədər şimalda, dolana-dolana Köndələnçay axırdı. Quruçayla Köndələnçayın arasında kəsik konus şəklində «Qaraköpək» adlanan bir təpə ucalır. Onun üstündən baxanda Arazın o tayında gümüşü bir duman altında uzaq bir əfsanə kimi Savalan dağı görünür. Biz bilirdik ki, Savalan dağının ucaldığı o yerlərdə də azərbaycanlılar yaşayır. Lakin heç bir əlaqəmiz, gediş-gəlişimiz olmadığından oradakı həyat bizə ancaq nağıllardan bəlli idi.»

İllər keçdikcə o nağıl aləmi İlyas Əfəndiyevin düşüncəsində sərt

bir reallığa çevrilir və onun üçün Vətən – bölünməz idi, Vətən – yalnız Arazboyu Qarabağ deyildi, Vətən – yalnız SSRİ-nin tərkibindəki Sovet Azərbaycanı deyildi, Vətən – şimallı-cənublu, şərqli-qərbli Azərbaycan idi.

1968-ci ildə İlyas Əfəndiyevin «Unuda bilmirəm» əsəri tamaşaya qoyuldu və «Sən həmişə mənimləsən»dən sonra ikinci böyük uğur qazandı.

«Sən həmişə mənimləsən»lə Azərbaycan teatrına gələn və bundan sonra İlyas Əfəndiyevin on bir əsərində baş rolları ifa edən Amalya Pənahova yazır: «Unuda bilmirəm» tamaşasında Nərmin surəti ilə düz 500 dəfə səhnəyə çıxmışam və hər dəfə də böyük şövqlə. Bu tamaşayla teatra axın-axın tamaşaçı gəldi.»

Və o «axın-axın» tamaşaçı, şübhəsiz ki, 40-cı illərin sonlarından etibarən «Cənub» mövzusunun get-gedə artan bir sərtliklə Azərbaycan ədəbiyyatında, ümumiyyətlə, Azərbaycan ictimai fikrində qadağan olunduğu bir zamanda, Azərbaycan səhnəsində ilk dəfə özünün bədii ifadəsini tapmış bu mövzunu da alqışlayırdı.

Bu tamaşaya ictimai baxış keçirilən 1968-ci ilin o küləkli-çiskinli payız günü mənim yaxşı yadımdadır. Tofiq Kazımovun yaratdığı yaradıcı heyət – qocaman Məmmədrza Şeyxzamanovla (Möhsünzadə), Sofa Bəsirzadə ilə (Səadət xanım), Muxtar Avşarovla (Kərəm dayı) birlikdə, gənc Həsənağa Turabovun (Kamran), Amalya Pənahovanın (Nərmin), Hamlet Qurbanovun (Cəmil) oyunu, gənc Solmaz Haqverdiyevanın tərtibatı və Emin Sabitoğlunun musiqisi müasir həyatın bir parçasını səhnədə elə bir sənətkarlıqla, şövqlə, həvəslə yaratdılar ki, elə bil, o saatlarda Cənub özü bir Savalan əzəməti ilə, eyni zamanda, o boyda da bir nisgil ilə Akademik Milli Dram Teatrının səhnəsindən görünürdü – vaxtilə Füzulidə, Qaraköpək təpəsinin üstündən Arazın o tayında «gümüşü bir duman altında» görünən kimi görünürdü, amma daha nağıl aləmində yox, səhnə, sənət gerçəkliyində.

İctimai baxışa toplanmış tamaşaçılar – teatr xadimləri, sənətşünaslar, yazıçılar (yadıma gələnlər: Abbas Zamanov, Məmmədağa Şirəliyev, Mirzəağa Quluzadə, Bayram Bayramov, Hüseyn Abbaszadə, Qasım Qasımzadə, Ədilə Əliyeva, Cabir Səfərov, gənc Yaşar Qarayev və b.) tamaşadan sonra ayağa qalxıb uzun müddət ifaçıları alqışladılar və hər şey... əməlli-başlı bir dava-dalaşla qurtardı: ictimai baxışda iştirak edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin yüksək vəzifəli bir funksioneri tamaşanı qadağan etdi:

– Bu cür zəhərli millətçiliyi (rusca dediyindən, o ifadə o vaxtdan da





yaddaşıma həkk olunub qalıb: «otravlennıy nasionalizm»), belə bir pantürkizmi səhnəyə çıxarmaq olmaz!

Çox ciddi bir deyişmə oldu.

Tofiq Kazımov danışan adam deyildi və o, ürəyində nələr çəkirdi – Allah bilir. İlyas Əfəndiyev isə, tamam özündən çıxıb – mən onu heç vaxt bu cür əsəbi görməmişdim – camaatın içində o adama, necə deyərlər, dişinin dibindən çıxanı dedi və mən o deyilənləri yenidən xatırlamaq, eləcə də o adamın 34 ildən və dünya tamam dəyişəndən (onun da bu dəyişikliyə uyğun «başqalaşdığından»!) sonra adını çəkmək istəmirəm. Təkcə onu deyim ki, qızarıb pörtmüş həmin yüksək vəzifəli partiya funksioneri sürətlə tamaşa salonundan çıxa-çıxa:

– Görərsiz, İlyas müəllim! – dedi.

İlyas Əfəndiyev də:

– Sənin kimilərini mən çox görmüşəm! – deyə onun ardınca qışqırdı və zaldan çıxıb birbaşa direktorun kabinetinə getdi.

Teatrın direktoru rəhmətlik Əliheydər Ələkbərov da, həmişəki kimi, o yüksək vəzifəli partiya funksionerini ötürmək əvəzinə, İlyas Əfəndiyevin ardınca, öz kabinetinə tərəf getdi və uzun müştüyünə taxdığı siqareti dilxor-dilxor çəkə-çəkə Tofiq Kazımov da, başqa teatr işçiləri də onların ardınca getdi.

Cavan bir aspirant olan mən də Əliheydər Ələkbərovun kabinetinə getdim.

İlyas Əfəndiyev, o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə katibi işləyən Cəfər Cəfərova zəng elədi və əsəbi halda:

– Cəfər, səninlə danışan «otravlennıy nasionalist»dir! – dedi, sonra da indicə baş verənləri çox hiddətlə söylədi.

Atamın xasiyyətinə yaxşı bələd olan Cəfər Cəfərov onu yanına dəvət etdi və İlyas Əfəndiyev, Allah bilir, axırıncı dəfə nə vaxt olduğu Mərkəzi Komitənin indiki Nazirlər Kabinetinin yerləşdiyi binasına getdi.

Axşam o, evə qayıdanda məlum oldu ki, Cəfər müəllimin kabinetində həmin partiya funksionerinin iştirakı ilə çox gərgin söhbət keçib (o israr edirmiş ki, «Unuda bilmirəm» başdan-başa millətçilikdən ibarətdir və bu tamaşa Sovet İttifaqı ilə başqa dövlətlər arasında gərginliyə səbəb olar; həm də şikayətlənib ki, İlyas Əfəndiyev onu camaatın arasında təhqir edib) və son qərar bu olub ki, katib özü gedib tamaşaya baxsın.

Səhərisi gün Cəfər Cəfərov tamaşaya baxdı, əsəri də, yaradıcı

heyətin işini də çox bəyəndi və üç-dörd gündən sonra – noyabrın 1-də «Unuda bilmirəm»in premyerası oldu.

İlyas Əfəndiyev:

– Təki bu premyera Cəfərə baha başa gəlməsin! – deyə narahatlıq keçirirdi...

«Unuda bilmirəm»dən sonra Cənub mövzusu İlyas Əfəndiyev dramaturgiyasında aparıcı xətlərdən birini təşkil edirdi və onun Azərbaycanın bütövlüyü, Azərbaycanın müstəqilliyi barədəki fikirləri 1986-cı ildə tamaşaya qoyulmuş «Şeyx Xiyabani» əsərində, özünün, o zaman üçün təəccüblü görünəcək dərəcədə cəsarətli bədii ifadəsini tapdı.

İlyas Əfəndiyevin bədii əsərlərdəki cəsarəti – daima yeniliyə meyli, yeni mövzular qaldırması, psixoloji dərinliklərə varmaq ehtirası onun istedadına, həyatdakı cəsarəti isə – xarakterinin xüsusiyyətlərinə söykənirdi.

1982-ci ilin payızında Azərbaycan ictimai həyatında, ümumiyyətlə, Sovet Azərbaycanının tarixində, o vaxta qədər heç bir başqa sovet respublikalarında analoqu olmayan bir hadisə baş verdi: Hüseyn Cavidin cənazəsi Sibir çöllərində axtarıldı, tapıldı, Bakıya gətirildi və bu münasibətlə Elmlər Akademiyasının binasında matəm mərasimi keçirildi.

Həmin gecə, saat 2-dən keçmiş, o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə gənc, enerjili və açıq-aşkar bir milli təəssübkeşlik mövqeyində dayanan katibi Həsən Həsənov telefonla mənə evə zəng elədi. Onun sözlərini o gecə necə qeyd etmişəmsə, eləcə də, olduğu kimi, bu yazıya köçürürəm:

– Elçin, salam. Sənə Heydər Əliyevin tapşırığı ilə zəng eləyirəm. İndicə büronun iclası qurtarıb. Hüseyn Cavidlə bağlı sənədlərə baxırdıq. Başdan-başa danoslardır, qələm yoldaşlarının yazdığı ifşalardır. Onu müdafiə eləyən yeganə məktubu İlyas Əfəndiyev yazıb. Yazıb ki, «Cavidi azad etmək lazımdır, çünki xalq, onsuz da, onu sevir, onu unutmayıb, ürəyində gizlin saxlayıb, onu oradan çıxarmaq mümkün deyil. Cavid azad olunsa, respublikada vətənpərvərlik ruhu da yüksələr.» Bizim təşəkkürümüzü İlyas müəllimə çatdır.

Səhərisi gün mən bu telefon zəngini atama danışanda, yadına saldı ki, müharibə təzə başlayan vaxt Mərkəzi Komitəyə belə bir məktub yazmışdı...

Stalin zamanı absurd hadisələr çox olub: bəzən Sistemin qulları tutulub antisistemçilər kimi güllələnirdi, bəzən də belə məktublar nəzərdən qaçırdı...





Bir də ki, kim bilir, o məktub hansı əllərə düşüb, hansı hissləri yaradıb, bəlkə də, bilərəkdən görünməz bir küncə atılıb...

İlyas Əfəndiyevin həyatında ağrılı-acılı hadisələr də az olmayıb, fərəhli, sevincli hadisələr də.

Onun həyatındakı ən sevincli, fərəhli hadisələrdən biri, birincisi – Azərbaycanın müstəqilliyi idi və mən çox şükürlər edirəm ki, tale bu müstəqilliyi görməyi ona qismət etdi.

Onun həyatındakı ən ağrılı-acılı hadisələrdən biri isə – Qarabağın istilası və dağıdılması oldu və mənim üçün gün işığı kimi aydın bir həqiqətdir ki, Qarabağ sarsıntısı olmasaydı, İlyas Əfəndiyev daha artıq yaşayardı...

## 9.

İlyas Əfəndiyev 82 il yaşadı.

Əlbəttə, az deyil.

O, bu dünyadakı missiyasını yerinə yetirdi və getdi.

Ancaq bir epizod həmişə mənim fikrimdədir.

İlyas Əfəndiyev mistik, sirli əhvalatlarla, anomal hadisələrlə, o cümlədən Uçan Naməlum Obyektlərlə çox maraqlanırdı.

1996-cı ilin – ömrünün sonuncu ilinin bir yay axşamı, Zuğulbada, bağda, onun çox xoşladığı boylu-buxunlu evkalipt ağacının altında oturub söhbət edirdik və o söhbət fırlanıb gəlib Uçan Naməlum Obyektlərin üstünə çıxdı.

İlyas Əfəndiyev yarızarafat, yarıciddi:

– Onları çox görmək istəyirəm! – dedi.

Mən:

– Neynirsən onları? – soruşdum.

İlyas Əfəndiyev bir az rişxəndli, bir az da kədərli, qayğılı gözləri ilə göyə baxıb:

– Onlara deyəsi bir-iki sözüm var! – dedi.

Bəli, İlyas Əfəndiyev bu dünyada 82 il yaşadı və çox Söz dedi.

Amma bununla belə, İlyas Əfəndiyev bu dünyada deyə bilmədiyi o «bir-iki» Sözü də həmişəlik özü ilə apardı...

O «bir-iki» Sözü daha heç kim deməyəcək...

ELÇİN

23 yanvar 2001-ci il

# Hekayələr





## *«KƏNDDƏN MƏKTUBLAR» KİTABINDAN*

### QIZBƏS XALA

Gecə saat on birdə kolxozun iclası qurtardı. Kolxoz sədri «ay Qızbəs» deyə çağırdı. Qırx beş-əlli yaşlarında orta boylu, balaca, diri gözlü bir qadın «hey» deyə cavab verdi.

– Bizdə azarlı var, apar bu yoldaşı bu gecə sizdə rahat olsun.

– Niyə aparmıram! Gözümün üstə yeri var. Buyur gedək, yoldaş.

Getdik.

Kərpicdən tikilmiş təzə və balaca bir otağa girdik. Peçin kənarında balaca bir oğlan uşağı oturmuşdu. Qızbəs xala peçin böyrünə qalın bir döşəkçə salaraq:

– Əyləş, – dedi, – qadan alım, yəqin ki, bərk üşümüsən.

Mən paltomu çıxarıb oturdum. Peç çıtırtı ilə yanırdı. Otağın içində hər şey təmiz və səliqəli idi. Divarlar diqqətlə ağardılmışdı. Evin yuxarı tərəfində, üstündə ağ və tikməli örtük olan iri bir çarpayı qoyulmuşdu. Çarpayının yanına bir xalça vurulmuşdu. Bu xalçanın üzərində əlvan rənglərlə atlı bir oğlan təsvir edilmişdi. Çarpayının sağ tərəfindəki böyük stolun üstündə cürbəcür şüşə qablar, balaca bir güzgü və bir portret var idi. Otağın ayaq tərəfindən iki böyük xaral qoyulmuşdu. Onların üstünə böyük və təzə bir cecim çəkilmişdi.

Divarda bir saat çıqqıldayırdı. Onluq lampanın işığında otaq rahat, yığcam və son dərəcə təmiz görünürdü.

– Qonağımız kimdi, məmə? – deyə uşaq səsləndi.

Onun iri gözlərindəki boz ağlıq məndə təəssüf qarışıq, bulanıq bir duyğu oyatdı. O, kor idi.

Qızbəs xala uşağa cavab verdi:

– Təhkimçidir... Başına dönüm, rayondan gəlib...

Qızbəs xala söykənmək üçün mənə yastıq, mitəkkə qoyub, çay tədarükünə başladı.

– Təklik belədi dayna... İndi evdə gəlinim olsaydı, gəlib hər şeyi hazır görərdik.

Onun sözləri, bir qədər kədərli də olsa, ahəngcə şən idi.

– Nə olar, gəlinsiz də yola getmək olar...

– Bəs nədir? Eh, sənin canın üçün heç vecimə də deyil. Mənə nə olub? Beş gəlinin işini görürəm.

Mən hiss edirdim ki, Qızbəs xalanın, nə isə, bir gileyi var... Son sözləri, o, çox hirsli dedi... Sanki öz gücünü, bacarığını qəzəblə kiməsə göstərmək istəyirdi...

Məsələnin açılması üçün:

– Qızbəs xala, bundan başqa oğlun yoxdurmu? – dedim.

O, peçin qabağında əyləşib samovara od salırdı. Alovun ziyası balaca və iti gözlərində əks edirdi. Qaşları çatılmışdı.

– Nə gəlib, bundan başqa ikisi var. Ancaq çox da var, mənə nə...

– Necə sənə nə? Deyəsən, onları istəmirsən...

– Pah, istəmirsən?! Eh, nə qoyub, nə axtarırsan? Odey biri oturub qaynanasının dizinin dibində. Biri də orda-burda cahıllıq edir. Başına dönüm, oğul-uşaq da quş balası kimi bir şeymiş. Nə qədər ki, ətcəydilər, analarını görəndə dimdiklərini açıb «cik-cik» eləyirdilər. Anaları da onları qanadı altına alıb böyüdürdü. İsti-soyuqdan qoruyurdu, elə ki, tükləndilər, dimdikləri bərkidi, uçub getdilər. Neynək. Canları sağ olsun, təki yaxşı olsunlar. Xoşbəxt dolansınlar. Mən yola gedərəm. Qoy kefləri nə cür istəyir, elə eləsinlər.

Peçin istisi məni xoşallandırırdı. Samovar dızıldayırdı.

– Niyə qaynanasıgilə getdi?

– Nə bilim, keyfi elə istədi.

– Bəlkə, gəlini yola verməmisən?

– Niyə? Heç qoymurdum gəlinin ayağı quru yerə də dəysin.

– Qəribə işdir.

– Nə qəribəliyi var? Qaynanası bedahat bir arvaddı. Gədəni diləfelə basıb, yoldan çıxartdı.

Balaca oğlunun simasında sakit bir kədər vardı. Bizi diqqətlə dinləyirdi. Çiçək xəstəliyi onun gənc və sevimli üzünə amansız bir divan tutmuşdu. Bütün üzü şadara kimi deşik-deşik idi. Qızbəs xala təzə inək yağı ilə qayğanaq bişirdi. Süfrəyə təzə qatıq, motal pendiri və buğda çörəyi qoydu.

– Bağışla, – dedi, – yaxşı olmadı. Vaxtsız qonaq öz kisəsindən yeyər.

– Çoxdur, ay xala – dedim. – Tay bundan artıq nə istəyirsən?

– Yox, mən gərək sənə cücə-zad kəsəydim. Neynək, keçib, səhərə qalsın.

Üçümüz də şirin bir iştaha ilə yeməyə başladıq. Yeməyi qurtardıqdan sonra Qızbəs xala hərəyə bir stəkan çay töküb, papiros çəkməyə başladı. Mən də bir papiros yandırdım. Bir neçə saniyə sükutla keçdi. Qızbəs xalanın üzünə indi mən daha diqqətlə baxa bilirdim. Onun ba-





laca gözləri son dərəcə diri, çevik bir oynaqlıqla parıldayırdı. Üzünün və əllərinin günəşdən yanmış dərisi qayış kimi möhkəm idi. Saçları yarıya qədər ağarmışdı. Paltarı sadə və təmiz idi.

Mən yenə də söhbəti «gəlin» məsələsi üstünə hərləmək məqsədilə:

– Bəs, kiçik oğlun indi haradadır? – dedim.

– Şəhərə gedib.

– Böyük oğlun səni tək qoymaqda yaxşı iş görməyib.

– Eh, qoy getsinlər. Sənin dövlətindən yenə onlar mənə əl açır. Mənim heç onlara bir çet də ehtiyacım yoxdur. Bir də görürsən gəlib deyirlər: ay ana, gör bir az pulun varmı?

– Sən də verirsənmi?

– Bəs nə edim?

– Vermə!

– Eh, neyləyim, yenə nə qədər olsa, oğuldur, ana ürəyidir, dözmür.

– Neçə ildir səndən ayrılıb?

– İndi beş il olar. Ataları öləndə, bu çağa, onlar da lap balacaydılar. O zamanlarda evimə də od düşüb yandı. Bir dayım oğlu vardı. Onların yanında bir dam tikdim. Cavan idim. Gözəlliyim də vardı. Məni hər tərəfdən istəməyə başladılar. Getmədim. Oturub uşaqlarımı böyüdəcəyəm dedim. Qonum-qonşu, arvadlar məni məzəmmət elədilər. Dedilər, cavan canını niyə çürüdürsən, yetimləri at əmilərinin üstünə, çıx get birinə. Dedim, yox, üç iyidin anası da ərdən ötrü uşaqlarını atarmı? Saxlayıb onları böyütsəm, mənə bəsdi. Gözümün ağı-qarası bircə inəyim vardı. Bir təlli-fəllinən uşaqları girləməyə başladım. Gecələri xana toxudum, gündüzləri məktəbdə quryerlik etdim. Yorulmaq bilmədim. Eh, dedim, oğlanlarımın canları sağ olsun, təki böyüsünlər. Hər şey yoluna düşəcək...

Dişarıda külək vıyıldayır, peçin ağzından çıxan işıq samovarda əks edirdi. Oğlan sandığa söykənərək mürgüləyirdi. Onun üzündə xoş, rahat bir ifadə vardı. Mən qurtum-qurtum çay içir və Qızbəs xalanı dinləyirdim. Onun üzü keçmiş xatirələrin kədərləri ilə kölgələnirdi. Gözlərində o günlərin ümidi, sevinci titrəyirdi. Birdən dedi:

– Eh, onların hər birinə öz canımı min dəfə qurban verməyə hazır idim. Razı idim hər nə olur mənə olsun, təki onların başı da ağrımasın. İkisini də məktəbə qoydum, «qurban olum, müəllim, dedim, mən məktəbə nə təhər can yandırıramsa, sən də onlardan elə muğayat ol!» Onların böyüdüklərini gördükcə, bütün zəhmətlərimi unudurdum. Cavanlığımın onlara qurban getməsi heç ağlıma da gəlmirdi. Elə bilirdim ki, dünyada məndən xoşbəxt adam yoxdur. Gün o gün oldu ki, böyük oğlum yekə, bığıburma cahıl oldu. Qonşuda bir qız sevdi. Evdə kürlük eləməyə başladı. Qonum-qonşu məni danladı, ay arvad, dedilər,

görmürsən, gədə ərgənlik davası eləyir! Niyə evləndirmirsən? Mən belə evlənməyini istəmirdim. Evim-eşiyim pisdir, deyirdim, qoy özümüzə babat güzəran düzəldək, sonra adıma layiq bir toy elərəm. Ancaq günlərin birində oğlan qızı qaçırtdı, yenə arıma gəldi, ayın-oyundan satıb, bir toy elədim. Evimdə gəlin görəndə, az qalırdım uçam ey, nə deyim, nə eşidəsən. Aylar keçdi, gəlin kürlük eləməyə başladı. Dedi, mən belə yerdə otura bilmirəm. Oğlan da qaşqabağını salladı. Baxıb gördüm ki, xeyir, işin o yeri deyil. İkisinin də məni görməyə gözləri yoxdur.

– Axı, niyə?

– Bilmirdim. Əlimdən gələn yaxşılığı eləyirdim. Əlimə düşən tikəni onlara verirdim. Eh, nə başını ağrıdım. Bir gün də gəlib gördüm ki, el köçüb, yurdu qalıb. Bir həsirdi – bir də Məmmədnəsir.

– Hara getdilər?

– Qaynanasıgilə. Evdə də hər nə var, hamısını yığıb apardılar.

– Şikayət eləmədinmi?

– Ürəyim gəlmədi. Utandığımdan heç kimin üzünə baxa bilmirdim. Fikir edirdim ki, camaat deyəcək Qızbəs pisdi, çəngidi, gəlini yola verməyib. Gecə-gündüz işlədim, kolxoza girdiyimin ikinci ili kərpic kəsdirdim, uşaqlar, dedim, özümüzə bir yuva tikək, bəsdi bu sınıq damda çürüdüyümüz. Ev tikdim. At, inək aldım. Eh, başına dönüm, indi sənin sağlığına heç nədən korluğum yoxdur. Pislik onlara qaldı. Dünyada bircə dərdim var...

Siması tutuldu, gözləri yaşardı. Dərindən bir nəfəs aldı.

– Kaş,– dedi, – mənim sağlam gözlərim bu gədədə olaydı.

O, bu sözləri o qədər yanıqlı bir səslə dedi ki, tüklərim ürpərdi. Təsəvvürə gəlməyəcək dərəcədə incə, mehriban bir ana şəfqətilə əlini kor oğlunun başına çəkdi. Uşaq şirin-şirin yuxulayırdı. Onun balaca və gözəl dodaqları gülümsəyirmiş kimi büzülmüşdü.

Uşaq yuxuda gərnəşdi, gülümsədi və o biri böyrü üstə çevrildi. Qızbəs xala əyilərək onun alnından öpdü. Sinəsi ağır-ağır qalxıb endi. Mənə elə gəldi ki, bu dəqiqədə onun qırx min canı olsaydı, hamısını oğlunun bir gözünün sağalmağına verməkdən çəkinməzdi...

Bu görüşdən təxminən üç il sonra, qışın orta ayında Bakıdan Tbilisiyə gedirdim.

Kupedə uzanıb qəzet oxuyurdum.

– Saat neçə olar, bağışlayın.

Başımı qaldırdım. Sualı verən bir qadın idi. Mənimlə üzbəüzdə əyləşmişdi. Böyründəki kor oğlanı dərhal tanıdım.

– Pah, salam, Qızbəs xala! – dedim.

Qızbəs xala bir-iki saniyə mənə diqqətlə baxaraq:

– Bıy, – dedi, – salam, Əli! Xoş gördük, kefin necədir?





– Sağ olun, Qızbəs xala, hara belə?

– Kurorta gedirik.

– Bu vaxt niyə?

– Pambıq yığımını bir az bundan əvvəl qurtardıq. Bir az da rayon staxanovçular yığıncağında ləngidim. Ancaq ki, indi vaxt tapa bilmişəm. Eh, nə təfavütü var? İstirahət olsun. Canınız üçün heç getmək istəmirdim. Katib əl çəkmədi. Çox zəhmət çəkdin, get bir az dincəl dedi. Mən də sözünü sındırmadım...

Bu üç il müddətində Qızbəs xala, demək olar ki, heç dəyişilməmişdi. Fəqət onun geyimində fərq vardı. İndi qara nazik şivyotdan beli büzməli uzun don geymişdi. Çiynində boynu xəzli, təzə palto vardı.

Oğlan xeyli böyümüşdü. Ayaqlarında boğazlı çəkmə, əynində qalın mahuddan frenc və qalife şalvar vardı. Ağ gözləri daima hərlənirdi. Onun üzündə həyəcan qarışıq bir şadlıq vardı. Tez-tez başını o yan-bu yana çevirirdi.

– Ana, bu inişil bizə gələn təhkimçidi?

– Hə, ağrın alım, yadına düşdü?

– O saat səsindən tanıdım.

– Qızbəs xala, o biri oğlanların necədirlər?

– Yaxşıdılar. Kefləri kökdü. Balacası da evlənib. Şəhərdə bir müəllimə alıb.

– Heç sənin yanına gəlirlərmi?

– Niyə? Gəlirlər! Canları sağ olsun. Sağlıqları mənə bəsdi. Budey, o yatanı görürsənmi? Nəvəmdi. Böyük oğlumun qızıdı. Onu da özümlə aparıram.

Mən, Qızbəs xalanın göstərdiyi tərəfə baxdım.

Orada beş-altı yaşlarında gözəl bir qız uşağı yatmışdı.

– Yəqin, nəvəni çox istəyirsən?

Qızbəs xala boynunu əyərək nəvəsinə baxdı. Gülümsədi.

– Çox istəyirəm, – dedi, – onsuz bir dəqiqə dura bilmirəm. O da məni istəyir. Nəvə şirin şeydi.

Qatar fit verərək dayandı.

Konduktor:

– Tbilisi vağzalı! – deyə xəbər verdi.

Mən Qızbəs xala ilə görüşüb ayrıldım.

*1939*

## QARIMIŞ OĞLAN

Bahar qönçələyirdi... Biz, yaşıl tarlalar arasında, şişə bir şərid kimi parlayan balaca çayın kənarında oturub xoşallanırdıq. Aprelin ilk çağlarına məxsus ılıq bir hava idi. Günəş tünd qəhvəyi bir bulud arxasında gizlənərək üzünü azca göstərir, səmanın bir tərəfini parlaq nura qərq edirdi...

Buludun xəfif kölgəsi sıx, yaşıl çəmənlər üzərində titrəyirdi... Açıq çəhrayı güllər, tünd mavi bənövşələr, ağ «danaqıran» çiçəkləri, təzə, şux yaşıl otlar arasında boyunlarını bükərək günəşə qarşı gülümsəyir, ətrafa xoş ətir saçırdılar. Daha aşağılarda çiçəkli bağlar görünürdü. Uzaqdan ərik ağaclarının çiçəkləri ipək kimi parıldayır, yarım çəhrayı bir rəngə çalırdılar. Ağ kəpənəklər ipək qanadlarını titrədərək çiçəkdən çiçəyə qonurdular. Orada-burada sığırçın və torağayların nəğmələri eşidilirdi. Çayın aşağı tərəflərində heyvan sürüləri qayğısız bir görünüşlə otlayırdı. Kök bir camış ayaq üstə dayanıb arxayın-arxayın gövşəyir... Başına qonmuş sağsağan, buynuzlarının arasını dimdiklədikcə, heyvan xoşlanırdı. Çoban yamacda dolaşır, ara-sıra yerə əyilir, nə isə qoparıb ağzına qoyurdu. Kök bir dayça anasının ətrafında o yan-bu yana tullanır, onun qarnını iyləyir, ehtimal ki, əmmək istəyir... ana, ona etina etmir... soyuq bir görünüşlə ətirli, cavan otları biçir... Biri qocahal, digəri cavan iki it bir-birilə oynayırdı. Qoca it yorulub, yerə uzanır, kiçik it onun ətrafında atılıb düşürdü.

Kiçik bir ulaq yamacda dayanıb, qulaqlarını şəkləyərək həsrətlə itlərin oynaqlaşmalarına tamaşa edirdi.

Yanı üstə uzanıb, əlinə dirsəklənmiş yoldaşım dərin bir nəfəs alaraq:

– Eh... bahar... gözəl fəsildir, – dedi. – Bütün bunlar insanı həyata çağırır...

Mən tənbəl-tənbəl:

– Bəli, – dedim.

– İnsan yaşadıqca yaşamaq və sevmək istəyir...

– Doğrudur!

– Lakin necə sevgi?





O, bir an dayandı... Gözləri yol çəkdi... Şirin və qayğısız bir təbəssümlə gülümsədi. Sonra xoş bir tonla əlavə etdi:

– Sakit, əbədi, rahat bir sevgi. Ah, sevdiyin bir qızla rahat bir həyat qurmaq nə qədər yaxşıdır.

– Siz, deyəsən, özünüzdən danışırsınız.

– Ümumiyyətlə, deyirəm...

– Evləndiyiniz neçə il olar?

– Düz altı ildir...

– Necə oldu? Sakit, rahat sevgini görə bildinizmi?

– Bəs necə... eh... ailə həyatı səadətdir... Balaca oğlumu nə qədər sevirəm, bilirsiniz, lap şeytandır. Səhər tezdən, mən hələ yuxudaykən, görürsən, gəlib çıxıb sinəmə... gah burnumu, gah dililə qulağımı qıdıqlayır... Mən özümü yuxuluğa vururam, «ata... ata...» deyir, «quş oxuyur... dur...» Bir də görürsən, bağçadan bir dəstə çiçək gətirib anasının saçlarına düzür, «ana... ana, qəşəngdi...» deyir. Lap qiyamətdir...

Cavan mühəndisin badamı, gözəl qara gözləri şirin bir qayğısızlıqla xumarlandı. Qara və uzun qaşları yuxarıya doğru dartıldı. Düz və kəsmə burnunun qıraqları qıcıqlanırmış kimi ehtizaza gəldi. Xəfif külək onun zil qara və qıvrım saçlarını oynadırdı.

– Lakin, – deyə, o, arxası üstə çevrildi. – Elə insanlar var ki, bütün ömürləri boyu harda isə qurdalanırlar... Çexovun «Qılaflı adamı» kimi öz qılaflarına bürünüb evlənməyə, sevgiyə vahimə ilə baxırlar, axırda da, kim bilir, başlarına nə gəlir. Belə adamlar, insana tilsimli kimi görünürlər... Adam onlara yaxınlaşmağa belə qorxur, sanki öz tikanı ilə indicə səni sancacaqlar. Məsələn, bir oğlan tanıyırdım. Qəribə adam idi... otuz səkkiz yaşı vardı... Hələ evlənməmişdi. Bütün ömrü boyu heç bir qadını sevməmişdi.

– Nəyə evlənmirsən, ay Vəli? – deyirdim. – O, qaşlarını çatar, sulu və iri dodaqlarını büzər, salxaq çiyinlərini təşvişlə yuxarı dartardı.

– Tapa bilmirəm, – deyərdi...

– Nəyi tapa bilmirsən?

– Bir saznatelnisini tapa bilmirəm...

Mən:

– Ədə, – deyirdim, – dünya qurumuyub ki, «niujeli» bu dünyada sənin üçün «saznatelni» biri tapılmır?

O, ah çəkər, balaca boz gözlərini qırpar, «tapa bilmirəm də...» deyərdi. Onun nə cür qız arzu etdiyi mənim üçün qəribə bir sirr idi... Mən bu «tilsimli sirri» öyrənmək üçün çox əmək sərf edirdim... Lakin sirr, sirr olaraq qalırdı. O, buz kimi soyuq, quru bir adam idi.

Bütün vücudunda gözəl bir tərəfi vardısa, o da yalnız həzin səsindən ibarət idi. Üzü çopur, sivri burnu həddindən ziyadə qabağa doğru uzanmış bir adam idi. Başının sarı saçları təşrif aparmış, yarım daz ol-

muşdu. Zalımın üzü bir dəfə də olsun gülməzdi... Yalnız oxuduğu zamanlar üzü bir az açılar, yumşaq bir ifadə alardı... Ona, gözəl, çirkin, müxtəlif tip və xarakterli qızlar, qadınlar göstərirdim:

– Hə, bu necədir? (Əlbəttə, qızın razılığını o qətiyyən düşünmədiyi kimi, mən də, hələlik, bunu nəzərdə tutmurdum.)

O:

– Yox, – deyərdi, – mənə beləsi lazım deyil.

Bir dəfə də olsa, ondan «bəlkə heç o qız məni bəyənmədi» sözünü eşitməzdim, deyəsən, ona elə gəlirdi ki, dünyada kimi istəsəydi, rədd edilməzdi.

Mən onu çox təngə gətirəndə, yavaş və ağır bir tonla:

– Ay balam, – deyərdi, – evlənmək zarafat iş deyil, ölüm-dirim məsələsidir. Gərək ehtiyatlı olasan, yaxşı ölçüb-biçəsən.

– Bəs, nə vaxt ölçüb biçəcəksən?

– Vaxtı var... əzizim, hər şeyin öz vaxtı var... gərək iş düzələ ki, sən də ölçüb-biçəsən, evlənmək zarafat deyil. Gərək elə etməyəsən ki, camaat sənə gülə... Eşşəyə minmək bir ayıb, düşmək də iki.

O, böyük bir müəssisənin mühasibi idi. Yaxşı maaş alırdı. Fəqət son dərəcə pis dolanırdı. Yalnız istirahət günlərində yeməkxanada nahar edərdi. Qalan günləri evində ya turp və ya soyutma kartof, çox vaxtlar da soğan-çörək yeyərdi. Görürdün ki, idarədən çıxandan sonra bir çörək, bir dəstə də turp və ya vəzəri alıb evə yollanır. Köhnə boz plaşının içində onun arıq, donqa vücudu çuvala bürünmüş kimi görünürdü.

Balaca, qaranlıq bir otaqda yaşayırdı. Evində alçaq, dəmir bir çarpayı, üstünə qəzet çəkilmiş köhnə bir stol, bir-iki qab-qacaq, bir də böyük bir sandıqdan başqa heç nə yox idi. Sandıq məni çox maraqlandırırdı. Bir gün kefinin kök bir vaxtında soruşdum:

– Bu sandıq nədir?

O, ildə, əyyamda bir dəfə gülümsədi... Durub sandığı açdı. Burada cürbəcür ipək parçalar, ipək yaylıqlar, qadın ayaqqabıları, cemperlər, pambığa bükülmüş köhnə qızıl saat, üç-dörd üzük, üstü qaralmış bir medalyon, ipək əl yaylıqları, qara mahuddan tikilmiş bir dəst kişi kostyumu, bir çətir, bir neçə gümüş qaşıq, özünün iri və saralmış bir portreti, bir neçə balaca əl bıçağı, daha bir çox xırda-xuruş şeylər vardı.

– Ay Vəli, nə çox şeyin var? – dedim.

O, təmkinlə başını yırğaladı.

– Bəs necə, hamısı arvadağanındır.

– Hansı arvadağanın?

– Necə hansı? Bəyəm heç evlənməyəcəyəm?

Mən:

– Hə? – dedim. – Başa düşdüm, demək, hazırlıqdır.





– Bəs necə, evlənmək halva deyil ki... Mən tamam 15 ildi hazırlıq görürəm.

– 15 il?

– Bəs necə?

Deyildiyinə görə, əmanət kassasında güclü pulu vardı... Eh, qəribə adam idi... Adama elə gəlirdi ki, o, nə isə, daxili bir aləmdə yaşayır... Otuz səkkiz illik ömürdən sonra hara isə – yeni, qəribə bir aləmə hazırlaşır.

Əlbəttə, bu barədə o, heç kimə, bir kəlmə də olsa, söz deməzdi...

Bir dəfə mən başqa bir yerə getmişdim... Qayıtdığım zaman onun evləndiyini eşitdim...

Heyrət etdim... Etiraf edim ki, bütün həyatımda bu qədər heyrətlənməmişdim... Bahar vaxtı idi... Bir dəstə gözəl çiçək alıb, dostumun görüşünə tələsdim. Məni görən kimi tələsik dedi:

– Pah, salam, salam.

Taxtın üstündə bir qadın oturmuşdu. Mən təzə gəlinə təqdim olunmağımı gözlədim. Fəqət, dostum nə bunu etdi... nə də mənə «otur» dedi. İkimiz də ayaq üstə qalmışdıq. O, qızarır, bozarır, sulu dodaqlarını aramsız marçıldadırdı. Nəhayət ki:

– Hə, nə təhərsən? – dedi.

Nədənsə, təşviş içində idi. Sözlər ağzından qırıq-qırıq çıxırdı... Nəhayət, mən üzümə salıb, bir stulda oturdum, gülü də stolun üstünə qoydum...

Vəli dərin bir həyəcan içindəydi.

Nə üçünsə gözünün ucu ilə gah mənə, gah da rəfiqəsinə bir nəzər atırdı... Qadının üzündə istehzalı bir təbəssüm vardır. Mən indi gözucu da olsa, onu nəzərdən keçirə bildim. Otuz yaşlarında sarışın bir qadın idi. Nazik dodaqları qıpqırmızı rənglənmişdi. Açıq mavi gözlərinin ətrafında sivri cizgilər görünürdü. Süni olaraq qaşları tük kimi nazik bir şəklə salınmışdı. Sarı saçları təzəcə və bir az da həddindən artıq kəsilmişdi. Üzünün dərisi, çox krem, pudradan istifadə etmiş qadınların üzlərinə məxsus bozumtul bir şəkil almışdı.

Əynində qolsuz qapot vardı. Əllərini qoynunda çarpazlamışdı. Sonradan öyrəndiyim məlumata görə, keçmiş Qarabağ bəylərindən birinin qızı imiş... Bankda makinaçı vəzifəsində işləyirmiş.

Evdə gözə çarpan dəyişiklik vardı. Evin divarları ağardılmış, pəncərəyə tor pərdə, stolun üstünə təmiz süfrə salınmışdı. Vəlinin sandıqdakı portreti qadının döşü çılpaq bir şəkli ilə qabaq-qabağa, çarpayının baş tərəfində vurulmuşdu. Vəli mahud kostyumunu geymiş, boz rəngli qalstuk bağlamışdı. Qadın oturuşundan və vəziyyətindən ev yiyəsindən ziyadə qonağa bənzəyirdi.

O, qaşlarını yuxarı dartaraq, əzgin və bir az da amiranə səslə dedi:

– Vəli, durub pəncərəni açsana, ürəyim darıxır.
Vəli cəld yerindən sıçradı.
Mən ürəyimdə: «Aha, nə yaman zabitəlidir.» deyə düşündüm...
... Yoldaşım cibindən bir papiros çıxararaq yandırdı. Tüstü onun ağzından burula-burula qalxıb uzaqlaşdı. Günəş yavaş-yavaş qərbə doğru əyilirdi. Sürü otlaya-otlaya bizdən xeyli uzaqlaşmışdı. Çayın sakit, yorğun şırıltısı eşidilirdi. Xəfif külək cavan otları yelləndirirdi. Külək alça çiçəklərinin ağ yarpaqlarını düz bizə tərəf qovurdu.
Mühəndis əllərini başının altında çarpazlayıb, qurtum-qurtum tüstü buraxır və bu tüstü axıb, mavi səmanın dərinliklərində əriyirdi.
Birdən o:
– Hə, bəs, sonu nə oldu? – deyə, gülümsəyə-gülümsəyə soruşdu.
Bu təbəssümdə acılıqmı, istehzamı, bilmirəm, kəskin bir şey duyuldu.
– Eh, sonu pis oldu... çox pis... evləndiklərindən bir həftə keçməmiş söz-söhbət aləmi götürdü. Hər yerdə «çopur mühasib ilə makinaçı» barəsində danışırdılar. Deyirdilər ki, səhərdən axşamadək dalaşırlar. İlk zamanlarda inanmadım. «Bəlkə şayiədir» dedim. Lakin bir gün şahidi olduğum bir səhnə məni hər şeyə inanmağa məcbur etdi.
Yolum qapılarından düşdü. Bir dəstə adam darvazaya toplaşıb içəriyə boylanırdı. Uşaqlar ağaclara dırmaşıb həyətə baxırdılar. Mən toplaşanların birindən hadisəni soruşdum.
– Əşi, o çopur mühasibdi də, yenə arvadınnan canbaza qalxıb.
Mən, istər-istəməz, həyətə girdim. Nə görsəm yaxşıdır? Arvad saçları pırtdaşıq, rəngi qaçmış, arxası üstə bir qadının qucağına yıxılıb, «Ah, öldüm, vay vicdansız, məni ürək partlamasına salacaqsan...» deyə çığırır, ayaqlarını yerə döyürdü. Sapsarı saralmış Vəli onun alnına soyuq kətan qoyur, qollarını, kürəyini ovuşdururdu.
– Nə olub, ay Vəli? – deyə soruşdum.
O, mənə baxaraq, əlini ağzına aparıb, qorxaq bir vahimə ilə susmağımı işarə etdi.
Qadını birtəhər qaldırıb evə apardım. Stolun üstündə valerian damcısı vardı. Bir neçə damcı suya töküb ona içirtdim. O, mənə nazlı-nazlı baxdı. Sonra da birdən-birə əlimi aparıb çılpaq sinəsinə qoyaraq:
– Bir baxın... ürəyim necə çırpınır, – dedi.
Ürəyi adi qayda ilə vururdusa da, mən etiraz etmədim. Təsdiqlədim.
– Axı, niyə dalaşırsınız?
– Ox, rica edirəm ondan danışmayın. Mən bədbəxt olmuşam. Bu tamam dəli imiş... İdarəmizdə cavan bir mühasib işləyir. Sizin kimi qəşəng və «vejlivi» bir oğlandır. Gəlib məni idarəyə aparmaq istəyirdi... iş üçün... Bizim bu gic də mənimlə dava saldı ki, niyə o səni çağırır? Yəqin ki, burada bir iş var... Yox, mən onun revnavatlarına dözə bilmirəm... Axı, təqsir məndədir... Siz bircə insafla söyləyin, heç mən ona layiqmiyəm?
– Siz ki, öz xoşunuzla gəlmisiniz...
Mənim son sözlərim onu cinləndirdi. Dodaqlarını istehza ilə büzüb dedi:
– Pah... öz xoşumla... nə olsun ki? Eh... naprasnı...
Mən öyüd-nəsihət etdim. Vəlini içəri çağırdım. O, sapsarı saralmışdı, dərin böhran keçirirdi.
Nəhayət, uzun çək-çevirdən sonra onları barışdırdım. İşin belə asanlıqla sülhə çevrilməsinə sevinib, getdim. Fəqət məsələ bununla bitmədi. Çarpışma yenə hər gün davam edirdi... Niyə gecə kinoda filan oğlana çox baxıb? Niyə idarədən gec gəlib? Dava-şavanın əsas mövzularını belə şeylər təşkil edirdi.
Bir gün də bir uşaq gəlib Vəlinin məni çağırdığını söylədi.
Getdim. Yataqda uzanmışdı. Xəstə idi. Arvadı evdə yox idi.
– Nə olub? – deyə soruşdum.
O, titrək, həzin, xəstə bir səslə cavab verdi:
– Acıq eləyib.
– Madam ki, dolana bilmirsən, ayrıl, – dedim.
Mən, əslində, ayrılmaqlarının tərəfdarı deyildim. Onun rəyini bilmək üçün qəsdən belə dedim.
O, başını buladı:
– Yo... o... x, ayrıla bilmərəm.
Gözləri parladı. Yanaqları qızardı. Üzünün kürən və cod tükləri mənə qabarmış kimi göründü. Sinəsi tez-tez qalxıb endi.
– Ayrıla bilmərəm... – deyə təkrar etdi.
Mənim ona yazığım gəldi:
– Axır, indi ki, sevirsən, nəyə dalaşırsınız? – dedim.
O, ah çəkdi. Başını əlləri içinə aldı:
– Gözü dağınıqdır, – dedi.
– Bəlkə səhv edirsən?
– Yox... Hamı ilə, xüsusən cavanlarla naznan danışır... Ax, ilan... elə bil ki, bədəni oddur... Sönmək bilmir. Deyirəm o düdüklə az danış, deyir, sənə nə borc.
Mən hirslənib:
– Ədə, danışanda nə olar? – dedim.
– Yox... sən bilmirsən də...
– İndi nə etmək istəyirsən?
O qızardı. Tərəddüd etdi. Nəhayət, özünü zorlayaraq:
– Get, onu gətir, – dedi.

01/01-6

Sözlər onun ağzından o qədər əzgin, yazıq bir tonla çıxdı ki, təklifini rədd edə bilmədim. Amma:

– Bəlkə gəlmədi? – dedim.

– Birtəhər düzəlt, amandır.

Uzun əziyyətdən sonra onları yenə barışdırdım. Vəlinin kefi kökəldi. Təzə qalstuk bağladı.

Bir gün qəribə bir xəbər eşitdim. Dedilər, Vəlinin arvadı qaçıb. İdarəsinə getdim.

Onun saqqalı uzanmış, ovurdları batmış, üzünün sümükləri çıxmış, başındakı dazın ortasında bir neçə yetim tük bir-birinə qarışmışdı. Gözləri boğulmaqda olan adamın gözünə bənzəyirdi.

Salam verdim, almadı. Mənə key, donuq, buz kimi soyuq bir nəzər saldı. Xəfif bir ah çəkdi. Başını buladı.

İşin sonuna az qalırdı. Oturub gözlədim.

İşdən sonra onu güclə yeməkxanaya apardım. Bir stəkan konyak içəndən sonra bir az açıldı. İlk sözü bu oldu:

– Məhv oldum.

– Niyə elə deyirsən, ay Vəli? İş adam başına gələr...

O, sözləri uzadaraq:

– Yox, – deyə, cavab verdi və cibindən bir kağız çıxararaq mənə uzatdı...

Bu məktub hələ də mənim yadımdadır, orda yazılmışdı ki:

«Əzizim Vəli!

Xudahafiz. Mən getdim. Səninlə dolanmaq çətin işdir. Məni axtarma.»

Altından imza yerinə təkcə bir «D» hərfi yazılmışdı. Mən naəlac qalıb:

– Çox təəssüf, – dedim.

Bu əhvalatdan bir ay keçdi.

Bir aydan sonra mən «Q» şəhərini tərk etdim. Və uzun müddət Vəlinin halından xəbər tuta bilmədim.

Üç ildən sonra Gəncəyə getmişdim. Köhnə dostlardan biri ilə görüşərkən:

– Bilirsən nə var? – dedi. – Vəli buradadır...

Mən çox sevindim...

Görüşünə getdim. Məni görərkən çox sevindi. Gözləri yaşardı. Əlimi hərarətlə sıxdı. Heyrət etdim. Bu dörd ilin içində Vəli tanınmayacaq dərəcədə qocalmış, xarab olmuşdu.

Saç-saqqalı, demək olar ki, tamamilə ağarmışdı. Üzü qırışmış, başı büsbütün dazlaşmışdı. Çənəsi, burnu indi adama daha da uzanmış kimi görünürdü. Gözlərinin ziyası sönmüşdü. Boz, çirkli şüşə parçası kimi görünürdü...





... Yoldaşım papirosundan dərin bir qurtum alaraq kədərlə uzaqlara – dağlara baxdı. Günəş Qərbdə dağların ardına enirdi. Tarlalar, çəmənlər artıq əvvəlki kimi açıq yaşıl və şən deyil, tünd və kədərli görünürdülər. Sürülər tamamilə uzaqlaşmışdılar: hər şey sükuta dalmışdı. Sanki hər şeyə gecənin anlaşılmaz hökmü çökməkdəydi... Mən söhbətimə davam etdim:

– O, yenə əvvəlki kimi sadə yaşayırdı, ancaq, deyəsən, artıq yeməyə qənaət etmirdi. Balaca bufetindən alma, armud, konfet, bir şüşə likör çıxartdı. Qonşuluqdakı qoca qadın günortaya sup və kotlet hazırlamışdı. Mənə ən çox təəccüb gələn şey sabiq arvadının, onun çarpayısının baş tərəfinə vurulmuş rəsmi oldu... Ancaq öz portreti yox idi. Ondan sonra evlənib-evlənmədiyini soruşdum.

Üzü tutuldu. Onu xəyalına gətirməkdən qorxurmuş kimi, əlləri ilə gözünü ovuşdurdu:

– Yox, – dedi. – İş-peşə deyildi ki, bir dəfə oldu, getdi.

– Daha fikrin yoxdurmu?

– Altmışımda zurnaçılıqmı öyrənəcəm?

– Məgər, bütün ömrünü beləmi keçirmək istəyirsən?

– Hamısı birdir... Belə də keçər.

Və dərhal söhbəti dəyişdi. Mən də bir daha evlənmək məsələsinə qayıtmağa cəsarət etmədim. İki gündən sonra ondan ayrıldım. Bir daha görüşmədik. Belə insanlara adamın nə qədər yazığı gəlir... Meyvə ağaclarında heç xöşək görmüsünüzmü? Vaxtından əvvəl şişir, başqa meyvələr boy atdıqca, onlar saralır... saplaqları quruyur. Nəhayət, qopub düşürlər... Onları nə insan yeyir, nə də torpaq qəbul edir... İnsanların da belə xöşəyi olur... Dur gedək, başımız söhbətə qarışdı... Lap gecədir...

Biz qalxanda Günəş artıq tamamilə sönmüşdü. Qara qarğa, sığırçın dəstələri hara isə uçub gedirdilər. Hava sərin, rütubətli və ətirli idi. Yeridikcə ayaqlarımızın altında cavan otların yumşaq xışıltısı eşidilirdi... Bir turac zəmilərin arasında oxuyurdu...

Yoldaşım yavaşdan dedi:

– Yazıq Vəli...

Mən ona etiraz elədim:

– Yox, onlara acımaq yaramaz, – dedim. – Vəlilər bizim həyatımızda axar çayın üstündəki çör-çöplər kimidir. Onları unutmaq lazımdır. Yoxsa, adamı qəm-qüssə basar.

*1939*

## MİRZƏ İMAN

Payızın ılıq günəşi altında sərilib gedən ağ pambıq çöllərində həyat qaynayırdı. Ağ fartuklu kolxozçular uzun cərgələrin başında dayanmışdılar. Cavan qızlar asta-asta zümzümə edir, məzəli əhvalatlar danışırdılar. Nəhayət, yığım başladı. Hamıdan qabaqda Bahadır gedirdi. Arxasınca gələn qısa boylu, sısqa, sarı bənizli oğlan yanındakı kişiyə tərəf əyilərək:

– Deyəsən, axı, bu, bu gün də rekord fikrindədir, – dedi.

Kişi:

– Ağlın kəsməsin, – dedi. – Pambıq çox seyrəkdir.

Uşaq bağçasının müdirəsi olan iyirmi iki yaşlı cavan bir qız Bahadıra yaxınlaşaraq dedi:

– Al, sənə təzə bulaq suyu gətirmişəm, yəqin ki, bərk susamısan.

– Nə yaxşı qızsan, ay Sara! Yanırdım.

Bahadırın iri qara gözlərinin dərin və sürəkli baxışları altında Saranın nəzərləri əyildi. Sara, onun suyu necə acgözlüklə içdiyinə baxdı və gülümsədi. Bu təbəssümdə fərəh və dərin mehribanlıq qarışıq bir gizli duyğu da vardı.

Qonşuluqdakı orta yaşlı bir qadın yanındakı arvada göz vurdu. Hər ikisi himləşərək, Saranın Bahadıra necə baxdığına gülüşdülər.

Balaca təpənin böyründən cərgə ilə düzülmüş məktəb uşaqları, onların yanlarında isə, əlində qara çətir tutmuş müəllim Mirzə İman göründü.

Mirzə İman uşaqları tarlanın yanında dayandırdı. Sonra işin üstə təzəcə gəlmiş kolxoz sədri Əhməd əmiyə yaxınlaşıb, başını bir azca qabağa əyərək, təzimlə dedi:

– Salaməleyküm, Əhməd lələ, mən də öz ləşkərimi çəkib meydani-hərbə gəlmişəm! Gərək bu gün bir misqal da olsun qoymayaq qalsın. Allah qoysa, gərək sabah hökumətə teleqramımızı yetirək.

– Mirzə, bəs, bunların dərsləri nə olsun? – deyə arxadan Saranın gülər səsi eşidildi.





Mirzə İman diksinən kimi oldu. Cəld arxaya tərəf dönərək çox incə bir nəvazişlə baş əydi:

– Salam, Sara xanım. Necəsiniz? Cocuqların dərsinimi soruşursunuz? Əşi, dərs nə vaxt olsa, oxuyacaqlar, qoyun... Burada...

– Əşi, əlbəttə, nə vaxt olsa, oxuyacaqlar! Mirzə İman kimi müəllimi olanın nə dərdi var? – deyə zarafatcıl Möhsün əminin səsi eşidildi.

Gülüşdülər. Mirzə İman, deyəsən, bir az pərt oldu. Saraya tərəf dönərək dedi:

– Siz də seyrə buyurmuşsunuz?

Bahadır, Saranın əvəzinə cavab verdi:

– Ay Mirzə, bura bulvar-zad deyil ki, seyrə gəlsin.

Özünü saxlaya bilməyən Sara da qəhqəhə ilə güldü.

Mirzə udqundu. Boğazını arıtladı. Bir dəqiqə dinməz dayandı. Sara, Mirzəni bu ağır pərtlik vəziyyətindən qurtarmaq qəsdi ilə:

– Ay Mirzə, – dedi, – nə gözəl qalstuk taxmısınız? Bu rəng qalstukları mən çox sevirəm. Həm də sizi çox gözəl tutur.

Saranın bu sözləri Mirzəni açdı. Nəvazişlə baş endirərək cavab verdi:

– Peşkəşdir, Sara xanım!

– Çox sağ olun.

– Günəş sizə əziyyət verər, buyurun mənim çətirimi!..

Bu söz təkrar gülüşə səbəb oldu.

Əhməd əmi dedi:

– Müəllim! Ondan ötrü narahat olmayın! Kəndli balasıdır! Dərisi gündə bişib. Ancaq özünüzü gözləyin ki, gün yandırar! Yaxşı deyil.

Mirzə çox sıx bağladığı qalstukunu genlətməyə çalışırdı.

– Bəli, düz buyurursunuz. Mənim çox pis xasiyyətim var. Bir az gün dəyən kimi zökəm oluram. Uşaqlar, bir düzülün görüm! Odur ha, qoçaqlarım!

Məktəblilər sevinclə yığıma başladılar. Mirzə çətirini günəşə tərəf çevirərək, pambıq yığmaqla məşğul olan Saranın seyrinə daldı.

Sara arabir xoş bir təbəssümlə dönüb ona baxırdı. Gənc qızın bu sevimli və odlu baxışları altında Mirzənin qanı qızmağa, ürəyi çarpmağa başlayırdı, Saranın günəşdən yanmış təzə və gözəl simasına, qabarıq döşlərinə, ceyran gözlərinə baxırdı.

Mirzənin baxışları Bahadırın azca istehzalı nəzərləri ilə toqquşdu. Mirzə nifrətlə üzünü döndərdi. Onun, adı dillərdə gəzən bu adamı görməyə, nədənsə, gözü yox idi.

Yığım bir saat daha davam etdi.

Məktəblilər arasında pambığın dünyanın harasında daha çox əkildiyi haqqında söhbət gedirdi. Birisi Mirzəyə müraciət edərək:

– Müəllim! – dedi, – mən deyirəm ki, bizdə ən çox pambıq əkilən yer Mil düzüdür, bu deyir ki, yox, Sabirabaddır. Mən düz demirəmmi?

Mirzə İman ağıllı adamlara məxsus bir ifadə ilə gülümsədi. Sual verən tələbənin başını sığalladı. Mülayim və xoş bir ahənglə dedi:

– Yox, oğlum! İkiniz də səhv edirsiniz! Hal-hazırda Sovetlər İttifaqında birinci pambıq rayonu Gürcüstandır.

Mirzənin olduqca inandırıcı bir tonda dediyi bu sözlər kolxozçuların şiddətli qəhqəhəsinə səbəb oldu. Mirzə kolxozçuların nəyə güldüklərini anlamadı, özü də onlara qoşulub güldü.

– Ay yoldaş müəllim! – deyə Bahadırın səsi eşidildi. – Bəs, deyirlər pambığı Özbəkistanda çox əkirlər.

Mirzə qaşqabağını salladı. Acıqlı-acıqlı Bahadıra baxdı və dedi:

– Bəs, biz keşişə söyürük? Nə təfavütü var? Ya Özbəkistan, ya Gürcüstan, ikisi də sovet torpağı deyilmi?

– Müəllim, demək, Məşədi İbad demişkən, nə təfavütü var, o olmasın, bu olsun!

Kolxozçular bu söhbətə qəhqəhə ilə gülüşdülər.

Nahar elan olundu. Kolxozçular yavaş-yavaş istirahət çadırına tərəf axışmağa başladılar.

Payızın son vaxtlarına məxsus sərin bir külək əsirdi. Çinarın solğun yarpaqları havada löngər vura-vura yerə düşürdü. Radioda «Kəsmə şikəstə» oxunurdu. Kimi çubuq çəkir, kimi söhbət edir, kimi də uşağını əmizdirirdi. Üzlər nəşəli idi. Mirzə, Saranın yanında oturmuşdu. Ona böyük stəkanda çay verildikdə, yeməkdən nəzakətlə boyun qaçırdı. Bahadır:

– Mirzə belə çayları bəyənməz, – dedi.

Sara bir quş çevikliyi ilə yerindən sıçradı:

– Mirzəyə özüm çay gətirəcəyəm.

Sara balaca stəkanda tünd rəngli çay gətirdi:

– Buyurun, axı, bunlar sizin qədrinizi nə bilir. Zər qədrini zərgər bilər, – dedi.

Mirzə gülümsədi. Nahar fasiləsi qurtardı. Kolxozçular məzəli zarafatlar, şən gülüşlərlə tarlaya doğru axışmağa başladılar.

Axşam çağı günəş qürubda ikən, qapanın ətrafında böyük bir qarğaşalıq vardı. Hər kəs öz pambığını qabaqca çəkdirməyə çalışırdı.

Kolxozda öz tənbəlliyi ilə məşhur olan Zayvax Tapdığın pambığı çəkildikdə, hamı gülüşdü.

– Pah atonnan, ədə, Zayvax bu gün rekord vurub ki.

– Sağ ol, Tapdıq!

Bu günün qəhrəmanı yenə də Bahadır oldu. Qapançı onun pambığını çəkəndən sonra dedi:





– Bahadıra 508 kilo yaz!

Ətrafa dərin bir sükut çökdü. Hamı mat qaldı, sonra bu ani sükut ümumi təəccüb nidalarına çevrildi.

– Vay, dədə!

– Bax, analar belə oğullar doğub!..

Doğrudan da, pambığın son yığımında bu, ağlasığmaz bir nəticə idi.

Sara evə döndükdən sonra uzun zaman yata bilmədi. Yığım, tarla, məktəblilər, Mirzə İman xəyalından süzülüb keçdikcə, o, Bahadırın üzünü daha aydın görürdü: «O nə qədər igid bir oğlandır. O nə qədər yaraşıqlıdır!»

Sara qeyri-şüuri olaraq onun adını bir neçə dəfə öz-özünə pıçıldadı. Qəlbində fərəh, səadət hiss etdi.

Həmin gecə Saranın eşqi ilə yanan bir nəfər də var idi. Bu da Mirzə İman idi.

Gecədən xeyli keçməsinə baxmayaraq, Mirzə İman, adəti xilafına, hələ yatmamışdı. Otağında tək idi. Peçin kənarında oturub, dərin fikrə getmişdi. Siz zənn edirsiniz ki, o, sabah deyəcəyi dərslər haqqında düşünürdü? Yox... Dərsə hazırlaşmaq onun adəti deyildi. Çünki o öz bilik və məharətinə tamamilə əmin idi. Plan, konspekt tutmaq kimi işlər onun acığına gələrdi.

Mirzənin dərdi sağalmaz dərd idi. Odur ki, yanıqlı bir ah çəkdi. Bir qədəh daha araq içərək, öz düşüncəsinə davam etdi.

Bu zalım gözəli hansı məşum qüvvə onun qarşısına çıxardı? O neçin bu kəndə düşdü?

Ah, neçin? Neçin? Ah, gözəl Sara! Ah, məhəbbət nə bəla şey imiş?..

O, indi nə etməlidir? Arvadı var, uşaqları var.

Dışarıda küləyin həzin vıyıltısı eşidilirdi. O, maşa ilə odu bir yerə yığaraq, düşüncəsinə davam etdi:

Əcəba, arvad-uşaq olanda nə olar ki? Məgər, belə təsadüflər azmı olmuş? Məgər, arvadlı kişilər azmı evlənmiş? Arvadını boşasa nə olar? Bəs, uşaqları nə olsun? Arvaddan xəlvət evlənsə nə olar? Bəlkə arvad bildi?

Burada Mirzə udqundu. Dərhal başından belə bir fikir keçdi:

– Əşi, qadın tayfası ürəyi nazik olar... Arvadı bir tövr ilə yumşaltmaq olar.

Saranın onu qəbul edəcəyinə Mirzə İman heç şübhə etmirdi. Özünü Sara üçün tam layiq bir ər bilirdi.

Sara ondan yaxşısını haradan tapacaq? Oxumuş ziyalı bir adam.

Müəllim. Hətta, Mirzəyə elə gəlirdi ki, deyəsən, Sara da ona vurulmuşdu.

Mirzə həyəcanla otaqda var-gəl edirdi. Peç sönmüşdü. Artıq dışarıdan küləyin vıyıltısı eşidilmirdi. Yatmaq Mirzənin yadına düşmürdü. Gicgahları od tutub yanırdı. Qövsünün:

Səbr eylə, axırı mey olur qan dedikləri,
Sübhi-vüsal olur şəbi-hicran dedikləri.

qəzəlini zümzümə etməyə başladı.

Mirzə İman 35-40 yaşlarında ortaboylu, batıq ovurdlu, çıxıq və oynaq gözlü bir adam idi. İri və qırmızı dodaqları həmişə yaş olardı. Mirzə İmanı ən çox kədərləndirən onun ortası yəhər kimi yastı burnu idi. Mirzə güzgüdə öz-özünə baxdığı zamanlar burnunu görüb "ah" çəkərdi.

– Bu zəhrimar burun olmasaydı, mən nə gözəl olardım, – deyə düşünərdi.

Mirzə İman zövqlü adamlardan idi.

Çimməyə, alt paltarını tez-tez dəyişməyə, dırnaqlarını kəsməyə tənbəl olsa da, saçları həmişə yağlanmış və səliqə ilə daranmış görünərdi, köhnə modalı, tünd qırmızı qalstuku boynundan bir dəqiqə əskik olmazdı. Onda incə bir şair təbiəti vardı. Onun hafizəsi bir qəzəl arxivi kimi idi. Keçmiş şairlərin bir çoxunu, demək olar ki, əzbər bilirdi.

Qadınlardan söhbət düşdükdə, «gözəllərin əsiriyəm» deyərdi. «ürəyi qızdığı» adamların yanında qadınların açıq gəzmələri haqqında narazılığını gizlətməzdi.

Mirzə İman şərab düşkünü idi. Şərab və dünya haqqında özünəməxsus «nəzəriyyəsi» vardı.

O, özünün «yaxın adam»larına danışırdı ki:

– Dünya fanidir. Hər şeyin axırı heçdir. Madam ki, belədir, bəs, niyə həmişə kef çəkməməli?

Cavan müəllimlərlə Mirzə İmanın arası olmazdı. 28-ci ilə qədər olan müəllimlik dövrü onun izzəti-nəfsini oxşayan yeganə xatirə idi. Bu barədə söz düşəndə deyərdi: «O zamanlar bu rayonda beş-on mənim kimi müəllim vardı. Bizi barmaqla göstərirdilər. İndi də uşaq-muşağa yoldaş olmuşuq».

Mirzə İmanın məchul bir keçmişi vardı. Belə rəvayət edirlər ki, Aprel inqilabına qədər dayısının baqqal dükanında olmuş, inqilabdan sonra isə, az-maz «yazı-pozu» bildiyi üçün bir qohumunun köməkliyi ilə müəllimlik kursuna girmiş, ondan sonra da müəllimlik dövrü başlanmışdı. Özünün dediyi kimi:





– Bir parça çörək sahibi olandan sonra bir halalzadə ilə evlənmişdi...

İndi iki oğlu və bir qızı var. Deyildiyinə görə, arvadı gənc və gözəldir.

***

Axşamçağı idi. Günəş yavaş-yavaş sakit dağlar arxasına çəkilməkdəydi. Onun solğun şüaları altında «Güllü təpə»nin qarlı zirvəsi almaz kimi parıldayırdı. Soyuq və xəfif bir külək əsirdi. Yuvalarına gecikmiş quşlar o yan-bu yana uçuşurdular.

Sara, kül rəngli paltosunun dərili boynunu qaldırıb, ağır addımlarla evlərinə doğru gedirdi.

O, düşüncəli idi.

– Salam, Sara!

Sara diksinib, başını qaldırdı. Bahadırın uca şumal üzünü, gülər gözlərini gördükdə ürəyi şiddətlə döyünməyə başladı. Nəzərlər qarşılaşdı. Bahadırın baxışlarında bir şahin qüdrəti vardı. Bu baxışlar qarşısında Saranın göz qapaqları ağır-ağır aşağı enirdi.

Bahadır onun əllərini əlləri içinə aldı, sıxdı.

– Sən nə qədər güclüsən.

– Hələ indi bilirsən?

– Özünü çək görək...

– Özümü çəkimmi?

Bu dəfə Bahadır onun nazik barmaqlarını elə bərk sıxdı ki, ağrıdan Saranın yanaqları qızardı.

– Ox... Bahadır, burax!

– Yox, gərək ağlayasan, yoxsa, buraxmaram.

– Ağlamaqmı? Mənim ağlamaqdan zəhləm gedir. Öldürsələr də ağlamaram. Burax! Başqasının nişanlısı ilə sənin nə işin?

Bahadırın əlləri boşaldı. Saranın əlləri yanına düşdü.

– Necə nişanlı?

– Nişanlı necə olar?

– Axı, hansı nişanlı?

– Mən!

– Sən kimə nişanlı olmusan?

– Bir gözəl oğlana.

– O gözəl oğlanın adını bilmək olarmı?

– Neçin olmur?

– Adı nədir?

– Mirzə İman!

– Kim?
– Mirzə İman!
– Mirzə İman... ha... ha... ha...
– Mənim əziz nişanlıma gülmə!
– Yox, əşi, doğrudanmı?
– Bəs necə?
– Belə de... Mən də deyirəm görən bu qız niyə belə ciddi olub... Demə, iş varmış...
– Bahadır, bizim toyumuza gələcəksənmi?

Bahadırın başından «Qızlara nə etibar? Birdən bu iş doğru olar?» deyə bir fikir keçdi. Bahadırın pərtliyini görən Sara özünü saxlaya bilməyib, qəhqəhə ilə güldü.

– Mən ölüm, bu necə məsələdir?
– Mirzə İman mənə elçi göndərmişdi.
– Bıy?
– Bəs necə?
– Bəs, sən nə cavab verdin?
– Dedim gedərdim, ancaq bir şey qabağımı kəsir. Dedilər «Nə?» Mən açıq yox, dolanbac yolla, Mirzənin burnunun xoşuma gəlmədiyini anlatdım.

Burada hər ikisi gözləri yaşarıncaya qədər güldülər.

– Bəs, sən niyə elə cavab verdin? Yenə, nə qədər olsa, müəllimdir. Hörmətini saxlamaq lazımdır.
– Bu axmaq kişi məni o qədər yandırdı ki, ağlım başımdan çıxdı. Acıqla elə dedim. O, arvadından, üç uşaq atası olmasından həya etmirmi?

Elçilərin rədd ediləcəyini Mirzə İman heç ağlına belə gətirməzdi. Bu hadisə onun üçün ən acı bir zərbəydi.

«Zəhrimar burun.» Elçilər Saranın rədd cavabını söylədikdə, Mirzə bu sözü bir neçə dəfə öz-özünə təkrar etdi...

Mirzə İman yanvar tətilindən iki gün qabaq şəhərə getdi. Tətil bitdikdən üç gün sonra gəlib çıxdı.

Onun gəlişi bütün kəndin heyrətinə səbəb oldu. O gün, demək olar ki, hər bir evdə söhbət onun haqqında gedirdi. Küçədə balaca uşaqlar, suya gedən qoca qarılar onu gördükdə, dayanıb heyrətlə tamaşa edirdilər. Xalqın nəzər-diqqətini belə cəlb etməsi Mirzənin izzəti-nəfsini oxşayırdı.

Xalqın bu heyrətinə səbəb iki şey idi. Birincisi o idi ki, Mirzə İmanın burnu əvvəlki kimi yastı deyildi. O, indi düzəlmişdi. Lakin cərrahiyyə əməliyyatının müvəffəqiyyətlə keçməsinə baxmayaraq, Mirzənin burnu o qədər də gözəlləşməmişdi. İkincisi o idi ki, Mirzənin





geyimi dəyişmişdi. Mahuddan balaqları gen olan şalvar və əntiqə bir pencək geymişdi. Başına günlüyü həddindən ziyadə uzun, alabəzək bir kepka qoymuşdu. Ağzında isə, bir ingilis trupkası daima tüstüləyirdi. Tətildən qayıdandan sonra Mirzə İmanın xasiyyətində də bir dəyişiklik vardı: başını dik və məğrur tutur, heç kəs ilə danışmır, hətta, salam da vermirdi.

Yalnız hər gecə gec vaxta kimi Sara yaşayan evin qabağında gəzinirdi.

Tətildən qayıdandan sonra Mirzə İman ikinci dəfə Saraya elçi göndərdi. Bu dəfə Saranın onu məhkəmə ilə hədələdiyini eşitdikdə, Mirzə İman öz taleyindən küsdü. O, elə zənn etmişdi ki, burnuna qoyduğu xərc havayı getməyəcək. O, elə zənn etmişdi ki, təzə paltar, düzəlmiş burun, alabəzək kepka Saranı heyran edəcək... Lakin, heyhat! Tale ondan üz döndərmişdi...

Sara ilə Bahadırın toyları olan günlərdə Mirzə İman evdən çölə çıxmadı. Xəstələndiyini bəhanə edərək, məktəbə də getmədi.

Mirzə İmanın ikinci bir dərdi də vardı: attestasiya başlanmışdı.

Mirzə «Bu nə hoqqaydı böyürdən çıxdı?» deyirdi.

Mayın axırında onu Attestasiya Komissiyasına çağırdılar.

Mirzə İman ürəyi döyünə-döyünə Attestasiya Komissiyası otağına girdi.

– Neçə ildir müəllimsiniz?
– On yeddi.
– Haranı bitirmisiniz?
– Yay pedaqoji kurslarında oxumuşam.
– Nə vaxt?
– 24, 25, 26-cı illərdə.
– Hansı siniflərdə dərs aparırsınız?
– 2-ci və 3-cü qruplarda.
– 3-cü sinifdə coğrafiyadan nə keçirdiniz?
– Nə bilim, yoldaş. Proqramda nə varsa, onu.
– Yer neçə qitədir?
– Gərək 8 olsun.
– Hansılardır?
– Yevropa, Asiya, Afrika, Şimali Amerika, Cənubi Amerika, Azərbaycan, Hindistan, bir də Avstriya.
– Puşkini tanıyırsınızmı?
– Niyə tanımıram. Proletar şairdir, bu yaxınlarda 100 yaşının tamam olmasını bayram elədik.

Mirzə İman komissiyadan tərləyib pörtmüş və özündən razı bir halda çıxdı. Çöldəkilər soruşdular:

– Mirzə, necə cavab verdiniz?

– Eh, Allah vurmuşdu onları, onlara bir doqquzluq gəldim ki, özləri də məəttəl qaldılar.

Attestasiya Komissiyasının onu müəllimlik hüququndan məhrum etdiyini eşitdikdə, Mirzə İman əvvəlcə inanmadı, sonra isə, «Şəxsi-qərəzlikdir! Şəxsi-qərəzlikdir!» deyə aləmə küy saldı.

***

Axşamüstü günəş batarkən, Bahadır ilə Sara tarladan qayıdırdılar. Hər ikisinin günəşdən yanmış gözəl üzündə sevinc vardı. Onların qarşısına bir fayton çıxdı. Faytonun arxasında çamadan, içində isə, ağzında trupka tüstüləyən bir adam oturmuşdu. Bu, Mirzə İman idi. Saragili gördükdə, üzünü o yana çevirdi. Fayton sürətlə ötdü. Mirzə arxadan Bahadırın «Mirzə, yaxşı yol» deyə gurlayan səsini, Saranın şən qəhqəhələrini eşitdi...

*1939*

## UXAJOR

Kefinin pis vaxtında qadınlardan söhbət salaraq, bircə dəfə «Süleyman yaman uxajordur... ona heç birimiz çata bilmərik» desəydiniz, kifayət idi.

Bu, onun üçün hər hansı bir qonaqlıqdan min dəfə nəşəli idi. O zaman dostum özünəməxsus şirin və özünün dediyi kimi, «qadınları yoldan çıxaran bir təbəssümlə» gülümsər, başını təmkinlə yırğalar, şapqasının dilini qaldırar və saysız-hesabsız məşuqələrindən birinin haqqında nağıla başlardı... Lakin dostumun bircə nöqsanı vardı. Bir az uzunçu idi... Hər bir məşuqəsi haqqında bizə, ən azı, əlli dəfə danışmışdı. Mənə elə gəlirdi ki, o öz məşuqəsi barədə danışmaqdan çox dünyada heç bir şeydən zövq almırdı. Təkrarlarına baxmayaraq, o, hər dəfə öz məşuqələrindən o qədər şirin, ürəkdən danışırdı ki, bilaixtiyar eşitdiyin əhvalatı bir də dinləməyə məcbur olurdun... O, olduqca yumşaq qəlbli adamlardan idi... Hər bir «sevgilisindən» danışarkən, «Ox, yazıq, görəsən, indi nə edir? Eh, bircə siz onu görsəydiniz...» və yaxud «O olduqca namuslu qadın idi, həyatında ilk sevgilisi mən olmuşam.» deyə təəssüflər edərdi. Heç birimiz etiraz etməzdik. Bizim üçün ən maraqlısı ondakı həvəs idi... Hətta, doğrusunu söyləyim ki, bizlərdən ondakı qüvvətli həvəsə qibtə edənlər də vardı. Qadın adı gəldimi, o, civə kimi yerində o yana-bu yana hərlənəcəkdi.

Onun, azı, qırx yaşı olardı... Ancaq ondakı maraq iyirmi yaşlı cavanlarda az-az tapıla bilərdi. Mənim dostumu çox istəməyimə səbəb də bu idi. O, o qədər siz deyən cazibəli də deyildi. Lakin üzünün cizgiləri düzgün və hətta, sevimli idi... Ortaboylu idi. Beli bir az əyri kimi görünürdü. Ancaq onun təbəssümü, doğrudan da, çox sevimli idi. Hamı onu bir yaxşı adam kimi tanıyırdı. Buna mənim də etirazım yoxdur, çünki; o, hər kəsin öz dili ilə danışmağı bacarırdı... «Yaxşı adam olmağın əlamətlərindən biri də budur» deyərdi.

O, özünün dediyi kimi, «xeyirxah» bir adam idi... Mən pislik üçün yaranmamışam, nə borcuma, «dəymə mənə, dəyməyim sənə...» de-

yərdi. Heç kəsin xətrinə dəyməzdi. Dostumun nöqsanlarından biri də onun yüngülcə şöhrətpərəst olması idi.

Müdir onu yerində qoyub getdiyi zamanlar belini oxlov udmuş adamlar kimi düz tutar, qaşlarını çatar, bəzən əlini alnına qoyub, düz beş dəqiqə fikrə gedərdi. Stolun yeşiyini qurdalar, idarə işçilərinə quru və şiddətli əmrlər verərdi. Hamı ilə, hətta, onunla xüsusi dostluğu olanlarla da, «Yox, olmaz! Nə var? Çıx çölə, hələ vaxtım yoxdur!» deyə çox rəsmi danışardı.

Müdirin yerində oturduğu zaman gəlib pəncərədən dostumun «dəstgahına» tamaşa etməyi çox sevərdim... Bir də görürdün ki, iş üçün kənddən gəlmiş müəllimlər dinməz-söyləməz sıra ilə oturub, sanki hamını böht aparıb, Süleyman isə, qəddini düz tutaraq, telefon ilə danışır: «Hə, danışan maarif müdiridir! Nə var? Ağzı nədir? Burada maarif müdiri var, yoxsa yox?»

«Maarif müdiri» sözünü onun nə qədər incə, özünə güvənən bir tonla dediyini bircə siz eşitsəydiniz... Dəstəyi yerinə asar, heç kəsin üzünə baxmaz, aradan xeyli keçdikdən sonra, nəhayət, başını yuxarı qaldıraraq acıqla soruşardı:

– Hə, nə var?

– Yoldaş müdir, məktəbə uşaq az...

– Hə, yaxşı... yaxşı, bildim... Sən söylə!

Mənə elə gəlirdi ki, deyilən sözlərin biri də onun qulağından içəri girmir... O, özünü başqalarına göstərmək üçün sual-cavab aparır.

Kabinetə bir müəllimə gəldikdə isə, hər şey dəyişirdi. Dostum tez üzünü ona çevirib deyərdi:

– Pah, salam! Nə qulluğunuz var? Maaşınızdan-zaddan korluğunuz yoxdur ki! Əyləşin...

Sonra da digər müəllimlərə müraciətlə hirsli-hirsli deyərdi:

– Yaxşı, yaxşı, sizin işlərinizin hamısını düzəldəcəyəm, ancaq indi bir az çölə çıxın, müəllimə yoldaşın sözü var...

Müəllimə isə qızarar və:

– Yox, yoldaş Süleyman! – deyərdi, – mənim gizlin bir sözüm yoxdur...

Lakin kimə deyirsən? Dostum o qədər ağına-bozuna baxan deyildi. Ancaq nə etməli? Mən «bildirçinin bəyliyinin darı sovrulanacan» olmasına çox təəssüf edərdim. Dostumun «ağalığı» o qədər də uzun çəkməzdi... Müdir gələndən sonra o, yenə də əvvəlki adi vəziyyətinə düşərdi. Yenə də qəddi əyilər, hamı ilə mülayim və zarafatcıl olmağa başlayardı.

Dostumun qoltuq cibində bir dəftərçəsi vardı. Bunu o, «sirrlər dəftəri» adlandırırdı.





Burada, hər millətdən olmaqla, müxtəlif qadınların adı yazılmışdı. «Bu nədir?» deyə soruşduqda, o, hiyləgərcəsinə gülümsəyər, «bu mənim tanış olduğum qızların siyahısıdır» deyərdi. Sonra da «ah» çəkib, təəssüf edərdi:

– Heyf ki, keçmişdə olanların siyahısını itirmişəm... Yoxsa, onda mənim necə bir uxajor olduğumu görərdin.

Bizim balaca şəhərdə onu tanımayan bir qadın tapılmazdı... Yaşlı arvadlar ona «Yaxşı kişidir... Amma, deyəsən, vinti bir az boşdur» deyərdilər... Cavanları isə, doğrusunu bilmək istəsəniz, onu ələ salardılar. Şəhərdəki hər bir qadın haqqında Süleymandan istixbari məlumat almaq olardı.

– Bu qadını mən tanıyıram. Filankəsin arvadıdır... Evləri hamamın yanındadır.

Və yaxud:

– Bu qız şəhərə dünən gəlib, əşi, bir şey deyil...

Dostumun bir nöqsanı da ondan ibarət idi ki, hansı qadınla tanış olsaydı, onunla etdiyi söhbəti, onun hərəkətlərini və hər işini artıqlaması ilə hər kəsə nağıl edərdi... Bunların nə dərəcədə yalan-doğru olduğunu heç kəs bilməzdi... Dostumun ən böyük entuziazmı oradan doğurdu ki, heç bir zaman «ayranına turş» deməzdi. Xoşuna gələn qızın onun haqqında nə fikirdə ola biləcəyi ilə qətiyyən maraqlanmazdı.

Dostum heç bir zaman ruhdan düşməzdi... Mən bəzi gənclər tanıyıram ki, bir qız tərəfindən rədd edildikdə, aylarca kədərlənirlər. Mənim dostum elələrindən deyildi... İstər gündə əlli dəfə rədd olunaydı, ona zərrə qədər təfavüt eləməzdi.

– Allah vurmuşdu... deyərdi. – Məşədi İbad demişkən, «o olmasın, bu olsun», nə çox dünyada qız...

Hələ mən sizə dostumun bir sirri haqqında da danışmaq istəyirəm. Amma, rica edirəm, heç kəsin xəbəri olmasın. Yavaşcadan qulağınıza pıçıldayım ki, dostum evlidir! Bəlkə, siz düşünəcəksiniz ki, yəqin Süleymanın arvadı qoca və yaxud da çirkindir?... Yox! Əksinə! Həm cavan, həm də gözəldir... İyirmi yaşı ancaq olar. O gözəl qızın nə cür ona ərə getdiyini bilmirəm. Bu hələ indi də mənim üçün bir sirrdir.

Yoldaşlardan bəziləri ona:

– Ay Süleyman, belə arvadı olan da ona-buna göz dikərmi? – dedikdə, o, başını bulayır, əvvəlcə cavab vermir, sonra isə, acıqlanıb, heç kəsin onun şəxsi işinə qarışmağa ixtiyarı olmadığını söyləyirdi. Bununla da, öz arvadının məsələsinin üstündən ötüb keçirdi.

O, gicgahlarındakı ağ tükləri tez-tez qaraldırdı. Lakin tüklər bu qara rəngin altından amansız bir dəhşətlə gözlərini ağardırdı... Mən, deyəsən, dostumun haqqında çox uzağa getdim. Ancaq onu tamamilə

hörmətdən salmamaq üçün məzəli işlərindən də bir az danışım, bununla da söhbəti bitirək...

Keçən ilin avqustunda onunla Bakıda görüşdük. Mənə ilk sualı bu oldu:

– Mən ölüm, bir de görüm, cavanlaşmışam, ya yox?

– Pah, qiyamətsən, – dedim, – qız olsaydın, sənə vurulmuşdum...

– Eh, mən ölüm, doğru deyirsən? Zarafat deyil, bala, iki ayda dörd min manat maya qoymuşam...

Sonra qulağıma tərəf əyilərək:

– Sən öl, düz on doqquzu ilə tanış oldum, – dedi.

– Ay namərd, barı iyirmiyə çatdıraydın.

– Olmadı, pulum qurtardı... tez gəldim.

Birlikdə Culfa qatarına mindik. Qarşı-qarşıya oturaraq, pəncərədən acı yovşanlı çöllərə tamaşa edirdik... O, biaram kurortdakı «On doqquzlardan» döşəyirdi... Bu halda qaraqaş, qaragöz gənc bir qadın biz oturduğumuz yerə yaxınlaşaraq:

– Burda oturmaq olarmı? – deyə icazə istədi.

Mən «hə» deyə cavab vermək istəyirdim ki, dostum məni danışmağa qoymadı. Quş kimi qalxıb qızın qabağında dayandı və dilini əzərək danışmağa başladı:

– Pah, o nə sözdür, buyurun! Buyurun! Sizin kimi xanımların qonşuluğu bizim üçün çox xoşdur, əyləşin! Əyləşin!

Sonra üzünü mənə tərəf tutaraq bərkdən dedi:

– Hə, narqom hər nə qədər mənə Bakıda maarif müdiri qalmağı təklif etdi, «mənim işim deyil» dedim, yaxamdan əl çək... Əşi, kimə deyirsən, elə hey deyir ki, yox, yoldaş Dünyamalıyev, bizim sənə çox ehtiyacımız var...

Qadın maraqla ona baxırdı... Mən gülməmək üçün dodağımı dişlədim:

– Nahaq qalmamısan, – dedim...

– Əşi, işim yoxdur...

Sonra da dostum qıza «laübalı» nəzərlər salaraq soruşdu:

– Bağışlayın, siz hara buyurursunuz?

Qadın qızararaq:

– Pirçivana gedirəm, – dedi.

– Bəs, yoldaşınız haradadır?

– Yoldaşım o biri vaqondadır, mənə yer olmadı, bura gəldim.

– Hə, çox gözəl... Yerin olmamağı bizim xoşbaxtlığımızdan olub...

Qadın heyrət qarışıq bir maraqla gözlərini qıyaraq gah ona, gah da mənə baxır və heç bir cavab vermirdi.





Dostum yeni qonşunu oradan-buradan söhbətə tutmağa çalışırdı. Məzəli sözlər deyirdi.

Qadın qulaq asır, gözlərini qırpır və ara-sıra gülümsəyirdi.

Hava qaraldı. Gecə düşdü. Mən tək oturmaqdan yorulub, nəhayət, mürgüləməyə başladım. Aradan bir az keçmişdi ki, o məni oyatdı.

– Nə var?

– Sən öl, qiyamətdir... Hələ bir papiros ver... Kişininkini Allah yetirir də... Aşna, deyəsən, bu gecə iyirmi tamam olacaq...

Mən heç bir cavab vermədim. Yenə yatdım...

Dəhşətli bir çığır-bağıra başımı qaldırdım... Əvvəlcə heç nə anlaya bilmədim...

Dəhşətli bir mənzərəydi... Vaqonda nə qədər adam vardısa, hamısı sanki bura yığışmışdı... Hamı çığırırdı.

– Ədə, qoyma!

– Yazığı öldürdü!

– Axrananı çağır!..

Gənc bir adam kimisə altına basıb, bərk toqqaşlayırdı... Adamlar onu tutub nə qədər dartışdırırdılarsa, aralaya bilmirdilər... Axşamkı qaragöz qadın da ağlaya-ağlaya kimin qarasına isə söyürdü:

– Əxlaqsız! Vicdansız! Belə də iş olar?...

Bu vaxt vaqon bələdçisi gəldi... Dalaşanları bir-birindən araladı.

Yerdən qaldırılan adam əfsanələrdə deyilən xortdana oxşayırdı...

Mən yerimdə donmuş kimi qaldım... Bu, Süleyman idi! Gözlərinin altı qaralıb şişmiş, burnundan qan axır, başının tükü yolunmuş, qulaqları qızarmışdı.

Məni görərkən:

– Nə cür yoldaşsan?! – dedi, – yaxşıca haraya çatırsan!

Bizi və qadınla ərini istintaq otağına apardılar.

– Bu qadın sənin nəyindir?

– Yoldaşım!

– Nəçisən?

– Traktorçu!

– Bu kişini niyə döyürdün?

– Niyə mənim yoldaşımı təhqir edir? Ərli arvada niyə sataşır?

– Bu doğrudurmu, bacı?

– Bəs necə... Əvvəlcə mən ona çox yalvardım ki, məndən əl çək... Yaxşı deyil... Mənim ərim var... Məni zorlayaraq öpmək istədi... Bu dəqiqədə də, ərim gəldi... Belə də həyasızlıq olar?

Dostum:

– Yalandır! Yalandır yoldaş, məni təhqir edəni cəzalandırmağınızı tələb edirəm... – deyə dünyanı dağıdırdı...

01/01–7

Mən utandığımdan otaqdan çıxdım.

Bəli, mənim dostum belə bir adam idi. Lakin o hadisədən sonra bizim dostluğumuz pozuldu. O, məni maymaqlıqda töhmətləndirdi.

– Səninlə xeyrat aşı yeməyə də getmərəm, – deyirdi.

Mən isə, artıq onunla salamlaşmağı belə özümə ar hesab eləyirdim.

Odur ki, bizim dostluğumuz pozuldu. Və mən bir daha onun üzünü görmədim.

Bu yaxınlarda eşitdim ki, onu əxlaqsız müəllim olduğu üçün məktəbdən çıxarıblar.

Bir də dedilər ki, qızlar arasında hörməti tamamilə düşüb. Əvvəldən zarafatla ona salam verənlər indi daha bu zarafatı da eləmək istəmirlər.

Hələ deyirlər arvadı da Süleymandan boşanıb.

Əgər, elədirsə, arvad çox haqlı iş görüb.

*1939*

# «AYDINLIQ GECƏLƏR» KİTABINDAN

Deyir ki: Çəkmə çəkə bilməzsən
Bərkdir fələyin yayı,
Vardır bu dünyada
Hər bir insanın öz payı.

A. Cavid

## GÖZLƏNİLMƏYƏN SEVGİ

Darülfünunda dərslərin başlandığının dördüncü günü idi. Foyedə gənc bir oğlanla yaşlı bir qadın dayanmışdı. Hamı maraqla onlara baxırdı. Uca boyu, enli kürəyi olan bu qadın qara yun parçadan uzun tuman, ətəkli arxalıq geymişdi. Qara, sürməli gözləri sükutla baxır, günəşdən yanmış üzü soyuq bir qayğı ifadə edirdi. O, kimsəyə baxmadan nə haqqında isə düşünür və çubuq çəkirdi. Yanındakı ucaboylu oğlan olduqca şux geyinmişdi, lakin son dərəcə çirkin idi. Üzü çopur, burnunun ortası yəhər kimi yastı idi. Dodaqları qaba surətdə irəliyə doğru uzanmışdı. Cod və bozumtul kimi görünən saçları alnında bir bucaq təşkil edir və az qala burnuna qədər uzanırdı.

Xidmətçilərin biri onlara yaxınlaşaraq:

– Direktor gəldi, – dedi.

* * *

– İmtahanlar qurtarıb, yerimiz dolub, xala, – deyə direktor qadına baxdı.

– Birtəhər elə, ağrın alım... rayonumuz çox uzaqdır. Ona görə gecikmişik, – deyə qadın quru, bir az da amiranə səslə cavab verdi.

Qadının üzü tutuldu. Uzun, enli qara qaşları çatıldı. Çubuğunu dərindən sümürərək fikrə getdi. Pəncərənin qabağında dayanmış oğlan soyuq baxışlarla çölə baxırdı.

O, hamıda təəccüb oyadan bir məharətlə imtahan verib riyaziyyat fakültəsinə daxil oldu. Özünü olduqca sakit və ciddi aparmasına baxmayaraq, az zaman içərisində fövqəladə istedadı ilə hamımızı heyran etdi. Ən güclü riyaziyyatçı, ən yaxşı radist idi. Qırx nəfər yaxşı şahmatçı ilə eyni zamanda oynayar və həmişə də qalib gələrdi. Bütün müəllimlərimiz ondakı səlis, axıcı natiqlik məharətinə qibtə edərdilər. Onun məharəti bunlarla bitmirdi. O, ən gözəl snayperlərdən hesab oluna bilərdi. Həmişə birinci mükafatı o qazanardı. O, az zaman içərisində

bizim aramızda təsəvvürə gəlməz bir hörmət qazandı. O, hamıdan gözəl geyinir, başını dik və məğrur tutaraq gəzir, həmişə teatrlarda birinci sırada otururdu. Pul xərcləməyə onda düşgünlük hesab olunacaq dərəcədə şiddətli bir arzu vardı. Onunla aşxanaya, teatra və qeyri yerlərə gedən adam əlini cibinə salıb pul xərcləmək istədikdə, o, dilxor olar və «mənim hesabımadır!» sözlərini o qədər şən və həvəslə söyləyərdi ki, adam onun diləyini pozmaq istəməzdi. İnsan ən sıxıntılı vaxtında belə, onun yanında özünü sərbəst və şən hiss edirdi. Ondakı bu tükənməz fərəh bir çoxlarını təəccübləndirirdi. Sanki öz taleyinin hökmünə tabe olaraq, o, güzgüyə baxıb heç bir zaman gülməməli imiş...

* * *

Darülfünunda yuxarı sinif tələbələrindən tutmuş professorlara, hərbi müəllimlərə qədər hamı ona etimad bəsləyir və hörmət edirdilər. Lakin ona yalnız bir adamın münasibəti qəribə idi. Bu, bizim sinifdə oxuyan Gülara adlı bir qız idi. Həsən nə qədər çirkin idisə, Gülara o qədər gözəl idi. İri, qara gözləri tükənməz bir cəsarətlə yanırdı, qəşəng cizgili nazik dodaqları vardı. Üzündən gülüş əskik olmazdı. Özünü şax tutaraq, kimsəyə məhəl qoymadan getdiyi zaman bütün tələbələr arxasınca baxardılar. Hər işdə birinci olmaq üçün bu qızda qarşısıalınmaz bir həvəs var idi. Bilmədiyi bir şeyi başqası izah etdikdə və ya verilmiş bir məsələni sinifdə hamıdan qabaq Həsən həll edib verdikdə, qız utanar, qızarar, bəzən də özünü saxlaya bilməyərək, uşaq kimi ağlamaq dərəcəsinə gələrdi. O, heç bir vəchlə Həsənin itifikirli və qabaqcıl olmasına dözə bilmirdi. Etiraf edim ki, bizim içərimizdə bu qızla rəqabət edə biləcək yalnız Həsən idi. Gülaranın böyük bir həvəslə birincilik qazanmaq istədiyi bir işi Həsən heç bir güc sərf etmədən asanlıqla həll edir və hamını ötüb keçirdi.

Xatirimdədir: bir dəfə yaz imtahanlarından birində Gülaranın yarım saat əlləşərək həll edə bilmədiyi bir məsələni Həsən beş dəqiqənin içində həll etdi. Bu zaman qız, Həsənə kin və qəzəb dolu amansız bir nəzər salaraq, tabaşiri əzib yerə tökdü. Çox vaxt Gülara haradansa elə çətin məsələlər tapırdı ki, bizim başımız taqqıldayırdı. Lakin, Həsən soyuqqanlılıqla məsələnin cavabını çıxardıqda, qız dərindən köksünü ötürər, alt dodağını dişləyərək heç kəsin üzünə baxmadan çıxıb gedərdi.

Mühazirədə oturduğumuz zaman mən hiss edirdim ki, onun xəyalı müdərrisdən çox Həsənin ətrafında dolaşır. Əlini çənəsinə söykəyərək, oğrun baxışlarla onun hər bir hərəkətini, geyimini, qalstukunu, saçlarının vuruluşunu nəzərdən keçirirdi. Lakin mən bir dəfə də olsun,





Həsənin Gülaranın üzünə dik baxdığını görməmişdim. Şən və zarafatlı olmasına baxmayaraq, o, heç bir zaman bu qız haqqında danışmaz, onun tikanlı zarafatlarına heç bir cavab verməzdi. Bəzən bu qızın gözəlliyi haqqında söhbət düşdükdə, onun üzü birdən-birə tutular, qəti bir hərəkətlə dərhal söhbəti dəyişdirərdi. Bir dəfə hərbi təlim zamanı Gülara əlli mümkün xaldan qırx dördünü toplayaraq, birinci yerə namizəd oldu. Onun bu müvəffəqiyyəti cavan oğlanları heyrətləndirdi. Bu vaxt haradansa Həsən gəlib çıxdı. Bayaqkı küt susqunluq gurultulu bir canlanmaya çevrildi.

– Bircə Həsən qalıb... görək də... Həsən tüfəngi al! – deyə tələbələr oradan-buradan səsləndilər.

Uşaqlar Gülaraya işarə ilə bir-birilərinə göz vururdular. Gülara qızğın bir təbəssümlə Həsənə baxırdı. Həsən tüfəngi götürüb hər dəfə nişan alarkən, Gülaranın dolaqları xəfifcə tərpənir, ürəyinin döyündüyü nazik paltarla örtülmüş döşünün tez-tez qalxıb-enməsindən bilinirdi. Həsən dördüncü güllədə otuz beş xal yığdı. Araya dərin bir sükut çökdü. Tələbələrdən bəziləri yavaşca sivişdilər. Ehtimal ki, onun qırx dörd xalı keçəcəyinə ümid etmədilər. Gülaranın üzü bir az açıldı, gözləri şən bir həyəcanla parladı. O, bir yerdə dayana bilmir, gah o yana, gah bu yana keçirdi. Doğrusu, burada mən də Həsənə ürək verdim. Bu, deyəsən, ona bir az toxundu. Mülayim bir nəzərlə mənə baxdı. Ani bir nişanla gülləni atdı.

– Ura!!! – deyə hamı birdən qışqırdı.

Güllə tam «10» rəqəminin üstündən dəymişdi. Qəribə burasıdır ki, Həsənin Gülara üzərindəki qələbəsi sanki hamının ürəyindən imiş. Şadlıq hamını bürüdü. Gülara bu istehzalı gurultunu hiss etməyirmiş kimi qəribə bir təbəssümlə Həsənə baxırdı. Heç bir zaman xatırımdan çıxmayacaq bu baxış o qədər dərin mənalar, şəfqətli, incə duyğular söyləyirdi ki, onları sözlə anlatmaq deyil, hiss etmək lazımdı. Mən gözəl qızın bu həzin və incə təbəssümündə, yaşla dolmuş gözlərində birinci dəfə olaraq, qüruru qırılmış, bakirə bir qız könlünün pərişan, əzgin həyəcanını duydum. Qürurlu bir gəncin məğlubiyyətinin nə demək olduğunu hiss etdim... Hamı gənc qıza, onun məğlubiyyətindən mülayimləşmiş zərif təbəssümünə kin və istehza ilə baxırdı. Sanki «hə, indi necəsən?» demək istəyirdilər. Guya ki, Həsənin çirkinliyində bu yazıq günahkar imiş. Mən, gözəl qızın o unudulmaz baxışında, birinci dəfə olaraq, çirkin dostuma qarşı mərhəmətmi, yanıqlıqmı, sevgimi, bilmirəm... incə, xoş bir şeyin titrədiyini və bunun xəfif bir ahla qurtardığını sezdim... Bu duyğu mənə həm xoş gəldi, həm də nə üçünsə izzəti-nəfsimə toxundu. O, «bəlkə də bu qəhrəman, lakin çirkin oğlanın yerində gözəl bir gənc görmək istəyirdi. Yoxsa, bunun belə olma-

dığına təəssüf edirdi... Kim bilir, bəlkə də onun məğlub könlündə cilvələnən aydın, şirin duyğular üzərinə çirkinliyin qara buludu çökürdü... Bəlkə də, gənc qız bu soyuq, eybəcər buludu könlündən qovmaq əzabı çəkir» deyə düşünürdüm.

Həsən ona yaxınlaşaraq, üzünə baxmadan:

– Pərt olmayın, Gülara, – dedi, – bu tamamilə təsadüfi bir işdir.

Gülara boynunu azca sola əyərək, şəfqət qarışıq, bir növ, istehzalı təbəssümlə «doğrudanmı?» deyə kəlməni xüsusi bir əda ilə uzatdı. Həsən heç bir cavab vermədən sakitcə uzaqlaşdı.

* * *

Bu hadisə biz üçüncü kursda oxuduğumuz ilin baharında oldu.

Bundan sonra Həsənin hərəkətlərində kəskin bir dəyişiklik əmələ gəldi. O, birdən-birə soyuq, sakit və fikirli oldu. Hiss edilmədən gəlib yerində əyləşir, dərs qurtaran kimi də hara isə gedirdi. Demək olar ki, kimsə ilə danışmırdı.

Gülara da son zamanlarda büsbütün dəyişmişdi. Gözlərində kədər qarışıq mülayim bir ifadə yaranmışdı. Fikri dağınıqdı, artıq birincilik üçün atılıb-düşməyən sakit bir qız olmuşdu.

Mən hiss edirdim ki, Həsənin həmişə ondan qaçmasına baxmayaraq, Gülara hər bir fürsətdən istifadə edib, onunla danışmaq istəyir, bəzən çox ehtimal ki, özünün də həll edə biləcəyi bir məsələni «çətindir» deyə Həsənə həll etdirir, məzəli sözlərlə onu güldürməyə çalışırdı...

Bütün bunlar bizə qəribə gəlirdi. Təəccüblə bir-birimizdən «bu nə işdir» deyə soruşurduq. Bəzən hamımızın aciz qaldığı bir sualı Həsən öz sakit, şirin sözləri ilə aydın bir şəkildə izah etdikdə, Gülaranın iri gözləri parlayır, müəllimin razılığı onun dodaqlarında isti bir təbəssümə səbəb olurdu... Əvvəllərdə yaraşıqlı gənclərə qarşı o qədər də laqeyd olmayan Gülara, indi demək olar ki, kimsə ilə yaxınlıq etmirdi.

Bir dəfə idman təlimi zamanı beş kilometri hamıdan tez qaçıb, birinci dəfə lenti qıran Həsənə baxan Gülara öz-özü ilə danışırmış kimi «bax, əsl kişi buna deyərlər» deyə pıçıldadı. Eyni zamanda, Həsənin qızarıb tərləmiş üzünə, qabarmış saçlarına baxaraq, təntimiş bir hərəkətlə üzünü çevirdi. Əlində tutduğu çiçəyi dırnaqları ilə didib yerə tökdü. Mənə elə gəldi ki, o, indicə hönkürtü ilə ağlayacaq...

Mən, «çirkinlik buludu» deyə düşündüm.





* * *

Bir gün bərbərxanadan çıxdığımız zaman Həsən güzgüyə ötəri bir nəzər salaraq:

– Ay Bahadır! – dedi. – Görəsən, niyə mən bu qədər çirkin olmuşam?

Onun səsi boğazında titrədi.

Mən, birinci dəfə olaraq, onun varlığında müdhiş bir əzab duydum: çirkinlik əzabı! Nər ürəyinə malik olan bu cavanın belə bir duyğunun məngənəsində inləməsi ürəyimi dağladı. Uzun zaman heç nə söyləyə bilmədim. Nəhayət:

– Nə boş şeylər haqqında düşünürsən, Həsən! – dedim.

O gülümsədi... Ah, bu təbəssümdəki dərin, ümidsiz kədəri duysaydınız...

– Nə etməli, ay Bahadır... Mən də insanam... Məndə də könül var, – dedi.

Mən, bu sözlərdən tüklərimin biz-biz durduğunu hiss etdim.

– Gedək bizə, – dedi. – Ürəyim qısılır, bir az oturaq.

Getdik. Açıq pəncərədən yaşıl bağlar, bürkü içində mürgüləyən təpələr görünürdü. Söyüd və qovaq ağaclarının açıq yaşıl, yüngül yarpaqları aramsızlıqla titrəşir, ləkəsiz göy qübbəsi qüruba yaxınlaşmış günəşin zəif şüalarını udur, havada xoş bir sərinlik duyulurdu.

Həsən yanağını şüşəyə söykəyərək çölə baxırdı. Üzünün çirkin cizgiləri solğun, həlim bir məyusluq ifadə edirdi. Bu hal yarpaqların sərin kölgələri ilə birləşir, əbədi və təbii görünürdü. Adama elə gəlirdi ki, onun könlündə dibsiz bir kədər dənizi var...

– Niyə son zamanlarda belə olmusan, Həsən? – dedim.

Üzü qüssə saçdı. Nəzərləri uzaqlara getdi.

– Səncə, bəs, nə cür olmalıyam? – dedi.

– Əvvəlki kimi, şən... – dedim.

O, təəccüblə mənə baxdı. Gözləri kinlə parladı.

– Doğrudanmı, belə düşünürsən? – dedi, – indiyə qədər haqqım olmadığı halda şənlik etdiyim bəs deyilmi? Arsızlıq nəyə lazımdır?

– Nə danışırsan, Həsən, – dedim. – Sən lap xarab olmusan. Bu sözlər heç sənə yaraşarmı?

– Çox təəssüf ki, belədir. Bu bədbinlik deyil dostum, həqiqətdir!

O, əli ilə çölləri göstərərək:

– Baxırsanmı? – dedi. – Bu dünyada hər şey öz gözəlliyindən bəhs edir. Hər bir canlı öz zahiri gözəlliyini nümayiş etdirir. Qəribədir... budağa qonmuş o quşa bir bax! Gör bir döşünü necə qabartmışdır. Sanki: «Bir baxın... görün mənim necə əlvan döşüm var...» demək istəyir.

– Nə olsun ki? – dedim.

O, dərin bir nəfəs alaraq güzgüyə baxdı. Dodaqlarını nifrətlə əydi:

– Onu demək istəyirəm ki, bu çirkinliklə mən dünyada kimə lazımam?

– Necə, sən həyatı, məgər, gözəl simalardamı görürsən?

– Yo-o-ox... – deyə uzadaraq fikrə getdi.

Axşamın sərin yeli üzümüzü oxşayır, uzaqdan bizə doğru ağ bir bulud parçası üzür, yaşıl budaqlar yavaş-yavaş yırğalanır, insan, könlündə xoş bir rahatlıq hiss edirdi.

– Səadətin yalnız üz gözəlliklərində olmadığını bilirəm, – deyə o, arxayın bir ifadə ilə davam etdi. – Ancaq nə edəsən ki, insan insandır. Bu canlı vücud da sevib-sevilmək istəyir. İradən dağ kimi də olsa, yenə görürsən bu tələblər səni sarsıdır. Çünki bu tələblərin təmini həyatın mənası, gələcəyin yoludur. Ancaq onda yazıq olursan ki, bu yola addım basmaq üçün sən özünü haqlı bilmirsən... O zaman sən özünü həyatın bir küncünə qısılmış, mənasız surətdə o yan-bu yana əl-qol atan kimi görürsən... Dostum, sən, bəlkə də, burada məni tənqid edəcəksən... İctimai səadətdən danışacaqsan. Bu, əlbəttə, doğrudur. Lakin bir düşün, könlün təbii ehtiraslarını kim inkar edə bilər? Əgər, bunu inkar etmək mümkün olsaydı... Bu qədər çirkin bir sima ilə hasarlanmış könül heç nə ilə hesablaşmaq istəmir... Mən ona qandıra bilmirəm ki, bir düşün, əzizim, bir təsəvvür et ki, xarici görünüşün Viktor Hüqonun Kvazimodasından da eybəcərdir. Sakit ol! Lakin kimə deyirsən... Hiss edirsən ki, sənin yazıq könlün də sevgiyə susayır. O da coşub-daşmaq istəyir... Sən isə, öz murdar simana baxıb, qəlbin bu gülünc tələbindən utanırsan.

O, müdhiş bir təbəssümlə gülümsədi. Nəzərləri yarpaqlarda dolaşdı. Günəş sönürdü. Bağlar tünd işıqlı bir görünüş alır, səmadakı bulud parçası getdikcə qaralırdı. Mən dedim...

– Bilmirəm bunlar haradan başına doldu? Sən əvvəllərdə o qədər şən idin ki...

– Çünki məni təhqir etdilər. İzzəti-nəfsimi yaraladılar. Könlümü boş ümidlərlə təlatümə gətirdilər.

Bu sözlərdən sonra o, mənim qarşıma kiçik bir zərf atdı.

– Mənə vicdanla söz ver ki, bu barədə kimsəyə bir söz söyləməyəcəksən, – deyə əsəbi surətdə gözlərimin içinə baxdı.

– Arxayın ola bilərsən, – dedim.

Zərfi açdım, incə bir xəttlə belə yazılmışdı: «Həsən! Bu məktubu öz-özümlə uzun mübarizədən sonra yazıram. Sizin geniş, nəcib qəlbiniz qarşısında tab gətirə bilmədim, heç olmazsa, məni qınamayacağınızla təsəlli tapa bilərəm. Əgər, azca da olsa, iradəm çatsaydı, bəlkə







də, yazmazdım. Birinci dəfə könlümdə duyduğum narahatlıq əvvəllərdə məni qorxutdu... Bunun nə demək olduğunu uzun zaman anlaya bilmədim... Bunun sevgiyə bənzər şey olduğunu öz-özümə belə təkrar etməyə xeyli zaman cəsarət etmədim. Geniş qəlbiniz şirin bir yuxu kimi məni cəzb etdiyi zamanlar dırnaqlarımla sinəmi didərək, hönkür-hönkür ağladım. Zənn edirəm ki, məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz... Ürəyinizə başqa heç nə gəlməyəcəyinə əminəm. Sizdəki yüksək qəlb mənim üçün dünyada hər şeydən qiymətlidir. Onu məndən əsirgəməyin!»

Məktubun axırında əsəbilikdə yazılmış «Gülara» imzasını gördükdə, mən gözlərimə inana bilmədim. Öz heyrətimi gizləməyə çalışaraq:

– Yaxşı da... daha burada nə təhqir var ki? – dedim.

Üzümə acı təbəssümlə bir nəzər saldı:

– Sanki anlamırsan? – dedi.

– Nə olsun ki, mən də qız olsaydım, sənin kimi qəhrəman bir gəncdən keçməzdim, – dedim.

– Paho... qəhrəmanlıq! Bəs, bu sir-sifəti hara qoyaq... yox! Mən bunun necə sevgi olduğunu anlayıram. O, öz hədəfində yanılmadı. Ən yaralı yerimdən vurdu! Görürsənmi «məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz» deyir... Bunun nəyə işarə olduğunu anlamırsanmı? Yox! O, öz gözəlliyinin qalibiyyət təntənəsini görmək istəyir. O, mənim qırx altı xalıma qarşı əlli xal vurmaq istəyir... Sən necə düşünürsən? O, məni necə sevə bilər? İnsafla danış, hansı bir qız iyrənmədən mənə baxa bilər. Ah, insanın təbiəti... sən nə qədər qəribəsən... onsuz da şikəst olan bir oğlana belə istehza etmək, ürəyindən yaralamaq onun nəyinə lazımmış?

Onun səsi həyəcanlı akkordlardan sonra birdən-birə titrəyib incələn musiqi kimi ötüb susdu. Mənə elə gəldi ki, Həsən öz şübhələrində bir az haqlıdır. Doğrudan da, Gülara kimi bir qızın Həsənə vurulması bir qədər təəccüblü görünə bilərdi. Gülaranın əvvəlki məğrurluğunu da nəzərə aldıqda, bu şübhə daha da qüvvətlənirdi.

Lakin qadın könlünün sirlərini kim olduğu kimi anlaya bilərdi?

– Əziz dostum! – deyə əlavə etdi. – Sən məni bədbinlikdə təqsirləndirmə. Lap uşaqlıqdan hər cürə ah-zara nifrət edirəm. Beş yaşında ikən gözümün qabağında altı qardaşımı, bir atamı xəngəl kimi doğradılar. İllər boyu bir tikə çörək üçün anamın onun-bunun qapısında paltar yuduğunu gördüm. Səkkiz yaşında bir uşaq ikən ayaqyalın, soyuqda, boranda başqalarına quzu otardım. Aclığın nə olduğunu gördüm. Lakin ürəyimə ələm girmədi, dərd çəkmədim... İndi isə... İndi isə, ürəyimdə qaynayan kədərin qarşısında durmağa iradəm çatmır... Eh...

O, başını bulayaraq, söyüd ağacının yırğalanan budağına baxdı.
– İstəsəydin, Həsən, – dedim, – mən bu barədə o qızla bir danışardım.
O, fikrə dalaraq, heç bir cavab vermədi.

* * *

Foyedə Gülaraya rast gəldim, salamlaşdıq. Söhbəti hərləyərək, Həsənin məsələsi üzərində dayandım. O, maraqla:
– Nə demək istəyirsiniz? – dedi.
– Bilmək istəyirəm, siz, doğrudanmı, onu sevirsiniz?
Onun üzü ciddi bir hal aldı:
– Özünə söyləmişəm, siz də bilmək istəyirsinizsə, bəli, sevirəm, – dedi.
– Demək, bu, ürəkdəndir?
– Qəribə sualdır? Yəni, ürəkdən olmayan sevgi də var?
– Bəlkə burada... Nə bilim... Siz... bir növ.
O, səbrsiz bir hərəkətlə mənim sözümü kəsdi:
– Rica edirəm, heç nə düşünməyin. Şübhələrinizin haranı döydüyünü bilirəm. Guya ki, məhəbbət üçün ancaq qara gözlər lazım imiş...
Onun dodaqları istehza ilə büzüldü.
– Mənə elə gəlir ki, – dedim, – bunu bir fədakarlıq kimi də düşünmək olar...
O təntimiş, ağlar bir halda:
– Axı, niyə belə düşünürsünüz? – dedi. – Fədakarlıq hər nə qədər nəcib bir duyğu olmuş olsa da, unutmayın ki, könül xudpəsəndliyini də inkar etmək olmaz. Lazımsız bir fədakarlığı onun şəninə necə yaraşdırmaq olar. Yox, belə bir romantika nə ona, nə də mənə lazım olardı...
Sözlərinin axırını öz-özü ilə danışırmış kimi, fikri dağınıq bir halda qurtardı. Bu vaxt gözəl bir gənclə Həsən qapıda göründülər. Qızın baxışları soyuqluq və laqeydliklə gözəl gəncdən çevrilərək uzun zaman Həsənə zilləndi. Bu baxışda nəvaziş və məhəbbətlə qarışıq, nə isə, üçüncü bir duyğu da sezilirdi. Bunun nədən ibarət olduğunu təyin etmək çətindir. Lakin bəzən acımaq və təəssüf duyğuları ilə taqətdən düşmüş sevgi belə bir baxışla şəfəqlənir. Onun üzü qürub edən günəş kimi solğun və həlim görünür. Bəzən şikəst oğluna baxan ananın da gözləri, dodaqları beləcə bir ifadə ərz edir, könlünün dərinliklərində ahəstə-ahəstə yanıb tüstülənən bu duyğunu, bəlkə də, o gənc qız öz dili ilə söyləməyə cəsarət etməzdi...





* * *

Həsən yenə də ona inanmadı. Özünə inanmamazlıq duyğusunun bu qədər hökmə malik olduğunu heç təsəvvür etməzdim... O, əsəbi hərəkətlərlə otaqda o yan-bu yana gəzinir, tez-tez saçlarını ovuşduraraq:
– Yalan deyir... yalan... axı, o gözəl qız nə üçün belə bir dramla əylənir... Nə üçün?

* * *

Bir neçə gündən sonra yay tətilinə buraxıldıq. Ayrıldığımız zaman onun gözləri yaşardı:
– Məni unutma, – dedi.

* * *

Üzümüzə gələn il Həsən gəlmədi... Sonralar onun Moskva darülfününuna dəyişilmiş olduğunu öyrəndik. Gülara hiss ediləcək dərəcə arıqlamış, sakit, eyni zamanda, əsəbi olmuşdu. Biz, demək olar ki, heç danışmırdıq. Nədənsə, bir-birimizdən çəkinirdik. Mən buraxılış imtahanından sonra onu bir daha görmədim.

* * *

Darülfünunu bitirəndən təxminən 4 il sonra bir gün Bakıda küçə ilə getdiyim zaman birisi qolumdan yapışdı. Donub qaldım.
– Həsən! – deyə qışqırdım.
Qucaqlaşdıq. O daha da böyümüş, kökəlmiş, pəhləvan kimi bir oğlan olmuşdu. Siması indi əvvəlki qədər də çirkin görünmürdü. Adəti üzrə, yenə də çox şıq geyinmişdi.
– Gedək bizə, – dedi.
Yol uzunu onun indi darülfünunda riyaziyyat dosenti olduğunu öyrəndim. Qapını açan yaxşı geyinmiş bir az yaşlı rus qadını oldu. Təxminən üç-dörd yaşında gözəl qaragöz bir oğlan uşağı sürətlə yüyürərək «ata» deyə Həsənin dizlərini qucaqladı. Mən uşağı görərək:
– Demək, sənin belə bir igidin də varmış, – dedim.
O biri otaqdan Həsənin anası gəldi. «Xoşgəldin» etdi. Bütün bu illərdə onun əzəmətli siması demək olar ki, heç dəyişməmişdi. Yalnız geyimində bir az dəyişiklik vardı. İndi əvvəlki kimi döşlüyü yox idi. Çubuq əvəzində əlində uzun papiros vardı.
– Buradamı olursan, xala? – dedim.
– Yox, – dedi. – Uşaqları görməyə gəlmişəm.

Nəvəsini yanına çağıraraq, günəşdən yanmış iri sümüklü əli ilə saçlarını oxşadı. Üzündə mehriban bir təbəssüm vardı.

Maraq və intizar qarışıq bir həyəcan bütün duyğularımı bürüdü. Həsənin həyat yoldaşını görəcəyim fikri, bilmirəm nə üçünsə, mənə, bir növ, ürkək, utancaq bir hiss təlqin edirdi... Qəribədir... Mənə elə gəlirdi ki, onun həyat yoldaşını görəcəyimdən Həsən utanacaqdı. Bir an tez çıxıb getmək istədim... Lakin bu dəqiqədə zəng vuruldu. Uşaq, «anam gəldi» deyə sürətlə qapıya yüyürdü. Ucaboylu, dolğun gərdənli, ağbəniz, gözəl gənc bir qadın gülümsəyərək mənə yaxınlaşdı.

Bu gənc qadın Gülara idi.

*1939*

## APARDI SELLƏR SARANI

Ölüm qanadlarını Gülnarın üzərinə gərdiyi zaman o, Soltanını yanına çağırıb, gözlərindən öpdü...

– Mən gedirəm, əzizim, – dedi, – günlərinə qəm qatma. Bu qoca dünya əzəldən belədir. Bilirəm evlənəcəksən, cavansan. Amma Saramdan muğayat ol. Qoyma ögey ana sitəmi çəksin. Əgər, xoşbəxt olsa, qəbrimin üstünə gəl... mənə de.

... Soltanın dərdi böyük oldu. Saçlarına dən düşdü. Lakin o evlənmədi. Könlünü əziz Gülnarının tək yadigarına bağladı.

Saranın süd anası bir qaşqa ceyran oldu. Ata qızını kimsəyə tapşırmadı. Arxasına şələyib qoyun otardı, dağ güllərinin arasında yatırtdı.

Sara ceyran südü əmə-əmə, qayalar arasında qaynayan durna gözlü bulaqlardan su içə-içə böyüdü, nazlı bir sona oldu.

Dağlar onun gözəlliyinə heyran qaldı. Çiçəklər ona qibtə etdi. Aşıqlar hüsnünə dastan dedilər. Sorağı ellərə yayıldı. İgidlər dərdə düşdü. Ay dağlar arxasından boylanaraq ona baxdı, məftun oldu... Günəş onu görməyə tələsdi, lakin rəngi saraldı, getdi.

Soltanın dərdi qaçdı. Könlü güldü.

Sara igidlərə yoldaş, quşlara sirdaş oldu, cıdırlarda at çapdı, ox atmaqda taysız oldu.

Güneylərdə oturaq oba qocaları ona baxaraq:

– Qənirsiz gözəldir, – dedilər...

İgidlər vurğunu idilər. Qız onlardan birini seçdi: Xançobana könül verdi.

İgidlər alaçıq tikdilər. İçini pələng dəriləri ilə döşədilər. Aşıq çağırdılar. Məclis qurdular.

Xançobana toy etdilər.

Günəşdən eşq əmən xoş günlər başladı...

* * *

Ay doğdu. El yaylağa köçdü.

Xançoban sıldırım bir qaya başında oturub tütək çalırdı. Yamaca yayılmış qoyunlar başlarını sallayıb, onu dinləyirdilər.

Muğan gözəli dağa çıxıb, Xançobana yanaşdı. Boynunu büküb igidinə baxdı. Baxışları həsrətliydi. Ay onun kədərli üzünə solğun bir nur çiləyirdi.

Çoban çalırdı...

Qızın yanağından mirvari dənələr yuvarlanırdı.

Çoban çalırdı...

Qız qolunu Xançobanın boynuna doladı, başını sinəsinə qoydu.

Çoban soruşdu:

– Sənə nə olub, gülüm?

Qız başını qaldırıb, yana-yana sevgilisinə baxdı:

– Sən yaylağa gedirsən, əzizim, – dedi, – bu ayrılıq mənə ağır gəlir. Elə bil ki, biz bir də görüşməyəcəyik...

Çoban güldü:

– Dərd çəkmə, gülüm, – dedi, – sənə dağ gülləri ilə bəslənmiş gözəl əmliklər gətirəcəyəm.

... Xançoban qoyunlarını dəstələyib yola düşdü.

Qız atası ilə Muğanda qaldı. Yay işləri görəcəkdilər. Qızıl sünbüllər biçəcəkdilər. Lakin bir gün hava tutuldu. Günəş buludlar arasında gizləndi. Araz «qan-qan» dedi.

Yadelli bir şah doğma yurda basqın etdi. Yolu Muğandan düşdü. Sular kənarında bir pəri gördü, atının başını çəkərək:

– Ey gözəl, – dedi, – kimin qızısan?

Sara qara gözlərini şaha zillədi. Qürurla:

– Atama Soltan deyərlər! – dedi.

Şah əmr etdi. Soltan gəldi. Şah ona müraciətlə:

– Mən sənin qızını özümə arvad eləmək istəyirəm,– dedi.

Soltan ürəyindən vuruldu:

– Ey şah! – dedi, – onun yarı var!..

Şah «mərhəmət» göstərdi:

– Mən səni dünya malından qane edərəm, kişi.

Soltan acı-acı güldü:

– Ey şah! – dedi, – dünya malı şahlara lazımdır, bizə bu azad çöllər də bəsdir.

Şah qəzəbindən titrədi. Qızı göstərib:

– Götürün! – dedi.





Yad əllər Muğan gözəlinin gərdəninə dolandı. Qızın dodaqlarından nagahani bir səda qopdu:

– Ata!..

Ata, balası vurulmuş pələng kimi qıvrıldı. Ciyərlərində odlu gürzələr süründü.

İmdad istəyən bir cüt qara göz ataya zillənmişdi. Qız yadlar əlində çırpınırdı. Ata yanırdı.

Ürəklərə od salan o yaralı səs bir də eşidildi:

– Ata!..

Bu zaman göylər qeyzlə guruldadı. İldırım çaxıb, qoca dağın şiş təpəsini parçaladı. Sular qayalara çarparaq hiddətlə səsləndi. Dərələr uğuldadı. Muğan titrədi. Onun gözəli gedirdi...

Təbiətin qüdrətli səsi ataya qalibiyyət yolunu göstərdi. O, əlini qaldıraraq:

– Dayanın, – dedi, – şaha bir sözüm var.

Hamı bir an dayandı.

O zaman ata, balasını iki qolları arasına alıb, çaya tulladı. Sular öz həmdəmini bağrına basıb, sürətlə axdı.

Ata, şaha baxaraq, müdhiş bir təbəssümlə:

– Sözüm bu idi, ey şah! – dedi.

Günlər keçdi.

Oba qızları dağlara tərəf uçan quşlara baxıb oxudular:

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıbdır al qana,
Apardı sellər Saranı,
Bir ucaboylu balanı...

*1940*

# DURNA

Təbiət elmləri namizədi Eldar ilə gənc aktrisa Durna altı ay idi ki, evlənmişdilər, müharibə başlandı.

Eldar ehtiyatda olan hərbçi kimi cəbhəyə getməli oldu.

Ayrıldıqları zaman o, sevgilisinin quzey yerlərdə bitən çiçəklər kimi zərif, solğun üzünə, açıq-xurmayı iri gözlərinə sürəkli bir nəzər salaraq:

– Mən sənə nə deyə bilərəm Durna, – dedi. – Hər şeyi gələcək göstərər.

Bu sözlərlə o nə demək istəmişdi? Özünün salamat qayıdıb-qayıtmayacağınımı nəzərdə tutmuşdu? Yoxsa, qoyub getdiyi sevgilisinin etibarınamı işarə etmişdi?

Bu sonuncu fikir Durnanın zehnini daha çox məşğul edirdi. Lakin bu işarə nə üçün idi? Bu dünyada onun Eldardan əziz, Eldardan yaxın kimi vardı ki? Durna onu sevirdi. Bu sevgi yaşıl otlar arası ilə yavaş-yavaş axan, nəcib duyğular təlqin edən bulaqlara bənzəyirdi.

Durnanın yetimlik, yalqızlıq iztirabları ilə pərvəriş tapmış qəlbi bu sakit, sadə sevginin bəxş etdiyi, mehribanlıqla bəxtiyar idi.

Eldarın gözəl, qonur gözlərinin məxmər kimi yumşaq, mülayim baxışları altında o özünü ata-anasının himayəsinə sığınmış bir uşaq kimi məsud hiss edirdi.

Buna görədir ki, Eldar cəbhəyə gedəndən sonra Durnanı ağır bir yalqızlıq duyğusu bürüdü. Oğlu kimi ucaboylu, enlikürək, təmkinli qaynanasının böyük səbrlə ona ürək-dirək verməsinə baxmayaraq, Durna qərarsız oldu. Bütün ümidini, sevincini Eldarın məktublarına bağladı.

Bu məktublarda onun təsəvvür etdiyi müharibə dəhşətləri hiss olunmurdu. Eldar gənc həyat yoldaşını güldürməyə çalışaraq, cürbəcür məzəli hadisələr təsvir edirdi. Lakin bu arxayınlıq Durnanın ürəyini sakit edə bilmirdi.

O, qəzetlərdə oxuduğu xəbərlərdən müharibənin dəhşətini duyur və bu hiss onun əsəblərini getdikcə gərginləşdirirdi.





Birdən məktubların arası kəsildi. Bu, Durna üçün amansız bir hal oldu. O, özünü qarlı çöllərdə azmış və heç bir yerə çıxmağa imkanı olmayan adamlar kimi ümidsiz və tək hiss etdi.

Soyuq qış günləri qurd kimi sürünərək keçirdi. İş vaxtı qurtarar-qurtarmaz, Durna zəif bir ümid, bir qorxu ilə evə tələsirdi. Qaynanasının özünü ürəkli göstərməsinə baxmayaraq, tutqun simasından yenə də məktub olmadığını anlayır, qəlbinə müdhiş əzablar hakim kəsilirdi.

Sonra qaynana ilə gəlin, bir-biriləri ilə danışmaqdan qorxurlarmış kimi, səssizcə nahara başlayırdılar.

Nahar könülsüz və məcburi bir hal almışdı.

Bəzən ana, bir söz olsun deyə, oradan-buradan danışar, Durnanın işindən soruşardı, lakin heç biri ürəklərini məngənə kimi sıxan əsl məsələdən söz açmağa cəsarət etməzdi. Sanki hər biri ürəyindəki bu ağır dərdin sezilməsindən qorxardı.

Nahardan sonra Durna yavaşca qalxıb öz otağına keçər, həmişəki kimi ahəstə, qayğısız yağan qara baxaraq, kədərli xəyallara dalardı.

Qış axşamının qaranlığı Yer üzünü bürüyən zaman Durna o biri otaqdan zəif pıçıltılar eşidər və qalxıb qapıya yanaşardı. Qaynanası əllərini göyə qaldırıb dua edərdi.

Qaynanasının yuxarıda, haradasa, bir nöqtəyə zillənmiş gözlərindəki inam və əzəmət Durnanın qəlbində ani bir yüngüllük işığı doğurardı.

Qaynanası öz xeyir-dualarını qurtarandan sonra, aydın, sakit və mehriban bir sima ilə onun yanına gələr, divar sobasının qabağında oturaraq ötən günlərdən, özünün cavanlıq vaxtlarından söhbət edərdi. Belə vaxtlarda o, hər şeyi unutmuş, yalnız öz gənclik xatirələrinə dalmış xoşbəxt qocalar kimi görünərdi.

Lakin Durna bütün bunların ancaq onu əyləndirmək üçün olduğunu bilir və bu, ona əzab verirdi.

O, əlli beş illik ömrün silinməz izlər buraxıb getdiyi bu nurani simanın arxasında qaranlıq, durğun bir göl kimi dayanmış ana iztirablarını görürdü. O, için-için yandığını aydınca hiss etdiyi bu qadında olan dağ kimi ağır səbrə heyrət edirdi. Bəzən çox narahat olduğu zamanlarda, ana, əllərini qoynunda çarpazlayaraq böyük inamla:

– Səbr elə, qızım, darıxma, Allah kərimdir, – deyə, təsəlli verərdi.

Lakin Durna darıxmaya bilmirdi. Onsuz da zəif olan vücudu getdikcə arıqlayır, əsəbi və yorğun olurdu. Cəbhələrdən eşitdiyi hər bir xəbər onda narahatlıq, təlaş doğururdu.

Onun bu vəziyyəti ananı getdikcə daha çox təşvişə salırdı. Ana hər dəfə onu görəndə vicdan əzabı çəkirdi. Bu, qəribə bir hiss idi. Elə bil ki, oğlundan məktub gəlməməsində, Durnanın iztirablarında o özü təqsirkarmış... Ancaq ana qəlbinin oğul dağı ilə yanması ona o qədər təbii

göründü ki, bu dərdə başqa birinin şərik olmasını misilsiz bir alicənablıq, fədakarlıq kimi qəbul edirdi.

Buna görədir ki, bir dəfə o, bədəninin bir parçası bıçaqla kəsildiyi halda «uf» deməyən adamlar kimi, ürəyindəki ağrıları gizləyərək:

– Qızım, Durna, – dedi, – səkkiz aydır ki, Eldardan məktub gəlmir. Dilim-ağzım qurusun, görünür ki, başında bir iş var... Yoxsa, hər nə cür olsaydı, bizə bir xəbər yetirərdi. Qızım, görürəm sən də çox əziyyət çəkirsən. Mənə baxma... Mən anayam. Əgər, Allah eləməmiş, Eldardan bir soraq tutmamış ölsəm, qəbirdə sümüklərim də od tutub yanar. Ancaq sən cavansan, qızım... Nə bilim... deyirəm bəlkə...

Ana özünü itirdi. Cümləsini necə qurtaracağını bilmədi... Lakin Durna onu anladı... O, bütün vücudu ilə sarsılaraq, qeyri-şüuri bir vahimə ilə ayağa qalxdı:

– Nə danışırsan, ana? – dedi.

Sonra, nədənsə qorxurmuş kimi, əllərini sinəsinə sıxdı:

– Mən... mən... yox... Məni bu evdən ancaq ölüm çıxara bilər.

* * *

Qış ağır, üzücü bir yuxu kimi keçib getdi. Bahar gəldi. Kinostudiya yeni bir filmin ayrı-ayrı hissələrini çəkmək üçün dağlara ekspedisiyaya hazırlaşırdı. Ekspedisiyada Durna da iştirak etməli idi. Lakin o, belə bir vəziyyətdə ananı tək qoyub gedə bilməyəcəyini qəti qərarla direktora bildirdi.

Bunu bildikdə ana özü işə qarışdı:

– Get, qızım, – dedi, – vəzifədir, yerinə yetirmək lazımdır.

Durnaya müharibədə iki gözündən kor qalmış bir qəhrəmanın nişanlısı rolu tapşırılmışdı.

Öz xarici gözəlliyini itirmiş sevgilisini əvvəlki məhəbbətlə sevən bir qızın nəcib duyğularını, səhnədə də olsa, göstərmək, yaşamaq arzusu Durnanın bütün qışı acı iztirablar, dərin ümidsizliklər içində uyuşub qalmış qəlbində bir canlanma, bir maraq oyatdı və o getməyə razılıq verdi.

* * *

Ekspedisiya «Dəvə boynu» adlanan dağlarda düşərgə salmışdı. Bu yerlərin gözəlliyi iyirmi illik ömründə şəhərdən başqa bir yer görməmiş Durnanı heyrətə gətirmişdi. Dağlardan üzüaşağı, yenicə yarpaqlamış qalın meşə uzanırdı. Meşənin sol tərəfi «Altın taxta» adlanan və başdan-başa ağ, çəhrayı çiçəklərlə, qırmızı lalələrlə örtülmüş geniş bir düzənlik idi.





Səhər, günəş qalxan zaman, təmiz, parlaq şüaların altında lalələrin rəngi açıq-qırmızıya çalır və Durnaya elə gəlirdi ki, bütün Altın taxta öz gözqamaşdıran gözəlliyi ilə bəxtiyar bir gəlin kimi gülümsəyir.

Durna nazik yaz paltosunu çiyninə salaraq, meşəyə gedir, yabanı alma, armud çiçəklərinin ətrini sinə dolusu udur, təzəcə açılmış yarpaqlar arasında fəğan qoparan sığırçınlara qulaq asır, qüdrətin bu sehrli gözəlliyinə heyran olurdu.

Sonra adi iş günü başlayır, filmin hissələri, bəzən qışıltı ilə qayalardan tökülən şəlalə yanında, bəzən hər tərəfi qoca palıd ağacları ilə əhatə olunmuş sıldırım keçidlərdə çəkilirdi.

Təbiətin qüdrətli hökmü altında Durnanın qəlbindəki yara yavaş-yavaş sağalır, ürəyindən daş kimi asılan dərdi yüngülləşirdi. Onun tutqun, pərişan ruhunda indi, nə isə, işıqlı hisslər doğurdu. Gənc qadının uyuşmuş əsəbləri sanki canlanaraq, təbiətin çoxdan bəri unudulmuş gözəlliklərini, sevincini yenidən dərk etməyə başlayırdı.

Könlündə getdikcə daha aydın hiss etdiyi bu yenilik, bu yüngüllük Durnanı təşvişə salırdı. O, bütün nəşəsinin, sevincinin Eldarla getdiyinə o qədər dərindən inanmışdı ki, indi ruhunda baş qaldıran bu dəyişikliyə təəccüb edirdi. Bu ona bir günah, bir qəbahət kimi gəlirdi. O, əbədi olaraq, öz dərdinin əzablarında yanmaq istəyirdi. Lakin bütün bunlara baxmayaraq, Durna yavaş-yavaş canlanır, gözlərində parıltı, yanaqlarında allıq zahir olurdu.

Filmin baş qəhrəmanı, yəni, Durnanın ekrandakı sevgilisi rolunu Bakı teatrlarının birindən dəvət olunmuş Soltan adlı aktyor ifa edirdi. Bu, macəralarla dolu, fırtınalı gənclik həyatı keçirmiş otuz dörd-otuz beş yaşlarında, ortaboylu, sağlam, gözəl bir kişi idi. Gur qara, qıvrım saçları zərif dərili, enli, ağ alnı üzərində qıvrılır, alaya çalan, açıq rəngli gözləri daim parlaq bir atəşlə yanır, kiçik, yaraşıqlı dodaqları üzərindən incə bığları ona cəsur, xudpəsənd bir görkəm verirdi. Adamlarla, xüsusən qadınlarla danışdığı zamanlar düz və kəsmə burnunun pərləri qəribə bir tərzdə qalxıb-enirdi. Danışığında, hərəkətlərində qəti, cəsarətli, sərbəst və çox görüb-götürmüş adamlara məxsus bir təbiilik vardı.

Onun bu filmdə iştirakı ekspedisiya üzvləri arasında mühüm hadisə hesab olunurdu. Hətta, gənc aktrisalardan Durnaya həsəd aparanlar da vardı. Onun Durnaya münasibəti çox incə və hörmətkaranə idi. Bu, mərhəmətli bir təbibin öz xəstəsi ilə olan mülayim və yumşaq rəftarına bənzəyirdi. O, Durna üçün çətinlik törədəcək heç bir hərəkətə yol vermir, hətta, rejissorun bəzən haqlı iradlarına qarşı onu nəzakətlə müdafiə edir, qızın keçirdiyi və ya keçirmiş olduğu iztirabların nədən ibarət olduğunu bilməsə də, bunu hiss edirmiş kimi görünürdü.

Durna ilə danışdığı zaman səsi incə bir musiqi kimi axır, burun pər-

ləri daha az tərpənir və adəti xilafına olaraq, baxışlarındakı hakim itilik mehriban bir hal alırdı.

Onun belə münasibəti, gənc qadında özünə qarşı hörmət, təşəkkürə bənzər bir hiss doğururdu.

Soltan, şikəst olmuş və bunun üçün də sevgilisindən uzaq qaçmağa çalışan bir qəhrəmanın faciəsini o qədər məharətlə ifa edirdi ki, Durna belə dəqiqələrdə onun yaşadığı duyğuların nəcibliyinə, hərəkətlərinin ülviyyətinə heyran olurdu.

Filmin çəkilişində elə məqamlar gəlirdi ki, Durna öz sevgilisinin – Soltanın boynunu qucaqlamalı, saçlarını oxşamalı olurdu... və o, tərəddüd etmədən, qəlbinə heç bir günahkar hiss gəlmədən bütün bu hərəkətləri layiqincə yerinə yetirirdi. Əgər, bu dəqiqələrdə Soltanın qəlbində ona qarşı başqa bir duyğunun, məsələn, odlu bir ehtirasın təlatümə gəldiyini desəydilər, heç şübhəsiz ki, Durna inanmaz, hətta, təəccüb edərdi...

Lakin, görünür ki, burada təəccüb ediləcək bir hal da yoxmuş...

Bir dəfə axşamçağı Durna təkbaşına gəzməyə çıxmışdı. (Bu, filmin artıq çəkilib qurtarmaq üzrə olan zamanlarında idi.) Günəş qüruba enirdi. Meşəni dağlardan qopan sərin axşam yeli zaman-zaman dalğalandırırdı. İndi Altın taxta səhərki kimi gülümsəmirdi, tutqun və qayğılı görünürdü. Lalələrin ahəstə yellənişində pərişan bir hal vardı... Otlayıb doymuş bir qulun başını dik tutaraq, uzaqlara baxırdı... Qayalıqlarda bəzən kəklik səslənir... sonra hər şey yenə də kədərli sükuta dalırdı. Kəklikotuların ətri havanı bürümüşdü. Bəzi otlar var ki, onların ətri nə qədər gözəl olsa da, yenə könülaçıcı olmur... Kəklikotu da belələrindəndir. İnsan qoxladıqca, özündə uzaq və qəmgin xatirələrin təsirinə bənzər bir şey hiss edir.

Durna, qarşısında sakitcə dayanmış quluna baxır, «ehtimal ki, heç bir qayğısı yoxdur» deyə fikirləşirdi. Birdən haradasa at kişnədi. Qulun dərhal qulaqlarını şəklədi. Cavab olaraq, özü də kişnədi. Sonra oynaqlaya-oynaqlaya qaçıb, balaca təpənin ardında gözdən itdi. «Yəqin ki, anası çağırdı» deyə Durna xəyala daldı. Keçmiş günlər, uşaqlıq çağları yadına düşdü. O da beləcə dərdsiz-qəmsiz bir uşaq idi. Nə yar vardı, nə hicran. O da bu balaca qulun kimi anasının səsini eşidəndə, qaçıb dizlərinə qapanardı... Bir istəyi olanda, dodaqlarını büzərək, ona söylərdi. Anası da şirin-şirin gülümsəyərək, onun uşaq arzularını yerinə yetirərdi. Lakin o böyüdü və bu arzular da dəyişdi... Ana isə, uzaqlarda qaldı. Ah, o heç böyüməsəydi... Uşaqlığın o məsum sevincləri ilə anasının qolları arasında gözlərini əbədi olaraq qapasaydı...

Bayaqdan bəri Durnanı boğan göz yaşları birdən-birə qabağı açılmış bulaq kimi axmağa başladı. Əlləri ilə üzünü qapayaraq, için-için





hönkürdü. Çiyinləri tez-tez qalxıb-enir, əsəbi rəşə bütün vücudunu sarsıdırdı.

Birdən lap yaxınlığında bir səs eşitdi:

– Sizə nə olub, Durna xanım?

Əllərini üzündən çəkərək, Soltanı qarşısında gördü. Onun bu nagahani zühuru Durnada təəccüb və ya çəkingənlik doğurmadı. O, əlləri ilə üzünü qapayaraq, cavab vermədi.

Soltan onun yanında diz çökərək, əlini yavaşca çiyninə qoyub, təkrar soruşdu:

– Siz Allah, axı, nə olub?

Lakin Durna cavab vermir, çiyinləri daha da tez-tez qalxıb-enirdi.

Bu zaman Soltan yerə oturaraq, o biri əlini də yavaşca onun əlləri üzərinə qoydu, yavaş və riqqətli səslə soruşdu:

– Nə üçün dərdinizi məndən gizlədirsiniz, Durna?

Durnanın başı qeyri-iradi bir hərəkətlə onun çiyninə düşdü.

Soltan onun əlini üzündən götürərək, öz əlində saxladı və qəti hərəkətlə qızın islaq, qapalı gözlərindən öpdü. Lakin Durna göz qapaqlarını qaldırmadı. O indi özünü mehriban bir insan ünsiyyətinə sığınmış kimi hiss edirdi. Bu, incimiş, əzab çəkmiş gənc bir qəlbin təsəlli tapdığı ülvi bir hiss idi. Lakin, getdikcə, oğlanın təmasından, qızın uzun və müztərib gərginlik keçirmiş əsəblərinə bihuşedici nə isə axaraq, bütün vücudunu məst edirdi.

Birdən o, dodaqlarında sürəkli, odlu öpüş hiss etdi və gözlərini dəhşətlə açaraq, onu iki qolları arasına almış kişiyə baxdı. Eyni anda Soltan qaba bir ehtirasla düz onun gözlərinin içinə baxdı. Onun baxışlarında indi elə yırtıcı, elə vəhşi və eyni zamanda, elə cazibəli bir ifadə vardı ki, gənc qadın bütün vücudu ilə titrəyərək qalxmaq istədi. Lakin oğlanın ikinci busəsi ilə onun müqaviməti zəiflədi və o, halsız yarımbayğınlıq içində gözlərini qapadı...

* * *

Həmin günün səhəri Durna xəstələndiyini və heç vəchlə qala bilməyəcəyini direktora bildirərək, şəhərə qayıtdı. Qaynanası onu görərkən sevindi, dodaqlarını bir-birinə sıxaraq, dərdli-dərdli gülümsədi.

– Xoş gəldin, ay qızım, sənsiz lap qərardan kəsilmişdim.

Durnaya elə gəldi ki, bu bir ayın içində qaynanası on il qədər qocalmışdır.

Qaynanası başqa daha heç bir söz demədi. Bu o demək idi ki, yenə də məktub yoxdur.

Durna bütün gəlinlik müddətində, ilk dəfə olaraq, qaynanasının üzünə şax baxa bilmədi.

Paltarını dəyişmək üçün öz otağına keçərkən, onu müdhiş bir qorxu bürüdü. Öz nişanlısı ilə qanuni ər-arvad kimi birinci dəfə görüşmüş olduğu bu otağa o, indi yad adamın ağuşundan çıxaraq gəlirdi. Ona elə gəldi ki, otağın hər küncündən onun üzünə bir cüt göz zillənib və bu gözlər onun yanaqlarına, dodaqlarına yapışan o yad öpüşləri görür...

O, bədənində bir üşütmə duyaraq, başını qaldırıb, Eldarın divardakı böyük əksinə baxdı.

Eldar qəribə bir ifadə ilə gülümsəyirdi. Onun ağıllı baxışları qarşısında Durna titrəyirdi. Sanki Eldar, vaxtilə həyat yoldaşı olmuş, əhdpeyman etmiş, lakin ərinin ayrılığından hələ on ay keçməmiş yad qollar arasında bayğın dəqiqələr keçirmiş bu qadına acıyırdı.

Durna onun sözlərini xatırladı: «Hər şeyi gələcək göstərər...» Və utanırmış kimi əlləri ilə üzünü örtərək, çarpayıya yıxıldı. Bütün günü başını qaldırıb ananın üzünə baxmağa cəsarət etmədi. Qaynanası onun xəstə olduğunu güman edərək:

– Həkim çağırımmı, qızım? – dedi.

Durna vahimə ilə əllərini tovlayaraq:

– Yox, ana, lazım deyil, – dedi.

Və o gecə dəhşətli bir yuxu gördü. Gördü ki, Eldar Altın taxtanın lalələri arasında qızıl qanlar içində uzanmışdır... Durna, onun üzərinə əyilərək, qapalı gözlərindən öpmək istəyir... Lakin, nə qədər çalışırsa, müvəffəq ola bilmir... Elə bil ki, nəsə, naməlum bir qüvvə, görünməz bir əl onu tutub saxlayır. Eldar göz qapaqlarını qaldırır və onu görərək gülümsəyir.

Ah, bu təbəssüm... Durna bütün vücudu ilə titrəyir və qışqırır.

– Eldar, əzizim, mənəm, mən!..

Lakin, Eldar cavab verməyərək, hey gülümsəyir.

Durna ağlamaq istəyir... Lakin gözlərindən yaş çıxmır... Səsi qəribə, boğuq bir xırıltıya çevrilir.

Kimsə onu tərpədir...

Durna diksinərək, gözlərini açdı və əlində su, onun üzərinə əyilmiş qaynanasının sakit, mehriban üzünü gördü.

Qaynanası zəifcə gülümsəyərək dedi:

– Deyəsən, yuxu görürdün, qızım... al, su iç...

Durna key bir qorxu ilə qaynanasının gözlərinə baxdı və ona elə gəldi ki, bu gözlərlə onun oğlunun gözləri arasındakı oxşayışı birinci dəfədir ki, görür... O, bu gözlərdən öpmək arzusu ilə qaynanasının boynuna sarıldı... Lakin, qaynanasının baxışlarındakı o ülvi nur gənc qadını dondurdu. O, öz günahkar dodaqlarını bu müqəddəs gözlərə toxundurmağa cəsarət etmədi... Qolları boşalıb yanına düşdü...

– Su iç, qızım, - qaynanası hiss ediləcək bir həyəcanla təkrar etdi.





Durna titrək əlləri ilə stəkanı alıb başına çəkdi. Soyuq su onun əsəblərində bir canlanma əmələ gətirdi. Gülümsəməyə çalışaraq:

– Niyə narahat olursan... Get yat, – dedi.

Ananın gözləri yaşardı və o, bunu gəlininə göstərməmək üçün çevrilib otaqdan çıxdı.

Durna ayağa qalxdı. Qıçları titrəyir, gicgahları od tutub yanırdı... O, çarpayının kənarından yapışaraq, bir-iki addım atdı. Sonra dayanıb, Eldarın gecə çırağının zəif ziyası ilə işıqlanmış şəklinə baxdı və titrəyərək döşəməyə yıxıldı.

* * *

Durna gözlərini açdığı zaman başı üzərində ağ xalatlı gənc bir qız gördü. O, çarpayıya və qıza təəccüblə baxaraq, zəif, taqətsiz halda:

– Bu nədir, bacı, mən xəstəyəm? – dedi.

Qız diksinərək başını qaldırdı və:

– Bəli, çox xəstəydiniz, – dedi. – Sonra qalxıb o biri otağa yüyürdü. Bir dəqiqə çəkmədi ki, qaynanası ilə geri qayıtdı. Qaynanası onun alnından öpərək:

– Şükür Allaha, qızım... Axır ki, ayıldın. Mən bilirdim ki, ayılacaqsan. Ürəyim sakit idi. Bala... o məni heç vaxt aldatmayıb; həkimlər məni qorxudurlar ki, ay nə bilim, beyin sətəlcəmidir, filandır... Ancaq mən hiss edirdim ki, ayılacaqsan.

Sonra qaynanası nəsə şad şey söyləmək istədi və birdən nə düşündüsə, susdu...

Getdikcə sağalması Durnanı sevindirə bilmirdi. Çirkin bir ləkə kimi qəlbinə yapışmış o günahkar xatirə ona cəhənnəm əzabı verirdi.

Bir gün, qaynanası əlində kağız, onun çarpayısına yaxınlaşaraq:

– Qızım, – dedi, – ayılanda demədim... Fikirləşdim ki, hələ zəifsən, üzülərsən. Budur, gör sənə nə verirəm.

Durna bir anda yerindən qalxaraq məktubu qapdı. Dərhal imzasına baxdı və Eldarın adını gördükdə, xəfifcə içini çəkərək, məktubu ürəyinə sıxdı.

Qaynanası bəxtiyar bir təbəssümlə:

– Düşmənin arxasındaymış, qızım, – dedi, – ona görə kağız yaza bilmirmiş.

Durna hələ də bu məktubu sinəsində tutmuşdu.

«Görəsən, Eldar onu bağışlayacaqmı?»

*1941*

# QƏHRƏMAN İLƏ BÜLBÜLÜN NAĞILI

Oğlan on səkkizinci yaranı alandan sonra yıxıldı. Adamların müdhiş bağırtıları, süngü cingiltiləri tamamilə eşidilməz olduqda, meşə dərin nəfəs alıb, ağır sükuta daldı.

Yabanı alma ağacının çəhrayı çiçəkləri arasından bir bülbül başını çıxardıb, ürkək nəzərlərlə ətrafı süzdü və birdən aşağıda, meşə otları arasında qan aparmış oğlanı görüb fəryad qopartdı.

Bülbül yaralı bir qəlb kimi çırpınaraq oxuyur, oğlan, yıxıldığı yerdə qımıldanmadan yatıb qalırdı. Onun al qanı parçalanmış köksündən axıb ətrafdakı ağ nərgiz güllərini qızardırdı.

Bülbül bir an susub, meşənin sükutunu dinlədi və təkrar oğlana baxaraq, elə fəğan qopartdı ki, yaralı titrəyərək göz qapaqlarını qaldırdı. Sonra əllərini yerə dirəyib azca dikəldi. Dumanlı gözlərini ətrafa gəzdirərək, çiçəklər arasında oxuyan bülbülü gördü. Dodaqlarına solğun bir təbəssüm qondu.

Nəzərləri ona dikilmiş bülbülün səsində riqqətli bir ney ağladı. O zaman oğlanın da gözlərindəki duman incə büllur təbəqəsi kimi parladı.

Bülbül səsini kəsərək:

– Nə oldu, oğlan, – dedi, – yeddi düşmən sinəsi parçaladın, on səkkiz yara aldın, «uf» demədin, bəs, indi nədən gözlərin yaşardı?

Oğlanın baxışlarından ildırımlar qopdu. O, yaralı pələng kimi, inilti bir «ah» çəkib, yenə də otların üstünə yıxıldı.

– Yoxsa, o qız yadına düşdü? – bülbül yenə də dilə gəldi.

Qəhrəman gözlərini yumub, cavab vermədi. Bülbül, qanadlarını çiçəklərə çırparaq, yerindən qopdu və bir an çəkmədi ki, oğlanın üzünə kəpənək qanadı qədər xəfif bir gül düşdü.

Oğlan bu qəribə gülün təmasından diksinib, gözlərini açdı. Gül oğlana tanış göründü. Ona elə gəldi ki, bu hansı bir əziz xatirəninsə yadigarıdır...





Güldən qalxan bihuşedici ətir ona şirin bir yuxu gətirdi və bu yuxu yaxınlaşdıqca, oğlanın üzünə röyalı, munis bir nur endi.

Nəhayət, oğlan qəribə bir yuxu gördü; gördü ki, kəndlərinin üst tərəfindən axan çayın qırağında dayanmışdır. Hara isə tələsir, lakin yerindən tərpənə bilmir. Birdən çayın gümüşü suyu içindən ağ paltarlı bir qız çıxıb, ona yanaşdı. Oğlan qızı tanıdı: bu, o idi.

Qızın qucağı, saçları yabanı qızılgüllərlə dolu idi. O, mələk kimi sakit, məzhun bir üzlə oğlanın qarşısında dayanıb:

– Hardasan, əzizim? – dedi. – Mən nə zamandı ki, səni axtarıram.

Oğlan yenə də yerindən tərpənməyə cəhd etdi və dedi:

– Mən getməliyəm, tələsirəm.

Qız onun əllərindən yapışaraq:

– Yox, – dedi, – bu dəfə mən səni buraxmayacam. Sənsiz darıxıram.

«Bu necə ola bilər?» deyə oğlan düşündü. Qız onun tərəddüd etdiyini görüb, gülümsədi. Qucağındakı gülləri oğlanın üzünə səpdi. Oğlan üzünə dəyən güllərin rayihədar, xəfif təmasından gözlərini yalnız bircə dəfə qırpıb açdığı zaman, qızın durduğu yerdə ağ bir göyərçin gördü.

Göyərçin qanadlarını çalaraq havaya qalxdı. Oğlan, onu tutub saxlamaq istəyirmiş kimi, əllərini qaldırdı və birdən bu əllər qartal qanadlarına çevrilib, onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü.

Onlar getdikcə bir-birlərinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar. Sonra alov rəngli buludlardan keçərək, göylərin sakit, mavi ənginliklərinə yol aldılar...

... Bülbül bütün gecəni oğlanın başı üstündəki budaqlar arasında oxudu.

Səhər, üfüqlər bahar şəfəqi ilə alışıb yandığı zaman yoldaşları gəlib qəhrəmanı tapdılar. Onun cansız çöhrəsini halələndirmiş nuru, üzünə düşmüş və hələ də solmamış o gülü görüb, heyrətə gəldilər. Sonra həmin yerdə oğlanı dəfn edib getdilər.

Gələn bahar o qərib məzardan yabanı bir qızılgül qalxdı. Bülbül gəlib onun budaqlarında özünə yuva qurdu.

İndi o vaxtdan bəri hər bahar o tək məzar üstündə bir bülbül oxuyur. Onun nəğmələri əzəli və qadir məhəbbətin bitmək bilməyən əfsanələrindən danışır...

*1942*

## KİÇİK BİR POEMA

Xatirindədirmi, dostum... O zaman bahar idi. Mən sizə qonaq gəlmişdim. Bir aylıq istirahətə gəldiyimi söyləyərək, səni sevindirmişdim. Lakin on gündən sonra çıxıb getdim. Mənim bu ani gedişim səni kədərləndirdi. Səbəbini soruşdun, darıxdığımı söylədim. Lakin mən o zaman yalan demişdim, dostum. Dünyanın güldüyü, baharın çiçəkləndiyi bir zamanda o gözəl gölün sahilində darıxmaq heç mümkünmü idi?

Budur, o günlərin xatirələri haqqında yazmaq, mənə, indi, burada, səndən minlərcə kilometr uzaqlarda, xəstəxanada qismət oldu. Vətənimin hər bucağı ilə əlaqədar olan xatirələr mənim üçün əziz olduğundan və onları xəyala gətirmək indi xüsusilə şirin olduğundan, bir qədər müfəssəl danışmaq istəyirəm. Məktubum uzun olarsa, məni bağışlayacağını güman edirəm.

Sizə gəldiyim günün axşamı idi. Mən tək-tənha gölün sahilinə doğru yönəldim. Sarmaşıq, böyürtkən, qarağat kolları arasından keçərək, sıldırım bir qayaya çatdım və heyrətimdən donub qaldım. O göl qarşımdaydı.

Onun büllur səthində çəhrayı zolaqlar qıvrılırdı. Ətrafını bürümüş sarı qayaların, uca ağacların kölgələri bu zolaqları çalın-çarpaz doğrayırdı. Daha irəlidə mavi, şəffaf bir dərinlik vardı. Günəş son şüalarını çəkdikcə, göldəki zolaqlar da saralıb sönürdü. Elə bil ki, şirin bir axşam qəribliyi öz ipək qanadlarını qara tül kimi onun üzərinə çəkirdi. Nəhayət, günəş batdı. O qızıl zolaqlar da titrəyib söndü. Göl, qara ceyran gözləri kimi doluxsundu.

Arxadan ayaq səsləri eşitdim. Geriyə çevrildim. Biri cavan, digəri isə, yaşlı iki qadın sahilə yanaşdı. Yaşlı qadının əynində tünd-şabalıdı paltar, çiynində ağ dəvə yunundan şal var idi. Keçmişlərdə, yəqin ki, gözəl olmuş ağ üzündə indi dərin qırışlar görünürdü. Bu qırışlar onun iri, ala gözlərinin sakit baxışları ilə həmahəng olaraq, simasına sakit və hörmət doğuran bir ifadə verirdi.





– Axşam düşəndə, elə bil ki, bu göl uşaq kimi kədərlənir, – deyə, gənc qadın gözlərini göldən çəkmədən səsləndi.

Mən onun tünd-mor, badamı gözlərinə baxdım və yenə də, ixtiyarsız olaraq, ceyran gözlərini xatırladım. O mənim orada olduğumu duyurmuş kimi, bütün varlığı ilə gölün gözəlliyinə dalmışdı. Bəlkə də, o, bu dəqiqədə hər şeyi unutmuşdu. Gözləri, qəlbin yüksək duyğularla qanadlandığı zamanlarda olduğu kimi, incə məna ilə xəfifcə qıyılmışdı. Kiçik, yaraşıqlı dodaqlarında incə bir təbəssüm gizlənmişdi. Dağlardan qopan sərin axşam yeli onun qısa vurulmuş və yana daranmış xurmayı saçlarını asta-asta yelləirdi. Gənc qadın gülümsədi və qeyri-ixtiyari bir heyrətlə mənə baxdı. Mən bu təbəssüm və baxışı heç zaman unutmadım, dostum.

Bəlkə sən elə güman eləyəcəksən ki, o baxışlarda mənə aid bir şey vardı. Lakin yox... qətiyyən yox. Bu, o gölün məftunluğu idi. Bu, qürubun həzin mənzərəsindən təlaşa düşən o gölün eşqi idi. Sanki o gənc qadın bu ixtiyarsız təbəssüm və baxışı ilə könlümün heyranlığını mənə və ya hər hansı bir canlıya bildirmək istəyirdi. Axı, insan təbiəti belədir. O öz heyrətini gizli saxlaya bilmir.

Mən, dayanmağın yersiz olduğunu hiss edərək, yavaş-yavaş uzaqlaşdım. Alaçıqlara endiyim zaman çevrilib geriyə baxdım: sıx sarmaşıqlar arasından o gənc qadının uca qaməti və hələ də çırpınan göl görünürdü.

Mən evə gəldim. Təbiətimdəki qapalılığa rəğmən, o gənc qadın haqqında sənə heç nə söyləmədim və heç nə də soruşmadım. Lakin o gecə uzun zaman gözlərimə yuxu getmədi. Qəlbimdə iyirmi dörd illik bir həyəcan, bir intizar vardı. Mən gözlərimi bayırdakı sakit qaranlığa zilləyərək, səbrsizliklə səhərin açılmasını gözləyirdim. Mən o gənc qadını, onun gözlərini və bu gözlərdəki o gizli təbəssümü bir daha görmək istəyirdim. Mən onun o gölə olan məftunluğunu xəyalən seyr edərək, nə üçünsə qəlbimdə bir qərib kədər duyurdum. Birdən harada isə tarda çalınan «Segah» eşidildi. Mən onun həzin sədaları altında yavaş-yavaş yuxuya daldım.

Və o gecə qəribə bir yuxu gördüm. Gördüm ki, qızıl lalələrlə dolu geniş düzənliklə gedirəm. Birdən qarşıma əcaib bir qarı çıxdı. Onun başında çiçəklərdən hörülmüş qəribə tac vardı... Qarı məni görərkən qəhqəhə çəkib güldü və başındakı tacdan bir çiçək qoparıb mənə uzadaraq: «Al – dedi, – bu, məhəbbət çiçəyidir». O, bu sözləri deyib yox oldu. Mən çiçəyi burnuma tutub, qoxlamaq istədim. Lakin o, ilan olub boynuma sarıldı. Mən qışqırdım və bu zaman o gənc qadını qarşımda gördüm. O gülümsəyərək:

– Qorxma, – dedi və ilanı boynumdan açıb daşlara çırpdı.

... Mən gün doğmazdan qalxıb, yenə də sahilə getdim. Göl tutqun bir intizar içindəydi. Birdən günəş yaşıl meşələr ardından qalxaraq, onun ayna üzünə çəngə-çəngə qızıl lalələr tulladı. O göl isə, gərdənini qıvrıldaraq gülümsədi. Onun üzərinə nazlı, gülşən bir sabah endi. Dan yeli ağacların budaqlarını tərpətdi. Onların kölgələri titrəyib ipək haşiyə kimi gölün boynuna dolandı.

Bu zaman yaxın kolluqdan bir kəklik qanad çalaraq havaya qalxdı və onun ardınca həmin gənc qadın göründü. Bu dəfə o, tək gəlmişdi. Üzündə səhər kimi nəcib bir təzəlik vardı. Baxışlarında yenə də o gizli təbəssüm duyulurdu. Mən gizli təbəssüm deyirəm, dostum. Çünki bu təbəssümdəki alicənab nəvazişi ifadə etməyə başqa söz tapa bilmirəm. Elə bil ki, o təbəssümdə dünyanın bütün gözəllik və qüdsiyyəti gizlənmişdi. Elə bil ki, o gənc qadının qəlbində əbədi, məsud bir məhəbbətdən başqa heç nə yox idi. O, ağ, səhər geyimində idi. Bihuşedici rayihə saçaraq, yanımdan süzüb keçdi.

Onun bəxtiyar və heyran baxışları yenə də o gölün əfsanəsinə dalmışdı. Birdən başımdan qəribə bir fikir keçdi: «Görəsən, o, heç olmasa, mənim varlığımı duyurmu?» Lakin həmin anda da qəlbimin dərinliklərində acı bir ağrı duydum. Mən onu heyran edən gölə qibtə edirdim, dostum. Mən onun məsud laqeydliyinin səbəbini o bəxtiyar gölün gözəlliklərində görürdüm. Və sanki bununla qəlbimdəki ağrını sakit etməyə çalışırdım. Mən onun öz xoşbəxt daxili aləmində ikinci bir səbəbin, məsələn, bir oğlan sevgisinin olması haqqında düşünməyə qorxurdum. O, sahil boyu getdikcə uzaqlaşır və elə bil ki, özü ilə irişilməz, əbədi bir sabah aparırdı. Mən onun gölün aynasında titrəyən kölgəsini görürdüm.

... Nəhayət, qadın yenə də ağacların arasında qeyb oldu. Gölün də təbəssümünə uzaq, qayğısız bir laübalılıq qondu.

Mən özümdə qəribə bir həyəcan duyaraq hövlnak sənin yanına gəldim. Yadındadırmı? Sən yenicə qalxırdın. Məni görərkən:

– Nə olub? – deyə, təəccüblə soruşdun.

Mən isə, sənin çiyinlərindən yapışaraq:

– Söylə, dostum, sən heç sevmisənmi? – deyə soruşdum.

Sən üzümə baxaraq gülümsədin.

Sonra bütün günümü anlaşılmaz bir qərarsızlıqla keçirdim. Sən isə, hey biologiyadan, onun müasir nailiyyətlərindən, nə bilim, daha nələrdən danışırdın. Mən indi təlaşla gecənin düşməsini gözləyirdim. Elə bil ki, cəmi bircə gün ömrü olan ilk məhəbbətin, bax, bu gecə qanad çalaraq, uçub gedəcəyini, dünyanın əbədi gözəlliklərinə qovuşacağını bir sövqi-təbii ilə hiss edirdim.

Və gecə gəldi.





Yadındadırmı? Biz çardaqda oturmuşduq. Sən Marsdakı bioloji həyat hipotezlərindən danışırdın. Birdən şirin bir musiqi axıb gəldi. Mən diksindim və qeyri-ixtiyari:

– Dünən gecəki «Segah»dır... – deyə səsləndim.

Sən də bir anlığa düşüncəyə daldın.

– Yenə də o qız çalır, – deyə, nəhayət, öz-özünlə danışırmışsan kimi dilləndin.

Mən «o qızın» kim olduğunu soruşmadım... Qalxıb çadırdan çıxdım.

Aydınlıq gecəydi. Meşələr, dağlar xoş bir sükut içindəydi. Sanki hər şey harada isə dillənən o tarı dinləyirdi.

Mən gölə yaxınlaşdıqca, «Segah»ın təranələri daha aydın eşidilməyə başlayırdı. Nəhayət, «o qızın» kim olduğunu gördüm: bu, o idi.

Cavan ulas ağacı altında üzü gölə tərəf oturub tar çalırdı. Gözlərindəki o daimi təbəssümdən indi daha incə, daha məsud duyğular uçuşurdu. O göl də bu gecə öz səadəti ilə sərməst olan, vüsala yetmiş bir pəri kimi idi. Aydınlığın mavi tülü ardından onun da ayna üzündə eynilə tar çalan qadının gözlərindəki kimi bəxtiyar təbəssüm duyulurdu. Onların hər ikisi bizim dağların maralı idi, dostum. Onların hər ikisi bəxtiyar idi, dostum.

O gözəl qızın Ay işığında daha da solğun görünən barmaqlarının xəfif hərəkətlərinə baxdıqca, mənə elə gəlirdi ki, bir-birinin gözəlliklərinə heyran olan bu iki dağlar maralının sonsuz səadəti o incə barmaqlarından simlərə axır və bu simlərdən minlərcə gözəgörünməz quşlar uçuşaraq, əbədiyyət nəğmələri oxuya-oxuya meşələrə, dağlara tərəf qanad çalır.

Birdən qarşı tərəfdən ortaboylu bir oğlan çıxıb, gənc qıza yanaşdı. Qız başını qaldıraraq, ona sakit, mehriban nəzər saldı və xəfifcə gülümsədi. Oğlan heç bir söz demədən onun yanında oturdu.

Mən:

– Bəs, belə... – deyə dərin bir nəfəs alaraq oğlana diqqət etdim. Gənc idi. İri ala gözləri vardı. Baxışlarında səadət qığılcımları yanırdı.

Gənc qadın onun üzünə baxıb, qaşlarını zərif bir əda ilə çatdı və tarda elə coşğun bir barmaq vurdu ki, oğlan ixtiyarsız olaraq gülümsədi.

Mənim orada qalmağım artıq yersiz deyildimi? Çevrilib uzaqlaşdım.

O dəqiqələrdəki duyğularımı hələ də xatırlayıram. Elə bil ki, dünyada mənim üçün ən əziz, ən qiymətli olan nəyi isə itirmişdim. Mahtabın şeriyyəti, hələ də çalınan «Segah»ın təranələri indi mənə küskün, pərişan duyğular təlqin edirdi. Mən bu «Segah»ı eşitməmək üçün

addımlarımı əsəbi bir tələşla yeyinlədir, mümkün qədər tez oradan uzaqlaşmağa çalışırdım.

Səhəri gün isə, sənin israrına baxmayaraq, Bakıda vacib işim olduğunu bəhanə edib getdim.

***

O zamandan mən qərarsız oldum. Uzun gecələri yuxusuz keçirdim. Əvvəlki şənliyimi itirdim.

Günlər keçir, o əfsanəvi gölün xatirələri isə unudulmurdu. Mən onları unuda bilmirdim və bunun üçün də öz-özümə günahkar, başqasının səadətinə göz dikmiş adam kimi görünürdüm. Getdikcə arıqlayır, əsəbi və tutqun olurdum. Sonralar isə, başım tez-tez ağrımağa başladı. Bu mənə çox əziyyət verdiyindən dərman yazdırmaq üçün xəstəxanaya getdim. İçəri girdiyim zaman donub qaldım: həkim o gənc qadın idi!

O məni tanıdımı, tanımadımı? Bilmirəm. Yenə də o mehriban təbəssümü ilə gülümsəyərək, mülayim səslə:

– Buyurun, əyləşin, – dedi.

Mən, demək olar ki, qeyri-iradi bir hərəkətlə irəliləyib oturdum. O, xəstəliyimi soruşdu. Söylədim. Məni diqqətlə dinlədi. Ürəyimə qulaq asdı. Bu zaman məni qəribə bir qorxu hissi bürüyürdü. Elə bil ki, o, indicə qəlbimdə nələr olduğunu biləcəkdi.

Əsəblərimdə yorğunluq əmələ gəldiyini, istirahət etməli olduğumu söyləyərək, dərman yazdı. Resepti mənə verdikdən sonra ciddi və işgüzar bir hərəkətlə düyməni basdı. Otağa xəstə daxil oldu. Mən isə, xudahafizləşməyi belə unudaraq çıxdım.

Evə nə cür, nə kimi bir əhvali-ruhiyyə ilə gəldiyimi bilmirəm. Otağa daxil olaraq, bir neçə saniyə, bəlkə də, bir neçə dəqiqə hərəkətsiz dayanıb qaldım. Birdən əlimdə nəyi isə bərk-bərk sıxmış olduğumu hiss edərək ovcumu açdım. Bu, onun yazdığı resept idi. Heç bir şey anlamadığım sətirlərə uzun zaman tamaşa etdim. Mən sonralar qarlı səngərlərdə, qısa atışma fasilələrində də tez-tez o resepti çıxarıb uzun-uzadı gözlərim qarşısında tutur, onun hər bir hərfinin necə yazıldığına, hətta, nöqtələrin, vergüllərin belə düzülüşünə diqqət yetirirdim və öz-özümü inandırmağa çalışırdım ki, mən bununla heç bir günah etmirəm. Mənim bu dərman kağızına baxmağımın, onun hər bir hərfini sevməyimin kimsəyə ziyanı yoxdur. Mən öz adımı, ünvanımı onun arxasında yazmışdım. Belə düşünürdüm ki, işdir, əgər ölərəmsə, onu mənim ailəmə göndərərlər. Onlar da üzərində mənim adım və yazım olan bu kağız parçasını qiymətli bir yadigar kimi həmişə saxlayarlar.

Lakin, deyəsən, mətləbdən uzaqlaşdım. Bəli, beləliklə, mən o qız-





la ikinci dəfə görüşdüm. Xəstəxanadan gəldiyim günün səhəri almanların ölkəmizə hücumu haqqındakı xəbəri eşitdim.

İki gündən sonra isə, biz gecə qatarında Bakını tərk edib, şimala doğru yola düşdük.

***

O vaxtdan üç ay, bəlkə də bir az çox keçmişdi. Mən artıq üçüncü gün idi ki, cəbhədə vuruşdaydım. Bu üç gün haqqında çox şeylər yazmaq olar, dostum, lakin bir şeyi qeyd etmədən keçmək mümkün deyil. Bu, bizim adamlardakı ruh və iradədir. Uzun, soyuq payız gecələrini yaş səngərlərdə keçirən, on günlərlə yuxusuz qalan, düşmənin cəhənnəm kimi püskürtdüyü od içində qəhrəmanlıqla vuruşan bu adamların gözlərində yanan atəşə baxdıqca, mənə elə gəlirdi ki, onların ruhu görünməz bir qüvvə ilə birləşərək, ölümü, dəhşəti, qorxunu ayaqlayıb keçən irişilməz qüdrətə çevrilmişdir. Bu görünməz qüvvə isə, onların öz işlərinin ədalətli olduğuna dərin və sarsılmaz inamı idi.

Rusların vaxtilə Borodino yanında Napoleon qoşunları üzərindəki qalibiyyətinin də əsas sirri bu inamda idi. Tolstoyun göstərdiyi kimi, o zaman da rusların ruhunu belə yüksək və sarsılmaz bir qüvvə idarə edirdi. Mən indi bu böyük həqiqəti bütün aydınlığı ilə görürdüm. Mən onlarca düşmən əsgəri tərəfindən əhatə edilmiş əsgərimizin bombanı yerə çırparaq, düşmənlə birlikdə özünü də necə məhv etdiyini görürdüm. Mən gənc və gözəl oğlanların nərə çəkib gələn düşmən tankları üzərinə necə cəsarətlə atıldıqlarını görürdüm. Mən görürdüm ki, bu böyük cəsarətə onları kimsə məcbur etmir. Bütün bu fədakarlıqların sirri yuxarıda söylədiyim həmin böyük və müqəddəs inamdır. Günlər keçər, milyonlarla düşmən qəbri üstündə qaratikan kolları bitər. O zaman ikinci bir Tolstoy zühur edib bu inam haqqında daha ətraflı danışar. Mən isə, öz əhvalatıma keçirəm.

Bizim bölük üç gündən bəri arası kəsilmədən hücum edən düşmənin sağ cinahı üzərində əks-hücuma keçmək əmri aldı. Əmr, bütün bu günlərdə qəzəblərindən özlərini güclə saxlayan əsgərlərin ürəyindən xəbər verdi. İndi gözlərdə, nə isə, daha kəskin, daha mənalı bir ifadə yanırdı. Və onlar başlarını aşağı salıb, arxayın bir sükutla silahlarını yoxladıqları zaman bu ifadə daha əzəmətli və daha qəti görünürdü. Kimsə danışmırdı. Sanki buna lüzum da görmürdülər. Onlarda elə bir arxayınlıq və ruhi yüngüllük hiss olunurdu ki, elə bil, bir az bundan qabaq eşitdikləri əmrlə üstlərindən, nə isə, ağır bir yük götürülmüşdü. Bu, bəlkə də, uzun müddət davam edən təhlükədə, nəhayət, qəti və həlledici dəqiqənin gəlib çatdığı zaman insan təbiətində zühur edən cəsurluqdan idi.

Lakin bölük komandiri hücuma başlamaq əmrini gecikdirir və tez-tez saatına baxaraq, nəyi isə gözləyirdi. Birdən qarşıdakı təpənin yanından bir dəstə düşmən tankı çıxıb atəş aça-aça bizə doğru gəlməyə başladı. Əsgərlər səbrsizliklə komandirə baxdılar. Lakin o, səngərlərə yatıb, özümüzü göstərməməyimizi əmr etdi. Bu, məni heyrətə saldı. Qeyri-ixtiyari düşündüm: «Dörd-beş dəqiqədən sonra tanklar lap bizim yanımızda olacaq. Bəs, bölük komandiri nə fikir edir?» Tanklar atəş aça-aça irəliləyirlər, onların ardınca piyadalar gəlirdi. Biz isə, hələ də susurduq.

Nəhayət, budur, tanklar yaxşı gizlədilmiş səngərlərimiz arasında buraxılmış açıqlıqdan keçib getdilər. Az keçmədi ki, arxadan şiddətli bomba və mina səsləri eşidildi. Mən, bölük komandirinin planını anladım. Arxada dayanmış hissələrimiz piyada qoşunlarından ayrı düşmüş tankları asanlıqla məhv edirdilər. Düşmən piyadası isə artıq bizə çathaçatda idi. Bölük komandiri ayağa qalxaraq:

– Süngü ilə hücuma keç! – deyə qışqırdı.

Biz bir anda düşmənin üzərinə töküldük. Mən almanların ən çox süngü hücumundan qorxduqlarını əvvəllərdə də eşitmişdim. İndi onların düşdükləri vəziyyət çox pis idi, bu qəfil hücumdan başlarını itirmişdilər.

Budur, qısaboylu gənc əsgər yekəpər bir faşistə yaxınlaşır. Faşist öz süngüsü ilə onun zərbələrini dəf etməyə çalışaraq, dalı-dalı çəkilir və gözləri alacalanmış bir ifadə ilə nə isə mızıldanır. Lakin əsgərimiz əl çəkmir. Nəhayət, faşist çevrilərək qaçmağa üz qoyur. Bizim əsgər irəli tullanaraq, öz süngüsünü var gücü ilə onun kürəyinə saplayır. Faşist öküz kimi böyürərək yıxılır.

Mən üzərimə endirilən bir süngü zərbəsini dəf edərək, qarşımdakına hücum edirəm və birdən iki faşistlə vuruşan gənc siyasi rəhbəri görürəm. Onun üzü mənə tanış gəlir. Bu, o göldə tar çalan qızın yanındakı oğlandır. Başqa bir faşist arxadan ona yanaşaraq süngüsünü qaldırır. Lakin endirməyə müvəffəq olmur. Mən bir sıçrayışda onu vurub aşırıram və dərhal o birilərinin üzərinə düşürəm. Birisini də sinəsindən vururam. Birdən böyrümdə kəskin bir ağrı hiss edirəm. Bunun ardınca da başıma nə isə, ağır bir şey dəyir. Qulaqlarım şiddətlə cingildəyir. Mən yıxılıram.

***

Göz qapaqlarımı çətinliklə qaldırıram. Özümdə qəribə bir halsızlıq və aclıq hiss edirəm. Ətrafıma heyrətli nəzər yetirirəm. Mən balaca, işıqlı otaqda çarpayıda uzanmışam. Hərəkət etmək istəyirəm. Lakin böyrümdəki kəskin ağrıdan tərpənə bilmirəm. Başımı qaldırmaq





istəyirəm, ancaq qalxmır. Elə bil ki, başımdan on pudluq bir şey asıblar. Birdən yüngül ayaq səsləri eşidirəm. Ucaboylu, ağ xalatlı bir qız içəri girir. Mən bir an onun yerə dikilmiş fikirli gözlərini, kədərli üzünü görürəm. O, qapını üsulluca örtərək, başını qaldırır. Mən onun mor gözlərinin necə parladığını görərək və onları tanıyaraq yerimdən sıçramaq istəyirəm. Lakin o özünü üstümə ataraq, çarpayının qarşısında diz çökür:

– Axır ki, ayıldınız, – deyə pıçıldayır.

Mən heç bir söz demirəm. Daha doğrusu, deyə bilmirəm. Taleyin qəribə işləri barəsində nə demək olar ki?..

Birdən o:

– Axı, biz çoxdan tanışıq, – deyə gülümsədi. – Xatırlayırsınızmı? «Durna göl»ü, sonra Bakıda xəstəxanada olan görüşümüz...

Mən ilk yaralandığım dəqiqəni və siyasi rəhbəri xatırlayaraq:

– Yoldaşınız salamatdırmı? – deyə zəif səslə soruşdum.

– Necə yoldaşım? – deyə o, təəccüblə üzümə baxdı.

– «Durna göl»də sizinlə gördüyüm, burada siyasi rəhbər olan...

O, mehribanlıqla gülümsədi:

– O mənim qardaşımdır, – dedi. – Bir az bundan qabaq sizi yoluxmağa gəlmişdi...

Mən:

– Doğrudanmı, o sizin qardaşınızdır? – deyə heyrətlə soruşdum...

*1942*

01/01–9

## QOCA TARINI ÇALDI

Mən gənc həkim dostumla rayon mərkəzinə qayıdırdım. Dörd saatdan artıq idi ki, meşə arasından düşmüş el yolu ilə at sürürdük.

Günəş, dəvə belinə bənzəyən Şah dağının qarlı təpəsindən aşaraq, qüruba enirdi. Dağların kölgəsi uzanıb, yenicə yarpaqlanmış meşələri bürüyürdü. Həkim, üfüqdəki çəhrayı buludlara baxaraq:

– Gecəyə düşəcəyik, hələ, azı, üç saatlıq yolumuz qalıb, – dedi.

Sonra sağ tərəfdə, meşənin içindən qalxan dağları göstərib:

– Orada atamın köhnə bir dostu var, gəlsənə dönüb gecəni onun yanında qalaq, – dedi.

Mən etiraz etmədim.

Dibində daşları görünən göz yaşı kimi duru çayı keçib, ensiz cığıra buruldug. Bir qədər getdikdən sonra, cığırla dolama-dolama dağa qalxmağa başladıq.

Getdikcə ağaclar seyrəlir, yumşaq dağ otları görünürdü. Yolun o tərəf-bu tərəfində, yosunlu boz daşların dibində bitmiş çiçəklər xəfif yelin təsiri ilə titrəşirdi.

Hava dağ nanələrinin ətri ilə dolmuşdu.

Biz dağa qalxdığımız zaman qarşımızda balaca bir kənd mənzərəsi açıldı. Qalın bağların içində evlərin yalnız qırmızı taxtapuşları görünürdü. Həkim, ətrafına ağac cağ çəkilmiş bir həyətin darvazası qabağında atının başını çəkərək dayandı:

– Bu evə gedəcəyik, – deyib, atdan düşdü.

Mən də atımı saxlayıb düşdüm.

Həkim darvazanı döydü. Çox keçmədi ki, qapı açıldı. Orta boylu, sakit baxışlı, ağ saqqallı bir kişi əvvəlcə mənə, sonra da həkimə baxıb, ciddi bir ifadə ilə:

– Xoş gəlmisiniz, – dedi, – buyurun içəri.

Biz atlarımızı çəkib bağçaya girdik.

Qoca, atları bizim yedəyimizdən alaraq, çox da hündür olmayan evinin artırmasını göstərib:



– Çıxın yuxarı, – dedi.

Biz qızılgül kolları arasından keçib, artırmaya çıxdıq. Üzərinə qaraxallı xalça çəkilmiş geniş taxt, onun qarşısındakı ağ örtüklü stol, taxtapuşa qədər qalxmış tənəklər, hər tərəfdə nəzərə çarpan təmizlik rahat və xoş bir təsir bağışlayırdı.

Ev sahibi artırmaya çıxaraq:

– Niyə əyləşmirsiniz? – dedi.

Sonra bizə yer göstərdi.

Hərəmiz bir stul çəkib oturduq.

Həkim stolun üstündə dızıldayan ağ samovara işarə ilə:

– Deyəsən qonağın var? – deyə qocadan soruşdu.

Ev sahibi keçib taxtda əyləşərək:

– Yox, – dedi, – tək özüməm. Samovara görəmi deyirsən? Adətdir, əl çəkmək çətindir. Bir stəkan da içsəm, gərək samovar qaynadam.

Stolun üstündə çay var idi. Azərbaycanlılar arasında İran stəkanı adı ilə məşhur olan balaca armudu stəkan qocanın qabağında idi. Üzəri zərlə işlənmiş, yanında xırda gümüş qaşıq olan fincan isə, qocanın qarşı tərəfindəki həsir səndəlin qabağında idi.

Qoca, təmiz yuyulub silinmiş stəkanlarda bizə çay tökəndən sonra qara tütün qutusunu çıxarıb papiros bükdü.

Mən onun geniş ağ alnının dərin qırışlarına, bozarmaq üzrə olan qalın qumral qaşlarının çatılışına baxaraq, simasında, nə isə, gizli bir qayğı sezirdim.

Qoca papirosunu yandırıb, bir-iki qullab vurandan sonra, alaya çalan işıqlı gözlərini həkimə tərəf çevirib:

– Atan necədir? Çox düşməyib ki? – deyə soruşdu.

Həkim çayını nəlbəkiyə tökərək:

– Hələ ki, gümrahdır, – dedi.

Bu sözlər sanki qocanı vəcdə gətirdi. O, qəddini düzəltdi. Hüznlə gülümsəyərək, qar kimi ağ və sağlam dişlərini göstərib, başını yırğaladı.

– Eh, qardaşoğlu, – dedi. – Nə qədər gümrah olsa, yol yarıdan ötüb... Biz yavaş-yavaş axırıncı mənzilə çatırıq. Siz sağ olun, indi sənə baxanda atanın cavanlığı gəlib durur gözümün qabağında. O da sənin kimi gözəl, sağlam bir oğlan idi... Dünya belə yaranıb. Köhnə ağaclar puç olub tökülür. Onların yanından cavan pöhrələr qalxır. İnsanlar da belədir. Qocalar gedir... Cavanlar gəlir. Bizim təsəllimiz də budur.

Qoca, çayı artıq çoxdan soyumuş fincana baxaraq, dərindən nəfəs aldı.

Onun arxasındakı divardan simləri çıxarılmış sədəfli bir tar asılmışdı. Mən onu qocaya göstərərək:

– Kim çalır? – deyə soruşdum.

Qocanın gözləri kədərlə kölgələndi. Əvvəlcə tara, sonra da bağların ardından dəyirmi bir mis parçası kimi qalxan Aya baxaraq, qaşqabaqlı bir ifadə ilə:

– Mən çalardım, – dedi. – Qırx ildir ki, o mənimlə yoldaşdır.

Qoca gözlərini bağdan çəkməyərək susdu. Sonra məhzun bir səslə:

– Ancaq, – dedi, – qızım gedən gündən əlimə almıram. Ürəyim gəlmir. Axı, mən bunu onun üçün çalardım.

O bir qədər susduqdan sonra əlavə etdi:

– Həmişə bu vaxtlar, belə axşam çağlarında boynumu qucaqlayıb, ata, çal, – deyərdi.

Qoca, nəzərləri qarşısında canlanmış hansı bir xəyalı isə tutub saxlamaq istəyirmiş kimi, gözlərini yarı qapayaraq susdu.

Mən indi pərişan görünən o unudulmuş tara uzun-uzadı baxaraq cəsarətsiz səslə:

– Bəs, indi qızınız hardadır? – deyə soruşdum.

Qoca göz qapaqlarını ağır-ağır qaldıraraq:

– Davadadır, – dedi. – Dayısı oğlu gedəndən düz iki ay sonra bir gün gördüm ki, şəhərdən qayıdıb gəlib. Halında bir dəyişiklik vardı. Gördüm, nə isə, mənə bir söz demək istəyir. Ancaq, deyəsən, ürək eləmir.

– Xeyir ola, qızım, – dedim. – Nə olub, dərsi buraxıb gəlmisən?

Qoca bir anlaq susdu. Sonra, nəyisə xatırlayıb dedi:

Özünü üstümə atıb boynumu qucaqladı, üzünü sinəmə qapayıb bir xeyli eləcə qaldı. Sonra başını qaldırıb üzümə baxanda gördüm ki, gözləri yaşarıb.

– Ata, – dedi, – səni tək qoyub gedirəm, məni bağışla. Cəbhəyə gedirəm, könüllü yazılmışam.

Qoca yenə xəyala daldı. Nəhayət, dilləndi:

– Mən uzun zaman cavab verə bilmədim. Çətin idi. Bilirsinizmi, körpə vaxtından ömrümü-günümü ona bağışlamışdım. Dünyanın dərd-qəmini onunla unutmuşdum. Onun üçün həm ana, həm də ata olmuşdum. Ürəyinin gizli arzularını duyub, əməl eləmişdim. Dünyada bir şeydən korluq çəkməyə qoymamışdım. Bir dəfə «ata, filan şey xoşuma gəlir» deməsi kifayət idi, gərək o gün qızım istəyinə çataydı. On səkkiz yaşı var idi. Bu on səkkiz ildə elə bir gecə olmamışdı ki, mən iki-üç dəfə durub, onun üstünə baxmayaydım.

Qoca sözünü kəsib papiros bükdü, sonra öz-özü ilə danışırmış kimi:

– O da məni sevirdi. Gecə bir də oyanıb görürdüm yanımdadır, başını sinəmə qoyub quzu kimi yatır. Bəzən fikirli vaxtlarım olurdu... Belə hallarda onun necə təşvişə düşdüyünü, necə gülməli sözlərlə mənim könlümü açmağa çalışdığını bircə siz görsəydiniz... O gecə, demək olar ki, səhərə qədər ikimiz də yatmadıq. O, mənə çoxlu tar çaldırdı. Mizrabı hər simə vurduqca, elə bil, ürəyimə iynə sancılırdı. Ancaq hiss etdirmirdim. Ürəyimdən axan göz yaşlarımı udub, özümü şad göstərməyə çalışırdım. Deyirdim: «Qoy məni məyus görüb getməsin. Sonra ürəyində nisgil olar».





Qoca papirosu yandıraraq söhbətinə davam etdi:

– O da mənə ürək-dirək verirdi. Bax, birdən fikir-zad elərsən ha, ata, – deyirdi. – Mən orada Eldarın hissəsində olacağam (Eldar dayısı oğludur). Sənə tez-tez məktub yazacağam.

Mən də özümə mümkün qədər toxtaqlıq verib: – Nə fikir edəcəyəm, qızım, – deyirdim, – Allah qoysa, tez qayıdıb gələrsən...

O, həyəcanla əllərimdən tutub:

– Sağ ol, ata, – dedi. – Səndən belə sözlər eşitmək nə qədər yaxşıdır! Müharibədən qayıdanda sənin bizi necə qarşılayacağını düşündükcə, həvəsimdən quş kimi qanadlanıb uçmaq istəyirəm.

Mən də zarafatla:

– Elədir, qızım, – dedim. – Siz qızlar, onsuz da, quş kimisiniz. Qanadlandınızmı, uçub gedəcəksiniz.

O, bir neçə saniyə diqqətlə üzümə baxdı, sonra birdən boynumu qucaqlayıb:

– Niyə elə deyirsən, ata, – dedi.

Baxdım ki, gözləri yenə yaşarıb...

Sonra sandıqdan iki medalyon çıxardı. Bunun biri rəhmətlik anasınınkı idi. Birini də mən onun üçün almışdım. Mənim şəklimi anasının medalyonuna qoyub öz boynuna saldı. Özünün şəklini də o birisinin içərisinə qoyub, mənim boynumdan asdı.

Qoca yaxasından bir medalyon çıxarıb mənə uzatdı. Medalyondan iri, gözəl gözlərini azca qıyaraq gülümsəyən bir qız baxırdı. Bir az ətli, qəşəng dodaqlarında, baxışlarında qeyri-adi, uzaq xülyalı bir ifadə var idi.

Mən bu şəklə uzun zaman baxmaq istərdim...

Qoca medalyonu alıb yenə də yaxasında gizlətdi və dedi:

– Səhəri günü onu yola salıb evə qayıtdım.

İndi hər axşam öz çarpayımla bərabər onun çarpayısını da rahatlayıram. Gecələr üstünə baxmaq üçün yenə bir neçə dəfə qalxıram. Bəzən yuxuda mənə elə gəlir ki, o yenə də başını sinəmə qoyub böyrümdə uzanmışdır. Bax, o fincan da onunkudur. Həmişə orada oturardı. Ancaq ömrümdə birinci dəfə bir sözünə əməl etmədim. O gedəndə mənə demişdi ki, ata, yenə də hər axşamçağı tarını çalarsan. Bir dəfə tarı götürüb kökləmək istədim, bacarmadım.

Qoca göz qapaqlarını endirib susdu. Ay işığı tənəklərin arasından süzülərək artırmanı işıqlandırırdı. Yarpaqların kölgəsi stolunun üstündə titrəşirdi.

Birdən küçə qapısı yavaş-yavaş döyüldü. Qoca diksinərək dikəldi. Bir an qapının döyülməsinə diqqətlə qulaq asaraq: «Bu vaxt kim ola?» deyə yaşına yaraşmayan bir cəldliklə ayağa qalxıb, aşağı endi. Az çəkmədi ki, əlində zərf, həyəcanla geri qayıtdı.

– Uşaqlardan gəlib, – deyə tələsik işığı yandırdı və zərfi cırıb məktubu işığa tutdu.

Gözləri əvvəlcə iri-iri açıldı. Sonra bir neçə dəfə dalbadal qırpındı. Bığının sol tərəfi tez-tez səyridi və qocanın sifəti birdən-birə mum kimi saraldı. Başını qaldırıb dəhşətli bir heyrətlə əvvəlcə mənə, sonra da həkimə baxdı və birdən gözlərini qapayaraq çarpayıya oturdu. Beli yay kimi əyildi.

Mən qocanın əlində titrəyən məktubu üsulluca alıb dərhal imzasına baxdım: «Oğlunuz Eldar» yazılmışdı. Sonra aydın xətlə yazılmış sətirləri həkimlə birlikdə sürətlə nəzərdən keçirdik. Məktub belə başlayırdı: «Ata, dərdinizin ağır olduğunu bilirəm. Ancaq mənə bu qara xəbəri yazmağa cəsarət verən sizdəki dağ kimi böyük səbrdir. Gülnar mənim komanda etdiyim hissədə döyüşlərin birində yeddinci yaralını güllə altından çıxardığı zaman yaralandı. Onun həyatını xilas etmək mümkün olmadı.

Bütün gücümü toplayıb, sizə onun xahişini yazıram. Dedi, atama yaz, tarını yenə də çalsın... Mən onun səsini eşidəcəyəm...»

Məktubun bu yerinə bir damla göz yaşı düşüb yazını qarışdırmışdı. Bunu yoldaşım da duyduğu üçün idi ki, dolmuş gözlərini məktubdan çəkərək üzünü o biri tərəfə çevirdi. Məktubun ardını oxumadan onu ehtiramla büküb stolun üstünə qoydum.

Ata gözlərini qarşısındakı bir nöqtəyə zilləyərək qımıldanmadan oturmuşdu. O, beş dəqiqənin içində on il qədər qocalmışdı.

Biz təsəlli olaraq ona nə deyə bilərdik...

Atlarımıza baş çəkəndən sonra, söyüd ağacının altında yer düzəldib uzandığımız zaman, artıq gecədən xeyli keçmişdi. Heç birimizdə danışmaq həvəsi yox idi. Həkim üzünü o biri tərəfə çevirmişdi.

Mən gecəni dinləyirdim. Cırcıramaların ara verməyən yeksənəq, qayğısız səsi eşidilirdi. İnsana elə gəlirdi ki, bu səs dünya bina olandan bəri davam edib gəlir...

Aşağı dərədər axan çay yuxu gətirən bir ahənglə şırıldayırdı. Haradansa isaq-musaq quşunun intizar dolu səsi gəlirdi:

– İsaq, tapdın...

– Musaq, tapdın...





Ay göylərin sonsuz yüksəkliklərinə qalxaraq kainatı gümüş nura qərq etmişdi. Sanki bu nəhayətsiz gümüşü duman altındakı evlərin tutqun siluetləri ağır örtüklər kimi insanların üzərinə, onların iztirab və kədərlərini göylərin bu əbədi, munis sükunətindən gizləmək üçün çəkilmişdi.

Birdən yuxarıdan, qocanın otağından, şikayətkar bir tar təranəsi qopub gəldi və sanki bu qara örtüklərin altına sığışmayan müztərib insan ruhu üsyankar bir fəğanla son dəfə çırpındı və qəfəsdən qurtulan quş kimi kainatın əbədi sükunətinə doğru qanad çaldı.

Həkim başını qaldıraraq rəşəli bir təbəssümlə:

– Eşidirsənmi, – dedi, – qoca qızının son arzusunu da yerinə yetirdi.

*1943*

## YARIMÇIQ QALMIŞ PORTRET HAQQINDA MAHNI

Qoca professor Elmarın gözlərini diqqətlə müayinə edəndən sonra başını qaldırıb, həyəcan və iztirab dolu nəzərlərini ona zilləmiş Güllərə baxaraq, qaşqabağını tökdü və heç bir söz demədən kabinetdən çıxdı. Güllər də onu təqib etdi.

Professor öz otağında kreslosuna çöküb, dərindən nəfəs aldı. Güllər məhzun gözlərini ona zilləmişdi. Həyəcan və intizarı nə qədər qüvvətli olsa da, heç nə soruşmurdu, daha doğrusu, soruşmağa cəsarət etmirdi. Lakin, həkim onun baxışlarındakı sualı anlayırdı. O, Güllərin gənc və gözəl üzünə acıqlı bir nəzər salaraq:

– Neçə yaşınız var? – deyə ucadan soruşdu.

Güllər anlaşılmaz bir qorxu və təlaşla:

– On doqquz, – deyə pıçıldadı.

Qoca həkim acı-acı gülümsədi. Onun bu təbəssümü Gülləri titrətdi.

– Ərinizin sizdən başqa kimi var?

– Heç kəsi, – deyə, Güllər başını buladı. – Qoca bir anası var idi. O da dörd il bundan qabaq vəfat etmişdir.

Həkim ayağa qalxıb, bir qədər var-gəl edəndən sonra otağın ortasında dayandı. Güllərin üzünə baxmayaraq, qəzəbli və boğuq səslə:

– Təbabət ərinizin gözlərini müalicə etməkdə acizdir, – dedi.

Güllər ayaq üstündə müvazinətini saxlaya bilmək üçün yaxınlıqdakı stuldan yapışdı. Sifəti ağappaq ağardı. Dəhşətli təəccübdən alacalanmış gözləri həkimə dikilib qaldı.

Həkimin verdiyi ağır xəbər elektrik cərəyanı kimi onun bütün əsəblərini keyitmişdi. Mənasını dərk etmədiyi anlaşılmaz bir sual başında tez-tez təkrar olunurdu: «Necə, yəni acizdir?..»

– Bəli, acizdir, – deyə həkim özünü də qəti inandırmaq istəyirmiş kimi təkrar etdi.

Güllər bir söz demədən otaqdan çıxdı. Həkimin üzü indi mülayim və mərhəmətli ifadə almışdı. O, dərin təəssüf və ürək ağrısı ilə: «Ah!..» deyib ağsaçlı başını ağır-ağır tərpətdi.





Güllər əri olan otağın qapısında, bir əli dəstəkdə, o biri əliylə isə, gözlərini örtmüş halda dayanmışdı. Yalnız xidmətçi «ah» çəkərək başını buladı:

– Özünə toxtaqlıq ver, qızım, darıxma.

Güllər gözlərini silib, qapını açdı. Elmar əlini alnına söykəyərək oturmuşdu. Hərəkətsiz iri, ala gözləri gur elektrik ziyasını qəribə bir şəkildə əks etdirirdi. Güllər bu gözlərə xeyli baxaraq:

– Gedək, Elmar, – dedi.

Elmar əlini alnından çəkib qəddini düzəltdi, sonra pencəyinin düymələrini bağlayaraq, gümrahlıqla ayağa qalxdı. Yol uzunu professorun nə dediyi haqda heç nə soruşmadı.

Güllər nəhayət, Elmara müraciət etdi:

– Həkim dedi ki, əgər, əsəbiləşməsə, fikir-zad eləməsə, tezliklə sağalacaq (o, gözləri açılacaq demək istədisə də, cəsarət etmədi).

Elmar ona cavab vermədi, sabah konservatoriyada dərsi olub-olmadığını soruşdu. Güllər, qəlbini parçalayan ağrıları boğmaq istəyirmiş kimi, dodaqlarını sıxıb bir neçə saniyə susdu. Sonra:

– Var, – deyə cavab verdi, – ancaq getməyəcəyəm. Mən dərslərə müntəzəm davam etməsəm də olar.

Elmar həyat yoldaşının etibarına hər nə qədər əmin olsa da, indi xudpəsənd bir qürurun təhriki ilə onun bu sözlərində «minnətqoyma» kimi bir şey hiss etdi və bu, heysiyyətinə toxundu. O, soyuq bir laqeydliklə:

– Dərsi buraxmağın nə mənası var, Güllər? – dedi.

Güllər bununla onun nə demək istədiyini anladı. İncimiş və həyəcanlı səslə:

– Niyə elə deyirsən, Elmar! – dedi. – Sənin üçün mənası olmasa da, mənim üçün var, hər kəsə öz istəyi əziz deyilmi? Bir də ki, sən əvvəllər mənə belə sözlər deməzdin... İndi nə üçün...

Göz yaşları onu cümləsini tamamlamağa qoymadı. Elmar mülayim səslə:

– Niyə inciyirsən, Güllər? – dedi. – Bir saat bundan qabağa qədər mənim üçün yenə də ümid qığılcımı var idi. Bu axşamdan o da söndü. Elə bilirsən ki, həkimin nə dediyi mənə məlum deyil?

O, Güllərin cavabını gözləmədən davam etdi:

– Boş ümidlərlə özümüzü nə üçün aldadaq?

Güllər, qaranlıq, qorxunc bir uçuruma yıxılmaqdan çəkinirmiş kimi, bir an ayaq saxladı və oğlana qısılaraq vahimə ilə:

– Elmar, – dedi, – niyə belə sözlər danışırsan? Axı, mən... axı, mən sənin yanındayam!

Elmar dinmədi və onlar evə qədər sükut içində getdilər. Yolda rast

gəldikləri adamlar taleyin qıydığı bu gözəl gənclərə təəssüflə baxmadan keçmirdilər.

Mənzilləri dörd otaq və bir mətbəxdən ibarət idi. Evin qərb tərəfində kiçik bir bağça vardı. Otaqlardan ikisinin pəncərələri həmin bağçaya baxırdı. Bunlardan biri Elmarın iş otağı idi, digərində isə, Güllərin pianosu qoyulmuşdu.

Güllər asta, taqətsiz addımlarla öz otağına girdi. Pianosuna və pərakəndə halda tökülmüş not dəftərlərinə baxdı.

Vaxt var idi ki, o, bu balaca bağçada dayanıb, qüruba enən günəşin buludlarda alışıb-yanan son işığına tamaşa edə-edə bu pianonun arxasında sevgilər, bahar şehi kimi titrək, şəffaf sevinclər, arzular, yaradıcı insan əməyinin qüdrət və gözəllikləri haqqında romanslar yazardı. O biri otaqda isə, gənc rəssam Elmar yorulmadan işləyərdi.

Güllər pianonun qapağını qaldırıb, orta barmağı ilə dillərdən birinə toxundu. Pianodan həzin bir səs qalxıb, bağçanın sükutu içində titrəyərək söndü. O, diksinərək əlini geri çəkdi. Ürəyindən buz kimi soyuq rəşə keçdi. Sonra pəncərəyə doğru bir addım atıb dayandı. Qovaq ağaclarının daim titrəyən yüngül yarpaqları arasından axşam səmasına baxaraq, öz-özünə pıçıldadı:

– Doğrudanmı, onun gözlərinə çökmüş qaranlığın sonu yoxdur? Doğrudanmı, hər şey bitmişdir?

O, buna inanmırmış kimi, çevrilib Elmarın otağına getdi. Divar boyu vurulan ağ parça üzərində rəsm edilmiş gənc qadın ona baxaraq gülümsəyirdi. Bu, onun özü idi. Lakin portret tamamlanmamış, Elmarın müharibəyə getməsi ilə yarımçıq qalmışdı.

Vaxtilə dəstə-dəstə gəlib baxan sənət ustaları bu şəklin fövqəladə bir istedadla çəkilməkdə olduğunu söyləyirdilər. Elmar özü isə, bu tərifləri sükutla qarşılayaraq, Güllərə deyirdi ki, əgər, mən bu portreti yarada bilsəm, özümü ömrüm boyu xoşbəxt hesab edəcəyəm. Bu şəkil əbədi və böyük məhəbbətin timsalı olacaq...

Doğrudanmı, bu böyük arzu həmişəlik məhv olub getdi?! Otaq qaranlıqlaşır, bağçada quşların qərib səsləri eşidilirdi. Güllərin varlığını birdən-birə anlaşılmaz qorxu bürüdü və o, bütün vücudu ilə titrəyərək, dönüb sürətlə qonaq otağına getdi.

Elmar əllərini başının altında çarpazlayaraq, divanda uzanmışdı. Gözləri şüşə kimi donuq bir tərzdə parlayırdı. Yalnız uzun qara qaşlarının çatılışından, ağ və gözəl alnının incə qırışlarından onun, nə isə, ciddi bir şey haqqında düşündüyü məlum olurdu. Güllər gəlib Elmarın yanında oturaraq, üşüyürmüş kimi, onun geniş sinəsinə qısıldı. Üzünü ərinin ipək kimi yumşaq saçlarının qıvrımları arasında gizlətdi.

Elmarın üzündəki tutqunluğu mehriban, aydın bir ifadə əvəz etdi. Uzun, qara kirpikli göz qapaqları aşağı endi.





Güllər nə düşünürdü? Kor olmuş ərinin varlığına hansı hisslər hakim idi? Bunları söyləmək çətindir. Bəlkə də, onların gənc və günahsız duyğuları aralarına çökmüş müdhiş zülməti keçərək bir-birinə qovuşmaq, bir-birini dərk etmək istəyirdi?

Birdən Elmarın dodaqları rəşə ilə titrədi. Kirpikləri tez-tez qırpındı və o, yavaşca Gülləri özündən kənar edərək, dikəlib oturdu. Güllərin heyrətlə baxan gözləri Elmara zillənib qaldı. Elmar başını Güllərə tərəf azca döndərib:

– Yadındadırmı, Güllər, – dedi, – Korolenkonun kor çalğıçısı nə deyir? Deyir ki, heç olmasa, anamı, günəşi, ulduzları bircə dəfə görmüş olsaydım, indi onların xatirələri ilə yaşayardım. Mən isə, bunların hamısını görmüşəm. Axı, mən aydın gecələri, çiçəkli çəmənlər arası ilə qayğısız axan suları, boz qayalıqlarda səslənən kəklikləri, kolluqlarda bitən bənövşələri görmüşəm. Mən, şərəflə vuruşan qəhrəmanların zəfər mahnıları oxuyaraq can verdiklərinin şahidi olmuşam.

O, bir an susdu. Sonra yavaş-yavaş və mükəddər səslə:

– Nəhayət, – dedi, – səni görmüşəm, axı... Deməli, mən Petrodan xoşbəxtəm. Elə deyilmi? Əgər, mən yaxşı bir rəssam olmadımsa, bunun eybi yoxdur. Dünyaya məndən də istedadlı o qədər rəssam gələcək ki...

Elmar susdu. Sonra sakit və qəti bir ifadə ilə dedi:

– İndi isə, mən sənin işinə mane olmamaq üçün korlar evinə gedəcəyəm, bəlkə orada görə biləcəyim bir iş də tapdım. Sən isə, yaxşı mahnılar yaz. Mən də onlara radioda qulaq asacağam...

Axırıncı cümlədə Elmarın səsi titrədi və o, ayağa qalxıb, pəncərənin qabağına getdi. Qızın nəzərləri qeyri-şüuri bir hərəkətlə boylu-buxunlu Elmarın qamətini dolaşıb, onun enli kürəklərində qərar tapdı.

Həkimin sözündən sonra bu, Güllərin ürəyinə endirilən ikinci zərbə idi. O, bir an, yalnız bir an özünü Elmardan həmişəlik ayrılmış təsəvvür etdi. Vücudunu elə soyuq, elə ümidsiz yalqızlıq hissi sardı ki, dəhşətlə titrəyib ayağa qalxdı və Elmara yaxınlaşıb, onun əlini balaca soyuq əlləri arasında bərk-bərk sıxaraq:

– Bu mümkün deyil, Elmar! – dedi.

Güllər bütün gücünü sərf edərək, ərinin könlünü ovutmağa çalışırdı. Hər axşam onu özü ilə gəzməyə aparır, hər zamankından gözəl geyindirir, onun üçün təzə-təzə qalstuklar alır, köynəklər tikir, onu daha çox əyləndirmək üçün yeni-yeni vasitələr düşünürdü. O, ərinin gözlərində sönmüş işığı öz qayğısı ilə onun qəlbində yandırmaq istəyirdi.

Bahar sabahı şən və parlaq işığı ilə pəncərədən içəri süzüldüyü zaman, dağlardan əsən sərin dan yeri üzünü oxşadığı vaxt Güllər şirin səhər yuxusundan qalxıb, bağçada yeni açılan yuxulu qızılgüllərə, üzərlərində şeh damlaları sayrışan yasəmən salxımlarına, ağaclar altın-

dakı sərin kölgəliklərə, sonra da ərinin bütün bunları heç bir zaman görməyəcək gözlərinə baxar, ürəyinə çalın-çarpaz dağ çəkilərdi.

Elmar da başını yataqdan qaldırıb:

– Deyəsən, səhərdir, Güllər, – deyərdi və o zaman Güllərin üzünü qapamış kədər kölgəsi arasından quzey çiçəyi kimi solğun bir təbəssüm parladı. Sonra onlar bağçaya enərdilər.

Elmar çiçəklərin arasında dolaşaraq, əli ilə onlara toxunar, «qızılgül nə tez açılıb, qaraməxmər hələ düymədir...» deyə sevinclə səslənirdi. Güllər isə, onun bu hərəkətlərinə dözülməz bir dərdlə baxar, keçmişin qayıtmaz xatirələrinə dalıb gedərdi. Axı, bu çiçəklərin ən incə naxışları, ən mürəkkəb boyaları o rəssama tanış idi. Bir dəfə Elmar doymaq bilməyən ehtirasla bu çiçəkləri seyr edib:

– Eh, Güllər, – demişdi, – bunlara baxdıqca düşünürəm: görəsən, doğrudanmı, bir zaman insan dühası bu gözəlliyi olduğu kimi ağ bez parçası üzərində canlandıra biləcək?

Bunları xatırladıqca, bir anlığa təsəlli üçün etdiyi hər cür cidd-cəhd Güllərə kiçik və mənasız görünür, ərinin böyük dərdini unutdurmaqda çox aciz olduğunu hiss edərək, mat-məhbut donub qalırdı.

Sonra onlar cavan yasəmən ağacının yanına gələrdilər. Elmar əlini onun salxımları üzərində gəzdirərək, balasını görməyən kor ana kimi mehriban və qəmgin bir təbəssümlə deyərdi:

– Bu ağac lap böyüyüb ki!

Beləliklə, səhər gəzintisi bitərdi. İş otağının qabağından ötdükləri anı Elmar vərdiş etdiyi bir hisslə duyar və bu zaman onun üzündə əsəbi gərginlik zahir olardı.

Müharibədən qayıdandan bəri, o bir dəfə də olsun, nə bu otağa girmiş, nə də onun adını tutmuşdu. Güllər bunun səbəbini anlayırdı. Odur ki, pianonun arxasında oturaraq, gənc ərinin taleyi, o biri otaqda əbədi olaraq yarımçıq qalmış portret haqqında uzaq və dərin xəyallara dalaraq, saatlarla çalardı.

Bütün bu müddətdə rəssam aramsız düşünər... düşünərdi...

Günlər keçdikcə onun ruhi sarsılmazlığı və kor çalğıçıya nisbətən məsud olması qənaəti zəifləyirdi. Onun qara pərdə altında hərəkət edən daxili aləmində indi tamamilə əksinə olan xudpəsənd və amansız hisslər baş qaldırırdı.

Vaxtilə görmüş olduğu rəngarəng mənzərələrin xatirələri, zehnində hifz edilmiş kitablar indi artıq onu yorurdu.

«Petro anadan kor olduğu üçün, – deyə o düşünürdü, – təbiət onun görmə qüvvəsini başqa üzvlərinə verdi. O, gözləri ilə görmədiklərini qulağı ilə eşitdi, bütün vücudu ilə duydu və buna görə də, öz musiqisi ilə dinləyənləri heyran etdi. Kor olmuş Korçagini yenidən həyata, öz döyüş yoldaşları sırasına onun böyük istedadı qaytardı. Mən isə, hər





şeyi gördüm, ən incə rəngləri bir-birindən seçməyi bacardım və bütün yaradıcı qüvvəmin gözlərimə toplandığı bir zamanda onlardan məhrum edildim. İndi iyirmi altı yaşındayam. Demək, hələ otuz-qırx il də yaşaya bilərəm.»

O, Gülləri sevmişdi. Müharibənin ən qızğın döyüş dəqiqələrində bu sevgi himayədar bir qanad kimi onun üzərinə gərilmiş, qəlbinə qüvvət vermişdi. Onun ən nəcib xəyallarını, ən çətin arzularını bu sevgi pərvazlandırmışdı. Lakin indi bu sevgi, həmin bu qüdrətli məhəbbət ona əzab verirdi.

O özünün əlillər evinə getməsi üçün arvadını dəfələrlə dilə tutdu. Hər dəfə də Güllər bu fikri başından çıxarması üçün ona yalvardı. Lakin insan təbiəti çox qəribədir. O özünü sevilməyə tam mənası ilə layiq bildiyi zaman bu məhəbbət ona fərəh və səadət gətirir. Ona görə də, Güllərin sevgisi iki gözündən kor qalmış rəssamı məsud edə bilmirdi. Qızın ona qarşı dəqiqədən-dəqiqəyə artan qayğı və diqqəti, gecə-gündüz qabıqdan çıxması oğlanın həm qəlbini ağrıdır, həm də izzəti-nəfsini yaralayırdı. O, bütün bunlara, şikəst ərə qarşı göstərilən alicənab mərhəmət hissi kimi baxırdı.

Bu isə, onun gənc həyat yoldaşını dəli edirdi. Güllər bu anlayışın səhv olduğunu ərinə hiss etdirmək üçün saatlarla düşünərək, pianosunun arxasına keçir, öz dili ilə izah edə bilmədiyi hisslərini musiqinin qüdrəti dili ilə ifadəyə cəhd edirdi.

Elmarın yaradıcılıq dühası heç vəchlə rahatlıq tapa bilmirdi. O, göylərin sonsuz dərinliyini görüb-duyan, qanadları qırılmış quş kimi çırpınıb... çırpınıb yerində qalırdı. Varlığındakı yaradıcılıq qüvvəsi, qabağı tutulmuş çay kimi özünə yol axtarırdı və bunu tapa bilmədiyi üçün əzab çəkirdi.

Bu qayda ilə payız, qış dolanıb keçdi. Yenə də yaz gəldi. Elmarın gülləri yenə də açıldı. Lakin onun nə gözləri açıldı, nə də könlü...

Bahar axşamı idi. Ürəklərə sevgi və riqqət təlqin edən sakit bir bahar axşamı...

Onlar qonaq otağının küçəyə baxan pəncərəsi qarşısında oturmuşdular. Güllər dəsmal tikirdi. Elmar isə, dirsəyini pəncərəyə söykəyib, öz düşüncələrinə dalmışdı. Bayırdan gələn axşam yeli onun saçlarını arabir tərpədir, elə bil ki, beynini yoran ağır fikirləri vurub dağıtmaq istəyirdi.

Küçədən keçən iki gənc – qız və oğlan onların pəncərəsi qarşısında ayaq saxladı. Qız əvvəlcə Elmara, sonra da tikiş ilə məşğul olan Güllərə baxıb:

– Salam, Güllər! – deyə gülümsədi.

Güllər başını qaldırıb keçmiş məktəb yoldaşını və onun rəfiqini görərək, mehribanlıqla:

– Xoş gördük, hara belə? – dedi.

Bayırdakı qız, kor rəssamın eşidəcəyindən qorxurmuş kimi, asta və ürkək bir səslə:

– Kinoya getmək istəyirik, – dedi.

Elmar bu sözləri eşitdi və onun kirpikləri əsəbi halda qırpıldı. Bu, Güllərin nəzərindən qaçmadı. O, öz sualından peşman oldu. Mümkün qədər şən bir ahənglə:

– Anangil necədir? – deyə sözü dəyişdi.

Vəziyyətin belə uyğunsuz hal almasını bayırdakı qız da hiss etdiyi üçün:

– Yaxşıdırlar. Sən Allah, bizə gəlin, – deyib tələsik xudahafizləşdi.

Onların gedişi ilə otaqdakı sükut daha da ağırlaşdı. Güllər bu «kino» sözünün doğurduğu təsiri ərinə unutdurmaq üçün söz axtarırdı. Lakin həyatın yüzlərlə belə təsadüfləri qarşısında o nə qədər aldadıcı söz tapa bilərdi ki?

Elmar isə, öz gənc həyat yoldaşının bir ildən bəri teatr, kino üzü görmədiyini düşünərək, lal bir iztirab içində əzilirdi.

Nəhayət, o:

– Yox, bu belə davam edə bilməz! – deyə qəlbində qəti bir qərar verərək, ayağa qalxıb, yataq otağına keçdi. Paltar dolabını açdı. Əlini orda asılmış hərbi mundirinin üzərində gəzdirərək, tapança qoburunu tapdı və kiçik tapançanı çıxarıb, eyni arxayınlıqla cibinə qoydu. Sonra arvadına bir-iki kəlmə söz yazmaq üçün ağır addımlarla öz kabinetinə getdi. Əlini stolun üstünə gəzdirib, çoxdan unudularaq orada qalmış bloknotu və qara karandaşı tapdı. Bloknotdan bir vərəq cıraraq, stul çəkib oturdu. Nə yazsın? Duyğularını necə ifadə etsin? Lakin yazmaya bilmirdi. Dünyada ən çox sevdiyi adamdan birdən-birə, sözsüz-söhbətsiz ayrılmaq, özü də həmişəlik ayrılmaq istəmirdi...

Bütün gücünü toplayaraq ilk əziz sözü yazdı:

«Güllər!»

Elə bu zaman həzin musiqi eşidildi və bu musiqi birdən-birə dil açaraq, qəribə bir hekayət başladı. Oğlan diksindi, əl saxlayıb, bu hekayətə qulaq asdı.

Pianonun dilləri bəzən ağır-ağır, bəzən də sürətli, coşğun nidalarla səslənirdi. Onlar gənc qadın qəlbinin macərasını hekayə edirdi. Bu dillər sakit, ülvi bir avazla, həyatın xoş günlərində o gənc qəlbin öz qəhrəmanına necə vurulduğundan və bu qəhrəmanın böyük taleyindən danışırdı. Bu zaman Elmarın xəyalından bahar çiçəklərinin ətri qədər xəfif, rayihədar bir məhəbbətin heyranedici, uzaq xatirələri süzülüb keçirdi.

Onlar, birdən fəryada gələrək, fərəh və səadətlə gülümsəyən bu bahar sabahının üzərinə çökmüş qara buludlardan, qəhrəmanın öz əzə-





mətli vətəni uğrundakı cəsur döyüşlərindən xəbər verirdi. Musiqi yavaş-yavaş səslənib, qəhrəmanın qarşısında diz çökən o gənc qadının iztirablarından söyləyir, əbədi və sadiq məhəbbət haqqında and içirdi.

Pianonun dilləri oğlanın qəlbindəki inamsızlığı duyaraq, üsyankarlıqla fəğan qoparıb, dünyada hər şeyə qadir olan o böyük məhəbbətin əfsanəsinə keçdi. Birdən Elmar yerindən qalxaraq, sehrə tutulmuş kimi irəlilədi.

Güllər onun gəlişini duymadı. Otağın yarımqaranlığı içində o, gözlərini pəncərənin yuxarısından görünən və hələ işıq olan göy qübbəsinə zilləyərək çalırdı. Elə bil ki, söylədiyi əfsanələr orada, göylərin o məchul dərinliklərində bir silsilə kimi keçib gedirdi...

Elmar heyrət və həyəcan içində dayanıb dinləyirdi. O, bu ecazkar musiqinin tərənnüm etdiyi hisslərlə özünün yarımçıq qalmış əsərində vaxtilə ifadə etmək istədiyi o qüdrətli məhəbbət arasında heyrətli bir oxşayış görürdü. O görürdü. Rəssamın qəlbi işıqlı, məsud bir aləmdə dayanıb gülümsəyən əziz həyat yoldaşını və onun təbəssümündəki əbədi məhəbbəti görürdü. Bir ildən bəri ruhunu bürüyən, ona əzab verən müdhiş zülmət bu sehrkar məhəbbətin nuru ilə əriyib yox olurdu. İndi o, həyatı, əbədi və böyük həyatı bütün aydınlığı ilə görürdü. Onun yarımçıq qalmış portreti tamamlanmışdı.

Rəssamın qəlbi fərəhli, bəxtiyar hisslərlə çırpınırdı və o, bir addım daha irəli ataraq həyəcanla:

– Güllər! – dedi.

Bir neçə il keçdi. Sakit bir yay axşamında şəhər bağlarının birində gənc, gözəl bir qadınla yanaşı iri, ala gözləri batan günəşin son işığını durğun göl kimi əks etdirən bir kişi oturmuşdu. Onların qabağında alagözlü, qıvrımsaçlı qəşəng bir oğlan uşağı oynayırdı. Birdən:

– Diqqət! – deyə radio səsləndi. – Bəstəkar Güllər xanımın «Yarımçıq qalmış portret haqqında mahnı» adlı əsərinə qulaq asın.

– Ana, səni deyir, – deyə uşaq yüyürüb gənc qadının dizlərini qucaqladı.

Elmar əlini oğlunun başına çəkərək gülümsədi.

*1943*

## QARI DAĞI

Şəhər otuz doqquz gün mühasirədə qalaraq, uzaq məmləkətdən qoşun çəkib gəlmiş şahla vuruşdu. Qırxıncı gün şahın iyirmi yaşlı cəsur oğlu Maliktac beş yüz nəfər seçmə pəhləvanla hasarın bir tərəfindən hücum edib şəhərə girdi. Onun ardınca bütün qoşun yol tapıb şəhərə doldu.

Yerli əhalinin inadından və təslim olmaq üçün dəfələrlə edilmiş təklifi rədd etmələrindən qəzəblənmiş şah, vəziri Taygöz Yusifi çağırıb kimsəyə aman verməməyi əmr etdi.

Taygöz Yusif şəhərin sağ qalmış yeddi min əhalisini uşaqdan-böyüyə qılıncdan keçirdi. Evlər dağıldı. Qan su yerinə axdı.

Üçgünlük qırğından sonra şah şəhərdən çıxıb yaşıl bir təpə üstündə çadırlar qurdurdu. Üç gün, üç gecə şadyanalıq etməyi, qalibiyyət badələri qaldırmağı qoşun əhlinə əmr etdi.

Qızıl işləməli, firuzə rəngli kuzələr yeddiillik Şiraz şərabları ilə dolduruldu. Əti məcun olan beşillik qara erkəklər kəsildi. Ovçular Qarabağ meşələrindən tükləri alov kimi yanan qırqovullar gətirdilər.

Hökmdar yeddi qızıl dirəkli çadırında, yeddi tirmə döşək üstündə əyləşdi. Atlas geyimli Nişapur sazandaları gəldi. Süfrələr döşəndi, qızıl qədəhlər düzüldü. İlk badələr qaldırılan zaman yetmiş yeddi şeypur şahlar şahının qələbəsi şərəfinə gurladı.

Lakin elə bu vaxt şahın qorxunc vəziri Taygöz Yusif içəri girib, hökmdarın hüzurunda yerə qədər təzim etdi. Şah boşalmış qədəhini yanındakı qara qula verib qaşlarını çatdı.

– Hardasan, vəzir?! – dedi. – Yoxsa, mənim qələbəmin təntənəsi sənin üçün mənasızdır?

Taygöz Yusif bir daha yerə qədər təzim edib:

– Qibleyi-aləm, – dedi, – mən aciz Yusif sənin sabiq qulunam. Şahlar şahının hüzuruna gecikməyimin səbəbi var.

Hökmdar vəzirin səsindəki qara xəbər əlamətini duyaraq:

– Nə olub, vəzir? – dedi. – Tez söylə!



Vəzir üçüncü dəfə təzim edib:

– Qibleyi-aləm yüz illərlə sağ olsun! – dedi. – Oğlun Maliktac xəstələnmişdir.

– Nə danışırsan, vəzir! – deyə şah ayağa qalxdı.

Şahzadə Maliktac qonşu çadırda qızdırma içində yatırdı, hər tərəfində yeddi qara qul əlləri döşündə sükut içində dayanıb, gözlərini ona zilləmişdi.

Hökmdar vəzirin müşayiəti ilə çadıra daxil olduqda, qullar yerə döşənib, alınlarını torpağa qoydular. Şah oğluna yanaşıb, barmaqlarında ləl-cəvahir sayrışan ağ əlini onun alnına qoydu:

– Oğlum, Maliktac! – deyə həyəcanla səsləndi.

Lakin xəstədən cavab gəlmədi. O zaman şah, rəngi ağarmış halda üzünü vəzirə sarı çevirib, qorxulu və titrək səslə:

– Bu saat hər tərəfə çaparlar göndərilsin, – dedi. – Qoy dünyanın bütün biliciləri buraya toplansın.

Şah bütün günü oğlunun başı üstündən tərpənmədi, gözlərini yummadı. Heç nə yemədi.

Səhəri vəzir qayıdıb:

– Qibleyi-aləm, – dedi, – şəhərdə ancaq tək-tək qocalar, uşaqlar qalıb, qırılan qırılıb, sağ qalanlar da gecə ikən meşələrə qaçıb. Çox axtarandan sonra bir falçı qarıya rast gəldik.

– Bəs, falçı nə oldu? – deyə şah qəzəblə soruşdu.

– Gəlmədi. Şahzadənin yanına gətirilməsini istədi.

– Aha! – deyə şah kibirlə gülümsədi.

– Mən onu ocağa atdırıb yandırardım, qibleyi-aləm, ancaq...

Şah vəzirin sözünü kəsib:

– Taxt-rəvan hazırlansın, – deyə əmr etdi.

Hökmdar öz rəiyyəti ilə birlikdə insan cəsədləri ilə dolu xaraba küçələrdən keçib, balaca bir komanın qabağında dayandı. Taxt-rəvanı qulların çiynindən alıb, yerə qoydular. Şahzadəni ehtiyatla içəri gətirdilər. Yarımqaranlıq evin içində ucaboylu bir qarı durmuşdu. Şah daxil olan zaman, o, yerindən qımıldanmadı, təzim etmədi, bir heykəl sükunəti ilə dayanıb durdu.

Şah keçib xəstənin baş tərəfində qoyulmuş döşək üstündə əyləşərək:

– Qarı, – dedi, – deyirlər sən cinlərin, uğursuz ruhların dilini bilirsən. Sağalmaz dərdlərə dəva edirsən. Budur, mənim oğlum Maliktac od tutub yanır. Məşum ruhlar onun huşunu oğurlayıb aparmışlar. Səndən əlac istəyirəm, qarı. Əgər, onu sağaltsan, evinin dirəklərini qızıla tutduracağam. Əgər, xəyanət etsən, cəhənnəm kimi zəbanə çəkib yanacaqsan.

01/01-10

Qarı:

– Mən anayam, – dedi və bir qab su alıb, taxt-rəvanın qarşısında yerə çökdü.

Sonra dodağının altında nə isə oxuyub, suya üfürdü və bir an kasaya diqqət edərək, ağır və zəhmli nəzərlərini qaldırıb:

– Ey şah, – dedi, – mən burada minlərlə qəzəbli ruh görürəm. Onlar xəbər alır: «Şah öz oğlunu çoxmu sevir?»

Şah vahimə ilə:

– Nə danışırsan, qarı? – dedi. – O mənim yeganə varisimdir. Böyük bir məmləkət gözünü ona dikmişdir. Mən yeddi il dua edib, yeddi min qurban kəsəndən sonra böyük Yaradan onu mənə əta edib. O böyüdü, Kəyan mülkündə birinci pəhləvan oldu.

Falçı təkrar suya baxıb dedi:

– Ağsaçlı bir qarı soruşur: «Şahzadənin anası varmı?»

Şah:

– Var, qarı, – dedi, – onun anası Xədicəbanu Yer üzündəki arvadların ən xoşbəxtidir. Çünki o mənə Maliktac kimi oğlu bəxş etmişdir. Tez ol, qarı, oğlumun dərdinə əlac et. İndi Xədicəbanunun yuxusuna qara ilanlar girir.

Qarı bayaqdan bəri, ilk dəfə olaraq, başını qaldırıb, xəstə şahzadəyə baxdı və elə bil ki, oğlanın solğun gözəlliyi onun gözlərini qamaşdırdı. Qarının kirpikləri qırpındı, bəbəkləri böyüyüb, quru bir parıltı ilə yandı.

– Bütün dərdi sinəsindədir, – deyə şah, ağır-ağır nəfəs alan oğluna baxdı.

Qarı xəstəyə yanaşdı. Damarları çıxmış quru və kobud əlini onun sinəsinə qoydu.

Xəstə göz qapaqlarını qaldırdı. Yaralı ceyran gözlərinə bənzər bir cüt qara, məlul göz arvada zilləndi. Qarının günəşdən və dərddən yanıb qaralmış heybətli üzü qəribə bir nurla işıqlandı. Axı, o, ana idi.

Sonra qarı dağlara gedib, bir ətək çiçək gətirdi. Onların şirəsini çəkib, qaşıq-qaşıq xəstənin boğazına tökdü. Gecə-gündüz yanından tərpənmədi.

Şəhərdə sağ qalmış yerliləri ona lənətlər yağdırdılar. Güneylərdə oturan qocalar onu gördükdə, gözlərini endirib ayaqlarının ucuna baxdılar, yadellilərin nəzərindən iraq yerdə görüşən arvadlar başlarını bulayıb:

– Eh, Ballı qarı imansız oldu, – dedilər.

Xəlvətə düşəndə uşaqlar onun dalınca düzülüb:

– Ay falçı, bəs, qızıl başmağın hanı? – deyə tənə etdilər.

Qarı həmyerlilərinin bütün bu nifrətini sükutla qarşılayıb, hər gün





dağlara gedir, qucaq-qucaq çiçək gətirir, xəstəni müalicə edirdi. Axı, o, ana idi...

Nəhayət, yeddi gündən sonra şahzadə gözlərini açıb yemək istədi. On birinci gün isə, onun tamamilə sağalıb ayağa qalxdığını qoşun əhlinə xəbər verdilər.

Şah, falçıya bir kisə qızıl verib:

– Qarı, – dedi, – çiçəklərin hikmətini aç mənə söylə.

Qarı başını bulayıb:

– O sirri mən heç kəsə aça bilmərəm, hökmdar, – dedi. – Ancaq oğluna o çiçəklərdən çəkilmiş elə dərman verərəm ki, bir də azar üzü görməz.

Bu sözlərdən sonra qarı, qızılgül rəngli maye ilə dolu bir kasa gətirdi. Şah kasanı alıb, burnuna tutdu:

– Bu müşkdür, ənbərdir, nədir, qarı? Ətri insanı bihuş edir.

– O, dünyanın ən nadir çiçəklərindən çəkilib, – deyə qarı cavab verdi.

Hökmdar dərmanı yarısına qədər özü içib, qalanını da oğluna verərək:

– And içirəm ki, mən ömrümdə bu şirinlikdə şərbət içməmişəm, – dedi.

Şahzadə qalan şirəni son damlasına qədər içib, kasanı qarıya qaytardığı zaman falçı rahat nəfəs aldı.

Şah qarının üstünə daha bir kisə qızıl tullayıb, yanında dayanmış Taygöz Yusifə müraciətlə:

– Vəzir, – dedi, – o vaxt uğursuz ruhlar mənim şənliyimi pozmuşdu. İndi dünyada heç bir dərdim yoxdur. Qoşun əhlinə tapşır ki, üç gün, üç gecə elə bir şadyanalıq etsinlər ki, göydə gün üzü tutulsun.

– Atılan ox bir daha geri qayıtmaz, hökmdar, hər dəqiqənin bir hökmü var! – deyə Ballı qarı astadan dilləndi.

– Dəlimi olmusan, arvad? Nə danışırsan? – deyə şah qəzəblə yerindən qalxdı.

Və birdən o, mədəsində hiss etdiyi dəhşətli ağrıdan sarsılaraq, əl atıb vəzirin çiynindən yapışdı. Elə bu anda şahzadə də kökündən qırılmış sərv kimi silkələnib, arxasında dayanmış qara qulun qucağına aşdı.

– Zəhər! – hökmdarın sinəsindən vəhşi bir səs qopdu.

– Bəli, zəhər... – deyə Ballı qarı arxayınlıqla təkrar etdi.

Şah, yerdə ilan kimi qıvrılan oğluna baxıb:

– Vəzir, əlac! – deyə qışqırdı.

Və artıq ayaq üstündə dayana bilməyib, döşəyin üzərinə yıxıldı. Sonra başını qaldırıb:

– Qarı, – dedi, – heç olmasa, oğluma bir çarə elə. Axı, sən onu ölümdən qurtarmışdın, axı, sən deyirdin, mən anayam.

– Bəli, qibleyi-aləm! – deyə Ballı qarı ah çəkdi. – Mən anayam!..

Şah ilə oğlu dəhşətli əzablardan sonra öldülər...

Taygöz Yusifin əmri ilə qarını öz otağında qoyub qapını bağladılar. Sonra qoşun əhlinin hər biri onun koması üzərinə bir at torbası torpaq tökdü. Günün axırında günəşin son işığı Savalanın zirvəsindəki buludlarda saralıb sönən zaman qarının koması üstündə böyük bir təpə qalxdı. Sonra yağan yağışlar onun torpağını bərkitdi. Gələn bahar təpədə sarı tikanlı boz qanqallar bitdi. Təpəyə «Qarı dağı» dedilər.

Sonrakı əsrlərin küləkləri, selləri şəhərin xərabəliklərindən heç bir əsər qoymadı. Onun yeri hər bahar qızıl lalələrlə örtülən bir düzənlik oldu. Şəhərdən yadigar yalnız Qarı dağı qaldı. O vaxtdan bəri Qarı dağının altında bir çeşmə qaynayır. Uzaq mənzildən gəlib keçən yolçular onun suyundan içib, ürəklərinin yanğısını söndürürlər...

*1944*

## «HEKAYƏLƏR» KİTABINDAN

### GÖRÜŞ

Otuz iki yaşında, dolubədənli, yaraşıqlı bir kişi olan professor maşınla öz kəndlərinə gedirdi. Əynində bahalı nazik parçadan boz yay kostyumu var idi. Boğazı düymələnməmiş ağ zolaqlı, göy ipək köynəyinin üstündən açıq rəngli yüngül qalstuk bağlamışdı.

Maşın getdikcə, külək onun dən düşmüş, yumşaq, qara saçlarını oynadırdı. Üzünün düzgün cizgilərindən, dərisinin qarabuğdayı rəngindən uşaqlığını kəndin açıq havasında keçirmiş, isti-soyuq görmüş adamlara oxşayırdı.

Professor ala gözlərini qıyaraq, çöllərə tamaşa edirdi.

Yayın əvvəl ayı idi. Parlaq günəş işığında ucsuz-bucaqsız sarı buğda zəmilərinin içindəki kombaynlar dənizdə üzən balaca gəmiləri xatırladırdı. Havadan qurumuş ot və təzə buğda qoxusu duyulurdu. Yoldan tez-tez taxıl və samanla dolu maşınlar gəlib keçirdi. Professor bu maşınlarda oturmuş gənclərə diqqətlə baxırdısa da, heç birini tanıya bilmirdi. Onun kənddən çıxdığı on beş il olardı. Bu müddətdə yalnız dörd dəfə kəndlərinə, anasının yanına gəlmişdi. Axırıncı dəfə gəldiyi zamandan isə yeddi ilə yaxın bir vaxt keçirdi. Buna səbəb, professorun anasına qarşı soyuqluğu deyildi, sadəcə, vaxtı olmurdu. Əvvəllər tələbəlik illəri, fizika laboratoriyalarında apardığı təcrübələr, sonra Moskvaya, Leninqrada elmi ezamiyyətlər... dissertasiyalar, daha sonralar bir-birinin ardınca yazdığı elmi əsərlər... gənc alimin başını o qədər qatmışdı ki, o, illərin bu qədər tez gəlib keçdiyinə təəccüb edirdi. Professor düşünürdü: «Hər şey vaxta baxsa, vaxt heç nəyə baxmaz!.. Yəqin ki, arvad da lap qocalıb əldən düşüb. Yetmiş dörd yaş xeyli ömürdür».

Buna görə də, o, anasını, həmişəlik olaraq, kənddən öz yanına aparmağa gedirdi: «Qoca arvaddır, tək-tənha kənddə qalıb nə qayıracaq?»

Anasının əzab-əziyyət içində keçən gəncliyi onu kədərləndirirdi. O, atasının vəfatından sonra keçən uşaqlıq illərini, ömrünü-gününü ona bağlayaraq, heç vaxt taleyindən şikayət etməyən anasının sakit çöhrə-

sini xatırlayır, «necə olub ki, bu yeddi ildə mən bir dəfə vaxt tapıb onu görməyə gəlməmişəm?..» deyə özünü məzəmmət edirdi.

Professor yerində narahat bir hərəkət edərək, üzünü şoferə çevirmədən:

– Sürəti artır, Murad! – dedi.

Hər gördüyü qeyri-adi hadisədən dərhal həyəcanlanmayan, soyuqqanlı təbiəti olan professor bu dəfə kəndlərinə girəndə dərin heyrət içində qaldı.

Bu heyrətə səbəb, kolxozlaşmadan sonra tikilən üstü qırmızı kirəmitli evlər deyildi. Evlərin çoxu yeddi il bundan əvvəl, o, kəndə gələndə də var idi. Onu təəccübləndirən bu evlərin qabağındakı bağçalar idi. Kəndlərinin yaşıllaşdırılması barədə bir-iki dəfə qəzetdə oxumuş, şəhərə gələn həmyerlilərindən eşitmişdi. Lakin o, böyük bir kəndi az zaman içərisində belə bağlı-bağatlı etməyin mümkün olduğunu təsəvvürünə gətirə bilməzdi. Axı, on il bundan qabaq Eyvazlılar kəndində qoca Novruzəli babanın qapısındakı təkcə tut ağacından başqa ayrı bir ağac tapılmazdı.

Professor kolxozçuların altı il bundan qabaq kəndə su çıxardıqlarını xatırladı və bir uşaq sevinci ilə:

– Görürsən, Murad, su nələr eləyir... – deyə cavan şoferinə tərəf döndü.

Professor öz qapılarında, ata yurdunda da təzə salınmış bağça gördü. On iki-on üç yaşlarında bir qız ağacları suvarırdı. Sarı saçları səliqə ilə daranıb arxasında hörülmüşdü. Başı açıq idi. Ayaqlarında corabsız nazik çust, əynində dizlərindən yuxarı, qısaqol və qar kimi ağ don var idi.

Maşından düşüb, həyətə girən professor ondan soruşdu:

– Bəs, Güllü arvad hanı, ay qız?

Qız professora ani diqqət yetirərək, birdən mirvari dişlərini göstərib, gülümsədi, sonra əlindəki beli ağaca söykəyib, quş kimi yüngül və şən hərəkətlə qaçaraq, onun qabağına gəldi:

– Xoş gəlmisiniz, professor, – deyib günəşdən yanmış balaca, qəşəng əlini irəli uzatdı. – Güllü nənə ferma ilə yaylağa gedib.

Professor onun əlini sıxaraq soruşdu:

– Sən kimin qızısan?

– Cəfər kişinin qızıyam. Güllü nənə gedəndə açarı bizə verdi ki, qapı-bacanızdan muğayat olaq.

Professor gülümsədi:

– Bəs, sən məni necə tanıdın?

– Nə üçün tanımıram? Qəzetdə sizin barənizdə yazmışdılar, şəkli-





niz də var idi... – deyə qız ciddi ifadə ilə cavab verdi. – Bura istidir, buyurun içəri...

Professor şoferlə birlikdə evlərinin artırmasına çıxıb, açıq qapıdan içəri girdi. Ev, doğrudan da, sərin idi. Arxa tərəfdəki açıq pəncərədən yel əsirdi. Hər şey təmiz və səliqəli idi. Görünür, qız, evi bir az bundan qabaq silib-süpürmüşdü. Professorla şofer üst-başlarının tozunu təmizlədikdən sonra pencəklərini çıxarıb, artırmada əl-üzlərini yuyaraq, gəlib içəridəki ağ örtüklü stolun ətrafında əyləşdilər.

Qız təzə ağ samovarı çıxarıb, artırmada od saldı. Sonra bağçadan bir boşqab yetişmiş gilənar yığıb gətirdi. Professora elə gəldi ki, ömründə belə dadlı gilənar yeməmişdir.

Qızdan soruşdu:

– Bu ağacları anam özü əkib?

– Özü əkib, mən də kömək eləmişəm.

Son sözləri deyəndə, qızın səsində qürur hiss olunurdu.

– Aha, – deyə professor qaşlarını yuxarı qaldırdı və zarafatla əlavə etdi: – Demək, sən Güllü nənənin qızı olmusan.

– Kənddəki qızların hamısı Güllü nənənin deyilmi? – deyə qız xəfifcə gülümsəyərək cavab verdi.

Professor özündə fərəhli bir yüngüllük və sevinc hiss edərək:

– Amma mən fikir edirdim ki, görəsən, arvad tək-tənha bu evdə nə qayırır, – dedi.

Qız, professora iti və soyuq nəzər salaraq, cavab vermədi.

Professor sözlərinin ona toxunduğunu hiss elədi.

– Biz Güllü nənənin yanına gəlməkdə, o da yaylağa getməkdə, – deyə şofer professora baxdı...

Professor düşüncəli halda cavab verdi:

– Elədir.

Qız, şoferə müraciətlə:

– Siz «Pobeda» ilə üç saatdan sonra fermada ola bilərsiniz, – dedi.

– Necə bəyəm, yaylağa maşın yolu var? – professor təəccüblə soruşdu.

– Bəli, var, keçən il yaxşı yol çəkmişik.

– Belə de... – professor sevincək saatına baxdı. – İndi üçdür, demək, dörddə çıxsaq, gün batanda Güllü nənənin qulluğunda olarıq.

Maşın bir saata qədər zəmilərin, biçənəklərin arası ilə yol gedəndən sonra, yuxarı, dağlara qalxmağa başladı.

Təzə çəkilmiş yol bəzən ilan kimi qıvrıla-qıvrıla sərt qayaların arasından şütüyüb keçir, bəzən alt tərəfi göz işlədikcə uçurum olan dağların döşü ilə gedir, bəzən də gömgöy düzənliyə çıxırdı. Elə bil ki, burada bahar təzə başlayırdı.

Dağın ipək kimi döşündə bitən otlar arasında saysız-hesabsız lalələr qızarırdı. Lap yaxından kəkliklərin qaqqıltısı eşidilirdi. Hava dağ nanəsi və kəklikotu ətri ilə dolu idi. Orda-burda, üstü yosunlu daşların çalalarında yağışdan qalmış sular parıldayırdı.

Bu tanış mənzərələr professorun xəyalını yenə də keçmiş günlərə qaytardı. O, yüklü atın üstündə bu yerlərdən çox gəlib keçmişdi. O zamanlar köç yolu üç-dörd günə gedərdi.

Professoru kədərli xatirələrdən qabağından keçdikləri əzəmətli qaya ayırdı. Qaramtıl-boz rəngdə olan bu qaya hamar divar kimi üç yüz metrə qədər göyə ucalır və sonra tağ kimi yolun üstünə əyilirdi.

Yolun kənarındakı dərin uçurumun üstündə bir qartal dövrə vuraraq, aşağıda qaralan meşələri hakim nəzərlərlə süzürdü.

Yavaş-yavaş axşam düşür, uzaq üfüqlərdəki sarı, çəhrayı buludlar tünd-bənövşəyi rəng alır, soyuq külək əsib, qayaların üstündə bitmiş seyrək otları, ağ çiçək açmış böyürtkən kollarını tərpədirdi.

– Deyəsən, bayaq sizin sözləriniz qızın xətrinə dəydi, – şofer qabağa baxa-baxa sükutu pozdu.

– Elədir, – professor dərin bir nəfəs aldı və sonra irəlidə qaralan dağlara baxaraq, düşüncəli halda əlavə etdi: – Mənim, anamı onların arasında tək hesab etməyim qıza toxundu!

Nəhayət, uçurumlu dərələr, dağlar zil qaranlıq içində görünməz oldu.

Maşın indi yola işıq sala-sala gedirdi.

Birdən onlar gecənin qaranlığı içində yüzlərlə işığın bir anda alışıb-yandığını gördülər.

– Bu tərəflərdə kənd yoxdur. Bu işıq gələn yer hara ola? – deyə professor dikəlib baxdı.

On beş dəqiqədən sonra bu işıqların Güllü nənəgilin fermasından gəldiyi məlum oldu.

Maşın yan-yana düzülmüş və elektrik işığında divarları ağaran evlərə çatıb dayandı. Professor maşının qabağına çıxan iki gənc oğlandan soruşdu:

– Bura haradır?

– Nizami kolxozunun fermasıdır, – deyə oğlanlardan biri cavab verdi.

Elə bu zaman yüz addım aralıqdakı evdən qoca qadın səsi eşidildi:

– Ay uşaq, gələn kimdir?

Professor o səsi dərhal tanıyaraq:

– Demək, düz gəlmişik, – deyib, həyəcanlı halda maşından düşdü. O, oğlanların müşayiəti ilə, elektriklə işıqlanmış balaca meydançadan keçərək, səs gələn evə tərəf getdi.





Professorla oğlanlar artırmaya çıxdıqda, ana əlini işıqdan qamaşan gözlərinin üstünə qoyub altdan yuxarı baxdı. Kirpiklərini bir neçə dəfə qırparaq diqqət elədi. Qədd-qamətli professor, adəti üzrə, başını dik tutaraq, anasına baxıb gülümsəyirdi.

Nəhayət, birdən:

– Bıy, başına dönüm... axır ki, gəldin... – deyə arvad qollarını açıb oğlunu qucaqladı.

Professor ananın tanış nəfəsini duydu. Ana üzünü, boyca özündən xeyli hündür olan oğlunun geniş və sağlam sinəsinə qoymuşdu. Ana oğlunun ürək çırpıntılarını eşidirdi. Bu, gənc və güclü bir həyatın səsi idi! Ana bunu hiss etdi. Bu qüvvətli sinəni, bu qədd-qamətli oğlu dünyaya həmin bu üzü qırışmış, balacaboy qadın vermişdi. Ana öz qüdrəti ilə fəxr edirdi!

Onun sümükləri çıxmış quru əlləri oğlunun qollarından yapışmışdı. Ana bu qollardakı əzələlərin qüvvət və sağlamlığını hiss edirdi. Sanki qarının bütün duyğuları bir anda baş qaldıraraq, fövqəladə bir sürət və həssaslıqla işləyirdi. Ana oğlunun təravət və gəncliyini bütün vücudu ilə duyurdu.

– Bir gəl, əyləş görüm, ay ana! – deyə oğlu onu böyük ortalıq stolunun ətrafında düzülmüş stullardan birinə oturdub, özü də yanında əyləşdi.

– Bu gün gözüm hey yol çəkirdi... heç demə, sən gəlirsənmiş... Uşaqlar həmişə səndən giley eləyirdilər, deyirlər oğlunun şəklini görürük, amma üzünü yox. Mən də deyirəm təki canı sağ olsun, əlbət işi-gücü çoxdur.

– Elədir, ana!.. İşim çox olur, – deyə oğlu astadan cavab verdi.

Ana, qara ipək yaylıq altından ağ saçları çıxmış başını ağır-ağır tərpədərək:

– Bilirəm, – dedi. – Hamımızın işi çoxdur.

Sonra bayaqdan bəri ayaq üstündə dayanaraq, onlara baxan oğlanlara:

– Niyə boy-boya vermisiniz, otursanız! – dedi.

Oğlanlar stulları çəkib oturdular.

– Bax, bu bizim fermanın mal həkimidir, – ana, qara kostyumun altından ağ köynək geyib yaşıl qalstuk bağlamış, qısaboylu, kök oğlanı göstərdi. – Kərim kişinin oğludur. Bu il məktəbi qurtarıb gəlib...

Sonra, başında günlüyü həddindən artıq uzun bir furajka, əynində qəhvəyi rəngli məxmərdən şalvar və köynək, ayaqlarında yumşaq tumacdan təzə tikilmiş uzunboğaz çəkmə olan gözəl oğlana tərəf dönərək:

– Bu gözü-başı qaynayan da fermanın müdiridir.

Bu sözləri deyərkən, ananın büriişük nazik dodaqları qaçdı. Oğlan da professora baxaraq qızardı.

– Sənin işlərin necədir, ana? – deyə professor gülümsədi. – Yenə də əvvəlki kimi sağa bilirsənmi?

– O gün rayon qəzetində şəkli çıxmışdı, – deyə baytar həkimi professora baxdı.

Üzündə daim bir uşaq təbəssümü olan ferma müdiri professora göz vurdu:

– Amma sağıcıların işi daha xarabdır.

– Mənə sataşır, – deyə ana cavab verdi. – Axı, biz, heyvanları maşınla sağmağa hazırlaşırıq. Dünən deyir ki, Güllü nənə, tay sənin qırmızı tuman geyən vaxtların keçdi. Elektrik yarım saatda inəklərin hamısını sağıb qurtaracaq.

Ferma müdiri eyni zarafatla dedi:

– İndi də başlayıb ki, gərək maşınlarla işləməyi öyrənəm. Deyirəm, əşi, qocalmısan, get otur evdə, istirahət elə.

– Bircə onu görməyəcəksən! – ana ferma müdirinin sözünü kəsdi. – Yetmişdən yuxarı yaşım var, yetmiş il də bundan sonra ömrüm olsa, yenə də bir gün qılçamı qatlayıb, evdə oturmaram! Mənə nə olub ki, siz iş görəsiniz, mən də kənarda durub tamaşa eləyəm...

Ana bu sözləri qızğın və acıqlı ifadə ilə deyirdi. Oğlu gözlərini qırpmadan ona baxırdı. Balaca və çəlimsiz bir qadın olan anadakı mənəvi qüvvət onda fərəh və heyrət doğururdu.

– Dur, bir gör şofer necə oldu? – deyə ana hirsli halda ferma müdirinə baxdı.

Oğlan gülümsəyərək, qalxmaq istəyirdi ki, şofer özü gəlib çıxdı.

– Keç əyləş, bala, – ana birdən-birə yumşalaraq, mehriban səslə şoferi dəvət edib, yer göstərdi.

– Bu işıq hardandır, ana? – professor başları üzərində yanan elektrik çırağına işarə elədi.

– Şırran kəndi yadındadırmı?

– Yadımdadır... Uşaqlıqda bir dəfə məni ora çöpçüyə aparmışdın.

– Elədir... – ana xəfifcə gülümsədi. – İndi onlar böyük kənd olublar, özlərinin də güclü bir stansiyaları var... İşığı onlardan alırıq.

– Vermirdilər, – deyə hər şeydə gülməli bir cəhət tapmağa çalışan ferma müdiri izah elədi. – Güllü nənəni saldıq üstlərinə. Kəhər madyanda o qədər gedib-gəldi ki, axırda razı oldular.

Bu zaman haradasa bir buzov mələdi. Ana ağarmış qaşlarını çataraq dinlədi.

– Qızıl inəyin balasıdır. Dərmanını verdinizmi?





– Saat onda verəcəyəm, – deyə baytar həkim qolundakı saata baxdı.

Sükut çökdü. Kolxozçuların üzləri birdən-birə tutqun, qayğılı ifadə aldı, sanki, nə isə, hansı bir qüvvətli daxili hiss isə onların xəyalını uzaqlara apardı. Ana dodaqlarını bir-birinə sıxaraq, qarşısındakı bir nöqtəyə baxırdı.

Ferma müdiri:

– Bu axşam da ota dilini vurmadı, – dedi.

Professor maraqla soruşdu:

– Nə olub ki?

– Bir yaxşı inəyimiz var, – deyə ferma müdiri cavab verdi, – iki gündür xəstələnib, heç bir şey yemir. Tapa bilmirik dərdi nədir...

O, bir neçə saniyə susaraq, kədərli halda əlavə etdi:

– Çox cins heyvandır. Bir naxır törəməsi var.

Ana dedi:

– Bayaq üzümə elə bikef-bikef baxdı ki, ürəyim birtəhər oldu. Heyvan olanda nə olar...

Ananın gözlərində sərt bir qayğı var idi. Bu ifadə professora uşaqlıqdan tanış idi. O, hər dəfə xəstələnəndə, ana, üzündə eynilə belə ifadə, kölgə kimi səssiz-səmirsiz otaqda dolaşar, başını qaldırıb heç kəsin üzünə baxmazdı. «Ana həmişə anadır!» deyə gənc professor düşündü. Sonra ferma müdirinə müraciətlə soruşdu:

– İnəklərin hamısı yerli cinsdir, yoxsa...

– Xeyr, Rusiyadan gətirilmiş inəklərimiz də çoxdur. Biz bu saat çalışırıq ki, inəklərimizin hamısı o cinsdən olsun. Özünüz bilirsiniz, bizim cins inəklər həm cır olur, həm də az süd verir. Amma onlar...

– O inəklər yerli şəraitə yaxşı alışırlarmı?

– Hamısı baxmaqdan asılıdır. Əvvəllər saxlamağın qaydasını yaxşı bilmirdik. Ona görə də xəstələnəni çox olurdu... Amma indi yavaş-yavaş öyrənirik... O günü iclasımız var idi. Güllü nənə təklif elədi ki, bir-iki adam, o cümlədən, Güllü nənəni də göndərək, gedib görsünlər onlar inəkləri necə saxlayırlar...

– Demək, Güllü nənə tezliklə yaradıcılıq ezamiyyətinə çıxacaq... – deyə professor gülümsədi.

– O nə deməkdir? – ana ciddi halda soruşdu.

– Necə ki, mən bir elmi əsər üzərində işləyəndə, Moskva, Leninqrad kimi böyük şəhərlərə gedirəm, oradakı məşhur alimlərin fikrini öyrənirəm, elə də...

– Bəs necə! – ana oğlunun nə demək istədiyini başa düşərək, onun sözünü kəsdi. – Sən öyrənmək istədiyin kimi, biz də istəyirik...

– Elədir, – deyə professor ciddi bir ifadə ilə başını tərpətdi.

Ana:

– Eh, sağlıq olsun, – dedi, – hələ öyrənməli o qədər işimiz var ki... Bilirsən, oğul, baxıb görürəm ki, dədə-baba dəblərilə kar aşmır. İstəyirsən sağıcı ol, istəyirsən çoban, elm lazımdır, maşın lazımdır. Ona görə çalışırıq fermamız mədəni olsun. İnəklərimiz işıqlı tövlələrdə saxlanılsın. Yadındadırmı, sən uşaq olanda bir ala inəyimiz var idi. Gündə on girvənkə süd verirdi, boynuna gözmuncuğu bağlamışdım ki, nəzərləməsinlər; amma indi on girvənkə ilə meydana çıxmaq olmaz!

Ana vəcdlə danışırdı. Birdən ferma müdiri gülümsəyərək:

– Ay arvad, – dedi, – başın danışığa qızışıb, daha demirsən ki, qonaqlar acdılar, yol gəliblər...

– Bıy, başıma xeyir... Doğru deyirsən, – deyib ana tələsik ayağa qalxdı.

Yeməkdən sonra ferma müdiri ilə baytar həkimi şoferi də götürüb yatmağa getdilər. Ana oğluna artırmadakı çarpayının üstündə yer saldı. Professor soyunub yatağa girəndən sonra ana onun yanında oturdu:

– Ay oğul, – dedi, – sənin də belə subay gəzməyin mənə bir dərd olub... Axı, nəyi gözləyirsən? Şükür, böyük alim olmusan, adın-sanın... Bir yaxşı adam tap, gəlim səni evləndirim. Həmişə yarı canım qalır sənin yanında. Deyirəm, görən nə yedin, nə içdin, necə rahat oldun...

– Narahat olma... Adam taparıq...

– Bəs, axı, nə vaxt?

– Lap tez! – professor gülümsəyib əsnədi.

– Təki olsun... ay bala, – deyib ana ayağa qalxdı.

– Yat, yorulmusan. Səhər danışarıq.

Ana işıqları söndürüb otağa girdi.

Dağ güllərinin ətri ilə dolu xəfif yel əsirdi. Dörd-beş günlük təzə Ay üfüqdə mavi duman içində parlayaraq, şiş dağın zirvəsindən o yana aşmaqdaydı. Hər tərəf sükut içindəydi. Yalnız, haradasa, lap yaxında olan bulağın incə səsi eşidilirdi...

Professor, ana əlləri ilə tikilmiş və kənd qoxusu verən ipək yorğana bürünməkdən şirin bir zövq duya-duya yuxuya getdi.

İki gündən sonra o, öz gəlişinin əsas məqsədi barəsində, yəni, anasını həmişəlik öz yanına aparmaq istəməsi barədə Güllü qarıya heç bir söz demədən qayıdıb getdi...

*1951*

## GÜLAÇAR

Üç tərəfdən qalın meşələr, bir tərəfdən isə uçurumlu dərə ilə əhatə olunmuş dağın üstündəki geniş açıqlıqda böyük taxta zavodu tikilirdi. Yük maşınları bir neçə ay bundan qabaq çəkilib qurtarmış şose ilə hər gün buraya tikinti materialları, işçilər üçün yemək-içmək daşıyırdı.

Zavodun ətrafında işçilər üçün yaşayış binaları, hamam, qiraətxana tikilirdi. Aşağı dərədən axan çayın üstündəki su-elektrik stansiyasından tikinti sahəsinə işıq çəkilmişdi.

Gələcəkdə buranın balaca bir qəsəbə olacağı nəzərdə tutulurdu. Binaların hələlik ikisi hazır idi. Bunlardan birində tikinti rəisi Əşrəf Sultanov, o birində baş mühəndis Cəmil öz ailəsi ilə olurdu. Qalan işçilər göbələk kimi yan-yana düzülmüş ağ brezent çadırlarda yaşayırdılar.

Aprelin axır gecələrindən biri idi. Əşrəf Sultanovla baş mühəndis Cəmil böyük yazı stolunun arxasında əyləşib, son rübdə görülmüş işlərə yekun vururdular. Rəis qırx səkkiz yaşında ucaboylu, qarabəniz bir kişi idi. Tünd-qəhvəyi rəngli yun parçadan frenc və şalvar geymişdi. Ayaqlarında bahalı tumacdan uzunboğaz çəkmə var idi. Çallaşmış cod saçlarını yana daramışdı.

Cəmil isə, otuz dörd yaşında, ortaboylu, enlikürəkli, əzələləri dəmir kimi möhkəm bir adam idi. O, sürməyi rəngli zərif parçadan kostyum geymişdi. Daim qayğılı görünən qonur gözlərindəki ağıllı ifadə dolu çöhrəsinə xüsusi bir gözəllik və ciddiyyət verirdi. Yumşaq, xurmayı saçları pərakəndə halda yana verilmişdi.

Əşrəf Sultanov hesabı qurtarıb, onu kağızdakı rəqəmlə tutuşdurduqdan sonra qəddini düzəldərək əsnədi, sonra şalvarının cibindən iri saatını çıxarıb:

– Daha bəsdir, – dedi, – qalanını səhər hesablarıq, saat birə işləyir.

– Yaxşı, qalsın, – Cəmil altındakı stulu cırıldadıb ayağa qalxdı və adəti üzrə, sağ əli ilə saçlarını yana verdi.

Sonra ahəstə səslə:

– Sabah mən uşaqlardan bir neçəsini qum gətirməyə göndərəcəyəm, – dedi, – qorxuram çay daşsın, sonra qalaq məəttəl. Qum ehtiyatımız azalıb.

– Hə, göndərmək lazımdır. Bu gün meteoroloji stansiya da xəbər verirdi ki, bərk yağıntı gözlənilir.

Əşrəf Sultanov qalxıb, sağ tərəfdə balaca stolun üzərinə qoyulmuş «Ural»ı işə saldı. Mahnı səsi otağa dolaraq, gecənin sükutunu pozdu. Hər ikisi ayaq üstündə dayanıb, bir müddət mahnını dinlədi. Cəmilin qaşları çatılmışdı. Əşrəf Sultanov ona diqqətlə nəzər salıb, soruşdu:

– Sənubər darıxmır ki?

– Yox, başı işə yaman qarışıb.

– Elə yaxşıdır. İş bütün dərdlərin dərmanıdır.

Əşrəf Sultanov stolun üstündəki gümüş portsiqarından bir papiros götürüb yandırdı, öz-özü ilə danışırmış kimi dedi:

– Kim bilir, bəlkə onun səsi yenə də açıldı?

– Ağlım kəsmir. Xəstəlik boğazının səs tellərini həmişəlik şikəst edib. Bakıda, Moskvada ən yaxşı həkimlər baxdılar. Hamısı da bu fikri təsdiq etdi.

– Heyf... Onun səsi möcüzə idi. Yadımdadır, mən Bakıda birinci dəfə ona qulaq asanda, heyrətimdən donub qalmışdım. Mən hələ indiyə kimi o qədər güclü, o qədər məlahətli səs eşitməmişəm.

Cəmil bir neçə dəfə əlini saçına çəkdi. O həmişə darıxanda, ya fikirli olanda belə edərdi. Əşrəf Sultanov bunu bilirdi. Ona görə də, dərindən nəfəs alıb:

– Nə edəsən, dünyadır, hər şey olur, – deyə söhbətini kəsdi.

– Gecəniz xeyrə qalsın.

Cəmil bu sözləri deyib, ağır addımlarla otaqdan çıxdı.

Əşrəf Sultanov var-gəl edə-edə fikrə getdi. Cəmilin ailə həyatında baş vermiş bədbəxtlik onun qəlbini ağrıdırdı. Bir zaman fövqəladə səsi ilə dinləyənləri heyran edən o gənc müğənninin taleyi onu yandırırdı.

Sonra Əşrəf Sultanov kağız-qələm götürüb, Bakıda həkim olan arvadına məktub yazmağa başladı. O, xoşbəxt ata idi. İki oğlunun biri Moskvada hərbi akademiyada oxuyurdu. O biri isə, Bakı neft trestlərinin birində baş mühəndis işləyirdi. Əşrəf Sultanovun iyirmi səkkiz illik ailə həyatında qanqaraldan bir əhvalat olmamışdı.

Cəmil, Əşrəf Sultanovun otağından çıxanda Ay meşələrin ardına enmiş, çölləri xoş bahar qaranlığı bürümüşdü. Yalnız yuxarı tərəfdəki böyük çadırın qabağında bir ocaq hələ də közərirdi. Onun yanında iş-





ləmək üçün dünən tikintiyə gəlmiş bir dəstə qız oturmuşdu. Sönməkdə olan ocağın zəif şöləsi onların çöhrələrini işıqlandırırdı.

Cəmil evlərinə çatıb qapını üsulluca döydü. Ayaq səsləri eşidildi. Sonra qapı açıldı. O, içəri girib, arvadının elektrik işığında daha da solğun görünən zəif və arıq üzünə baxaraq:

– Deyəsən, çox gec gəldim? – dedi.

Sənubər sakit və mehriban səslə:

– Eybi yoxdur – dedi. – Mən darıxmırdım. Kitab oxuyurdum.

Sənubər iyirmi səkkiz yaşında, ortaboylu, arıq bir qadın idi. Yaraşıqlı ağzının kənarlarında xırda qırışlar görünürdü.

Sənubər ərinin pencək və qalstukunu alıb asaraq, stolun üzərinə qoyulmuş yeməklərin üstünü açdı. Boşqablar, çəngəl-bıçaq, təzə dərilmiş göy-göyərti...

– Bu gün uşaqlar dedilər ki, sabah qum üçün çaya gedəcəklər, – Sənubər ərinə baxdı.

– Hə, necə bəyəm?

– Mən də getmək istəyirəm.

– Qorxuram yorulasan. Yollar pisdir.

– Yorulmaram.

– Onda etiraz eləmirəm.

Sənubər cəmi iyirmi beş gün idi ki, uzun və nəticəsiz müalicədən sonra ərinin yanına qayıtmışdı. İndi burada Əşrəf Sultanovun düzəltdiyi və hələlik çadırda yerləşən balaca kitabxanada işləyirdi – bu işi o özü istəmişdi.

İlk zamanlar Əşrəf Sultanov da, Cəmil də onun tezliklə darıxacağını güman etmişdilər. Lakin belə olmadı. Vaxtilə hər yerdə gurultulu alqışlarla qarşılanan o məşhur müğənni indi bu uzaq dağlardakı kiçik və sadə vəzifəsində həvəslə işləməyə başladı. O, kitabxana işçisi olmaqla bərabər, eyni zamanda, fəal bir təşviqatçı idi: fəhlələrlə söhbət edir, qəzet və jurnallarda təsadüf etdiyi maraqlı xəbərləri onlara oxuyur, beynəlxalq vəziyyətə, cari məsələlərə dair suallara həvəslə cavab verirdi. Tikintidə işləyənlər Sənubəri, qiyabi də olsa, çoxdan tanıyırdılar. İndi gənc müğənninin səsinin xəstəlik nəticəsində tutulması onların ürəyində dərin bir təəssüf hissi oyadırdı. Hərə bir vasitə ilə ona öz hörmətini ifadə etməyə çalışırdı.

Bu sadə adamların hamısı təbiətən şair idi. Hamısı musiqi pərəstişkarı idi. Hamısında sənətə, sənətkara böyük məhəbbət var idi.

Bu yerlərin əzəmətli dağları, dəniz kimi geniş və mavi dərələri, qayalar altından çağlayıb çıxan göy bulaqları ilə bu adamların saf, sadə təbiətləri arasında ahəngdarlıq duyulurdu. Onların qəlbi təbiətin bu ecazkar gözəllikləri ilə dolu idi.

Gecələr ocaq başında halay vurub oturanda, gündüz hörgü hörəndə və ya meşədə qoca palıd ağaclarını doğrayıb dirək hazırlayanda, söhbətin çoxu musiqidən, radioda oxunan muğamlardan gedirdi. Bəlkə buna görədir ki, Sənubər buraya gəldiyi lap ilk gündən özünü doğma ailəsindəki kimi hiss edirdi. Ona elə gəlirdi ki, qalın meşələr arasında zavod tikən bu adamları çoxdan tanıyır.

Günəş konusa bənzəyən Sağsağan dağının ardından qalxıb meşələri, tikinti sahəsini işıqlandırırdı. Axşam azca yağış yağmış, yeri və ağacları islatmışdı. Torpaqdan rütubət qoxusu gəlirdi. Yaşıl bahar otlarının, yabanı alma-armud çiçəklərinin üzərinə düşmüş şeh günəş işığında almaz kimi sayrışırdı.

Kəpənəklər alabəzək qanadlarını aramsız titrədərək uçurdular. Bal arıları vızıltı ilə çiçəkdən-çiçəyə qonurdular. Tikintinin kənarındakı dikdirdə bitmiş lalələrin iri və qırmızı piyalələrində, yosunlu və boz daşların çalalarında axşamdan qalmış yağış suyu güzgü kimi parıldayırdı. Meşə ağaclarının gövdələrində yaş göbələklər görünürdü. Səhərin gözü yenicə açılırdı, ancaq sahədə iş başlanmışdı. Hörgü hörülür, qum ələnir, daş yonulur, dülgərlik işləri aparılırdı. Orda-burda cavan fəhlələrin zarafat və gülüş səsləri eşidilirdi. Onlar zavodun əsas binasını və işçi mənzillərinin çox hissəsini payız yağışları başlanana qədər tikib qurtarmağa cəhd edirdilər. Yaxındakı kəndlərin kolxozları zavodun tikilməyinə sevinərək, hər cür köməyə hazır olduqlarını bildirir və böyük həvəslə işçi qüvvəsi göndərirdilər.

Cəmilin əmri ilə çaydan qum daşımaq üçün ayrılmış cavan fəhlələr bir-birinə macal vermədən gülə-gülə, zarafatlaşa-zarafatlaşa qalxıb böyük yük maşınına doluşdular. Cavan briqadir, Sənubərə kabinədə oturmağı nə qədər təklif etdisə də o razı olmadı. Cəmilin köməyi ilə kuzova çıxdı. Skamyada oturmuş qızlar ona yer verdilər. Maşın yola düşdü.

– Jaketini gey! – deyə Cəmil arxadan səsləndi.

Sənubər yun jaketini əyninə geydi.

Maşın, ağaclar arasından dolana-dolana aşağı dərəyə enən yol ilə gedirdi. Yolun üst tərəfi qayalıq idi. İri sal daşlar üzərində fındıq və palıd ağacları, böyürtkən kolları bitmişdi. Yolun alt tərəfində ucsuz-bucaqsız meşələr uzanırdı.

Maşın getdikcə, Sənubər gözlərini qıyıb, üzünə dəyən təzə və ətirli havadan xoşlanırdı. Cavanlar maraq və hörmətlə ona baxır, pıçıltı ilə söhbət edirdilər. Lakin iki nəfərin diqqəti başqa yerdə idi. Bunlardan biri qollarını yanındakı yoldaşlarının qoluna keçirərək ayaq üstündə dayanmış on səkkiz yaşlı, ucaboy, yaraşıqlı bir oğlan idi. Kəmər





çəkilmiş beli o qədər incə idi ki, necə deyərlər, üzükdən keçərdi. Bu, yaxşı tar çalması ilə tikintidə məşhur olan bənna şagirdi Çərkəz idi.

İkinci oğlan isə, Çərkəzin qabaq tərəfində, xərəyin üstündə oturmuş on yeddi yaşlı Aşıq Hüseyn idi. O, uzun, güllü corab ilə yumşaq məst geymiş, şalvarının balaqlarını corabının içinə salmışdı. Əynində məxmər köynək, başında gümüşü çal dəridən qazağı papaq var idi. Çərkəz ona sataşaraq:

– Aşıq, – deyirdi, – bütün vücudun bir yana, papağın da bir yana...

– Bura bax ey, papaqla zarafat olmaz! – deyə Hüseyni özündən çıxardı.

Onun bığ yeri təzəcə tərləyirdi. Yay kimi yuxarı dartılmış qara qaşları ilə ucu bir az dik burnu Hüseynin üzünə təşəxxüslü ifadə verirdi. Onun sərt və coşğun rəftarından tikintidə kimsə inciməzdi. Üstünə hirsləndiyi adam gülümsər və güzəştə gedərdi.

Hüseynin müharibədə həlak olmuş atası Qurban da aşıq imiş. İndi oğlundakı sədəfə tutulmuş balaca saz ondan qalmışdı.

Hüseyn də bənna şagirdi idi. Çərkəz zavodun əsas binasında usta Qaranın yanında, Hüseyn isə, işçilər üçün tikilən evdə, usta Behbudun əli altında işləyirdi. Hər ikisi çalan olsa da, ulduzları barışmırdı. Çünki Çərkəz hədc indən artıq zarafatcıl, Hüseyn isə, tündməcaz idi. Buna baxmayaraq, bir-birilərini istəyirdilər. Elə gün olmurdu ki, bir-birilərindən xəbər tutmasınlar.

İndi bu iki cavan oğlanın gözləri Sənubərin yanında oturmuş gənc bir qıza zillənmişdi. Sənubər bunu hiss edərək, dönüb həmin qıza baxdı və onların nəzərləri qarşılaşdı. Sənubər onun gözəl qara gözlərində özünə qarşı dərin bir maraq və məhəbbət duydu. Vaxtilə hamının görməyə can atdığı o məşhur müğənni bu cür heyranlıq ifadə edən baxışlara birinci dəfə rast gəlmirdi. Lakin əynində qırmızı güllü çit paltar, başında ağ cuna, ayaqlarında iplik corablı çust olan bu sadə və gözəl qızın müğənniyə dikilmiş nəzərində elə dərin, mehriban ifadə var idi ki, Sənubər özündə ona qarşı bir yaxınlıq və ünsiyyət hiss etdi.

– Adınız nədir? – deyə Sənubər ondan soruşdu.

– Gülaçardır.

– Dünən gələn qızlardansınız?

– Bəli.

– Nədə işləyəcəksiniz?

– Hörgü işində.

– Görürsən, Çərkəz, sizə nə yaxşı yoldaşlar gəlib! – Sənubər gülümsəyib, oğlana baxdı.

– Onlar burada nə iş görə bilərlər ki, Sənubər bacı! – deyə Çərkəz,

01/01–11

Gülaçara eyham vurdu. – Nərmə-nazik qızlardır. Kolxozda qalsaydılar, yenə qoyundan, keçidən sağardılar.

Gülaçar dinmədi. Onun böyründə oturan qısaboylu kök qız isə hirslənib:

– Sən öz qeydinə qal, – dedi, – nərmə-naziklikdə heç qızdan geri qalmazsan.

Hamı bərkdən gülüşdü, hətta, qaşqabağını tökmüş Gülaçar da özünü saxlaya bilməyib gülümsədi. Çərkəz deməyə söz tapmayıb qızardı. Tikintiyə gəldiyi gündən birinci dəfə idi ki, yoldaşları onun pərt olduğunu görürdülər.

– Sənin adın nədir? – deyə Sənubər həmin kök qızdan soruşdu.

– Sonabəyimdir, – qız bu dəfə mülayim və hörmətkar ifadə ilə cavab verdi. – Gülaçarla bir kənddənik.

– Sonra gülümsəyib əlavə etdi:

– Siz bir dəfə bizim kolxoza gəlmişdiniz.

– Doğrudanmı? Yəqin ki, konsertə gəlmişəm.

– Bəli...

Sənubər uzaqlara, ağ buludlar altında parlayan başı qarlı Murov dağına baxdı. Sonra Sonabəyimdən soruşdu:

– Kəndinizin adı nədir?

– Şehlidir.

– Hə, hə, yadıma düşür. Dörd il bundan qabaq mən ora gəlmişdim. Yaxşı bağlarınız var... Siz onda balaca olardınız.

– Çox da balaca deyildik...

Söhbət zamanı Gülaçarın üzü ürkək və narahat bir ifadə almışdı. Elə bil, qız, yoldaşının ehtiyatsızlıq edərək, bu köhnə xatirəyə toxunmasından təşvişə düşmüşdü.

– Bizim bu yerlər xoşunuza gəlirmi? – deyə o, Sənubərə müraciətlə söhbəti dəyişdi.

– Yerləriniz də xoşuma gəlir, onun qızları da.

Maşın dolama yollarla irəliləyirdi. Ağaclar çiçəkləmişdi. Meşə bahar səsləri ilə dolu idi... Böyürtkən kolları arasından çıxıb, yosunlu qayalardan tökülən suların şırıltısı təzə açılmış yarpaqlar arasında oxuyan quşların səsinə qarışaraq fərəhli bir musiqiyə çevrilirdi. Sənubər bu musiqini bütün vücudu ilə duyaraq həyəcanlanırdı.

Nəhayət, maşın, iri qayalara çarparaq, köpüklənə-köpüklənə axan çayın kənarına çatıb dayandı. Bura iki böyük dağın arası idi. Sağ tərəfdə əzgil, fındıq ağacları ilə başlayan meşə dağ yuxarı getdikcə qalınlaşırdı. Sol sahil isə, təxminən üç yüz-dörd yüz metr hündürlüyündə divar kimi dümdüz qayalıqdı. Açıq palıdı rəngdə olan bu qayalıq o qədər böyük və əzəmətli idi ki, altdan-yuxarı baxanda adamın gözü qaralırdı.





Cavanlar maşını qum ilə doldurdular.

– Cəld tərpənin, uşaqlar, çay daşacaq, – iyirmi dörd-iyirmi beş yaşlarında nazik, sarıbəniz bir oğlan olan briqadir dilləndi.

– Nədən bilirsiniz ki, çay daşacaq? – deyə Sənubər təəccüblə soruşdu.

– Suyun üzü ilə gələn çör-çöpə fikir verirsinizmi? Bu, daşqın əlamətidir. Yəqin yuxarıya yağır.

Sənubər dərə ilə çay yuxarı baxdıqda, uzaq dağlar üzərindəki qara buludları gördü. Elə bil ki, o buludlardan dağın döşünə gümüş bir tül sallanmışdı. Bu, yağış idi.

Sənubər də, bir kürək götürüb, kömək etmək istədi. Lakin, Çərkəz kürəyi zorla onun əlindən alıb:

– Qoymarıq. Mən sizin də əvəzinizə işləyərəm, – dedi.

– Siz kənarda durun, Sənubər bacı, – Sonabəyim də oğlanın sözünə qüvvət verdi.

Çərkəz ona tərs bir nəzər salaraq:

– Hə, – dedi, – bayaq mənə lağ eləyirdin. İndi görərik!..

– Yaxşı, görərik!

– Tez forslanma.

Sonabəyim iki oğlanın qumla doldurduğu xərəyin bir tərəfindən yapışdı (o biri tərəfindən Gülaçar tutmuşdu).

Üzündə daim gülməli ifadə olan gödəkboylu, enlikürək bir oğlan Çərkəzə sataşdı:

– Yox, aşna, bu qız sənin gözünün odunu yamanca alıb.

– Qızların dilləri olmasaydı, qarğa-quzğun basıb yeyərdi, – deyə Çərkəz qum dolu xərəyi maşına boşaltdı.

Maşın dolub yola düşdü. İkinci maşın gələnə qədər cavanlar xeyli qum kürəklədilər.

Çərkəzlə Aşıq Hüseyn arasında gizli bir yarış getdiyini Sənubər hiss edirdi. Onlardan hər biri Gülaçarın diqqətini özünə cəlb etmək, öz zirəkliyini qıza göstərmək istəyirdi.

Çərkəz, Sonabəyimin pörtmüş üzünə baxaraq gülümsədi. Qız bunu duyub:

– Nə var, – dedi, – yoxsa, elə bilirsən yorulmuşam? On gün belə işləsək, yenə də səndən geri qalmaram.

Qısaboylu, enlikürək oğlan:

– Sağ ol, yerli, – deyə Sonabəyimi təriflədi.

Çərkəz ona sarı dönərək soruşdu:

– Ə, Səftərəli, bu qız bəyəm sizin kənddəndir?

Enlikürək oğlan özünü çəkərək:

– Hə, bəs necə! – dedi.

11*

– Axı, deyirəm... Görünür, sizin kəndin suyundandır ki, hamınız belə kök olursunuz.

Bu dəfə Sonabəyimi od götürdü:

– Bura bax ey! Onun sənə dəxli yoxdur!

Çərkəz, qızın zəif damarını tapdığına sevinərək:

– Mən nə dedim ki, bacı? Bəyəm köklük pis şeydir? – deyə özünü sadədilliyə vurdu.

Sonabəyim yetmiş kilo olduğu üçün köklükdən acığı gəlirdi. Gülaçarın nazikliyinə həsəd apararaq:

– Bilmirəm bu zəhrimar ət məndən nə istəyir, – deyə özünü məzəmmət edirdi, – nə qədər az yeyirəm, yenə kökəlirəm...

Maşın səkkizinci dəfə qayıdıb gəldiyi zaman hava birdən-birə soyuyub qaraldı. Göy guruldadı, sonra elə yağış tökdü ki, ucundan tut, çıx göyə. Buna baxmayaraq, uşaqlar aramsız işləyirdilər və bir-iki dəqiqənin içində alt köynəklərinə qədər islanmışdılar.

– Tez olun!

– Ay gözünə dönüm, – deyə onlar bir-birini qızışdırır və zarafatlaşırdılar.

Çayın qıjıltısı indi boğuq gurultuya çevrilmişdi.

Sənubər plaşını geyib, palıd ağacının altında dayanmışdı. Birdən o, başları maşına qum doldurmağa qızışmış gənclərdən qırx-əlli addım yuxarıda böyük ağ bir kütlənin üzüaşağı hərəkət etdiyini gördü və nagahan bir qorxu içində dönüb qışqırdı:

– Uşaqlar, sel!

Cavanlar əl saxladılar. Sel nağıllardakı nəhəng əjdaha kimi fışıldaya-fışıldaya gəlirdi.

Gənclərin bir neçəsi, o cümlədən Çərkəz, kənara qaçmağa macal tapmayıb, maşına çıxdılar. Maşından aralı olanlar dönüb sahilə tərəf yüyürdülər. Onlardan dala qalmış kök Sonabəyim daşa ilişib büdrədi və qalxana kimi sel onu haqladı. Qız bütün gücünü toplayıb, sinəsinə qədər qalxmış suyun içi ilə quruya sarı qaçmağa başladı. Sel güc gələrək, az qalırdı ki, onu yıxsın. Sonabəyim özünü itirdi və birdən çığırdı:

– Batdım!

Maşının kuzovunda dayanmış Çərkəz özünü suya atdı. Sel ona çarparaq qeyzlə fışıldadı. Lakin cavan oğlan fövqəladə bir cəsarətlə suyun içində irəliləyərək qıza çatdı və onun qolundan bərk yapışıb yıxılmağa qoymadı.

Sahildən bunu görən oğlanlardan ikisi də özünü suya vurub, onlara tərəf getdi, biri Çərkəzin, digəri də Sonabəyimin qoluna girdi. Beləliklə, onlar köməkləşib sağ-salamat sahilə çıxdılar. Taqətdən düşmüş Sonabəyim ayaq üstə dayana bilmirdi.





Çərkəz üstünün suyunu sıxa-sıxa ona baxdı və bayaq çayın içində qızın «batdım» deyə bağırmağını xatırlayıb pıqqıldadı. Ancaq rəngi qaçmış Sonabəyim bu dəfə mehribanlıqla gülümsəyib, oğlana cavab vermədi. Yağış get-gedə yavaşıyıb, çiskinə çevrildi. Sel isə, daha da şiddətlənmişdi.

İndi bütün nəzərlər çayın ortasında qalmış maşına zillənmişdi. Səftərəli, Hüseyn və başqa bir fəhlə kuzovda dayanmışdılar. Onlar yaxşı üzmək bilsəydilər belə, indi daha özlərini suya ata bilməzdilər. Motorun üstündən o tərəf-bu tərəfə atılan qəzəbli dalğalar onları daşlara çırpıb parçalayardı.

Sahildə vurnuxan cavan şofer ilə briqadir başlarını itirmişdilər. Səftərəli əllərini ağzına qoyub, nə isə çığırırdı. Selin gurultusu onun səsini batırırdı. Səftərəlinin nə demək istədiyini hamıdan əvvəl Sənubər başa düşdü. O çığıra-çığıra deyirdi:

– Ə, uşaqlardan birini qaçırdın tikintiyə, beştonluq maşınla zəncir göndərsinlər. Tez olun, hey!..

Briqadir sahildə durmuş gənclərdən soruşdu:

– Kim gedə bilər?

– Mən! – Çərkəz şapkasının suyunu çırpıb başına basdı.

– Sən yüyürməkdə mənə çata bilməzsən, – deyə ortaboylu, arıq, boğazı armud saplağı kimi nazik və uzun olan bir oğlan Çərkəzi kənar edib, qabağa keçdi.

– Mən gedirəm! Meşənin bu tərəfindən kəsmə yol bilirəm.

– Elə isə yüyür.

Oğlan dovşan kimi tullanıb, iri yarpaqlarından su süzülən fındıq ağacları arasında gözdən itdi. Çərkəz onun ardınca qışqırdı.

– Ayə, Kərim, selavdan keçmə. Taya daşın üst tərəfindən aş.

Çay getdikcə qalxırdı. Motor tamam suyun içində idi. Birdən sel güclü zərbə ilə az qaldı maşını aşırsın. Gənclər yıxılmamaq üçün bir-birindən yapışdılar. Sənubərin rəngi ağappaq oldu. O, dəhşət və qorxu içində üzünü kənara çevirdi.

Çaydakı yoldaşlarının və maşının heç bir hərəkətini nəzərdən qaçırmayan Çərkəz:

– Ayə, ayaqqabılarınızı çıxardın, – deyə onları xəbərdar etdi.

Səftərəli vəziyyətin ciddi olduğunu hiss edib, diqqətlə selə baxdı.

– Ürəkli olun, ə, özünüzü itirməyin! – deyə Çərkəz təkrar səsləndi.

– Özümüzü niyə itiririk, ə? – Bayaqdan bəri susan Hüseyn təşəxxüslə cavab verdi. – Bir gün doğulmuşuq, bir gün də öləcəyik də!

Maşın axına qarşı yanakı durduğundan, sel onun bir tərəfini tez-tez

qaldırıb-salırdı. Sahildəkilər yoldaşlarına kömək edə bilmədikləri üçün təşviş və həyəcanla o yan-bu yana qaçırdılar.

Elə bu zaman uzaqdan maşın fiti eşidildi. Kimsə qışqırdı:

– Gəldilər!

Hamı, beştonluq yük maşınının ağaclar arasından çıxaraq, sürətlə çaya sarı gəldiyini gördü.

Cəmil ilə gəlmiş dörd fəhlə və Kərim maşından düşdülər. Fəhlələr beştonluğa bağlanmış zəncirin o biri ucunu çaydakı maşına tulladılar. Cavan fəhlə ilə Səftərəli cəld zəncirdən yapışdılar. Sonra onu suyun içində olan motorun qabaq tərəfinə keçirdilər.

Maşın arxası çaya, üzü meşəyə tərəf idi. Sahildəki şofer beştonluğu hərəkətə gətirdi suyun içindəki maşını sahilə doğru çəkdi, bayaqdan bəri selin əsir etdiyi cavanlar tullanıb qırağa çıxdılar.

Quma gedənlər, islanıb yorulmaqlarına baxmayaraq, şən və gümrah halda axşama bir az qalmış gəlib düşərgəyə çatdılar. Tapşırıq yerinə yetirilmişdi.

Sənubər o gecə özünü daha yüngül hiss etdi. Yağışı, seli, hazırcavab Sonabəyimin qorxmuş üzünü, Çərkəzin cəsurluğunu, təhlükə qarşısında cavanların mərdliyini, gözəl Gülaçarın ona dikilmiş məhəbbət dolu baxışlarını məmnuniyyət hissi ilə xatırlayırdı.

Gülaçar ilə Sonabəyim Hüseyngil tikən binada qum ələyir, xərəklə ustaya palçıq daşıyırdılar. Buna görə də, Çərkəzin yarı canı o binada qalmışdı. Fürsət tapan kimi Hüseynin yanına qaçıb, bir gözü qızda, onu söhbətə tuturdu.

Ağsaqqal, gümrah və xoşsifət qoca, səksən iki yaşlı usta Qara bu işə təəccüb qalaraq:

– A bala, – deyirdi, – bircə məni başa sal görüm, axı, usta Behbudun yanında nə itirmisən ki, dəqiqədə bir qaçırsan ora?

Çərkəz özünü eşitməməzliyə vurub, ustanın bu sualına cavab vermirdi...

Usta Qara altmış il idi ki, ev tikirdi. Bu müddət ərzində onun əlinin altından çox ustalar çıxmışdı. Usta Qara bununla fəxr edirdi. Bir gün o, Çərkəzi yanında oturdub:

– Bilirsənmi, – dedi, – cəld işləmək, tapşırığı vaxtında yerinə yetirmək vacib məsələdir. Amma yadından çıxarma ki, bənnalıq sənətdir. Sənətkarın işi gərək güntək işıq versin. Sən od kimi tərpənirsən, bu yaxşıdır. Amma işin nazik yerlərinə fikir vermirsən, bu pisdir!

Usta Qaranın bu nəsihəti Çərkəzi uzun müddət düşündürdü.

Gənclər işdən sonra qiraətxana yerləşən böyük çadıra, Sənubərin başına yığışardılar. Onlar burada kitab, qəzet oxuyar, radioqəbuledicidə verilən konsertlərə, siyasi xəbərlərə qulaq asardılar. Sənubər bu





gənclərin arasında özünü xoşbəxt hiss edər, gəzib-gördüyü şəhərlər haqqında, böyük artistlərin, məşhur xanəndələrin həyatı haqqında onlarla maraqlı söhbətlər edərdi. Bəzən sevdiyi hekayə və şerləri onlar üçün oxuyardı.

Beləliklə, Sənubərin çadırı bu uzaq dağlarda balaca bir mədəniyyət mərkəzinə çevrilmişdi.

Tikinti rəisi Əşrəf Sultanov da boş vaxtlarında çadıra gəlib, Sənubərin söhbətlərinə qulaq asar və təzə çıxan kitabların hamısını şəhərdən aldırıb qiraətxana üçün gətirdərdi.

Bir gün axşamçağı Sənubər ilə Cəmil meşəyə gəzməyə çıxmışdılar. Qüruba enən günəşin şüaları maili uzanaraq, təzə yarpaqlanmış meşə ağaclarının baş tərəfini işıqlandırırdı.

Sənubərlə Cəmil tər otların üstü ilə yavaş-yavaş gəlib lap uçurumun kənarına çıxdılar. Hava sakit və ılıq idi. Dərə səma kimi mavi və dərin görünürdü. Onun dibində çayın qüdrətli gurultusu eşidilirdi. Sənubərlə Cəmil dinməzcə dayanıb tamaşa edirdilər. Təbiətin gözəlliyi Sənubərin qəlbində səssiz mahnılara çevrilirdi. Xəstəlik onun səs tellərini xarab etsə də, təbiətindəki sənətkarlığı, dühanı öldürə bilməmişdi. Dühа isə, ancaq keçmiş xatirələrlə yaşaya bilməz! Dühа yaratmalıdır! Sənubərin qəlbi, istedadı yaşayıb-yaradırdı. O, təbiətdən aldığı intibahları, onların sirr və gözəlliklərini daha əvvəlki səsi ilə ifadə edə bilməsə də, qəlbində yaşadırdı!

Birdən yaxınlıqda oxunan mahnı eşidildi. Gənc ər-arvad diksinərək ətrafa baxdılar. Heç kəs görünmürdü. Səs meşədən gəlirdi. Onlar sakitcə mahnını dinləyirdilər. Mahnı isə, çox gözəl, məlahətli səslə oxunurdu.

Sənubərin gözləri alışıb-yanırdı.

– Bu kim ola? – deyə o, ərindən soruşdu.

– Mən bu səsi birinci dəfədir eşidirəm.

Mahnı kəsildi. Az sonra ağaclar arasından bir dəstə qız çıxdı. Onlar Cəmillə Sənubərə salam verərək, keçib-getmək istədilər.

– Qızlar, bir dayanın görüm! – Sənubər həyəcanla səsləndi. Sonra Gülaçardan:

– Oxuyan hansınızdınız? – deyə soruşdu.

Gülaçar cavab vermədi.

Sənubər səbrsizliklə bir də soruşdu.

– Oxuyan kim idi?

Sonabəyim Gülaçara baxıb:

– Niyə dinmirsən, ay qız? – dedi. – Oxumaq bir eyib iş deyil ki?

Sənubər utanıb-qızarmış Gülaçara yaxınlaşıb, onun əlindən tutdu:

– Niyə indiyə qədər bunu məndən gizlədirdin?

– Utanırdı, – deyə Sonabəyim Gülaçarın əvəzinə cavab verdi.

Lakin Gülaçarın indiyə qədər öz səsini Sənubərdən gizlətməsinə səbəb, əlbəttə, təkcə utancaqlıq deyildi. Bir zaman dinləyənləri heyran edən, indi isə, o qüdrətli səsindən əsər qalmayan müğənninin yanında oxumağa Gülaçarın ürəyi gəlmirdi.

– Gəlin bir az oturaq, – Sənubər alçaq və yastı qayanın üstündə əyləşərək, Gülaçarı da çəkib öz yanında oturtdu.

Hava bayaqkı kimi sakit və aydın idi. Meşədəki quşların nəğməsi kəsilmişdi. Çayın gurultusundan başqa səs-səmir eşidilmirdi.

– Bir şey oxu! – deyə Sənubər Gülaçara müraciət etdi.

– Lazım deyil, – qız utanaraq başını aşağı saldı.

Sonabəyim onu məzəmmət etdi:

– Sənubər bacının sözündən çıxırsan?

Gülaçar susurdu. Nəhayət, başını qaldırdı:

– Nə oxuyum?

– Muğamlardan hansını bilirsən?

– Heç birini yaxşı bilmirəm.

– «Qarabağ şikəstəsi»ni necə?

Gülaçar dinmədi. Sənubər gülümsəyərək:

– Qarabağlılar gərək hər şeydən qabaq «Qarabağ şikəstəsi»ni bilsinlər, – dedi, – bir-iki ağız de görək.

Gülaçar gözünü uzaqda qaralan dağların üzərinə səpələnmiş ulduzlara dikdi. Üzü ciddi və qayğılı ifadə aldı. Elə bil ki, o, uzaqlarda nəyi isə görür, duyur və həyəcanlanırdı. Qaşları çatıldı. Gözlərində minlərcə odlu zərrələr parladı. «Qarabağ şikəstəsi» səsləndi. Çayın qımıltısı eşidilməz oldu. Sanki dərənin o tayında qoyun-quzu kimi yan-yana yatışan dağlar, qaranlıq meşələr nəfəslərini çəkib, o səsi dinlədilər.

Qızın səsində coşğun bir təbiilik var idi. Bu səs bəzən zilə qalxaraq uzanıb gedir, bəzən təzə açılmış çiçəklər üzərində əsib keçən xəfif yaz yeli kimi incəlirdi. Sənubər dərin həyəcan içində idi. Qız şikəstəni bitirdi. Sənubər onu özünə tərəf çəkib üzündən öpdü. Sonra ərinə sarı dönərək:

– Bu xəzinədir, bulaqdır... – dedi.

Gülaçarın yoldaşları sevinclə bir-birinə baxdılar.

Sonabəyim:

– Neçə vaxtdır deyirəm, bir Sənubər bacı üçün oxu, sözümə baxmır. Ancaq, Sənubər bacı, bunun bir nöqsanı var ki, oxumağın qaydasını bilmir. Muğamata bələd deyil. Gərək siz ona bir az kömək edəsiniz.

Bu zaman yaxındakı yolda daş daşıyan iki yük maşını göründü. Maşınlar yoldan azca kənarda oturmuş qızların üstünə işıq saldı. Arxadakı maşında olan Çərkəzlə Səftərəli yığıncağı görən kimi yerə tullandılar.





Çərkəz yaxın gəlib salam verdi. Sonra da kənarda oturan qızdan:

– Bayaqdan oxuyan kim idi? – deyə maraqla soruşdu. – Biz onun səsini lap uzaqdan eşidirdik.

Sənubər gülümsədi:

– Sabah axşamçağı tarını da götürüb gələrsən bizə, onda oxuyanın kim olduğunu bilərsən, – dedi.

Çərkəz, Sənubərin səsinin açıldığını güman edib, daha bu barədə sual verməyə cəsarət etmədi. Soruşdu:

– Bəs, qaval lazım deyil?

– Əlbəttə, lazımdır.

– Onda deyin, bu Səftərəli də qavalını götürüb gəlsin.

Sənubər o gecə uzun zaman yata bilmədi. Gülaçarın səsi hələ də onun qulaqlarında cingildəyirdi. O səsdəki qüvvət, təravət və rəngarənglik Sənubəri həyəcanlandırırdı. Bu gənc və qüvvətli səs ona öz səsini xatırladırdı.

Ertəsi gün axşamüstü Sənubər Gülaçarı öz evinə aparıb, Çərkəzlə Səftərəlini də çağırdı. Bir neçə xalq mahnısı çaldırdı, Gülaçarı oxutdu. Dünən axşam meşədə oxuyanın Gülaçar olduğunu görən Çərkəz həyəcan içində idi.

Musiqi savadı olmayan Gülaçarın ifasındakı dərinlik, təbiilik və sərbəstlik Sənubəri heyran etmişdi. Gülaçar oxuduqca o, qızın səhvlərini düzəldir, hər bir rəngin öz yerində olmasına çalışırdı. Gülaçara isə, kiçik bir işarə kifayət edirdi. Sənubər indi onun yalnız səsinə deyil, zehninə, görüb-eşitdiklərini qavramaq istedadına da heyrət edirdi.

Bu gündən etibarən Gülaçar işdən sonra tez-tez Sənubərin yanına gəlir, o da bildiyi nəğmələrin sözlərini yazaraq, Gülaçara əzbərlədir, qıza yeni-yeni mahnılar öyrədir, ucuz və lazımsız rənglərdən onu çəkindirirdi.

On beş-iyirmi günün içində Gülaçar təəccüb ediləcək bir sürətlə irəli gedərək, vaxtilə Sənubərin oxuduğu mahnıları eyni qüvvət və gözəlliklə ifa etməyə müvəffəq olmuşdu.

Sənubər, Gülaçarla məşğul olduğu saatlarda o biri gəncləri də yoxlayırdı. Səftərəlinin qaval vurmasına söz yox idi. Daha sonra onun başqa bir məharəti də meydana çıxdı. Məlum oldu ki, Səftərəli xalq qaravəllilərinin, Molla Nəsrəddin məzhəkələrinin əvəzsiz ifaçısı imiş. «Deyingən sağıcı arvadla dəli inəyin əhvalatı»nı danışdıqda hamı gülməkdən uğunub gedirdi.

Sonabəyimin və daşqın vaxtı kömək dalınca qaçan Kərim adlı həmin arıq oğlanın rəqsləri isə başqa aləm idi.

İşlərin bu cür olduğundan xəbər tutan Aşıq Hüseyn bir gün Səftərəlini yanlayıb:

– Ə, Səfi, o məclisinizə bizi niyə çağırmırsınız? – deyə təəxxüslə gileyləndi. – Yoxsa, sazı özünüzə yaraşdırmırsınız?

– Niyə yaraşdırmırıq, ə!.. Təqsir özündədir. Həmişə yalquzaq kimi tək gəzirsən.

Səhəri gün Səftərəli Hüseyni də götürüb məclisə gəldi. Sənubər onu bir-iki dəfə oxutdurub qulaq asdı. Səsi güclü olmasa da, şirin və məlahətli idi. Ələsgəri, Aşıq Hüseyn Bozalqanlını əzbərdən bilirdi. Özünün də bir neçə qoşması var idi.

Beləliklə, tikintidə kiçik bir özfəaliyyət dərnəyi yarandı.

Hər gün işdən sonra dərnək üzvləri Sənubərin başına toplaşır, onun musiqi haqqındakı söhbətlərinə qulaq asır və çalıb-oxuyurdular. Sənubər dərin həyəcan və maraq içində Gülaçarın inkişafını izləyir, onda yeni-yeni keyfiyyətlər tapırdı.

Cəmi yeddiillik təhsili olan Gülaçar qızğın mütaliə həvəskarı idi. Kəndlərində əlinə keçən hekayə və romanların hamısını oxumuşdu. Burada, tikinti qiraətxanasında olan kitabları da oxuyurdu.

Sənubər indi, demək olar ki, bütün günü məşğul idi. Səhər tezdən ev işlərini görüb qurtarır, sonra qiraətxanaya gedir, hər axşamçağı isə, musiqi dərnəyində məşğələ keçirdi.

İşlər sürətlə irəliləyirdi. Gülaçarla birlikdə o biri gənclər də az vaxt içində xeyli inkişaf etmişdilər. Səftərəli bildiyi saysız-hesabsız məzhəkələrin ən yaxşılarından üçünü seçib musiqiyə uyğunlaşdırmışdı. Sonabəyim «Turacı», «Kərəmi» və «Mirzəyi» rəqslərini indi daha gözəl ifa edirdi.

On yeddi yaşlı Aşıq Hüseynə gəldikdə, burada əhvalat uzun idi. Hüseyn, Gülaçar sarıdan Çərkəzə məğlubedilməz bir rəqib çıxmışdı. Çərkəz nə qədər özünü oda-suya vurursa da, dostundan qabağa keçə bilmirdi ki, bilmirdi. Gecələr tikinti meydanında tarla saz arasında bəhs başlayırdı, nə başlayırdı! Tar bülbül kimi fəğan edib segahı qurtaran kimi saz elə bir gözəlləmə başlayırdı ki, dağ-daş dilə gəlirdi. Gülaçarın Hüseynin gözəlləmələrinə diqqətlə qulaq asması və hamıdan çox onunla danışması Çərkəzi özündən çıxarırdı. O, hirslənərək Səftərəliyə deyirdi:

– Sən ağzından süd iyi gələn bu uşağa bir bax!

Səftərəli də dostunun ürəyindəkini başa düşdüyü üçün yoldaşına göz vurub:

– Ağzından süd iyi gəlməyini neyləyirsən, – deyə Çərkəzə sataşırdı, – Gülaçar kimi canı valeh etməyinə bax!

– Ayə, – deyirdi, – sən ölməyəsən, Gülaçar onu uşaq hesab edir!





Hüseyn, Gülaçara bənd olandan bəri gəraylını gəraylı dalınca düzmüşdü... Hər gün təzə bir qoşma yazırdı. Sənubərin təşəbbüsü ilə o, şerlərindən üçünü rayon qəzetinə göndərdi. Bu şerlərin qəzetdə çap olunması tikintidə gurultulu hadisəyə çevrildi. Hüseyn tikintidəki gənclərin nəzərində birdən-birə böyüdü. Əşrəf Sultanov ona təzə uzunboğaz çəkmə bağışladı. Gülaçar elə Çərkəzin yanındaca gülümsəyərək:

– Sağ ol, Hüseyn, – dedi, yaxşı yazmısan.

Bir gün Sənubər uşaqları başına toplayıb dedi:

– Bilirsiniz nə var? İstəyirəm tikintidə bir konsert düzəldək. Ağlınız nə kəsir?

– Konsert?

Gənclərin üzündə şübhə və inamsızlıq qarışıq bir təbəssüm göründü. Qızlar bir-birinə baxdılar.

– Yaxşı olar, Sənubər bacı, – Səftərəli dilləndi. – Heyf ki, klubumuz yoxdur.

Sənubər:

– Hələlik klubsuz da keçinərik, – dedi, – meydanda bir səhnə düzəldərik...

Bir neçə gündən sonra tikintinin fəhlə və mühəndisləri idarənin divarına vurulmuş böyük afişa gördülər. Orada bu sözlər yazılmışdı: «Ayın 15-də axşam saat 8-də özfəaliyyət dərnəyinin konserti olacaqdır...»

Afişanı oxuyan işçilər gülümsəyib:

– Yəni, görəsən, bir fərli-başlı şey göstərəcəklər? – deyə bir-birindən soruşurdular.

Gənclər meydançada, özləri yonub-hazırladıqları taxta dirəklərdən balaca bir səhnə düzəldib, oraya elektrik işığı çəkdilər.

Nəhayət, hamının gözlədiyi konsert axşamı çatdı. İşçilər səhnənin qabağındakı meydançaya yığışmışdılar. Onların bəziləri çadırlardan gətirdikləri kətillərdə, bəziləri də elə yerdəcə, yaşıl otların üstündə oturmuşdular.

Konsertlə hamıdan çox maraqlanan tikinti rəisi Əşrəf Sultanov, şəhər teatrlarına getdiyi zamanlarda olduğu kimi, təzə kostyum geymişdi.

Zəng çalındı. Sənubər səhnəyə çıxıb, bir neçə kəlmə ilə bu konsertin dərnək iştirakçıları üçün ilk imtahan olduğunu söylədi.

Birinci nömrədə bənna şagirdi Çərkəz tarda «Rast» çaldı. Hamı susub maraqla dinləyirdi. Üzlərdəki inamsızlıq, təbəssüm yavaş-yavaş ciddi bir ifadə ilə əvəz olunurdu.

Qabaq tərəfdə oturmuş bir usta öz yoldaşına pıçıldadı:

– Kişinin oğlu əməlli-başlı çalır ki.

– Bax, bura «Rast»ın lap çətin yeridir. Afərin! – deyə ikinci fəhlə gözlərini Çərkəzdən çəkmədən cavab verdi.

«Rast» qurtaran kimi Çərkəzi alqışladılar. Sonra təzə paltar geyinmiş Sonabəyim rəqs etməyə başladı. Onun ifasında lirik bir yumor var idi. O, bu rəqsi ilə artıq gənclik illərini keçirmiş, lakin hələ də öz ərinə naz-qəmzə ilə baxan ortayaşlı şən bir qadın surəti yaradırdı.

Gurultulu alqış qopdu, Sonabəyimi ikinci dəfə səhnəyə çağırdılar. Bu dəfə o, xüsusi bir zövqlə «Turacı» oynadı.

Sonabəyimdən sonra, məxmər köynək və şalvar geyib, rəisin bağışladığı uzunboğaz çəkmələri dizinə çəkmiş, belinə nazik Qafqaz kəməri bağlamış, çal papağını gözünün üstünə basmış Hüseyn öz balabançısı dülgər Qurbanla səhnəyə çıxanda, hamı gülüşdü. Deyəsən, bu, Hüseynin kefinə dəydi. O qızardı. Sonra burnunu dik tutub, sazını sinəsinə qaldırdı. Qurban da balabanı ağzına qoyub, kök və qırmızı ovurdlarını şişirtdi.

Hüseyn əvvəlcə gözəlləməni sözlə dedi, sonra çalıb-oxumağa başladı.

Hüseyn qaşlarını çatıb, böyük səylə oxuyur və sonra da balabançı ilə çiyin-çiyinə verib, oynaya-oynaya ortada hərlənirdi.

– Sağ ol, aşıq! Yanmayasan, aşıq! – deyən səslər eşidilirdi.

Onu üç dəfə səhnəyə çağırdılar.

Hüseyndən sonra qoltuğuna iri bir nağara vurmuş Səftərəli səhnəyə çıxdı. O, iki el məzhəkəsi danışaraq, camaatı gözləri yaşarıncayadək güldürdü.

Sənubər, Gülaçarın oxuyacağını elan edəndə araya dərin sükut çökdü. Tikintidə işləyənlər onun qeyri-adi bir səsə malik olduğunu eşitmişdilər. Əvvəlcə Çərkəz gəlib səhnənin qabağına qoyulmuş stulda əyləşib, tarını köklədi. Sonra da camaatın maraq dolu nəzərləri altında Gülaçar səhnəyə çıxdı. O, güllü ipək parçadan paltar geymiş, başına ağ kəlağayı örtmüşdü.

Sənubər Gülaçarın oxuyacağı mahnını elan edib, səhnədən çıxdı. Kimsə dinmirdi. Qız gözlərini adamların başı üzərindəki məchul bir nöqtəyə zilləyərək oxuyurdu.

Onun səsindəki fövqəladə məlahəti hamı duyurdu. Bu səs qəlbin dərinliklərinə nüfuz edirdi. Bu səs insanda misilsiz fərəh və həyəcan doğururdu.

Qız birinci mahnını oxuyub qurtarandan sonra sanki tufan qopdu. Onu beş dəfə səhnəyə çağırdılar.

Usta Qara qışqırdı:

– Ay qızım, sən ki, afətmişsən.





Gülaçarın sonra oxuduğu mahnılar da bu cür qarşılandı.

Bütün bu müddətdə səhnənin arxasında dayanıb qızın çıxışını izləyən Sənubər elə həyəcan içində idi ki, elə bil, alqışlanan o özü idi.

Konsertin axırında Əşrəf Sultanov, Cəmil, usta Qara və başqaları səhnənin ardına gəlib, Sənubəri təbrik etdilər. Əşrəf Sultanov Sənubərin əlini sıxaraq, mütəəssir səslə:

– Bu gözəl konsert üçün biz hamımız sizə təşəkkür edirik, – dedi.

Sevincdən gözləri yaşarmış Sənubər gülümsədi. Əşrəf Sultanovun əlini əlindən buraxmayaraq:

– Elə isə, bizim üçün üç yüz nəfərlik bir klub tikəcəyinizə söz verin, – dedi.

– Lap beş yüz nəfərlik də tikərik, bir ildən sonra burada iki mindən çox adam yaşayacaq, niyə də tikməyək!

Dağlarda yaranmış özfəaliyyət dərnəyinin şöhrəti sonralar çox uzaqlara yayıldı. Hətta, onun haqqında mərkəzi qəzetlərdə də məqalələr çap olundu. Həmin ilin payızında tikinti kollektivinin məsləhəti ilə Gülaçarı Bakıya – musiqi məktəbinə göndərdilər.

Zavodun əsas binası tikilib qurtarmaq üzrə idi. İşçi mənzillərindən bir neçəsi də hazır idi. Ona görə də, fəhlələrdən bəziləri ailələrini köçürüb tikintiyə gətirmişdilər.

Çərkəzlə Aşıq Hüseyn isə, yeni-yeni evlər tikir və Gülaçarın yolunu gözləyirdilər.

*1953*

# SU DƏYİRMANI

O gecə mən birinci dəfə idi ki, kəndimizin üst tərəfindən keçən dəyirman arxının yanında dayanıb onu gözləyirdim. Göy qübbəsini bəzəyən saysız-hesabsız ulduzlar və onların arasındakı üçgünlük Ay arx boyu düzülmüş söyüdlərin təzə açılan yarpaqlarını zəif-zəif işıqlandırırdı. Aşağı dərənin qaranlığında yalnız taxtapuşu seçilən dəyirmandan işıq gəlirdi. Mənim gözlədiyim qız, atasına – dəyirmançı Musa dayıya axşam yeməyi aparmışdı. Mən bunu gündüz özündən öyrənmişdim. Ona görə də, indi burada dayanıb, gözümü dəyirmandan gələn cığıra zilləmişdim. Yarım saatdan bəri idi ki, həyəcan və intizar içindəydim. Əslinə baxsan, yarım saat deyil, düz yarım il idi. Yarım il idi ki, hər gecə mən bu cür həyəcan və intizar içində səhərin açılmasını gözləyirdim. İndi isə, burada, ulduzların altında səhəri deyil, onun özünü gözləyirdim. Təzə açılmış söyüd yarpaqlarının xışıltısını, dəyirman çarxının üzərinə tökülən bahar suyunun coşğun şırıltısını dinləyərək onu gözləyirdim.

Mən də, bu gözəl yaz gecəsi də həyəcan və səadət içindəydik. Biz ikimiz də, mən də, bahar da, mənim arzularım da, baharın açdığı bu söyüd yarpaqları da gənc idik. Bizim üzərimizdən fırtına keçməmişdi. Biz həyəcan və coşğunluq içində irəliyə can atırdıq. Biz arzu və ehtiraslar selinə düşmüşdük! Biz təzə gəldiyimiz bu dünyaya nə isə yeni bir şey, yeni bir gözəllik bəxş etmək həvəsi ilə çırpınırdıq. Biz bu barədə düşünmürdük, lakin bu, belə idi. Bizim fərəhimizdəki sirr bundan ibarət idi. Bu, böyük və əzəmətli həyatın əbədi qanunlarından biri idi!..

Deyəsən, o gəlir... bu ahəstə ayaq səsləri onunkudur.

Mən bahar otlarının onun ayaqları altında necə xışıldadığını eşidirəm. Başqa vaxt karsala qulağım indi gör necə həssas olmuşdur. Qaraya çalan böyürtkən kolları arasından onun qara kəlağayılı başı görünür. Mən ona tərəf getmək istəyirəm, lakin yerimdən tərpənmirəm...

Nəhayət, o, yoxuşu qalxıb, mənim dörd-beş addımlığımdakı söyüd





ağacına çataraq, əlini qaldırıb, onun bir budağından tutdu və nəfəsini dərə-dərə mənə baxıb gülümsədi. Gözləri eynilə bir cüt qaragilə kimi qaranlıqda parıldayırdı.

– Axşamın xeyir, Eyvaz, sən, doğrudan da, buradaymışsan...

– Necə yəni doğrudan da?

– Gündüz deyəndə, elə bildim zarafat edirsən...

– Eh, Bəyim... Sən hər şeyi zarafat hesab edirsən. Gəl, bir az burada oturaq.

– Yox, gedək Eyvaz, gecdir... – deyə o, ürkmüş halda ətrafa baxındı.

Mən saatımı işığa tutaraq:

– Gec haradan oldu? Hələ doqquz tamam deyil, – dedim.

– Yaxşı, bir az oturaq...

Biz arxın kənarındakı cavan söyüd ağacının altında, çayırla örtülmüş dikdirdə əyləşdik.

– Bu gün yuxarı tərəfin alağını eləyib qurtardıq. Sabah da dəyirmanın yanındakı bağı eləyəcəyik, – deyə o həvəslə danışırdı.

Mən bağ aqronomuyam, kənd təsərrüfatı texnikumunu bitirmişəm. O isə, bağ briqadiridir. Demək istəyirəm ki, söhbəti yersiz deyil. Dəyirmanın yanındakı bağı mən texnikumu bitirib gələndən sonra salmışıq. Orada əkdiyimiz alma, armud və heyva ağacları hələ körpə olsa da, bu yaz çiçəkləyibdir.

Ata-ana öz uşağına necə bağlanırsa, biz də o bağa eləcə bağlanmışıq. Hətta, artel sədri Qədir bir dəfə bizə irad tutaraq deyib ki: «Təzə Ay çıxanda köhnəni doğrayıb ulduz eləməyin. O biri bağlara az fikir verirsiniz...»

– Ağdamdan gətirib əkdiyimiz «Qızıl Əhmədi»lər yaman tutub, – qız dəyirmandan gələn işığa baxaraq sözünə davam edirdi. – Yadındadırmı, o vaxt deyirdilər burada «Qızıl Əhmədi» alma yetişməz...

Ulduzlarla üçgünlük Ayın solğun ziyası onun gözəl üzünü işıqlandırdı. Yavaş-yavaş əsən yel, altında oturduğumuz söyüdün yarpaqlarını hərdən onun üzünə toxundururdu.

– Ay Bəyim, – dedim. – Əkdiyimiz ağaclar bitdi... Bu gün-sabah meyvə gətirəcək... Amma biz...

O, yanakı üzümə baxaraq gülümsədi. Dillənmədi. Mənim nə demək istədiyimi, nəyə işarə vurduğumu duyurdu. Necə də duymaya bilərdi?.. O, kəndimizin ən gözəl, ən ağıllı qızı idi, mənim neçə vaxtdan bəri keçirdiyim halı görmürdümü? Əgər, bu vaxta qədər ürəyimi ona açmamışamsa, təqsir özümdə, öz cəsarətsizliyimdə deyildimi? Əslinə baxsanız, buna cəsarətsizlik də demək olmaz. Bilirsinizmi, mən bir az xudpəsənd adamam. Mən onda özümə qarşı güclü, mənim qəlbimdə

olduğu kimi güclü bir meyl hiss etmək istəyirəm. Bu mümkündürmü? Bilmirəm... Lakin o, mənə o qədər mehriban, o qədər səmimidir ki, bəlkə başqa biri bundan ürəklənərək çoxdan öz qəlbini ona açardı. Amma mən... Bu gün onu burada gözləyəcəyimi dedikdə, qız gülümsədi və heç bir söz söyləmədi. Deməli, indi mənim öz qəlbimi ona açmağa haqqım vardır.

Aşağıda, qaranlıq dərədə dəyirmanın çarxı üzərinə tökülən su aramsız şırıldayır, başımız üzərində isə, təzə açılmış söyüd yarpaqları pıçıldaşırdı. Uzaq üfüqdə dağlar qaralır, göydə tez-tez ulduz uçurdu. Onların ardınca uzanan odlu şərid közərib sönürdü. Hava ətirli və mülayimdi...

Yanımda aramla nəfəs alan qızın gözləri bir cüt qaragilə kimi parıldayırdı.

Bütün gücümü, cəsarətimi toplayaraq:

– Bəyim, – dedim, – sən hər şeyi bilirsən. De görüm mənə cavabın nədir?

O, bir müddət – mənə bir əsr qədər uzun gələn bir müddət – sanki nəfəs belə almadan, kirpiklərini belə qırpmadan daş kimi hərəkətsiz qaldı. Gözlərinin parıltısında bir dalğınlıq və ciddiyyət hiss olunurdu.

Mən onun buz kimi soyuq əlindən tutaraq:

– Niyə dinmirsən, Bəyim? – deyə həyəcanla səsləndim.

O, əlini yavaşca çəkərək, küləyin havada yellədirdiyi saçını kəlağayısının altına yığdı... Sonra üzümə həmişəki kimi mehriban, səmimi bir nəzər salaraq:

– Doğrusu, Eyvaz, – dedi, – bu barədə heç fikirləşməmişəm.

Ürəyim qırılıb ayağımın altına düşdü. Axı, sevgi də bu bahar kimi bizim düşüncəmizdən asılı olmayaraq gəlir.

Mən bunu ona demək istədim. Lakin demədim... Ürəyi dilə tutmaq olmaz!.. Baharı zorla çəkib gətirmək mümkün deyil! Aşağıda novdan tökülən su şırıldayırdı. Bəyim narahat idi. Mən bunu onun yaylığının ucunu oynatmağından hiss edirdim. Lakin susurdum. Deməyə bir sözüm yoxdu. Birdən o, əlini qolumun üstünə qoyaraq, mehriban səslə:

– Eyvaz, – dedi, – kənddə iki yaxşı oğlan varsa, biri sənsən... Ancaq... qoy mən bir az fikirləşim.

– Neynək, – dedim, – fikirləş.

Bu sözlərdən sonra Bəyim sanki öz qəlbində bir rahatlıq hiss etdi... hər iki əli ilə yaylığını düzəldərək:

– Eyvaz, – dedi, – bu gün atam yenə də səni tərifləyirdi. Deyir, bu Bədirxanın oğlu bir-iki il də burada qalsa, kəndi cənnətə döndərəcək.






Dəyirmanın altındakı bağı salandan bəri, elə bil, dünyanı ona vermisən.

Mən gülümsəyərək, daha doğrusu, özümü gülümsəməyə məcbur edərək susurdum. Bəyim isə, sevinc içində sözünə davam edirdi və mənə elə gəlirdi ki, o, atasının məni bəyənməsindən belə həvəslə danışmaqla həm mənim könlümü almaq istəyir, həm də özünə, öz qəlbinə təsir etməyə çalışırdı...

– Axı, özün bilirsən ki, atam hər adamı bəyənən deyil. Xüsusən də ki, cavan ola... Bu gün demişəm, ata, dəyirmanın üst tərəfini də toxmacarlıq eləyəcəyik, kefi yaman kökəlib.

Zarafatyana dedim:

– Deməli, məni tərifləməyi səbəbsiz deyilmiş.

Qız mənim şənliyimə sevinərək dedi:

– Lap dilxor vaxtında dəyirmandan yaxşı bir söz dedin, qurtardı, o saat qaşqabağı açılacaq...

Doğrudan da, Musa dayının dəyirman əhvalatı bütün rayonda məşhur idi. Mən gözümü açandan onu dəyirmançı görmüşəm... Anamın deməsinə görə, atası Qubad da dəyirmançı imiş. Deyilənə görə, bu dəyirmanı da o tikmişdi.

Musa dayı dəyirmanın başına nə həngamələr açmamışdır!.. Daşları yuxarı qaldırmaq üçün mexaniki bir şey icad etmişdi. Ayağını onun üstünə qoyan kimi, o ağırlıqda dəyirmandaşı dərhal yuxarı qalxırmış. Sonra novdan tökülən suyu tənzimləmək üçün yenə də mexaniki bir şey qayırmışdı. Qış, yay, elə bir gün olmamışdı ki, Musa dayının dəyirmanı yatsın. Qonşu kənddə bir «od dəyirmanı» var. İl on iki ay Musa dayı bu dəyirmanla bəhsə girir, hamıya sübut etməyə çalışır ki, onun su dəyirmanı həmin «od dəyirmanı»ndan heç də geri qalmır. Bəzən qış bərk düşüb yolları qar alanda, şəhərdən mazut-filan gətirmək çətinləşəndə, «od dəyirmanı» işləmədiyi üçün o kəndin adamları da bizim dəyirmana gəlirlər. Bu zaman Musa dayının kefi, necə deyərlər, lap doxsan doqquz olur.

– Hə, deyəsən, qazınız yatıb, – deyə, o qonaqlara sataşır və onların dənini böyük həvəslə, hamıdan qabaq üyüdüb yola salır...

Lakin, deyəsən, mətləbdən uzaqlaşdım. Əlbəttə, əgər, Musa dayı Bəyimin atası olmasaydı və onu hamıdan, hətta, keçən il ali məktəb qurtarıb, indi rayon mərkəzində yaxşı bir tikinti mühəndisi olan oğlu Rəşiddən belə çox istəməsəydi, mən həyatımın ən əziz anlarını xatırladığım bir zamanda ondan bu qədər danışmazdım. Bəyimi çox istəyən, sevən hər kəs mənim də əzizimdir.

... Mən təzətər söyüd yarpaqlarının pıçıltısında sanki qızın qəlbinin döyüntüsünü eşidirdim. Mən onun gəncliyi ilə üçgünlük Ayın

01/01–12

işıqlandırdığı bu körpə söyüd yarpaqları arasında qəribə bir ahəng duyurdum. Mənə elə gəlirdi ki, onun aramla aldığı nəfəs bu bahar gecəsinin canı, ruhudur. Mən hər şeydə xəyali bir sonsuzluq, bir əbədiyyət hiss edirdim. Sanki yanımda oturan, mənə mehriban sözlər danışan bu qızın, ulduzların zərif işığını əks edərək qaranlıqda parlayan qara gözləri ilə bu gecə, bu əzəmətli kainat bir yaranmışdır. Biz Musa dayıdan, onun keçən yay su üstündə mənim anam Bədirxanla savaşmasından (anam bizim kəndin cuvarıdır), sonra hər ikisinin xeyli müddət küsülü qalaraq, yığıncaqlarda bir-birinə tikanlı sözlər atmalarından, daha bilmirəm nələrdən söz salaraq gülür, bir dəfə də olsun, özümüz barədə danışmırdıq.

Birdən ayaq tappıltısı eşidib, geri baxdıq. Qaranlıqda yüklü bir at, onun ardınca da uzunboğaz çəkmə geyib belini enli qayışla qıvraq bağlamış ucaboylu bir oğlan çıxdı. Bu, mənim uşaqlıq yoldaşım Şahlar idi. O, iki çuval yüklənmiş atını dəyirmana enən cığıra salaraq:

– Axşamınız xeyir, – deyə yanımızda ayaq saxladı. – Nə yaxşı yerdə oturmusunuz!

Sonra inci kimi düzülmüş dişlərini ağardaraq gülümsəyib əlavə etdi:

– Gedib Musa dayıya deyəcəyəm...

– Bax, gecə iti açıb buraxaram ha, – deyə mən də eyni zarafatla cavab verdim. (Şahlar bizimlə qapı-qapıya qonşu olan bir qıza nişanlanmışdı. Görüş yerləri də bizim bağçanın alt tərəfi idi.)

– Onda susdum, – o, məzəli bir hərəkətlə əlini ağzına qoydu. Tələsik atın ardınca qaçdı. Sonra yenə ayaq saxlayaraq:

– Eyvaz, – dedi, – sizə qonaq gəlib...

– Kimdir?

– Bilmirəm. Bir cavan oğlandır... Deyəsən, Gəncədəndir... Evinizi göstərdim, getdi...

Şahlar cığırı enərək, böyürtkən kolları arasında gözdən itdi.

– Gedək, Eyvaz! – deyə Bəyim ayağa qalxdı, – yəqin ki, qonaq səni gözləyir.

– Eybi yoxdur, əyləş.

– Yox.

O, daha oturmadı. Mən naəlac qalaraq, ayağa qalxdım. Biz, dəyirman arxının üstündən salınmış balaca körpüdən keçərək, kəndə sarı yönəldik. Pıçıldaşan söyüd yarpaqları, novdan tökülən bahar suyunun şırıltısı, aşağı dərədə qaralan dəyirman arxada qaldı. Bu, məni kədərləndirirdi. Elə bil ki, bu gedişlə mən, nə isə, əziz bir şeydən ayrılırdım. Sanki mən onları və indi yanımda ürəyinin döyüntüsünü eşitdiyim Bəyimi bir də heç bir zaman bu qədər yaxından görmə-





yəcəkdim. Elə bil ki, bu, mənim həyatımda əvvəlinci və axırıncı gecə idi... Qəribə idi, bu uğursuz hiss mənim ürəyimə haradan girmişdi?

– Bu vaxt sizə gələn qonaq kim ola? – deyə Bəyim kəndin işıqlarına baxaraq soruşdu.

– Bilmirəm. Mənim Gəncədə elə bir tanışım yoxdur.

Kəndimizin işıqları getdikcə yaxınlaşırdı, demək, biz yenə də ayrılırdıq. Yenə də mənim narahat gecəm başlanırdı. Eh... Bəyim, sənsiz keçən bu yaz gecəsinin nə qədər uzun olduğunu, məni nə xəyallarla yorduğunu bircə bilsəydin!.. Odur, qoşa çinar arasından sizin pəncərəniz görünür.

– Bir az dayan, Bəyim...

– Yox, Eyvaz... Gecdir.

– Sabah axşam yenə də həmin yerdə görüşəkmi?

– Bilmirəm... Vaxtımız olsa, görüşərik... Hələlik, sağ ol.

Sonra elə bil ki, mənim könlümü sındırmamaq üçün düz gözlərimə baxaraq, qaranlıqda gülümsədi və çevrilib iti addımlarla darvazalarına tərəf getdi.

– Gecən xeyrə qalsın, Bəyim.

O, başını döndərib, eyni mehribanlıqla:

– Sağ ol, – deyə darvazalarından içəri girdi.

Mən, uzun zaman yerimdən tərpənə bilmirdim. Mən bu bahar gecəsi ilə yalqız qalmışdım. Mən, pəncərənin tül pərdəsi arxasındakı işıqlı otaqda onun kölgəsinin ora-bura necə hərəkət etdiyini görürdüm. Yəqin ki, o, indi anası ilə danışır və mənim buraya mıxlanıb qaldığımı heç ağlına da gətirmir.

«Eh... tərpən, Eyvaz... qonaq səni gözləyir...» Mən ağır addımlarla uzaqlaşdım. Gecə mənim məhəbbətimi bir əfsanəyə, bir nağıla döndərmişdi. Göydə sayrışan ulduzlar, budaqlarda xışıldayan bahar yarpaqları mənə və mənim iztirablarıma qarşı tamamilə biganə idi. Axı, bu kədər, bu ümidsizlik nə üçündür? O mənə demədimi ki, kəndimizdə iki yaxşı oğlan varsa, biri sənsən... Demədimi ki, qoy bir az fikirləşim... Nə olar, qoy fikirləşsin. Mən bu düşüncələrlə həyətimizə girib, evimizin artırmasına çıxdım. Stolun başında anamla qabaq-qabağa oturub, söhbət edən qonaq ayağa qalxaraq, şabalıd rəngində olan iri və canlı gözləri ilə mənə baxıb, xəfifcə gülümsədi. Bir anlıq mənə elə gəldi ki, bu adamı haradasa görmüşəm...

Mən qonaqla əl tutuşaraq:

– Əyləşin, əyləşin, – dedim, – xoş gəlmisiniz.

– Hüseynin yoldaşıdır, – deyə anam bildirdi. – Adı Humaydır. Bizim MTS-ə işləməyə gəlib.

Hüseyn mənim əmim oğludur. Gəncə Kənd Təsərrüfatı Institu-

tunun axırıncı kursunda oxuyur. Humay şəhər dəbi ilə tikilmiş təmiz, lakin bir qədər nimdaş boz pencəyinin qoltuq cibindən bir kağız çıxarıb mənə verdi.

Hüseyn yazırdı ki, məktubu təqdim edən oğlan institutu qurtarıb, MTS-ə mühəndis-mexanizator təyin edilmişdir. Daha sonra Hüseyn dönə-dönə xahiş edirdi ki, onun bu dostuna yaxşı hörmət eləyək.

Mən məktubu oxuyub qurtarandan sonra Humay mənə açıq və şən bir nəzər salaraq:

– Kənddə mehmanxana olmadığı üçün bu gecəlik sizi narahat etməyə məcbur oldum, – dedi.

– Bu nə sözdür, gözümüz üstə yeriniz var...

– Ya Hüseyn, ya onun dostu... Elə bil öz evindir, – deyə anam Humayın stəkanını, götürərək o biri otağa keçdi.

Biz xeyli müddət ordan-burdan söhbət etdik. Məlum oldu ki, Humay Gəncədə yaşayan qoca bir müəllimin oğludur.

O, ayağa qalxaraq, mənim kitab şkafıma yaxınlaşdı.

– Baxmaq olarmı?

– Xahiş edirəm, burada özünüzü öz evinizdəki kimi hiss edəsiniz.

Humay şkafın qapısını açaraq, kitabları nəzərdən keçirirdi. Mən aqronom olsam da, lap uşaqlıqdan bədii ədəbiyyat maraqlısıyam. Tələbə olanda da əlimə düşən pulu kitaba verərdim. Odur ki, indi balaca bir kitabxanam vardır.

Humay, Çexovun külliyyatından bir cild götürüb baxır, mən də onu nəzərdən keçirirdim. Çox arıq olmasına baxmayaraq, yaraşıqlı oğlan idi. Yaşı iyirmi beşdən artıq olmazdı. Orta məktəbi qurtarandan sonra iki il orduda xidmət etdiyi üçün ali məktəbə gec daxil olubmuş. Əlləri və üzü xəstəlikdən yeni qalxmış adamlarda olduğu kimi, arıq və solğun idi. Lakin iri şabalıdı gözlərində canlı, qaynar bir ifadə var idi. Bu da onun üzündəki solğunluğa sanki bir həyat və atəş verirdi. O, gözlərini qırpmadan mənə baxdıqda, mən, bu arıq, solğun adamda, nə isə, tükənməz bir qüvvə, həyatla güclü bir bağlılıq hiss edirdim. Elə bil ki, o, bu saat səni heyrətdə qoyan fövqəladə bir iş görəcəkdi. Elə bil ki, sənin bilmədiyin bir çox sirlər ona məlum idi. Gözləri şabalıdı rəngdə olan, yana daranmış qalın və yumşaq saçları, düz və yaraşıqlı burnu, gülümsəyərkən görünən qar kimi ağ dişləri ilə üzündəki solğunluq arasında bir ahəng hiss olunurdu.

O, Stendalın gündəliklərindən ibarət cildini götürüb vərəqləyərək:

– Bunu oxumusunuzmu? – deyə məndən soruşdu.

– Oxumuşam.

– Romanlarına söz yoxdur. Ancaq gündəlikləri xoşuma gəlmir.

– Nə üçün?





– Hər gün ziyafət, hər gün bal, hər gün gözəl qadınları ziyarət... Adam lap təngə gəlir, – deyə o, üz-gözünü turşutdu.

Sonra qətiyyətlə əlavə etdi:

– Bu böyük adamların fikirləri ilə əməlləri arasında çox zaman qəribə bir ziddiyyət görürsən. Bəzi həkimlər kimi, sənə deyirlər şərab içmə, amma özləri küpün dibindən əl çəkmirlər. Jan Jak Russo cəmiyyətin ədalətsizliklərindən danışır. Uşaqları tərbiyə etmək haqqında cildlər dolusu öyüd-nəsihət verir. Amma öz övladlarını, anadan olan kimi, aparıb uşaq evinə verirmiş. Siz buna nə deyirsiniz?

– Bizim üçün onların fikirləri maraqlıdır. Adamlar ölüb gedir, fikirlər, ideyalar isə yaşayır.

– Düzdür. Ancaq irəli sürdüyün ideyanı, birinci növbədə, özünə tətbiq etmək, onun doğru olduğunu öz həyatınla sübut etmək sənin vətəndaşlıq borcundur. Məsələn, biz bilirik ki, həqiqi insan cəmiyyətin xeyrini öz şəxsi nəfsindən həmişə üstün tutmalıdır. Bu, özlüyündə bir ideyadır, elə deyilmi? Lakin bir anlığa təsəvvür edin ki, bizlərdən hər birimiz bu ideyanı təbliğ etdiyimiz halda, gecə-gündüz öz xeyrimiz haqqında düşünsəydik, onda nə olardı?

O, açıq pəncərədən qaranlıq bağçaya baxaraq susdu.

Anam bizim üçün qayğanaq gətirərək:

– Humay, – dedi, – gərək bizi bağışlayasan, vaxtsız oldu.

– Çox yaxşıdır, xala, – deyə Humay təklif gözləmədən gəlib əyləşdi.

Onun özünü bizdə belə sərbəst hiss etməsi mənə olduqca xoş gəlirdi.

Şamdan bir az sonra işıqları söndürüb, mənim otağımdakı çarpayılarda uzandıq.

Humayın gəlişindən duyduğum xoş təəssüratı Bəyim haqqındakı xəyallarım əvəz etdi: «Qoy bir az fikirləşim». Bu sözlərin hər bir hərfi bir ulduz olub, açıq pəncərədən görünən səmadan mənə baxaraq, qəlbimə ümid və səadət işığı salırdı...

Bu sözlər bahar gecəsinin lal musiqisi kimi mənə fərəhli nəğmələr oxuyurdu.

Bu sözlər mənə, bir neçə saatdan sonra açılacaq bahar səhəri kimi təzə və parlaq bir həyat vəd edirdi.

«Bəyim sözübütöv qızdır. Əgər, o, «Qoy bir az fikirləşim.» dedisə, demək, ümid çoxdur.»

... Səhər çaydan sonra kəndə çıxmağa hazırlaşdığımız vaxt Humayın çamadanını götürdüyünü görərək soruşdum:

– Yoxsa, evimiz xoşunuza gəlmədi?

– Əksinə, – dedi. – Bu gecə özümü lap öz evimizdəki kimi hiss eləmişəm. Ancaq daha sizə əziyyət vermək istəmirəm.

– Nə əziyyəti var, – deyə anam mənim əvəzimə cavab verdi, – üç otaqdır, ya sən, ya da Eyvaz...

O tərəddüd edirdi. Mən çamadanı onun əlindən alıb yerə qoydum.

... Hər ikimiz şad halda bağçadan çıxıb, maşın-traktor stansiyasına tərəf yollandıq. Bizim rayonda iki maşın-traktor stansiyası var... Onlardan biri rayonun mərkəzində, digəri isə, bizim kənddə yerləşir.

Küçədə Bəyimə rast gəldik. Onun ağ və göyçək üzündə parlayan qara gözləri bir neçə saniyə Humayın üzünə zilləndi.

– Tanış olun, Bəyim, – deyib Humayı ona təqdim etdim.

Bəyim qızararaq onunla əl tutuşdu.

Biz Bəyimdən ayrılıb yolumuza davam etdikdə, Humay məndən soruşdu:

– Bu qız kimdir?

– Bağ briqadiridir. Dəyirmançı Musanın qızıdır.

Humay daha heç nə demədi. Mən istəyirdim ki, o danışsın. Qızın haqqında nə isə bir söz desin. Lakin susurdu. Üzü qayğılı ifadə almışdı.

Biz maşın-traktor stansiyası yerləşən binanın yanına çatıb dayandıq.

– Acanda birbaş evə getməyi yaddan çıxarmayın.

– Yaxşı, – deyə o, ciddi ifadə ilə cavab verdi.

Mən ondan ayrılaraq, dəyirmanın yanında saldığımız cavan bağa getdim. Günəş üfüqdən xeyli yüksəlmişdi.

Qızlar, cərgə ilə əkilmiş körpə ağacların dibindəki alaqları təmizləyirdilər. Bəyim məni görərkən gülümsəyib yanıma gəldi. Təzə yarpaq açmış balaca ağaclara işarə ilə:

– Görürsənmi, – dedi, – necə gümrahdırlar!

Sonra saçlarının qıvrımlarını yaylığının altında gizlədərək tamamilə biganə halda soruşdu:

– O səhərki oğlan nə üçün gəlib?

– MTS-də mexanizator işləyəcək.

– Traktorçudur?

– Yox, mühəndisdir.

Mən, Humayın haqqında bildiklərimin hamısını ona söylədim. O, diqqətlə qulaq asıb, daha heç nə soruşmadı.

– Bəyim, – dedim, – bu gecə səni dünənki yerdə gözləyəcəyəm.

– Yox, Eyvaz, mən bu gecə kinoya gedəcəyəm. Təzə film gəlib. Özü də, deyirlər, ancaq bircə gecə göstəriləcək.

– Neynək, mən də ora gələrəm.

– Gəl, – deyə o, fikri dağınıq halda cavab verdi.





Mən ondan ayrılaraq, təzə bağın qurtaracağında saldığımız şitilliyə getdim. Bura balaca bir meşəni xatırladırdı. Beş mindən artıq müxtəlif növ şitilimiz vardı. Bütün qonşu kəndlər gəlib bizdən şitil aparırdılar. Bu da sədrimiz Qədirə ləzzət verirdi: «Qoy bizim sağlığımıza aparıb əksinlər» deyirdi.

Mən, tər yarpaqları günəş işığında parlayan bu kiçik ağaclara qarşı qəlbimdə bir ünsiyyət, bir doğmalıq hiss edirdim. Mən onların arasında dolaşır, hər birini diqqətlə nəzərdən keçirirdim. Onlar işıq və səadət içində olan körpə uşaqlara bənzəyirdilər. Biz onları kəndimizin Şahlar kimi zarafatcıl gəncləri ilə, Bəyimlə birlikdə əkib becərirdik. Onlarla birlikdə bizim qəlbimizdə gözəl duyğular, gözəl arzular böyüyürdü. İstər-istəməz düşünürdüm: «Kim bilir, indi baş-başa verən bu körpə şitillərdən hər biri hansı bağda çiçək açıb bar verəcək? Kim bilir, bizim qəlbimizdə indi bala quşlar kimi qanad bağlayan arzular hayana uçub gedəcək?»

Gün günorta yerinə əyilmişdi. Humayı tapıb, nahara aparmaq lazım idi.

Şitillikdən çıxıb, yavaş addımlarla dəyirmana sarı getdim. Hava sakit və isti idi. Dəyirmanın qabağındakı çəmənlikdə bir palanlı atla iki eşşək otlayırdı. Onlardan bir qədər aralıda böyük yük maşını dayanmışdı. Üst tərəfdəki böyürtkən kollarının arasından üzüaşağı sallanan, yanları yaşıl yosun bağlamış nov və ondan tökülən suyun altında qıjıltı ilə hərlənən çarx sərin kölgəlik içində idi. Novun üstündə bənövşə rəngli cırcıramalar uçuşaraq hey səslənirdilər.

Mən dəyirmana çatdığım zaman bizim artel sədri ilə Humayın cığırla aşağı endiklərini görüb dayandım. Onlar köhnə dostlar kimi nə barədəsə ucadan danışıb-gülürdülər. Bizim bu artel sədri Qədir qəribə adamlardan biri idi. Qırx səkkiz yaşı olduğu halda, saçlarında bir dənə də ağ tük yox idi. Baxanda otuz beşdən artıq yaş vermək olmazdı. Əynində sürməyi parçadan köynək və şalvar, ayaqlarında yumşaq xromdan uzunboğaz çəkmə vardı. Həddindən artıq yoğun belini enli kəmərlə möhkəm bağlamış, başına yaşıl furajka qoymuşdu. Kefi kök olanda və ya mühüm bir iş görəndə, furajkanın dalını qaldıraraq, gözünün üstünə endirirdi. Peysəri və üzü qıpqırmızı idi. Çəp olmasa da, adama baxarkən başını buğa kimi azca yana əyib, gözlərini qıyırdı. Ona görə də, ilk dəfə rast gələnlər onu çəpgöz hesab edirdilər.

Yüz on səkkiz kilo ağırlıqda olmasına baxmayaraq, toylarda «tərəkəmə» oynayır, atı qızğın çaparağında düşüb-minirdi. Nə qədər məxfi söz danışır-danışsın, üç ağaclıqdan eşidilirdi. O, kəndimizdə çoxbilmiş adamlardan biri hesab olunurdu. Lakin, eyni zamanda, uşaq kimi şən və sadədil idi.

Keçmişdə, cavan vaxtında bir dəfə hirslənərək, zəhmindən atlar qulun salan bir bəyi götürüb su arxına basdığına görə, adına «Dəli Qədir» deyirmişlər.

Qədir gecə məktəbində yeddinci sinfi bitirmişdi. «Dumanlı Təbriz», «Qılınc və qələm» romanlarını oxumuşdu. «Koroğlu», «Qaçaq Nəbi» və «Tufarqanlı Abbas» dastanlarını əzbər bilirdi. Texnikaya böyük marağı vardı. Harada təzə bir maşın gördümü, gözlərini qıyıb diqqətlə baxardı. Lakin artelin təzə «Pobeda»sına çox nadir hallarda minir, həmişə atla gəzirdi. Bizim tərəflərdə ən yaxşı at Qədirdə olurdu. At adı eşidəndə, elə bil, kişiyə ilham gəlirdi. Qaşlarını çataraq, öz alapaça ürgəsindən böyük vəcdlə danışmağa başlayırdı...

– Aqronom, ay aqronom, – deyə o, hələ xeyli aralıdan məni səslədi. – Səhərdən bəri qonağını gəzdirməmiş yer qoymamışam. Gətirmişəm, bir Musa kişinin dəyirmanını da görsün.

Qədirin Musa dayıya da, onun dəyirmanına da bərk azarı var idi. Hər iki-üç gündən bir gərək dəyirmana baş çəkib, Musa dayının «ixtira» etdiyi şeylərin necə nəticə verdiyinə diqqət yetirə idi. Kəndə təzə bir adam gəldimi, Qədirin ona, birinci növbədə, göstərdiyi yer üç il bundan qabaq tikdirdiyi balaca «SES» idisə, sonra mütləq dəyirman olurdu.

– Necədir, kəndimiz xoşuna gəlirmi? – deyə mən Humaydan soruşdum.

– Çox xoşuma gəlir, gözəl perspektivi vardır.

– Hələ harasıdır!.. Gedək bir dəyirmana baxın, görün Musa kişi nə işlər düzəldib! – deyə Qədir qabağa keçərək dəyirmana girdi.

Biz də onun ardınca dəyirmana daxil olduq. Sürətlə hərlənən dəyirmandaşının o tərəfində dayanmış Musa dayı, əlinin ununu çırparaq, üçümüzlə də görüşdü. Bu, əlli yaşında, uzun, arıq, lakin dəmir kimi möhkəm bir adamdı. Şən baxışlı gözlərində, arıq, ovurdları batıq üzündə sərt bir ifadə vardı. Müştüyü qırmızı qarağat çubuğundan qayrılmış demisi daim ağzında tüstülənirdi. Paltarı köhnə oldu, təzə oldu, fərqinə varmazdı. Ancaq həmişə ən bahalı gümüşü dəridən qazağı papaq qoyurdu. Bütün yaz, yay, payız nazik corabla yüngül məst geyirdi. Bayaq dediyim kimi, mən gözümü açandan Musa dayını dəyirmançı görmüşəm. Əvvəllər onun əlində həmişə ovxarlanmış dəhrə olardı. Ancaq bir neçə ildir ki, daha dəhrə götürmür.

– Bax, görürsünüzmü, – deyə Qədir, Musa dayının düzəltdiyi mexaniki aparatları böyük həvəslə qonağa göstərdi.

Musa dayı demisini tüstülədə-tüstülədə sükut içində dayanıb baxırdı. Qədir izahat verib qurtarandan sonra Humay işgüzarlıqla:





– Vaxta ki, – dedi, – kənddə «SES» var, niyə dəyirmanı elektriklə işlətmirsiniz?

– Elektriklə? – Qədir təəccüblə ona baxdı.

Musa dayının gözlərində qəribə işıltı əmələ gəldi.

– Əlbəttə! – deyə Humay qəti ifadə ilə təsdiq etdi. – Bu daha çox xeyir verə bilər; kəndiniz də böyükdür.

Musa kişi demisindən dərin bir qullab alaraq, batqın səslə cavab verdi:

– Qonşu kənddə od dəyirmanı var. Ancaq bizimki heç vaxt ondan geri qalmayıb. Bir də ki, onun unu hara, bununku hara! Yerlə göy qədər təfavütü var.

– Hansının unu yaxşı çıxır? – deyə Humay maraqla soruşdu.

– Əlbəttə, su dəyirmanının unu!

– Ola bilməz! – deyə Humay qəti etiraz etdi. – Görünür, o kənddə dəyirmanı yaxşı işlədə bilmirlər.

Musa dayı cavab vermədi. Bu da onun bərk dilxor olduğunu göstərirdi.

Humay, Musa dayıya deyirdi:

– Sənin su dəyirmanının bir gündə üyütdüyünü elektrik dəyirmanı iki-üç saatda üyüdər!

– Düzdür, – deyə Qədir təsdiq etdi.

Musa dayı ona acıqlı-acıqlı baxaraq soruşdu:

– Ömründə bir dəfə bizim camaatdan dəyirman barədə şikayət eşidibsənmi?

– Qəribə söz danışırsan, – deyə sədr qızışdı. – Çox da şikayətlənən olmayıb. Vaxt aparmağına nə deyirsən?

Sonra Humaya üz tutdu:

– Doğrusu, indiyə qədər ağlımıza gəlməyib. Heç bilirsən camaatın bu taxıl üyütməyə nə qədər vaxtı gedir? Sən demişkən, böyük kənddir. Birdən elə olur ki, adam iki-üç gün növbəyə durur. Bir də, axı, elektriklə işləsə, bu bir dəyirmanlıq su da havayı axmaz.

– Havayı niyə axır? Bəs o nədir? – deyə Musa dayı təzə salınan bağı göstərdi.

– Oraya ildə cəmi iki-üç dəfə su lazım olur. Amma sən, il on iki ay havayı axıdırsan suyu. Qabağında elə bir yer də yoxdur ki, əkib-becərəsən. Axı, yayda bu suyun hər damcısı bir qızıla bərabər olur.

Musa dayı yaşıl qanovuzdan tikilmiş tənbəki kisəsini açıb, demisini hirsli-hirsli dolduraraq:

– İndi dediyin nədir? – deyə Qədirdən soruşdu.

– Dediyim budur ki, incinerin sözü ağlıma batır. Dəyirmanı tokla işlətmək lazımdır.

– Mən ölsəm də, o novun suyunu sovmaram, – Musa dayı acıqlı halda dəyirmandaşının o biri tərəfinə keçdi.

– Camaat deyəndən sonra sovarsan, – Qədir furajkasının dalını qaldırdı.

Bu vaxt Bəyim içəri girib salam verdi, atasından soruşdu:

– Çay qoymuşuq, sənə də gətirimmi?

– İstəmirəm! – deyə Musa dayı qəzəblə cavab verdi.

Bu, görünməmiş bir iş idi. Əslində, davakar bir adam olan Musa dayının öz qızına güldən ağır söz dediyini hələ indiyə qədər eşidən olmamışdı. Bəyim qızararaq əvvəlcə Humaya, sonra da atasına baxıb, cəld dəyirmandan çıxdı.

– Bizə acığın tutub, daha qızın üstünə niyə qışqırırsan, – deyə Qədir, Musa dayını məzəmmət etdi.

Bayaqdan bəri kənardan söhbətimizə qulaq asan yaşlı bir kəndli:

– Ay Musa, – dedi, – nahaq acıqlanırsan. Düzdür, bu dəyirmanı sənin rəhmətlik atan usta Qubad tikib, ancaq daha indi elektrik zamanıdır.

Musa dayı hirslə yana tüpürdü və qocaya cavab vermədi.

Biz dəyirmandan çıxıb gedəndə, Qədir qaqqıldayıb ucadan gülərək:

– Siz öləsiniz, – dedi, – bu Musa kişi dəsgahlı adamdır. Elə bilirsiniz, o tokla işləməyin xeyrini başa düşmür?

– Əgər, başa düşürsə, niyə etiraz edir? – deyə Humay təəccüblə soruşdu.

– Əvvəla, ona görə ki, bayaq o qoca deyən kimi, bu dəyirmanı onun atası tikib...

– Nə olsun atası tikib, indi ki, camaatındır.

– Nə qədər də olsa, ata yadigarıdır, ayrıla bilmir. İkinci əsas məsələ də odur ki, dəyirmanda işləməyin gəliri çoxdur. Axı, Musa kişi bir az tamahkar adamdır... Közü öz qabağına eşməyi xoşlayır. Ancaq sən ona qulaq asma. Balaca bir layihə hazırla, əvvəlcə özümüz baxaq, sonra da verək camaatın müzakirəsinə.

Axşam düz səkkizin yarısında mən, arxası üstə çarpayıda uzanaraq, qəzet oxuyan Humaydan soruşdum:

– Bu gecə təzə film göstəriləcək, getmək istəyirsinizmi?

– Nə filmdir?

– «Canlı meyit.»

– Gedək, – o, həvəslə ayağa qalxaraq, qəzeti stolun üstünə qoydu.

Bizim, «Mədəniyyət sarayı» deyə gurultulu bir ad verdiyimiz üç yüz adamlıq balaca klubumuz kəndin aşağı tərəfindəki açıqlıqda yerləşir. Klubun qabağında saldığımız kiçik bağçanın ağacları indi





adam boyu qalxıb, çiçək açmışdır. Ağacların altı yaşıl yoncalıqdır. Ərik ağaclarının çəhrayı çiçəkləri arasında Sabirin yarımbüstü görünür. Biz bu balaca klubumuza o böyük şairin adını qoymuşuq.

Divarları təzə əhənglənmiş klubun qabağına çoxlu adam toplanmışdı. Demək olar ki, bütün cavanlar burada idi. Oğlanlar bizim yerlərin dəbinə uyğun boğazlı çəkmə geymiş, günlüyü uzun furajka qoymuş, köynəklərinin üstündən enli qayış çəkmişdilər. Bizim cavanların hamısı yaxşı geyinməyi, bahalı zabit kəməri bağlamağı, ən gözəl xromdan uzunboğaz çəkmə tikdirməyi sevirdilər.

Qız-gəlinlər sarı, qırmızı, yaşıl parçalardan əlvan paltar geyib, təzə ipək kəlağayı örtmüşdülər. Bir dəstə gəncin ortasında dayanmış dostum Şahlar furajkasını yan qoyaraq, yenə, nə isə, məzəli bir şey nağıl edir, gənclər də gülməkdən uğunub gedirdilər. Təzə mahud frenc geymiş Musa dayı da bir qədər aralıda iki kişi ilə dayanıb, demisini tüstülədirdi. Bütün tərsliyinə baxmayaraq, o, ömründə bir kino buraxmazdı. Bizi görərkən qaşqabağını töküb, üzünü o yana çevirdi.

Humay buna əhəmiyyət verməyərək:

– Salam, Musa dayı! – deyə gülümsədi.

– Salam! – Musa dayı üzünü döndərmədən, sərt ifadə ilə cavab verdi.

Biz onların yanından keçib kassaya yaxınlaşanda, Bəyimi üç yoldaşı ilə gördük. Bəyim bilet alıb, geri dönəndə, bizi görüb, nə üçünsə qızardı. Sonra gülümsəyərək:

– Eyvaz, – dedi, – bilet almısınız?

Mənim cavabımı gözləmədən təkrar kassaya tərəf dönüb:

– İkisini də verin, – deyə pul uzatdı.

– Sən dayan, Bəyim, – mən mane olmaq istədim.

Lakin, o, biletləri alaraq, kassadan aralandı.

– Nə üçün siz zəhmət çəkirsiniz? – deyə Humay ona müraciət etdi.

Bəyim, Humayın üzünə baxmadan, ciddi və utancaqlıqla:

– Bir zəhməti yoxdur, – deyib biletləri mənə uzatdı.

Onun əynində krepdeşindən lap son dəblə tikilmiş qolları uzun don, balaca və yaraşıqlı ayaqlarında qara lak tufli, zərif ipək corab var idi. Bir qədər geri sürüşmüş ağ kəlağayısı altından qara saçlarının zərif qıvrımları görünürdü. Gözləri, gözəl və ağ üzündə bir cüt qaragilə kimi parıldayırdı.

Bizim kənddən çıxmış ziyalılar çoxdur. Onların içində həkim, mühəndis, hətta, elmlər namizədi də vardır. Yay zamanı, onlar istirahət üçün çox vaxt öz kəndimizə gəlirlər. Hər axşamçağı biz həmin bu klubun qabağına toplaşır, ordan-burdan söhbət edirik, tar çalırıq, hətta, bəzən teatr tamaşaları da hazırlayırıq. Belə zamanlarda

hamının diqqətini cəlb edən qızlardan biri, bəlkə də birincisi Bəyim olur. Demək istəyirəm ki, o, çox oğlanlarla tanışdır. Lakin, mən heç bir vaxt onu indiki vəziyyətdə görməmişdim. Ən gözəl, ən adlı-sanlı oğlanlarla belə, çox sərbəst deyib-danışan Bəyim indi qəribə bir gərginlik içində idi. Mənə elə gəlirdi ki, o, baxışlarını qəsdən ancaq mənim üzərimdə saxlamağa çalışırdı.

Humayın üzündə isə, ciddi və doğrusunu deyim ki, bir az təşəxxüslü ifadə var idi. Biz tamaşa zalına daxil olduqda, o, geri çəkilərək qızları qabağa buraxdı və qəsdən məni özü ilə Bəyimin arasına saldı. Bəlkə, qısqanclıqdan doğan bu müşahidələr mənim gərgin və narahat hisslərimlə bağlı aldanışdır? Biz dinməzcə oturub, baxırdıq. Ekranda gördüyüm aləm məni əsəbiləşdirirdi. Orada, nə isə, insanın nəfəsini daraldan, boğucu bir şey var idi. Mən Protasovun faciəsini görmək istəmirdim. Mənə nə olub? Nə üçün hər şey əsəblərimə toxunur?

– Bəyim, – deyə əyilib onun qulağına pıçıldadım, – sabah axşam səni dünənki yerdə gözləyəcəyəm.

O, gülümsəyərək, başını buladı. Bəli, gülümsəyərək... Bu, daha yaxşı idi. Bu, bahar fırtınası başlamazdan əvvəl çaxan şimşək kimi gözəl və cazibədar idi.

– Niyə gəlmək istəmirsən, Bəyim?

– Bir dəfə getdik, bəsdir. Daha nə var? – dedi.

Sonra birdən qulağıma tərəf əyilərək pıçıltı ilə soruşdu:

– Sənin qonağının adı nədir?

O, gülümsəyib dedi:

– Humay...

– Humay ki, qız adıdır.

Onun bu yarımqaranlıqda çətin seçilən üzü mənə hər zamankından daha gözəl, daha təravətli göründü. Mən ürəyimdə həm ağrı, həm də sevgi hiss edirdim. Yoxsa qısqanırdım? Yox! Min dəfə yox! Mən özümə bu qədər yaxın olan səadətin birdən-birə quş kimi uçub getməsini istəmirdim. Mənə elə gəlirdi ki, yanımda döyüntüsünü duyub-eşitdiyim ürək təkcə onun deyil, bütün həyatın qəlbidir! Mən isə, həyatı, yaşamağı sevirəm. Mən onun əlindən tutaraq, demək istəyirdim: «Bəyim!.. Əzizim! Bu dünyada hər kəsin bir ulduzu var. Mənim taleyimə də sən düşmüsən. Sən olmasan, mən yaşaya bilmərəm».

... Biz kinodan çıxanda, saysız-hesabsız ulduzlarla əhatə olunmuş Aypara kəndin yuxarı tərəfindəki bağların üzərində idi. Uzaqdan dəyirmanın səsi və qurbağaların qur-quru eşidilirdi. Adamlar dəstə-dəstə söhbət eləyə-eləyə evlərinə gedirdilər.





Bəyim özünəməxsus sadə, mehriban və şən bir dillə Protasovu zəiflikdə, «bir arvaddan ötrü başını itirməkdə» təqsirləndirir, «kişi gərək möhkəm olsun» deyirdi. O nə üçün belə deyirdi? Nəyə işarə edirdi? Humay isə, Bəyimin əksinə olaraq, Protasovun arvadını təqsirləndirirdi. Bütün bu mühakimələr məni əsəbiləşdirirdi. Mənə elə gəlirdi ki, Humayla Bəyimin danışıqlarında, nə isə, ürəyimi, izzəti-nəfsimi yaralayan bir şey var...

O gecə Humayla uzun zaman ordan-burdan danışdıq. Humay bayaq kənddəki sükutunun əksinə olaraq, indi söhbətinə ara vermirdi. O, hər şeydən: kəndimizdən, Qədirin məzəli hərəkətlərindən, Musa dayıdan danışırdı, lakin bir dəfə də olsun, Bəyimdən söz salmırdı.

– Bizim qızlar necə, xoşunuza gəlirmi? – deyə zarafatyana soruşdum.

O, qaşlarını çatıb, açıq pəncərədən görünən qaranlıq bağçaya baxaraq, xeyli susdu. Sonra mənə sarı dönərək, eyni ciddiyyətlə soruşdu:

– Bəyim harada oxuyub?

– Bizim onilliyi bu il qurtarıb. İmtahan vaxtı xəstə olduğu üçün ali məktəbə gedə bilmədi.

– Yoxsa, atası qoymayıb?

– Xeyr, Musa dayının sizin təklifinizə razı olmadığına baxmayın. Elmlə, mədəniyyətlə arası sazdır... Bizim kənddə ən yaxşı radioqəbuledici, ən yaxşı avadanlıq onun evindədir. Azərbaycan dilində çıxan qəzet və jurnalların çoxuna abunə yazılıb.

Hər zaman olduğu kimi, mən, indi də Musa dayıdan, onun ailəsindən böyük həvəslə danışırdım. Humay isə, daha heç bir şey soruşmurdu. Yalnız haçandan-haçana:

– Qəribədir, – deyə öz-özünə danışırmış kimi astadan dilləndi. – Musa dayı qəzet və jurnallara abunə yazılır, amma öz xeyrindən ötrü dəyirmanın elektriklə işləməsinə razı olmur.

O susdu, üzü yenə də fikirli və tutqun ifadə aldı.

Anam içəri girib, bizə axşam yeməyi təklif etdi.

Humay:

– Mən gecələr yemirəm, – dedi.

– Mənim də iştaham yoxdur, ana!..

Sonra gündüzkü əhvalat yadına düşdü. Dedim:

– Ana, bu gün Musa dayıda dəsgah var idi... Humay deyirdi, vaxta ki, kənddə «SES» var, dəyirmanı nə üçün su ilə işlədirsiniz?

Anam Humaya diqqətlə baxaraq soruşdu:

– Yəni, elektriklə işlətmək mümkündür?

– Əlbəttə, – deyə qonağın əvəzinə mən cavab verdim.

– Unu-zadı nə cür çıxar?
– Lap kefiniz istəyən kimi, – deyə Humay gülümsədi.

Sonra mənə müraciətlə əlavə etdi: – Görürsünüzmü, Bədirxan xalanı da, hər şeydən əvvəl, unun nə cür çıxacağı maraqlandırır.

– Daha, bəs, dəyirman nə üçündür? – deyə anam gəlib boş stullardan birində oturdu. – Əgər, bir elə iş eləsəniz, pis olmaz... O dəyirman bir qol suyu avara eləyib.

– Bilirsinizmi, – deyə mən Humaya izah etdim: – Anam kəndin cuvarıdır. O yay olmaz ki, su üstündə Musa dayı ilə üzləşməsin.

– Siz cuvarsınız? – deyə o, təəccüblə anama baxdı.

Anam bir az tündləşərək, kəskin Qarabağ şivəsi ilə:

– Necə bəyəm? Mən cuvar ola bilmərəm? – dedi və iti baxışlı gözlərini, meydan oxuyurmuş kimi, Humaya zillədi.

– Axı, cuvarlıq çox dava-dalaşlı işdir.

– Davaya qaldı, anama qaldı...

– Sən də qoy görək, – arvad mənə acıqlandı.

Sonra Humaya sarı dönərək:

– Bura bax, qardaşoğlu (o cavan oğlanlara həmişə, kişi kimi, qardaşoğlu deyir), – dedi, – sən lap yaxşı şey fikirləşmisən. Səhər bir yerdə gedib Qədirə deyərik.

– Qədir bilir, özü də razıdır, – dedim.

– Onda, qurtardı, getdi... Camaat da razı olar. Musa elə bilir, atası Qubad ki, o dəyirmanı tikib, tay heç kəs yaxına gedə bilməz. Qızını gördünüzmü?

Humay bərk qızardı və cavab vermədi.

– Görüb, ana, indicə bizimlə kinodaydı.

– Bir mahala dəyən candır. Göyçək, ağıllı, kamallı, hər sözü-söhbəti yerində...

– Az təriflə, ay arvad, sonra Humayla aramızda dava düşər.

– Eh... bilirəm ki, sizdə elə kəramət yoxdur.

Anam qalxıb, o biri otağa keçdi.

Biz işığı söndürüb, çarpayıya uzandıq. Lakin yata bilmirdik. Humay tez-tez bu böyrü üstündən o birinə çevrilirdi.

Sevgi ilə bahar əkiz yaranmışdır. Sevgi heç bir zaman bahardakı qədər cazibədar, möhtəşəm və narahat olmur. Budur, bütün kəndin yuxuya getdiyi, yalnız dəyirmanın qıjıltısı ilə qurbağaların səsinin eşidildiyi bu bahar gecəsində bəzən olur ki, haradansa ürəyimə tikanlar sancılır... Bəzən bütün ağrılar unudulur, hər sevgi anı bir əbədiyyət qədər uzun, bir əfsanə kimi gözəl olur...

«Lakin, bütün bunlar, bu iztirablı dəqiqələr, bu şirin anlar nə üçündür?» deyə mən filosofluq edirəm. Bu zaman pəncərənin





pərdəsini yellədərək içəri dolan yaz küləyi sanki özü ilə yeni duyğular gətirir. Sanki bahar mənim bu bədbin düşüncələrimə qarşı üsyan edir. Sanki bahar mənə həyatın, böyük və əbədi həyatın nəfəsini duydurmaq istəyir.

... Səhər çay içib, evdən çıxdıq. Humay artel idarəsinə, mən isə, bağlara yollandım. Mən kəndin ayağında Bəyimə rast gəldim. Onun təzəcə yuyulmuş gözəl ağ üzü səhər-səhər açılmış nərgiz kimi zərif və təravətli idi. Saçlarının qabaq tərəfdəki qıvrımları hələ yaş idi. Qara gözlərində sevinc şəfəqləri oynayırdı.

– Sabahın xeyir, Eyvaz! Bu gecə niyə yatmırdın?

– Mən? Mən yatmışdım!

– Bəs, gecə artırmanızda gəzən kim idi?

(Yadımdan çıxıb deyəm ki, Bəyimgilin eyvanından bizim ev aydınca görünür.)

– Bilmirəm. Yəqin bizim qonaq imiş.

– Hə... – deyə, o, sözü uzatdı.

Üzü dərhal ciddi ifadə aldı. Mən soruşdum:

– Bəs, sən nə üçün o çağacan yatmamışdın?

– Bilmirəm. Elə yaxşı gecəydi ki, heç yuxum gəlmirdi.

– Amma mən daş kimi yatmışdım.

– Yatmayıb nə qayıracaqdın? Cavan oğlansan. Yazın yuxusu da ki, şirin olur...

Onun gülə-gülə dediyi sözlərin hər biri köz kimi ürəyimin başına yapışırdı. Mən istəyərdim ki, «daş kimi» yatdığım üçün Bəyim məni məzəmmət etsin, aramızda giley-güzar olsun. Lakin, görünür... yox, deməyə dilim gəlmir... Bir də, axı, nə üçün mən ondan belə şeylər umuram? Buna mənim nə haqqım var?

... Axşam Humaydan soruşdum:

– Keçən gecə, deyəsən, bədxab olmuşdunuz?

– Bəli, gördüm yata bilmirəm, durub çıxdım eyvana. Nə bildiniz?

– Mənə Bəyim dedi... O sizi görürmüş...

– Haradan? – Humay dərin heyrət içində mənə baxdı.

– Oradan, bax, qabağında böyük iydə ağacı olan o ikimərtəbə evin eyvanını görürsünüzmü? Oradan!...

Sevənlərin öz adi gözlərindən başqa bir də ürəklərinin gözü olur və bu göz onların sevgisi ilə əlaqədar olan hər şeyi fövqəladə bir doğruluqla görüb duyur. Ona görə də, Humay nahaq yerə iydə ağacı ardından görünən o eyvana baxmamağa cəhd edirdi.

– Bu gün nə ilə məşğul oldunuz? – deyə mən aramızdakı gərgin sükutu pozmaq üçün soruşdum.

O, ağır bir yükdən qurtarmış kimi, dərindən nəfəs alıb, həvəslə söhbətə girişdi:

– Dəyirmanı elektrikləşdirmək üçün balaca bir layihə düzəldib verdim Qədir kişiyə, sonra da MTS-in həyətində olan maşınları nəzərdən keçirdim.

– Dəyirman məsələsində Musa dayı lap dəli olacaq.

O, qaşlarını çatıb, Musa dayının eyvanına tərəf ötəri bir nəzər salaraq:

– Nə etməli? – dedi, – camaatın xeyri dəyirmanın elektriklə işləməsindədir!..

... Səhəri gün, təxminən saat birdə, mən qəlyanaltı eləmək üçün velosipedlə evə qayıdarkən, klubun yanından keçən yolda Humayla Bəyimin dayanıb söhbət etdiklərini gördüm... Velosiped altımda büdrədi və mən qeyri-ixtiyari olaraq yerə düşdüm.

Humay nə isə deyir, Bəyim də gözlərini aşağı dikərək, kəlağayısının ucunu oynada-oynada onu dinləyirdi. Hər ikisinin üzündə ciddi, gərgin və həyəcanlı ifadə vardı. Mən özümü danlayaraq: «Qəribə adamsan, – deyirəm, – nə olsun. İki tanış adam küçədə bir-birinə rast gəlib, beş kəlmə söz danışa bilməz? Yaxşı deyil... Burada dayanıb, onlara baxdığımı görsələr, ürəklərinə yüz cür şey gələ bilər. Kişi kimi yaxınlaş, salam ver».

Lakin mən öz rəyimin əksinə, velosipedə minib, yavaşca geri dönərək, başqa yolla getdim.

... Anamın gətirdiyi xörəyə əlimi vurmayıb, Humayı gözləyirdim. Yarım saat keçdi, o gəlmədi, bir saat keçdi, gəlmədi. Hava bu gün elə bürkü idi ki, adamın lap ürəyi qısılırdı.

– Sən çörəyini ye. Səhər də dilinə heç nə vurmamısan. Humay gələr, onun da payını qızdırıb verərəm, – deyə içəri girən anam təkid etdi.

Mən qəribə bir narahatlıq içində ayağa qalxıb:

– İştaham yoxdur, – deyə stoldan uzaqlaşdım.

– Sənə nə olub, bala? Çörəkdən-sudan niyə kəsilmisən?

– Mənə nə olacaq, ay arvad? – deyə gülümsədim. – Bayaq düşərgədə bir az yemişəm. Ona görə də, indi ürəyim istəmir.

Anam inanıb, o biri otağa keçdi. Mən, iradəmin əksinə olaraq, aşağı, düşüb velosipedə mindim, birbaş kluba sarı getdim. Tini burulanda Bəyim qarşıma çıxdı. Velosipedi saxlayıb düşdüm. O da, istər-istəməz (mən bunu, ani olaraq, onun üzündə yaranan narahat ifadədən hiss etdim), ayaq saxladı.

– Haradan gəlirsən, Bəyim?

O, bir az özünü itirərək:





– Klubdan, – deyə astadan cavab verdi.

İkimiz də susduq. İkimiz də gərgin həyəcan içində idik.

Nəhayət, səsimə mümkün qədər mehriban ahəng verməyə çalışaraq:

– Nə oldu, Bəyim, – dedim, – fikirləşdinmi?

Qəribədir, o bu sualı gözləyirmiş kimi, tələsik və soyuq ifadə ilə:

– Bilirsənmi, Eyvaz, – dedi, – bizim evlənməyimiz baş tutan iş deyil.

– Nə üçün?..

– Mən lap uşaqlıqdan səni bir qardaş kimi istəmişəm.

Sonra həyəcanla üzümə baxaraq əlavə etdi:

– Xahiş edirəm, inciməyəsən.

Mən gülümsəyərək:

– Niyə inciyirəm ki? – dedim və yavaşca velosipedə minib, yoluma davam etdim...

Ətrafına ulduzlar düzülmüş Aypara ilə işıqlanan bahar gecəsi həyəcan və fərəhlə nəfəs alırdı. Gecə, qızılgüllərin, yasəmənlərin ətri ilə dolu ılıq havası ilə üzümü oxşayaraq, qulağıma təselliverici səslər pıçıldayırdı. Gecənin mehribanlığında bir intəhasızlıq, bir ehtişam var idi.

Bayaqdan bəri, köklənmiş tar simləri kimi tarım çəkilən əsəblərim, elə bil ki, boşalırdı. Elə bil ki, cümlə dərdlərin loğmanı olan ana təbiət bizə bəxş etdiyi həyatın gözəllikləri haqqında fərəhli mahnılar bəstələyirdi.

Lakin sən o həyatın özü deyildinmi, Bəyim? Səndən əli üzülən bir adam necə iztirab çəkməyə bilərdi? Evinizin böyründən keçib gedirdim. Sən, Ay işığında yarpaqları gümüştək parlayan iydə ağacının ardında, eyvanınızda dayanıb, bizim evə sarı baxırdın. Lakin artıq bunun mənə aidiyyəti yox idi. Mən indi göydəki ulduzlara necə baxırdımsa, sənə də eləcə baxırdım. Yox, mən düz demədim. Əgər, sən bir ulduz olub, göylərdə parlasaydın, mən bütün gündüzü gecənin xəyalı ilə yaşayardım. Mən səni tuş tutub, bütün ömrüm boyu fərəh və səadət içində irəliləyərdim. İndi mən sənsiz harada qərar tutub dayana bilərəm? Əgər, sən məni mənim yüzdə birim qədər sevsəydin, ömrüm nəhayətsiz bir səadət içində keçərdi. İndi ki, sevmədin, yenə də xoşbəxtəm. Çünki sən xoşbəxtsən! Əgər, bu qədər müddətdə sən məni gələcək bir ər kimi sevə bilmədinsə, bu səninmi günahındır? Axı, sevgi də bu gecə, bu bahar kimi gəldiyi zaman bizim rəyimizi soruşmur. Əgər, soruşsaydı, and içərəm ki, sən məni sevərdin. Axı, sən bilirdin ki, mənim yüz canım olsaydı, birini də səndən əsirgəməzdim.

Mən xəfif səslərlə dolu zəmilərin arasındakı cığırla gəlib dəyirmanın üst tərəfindəki söyüdlüyə, srağagün axşam Bəyimlə birlik-

01/01–13

də oturduğumuz yerə çıxmışdım. Lakin indi bura mənə, obası köçüb getmiş bir yurd kimi yiyəsiz və qərib görünürdü.

Gumbultu ilə arxa tullanan qurbağaların səsində, aşağıda dəyirman çarxına tökülən suyun şırıltısında indi payız çiskinitək kədərli bir şey duyurdum.

Ürəyim elə yaman sıxılırdı ki... Mən özümdə sentimental bir qüssə deyil, tamamilə aydın, fiziki ağrı və iztirab hiss edirdim.

Axı, mən bilirdim ki, həyat yalnız bizim bir qıza olan məhəbbətimizdən ibarət deyil... Mən bunu lap yaxşı bilirdim. Mən yaşamağı sevən, cəmiyyətimizə xeyir verməkdən hədsiz nəşə duyan zəhmətkeş bir adamam; atam da, babam da belə olublar. Mən sabun köpüyü kimi boş xəyallara, avara üzüntülərə nifrət edirəm. Lakin... Balzak deyir ki, «sevgi – gənclik ruhunun çiçəklənməsidir». Bu, doğrudan da, belədir. Mənim qəlbimdə bahar coşğunluğu ilə açılmış çiçəklər isə, birdənbirə tufana düşmüşdü. Bu tufan o qədər güclü idi ki, özümdə hədsiz fiziki qüvvə hiss etdiyim halda, gələcək güləş yarışlarında birinci çıxmaq arzusu ilə hər səhər ağır daşları oynatdığım halda, uşaq kimi başımı itirmişdim.

Ancaq zərbə nə qədər güclü olursa-olsun, onu mərdliklə qarşılamaq lazımdır! Mənim yeganə təsəllim bu olacaq! Əgər, mən bunu, yəni, öz mərdliyimi itirsəm, demək, həqiqətən məhv olmuşam!

Görəsən, Musa dayı bu saat nə edir?

Mən yoxuşu enib, dəyirmana yaxınlaşanda, Musa dayının novun yanındakı dikdirdə demi çəkdiyini gördüm.

– Salam, Musa dayı, burada niyə oturmusan?

– Elə-belə... Sən bu vaxt burada nə gəzirsən?

– Kənddən gəlirəm, dedim görüm dəyirmanda növbət var, ya yox? Səhər bir az dən üyütmək istəyirik.

– Olar...

Bizdən bir az aralıda iki çılpaq at xırıltı ilə otlayırdı. Sıx böyürtkən kolları arasında hərlənən çarxın səpələdiyi soyuq su zərrələri üzümüzə toxunurdu. Havada buğda ununun qoxusu duyulurdu.

Ağzındakı deminin odu közərir, Musa dayının tutqun üzünü və dərində qaralan gözlərini işıqlandırırdı. Mən danışmaq istəyirdim.

– Musa dayı, dünənki söhbətin axırı nə oldu?

O, demini ağzından götürüb, qaranlıqda tüpürdü:

– Bir şey ki, Qədirin başına girdi, fələk gəlsə, çıxara bilməz.

– Camaat da istəyir...

– Cəhənnəmə ki!.. Dədə-babadan yadigar qalan bir budur, qoy bunu da uçurub-dağıtsınlar. Özün bilirsən ki, mən heç vaxt elin xeyrindən-şərindən kənarda qalmamışam. Əgər, bu su dəyirmanından





indiyə qədər bir adam narazılıq eləmiş olsaydı, bu kənddən bir adam ayrı dəyirmana dən aparsaydı, sabah birinci mən özüm baltanı götürüb, o novu çilik-çilik elərdim. İndi ki, heç bir narazılıq yoxdur, niyə özünüzdən iş açırsınız?

– Vaxt gələcək ki, kənddə hər işi elektrik görəcək, Musa dayı.

– Görəcək, görsün də... Elə gərək bu dəyirmandan başlayasınız?

Musa dayı hirslə əlini yellədi.

Bir xeyli müddət sükutla keçdi. Birdən Musa dayı mənə tərəf dönərək:

– Sən o qonağına deynən ki, farağat otursun, – dedi. Kəndi birbirinə qatmasın. Onu göndəriblər MTS-ə, getsin işini görsün.

– Qonaq bizim xeyrimiz üçün deyir.

– Lazım deyil onun xeyri bizə.

Bu zaman dəyirmandan bir kəndli çıxaraq, üzünü qaranlığa tutub:

– Ay Musa! – çağırdı. – Gəl bizi yola sal.

Musa dayı dinməz-söyləməz qalxıb, ağır addımlarla uzaqlaşdı.

Qaranlıqda «dəh» deyə-deyə atları dəyirmana tərəf sürən kəndlinin səsi və ayaq tappıltıları eşidilirdi...

... Mən, ulduzların altında dəniz kimi hərəkətə gələn zəmilərin arası ilə kəndə doğru gedə-gedə düşünürdüm: «Bəlkə, mənim bütün bu narahatlığım, bütün bu iztirablarım axmaq bir qısqanclığın nəticəsidir. Bəlkə, mən, Don Kixot kimi havayıca özümdən çıxıram?».

Lap qulağımın dibindən kiçik qanadlarını ılıq və ətirli bahar havasına çırparaq bir quş da uçub keçdi. Yəqin ki, qızquşu idi. Qaranlıq zəmilərin arasında şərid kimi ağaran cığırla irəliləyib, balaca təpəni aşandan sonra Bəyimgilin evi göründü.

Birdən, pəncərədən düşən çıraq işığının qabağını kəsən yarpaqların kölgəsində iki nəfərin durduğunu gördüm. Onlar idi. Bəyimlə mənim əziz qonağım! Aradan neçə saniyəmi, yoxsa neçə saatmı keçdi, bilmirəm. Nəhayət, onlar əl tutuşaraq ayrıldılar. Qız dönüb evlərinin darvazasına tərəf qaçdı. Oğlan da çevrilib, yavaş-yavaş yola doğru getdi.

... Mən pilləlnəri qalxıb evimizə girdiyim zaman Humayı otağın içində var-gəl edən gördüm. Onun üzündə xoşbəxt təbəssüm var idi. Bu, məhəbbətin elə böyük bir anı idi ki, insan öz riqqət və nəcibliyi ilə bütün dünyanı ehtiva etmək istəyir.

– Eyvaz, idarədə kim vardı? – deyə o, nəşə ilə soruşdu.

İri şabalıdı gözləri elə parıldayırdı ki, adamın lap xoşu gəlirdi...

– Mən idarəyə getməmişdim, – deyə içərimdəki gərginliyi boğmağa çalışaraq cavab verdim.

Xeyli müddət nə o danışdı, nə də mən dindim.

13*

Birdən Humay heç gözlənilmədən:
– Eyvaz, – dedi, – mən evlənmək istəyirəm.
– Zarafat edirsiniz?
– Xeyr, ciddi sözümdür.
Mən öz-özümə təskinlik verdim:
«Nə olsun, burada təəccüblü nə var ki? Bir-birini istəyəndən sonra niyə evlənməsinlər?» Lakin kürəklərimin arası elə gizildəyirdi ki, elə bil, bədənimə titrətmə gəlirdi. Elə bil, ürəyim qırılıb min arşınlıq quyuya düşürdü.
– Deməli, bizim kəndin suyu şirin imiş, – deyib gülümsədim. – Yaxşı, xeyir işin təqsirkarı kimdir?
O, stul çəkib oturaraq ciddi ifadə ilə:
– Mən Bəyimlə evlənmək istəyirəm, – dedi.
Mən, üsulsuz tərpənərək, qrafinin böyründəki stəkanı salıb sındırdım.
– Bax, bu qabın sınmağı yaxşı əlamətdir, – deyə zarafat etdim. – Sonra, dünyagörmüş təcrübəli adamlar kimi, təmkin və işgüzarlıqla əlavə etdim: – Bəyim ağıllı qızdır. Onunla yaxşı ailə qurmaq olar. Yəqin ki, siz öz aranızda bir qərara gəlmisiniz.
– Bəli, danışmışıq.
– Daha nə deyirsiniz? (Guya ki, o bir söz deyirdi.) Başqa şeylər asandır. Evlənməyiniz barədə mənə görə hər nə qulluğunuz olsa, hazıram. Gecəniz xeyrə qalsın.
– Çox sağ ol, Eyvaz!
Cəld yatağa girib, yorğanı başıma çəkdim. «Görəsən, Humay niyə mənə belə riqqətlə təşəkkür edir? Yoxsa, qız ona bir söz-zad deyib? Eh, deyəndə nə olar ki? Yatmaq lazımdır.»
... Səhər yuxudan oyananda Humayı açıq pəncərə qabağında dayanmış gördüm: onun çiyinləri üzərindən Musa dayının evinə tərəf baxdım, sərin kölgəli eyvanda tüstülənən ağ samovarın yanında üzü bəri dayanmış Bəyim gözümə dəydi.
Əlac yox idi. Mane olsam da, salamlaşmaq lazım idi.
– Sabahınız xeyir, Humay!
O, diksinib geri çevrildi:
– Sabahın xeyir, Eyvaz! Görürsən, nə gözəl havadır...
– Bizim kəndin nəyi gözəl deyil ki...
Əl-üzümüzü yumaq üçün aşağı düşdük. Bahar ömrünün ən coşğun çağlarını keçirirdi. Alma, ərik, şaftalı ağacları tamam çiçəklənmişdi. Qızılgül kolunun üstündə nəlbəki boyda iri güllər açılmışdı. Onların qırmızı yarpaqları üzərinə düzülmüş şeh damlaları səhər günəşinin incə şüalarını göz qamaşdıran parlaqlıqla əks etdirirdi.





Quşların həyəcanlı səsi bir-birinə qarışaraq, coşğun bir simfoniyanı xatırladırdı. Belə bir vaxtda canından artıq sevdiyin bir qızdan əlinin həmişəlik üzüldüyünü hiss eləmək çox ağırdır.
– Eyvaz, rəngin niyə qaçıb, xəstə-zad deyilsən ki?
– Xəstə niyə oluram? – mən iki pudluq daşı qəsdən sol əlimdə beş dəfə qaldırıb-endirərək xeyli uzağa tulladım.
– Afərin! Humay uşaq kimi sevindi. – Hüseyn deyirdi ki, sən bir dəfə bura qastrola gəlmiş pəhləvanı dörd dəqiqədə məğlub etmisən.
– Pəhləvanı məğlub etməyə nə var ki? – deyə zarafatla cavab verdim.
... İşə gedəndə Bəyimə rast gəldik. (Yəqin ki, səhər-səhər burada görüşməyi dünəndən sözləşmişdilər.) O, hər ikimizə eyni şən və xoşbəxt təbəssümlə baxıb salam verdi.
Mən özümü bacardığım qədər gümrah və şad göstərməyə çalışaraq:
– Əleykəssalam! – deyə keçib getmək istədim.
Lakin o, qolumdan tutaraq, həmişəki sərbəst və mehriban ifadə ilə:
– Eyvaz, – dedi, – lap Aya-günə dönmüsən. Hardasan, görünmürsən?
– Nə bilim, Bəyim, – dedim, – iş, güc...
– Rəşid gəlib. Səni soruşurdu.
– Doğrudanmı? Məndən ona salam de.
– Çox uzaqdasan? Niyə özün gəlib görüşmürsən? Günorta üstü Humayı da götürüb gələrsən.
– Nə olar, götürüb gələrəm... İndi məni bağışlayın, doqquzda sədrlə görüşməliyəm. Hələlik! Cəld uzaqlaşdım.
– Eyvaz, bax, gözləyəcəyik ha! – deyə Bəyim arxadan səsləndi.
Sözün açığı, yaman qəzəbləndim. «Əgər, bütün qızlar sənin kimidirlərsə, lənət sizin hamınıza! Gör bir zərrə qədər də olsa, vicdan əzabı çəkirmi?..» «Humayı da götür, gəl bizə.» Bir qədər keçdikdən sonra, «Axı, Bəyim nə üçün vicdan əzabı çəkməlidir? deyə özümü məzəmmət etdim. Onun bir qəlbi var, birini də sevir. Sənə söz-zad verməmişdi ki...»
Ancaq bunu demək asandır. Sən gəl ürək üçün təsəlli, rahatlıq tap! Mən bir yerdə dayana bilmirdim. Bu bağdan o bağa keçir, qarşıma hər kəs çıxırdısa, söhbətə tuturdum.
Nəhayət, gün günortadan əyildiyi zaman Bəyimin tapşırığını yerinə yetirmək üçün Humayın dalınca MTS-ə getdim. Yolda Şahlarla rastlaşdıq.
O, gülə-gülə:

– Eyvaz, – dedi, – sənə demədim ki, fürsəti əldən vermə?
– Nə olub?
– Guya ki, bilmirsən?
– Bəyimlə Humayın əhvalatını deyirsən?
– Yoxsa, sənə təsir eləmir?
– Eh... Nə çoxdur dünyada qız!..
– Afərin, bax, bunu yaxşı dedin. Bir qız ki, məni istəmədi, mən onu heç dünəndən istəmirəm...
– Vəssalam!
– Lap istəyir dünya gözəli olsun!
– Lap istəyir mələk olsun!
– Amma öz aramızdır, mühəndis pis oğlan deyil.
– Bəyim pis oğlanı istəyər?
– Doğrusu, bu məsələdən sonra əvvəllər onu görəndə əllərim yaman gicişirdi.
– Nə danışırsan, Şahlar?
– Amma indi baxıb görürəm, qıyılmalı oğlan deyil. Sən öləsən, o gələndən bəri MTS-in maşınları saat kimi işləyir. Deyirlər, başı çıxmadığı iş yoxdur. Amma, bura bax, Musa dayı ona qız verməyəcək...
– Nə üçün?
– Necə nə üçün? Xəbərin yoxdur? Məsələ qaldırıb ki, dəyirmanı elektrikləşdirsin. Musa dayını da ki, tanıyırsan, dəyirman dədəsindən qalıb, elə bilir ziyarətgahdır. Sən ölməyəsən, dəsgah olacaq... Belə hara gedirsən?
– MTS-ə.
– Niyə?
– Humayı götürüb, Musa dayıgilə gedəcəyəm. Bəyim bizi qonaq çağırıb.
– Sənin məhəbbətindən qətiyyən baş açmıram. Xudahafiz.
Şahlar acıqlı halda uzaqlaşdı.
Mən onun arxasınca baxaraq gülümsədim: «Burada baş açılmayacaq nə var ki?»
Maşın-traktor stansiyasının geniş həyəti cürbəcür kənd təsərrüfatı maşınları ilə dolu idi. Humay bir dəstə cavan mexanizatorla «S-86» traktorunun açılmış motoru yanında dayanıb, onlara nə isə izah edirdi. Başı söhbətə o qədər qarışmışdı ki, mənim gəldiyimi belə hiss etmədi. Qədir də burada idi. Hamıdan qabaqda dayanaraq, gözlərini qıyıb, mühəndisin sözlərinə diqqətlə qulaq asırdı.
Humay tez-tez əyilib-qalxır, əli ilə motorun yağlı hissələrinə





toxunaraq, fikirlərini əyani surətdə başa salırdı. Onun gözləri indi hər zamankından daha parlaq və canlı görünürdü.
Mən, mane olmamaq üçün, qiraət otağına gedib, qəzetlərə baxdım.
... Biz Qədiri də dartıb özümüzlə birlikdə Bəyimgilə apardıq, o da mənim kimi, Rəşidlə bərk dost idi.
– Qorxuram Musa kişi bizi qova, – deyə o, bərkdən güldü. Bu gün dəyirmanın tokla işləməyi barədə qərar çıxarmışıq.
Mən, Şahların bayaqkı sözlərini xatırladım: «Doğrudan da, onlara niyə gedirəm? Yaxşısı budur ki, bir şey bəhanə elə, geri qayıt». Lakin qayıtmadım.
Biz qoşa çinarın altından keçib, qırmızı darvazadan içəri girdik, taxta pilləkənlə Musa dayının evinə qalxdıq.
Üzərinə ağ süfrə çəkilmiş stolun arxa tərəfində qoyulmuş enli taxta çarpayıda yastığa dirsəklənib kitab oxuyan Rəşid ayağa qalxdı, qabağımıza yeriyərək, hər birimizlə görüşdü. Sonra stulları göstərdi:
– Əyləşin.
Bəyim də gəlib bizə salam verdi və dərhal qayıdıb getdi.
Rəşid ucaboylu, gözəl, gülərüz bir oğlandı. Atasının gözləri kimi, bir az dərində olan qara gözləri ilə qonağa diqqət yetirərək dedi:
– Əgər, səhv etmirəmsə, siz bizim MTS-in mühəndisisiniz?
Qədir təsdiq etdi:
– Özüdür ki, var.
– Atamın kürkünə yaman od salmısınız. Acığından bu gün hamımızla dalaşıb. Mənə deyir ki, sən ispalkomla danış, qoymasın dəyirmana əl vuralar... Deyirəm, ay ata, dəyirmanın sahibi arteldir, ispalkom nə deyəcək?
Rəşid gülümsəyərək, stolun üstünə qoyulmuş açıq «Kazbek» qutusundan bir papiros götürüb yandırdı.
Eyvanın o biri başındakı kürənin üstündə nə isə bişirən Kəklik xala kök bədənini yırğalaya-yırğalaya gəlib, bizə «xoş gəldin» elədi. Onun əynində qolları enli boz köynəklə qara arxalıq, uzun tuman, başında ağ haşiyəli bənövşəyi kəlağayı var idi.
– Necəsən, ay bizim dağların kəkliyi? – Qədir ona sataşdı.
– Hər halda, səndən qıvrağam. – Kəklik xala onun köklüyünə işarə vuraraq, dil altında qalmadı.
– Elə olar da! Kişini qupquru qurudub, özün, maşallah, gündən-günə ətə-cana gəlirsən.
– Bəsdir ha! – Kəklik xala məclisdə yad qonaq oturduğu üçün həya ilə yaylığını ağzına çəkdi.
Qədir gülərək:

– Eybi yoxdur, – dedi, – bunlar da öz uşaqlarımızdır, sirrinizi heç yerdə açmarıq.

– Bizim təzə inciner bu oğlandır?

– Hə, budur, ana, – deyə Rəşid cavab verdi, – adı da Humaydır.

Kəklik xala gülümsədi:

– Deyirəm, a kişi, niyə acıqlanırsan? İndi tok əyyamıdır. Görmürsən, fermanın qoyunlarını da tokla qırxırlar. O gün qız deyirdi ki, bir azdan taxılbiçən maşın da tokla işləyəcək, traktor da... A kişi, deyirəm, indi ki, belədir, sən bu su dəyirmanı ilə ortada tək qalıb nə qayıracaqsan?

– Elədir, ana, – Rəşid ciddi təsdiq etdi.

Sonra bizə müraciətlə:

– Bilirsinizmi, – dedi, – o dəyirmanı sudan ayırmaq atama ağlasığmaz bir iş kimi görünür. Neçə dəfə olub ki, gecə bu eyvanda oturduğu yerdə birdən çayını yarımçıq qoyub, ayağa qalxıb ki, gedirəm dəyirmana, novun suyu azalıb. Soruşmuşuq «nədən bildin?», deyib «səsindən».

– Lalın dilini anası bilər, – deyə Kəklik xala dönüb kürənin yanına getdi.

Bəyim stolun süfrəsini dəyişdi, sonra bizə çay gətirdi. O, heç kəsə baxmırdı. Hətta, Humaya da... Xoşbəxt istəklilər həmişə belədir. Onların gözlərini bir-birinə zilləmələrinə ehtiyacları yoxdur. Etdikləri əhd-peyman onların qəlblərini birləşdirib bir qəlb etmişdir. Onlar gözləri ilə baxmasalar da, bir-birini görürlər.

Bəyimin öz əlləri ilə dəmləyib tökdüyü çay, çiçək kimi silib təmizlədiyi stəkanlar mənə doğma, eyni zamanda, uzaq və həsrətli duyğular təlqin edirdi. Elə bil ki, içərimdə, nə isə, şüşə kimi hey sınıb-tökülür, çilik-çilik olurdu. Bəyim mürəbbə qablarından birini mənim qabağıma çəkərək:

– Eyvaz, – dedi, – mürəbbə götür.

– Sağ ol, Bəyim.

Müsahiblərin arasında söhbət qızışmışdı. Humay, Rəşidə deyirdi:

– Yeni dəyirman barəsində sədrlə də aramızda mübahisə var. Mən bu fikirdəyəm ki, köhnə dəyirmanın balaca qaranlıq otağı bizim düşündüyümüz elektrik dəyirmanı üçün yaramaz. Binanın özünü də təzələmək lazımdır.

– Şübhəsiz! Sədr buna niyə etiraz edir ki? – deyə Rəşid soruşdu.

Qədir, qırmızı ətli ovurdlarını şişirdərək nə isə fikirləşdi. Sonra gözlərini qıyıb başını yana əydi:

– Axı, dəyirman gəlin-zad deyil ki, bəzək-düzək vuraq. Maşınları





yaxşı işlədi, bəsdir. Bir də, filan qədər xərc töküb, təzə bina tikmək nəyə lazımdır?

– Məsələ bəzək-düzəkdə deyil. On il bundan qabağa qədər biz, bax, onun içində olurduq. – Rəşid həyətin sağ tərəfindəki balaca kərpic binanı göstərdi. Ancaq güzəranımız yaxşılaşandan sonra baxdıq ki, daha ora bizə əl vermir. Təzə aldığımız çarpayıları qoymağa yer tapmırıq. Ona görə də, bu evi tikdik.

– Doğrudur, – deyə Humay hərarətlə təsdiq etdi. – Hətta, mən deyirəm ki, dəyirmanın əsas binasından başqa, dən üyütməyə gələnlər üçün də bir-iki otaq tikək. Balaca bir qiraətxana düzəldək. Bəs necə?.. İşi görmə, gördün əsaslı gör! Yarımçıqdan mətləb çıxmaz.

– Bəs, dəyirmanın köhnə binası nə olsun? – deyə Qədir ondan soruşdu.

– Nə olacaq? Uçurdub daşından istifadə edərik. Yerində də Eyvaz gözəl bir bağça salar.

Qədir dedi:

– Əşi, sən ölməyəsən, onda Musa bizi topa tutar!

Rəşid gülümsəyərək:

– Mən sizin fikrinizə tamamilə şərikəm, – deyə Humaya müraciət etdi.

Sonra o, Qədirə tərəf döndü:

– İstəsəniz, yeni dəyirman binası üçün sizə yaxşı bir layihə düzəldərəm.

– Daha nə deyirsiniz? – Humay sədrə baxdı.

Qədir ağ dəsmalla tərini silərək:

– Görürəm ki, sən Musa kişiyə qənim kəsilmisən, – deyə Humayla zarafat etdi. – Qoyun bir heyətlə məsləhətləşim, görüm nə deyirlər?

– Heyət təsdiq edəcək.

– Təsdiq eləsə, mənim də bir sözüm yoxdur.

Sonra o, məzəli bir ifadə ilə boynunun ardını qaşıyaraq əlavə etdi:

– Ancaq dəyirmanın binası sökülləndə, gərək mən alapaça ürgəni minib kənddən qaçam.

Hamımız gülüşdük. Gəlib stəkanları yığışdıran Bəyim:

– Qədir dayı, bax, atama sataşma ha! – deyə onu hədələdi.

– Canım üçün, Bəyim, Bədirxandan o qədər qorxmuram, nə qədər ki, atandan qorxuram.

Humay etiraz etdi:

– Bədirxan xala çox mehriban arvaddır.

– Yaman! – Qədir başını buladı. – Qoy pambığın suyu başlasın. Gör necə mehriban olur!..

Bəyim qab-qacaq düzərək, anasının çəkdiyi plovu gətirib stolun

üstünə qoydu. Qardaşı və Qədir nə qədər təklif etdilərsə də, özü gəlib bizimlə oturmadı. Kəndimizin köhnə adətlərindən bir çoxu hələ öz hökmündə idi. Qadınlar, xüsusən ərlik qızlar kişi məclisində oturub, çörək yeməzdilər ki, «ayıbdır».

Kəklik xala gözəl yeməklər bişirməsi ilə məşhur idi. Toylarda asılan qazanlara gərək o, heç olmazsa, bir nəzər salıb, göstəriş verə idi.

Biz çörək yediyimiz zaman Musa dayı eyvana çıxıb ədəblə, lakin quru və sərt bir ifadə ilə:

– Hamınız xoş gəlmisiniz, – dedi.

– Keç, əyləş, əşi, – Qədir qaşıqla dolu düyünü ağzına apararaq, böyründəki kürsünü göstərdi.

– Siz yeyin, mən çay içəcəyəm...

– Deyəsən, ürəyinin yanğısı hələ sönməyib.

Musa dayı Qədirin nəyə işarə vurduğunu hiss edərək, cavab verməyib, dilxor halda otağa keçdi. Qədir çiyinlərini qısaraq xısın-xısın güldü. Rəşid də gülümsədi.

Sonra mən Bəyimin iri nazik stəkana necə səliqə ilə çay töküb içəri apardığını gördüm.

Çörəkdən sonra biz soyuq Qarabağ dovğası içib, ordan-burdan söhbət edirdik. Bəyim söhbətdə iştirak etmir, üzərinə iydə budağı əyilmiş məhəccərə söykənib, həyətə baxırdı. Görəsən, nə düşünürdü?

Köklüyünə baxmayaraq, məclisdə hamımızdan az yeyən Qədir dəsmalla üzünün tərini silib Rəşidə deyirdi:

– Bu Humayı Allah bizə yaxşı yetirib. Gərək toku möhkəm işə salaq. O boyda dəmirçixanamız var, dəhnəmiz var.

– Bütün bunları elektrikləşdirmək üçün siz, hər şeydən əvvəl, mühüm bir tədbir görməlisiniz, – Rəşid əvvəlcə Qədirə, sonra da Humaya baxdı.

Qədir soruşdu:

– Nə tədbir?

– «SES"-i gücləndirmək lazımdır.

– Doğrudur, – deyə mühəndis təsdiq etdi. – İndiki «SES»-in elə böyük işlərə gücü çatmaz.

Qədir gözlərini qıyaraq fikirləşdi. Sonra qəti dedi:

– Böyüdərik. Su var, pul var, mühəndis də var. Daha nə lazımdır? Sərin düşdü, durun enək bağçaya. Musanın ağacları bu il yaman bar gətirib. Eyvaz, aşağı bağlardakı heyvalara qarışqa daraşıb, görmüsənmi?

– Sabah hamısını əhəngləyəcəyik.

Biz bağçaya endiyimiz zaman Humay ayaq saxlayıb, Bəyimə nə





isə dedi. Qız lap güclə sezilən bir təbəssümlə altdan-yuxarı ona baxaraq dinmədi.

...Rəşidin verdiyi o kiçik qonaqlıqdan xeyli keçmişdi. Tökülmüş çiçəklərin yerində yaşıl meyvələr görünürdü. Zəmilər biçildi, tayalar vurulurdu. Ot çalımı çoxdan qurtarmışdı. Yük maşınları tez-tez dəyirman dərəsinə enərək, daş, qum, ağac boşaldıb qayıdırdı. Yetmiş ildən bəri ara vermədən səslənən su dəyirmanı ömrünün son günlərini yaşayırdı. Daim sükut içində olan Musa dayının demisi ağzından düşmürdü. Bu az müddətdə qonağın şöhrəti bütün rayona yayılmışdı. Onu tez-tez qonşu kəndlərə aparırdılar. Məsləhət alırdılar. İşi nə cür qurmuşdusa, MTS-in maşınları saat kimi işləyirdi.

Bir axşam çörək yeyəndən sonra o:

– Eyvaz, – dedi, – istəyirəm Musa dayının yanına elçi göndərəm, ağlın nə kəsir?

Mən fikirləşdim: «Görəsən, bu dəyirman əhvalatından sonra Musa dayı bizim qonağın elçisinə nə cavab verər?» Və dedim:

– Əlbəttə, göndərmək lazımdır.

– Ancaq bilmirəm kimi göndərək?

Mən heç bir kəsi xatırlaya bilmirdim. Qəribə idi, elə bil ki, kəndimizdəki adamların adları tamam yadımdan çıxmışdı.

– Bədirxan xalanı göndərsək, necə olar?

– Hə... gör heç ağlıma gəlirmi?.. Yaxşı tapmısınız. Musa dayı ilə bacarsa, ancaq anam bacarar. Su üstündə tez-tez dalaşsalar da, bir-birinin xətirlərini istəyirlər. Ay ana, bir bura gəl görək...

Humay həyəcanla ayağa qalxdı. Anam o biri evin qapısını açıb içəri girdi. Mən ona dedim:

– Elçi getmək lazımdır.

Arvad təəccüblə üzümə baxdı:

– Kimin üçün?

– Humay üçün.

– Humay kimin kürəkəni olmaq istəyir?

– Musa dayının?

– Hansı Musa dayının?

– Dəyirmançı...

– Nə olar, Bəyim qızların padşahıdır.

Sonra anam Humaydan soruşdu:

– Bircə de görüm, atan nə iş görür?

– Müəllimdir.

– Hə... Bəs, anan?

– Anam yoxdur, ögey anam var.

– Qardaş-bacın necə, var?

– Xeyr, təkəm.
– Ay arvad, – dedim, – belə anket doldurmaqda fikrin nədir?
– Nə olacaq, kimin üçün elçi getdiyimizi gərək biləк, ya yox?
– Doğrudur, doğrudur, – deyə Humay cəld təsdiq etdi.
– Yaxşı, ana, indi nə vaxt gedirsən?
– Nə vaxt məsləhətdir?
– Lap elə sabah!
– Nə olar...
– Ancaq bir az ehtiyatlı danış. Musa dayının xasiyyətini bilirsən.
– Mənə tərslik eləyə bilməz. Qızın «hə»sini almısınız?
– Eh... Göydə!.. Bəs onsuz olar? – deyə mən təəccüblü bir ruh yüksəkliyi ilə cavab verdim. Lakin, bununla belə, otağın havası mənə azlıq edirdi. Humayla anamı evdə qoyub, bayıra çıxdım.

Gecə isə, həmişəki tək sakit və əzəmətli idi. On dörd gecəlik Ay düz Bəyimgilin evlərinin dalındakı qoşa çinarın üstündə dayanmışdı. Yarpaqları Ay işığında gümüş kimi parıldayan iydə ağacının ardındakı eyvanda heç kəs yox idi. «Bir dünyanın işinə bax, Bəyim! Səni başqasına istəmək üçün mən öz anamı elçi göndərirəm... Nə olar ki?.. Yəqin mənim yerimə sən də belə edərdin. Adam düşmən gülləsinin yarasına dözür. Halbuki sən mənim bu dünyada ən çox istədiyim, sevdiyim bir insansan!..»

Səhər bütün günü Bəyimi görmədim. Yalan nə deyim, qəsdən görməməyə çalışdım. Nə qədər də olsa, ağırdır. Görməyəndə yenə birtəhər dözmək olur. Bu bağdan girib, o birindən çıxdım. İki dəfə Şahların mənimlə danışmaq istədiyini hiss edərək, cəld uzaqlaşdım. Nə deyəcəyini gözlərindən bilirdim. Dünyada bu sual-cavabdan da pis şey varmı?!

Axşamçağı camaat işdən qayıdandan sonra anamı geyindirib-kecindirib qonşumuz Tükəz xala ilə birlikdə Musa dayının evinə göndərdik.

Humay yaman həyəcan keçirir, bir yerdə dayana bilmirdi.

– Siz nahaq yerə narahat olursunuz, – mən ona təsəlli verirdim. – Qızın rəyi olandan sonra kim nə deyə bilər?

– Musa dayı məni görəndə üzünü o yana çevirir. Heç ağlım kəsmir ki, razılıq versin. Ancaq, yenə də, adam göndərmək lazım idi, – deyə o, gözlərində ciddi və ağıllı bir ifadə olduğu halda otaqda gəzinirdi.

– Çalışarıq razı olsun, olmasa, ayrı bir yol taparıq. – Humay mənim nə demək istədiyimi başa düşərək, eyni ciddi ifadə ilə:
– Yox, – dedi, – razılıq verməsə, çətin olacaq.
– Niyə axı?
– Qız atasının razılığı olmadan ərə getmək istəmir. Yaxşı da eləyir.





– Yaxşı eləyir?
– Əlbəttə.
– Mən sizi anlaya bilmirəm. Tutaq ki, Musa dayı heç razılıq vermədi, qız da onun sözündən çıxmadı. Bəs, onda nə olsun?
– Çalışıb Musa dayını razı salmaq lazımdır. Mən bu əqidədəyəm ki, evlənən üçün ata-ananın rəyi əsas şərtlərdən biridir. Tutaq ki, Musa dayı, onun ata yadigarını dağıdıb, ayrı bir şəklə saldığım üçün mənə nifrət edir. Biz, yəni, Bəyimlə mən, bunu bir gerilik əlaməti hesab edərək, nəzərə almaya bilərik. Çünki cəmiyyətin xeyri dəyirmanın indi su ilə deyil, elektriklə işləməsindədir. Deməк, məntiq bu konfliktin bizim xeyrimizə həll olunmasını tələb edir, elə deyilmi?
– Elədir...
– Ancaq, axı, Bəyimi böyüdüb boya-başa çatdıran Musa dayıdır. Axı, onun ömrünün ən yaxşı çağları Bəyimə, bir də camaat üçün işləyən o su dəyirmanına sərf olunub... İndi bunları onun əlindən alıb, özünü də rədd etmək böyük ədalətsizlik olmazdımı?

Bu zaman anam hirsli-hirsli içəri girdi.
– Nə oldu, ay arvad? – deyə mən həyəcanla soruşdum.
O mənə cavab verməyərək Humaya dedi:
– Lap günü sabah qızın qolundan tutub gətirərsən, eşitdinmi? Qoy ondan sonra dəyirmançı Musa ha atılıb-düşsün.
– Bir başa sal, görək nə dedi?
– Deyir, qızı o dəyirmanın boğazına atıb öldürərəm, amma ona vermərəm. Dedim, heç özündən çıxıb-eləmə. Bu, keçmiş zəmanə deyil... Ondan adam olmaz, vəssalam. Nə qədər eyham vururuq ki, qızla-oğlan alışıb-verişiblər, başa düşmür. Götür gəl, qoy qalsın yana-yana. Onda ağıllanar.

... Ertəsi gün, dəyirmanın qabaq tərəfində saldığımız alma bağının yanında Humayla Bəyimi dayanıb danışan gördüm. Qızın üzü solğun idi. Gözlərində kədər və təlaş var idi. Mən salam verib keçəndə, nəzərləri bir an üzümdə dayandısa da, fikrinin çox uzaqlarda olduğunu hiss etdim. Yəqin ki, bu anda mən onun üçün tamamilə yad bir adam idim.

Nahardan sonra Humay pencəyini geyərək:
– Eyvaz, – dedi, – xahiş edirəm mənimlə bir yerə gedəsən.
– Haraya?
– Yolda deyərəm.

Həyətdən çıxıb sükut içində bir qədər gedəndən sonra Humay dilləndi:
– İstəyirəm Musa dayı ilə şəxsən özümüz danışaq.

Doğrusunu deyim ki, Humayın sözü məni ürkütdü. Çünki evlən-

mək istəyən oğlanın qız barəsində gedib onun atası ilə danışması (xüsusən atası ilə) indiyə qədər bizim kənddə görünməmiş bir iş idi. Qorxurdum ki, Musa dayı Humaya ağır bir söz deyə, mən də pis vəziyyətdə qalam.

– Bəlkə Qədirə deyək, bir-iki ağsaqqal da götürüb...

O, sözümü kəsərək:

– Yox, – dedi, – özüm danışacağam. Əgər, sən getmək istəmirsənsə...

– Nə üçün? Gedək!..

Mən vaxtilə fövqəladə qəhrəmanlıqlar haqqında düşünərdim. İndi öz dostumun işi üçün Musa dayının yanına getmək nədir ki?..

Su dəyirmanı hələ işləyirdi. Onun qabaq tərəfindəki açıqlıqda isə, bizim camaatın dili ilə desək, təzə «tok dəyirmanı» tikilirdi. Binanın layihəsini Rəşid vermişdi. O hərdən gəlib, işin gedişinə baş çəkirdi. Srağagün də gəlmişdi. Gülə-gülə bizə deyirdi ki, «maşını düz sürdüm dəyirmana. Yaxşı ki, atam orada deyildi...»

Usta Qara ilə şagirdləri hörgünü xeyli qaldırmışdılar.

Musa dayı, adəti üzrə, novun bəri tərəfindəki böyürtkən kollarının kölgəsində oturub demisini tüstülədirdi. Bizi görəndə üzünü o yana çevirdi. Bir istədim deyəm ki, Humay, gəl sən bu daşı ətəyindən tök, ancaq demədim.

Humay, köhnə dost kimi, tamamilə sərbəstcə:

– Salam, Musa dayı, – dedi və kişinin gözlərindəki qəzəbə əhəmiyyət verməyərək, otların üstünə əyləşib, mənim də oturmağıma işarə etdi.

Əyləşdim. Sonra Humay heç tərəddüd etmədən:

– Musa dayı, – dedi, – mən sizinlə danışmağa gəlmişəm.

Musa dayı bir neçə saniyəlik sükutdan sonra bizə tərəf baxmadan soruşdu:

– Nə barədə?

– Mən sizinlə Bəyim barədə danışmaq istəyirəm...

Musa dayı iti və sərt bir hərəkətlə üzünü bizə tərəf çevirib, heyrətlə əvvəlcə mənə, sonra Humaya, sonra yenə mənə baxdı. Sanki kişi Yer üzündə görünməmiş qəribə bir şey eşitmişdi. Birdən barıt kimi açılaraq, dəyirmanın şırıltısını batıran qəzəbli səslə mənim üstümə qışqırdı:

– Ə , Bədirxan oğlu, bunun haradan çıxdığını bilmirəm, bəs, sən heç utanıb-qızarmırsan?

Humay pərt, lakin sakit halda dedi:

– Niyə təhqir eləyirsiniz, biz ki, bir pis iş eləməmişik?

Musa dayının dərindən baxan gözlərindən od tökülürdü:





– Üzünüzdə həya olsa, adamı adam yerinə sayarsınız! Mənim qızım sizin üçün su dəyirmanı deyil ki, iclasa qoyasınız. Adam göndərdin, cavabını da aldın.

Humay təslim olmaq istəmirdi:

– Bəyim sizin fikrinizlə razı deyil.

– Mənim qızımın adını tutma! – Musa dayı göy kimi guruldadı. – Eşitdinmi? Mən uşaq böyütməmişəm ki, hər dərədən keçən onun adını tutsun.

– Mən dərədən keçən deyiləm, Musa dayı!

Kişi yanıb-yaxılaraq, bu dəfə cavab verməyə söz tapmadı. Birdən ayağa qalxıb, əsəbi addımlarla uzaqlaşdı. Humay onun ardınca baxa-baxa qaldı.

– Görəsən, dəyirmana görə belə edir, yoxsa, ümumiyyətlə, məndən zəhləsi gedir? – deyə öz-özü ilə danışırmış kimi soruşdu.

– Əlbəttə, Musa dayını ən çox hirsləndirən dəyirman məsələsidir. Ancaq, ola bilsin ki, sənin buralı olmamağının da bir az təsiri var. Eşitdiyimə görə, keçmişdə bizim camaat «gəlmə» adama qız verməzmiş.

– Niyə?

– Kim bilir...

Kəndin girəcəyində Qədirə rast gəldik.

– Haraya belə? – deyə gözlərini qıyaraq soruşdu.

Humay, Musa dayı ilə olan söhbətimizi nöqtəsinə qədər ona danışdı.

Qədir əllərini bir-birinə vuraraq bərkdən güldü:

– Əşi, – dedi, – bir tərəfdən kişinin ata-baba yadigarını uçurub dağıdırsan, o biri tərəfdən də qızına elçi göndərirsən. Belə şey olar?

– Yaxşı, bəs indi neyləyək? – deyə Humay soruşdu.

Qədir iri ətli əllərini kəmərinə keçirib, ovurdlarını şişirdərək fikirləşdi. Sonra dedi:

– Qızla maşına əyləşib «Zaqs»a getməkdən başqa ayrı çarəsi yoxdur. «Pobeda» sizin qulluğunuzda, ancaq elə tərpənin ki, Musa kişi xəbər tutmasın. Yoxsa, mənimlə ömürlük qanlı-bıçaq olar ki, maşın verib, qızımı qaçırtmısan. Yaxşı olar ki, Kəkliklə, Rəşidlə məsləhətləşəsiniz.

– Onlarla kim danışsın?

– Mən danışaram, – deyə Qədir cavab verdi.

...Artıq hər şey hazır idi. Kəklik xala ilə Rəşid razılıq vermişdilər. Sabah Humay ilə Bəyim kəbin kəsdirməyə gedəcəkdilər.

Humay maşın-traktor stansiyasının yaxınlığında özü üçün ev tutdu. Evin sahibi Hüseynəli dayı dünyagörmüş, ürəyiaçıq bir kişi idi. Huma-

yın mənzilini lap gəlin otağı kimi bəzətdirdi. Demək, o, bizdə axırıncı dəfə qalacaqdı. Ayrılıq həmişə kədərlidir.

Humay, adəti üzrə, başını aşağı salaraq, otaqda var-gəl edirdi, nə isə fikirləşirdi. Birdən mənim qarşımda dayanaraq:

– Eyvaz, – dedi, – neçə gündür mən səni birtəhər görürəm.

– Nə cür?

– Elə bil, nə isə, bir sıxıntı keçirirsən.

– Ola bilər.

Sonra sakit və ciddi ifadə ilə əlavə etdim:

– Bilirsənmi, ağırdır, birdən-birə unutmaq olmur.

– Nəyi?

– Sevdiyin, istədiyin qızı.

– Sən kimi sevirdin?

– Bəyimi.

Sükut.

O, başını aşağı salaraq ahəstə səslə cavab verdi:

– Mən bunu hiss edirdim. Ancaq niyə əvvəldən demirdin?

– Nə mənası vardı ki?..

Humay dinmədi.

Bəlkə də, mən bunu açmamalı idim. Lakin o mənim dostum, qonağım idi. Mən belə böyük bir sirri ondan gizli saxlaya bilməzdim.

– Səhər saat neçədə şəhərə gedəcəksiniz? – deyə mən uzun və gərgin sükutu pozaraq soruşdum.

O, başını qaldıraraq dərin, ciddi bir nəzərlə üzümə baxdı:

– Saat yeddidə!

... Səhər şəfəq sökülən zaman Qədirin «Pobeda»sı qoşa çinarın altında dayandı. Mən, anamla Humayı maşında qoyaraq, düşüb Musa dayının darvazasını üç dəfə yavaşca taqqıldatdım. (Musa dayının dəyirmanda qaldığını dürüst öyrənmişdik.) İki dəqiqə çəkmədi ki, Kəklik xala ilə Bəyim gəldilər. Qızın üzündəki solğunluq və kədər məni heyrətə saldı. Görünür, ən xoşbəxt dəqiqələrin də özünə görə dərdi olurmuş!

Kəklik xala da həm kefsiz, həm də həyəcanlı idi. Humay qızı qarşılamaq üçün maşından çıxmaq istədi.

– Lazım deyil. Sən otur, – deyə mane oldum.

Sonra Bəyimin əlindəki çamadanı alıb, maşına qoydum. Anam qıza dedi:

– Gəl, bala, gəl otur.

Bəyim sanki bu sözdən diksinərək, başını qaldırıb, gözlərini həyəcan içində ona zilləmiş anasına baxdı. Birdən hər ikisi qucaqlaşdı. Qız üzünü anasının geniş, ətli köksünə sıxaraq ağlayırdı. Həmişə





üzügülər olan Kəklik xala da uşaq kimi ağlayırdı. Mən üzümü yana çevirdim.

Anam dedi:

– Tay yaxşı, Kəklik, ağladın, ürəyini boşaltdın, qoy qız otursun.

Kəklik xala yaylığının ucu ilə gözlərini silib, qızının üzündən öpdü:

– Get, bala, xoşbəxt olasan!

Bəyim, dinməz-söyləməz, kimsənin üzünə baxmadan, gəlib maşının dal tərəfində, anamın yanında oturdu.

– Sür! – deyə Humay həyəcanlı səslə şoferə dedi.

Maşın toz qopara-qopara uzaqlaşdı. Gözlərinin yaşı hələ də qurumamış Kəklik xala ilə mən dayanıb onun ardınca baxırdıq. Maşın isə, getdikcə uzaqlaşırdı. Nəhayət, o, səhər günəşi ilə işıqlanmış mavi üfüqdə gözdən itdi...

Mən, biçilmiş buğda zəmilərinin arası ilə yavaş-yavaş irəliləyirdim. Dərz ilə dolu bir maşın gəlib yanımdan keçdi. Maşının üstündə yabasını dərzə sancmış Şahlar məni görüb gülümsədi:

– Sabahın xeyir, aqronom! – qışqırdı.

Onun gözəl üzü sevinc və xoşbəxtliklə parlayırdı.

Mənim yolumla çarpaz kəsişən cığırla, əyinlərində qırmızı, sarı, yaşıl paltar olan bir dəstə qız-gəlin keçib gedirdi. Onlar bir-biri ilə zarafatlaşır, bərkdən gülüşürdülər. Məni görərkən dəmirçi Muradxan dayının qızı gözəl Əsmər yoldaşının qulağına nə isə pıçıldadı. Sonra hər ikisi bir an çevrilib mənə tərəf baxaraq, utancaq, mehriban və bakirə bir ifadə ilə gülümsədi. Bir dəfə Bəyim gülə-gülə mənə demişdi ki, «Eyvaz, Əsmər səndən yaman çox danışır».

Dünyada Bəyimin iti və həssas nəzərlərindən nə yayına bilərdi?!

Uzaqdan çaparaq bir atlı gəlirdi. Bu, Qədir idi. O, bir əli ilə cilovdan, digər əli ilə furajkasından yapışaraq, atın üstündə quş kimi oturmuşdu.

Mənə çatanda cilovu çəkdi. Alapaça ürgə iki dəfə şahə qalxıb cilovu gəmirə-gəmirə dayandı.

– Nə oldu? – deyə Qədir gözlərini qıyaraq soruşdu.

– Getdilər!

Sədr daha heç bir söz deməyərək, bir yerdə aram tapmayan ürgənin cilovunu buraxdı.

Zəminin kənarındakı yaşıl otluqdan çil-çil turac pırıltı ilə havaya qalxıb, ayrı bir yerə düşdü.

Mən yoluma davam edərək, dəyirman aşırımını endim. Heç nədən xəbəri olmayan Musa dayı böyürtkən kollarının kölgəsində oturub, üzü o tərəfə, demi çəkirdi.

01/01–14

Usta Qara ilə şagirdləri təzə dəyirmanın divarlarını hörürdülər. Mən onların yanından keçib, bağa getdim. Bu gün alaq otlarını təmizləyəcəkdik...

*1954*

## «SƏN EY BÖYÜK YARADAN» KİTABINDAN

### YUSİF VƏ ESFİR

***Cavan və istedadlı sənətkar dostum Mikayıl Mirzəyevə ithaf edirəm.***

Bəni-İsrail Yusiflə arvadı Esfir gözəl, səfalı düzənliklə sakit-sakit axan, suyu gün işığında almas kimi parlayan bir çayın sahilində balaca, səliqəli evlərində yaşayırdılar. Onların həyatı da həmin o çay kimi sakitcə axıb gedirdi.

Qırx il idi ki, Yusif Allaha ibadət edirdi. Daşa Girən Kahin İbrahim demişdi ki, kim qırx il, hər gün, hər gecə Allaha ibadət eləsə, Allah onun üç xahişini yerinə yetirər. Yusif bir gün də ibadətinin vaxtını keçirmirdi. Xoşqılıq, həvəsli bir qadın olan Esfir həyətlərində toyuq-cücə, qaz saxlayır, bütün günü həvəslə ev-eşiklə məşğul olur, Yusifin çaydan tutduğu balıqlardan ləzzətli xörəklər bişirirdi və sütunlarına sarmaşıqlar sarışmış eyvanda əyləşib rahatca nahar eləyirdilər. Sonra Yusif ibadətə başlayır, Esfir isə, axşam çayda çimməyə gələn gənclərə tamaşa etməyə gedirdi.

Cavan qızların, oğlanların şən gülüşlərlə çayın almas kimi parlayan suyunda bir-biriləri ilə zarafatlaşmaları, oğlanların gözəl qızları suda qovub, tutub öpmələri, sonra sahildə isti qumun üstündə oturub, qədim bəni-İsrail mahnıları oxumaları Esfirə həsrətli bir zövq verirdi. Həsrət onun həyatının keçmişi ilə bağlı idi. Onun gəncliyi bu gənclərin həyatı kimi belə şən, qayğısız keçməmişdi. Yeddi uşağı olan kasıb ata-anası onu mişovul pişiyi kimi qızıl üstə yatan sələmçi Salomona qulluqçu vermişdi. Salomonun arvadı Raxil də zalım qadın idi. Esfirlə şirin dillə mehriban rəftar edir, amma o şirin dillə də hey işlədir, bir dəqiqə də nəfəsini dərməyə imkan vermirdi.

Yusif, Salomonun gözəl bağında bağban işləyirdi. Özü də bir könüldən min könülə Esfirə aşiq idi. Neçə dəfə girəvəyə salıb, ürəyini qıza açmışdısa da, Esfir «ah» çəkib başını bulamışdı. Esfir, Yusifin yaxşı oğlan olduğuna, onu da səmimi qəlbdən istədiyinə inanırdı. Ancaq bu yaxşı oğlanın xarici görünüşü, dərinlikdə işıldayan balaca, yaşıl gözləri, lap ucunda ziyil olan iri burnu sanki hər dəfə Yusiflə qarşılaşanda qızı geri itələyirdi. Amma neyləyəsən ki, digər oğlanlar da gözəl qədd-qaməti, cazibədar gözqaşı olan, gündə on adamın işini görən Esfiri sanki görmürdülər...

Bir dəfə Esfir evin tozunu aldığı zaman Salomonun qızı Saranın şit, dələduz bir oğlan olan nişanlısı onun biləyindən tutub demişdi:

– Mənimlə dost ol, hər ay sənə burda aldığından on qat artıq verim...

Esfir də onun burnunun üstünə elə bir yumruq vurmuşdu ki, uzun müddət qanı kəsilməmişdi.

İnsan dərdini yaxın bir adamına deməyəndə rahat ola bilmir. Esfirin də Yusifdən başqa yaxın adamı kim idi ki?.. Qız bağa qaçıb, yana-yana ağlayaraq, bu əhvalatı Yusifə danışdı. Ağır bir sükutdan sonra Yusif dedi:

– Axı, sən nə vaxta qədər araba atı kimi bu əclaflara işləyəcəksən? Onlardan bundan artıq nə gözləyirsən? Niyə mənim arvadım olmaq istəmirsən? Axı, bilirsən ki, səni nə qədər istəyirəm. Neçə vaxtdır mən də işləyirəm, azdan-çoxdan geriyə qoymuşam. Qanunla evlənərik, yer alıb balaca bir ev tikərik, bağ salarıq. Bütün ağacların dilini bilirəm. Gözəl uşaqlarımız olar...

Yusif belə deyəndə, Esfir «ah» çəkib Yusifin ziyil olan burnuna baxdı... Və nə üçünsə ağladı...

Və o gecə uzun zaman yata bilmədi... Fikirləşdi ki, illər keçib gedir... On doqquz yaşın içindəyəm. Mən arzu elədiyim oğlanların heç biri mənimlə maraqlanmadı... Maraqlananda da, ancaq müvəqqəti əyləncə üçün... Yusifə getsəm, heç olmasa, öz ev-eşiyim olar. Bəlkə, Allah gözəl bir övlad da verdi...

Esfir «ah» çəkib, yuxuya getdi.

... Və üç gündən sonra Yusif məclis paltarını geyib, Salomonun hüzuruna gedərək, ədəb-ərkanla ona bildirdi ki, Esfirlə evlənmək istəyir.

Həddindən artıq kök, xoşsifət bir kişi olan Salomon arvadı kimi rəhmsiz deyildi. İnsanlara yaxşılıq etməkdən ləzzət alırdı. Yusiflə Esfirin evlənmək əhvalatını xoşhallıqla qarşıladı, hətta hər birinə üç aylıq alacaqları qədər də ayın-oyun bağışladı.

Yusiflə Esfir evlənəndən sonra, indi içində yaşadıqları kürsülü, səliqəli evi tikdilər. Ər-arvad gecə-gündüz işləyərək, gözəl bağ düzəltdilər. Sonra övlad gözləməyə başladılar. Lakin illər keçir, böyük intizarla gözlədikləri oğlan, ya qız gəlib çıxmırdı ki, çıxmırdı...

Gözlədikləri övladın taleyi haqqında hər kəsin öz arzusu var idi. Yusif istəyirdi ki, oğlu olsun, oxusun, Salomon kimi tacir olsun...

Esfir istəyirdi ki, gözəl bir qızı gəlsin dünyaya, ona gözəl rəqslər öyrətsin və həzrət Yusif kimi (atası Yusif kimi yox!) gözəl bir oğlana ərə getsin...

Lakin illər keçirdi... Nə oğlan gəlirdi, nə qız...

O zaman Yusif, Daşa Girən Kahin İbrahimin yanına gedib, əhvalatı ona danışdı. Kahin İbrahim dedi ki:

– Kim qırx il, hər gün, hər gecə Allaha ibadət eləsə, Allah onun üç arzusunu yerinə yetirər...





... Və o gündən Yusif başladı gecə-gündüz Allaha ibadət etməyə.

Esfir çayda çimib-şənlənən gənclərə tamaşa eyləyib, evə gələndə, güzgüdə özünə baxanda, ona çoxdan vida etmiş o gözəlliyi haqqında düşünərək «ah» çəkirdi.

... Budur qırx il də keçdi. Yusif birinci arzunu diləyib, Allahdan övlad istəməyə hazırlaşırdı və gözlənilmədən Esfir ona yalvardı ki, Yusif Allahdan ona, yəni, arvadı Esfirə bir gözəllik əta eləsin!..

Esfirin qəfil bəyan etdiyi bu arzu Yusifin bütün fikirlərini alt-üst etdi. Onu o qədər həyəcanlandırdı ki, artıq heç nə haqqında sakit düşünə bilmədi. Məsələ onda idi ki, Yusif Esfirin keçmiş gözəlliyinin həsrətini çox çəkirdi... Bir də elə canla görüşmək, o zövq-səfanı hiss etmək ona hardan nəsib ola bilərdi? Esfir kimi gözəl, taleyin ona qismət etdiyi yeganə bəxşiş idi. İndi, əgər, Allah-təala Esfirin keçmiş gözəlliyini, gəncliyini özünə qaytarsa, demək, həyat onun da, Yusifin də üzünə təzədən güləcək və Yusif sonra Allahdan diləyəcək ki, bu gənc, gözəl arvadından ona bir övlad versin...

... Və Yusif üç diləkdən birincisini bəyan edib, Allahdan Esfirin on səkkiz yaşındakı gözəlliyini özünə qaytarmasını rica etdi.

Və Allah Esfirin on səkkiz yaşındakı gözəlliyini ona qaytardı.

Esfir güzgünün qabağında durub, özünə tamaşa edirdi. Yusif heyran-heyran ona baxaraq, biləyindən tutdu. Ancaq Esfir biləyini cəld onun əlindən qopararaq, Yusifi birinci dəfə görürmüş kimi, sərt nəzərlə burnuna baxdı və dedi:

– Neyləyirsən, utanmırsan, qoca kişisən!..

Yusif elə bildi ki, Esfir zarafat eləyir, şad-xürrəm gülüb dedi:

– Gərək sənə indi bədəninə görə paltar tikdirək. Yaşlı vaxtında kökəldiyin üçün, paltarlar çox gen olur.

Esfir çox ciddi ifadə ilə dedi:

– Düz deyirsən, gedək dərzinin yanına. Ancaq mən adamların yanında sənə ata deyəcəyəm, yoxsa, fikirləşərlər ki, qoca kişi nə münasibətlə bu cavan, gözəl qıza paltar alır?..

Yusif elə başa düşdü ki, Esfir yenə zarafat eləyir, bərkdən gülüb:

– Nə olar, – dedi, – elə olsun...

... Və Esfir təzə paltarı geyib, güzgü qabağında dayananda, o qədər gözəl, o qədər cazibədar göründü ki, Yusif həyəcanla irəliləyib qızı qucaqladı. Esfir çevik hərəkətlə sivişib, onun qolları arasından çıxaraq:

– Nə qayırırsan? – dedi. – Qoca kişisən, utanmırsan?..

Esfir bunu deyib, çayın sahilinə – cavanların həmişə çimib, rəqs elədikləri meydançaya qaçdı. Yusif yenə də təyin eləyə bilmədi ki, Esfir zarafat eləyir, yoxsa...

... Oradakı cavanlar birinci dəfə gördükləri bu gözələ heyran oldular. Məşhur zərgər Zəraxın ərköyün oğlu onu rəqsə dəvət elədi və Esfir

çoxdan həsrətində olduğu bu rəqsi elə məharətlə, elə cazibədarlıqla ifa etdi ki, qızlar paxıllıqla qısqandı, oğlanların isə, hamısı ona vuruldu...

Yusif də kənardan o gözəl qıza baxıb, o qədər heyran olmuşdu ki, Allahdan edəcəyi ikinci xahişi də yadından çıxarmışdı.

Axşam da zərgər Zəraxın oğlu gəlib, Yusifə əhəmiyyət vermədən qızı qonaq apardı.

Zərax çox hörmətli və dövlətli bir zərgər olduğundan, Yusif qızın getməsinə mane olmağa cəsarət etmədi. Amma yaman əsəbiləşdi. Esfir gələndə özündən çıxıb:

– Bu nə hərəkətdi? – deyə qışqırdı. – Ərini evdə qoyub, yad oğlanla qonaq gedirsən?

Esfir heç halını pozmadan:

– Bəs neyləyim? – dedi. – Qoca kişisən, sənin yanını kəsdirib oturmayacağam ki, cavan qızam...

Yusif nə qədər elədisə, qızı cavan oğlanlardan uzaqlaşdıra bilmədi. Esfir bir ər kimi də onun yaxınlığını rədd etdikdə, Yusif dedi:

– Axı, mən Allahdan övlad istəməliyəm...

Esfir dedi:

– Qoca kişisən, neyləyirsən övladı!

Yusif yanıb tökülərək, birdən-birə o qədər hirsləndi ki:

– Ya Allah, – dedi. – Sən bu Esfiri ayı elə! (Nə üçün məhz ayı? Demək çətindir...)

Bu da İsrail əhli Yusifin Allah-təaladan ikinci təvəqqəsi oldu.

Çay qırağına gələn cavanlar təəccüblə gördülər ki, gözəl qız birdən-birə yox olub. Onu da gördülər ki, bu yerlərdə bir ayı peyda olub, səhərdən-axşamacan gəlib Yusifin qapısında yatır. Özü də heç kəsə toxunmur. Elə bil ki, heç kəsi görmür.

O ayı, Yusifin bağçasından kənar heç yerə getmirdi. Bütün günü həyət qapısının qabağında oturub, gözlərini zilləyirdi evə. Sanki Yusifin heç bir hərəkətini gözdən qoymaq istəmirdi. Yusif hirslənib ona qışqırdı:

– Niyə çıxıb meşədəki qohumlarının yanına getmirsən?

Ayı isə, susaraq bütün günü eləcə baxırdı və onun ayı gözlərinin dərinliyində keçmək bilməyən bir kədər var idi. Yusif acıqlı-acıqlı gətirib onun qabağına yemək qoyurdu. Bir gün də lap özündən çıxaraq dedi:

– Mən hər gün sənə bal, armud, qoz tapıb verə bilmərəm!

Yusif xəsis deyildi və bu sözləri də xəsis olduğu üçün demirdi... Bu sözlərdən sonra ayı daha Yusifin qoyduğu yeməkləri yemədi. Bu isə, Yusifi daha çox pərişan edirdi.

Ayının hər gün evinin qabağında oturub, məzlum-məzlum ona tamaşa etməsi Yusifin ürəyinə təsir edirdi. Ona görə də, Yusif hirsləndi, yana-yana ayıya dedi:





– Nə var? Niyə yazıq-yazıq baxırsan? Allah mənim arzumla səni gözəl eləyəndə, niyə birdən-birə elə zalım oldun? Niyə fikirləşmədin ki, axı, Yusif o gözəlliyi sənə qaytarmaq üçün qırx il hər gün Allaha dua eləyib? Allahın köməkliyi ilə səndən övlad gözləyib! Hə?! Niyə dinmirsən, zalım, vəfasız qadın?

Nəhayət, bir gün zərgər Zəraxın ərköyün oğlu gəlib Yusifdən soruşdu:

– Bəs, sənin gözəl qızın haradadır?

Yusif əncir ağacının kölgəsində uzanan ayını göstərib qəzəblə dedi:

– Odur ey!..

Zəraxın ərköyün oğlu hirslənib dedi:

– Axmaq qoca, məni ələ salırsan?!

O «axmaq» sözü sanki Yusifin ürəyində bu oğlana qarşı qaynayan qəzəbə, nifrətə yol açdı. Yusif irəliləyib oğlana sillə vurdu. Zəraxın ərköyün oğlu güclü cavan idi. Ömründə birinci dəfə sillə yeyirdi. Bir əli ilə Yusifin xirtdəyindən yapışıb, o biri əli ilə də kişini silləeləməyə başladı. Bu zaman ayı qalxıb, onlara yaxınlaşaraq, pəncəsilə oğlanı vurub kənara tulladı. Oğlan bərk yerə dəydi, qalxıb darvazadan çıxmağa da macal tapmayaraq, hasardan tullanıb qaçdı. Sonra ayı dinməzcə gəlib yenə də o əncir ağacının kölgəsində uzandı. Yusif də onun yaxınlığındakı köhnə taxta kətildə əyləşdi.

On beş günlük Ay dünyanı sakit, mehriban bir nura qərq etmişdi...

Ayı ilə insan bir-birinə baxırdı. Birdən nə üçünsə Yusifi ağlamaq tutdu. Və ona elə gəldi ki, ayının Ay işığında işıldayan balaca gözlərində də yaş göründü.

Və bəni-İsrailin mömin bəndəsi Yusif əllərini göyə qaldıraraq:

– Ey böyük Allah! – dedi. – Sən Esfiri mənim qırxillik arvadım olduğu vaxtındakı şəklinə qaytar!..

Böyük Allah Yusifin üçüncü arzusunu gözləyirdi. Ona görə də, Esfiri neçə ay bundan əvvəlki şəklinə saldı.

Gün işığında almas kimi parıldayan o çayın sahilində yenə o qoca kişi və qarısı idi.

Beləliklə, Daşa Girən Kahin İbrahimin dediyi kimi, Allah bəni-İsrail Yusifin qırx illik ibadəti əvəzinə vəd olunmuş üç diləyinin üçünü də yerinə yetirdi.

*1991*

## VƏZİR ALLAHVERDİ XAN VƏ BƏHLUL DANƏNDƏ

Bəhlul Danəndə küçənin tinində, qoca çınarın kölgəsində, balaca palazın üzərində əyləşib, arxasını ağacın gövdəsinə söykəyərək, gəlib-gedən adamların başı üzərindən daima uzaqlara baxırdı. Bu, Bəhlul Danəndənin adəti idi. O, nadir hallarda adamların üzünə baxırdı.

Qarşısında üç balaca kül təpəciyi var idi.

Şahın birinci vəziri Allahverdi xan təğyiri-libas olub dərviş qiyafəsində böyük şəhərin küçələrini gəzib-dolanırdı ki, görsün xalq necə dolanır? Nədən korluq çəkir? Dövlət məmurları adamları incitmir ki?

Bir gün də o, Bəhlul Danəndənin qarşısındakı balaca gül təpəciklərini görüb, ayaq saxladı, ədəblə salam verib soruşdu:

– Bəhlul Danəndə, bu kül təpəcikləri nə üçündür?

Bəhlul Danəndə dərvişə ötəri bir nəzər salıb, könülsüz cavab verdi:

– Satıram onları...

Bəhlul Danəndə ona görə könülsüz cavab verdi ki, bu təpəciklərin mənasının cəlayi-vətən dərvişə dəxli olmadığını bilirdi.

Lakin dərviş əl çəkməyib soruşdu:

– Birini neçəyə deyirsən, Bəhlul Danəndə?

Bəhlul Danəndə ürəyində dilxor olub:

– Biri bir qızıladır! – deyə sərt cavab verdi.

Dərviş üç qızıl çıxarıb, Bəhlul Danəndəyə verərək dedi:

– İndi bunların mənasını mənə söylə görüm?

Bəhlul Danəndə birinci təpəciyi göstərib dedi:

– Bu kül təpəsi o adamın başına ki, padşaha inanır.

İkincisini göstərib dedi:

– Bu kül təpəsi də o adamın başına ki, arvadına inanır.

Üçüncüsünü göstərib dedi ki:

– Bu kül təpəsi də o adamın başına ki, dostlarına inanır.





Dərviş xudahafizləşib getdi.

Vəzir Allahverdi xan öz otağına çəkilib, Bəhlul Danəndənin sözləri barədə fikrə daldı. Və bu zaman, birinci olaraq, xəyalına öz həyatı gəldi. Bu həyat isə, əlbəttə, həm şahla, həm dostları ilə, həm də arvadı ilə bağlı idi.

Şah, çox qəddar olsa da, ədalətli Allahverdi xana hörmət edirdi. Onunla hesablaşırdı, heç bir mühüm tədbiri onun fikrini bilmədən həyata keçirmirdi.

Dostları? Allahverdi xan şahdan sonra həm vəzifə cəhətcə, həm də nüfuz etibarı ilə ölkədə birinci adam idi. Ona görə də, dostlarının hamısı vəzirin başına and içirdi. Hamısının ona böyük ixlası var idi. Vəzir də onlara ürəkdən inanırdı. Onların sədaqətinə əmin idi.

Arvadı? Vəzir Allahverdi xanın birinci arvadı rəhmətə gedəndən sonra, dörd il bundan əvvəl nisbətən cavan bir xanımla evlənmişdi. Qadın, yaraşıqlı, möhtərəm bir şəxs kimi, Allahverdi xanı çox istəyirdi. Onun sadiqliyinə şübhə etmək vəzirin heç ağlına da gəlməzdi.

Bir də ki, axı, bütün insanları eyni ölçü ilə ölçmək olmaz. Bəhlul Danəndə bu cəhətdən bəlkə yanılır...

Vəzir bu mühakimədən arxayın çıxsa da, ürəyini tam sakit eləyə bilmirdi. Axı, Bəhlul Danəndə heç bir zaman havayı söz deməmişdi... İndi vəzir, heç özündən asılı olmayaraq, şahın, arvadının və yaxın dostlarının hərəkətlərinə, onunla rəftarlarına qarşı çox həssas olmuşdu. Şahın bəzən qaşqabaqlı olması, bəzən vəziri-dərbarla təklikdə çox danışması, yaxın dostu vəkil Məşədi Mirzə İbinin baxışlarında hərdən hiss olunan qəriblik, ya cavan arvadının gündə bir neçə dəfə libasını, zinətini dəyişməsi onda şübhələr doğurmağa başlamışdı. «Lənət şeytana» deyə vəzir bu şübhələri özündən qovmağa çalışsa da, ürəyi sakit olmurdu ki, olmurdu.

Neçə illər idi ki, Allahverdi xan şahın Baş vəziri idi. Ölkəni idarə etməkdə, xarici dövlətlərlə münasibətdə, yəqin ki, yaxşı cəhətlərlə bərabər, səhvləri də olmuşdu. Bəlkə, şahın, ya dostlarının onun siyasətindən narazı qaldığı şeylər olub? Bəlkə, hansı fəaliyyəti isə şahın, dostlarının ürəyində gizli kin-küdurətə səbəb olub?! Bəlkə, onların birində şah hansı siyasi və ya iqtisadi səhvin buraxılmasında şəxsən onu günahkar elan edəcək? Bəhlul Danəndə bilir ki, Allah dərgahından qovulmuş şeytan yaxşı hökmdarın, yaxşı dostların da ürəyinə girib, onları düz yoldan çıxarır... Bəlkə, Bəhlul Danəndə bizi lənətə gəlmiş şeytanın bəd əməlinə qarşı sərvaxt olmağa çağırır.

Nəhayət, vəzir Allahverdi xan bu qərara gəldi ki, Bəhlul Danəndənin üç kül təpəciyinin mənasını yoxlasın.

«Birinci arvaddan başlamaq lazımdır» deyə düşündü. Rəhmətlik nənəsi Fatma zəhmətkeş bir kəndli qızı idi. Çox ağıllı, tədbirli bir qadın olduğu üçün xalq ona «El anası» deyərdi. Fatma nənə həmişə övladlarına deyərdi ki, «Allah qadınları kişilərdən zəif yaradıb. Onlara həmişə hörmət eləyin! Dərdlərinə şərik olun! Köməksizlərinə kömək eləyin! O zaman Allah da sizdən razı olar».

Fatma nənə onu da deyərdi ki, «Allah sizi bədəsil arvaddan uzaq eyləsin!»

Vəzir rəhmətə gedən arvadından da razı idi. Özü də həmişə qadınlara hörmət edərdi. Yalnız bu cavan arvadının həddindən artıq bər-bəzək, daş-qaş aludəsi olması vəzirin xoşuna gəlmirdi. Ona görə də, bir-iki dəfə çox nəzakətlə arvadına demişdi ki, cəmiyyət içinə çıxanda, o qədər daş-qaş taxmaq lazım deyil.

Sonra gülümsəyərək əlavə eləmişdi:

– Xalq bilir ki, mən zəhmətkeş bir kəndlinin oğlu olmuşam.

Gənc qadın isə, öz adətini pozmurdu. Bəlkə də, məhz buna görə, vəzir Allahverdi xan bu qərara gəldi ki, Bəhlul Danəndənin üç təpəciyinin hikmətini yoxlamağı birinci arvadından başlasın.

Bu dünyada hər kəsin bir şeyə xoşu olar. Xalq arasında «azarı olar» da deyərlər. Qoç döyüşünə tamaşa eləmək bu şahın ən çox zövq aldığı şey idi. Şahın özünün çox döyüşlərdən çıxmış məşhur bir qoçu var idi. Yeddi il idi ki, bu qoç sarayda naz-nemət içində bəslənirdi. Şahın əzizi, ərköyünü idi.

Vəzir Allahverdi xan ən inanılmış xidmətçilərindən iki nəfərinə tapşırdı ki, şahın həmin qoçunu oğurlayıb, etibarlı bir yerdə gizlətsinlər. Vaxtında da yeməyini, suyunu versinlər.

Sonra vəzir başqa bir qoyun gətirdib, aşpazına əmr etdi ki, onu kəsib, ətindən xörəklər hazırlasın.

Sonra arvadına xəlvətcə dedi:

– Mənim təbiblərim belə buyururlar ki, kim yeddi il dördyarpaq yonca ilə bəslənmiş qara qoç əti yesə, ömrü yüz il uzanar. Bizim məmləkətdə isə, şahın qoçundan savayı yeddi il dördyarpaq yonca ilə bəslənmiş qara qoç tapmaq mümkün deyil. Ona görə də, şahın qoçunu oğurlatdırıb kəsdirmişəm. Bu gecə lap yaxın dostlarımı da onun ətinə qonaq çağırmışam. Amma bu sirr gərək çox gizli qalsın. Yoxsa, bilirsən ki, şah o saat mənim boynumu vurdurar.

– Əlbəttə... – deyə arvad da təsdiq etdi.

Sonra qəribə bir ifadə ilə əlavə etdi:

– Şahın da qoçunu oğurlamaq olar?..

Arvadının bu sözləri deyərkən üzündə yaranan ifadə vəzirə anlaşılmaz göründü. O, arvadına diqqətlə baxıb dedi:





– Birdən səhv eləyib, ağzından söz qaçırarsan ha...

– Yox... Yox... – qadın eyni anlaşılmaz ifadə ilə təkrar etdi.

Bir anın içində küy düşdü aləmə, carçılar qışqırıb deyirdilər:

– Kim şahın itmiş qoçunu tapıb gətirsə, ona qoçun ağırlığında qızıl veriləcək!

Şah hirsindən özünə yer tapa bilmirdi...

Şahın qoçunu oğurlamaq onun taxt-tacına hörmətsizlik idi. Şəxsiyyətinə həqarət idi.

Vəzir Allahverdi xan səhəri gün nahara gələndə gördü ki, gənc arvadı gözəl libaslarından geyinib-kecinib, ziqiymət daş-qaşlarını taxıb getməyə hazırlaşır. Vəzir soruşdu:

– Hara belə?

Arvad dedi:

– Rəfiqəm Zərintac xanımla şahın seyrinə çıxmaq istəyirik.

– Axı, mən sənə dedim ki, bu qədər daş-qaşla xalq içinə çıxmaq mənim üçün yaxşı deyil.

Vəzir heç gözləmədiyi halda arvad dedi:

– Sən kəndçi oğlusan, mən isə, xan qızıyam. Xan atam şahın dostudur. Bu daş-qaşları da mənə xan atam bəxşiş etmişdir!

Vəzir bir anda Bəhlul Danəndənin kül təpəsini xatırlayıb, arvadına sərt səslə əmr etdi:

– Çıxart onları!

– Çıxar[illegible]ayacağam! – deyə gənc qadın ötkəm ifadə ilə cavab verdi.

O za[illegible]nan vəzir, həqiqətən də, bərk qəzəblənib qışqırdı:

– Sə[illegible]ə [illegible]ledim ki, çıxart onları!

Gənc [illegible]ıdın da eyni qəzəblə cavab verdi:

– Mən də sənə dedim ki, çıxartmayacağam!

Vəzir Allahverdi xan onu sillə ilə vurdu. Sanki bu sillə ilə də vəzir özü diksinib, əcaib bir yuxudan ayıldı və təəccüblə qadına baxdı. Gənc qadın qışqırdı:

– Sən öz kəndçiliyini göstərdin. Sən şahın qoçunu oğurlatdırıb, kabab eləyəndə də bunu göstərdin. Yoxsa, Baş vəzir olmağına arxayınsan?! Baxarsan!

Gənc qadın bunu deyib, hirslə qapıdan çıxdı. Uca boylu, qəddqamətli bir adam olan Allahverdi xan dikəlib, əllərini göyə qaldıraraq:

– Böyük yaradan! – dedi. – Sən şahidsən ki, mən qadın tayfasına qarşı heç bir zaman mərhəmətsiz olmamışam!

Vəzir fikirləşdi ki, rəhmətlik Fatma nənəsinin öyüdünü heç bir zaman unutmayıb. Uşaqları ilə ərsiz qalmış analara, incidilən qadınlara həmişə kömək eləyib... İnsan anasının təbiətində fəna hisslərin, vəhşi ehtirasların ola bilməsi barədə heç bir zaman düşünməyib! Amma,

Bəhlul Danəndənin söylədiklərinin nə dərəcədə həqiqətə uyğun olub-olmamasını yoxlamaq üçün birdən-birə ürəyində baş qaldıran tələbin qarşısında dura bilməyib. İndicə belə hörmətsizlik edən bu qadın onu sevdiyinə, onun zövcəsi olmağı özü üçün ən böyük səadət hesab edəcəyinə and içib, onu inandırmışdı...

«Və mən inanırdım...»

Qadın, atasının dostu, vəziri-dərbar vasitəsilə Allahverdi xanın qoçu oğurlatdığını, kəsdirdiyini şaha xəbər verdi. Vəzir Allahverdi xanın uzun illərdən bəri taxt-taca, məmləkətə elədiyi böyük xidmətlər bir anın içində şahın yadından silinib getdi və şah vəziri hüzuruna belə çağırmadan əmr etdi ki, dərhal boynu vurulsun.

Cəlladlar vəzir Allahverdi xanı qətl meydanına aparırdı. Allahverdi xanı böyük sərkərdə, şahlığın ən ağıllı, ən ədalətli vəziri kimi tanıyan xalq ona təəccüblə baxırdı.

Bu izdiham içində vəziri maraqlandıran onun keçmiş dostlarının, vaxtilə ölümdən xilas elədiyi məmurların hərəkətləri idi... Vəzir Allahverdi xan acı bir təbəssümlə baxıb görürdü ki, o dostlar vəzirin gözünə görünməmək üçün izdihamın içində gizlənməyə çalışırlar. Vəziri ən çox təəccübləndirən vəkil Məşədi Mirzə İbinin hərəkəti idi... O, vəzirin vəzifəli düşmənlərindən iki nəfərlə yanaşı dayanıb, Allahverdi xanın qətl meydanına aparılmağına elə baxırdı ki, elə bil vəziri heç tanımırdı. Elə bil ki, vəzirin qətl olunmağı ədalətli bir hökumət işi idi.

Bunu görüb hiss elədikdə, vəzir Allahverdi xan ayaq saxladı və bir an ona elə gəldi ki, insanın vicdanına hakim kəsilmiş fənalıq heç bir izaha ehtiyacı olmayan tamamilə aydın bir şeydir...

Vəzir onu qətlə aparan dəstənin zabitinə dedi:

– Şaha xəbər verin ki, onun qoçu salamat durur!

Heç də ağılsız adam olmayan şah dərhal vəziri hüzuruna gətirdərək, qalxıb onun qabağına yeridi və dedi:

– Bu nə işdir, vəzir? Məgər, mənim sənə olan etibarıma əmin deyildin? Məgər, bütün dövlət sirlərini səninlə birlikdə həll etmirdik? Bəs, dünyanın ən ağıllı adamlarından olan sən fikirləşmədin ki, sənə sədaqətimə, etibarıma inanmamaqla məni təhqir edirsən? Məgər, sən özün həmişə demirdin ki, yaxşı insanlara inanmaq lazımdır?

Vəzir dərindən nəfəs alıb:

– Əlahəzrət! – dedi. – Məsələ heç də sizdə deyildi... Bəhlul Danəndənin kül təpələrini yoxlamaq istədim. Mən, ümumiyyətlə, bu məsələdə səhv etmişdim. Çünki biz insanların bir-birimizin ruhi aləmini təftiş etməyimiz mənasız işdir. Xalq arasında bir məsəl var, deyir: dəyirman bildiyin eləyər, çax-çax başın ağrıdar... Biz özümüz-





özümüzü dərk eləyə bilmədiyimiz halda, başqasının ruhi aləminə necə nüfuz eləyə bilərik? Onu necə dərk eləyə bilərik? Ən xoşbəxt insan da, əslində, faciəli bir məxluqdur. «Xoşbəxtlik» adlanan məfhum müvəqqəti bir anlayışdır. Madam ki, böyük Allah dünyada insana bəxş etdiyi gözəlliyi, sağlamlığı, cavanlığı tədriclə damcı-damcı ondan alır, nəhayət, hər birimizi bir faciə ilə aparır, o zaman bu dünyada hansı səadətdən danışmaq olar?! Dörd yüz il ömür sürmüş Musa peyğəmbərdən soruşublar ki, niyə bu cür balaca bir daxmada yaşayıb, özünə yaxşı, gen-bol bir ev tikmirsən? Cavab verib ki, dörd yüz il nə ömürdür ki, ondan ötrü özümə cah-cəlal düzəldim?! Amma Peyğəmbərimiz Məhəmməd Rəsulallah insanları bu dünyada xoşbəxtliyə, ülviyyətə, ucalığa çağırıb! Yəqin bütün bunlara görə, Bəhlul Danəndə o üç kül təpəsilə bizi fənalığa qarşı sayıq olmağa çağırır. Əlahəzrət, mən yenə də bu əqidəyə gəlirəm ki, hər halda, biz hökm edənlərin borcu, daha doğrusu, çarəsi yaxşı insanlara inanmaq və bu inama istinad edərək, cəmiyyəti ədalətlə idarə etməyə çalışmaqdır.

Vəzir Allahverdi xan yenə də bir dəfə təğyiri-libas eləyib Bəhlul Danəndənin yanına getdikdə, Bəhlul Danəndə dedi:

– Ağa dərviş, məsələ orasındadır ki, yaxşı-pis də nisbidir. Yəni, sənin üçün yaxşı olan mənim üçün pis ola bilər. Böyük yaradan canlı həyatı elə qəribə yaradıb ki, bütün canlılar bir-birilərini yemək hesabına yaşayır. Cəmi məxluqatın əşrəfi olan insan da, həmçinin, canlıları yemək hesabına yaşayır. Həyat nə üçün belə dəhşətli faciə ilə qurulub? Bunu, özü də yaradılanların biri olan insanın şüuru, əqli heç bir zaman dərk eləyə bilməz. Bu sirr həyatın özü qədər əbədidir. Ona görə də, hökmdarlar, heç olmasa, insanların özlərinin bir-birilərini yemələrinə yol verməməlidirlər. Bir-birilərinin ruzisini əlindən almağa, şəxsiyyətini tapdamağa qoymamalıdırlar...

Vəzir Allahverdi xan bir daha başa düşdü ki, nə üçün qoca Bəhlul, onu «danəndə» adlandıranlara xeyirli məsləhət verir, «divanə» adlandıranlara isə zərərli...

*1991*

# SƏN EY BÖYÜK YARADAN...

Böyük şair Şeyx Həbib Təşrifərma, yəni, təşrif aparan, diyarbədiyar gəzib, insan təbiətinin sirlərini, yaxşının-fənanın nələrə səbəb olduğunu öyrənmək istəyirdi. Və bu ruhi aləmin tədqiqində onu ən çox maraqlandıran qadınlar idi. Şeyx Həbib Təşrifərma bilirdi ki, qadın insan həyatının, insan ruhunun hərəkətverici qüvvəsidir.

O, qədim bir şəhəri gəzərkən, bir dəmirçinin közərmiş ocaqdakı qıpqırmızı dəmiri zindanın üstündə ağır çəkiclə necə həvəslə döydüyünü görüb, ayaq saxladı. Yay fəsli idi. Hava bərk isti idi. Dəmirçi tez-tez alnının tərini silib, eyni şövqlə işinə davam edirdi. Onun üzündəki məmnun ifadə, işindəki həvəs Şeyxi sövq-təbii xeyli maraqlandırmışdı.

Dəmirçi qapıda dayanmış Şeyxi görüb, onu dərviş hesab edərək dedi:

– Ağa dərviş, niyə qapıda durursan? Keç, əyləş.

Şeyx, dəmirçinin səsində çox səmimi, xoş bir ifadə hiss edərək, heç bir söz demədən içəri girib, üstünə palaz salınmış alçaq taxtda yanpörtü əyləşdi. Dəmirçi körük basan gənc köməkçisinə dedi:

– Qaç, ağa dərvişə çay gətir.

Oğlan yüyürərək gedib, qonşudakı çayçıdan Şeyx üçün çay gətirdi.

Dəmirçi əl saxlayıb, alnının tərini silərək, Şeyxdən soruşdu:

– Ağa dərviş, sən, deyəsən, bizim şəhərdən deyilsən...

Şeyx dedi:

– Xeyr, mən səyyaham. Sizin şəhərə də gəldiyim birinci gündür.

Dəmirçi maraqla soruşdu:

– Bəs, hara düşmüsən? Gecə harda qalacaqsan?

Şeyx Həbib Təşrifərma dedi:

– Harda Allah qonağını saxlasalar...

Dəmirçi məmnun ifadə ilə:

– Allaha da qurban olum, – dedi, – qonağına da. Bu gecə mənim qonağımsan.





Sonra üzünü gənc şagirdinə tutdu:

– Əli, işlədik, bəsdi. Sən də evinizə ayın-oyun alıb aparmalısan...

Oğlan gedəndən sonra dəmirçi dəri döşlüyünü çıxardı və aftafadan su töküb əl-üzünü yudu.

Şeyx dəmirçinin həvəsli, cəld hərəkətlərinə, səsinin ahəngindəki həyat ruhunun gümrahlığına diqqət yetirərək dedi:

– Biz səyyahlar hər şeylə maraqlanan oluruq. Sənin neçə yaşın var?

Dəmirçi dedi:

– Mən anadan olanda tarix qoymayıblar. Ona görə də, neçə yaşım olduğunu bilmirəm. Ancaq iyirmi il bundan qabaq özümü necə hiss edirdimsə, Allahın köməkliyi ilə indi də elə hiss edirəm.

Onlar dar küçələrdən keçib, balaca darvazanın qabağında dayandılar. Dəmirçi darvazanın üstündəki balaca çəkici üç dəfə vurdu və onun özü kimi ucaboylu, yaraşıqlı bir gəlin qapını açdı. Onlar həyətə daxil olduqda, bağçadakı rəngbərəng güllərin, çiçəklərin ətri bu axşam sərinliyində Şeyxə bihuşedici bir təsir bağışladı. Bir an Şeyxə elə gəldi ki, nə isə, başqa bir aləmə daxil oldu. Dəmirçinin xoş sifəti, xoş danışığı, özünün də, arvadının da yaraşığı, axşam sərinliyində sükuta dalmış bu güllərin, çiçəklərin ətri, elə bil ki, başqa bir dünyanın nağılı idi.

Sütunlarına mavi, qırmızı sarmaşıqlar sarılmış eyvana qalxıb, başmaqlarını çıxardılar. Dəmirçi güllü kilimin üstündəki ipək döşəkcələrə işarə ilə Şeyxə dedi:

– Ağa dərviş, sən əyləş, özünü öz evindəki kimi hiss elə.

Sonra arvadına müraciətlə əlavə etdi:

– Ağa bu gecə bizə Allah qonağıdır.

Gəlin asta və ciddi səslə dedi:

– Allaha da qurban olaq, qonağına da.

Şeyx dedi:

– Allah sizdən razı olsun!

Şeyx keçib döşəkçənin üstündə əyləşdi.

Dəmirçi də güllərin arasında dəstəmaz alıb, namaz qılandan sonra gəlib əyləşdi.

Şeyx soruşdu:

– Havalar isti keçir, yəqin yorulursan.

Dəmirçi dedi:

– Ağa dərviş, nə qədər yorulsam da, belə axşam sərinində gəlib bu bağçada sərin su ilə dəstəmaz alıb, namaz qılandan sonra, elə bilirəm heç bütün günü qızmar kürənin qabağında çəkic vuran adam deyiləm.

Sonra gəlinin gətirib qoyduğu Allah verdiyi nemətlərlə təam etdilər. Şeyx dedi:

– Hava isti keçir deyə, adam ürək sərinlədən şey yemək istəyir...

Dəmirçi gülümsəyib arvadına baxdı.

Gəlin ərini dərhal başa düşərək, qalxıb nərdivanla dama çıxıb, qarpız gətirmək istədi və bunu görən Şeyx Həbib Təşrifə̈rma narahat oldu, çünki gəlinin ikicanlı olduğunu duymuşdu, qarpız da ki, ağır bir şeydi...

– Yox, lazım deyil...

Dəmirçi bir söz demədi, özü dama qalxıb, qarpız gətirib kəsdi, ancaq qarpız ağappaq və kal çıxdı.

Dəmirçi gülümsəyərək arvadına baxdı:

– Qarpız bizi qonağın yanında utandırdı.

Gəlin yenə də cəld ayağa qalxıb, nərdivana tərəf getmək istədikdə, Şeyx yenə özünü saxlaya bilmədi və tələsik:

– Əziyyət çəkməyin, – dedi.

O, Şeyxin sözlərindəki təşvişi duyub, ayaq saxladı və dəmirçi özü damdan qarpız gətirdi, amma ikinci qarpız da birinci kimi kal çıxdıqda, dəmirçi tamam dilxor olub:

– Daha bu olmadı... – dedi.

Bu dəfə gəlin qalxanda, Şeyx daha bir söz demədi və gəlinin damdan endirdiyi o üçüncü qarpız qıpqırmızı çıxdıqda, dəmirçi məmnun ifadə ilə:

– Bu başqa məsələ... – dedi.

Şeyx:

– Ancaq bacıya əziyyət oldu, – dedi.

Dəmirçi gülümsədi:

– Ağa dərviş, bilirəm nəyə görə deyirsən... Ancaq bu neçə ildən bəri bir yerdə yaşadığımız müddətdə biz heç bir zaman bir-birimizə «bunu elə, onu eləmə!» deməmişik. Həmişə də Allahın köməkliyi ilə işimiz uğurlu olub. O bağçadakı gülləri, tut, alma, ərik ağaclarını mənim bu külfətim əkib-becərib. Onun əlinin bərəkəti olmasa, mən təkcə dəmirçiliklə heç yaşaya bilmərəm. Gördün qarpızları? O damda, bəlkə də, cəmi ikicə kal qarpız vardı, ikisi də mənim əlimlə aşağı endi, onun yox!..

Sonra eyvanda salınmış ipək yorğan-döşəkdə yatan Şeyx hərdən yüngülcə oyananda, bağçada oxuyan bülbüllərin, sığırçınların gözəl səslərini eşidirdi...

Əgər, bu müdrik Şeyx səhər başqa bir ailənin qonağı olmasaydı, bu uzaq, balaca şəhərdən insanların xoşbəxtlikləri barədə fərəhli xəyallarla ayrılacaqdı. Lakin...

Şeyx Həbib Təşrifərma səhəri gün yenə də şəhəri gəzərkən, bazarda ləl-cəvahirat, qızıl-gümüş zinətləri satan bir dükan görüb, onun





qabağında dayandı. İçəridə əynində ipək əba, balaca kürsünün üstündə əyləşmiş sahibkar Şeyxin diqqətini cəlb etmişdi. Onun otuz-otuz beş yaşlarında bir cavan olmasına baxmayaraq, saç-saqqalı ağarmışdı. Elə fikrə dalmışdı ki, elə bil, bazardakı hay-küydən heç xəbəri yoxdu...

Dükan satıcısı Şeyxdən soruşdu:

– Ağa, nə buyurursunuz?

Şeyx dedi:

– Heç nə, gözəl şeylərinizə tamaşa edirəm.

Dükan sahibi gözlərini zillədiyi nöqtədən çəkib, Şeyxə kədərli bir nəzər saldı və yenə öz aləminə daldı. Sonra Şeyx bir neçə dəfə dükanın qabağından keçərək, sahibi eyni kədərli əhvali-ruhiyyədə görüb çox maraqlandı. Axşam bazar yığışıb, dükanlar bağlananda, Şeyx Həbib Təşrifərma da həmin cavan sahibkarın ardınca gedərək:

– Ağa! – deyə ona müraciət etdi. – Mən səyyaham, qalmağa yerim yoxdur, bir gecə Allah qonağı saxlamazsınız?

O zamanlarda Azərbaycanda da, başqa Şərq ölkələrində olduğu kimi, səyyahların, dərvişlərin, bəzən karvansarada boş hücrə tapılmayanda, Allah qonağı olmaq üçün xüsusi evlərə müraciət etmələri məqbul idi. Ona görə, gənc tacir də dedi:

– Allah qonağına həmişə qapı açıqdır. Sən dərvişsən, ya səyyah?

Şeyx dedi:

– Mən səyyaham, ağa!

Tacir də dəmirçi kimi soruşdu:

– Bu səyahətdən məqsədin nədir, ağa?

Şeyx dedi:

– Məqsədim insanların dərdini, talelərilə ünsiyyətlərini, mücadilələrini öyrənməkdi...

Tacir bir an susdu, sonra dərindən nəfəs alıb soruşdu:

– Axı, bu sənin nəyinə lazımdır, ağa səyyah?

– Fikirləşirəm ki, insanların həyatı ilə tanış olandan sonra, onların dərdinə kömək üçün bəlkə Allah mənə bir çarə, bir tədbir vəhy elədi, mən də onu yazıb, yazıq insanlara bəyan etdim...

Belə söhbətdə onlar bir darvazaya çatdılar. Qapını orta yaşlı xidmətçi açdı. Onlar gur yaşıllıq içində divarları, sütunları firuzə rəngində olan böyük kürsülü evin artırmasına qalxdıqda, otaqların birindən ev sahibinin gənc xanımı çıxıb, səyyaha qətiyyən fikir vermədən tacirdən soruşdu:

– Nə olub, bu gün belə gec çıxmısan?

Və cavab gözləmədən, Şeyxə ani bir nəzər salıb dedi:

– Bu keçisaqqal dərvişi hardan tapıb gətirmisən?

Tacir pərt səslə:

Bu ağa dərviş deyil, – dedi, – səyyahdır, alimdir.

Gəlin heç bir söz deməyib, otağa girdi və eyni anda da təkrar qapını açıb, acıqlı səslə farsca ərindən soruşdu:

– Qardaşının xanımı bu gün nə üçün gəlmişdi sənin dükanına? Sən onlara yenə nə ləl-cəvahirat əta eləyirdin?

Tacir əsəbiliyini boğaraq:

– Sən bilirsən ki, qardaşımgilin mənim bəxşişimə ehtiyacları yoxdur, – dedi. – Toy məclisinə getmək üçün hədiyyə götürürdü. Əlbəttə, pulu ilə.

Gəlin «pulu ilə» sözlərini kəskin istehza ilə təkrar edərək qışqırdı:

– Yalan deyirsən! Onlar sənin dükanından daşıyıb apardığı daş-qaşa bir qəpik də pul vermirlər!..

Tacir də farsca dedi:

– Qışqırma, kişidən ayıbdır! Dedim ki, qardaşımgilin mənim pulsuz daş-qaşıma ehtiyacı yoxdur!

– Həmişə belə deyirsən! Sənin canın onların yanındadı, – deyib, gəlin qapını çırpdı, girdi içəri.

Onlar xidmətçi qadının dinməz-söyləməz açdığı süfrədə pərt halda təam eləyəndən sonra tacir iki sulu qəlyan gətirib birini Şeyxə təklif etdi. Bir qədər səssiz qəlyan çəkəndən sonra, asta səslə dedi:

– Ağa səyyah, mən sussam da, günümü görürsən. Farsca da yaxşı bilirsən, eşitdin... Yeddi ildir ki, mən bu güzarana dözürəm! Sən dünyanı gəzib, insanların günahını öyrənirsən, dərdinə çarə axtarırsan. Amma bunun heç birindən insanlara imdad yoxdur. İnsanların nə dərdini, nə də günahını yazıb qurtarmaq olmaz. Dünya durduqca yazsan, yenə də qurtarmaz. Allah biz insanları nə üçünsə yaradıb səpələyir bu gözəl dünyaya. Sonra burda nə edirik? Kim-kimi öldürür, kim-kimə haqsızlıq edir, kim ədalətlidir, kim ədalətsizdir? Bütün bunlarla yaradanın işi yoxdur... Mənim bu arvadım şahın qohumudur. Yeddi il bundan qabaq üzü ürbəndli bir zənən xeylağı tez-tez gəlib mənim dükanımdan qiymətli şeylər alırdı. Bir dəfə də gələndə elə oldu ki, ürbəndini qaldırıb mənə baxdı. Sonra... Sonra biz evləndik. Üç-dörd ay çox mehriban olduq. Amma, elə bil, bu birdən-birə dəyişildi. Əvvəllər heç bir səbəbi olmadan atamı, qardaş-bacılarmı günüləyib görmək istəmədi. Hər kiçik şeydən ötəri, indi gördüyün kimi, mənimlə dava salır. Hamıdan qısqanır...

Şeyx Həbib Təşrifförma dedi:

– Hər halda, siz bunların hamısını qəbul edirsiniz...

Tacir:

– Qəbul etməyə borcluyam... – dedi.

– Padşahın qohumu olduğu üçün?





– Xeyr. O qadının məni hədsiz dərəcədə istədiyi üçün...

Şeyx oğlana uzun bir nəzər salıb susurdu.

Tacir dedi:

– Nə demək istədiyini başa düşürəm... Əgər, mən onu boşasam, o, bir gün də yaşamaz! Bu isə, mənim üçün dözülməz olar. Həyatım başdan-başa, zəhər içində olmağına baxmayaraq, mən ondan ayrıla bilmirəm. Çünki... Çünki mən də onu hədsiz dərəcədə istəyirəm... Bax, budur insan... Belədir... Uşağımız da olmur...

Güllərlə əhatə olunmuş külafirəngidə yatmış Şeyx Həbib Təşrifförma gecənin ətirli sərin havasında aramla səslənən İsa-Musa quşuna qulaq asaraq ürəyində: «Ey böyük yaradan! – deyirdi, – insanların... bütün insanların öz xoşbəxtliklərini tapmaqlarına kömək elə! Onların qəlbini yiyəsiz, köməksiz qoyma! Taleyin onları təkləyib naümid, pərişan etmələrinə qoyma! Peyğəmbərimiz bizə xəbər verib ki, Allah adildir! Biz insanların bütün ciddi-cəhdinə baxmayaraq, ürəklər birləşib məhəbbətin əbədi ülviyyətini tapa bilmir! Dünya yaranandan bəri axtardığımız səadət üçün daima bir ilğım, bir əfsanə olub! Onu tapmaqda, ona qovuşmaqda bizə özün kömək ol, böyük yaradan!»

*1991*

## ABİDİN YUXUSU

O, qırx il idi ki, gecə-gündüz Allaha ibadət edirdi. Gündə beş də-fə namaz qılıb, alnını möhürə sürtməkdən alnında fır əmələ gəlmişdi.

Qırx il idi ki, o, özünü gözə görünməyən böyük Allahın hüzurunda hiss edirdi.

Qırx il idi ki, qəlbini, ruhunu, dünyanın hər cür fənalıqlarından, hər cür günahkar ehtiraslarından azad, rahat hiss edirdi.

Və qırx il idi ki, bir quş cənnət bağından ona misilsiz ləzzətə malik ətirli bir nar gətirirdi.

O indi kamala çatmış olduğu bu yaşında özünü Aydan arı, sudan duru, ülvi ruha malik bir xoşbəxt hiss edirdi.

Amma bir gecə Peyğəmbər Əleyhissəlamı yuxuda gördü. Gördü ki, Peyğəmbər Əleyhissəlam üzünü yana döndərib, ona baxmadı. Təəccüblə soruşdu:

– Ya Rəsulallah, qırx ildir ki, mən sənin gətirdiyin Qurani-Şərifi gecə-gündüz oxuyub böyük Allaha ibadət eləyirəm. İndi günahım nədir ki, məndən üz döndərirsən?

Peyğəmbər Əleyhissəlam dedi:

– Qırx ildir ki, sən, sənə xidmət eləyən bir məxluqu incidirsən. Onun ləyaqətini təhqir edirsən.

Abid təəccüblə dedi:

– Ya Rəsulallah! Bu necə ola bilər? Yeganə keçimi də həmişə özüm sağmışam. Məndən heç bir canlıya xətər dəyməmişdir.

Peyğəmbər Əleyhissəlam dedi:

– Qırx il cənnət bağından Allahın ziqiymət ruzusu olan, sənin bədəninə qüvvət, ürəyinə sərinlik verən o narı gətirən quşa həmin nardan bir dimdiklik dən verməmisən. Ona minnətdarlıq etməmisən! Daima onun ləyaqətini təhqir etmisən! Sən elə güman etmisən ki, öz ibadətinlə Allah dərgahının töhfə təbərcehi olduğun üçün, o azad quş sənə xidmət etməyə borcludur.

Abid həyəcanla:





– Ya Rəsulallah! – dedi. – Yaradana and olsun ki, mən bunu qəsdən eləməmişəm! O mənim ağlıma gəlməyib!

Peyğəmbər Əleyhissəlam dedi:

– Gərək gələydi. Allah yaxşılığın, fənalığın nə demək olduğunu bilib, dərk etmək üçün sənə ağıl verib! Ürək, hissiyyat verib! Sənə müqəddəs kitab göndərib, səni əşrəfi-məxluqat eləyib. Get, özün düşün və insanları da yaxşılığın, fənalığın nə demək olduğunu dərk etmək üçün düşünməyə çağır!

Peyğəmbər Əleyhissəlam bunu deyib qeyb oldu.

Sonra hər tərəf ağappaq dumana büründü...

Və Abid yuxudan oyanandan sonra da xeyli vaxt o ağappaq dumanın içində oldu...

*1992*

## HƏYATIN ƏBƏDİ AHƏNGİ

Bütün heyvanların dilini bilən ovçu Pirim istəkli atı kəhər madyanın üstündə, arvadı Pəri tərkində, on yaşlı oğlu Rövşən də qucağında isti bir yay günündə çöllə yol gedirdi. Kəhər madyanın balası qumral dayça da anasının ardınca yorğalayırdı.

Qızmar günəş altında parlayan ucsuz-bucaqsız düzənlik ilğım çalırdı. Hava işıqlanandan indiyə qədər yol getdikləri üçün, dayça həm bərk yorulmuş, həm də susamışdı və Qarabağın sərin gur meşələrinə, nəhəng ot tayasına oxşayan qayalığın altından qaynayıb çıxan Yonqarça bulağına çatacaqları vaxtı səbrsizliklə gözləyirdi. Ancaq o Yonqarça bulağına çatmaq olmurdu ki, olmurdu. Onlar getdikcə, elə bil, bulaq da uzaqlaşırdı. Dayça isə, susuzluqdan yanır, sanki bu istidən, susuzluqdan xəbəri olmayan anasının sükutuna hirslənirdi. Nəhayət, onun yorğalamağı yorğun yerişə çevrildi və dayça hirslənib kişnəyərək anasına baxdı və ovçu Pirim o kişnərtinin mənasını başa düşdü: «Mən yorulmuşam!..»

Ana madyan cavab vermədi.

Bir qədər gedəndən sonra dayça yenə də kişnədi.

Bir qədər sonra kəhər madyan da kişnədi: «Mən belimdə üç adam, qarnımda da sənin gələcək qardaşını, ya bacını aparıram... Amma sən tək özünsən...»

Qumral dayça acıqla kişnədi: «Sən belindəki adamları tulla yerə, çıxaq gedək Kirs meşələrinə, soyuq bulaqlardan içib, ləzzətli otlardan otlayaq, istədiyimiz qədər azad gəzək, dolaşaq. İstədiyimiz qədər dincələk. Hansı otlaq, hansı bulaq xoşumuza gəldi, ora gedək!.. Axı, nə üçün sən ovçu Pirimi bütün ailəsi ilə eyzən belində gəzdirməlisən?! Sən heç məni bir dəfə də belinə mindirməmisən...»

Kəhər madyan kişnədi və ovçu Pirim o kişnərtidə bir istehza hiss etdi: «Sənin mənim belimə minməyə ehtiyacın yoxdur. Sən doğulan kimi durub gəzə bilərsən... Bizim meşəyə qaçmağımız da mümkün deyil. Əvvəla, mən belimdəki adamları yerə salmaq üçün özümü ora-bu-





ra çırpsam, tullanıb-düşsəm, elə bilərlər ki, dəli olmuşam. Ovçu Pirim məni güllə ilə vurub öldürə bilər. Meşəyə qaçsaq, canavarlar, pələnglər, şirlər bizi parçalayıb yeyərlər...»

Dayça kişnədi: «Bəs, niyə marallar, keçilər, ceyranlar gözəl dağlarda, meşələrdə, güllü-çiçəkli çöllərdə kefə yaşayırlar?»

Bu dəfə kəhər madyanın kişnərtisində ovçu Pirim bir kədər hiss etdi: «Vaxta ki, canavarlar, şirlər, pələnglər onları yemək hesabına yaşayırlar, demək, onlar da həmişə qorxu, qayğı içindədi. Bir də ki, onlar bizim kimi əlacsız deyillər, qaçaraqları, rənglərilə özlərini xilas eləyə bilirlər».

«Məgər, biz onlardan ləng qaçırıq?»

«Onlar bizdən çevikdirlər, qayalardan-qayalara tullanırlar...»

Ovçu Pirim bu söhbəti eşidirdi və ömründə birinci dəfə olaraq, çox sevdiyi kəhər madyanın taleyinin necə faciəli olduğunu hiss edirdi.

Bir an fikrindən keçdi ki, bəlkə arvadını, oğlunu düşürsün, bir daha onun belinə minməsinlər... Lakin, eyni anda, bu fikir ona mənasız göründü. Hamısı birdi, kəhər madyan meşəyə, çöllərə gedib, balasının arzu etdiyi həyatla yaşaya bilməyəcək... İnsanlar arasında heç vaxt bekar, avara, sərgərdan qala bilməz... Bir az ədalətlə düşünsək, ovçu Pirim kimi onu əzizləyən sahibə də rast gəlməz...

Ovçu Pirim «ah» çəkib öz-özünə dedi: «Mənim istəkli atım, sən düz düşünürsən, öz taleyinə tabe olmaqdan savayı əlacın yoxdu».

Onlar meşənin səfalı yerindəki Taya daşın altından qaynayıb çıxan Yonqarça bulağına çatıb dayandılar. Ovçu Pirim atdan düşdü. Sonra oğlu ilə arvadı da düşdülər. Ovçu Pirim sarı, qırmızı, firuzəyi çiçəklərlə dolu çəmənliyə baxıb dedi:

– Yorulmuşuq... Kəhər madyan da yəqin yaman acıb. Gecəni burada dincəlib, səhər qalxarıq Ziyarət dağına.

Arvadı Pəri:

– Yaxşı olar... – deyib ovçu Pirimin atın tərkindən düşürdüyü güllü xurcunu açdı. Üzərində ceyran qovan ovçu şəkli olan bu xurcunu Pəri özü toxumuşdu.

Ovçu Pirim atın yəhərini açıb düşürdü. Sərin əli ilə atın çılpaq bədəninə bir sığal çəkdi və kəhər madyanın bundan xoşlandığını duyub, özü də xoşhal oldu.

Kəhər madyan da, balası da başlarını, qayadan çıxıb, şırıltı ilə qədim daş nova tökülən almaz kimi şəffaf suya dirəyib içdilər. Sonra iştaha ilə otlamağa başladılar.

Ovçu Pirim səhərdən bəri üç adamı belində rahatca gətirən kəhər madyanın sağlam dişlərilə otu necə biçdiyini görüb ləzzət çəkirdi. Qumral dayça yeyib doyandan sonra yorğunluğu yadından çıxdı.

Pəri otların üstündə süfrə açdı, xurcundan təzə sarı buğda unundan bişmiş tər yuxa, motal pendiri, süzmə qoyun qatığı, cücə soyutması çıxardı. Yonqarça bulağının kənarında bitmiş yarpızdan yığıb yudu... Sonra əyləşib nahar elədilər.

Kəhər madyan da sakitcə, aramla otlayırdı.

Dayça isə, yeyib doyduğu üçün o yan-bu yana qaçır, arabir yaxınlaşıb özünü anasına sürtür, kef çəkirdi...

Ovçu Pirim qırmızı tubulqu çubuğundan qayrılmış qəlyanını əlində tutmuş olduğu halda, arxasını, kim bilir, neçə min və ya milyon il ömrü olan Taya daşa söykəyib heç nə barədə düşünməyərək mürgüləyir və ancaq Yonqarça bulağının zərif şırıltısını, bir də böyük həyatın əbədi ahəngini dinləyirdi...

*1992*

## SAĞSAĞAN

Mənim atam çox sərrast güllə atan idi. Novruz bayramında həmişə yeddi nişana qoyub atardılar. Uşaqlıqda həmişə fikirləşərdim ki, görəsən, mən də atam kimi nişan vura bilərəmmi?..

On-on bir yaşlarımda olduğum zaman bir gün artırmada oynayanda gördüm ki, həyətimizdə ağaca bir sağsağan qonub. Evdə məndən başqa heç kəs yox idi. Atamın xəlvət saxladığı beşatılana bir patron qoydum, içəridən gətirib lüləsini təkyənin üstünə söykəyərək, təxminən qırx-əlli metr aralıdakı ağaca qonmuş sağsağanı nişan alıb atdım. Və mənə bir an elə gəldi ki, tüfəng açılmamış quş sakitcə yerə düşüb hərəkətsiz qaldı.

Tüfəngi yerinə qoyub, tullana-tullana həyətə düşdüm və sağsağanı götürüb baxdım. Ağ tüklərinin üstündə balaca qırmızı qan ləkəsini görəndə bədənimdən bir gizilti keçdi və mən quşu göy otların üstünə tullayıb bağlarımız qonşu olan ana babamgilə qaçdım.

Anamın anası Fatma nənəm eyvanda, üzərinə xalı və ipək döşəkçə salınmış taxtın üstündə əyləşib müştükdə papiros çəkir, gur çiçək açmış yasəmən ağacına baxırdı. Bu vaxt bir sağsağan gəlib ağaca qonaraq bərkdən səsləndi. Mən onun səsində, elə bil ki, bir təşviş, bir həyəcan hiss elədim. Nənəm dedi:

– Xeyir xəbər, sağsağan, xeyir xəbər!.. Oğluyun oğlu olub, qızıyın da oğlu olacaq!

Mən özümü birtəhər hiss edərək:

– Nənə, – dedim. – Bayaq dədəmin tüfəngi ilə bir sağsağan vurdum...

Sanki arvad diksindi, mənə qəzəblə baxıb:

– Ay irtməkli sünnünün oğlu (atam sünni idi və nənəmin də sünniləri görməyə gözü yox idi), – dedi, – adam da sağsağana güllə atar?! İtil gözümdən!

Sonra arvad əllərini göyə qaldırıb:

– Allah, – dedi, – sən bu dilbilməz nəvəmin günahının nədamətini mənim oğlanlarımdan uzaq elə!

Mən qorxmuş halda soruşdum:

– Günah olanda nə olar?

Nənəmin iki oğlu, yəni, mənim dayılarım Bakıda olurdular və nənəm gecələr həmişə yatanda əvvəlcə onlara dua eləyirdi:

– Ay Allah, – deyirdi, – sən mənim oğlanlarımı hər cür bəladan, xətadan, pis adamlardan, arvad şərindən uzaq elə!

Bir dəfə ondan soruşdum:

– Anama nə üçün dua eləmirsən?

– Sən qələtini elə! – deyə nənəm acıqlandı. – Anan yanımızdadır, amma dayıların qəriblikdə...

Nənəmin sağsağan haqqında dediyi sözlər sanki özümü öz gözümdə birdən-birə yaramaz, günahkar eləmişdi. Mən indi harda sağsağan görürdümsə, qorxa-qorxa ona baxır, şən bir həyəcanla səslənməsini eşidəndə, özümü olduqca pis hiss edirdim. Mənə elə gəlirdi ki, sağsağan, doğrudan da, kiməsə bir xoş xəbər gətirib... Və güllə ilə vurub ağacdan yerə saldığım o sağsağanı xatırlayaraq dilxor olurdum. «Yəqin o da kiməsə xoş bir xəbər gətirmişdi...» deyə düşünür və «ay axmaq, – deyirdim, – heç olmasa, gülləni gəlib toyuqların balaca, qəşəng cücələrini aparan qara qarğaya ataydın də!..»

Elə buradaca yadıma nənəmin qara qarğa haqqında danışdığı bir nağıl düşdü...

Deyir, quşların dilini bilən Süleyman padşah bütün quşlara əmr edir ki, hər biriniz mənə dünyada ən gözəl bir quş balası tapıb gətirin! Qarğa çox axtarır, çox quş balasına baxır, axırda öz zılqa balasını dimdiyinə alıb aparır Süleyman padşahın yanına və deyir:

– Qibleyi-aləm, dünyada bundan gözəl quş balası tapmadım...

Mən fikirləşdim: «Yaxşı, əgər, qarğa günah eləməyindən qorxub, toyuğun qəşəng cücəsini aparıb o eybəcər balasına yedirtməsə, balası acından ölər axı!..»

Bir dəfə nənəmə dedim:

– O günü Bayram babam Haramıda* kəhər atı ceyran sürüsünün ardınca çapıb bir gülləyə iki ceyran vurmuşdu... Bəs, o günah deyil?

Nənəm dedi:

– Ceyranı, qoyunu Allah insana ruzu yaradıb!

Mən dedim:

– Allah nə üçün elə eləyirdi? Ceyranlar, quzular yazıq deyil?

Nənəm hirsləndi:

* Füzuli rayonunda yazda qoyun-quzu otarılan düzənlik.





– Ay əllamə, Allahın işinə qarışmaq olmaz!

Mən əl çəkməyib dedim:

– Elə insanlar da qoyun-quzular kimi göyərti yeyərdilər, meyvə yeyərdilər, gərək elə ət yeyəydilər! Odur ey, anam deyir ki, yazıçı Tolstoy ət yemirmiş!

– Lənət sənə şeytan! İmaş! – deyə nənəm nökərlərini səslədi. – Gəl, bu əllaməni ötür evlərinə!

Mən evimizə getmək istəmədiyim üçün İmaşın gəlməyini gözləməyib bağa qaçdım.

Hər dəfə sağsağanın həyəcanlı, şən qışqırığını eşidəndə əsəbiləşirdim, tez susmağını istəyirdim. Özümü inandırmağa çalışırdım ki, sağsağan heç kəsə xeyir xəbər-zad gətirmir. Qarğa qarıldayan kimi, o da bu cür səslənir. Lakin onun səsində açıq duyduğum sevinc, şən nida və nənəmin şəksiz bir inamla dediyi söz ürəyimin dərinliyində məni hey günahkar hesab edirdi. Adamların quşları, heyvanları kəsib yeməkləri haqqında, onların da günaha batdıqları haqqında düşünmək də məni bu ağır hissdən xilas eləyə bilmirdi... Ona görə, hər dəfə qapımızda sağsağan səslənəndə, onu eşitməmək üçün qulaqlarımı qapayırdım... Və təhtəlşüur olaraq vicdanımın həmişəlik ləkələnmiş olduğunu hiss etmək məni öz gözümdən salır, özümü özümə yöndəmsiz göstərirdi.

Sonralar da o sağsağan mənim yadımdan çıxmırdı və mənə elə gəlirdi ki, bunun səbəbi sağsağana güllə atmağın günah olduğunu söyləyən nənəmin hökmündəki qüvvət idi...

*1992*

## İSA-MUSA

İsa və Musa atabir qardaş idilər. İsanın anası Arazın bu tayından, Musanın anası isə o tayından idi. İsa da, Musa da çoban idilər, yəni, öz sürülərinin çobanı idilər. Əvvəl el atası, el varlısı, on min qoyunu, yüz dəvəsi, yüz atı olan Dədə Hacı Mərdana çoban olmuşdular. Üç ildən sonra İsa, Dədə Mərdana demişdi:

– Hacı, daha bizi mürəxxəs elə gedək öz obamıza, Musanı evləndirmək istəyirik.

Hacı soruşmuşdu:

– Qız hansı obadan, hansı nəsildəndi?

İsa cavab vermişdi:

– Qız Avşar Hacıqulunun nəvəsidi. Atasına Çapıq Eyvaz deyirlər.

Hacı demişdi:

– Avşarlar igid xalqdı. Çapıq Eyvazın üzünün bir tərəfini davada qılıncla yaralamışdılar. Onun atası Hacıqulu da el vəkili idi. Deməli, qız saf nəsildəndi. Allah xeyir versin!

Sonra Hacı, İsa ilə Musanın üçillik muzdları olan əlli qoyundan savayı, hərəsinə on beş sağmal qoyun da bağışlayıb demişdi:

– Gedin, əgər, gecələr yuxuya qalmayıb, sürünüzü yaylıma çıxarıb, gün qızana qədər otarsanız, əgər, hər qoyunu təklikdə tanısanız, əgər, qoyun itinizi ərköyün saxlasanız, inşallah, siz də Çulu Cırıq Mərdan kimi dövlətlənib, Dədə Hacı Mərdan kimi olarsınız.

İsa da, Musa da Dədə Hacı Mərdanın dediklərinə əməl edirdilər. Sürüləri ildən-ilə böyüyürdü. Atlını atdan salan Alabaşın qorxusundan sürüyə nə canavar yaxın gələ bilirdi, nə oğru. Qardaşlar sürünü qışdayazda Haramıda, yayda isə, sonralar el igidləri Qaçaq Nəbinin, Qaçaq Süleymanın at oynatdıqları Üçtəpə dağlarından o tərəfə, Salvartı yaylağında otarırdılar. Sürünün yununu, erkəklərini satıb, sağmal qoyun, at, dəvə alırdılar. Qardaşlar bu minvalla dövlətlənirdilər.

Budur, indi bu qızmar yay günündə, Dəliçay yaylağında qardaşlar gecə yaylımında yeyib doymuş sürünü uca Alı qayasının kölgəsinə verib, özləri də daşdan çıxan bulağın yanında, təzə pendirlə, qara qoyun südü ilə nahar eləyib dincəlirdilər.





İsa aşıq idi, saz çalırdı, Musa tütək...

Bu yaz qardaşların ikisi də, əvvəlcə Musa, sonra İsa aranda nişanlanmışdılar. El dağdan enəndə toyları olacaqdı.

Musanın nişanlısı, bir güllə mənzili aralıda düşmüş Qıyamadınlı obasından idi.

İsanın nişanlısı güneyli Xan Kərəmin qızı idi. Onlar Savalan yaylağına köçmüşdülər. Cavan aşıq gümüş duman içində qarlı zirvəsi parlayan Savalana baxıb, saz çalıb oxuyurdu:

> Ətircan bəslədim güllər içində,
> Zalım oğlu, Savalana gəlmədin...

Yar həsrəti Musaya da əsər elədi və onun tütəkdə çaldığı «Çoban bayatısı» qoyun-quzuların ürəyindən keçib lalə, gül-çiçək dənizi olan Altın taxtada otlayan ceyran gözlü Qarabağ atlarına çatdı. Atlar başlarını dik tutaraq uzaqlara baxır və o qəhrəmanlıq dastanını dinləyirdilər... Altıntaxtanın lalələri nəhayətsiz uzanıb gedən qırmızı bir kələğayı kimi zaman-zaman dalğalanaraq o məhəbbət əfsanəsini dinləyirdi... «Çoban bayatısı» Savalan uçurumları üzərində at atlandıran cəsurların qəhrəmanlığından, nəcabətindən, igidlərin məhəbbətindəki ülviyyətdən, kama yetməmiş gözəllərin həsrətindən hekayə edirdi, «Çoban bayatısı» böyük vətən sevgisinin əbədiyyətindən danışırdı...

Birdən Musa tütəyini ağzından götürüb, həyəcanla İsaya dedi:

– Ora bax!

Və İsa baxdı ki, nazik bir qara bulud üfüqdən qalxaraq ilan kimi qıvrıla-qıvrıla, sürətlə ləkəsiz, mavi səmaya yüksəlməkdədir.

Qardaşlar bilirdi ki, ləkəsiz göy aynasında o qara bulud eləcə qəfil peyda olanda həmişə tufan qoparır.

İsa təşvişlə dedi:

– Bəlkə, sürünü qovaq ağıla?

Musa dedi:

– Çatdırmarıq, sürü ağıla çatanacan tufan bizi çoxdan haqlamış olacaq!

İlan kimi qıvrıla-qıvrıla qalxan o qara bulud sürətlə böyüyüb ağır, məşum qara pərdə kimi göy üzünü qapayırdı.

Sürünün böyründə yatmış iri cüssəli Alabaş həyəcanla ayağa qalxıb, döyüşə hazır vəziyyət aldı...

Əvvəlcə soyuq külək qalxdı. Yer üzünü qaranlıq bürüdü. Sonra göy dalbadal şaqqıldadı, orda-burda ildırımlar çaxdı. Küləyin amansız

uğultusu içində pərən-pərən düşən sürünün ayaq səsləri eşidilməz olmuşdu. Qardaşlar ora-bura yüyürdülər. Lakin sürü, elə bil ki, qeybə çəkilmişdi.

Qardaşlar:

– Alabaş! Alabaş! – deyə dalbadal qışqırdılar...

Alabaşdan səs çıxmadı.

İsa dedi:

– Alabaş sürü ilə gedib!

Qardaşlar bu tufan və dəhşət içində hey ora-bura yüyürdülər, lakin sürüdən əsər-əlamət görmədilər.

Tufan birdən başladığı kimi birdən də yatdı. Gözəgörünməz bir əl səmanı qapamış qara örtüyü parçalayıb hər parçasını bir yana qovdu! Göy üzü birdən-birə almaz kimi iti gün işığı ilə parladı...

Qayalardan tökülən sellərin nəşəli şırıltısı eşidildi. Aşağıda, Altın taxtada atların sərgəri ayqır qürurla kişnədi...

Qardaşlar isə hey ora-bura qaçıb uçurumları, dərələri, təpələri axtarırdılar...

Alabaşı səslədilər, sürünü tapmadılar, yemədilər, içmədilər, yorulub əldən düşdülər, tapmadılar...

O zaman Allah onları bir cüt quş elədi ki, axtarışları asan olsun.

İndi o vaxtdan bəri İsa-Musa quşu hey sürünü axtarıb bir-birindən soruşur:

– İsa, tapdın?

– Musa, tapdın?..

*1992*



## BERLİNDƏ BİR GECƏ

Gənc Verter gecədən xeyli keçmiş Berlinin ən pis küçələrindən birində olan balaca otaqcığına daxil oldu. Nəşəli idi. Bu gecə həyatında birinci dəfə idi ki, sevgilisinin görüşündən gəlirdi. Könlü bu ilk sevginin şirin həyəcanları ilə dolu idi. Hər şeyi unutmuşdu. Gözləri qarşısında ancaq üç gün bundan əvvəl tanış olduğu o utancaq, xoşbaxışlı qızın xəyalı gülümsəyirdi...

«Ah, həyat nə gözəl imiş...»

Onun nəşə ilə xumarlanan iri gözləri güldü. İrəliyə çıxmış geniş köksü ehtirasla qalxıb-endi. İndiyə qədər dünyada belə xoş duyğuların varlığından xəbərsiz olduğuna heyrət etdi. Keçənlərdə həyatından bezdiyi günlər yadına gəldi. Qəşəng, ətli dodaqları təəccüblü bir təbəssümlə açıldı. Könlündəki fərəhli duyğular, təzə bahar sabahlarında, üzərindən duman şırımları sürünən şehli bənövşələrin rayihələri qədər xəfif və sevimli idilər. Xəyalında gülən sima o qədər şəffaf və zərif idi ki...

Ortası sınıq köhnə güzgüsünü alaraq ağac çarpayının üstündə oturdu. Fit çala-çala üzünə tamaşa etməyə başladı. İpək kimi zərif xurmayı saçları arasındakı ağ tüklər nəzərini cəlb etdi. Nazik, gözəl barmaqlarının yeyin hərəkətilə saçlarını aralayaraq diqqət etdi. Yox, aldanmır! Ağ tüklər gümüş kimi parıldayırdı!

Könlündə, birdən-birə ona çox da yad olmayan dərin bir boşluq uğuldadı. Damarlarında ölgün bir zəiflik duydu. İri-iri açılmış gözlərinin key baxışları hey ağaran bu uğursuz tüklərə zillənib qalmışdı... «Nə tez?!» deyə başından təəccüblü bir sual keçdi. Uyumuş kimi olan duyğuları birdən-birə canlandı. Beyni qızğın bir əsəbiliklə işləməyə başladı... «Nə tez?» deyə düşündü. Deməli, iyirmi dörd yaşında qocalıq qapının ağzını aldı!.. İyirmi dörd yaş!

Coşğun təsəvvürlər bir-birinə qarışdı. Əsəbləri gərginləşdi. Sonra yenə duyğuların böhranlı axını başladı:

– Qocalıq! – deyə öz-özünə pıçıldadı.

Birdən-birə, hər şeyini itirmiş adam kimi, kürəklərinin arası uyuşub açıldı. Qəribə bir aydınlıqla bütün keçmiş xəyalında canlanmağa başladı. Dörd-beş yaşında olduğu çağlar kənddəki günəşsiz daxmaları, başında kənarları çirkdən qaralmış köhnə şlyapa olan çal saqqallı, çopur üzlü atası yadına gəldi. Daha sonra anasını xatırladı: «Budur, bayırda qar qarışıq soyuq külək pəncərənin sınıq şüşələrini qəzəblə döyəcləyir. Solğun, şəffaf üzlü anası köhnə şalına bürünərək nahara kartof soyutması hazırlayır. Balaca Verter «yenə kartof» deyə düşünür... Bir aydan bəri kartofdan başqa heç nə yemədiyini xatırlayır...

Anası öskürür... inləyir... üzü gərgin bir əzab içindədir... Dəsmala qırmızı bir şey tüpürür... Oğluna doluxsunmuş bir nəzər salır... Balaca Verter nə üçünsə ağlamaq, həm də çox ağlamaq istəyir... Pəncərənin yırtıqlarından keçən soyuq külək onun balaca əllərini üşüdür».

Xəyalı daha sonrakı illərə gedir... Cahan müharibəsinin sonlarında başını top gülləsi aparmış atasının ölü vücudu qaranlıq bir boşluqda dayanır... dayanır... Verter nə qədər çalışırsa, onu diri halında təsəvvürünə gətirə bilmir.

Atasının ölüm xəbərindən sonra heç bir zaman üzü gülməyən, qocalmış, mum kimi ərimiş anasının həyatının son dəqiqələrində necə çabaladığını, boz bulanıq gözlərinin necə bir nöqtəyə zillənib qaldığını yad etdikcə, vücudunda soyuq bir gizilti duydu. Gözləri yenə gümüş kimi parıldayan ağ tüklərə sataşdı: «Atamınkı da beləcə ağardı...» deyə düşündü. Anasının ölümündən sonra keçirdiyi səfil günləri, Berlinin küçələrində sürünən kədərli ömrü əcayib bir qarma-qarışıqlıqla xəyalındakı tabutun ətrafında dolaşmağa başladı. Gündüzləri cibləri dolu, şişman ağaların çəkmələrini təmizləyib, gecələri darülfünun dərslərini həvəslə oxuduğu zamanlar yadına düşdükdə ürəyi kövrəldi. Gözləri yaşardı. Özündə bir taqətsizlik hiss etdi. Puç olub getmiş arzuların xatirəsi nə ağır olarmış... Xəyal onu uzaqlara apardı: «Bütün mühazirəçilər ondakı istedada heyran qaldıqca, onun gənc könlü özünü gələcəyin Nyutonu, bəlkə də, Şekspiri təsəvvür etmirdimi? Gələcəyin xoş əməlləri ilə yaşamırdımı?.. Lakin heyhat... Bütün bunlar əcəb şirin bir yuxu imiş... Kim onu inandıra bilərdi ki, iyirmi dörd yaşında saçları ağarmış bir oğlan ikən ağır səfalət günlərindən sonra yorulmuş, taqətdən düşmüş, heyvan kimi kütləşmiş avara-sərgərdan bir işsizdən başqa heç bir şey olmayacaq... Təqsir kimdə oldu? Ondamı? Yox, bunu söyləmək ədalətsizlik olardı. O, dünyada nələr etmədi? Nələrə dözmədi? İllərcə sürən işsizliyi, yüksək rütbəlilərin alçaq qürurlarını, çəkilməz iddialarını, aşağı vəzifədəkilərin murdar qeybət və yaltaqlıqlarını, daha bilməm nələri... nələri... məchul bir ümidin təlqin





etdiyi səbrlə qəbul etmədimi? Lakin sonunda nə oldu? Bir tikə çörək üçün yerlərdə sürünən yazıq bir qoca...»

Bir daha diqqətlə güzgüyə baxdı. Gözlərinin, dodaqlarının ətrafına düzülən cizgilər, köhnəlmiş solğun dəri, ağarmış tüklər... hamısı ona susuzluqdan quruyub solmuş çiçək və ya ot kimi mənasız göründü...

– Bəli, hər şey getdi... – deyə dərin bir nəfəs aldı. Üç gün əvvəl elani-eşq etdiyi gənc qız yadına düşdü: «Qəribədir... həyat eşqilə dolu, gələcək ümidi ilə çırpınan, xoşbəxtlik üçün yaranmış bir qız qarşısında, sənin kimi saçları ağarmış, «bəli! bəli!» deyə sürüklənən bir sevgili nəyə bənzər? Nəyinə güvənib, sevirəm deyə bilərsən?»

Saat dördü vurdu. O diksindi. Dördüncü zəng ona toran qovuşan zaman kilsə zənginin uğultusu kimi qüssəli və soyuq gəldi... Xəyalı qaraldı. Özündə ani bir yalqızlıq duydu...

O yan-bu yana baxdı. Ruhu getdikcə qabarıb köksünə dar gəldi. Siması ağarmışdı, gözləri vahimə ilə parıldayırdı. Sürətlə bayıra çıxdı... Özündəki yüngüllüyə təəccüb etdi. Başından ani bir fikir keçdi. Ürəyi şiddətlə çırpınır, ətrafında gördüyü şeylər qarma-qarışıq bir kino lenti kimi keçib gedirdilər. Soyuq, yağışlı dekabr küləyi simlərə toxunaraq acı bir uğultu ilə inləyirdi. O, bir az aralıda özünə doğru sürətlə şığıyan qatarı gördü. Ona elə gəldi ki, qaranlıqənginliklərdən qalxan bu yanar gözlü əjdaha bu dəqiqə hər şeyi udmağa hazırdır!.. «Ani bir risq! Əbədi bir sükunət! Bəs, niyə durmusan, axmaq?! Haydı! Axı, sən kişisən! Cəsarət! Haydı! Yalnız bircə saniyə lazımdır! Sonra hər...»

Cümlənin ardını düşünüb qurtarmamışdı ki, qatar yaxınlaşdı. O, «hə!» deyə sürətlə hərlənən təkərlərin qarşısına yüyürdü. Paravoz bir nərə çəkdi. O, yerində mıxlanmış kimi dayandı. Tükləri ürpəndi. Özündə zəif bir qorxaqlıq hiss etdi. Son addımdan sonra ayağını tərpətməyə cəsarəti çatmadı. Düşüncəsiz, küt bir baxışla artıq uzaqlaşmış təkərlərə baxdı. Bir az aralıda paravoz dərin bir nəfəs alaraq dayandı. Bu nəhəng nəfəs onu ayıltdı. Parıldayan relslərə baxdı. Qəlbinin dərinliklərində özünü təkərlərin altına atmadığına sevindi. Lakin bu ani duyğu əsəbi bir hal aldı.

– Qorxaq! – deyə sağ əli ilə başına vurdu.

Arıq və əzgin vücudu rəhmsiz bir cındır parçası kimi titrəyirdi. Gözlərindən yaş axırdı. İrəliləyirdi. Haraya?! Özü də bilmirdi...

Birdən xoş bir xışıltı eşitdi. Başını qaldırıb irəli baxdı. Berlin çayı qaramtıl bir lövhə kimi uzanıb gedirdi... Sahildə dayandı. Çayın rütubətli havasından köks dolusu nəfəs aldı. Hava işıqlanırdı. Üfüqdə mavi qarışıq qırmızı şırımlar uzanmışdı... «Yenəmi həyat? Yenəmi yaşamaq...» Gülümsədi. Boynunu burdu. «Hansı ümidlə?» 70 yaşında saç-

saqqalı ağarmış dilənçi əmisi xəyalına gəldi. Titrədi. Çaya baxdı, çayın yumşaq xışıltısı ona mehriban bir duyğu təlqin etdi... O, özündə ani bir ünsiyyət ehtiyacı hiss etdi. «Ah, bu dəqiqə o mehriban bir sinəyə necə şirin-şirin yaslanardı...» Dərin bir nəfəs alaraq gözlərini yumdu. Lakin arzuladığı o mehriban ağuşu hiss etmədi. Bu yazıq bədən heç bir zaman rahat sükunətin xoş dəqiqələrini duymamışdı. Görünməz bir əl öz soyuq caynaqları ilə həmişə onun zəif ürəyini sıxmışdı... sıxmışdı... Həm də sanca-sanca sıxmışdı.

Uyumuş Berlin yavaş-yavaş oyanırdı. Qızarmış üfüq getdikcə aydınlaşırdı. Oynaq həyat gənc Verteri ürküdürdü. Xəyalı boyu uzanıb gedən əzablı yollara baxdıqca, dartdığı yükün ağırlığından yorulub təngə gəlmiş, bir addım belə atmağa təhri olmayan at kimi gözləri dəhşətlə böyüyürdü... O daha ağlamırdı. Sakit, qorxulu nəzərləri ilə mürgüləyə-mürgüləyə axan çaya baxırdı. Çay sakit, əbədi bir yuxudan danışırdı... Bu yuxu onu cəzb edirdi... Lakin o, mühakiməsiz key nəzərləri ilə hey baxır... baxırdı. Ölüm arzusu uyuyan mühakiməsinin dərinliklərində yumulmuş, büzüşmüş halda hərlənir... Sanki üzə çıxmağa qorxurdu.

Sularda zərrin parıltılar titrədi. Sanki çay birdən-birə mürgüdən ayılaraq gülümsədi. Təzə və şəfqətli oldu. Oğlan üfüqə baxdı, günəş üzünü göstərərək, buludsuz səmanı təzə, şəffaf bir nura qərq etdi. Xeyli yüksəkliklərdə bir quş qanadlarını düz saxlayaraq günəşə doğru uçurdu. Havada sabahın rütubətli xoş nəfəsi duyulurdu. O, nəzərləri ilə quşu gözdən itənədək müşayiət etdi. Quş günəşin qızıl saçaqları ilə parlayan üfüqün sonsuz dərinliklərində itib getdi... Oğlanın qanadlanmış xəyalı isə dayanmadı... Sanki o quşdan ayrılmaq istəmirdi... Günəşə... Şərqə doğru qanad çalırdı. O, uçdu... uçdu... uzaq ellərə çatıncaya qədər uçdu. Bir anlığa da olsa, həyatı... əsl həyatı... azadlığı gördü... Onun qanadları «yaralı şahininki» kimi qırılmadı. O, bu səadət dünyasından ayrılmadı. O, ümid ilə birləşdi... Qara gecənin müdhiş böhranından sonra taqətdən düşən bədəni birdən-birə dirçəldi. Könüldə hərlənən ölüm arzusu harada isə gizləndi, yox oldu. Oğlan qəlbində bir genişlik duydu. Bu gün səhər saat yeddidə sevgilisi ilə iş axtarmaq üçün qonşu şəhərə getməyi vədələşdiklərini xatırladı. Üfüqə son bir nəzər salaraq geriyə döndü.

Təzəcə yerindən qalxmış sağlam vücudlu gənc qız gözəl, şirin təbəssümü ilə onu qarşıladı. Gənc oğlanın əllərindən tutaraq özünə tərəf çəkdi.

– Sənə nə olub, əzizim? Neçin rəngin belə ağarıb? Xəstələnməmisən ki?





Verter birdən-birə cavab verə bilmədi. Gülümsəmək istədi. Lakin təbəssüm əvəzinə gözləri yaşardı. Sevgilisinin saçlarından öpərək:

– Yox, sevgilim, – dedi, – mən tamamilə sağlamam...

*1939*

# QƏHRƏMANIMIN NİŞANLISI

– Eh həkim, – deyə yaralı leytenant dərin bir nəfəs aldı. – Siz həyatın acı həqiqətlərini öz mərhəmətli hisslərinizlə ovutmağa çalışırsınız. Siz məni həqiqi məhəbbətin böyüklüyünə inandırmaq istəyirsiniz... Lakin, həkim, onun gül kimi ömrünü bir qıçını itirmiş, üzü eybəcər hala düşmüş bir adama bağlamaq insafsızlıq olmazdımı? Bəlkə də, siz haqlısınız... Bəlkə də, o məni alicənab bir fədakarlıqla qəbul edərdi... Buna mən də inanıram. Lakin günlər keçəndən sonra bu fədakarlıq «təntənəsi» altından («təntənə» sözünü hiss ediləcək bir istehza ilə söylədi...) müdhiş bir hissin, peşmançılıq hissinin baş qaldırmayacağına kim zəmanət verə bilərdi? Axı, o lap gəncdir... gözəldir...

Yaralı leytenant, mülayim gözlərini pəncərədən görünən qüruba zilləmiş qoca həkimə baxaraq, qəmli bir təbəssümlə əlavə etdi:

– Yox, həkim... Mən ona hər şeyi yazmışam... Mən öz qərarımdan dönməyəcəyəm... Taleyimin hökmünə tabe olacağam. Vaxtilə o məni sevirdi... Biz çox şirin saatlar keçirmişik. Mən ömrümün bundan sonrakı hissəsini o günlərin o əziz xatirələri ilə yaşayacağam... Ona isə qoy tale yar olsun.

Yaralı leytenant, qəlbindəki ağrıları boğmağa çalışırmış kimi, dodaqlarını bir-birinə sıxdı, gözlərini yarı qapadı...

Həkim nəzərlərini üfüqdən çəkərək, yaralı leytenanta baxdı. Həkimin dünyalar görmüş gözlərində ağır bir kədər vardı...

Yaralı leytenantın mina çarpanaqları ilə parçalanmış və artıq sağalmış üzündə, uzun qara kirpikli gözlərinin qapanışında, qara qıvrım saçlarının pərakəndə tökülüşündə nə qədər pərişan bir hal vardı...

Həkim:

– Eh, məğrur gənclik... – deyə düşündü və qalxıb yavaş addımlarla otaqdan çıxdı.

Yaralı leytenant göz qapaqlarını ağır-ağır qaldırdı. Həkimin ardınca baxaraq, nə üçünsə, gülümsədi... Lakin bu gülüş bir əziyyət kimi onun üzündəki o müdhiş yara yerlərini qırışdırdı... O, yastığa dirsəklənərək, uzaqlara... qüruba baxdı. Günəş batırdı... Üfüqdə uzanmış çəh-





rayı, bənövşəyi zolaqlar yavaş-yavaş saralıb sönürdü... Göz işlədikcə uzanıb gedən yaşıl düzənləri həzin bir axşam qaranlığı bürüyürdü...

Yaralı leytenant gözlərini qırpmadan baxırdı...

Orada... o solğun üfüqlərdə batan günəşlə yanaşı bir xəyal dayanmışdı... Bu, göylərdən enmiş bir mələkmi idi? Yoxsa, qanadlanmış Madonna idi?.. Yox, bu mənim dostumun... o yaralı leytenantın sevgilisi idi. Bu, onun gözəllər içindən seçib bəyəndiyi, könül verdiyi qız idi.

Zaman var idi ki, o, bir həmayil olub, mənim qəhrəmanımın boynuna dolanardı... Onun şahin baxışları ilə oxlanmış yaralı bir ceyran kimi boynunu büküb, məsum-məsum baxardı... İgidimin bir təbəssümü ilə qanadlanıb uçardı...

Bəs, indi nədən belə uzaqlarda dayanmışdır? Yoxsa, onun gözlərindəki o gizli təbəssüm əlvida nişanəsi idi?

Qapı döyüldü. Qəhrəmanımın xəyalları qırıldı. O, geriyə çevrilərək:

– Gəl, – dedi.

Otağa gənc bir şəfqət bacısı girdi. O, arxasında bir şey gizlədərək, gülə-gülə:

– Muştuluğumu verin, yoldaş leytenant, – dedi, – sizə məktub var.

Və ona yaşıl bir zərf uzatdı.

Yaralı leytenant məktubu aldı. Qız onun keçirdiyi həyəcanları duyaraq, bir quş yüngüllüyü ilə çevrilib otaqdan çıxdı.

Yaralı leytenant zərfin üzərindəki xətti tanıdı.

Onun cəbhə alovları içində sakit-sakit döyünən qəlbi indi qəribə bir həyəcanla, bəlkə də, qorxu ilə çırpınırdı. Məktubu açmağa cəsarət etmirdi. Nəhayət, dişlərini bir-birinə sıxaraq zərfi cırdı.

İncə və titrək bir xəttlə yazılmış sətirləri sürətlə gözdən keçirməyə başladı. Qız yazırdı: «Elmar! Ömrüm, günüm! Mənim dərdim böyükdür. Bunu gizlətməyə dəyməz... Sənin bir qıçın üçün mən öz həyatımı min dəfə qurban verərdim. Lakin sən igid idin, Elmar. Sən mənim üçün vuruşurdun... Sən bizim gözəl günlərimizin sirdaşı olan bu əziz vətənimiz üçün vuruşurdun. Bu sənin qəhrəmanlıq borcun idi. Buna görə də, mən sənə yalnız xeyir-dua verə bilərdim.

Yazırsan ki, «məni unut», ax, Elmar... İnan ki, ürəyimə bir zəhərli xəncər sancsaydın, «of» deməzdim, lakin bu sözlər...

Mən səni ilk dəfə cıdırda görmüşdüm. Sən yəhərin üstündə ayağa qalxıb, üzü enişə at çaparaq, hamını heyran etmişdin. Sənin alapaça ürgən enli xəndəyi sıçrayıb hamıdan qabaq nişangaha çatdığı zaman, mən ürəyimdə «bu igidin sevgilisi nə xoşbəxtdir» demişdim. Tale bu səadəti məndən əsirgəmədi. Elmar... Sən mənim ömür yoldaşım ol-

dun. Biz öz məhəbbətimizin himayəsində nə gözəl günlər keçirirdik. Sən, dərya kimi dalğalanan zəmilərimiz arasında bir gündə on adamın işini görərdin. Mən sənin boy-buxunlu igid qamətinə baxmaqdan doymazdım. Sən, bizim cavanlarla zarafatlaşarkən, dörd-beşinə güc gələrdin. Mən də, gənc bir qız kimi, öz nişanlımla fəxr edərdim.

Biz gündüzün xoş əməyindən sonra, yadındadırmı, həmişə yoncalı qoruqdakı o çinarın altında görüşərdik. Yarpaqlar arasından süzülüb tökülən Ay işığında mən sənin geniş və mərd köksünə sığınaraq, özümü dünyadakı qızların ən xoşbəxti sanardım... Aşağılarda şırıldayan Durna bulağı bizim sevgimizə əbədiyyət nəğmələri oxuyardı. Dağlarımızdan əsən ətirli yellər bizi vətən məhəbbətilə oxşayardı...

Ağsaçlı analarımız isə, bizə baxaraq, ürəklərində «Allah bəd nəzərdən saxlasın» deyərdilər.

Sən öz qıçını, bax, bu xoş günlər uğrunda itirdin, Elmar... Mən səni buna görəmi unutmalıyam?.. Bunun mənim üçün, hər şeydən əvvəl, bir məğlubiyyət olduğunu bilirsənmi? Axı, sən məni sevirdin, Elmar... Bəs, sən öz sevgilinin düşmən qarşısında məğlub olmasına necə dözə bilərdin?

Elmar! Ömrümün tacı! Mənim üçün bu dünyada səndən əziz, səndən qiymətli heç nə yoxdur. Əgər, o sözləri sənə yazdıran o məğrur gənclik xudpəsəndliyindirsə, bu, mənim haqqımda insafsızlıqdır. Mən səni sevirəm. Mən səninlə xoşbəxtəm, Elmar... Mən yenə də səninlə fəxr edəcəyəm, sevgilim. Mən səni qayğı çəkməyə qoymayacağam. Mən sənə gözəl nəğmələr oxuyacağam. Otağına əlvan xalılar döşəyəcəyəm... Çarpayını bahar çiçəkləri ilə bəzəyəcəyəm... Mən sənə həm yoldaş, həm də qardaş olacağam».

Otaq tamamilə qaranlıqlaşdığından yaralı leytenant məktubun ardını oxuya bilmədi. Elə bu zaman həkim içəri girdi.

Yaralı leytenant qoltuq ağaclarına dayanaraq, ayağa qalxdı və bir həyəcanla:

– Həkim... əzizim... – deyə səsləndi.

Həkim lampanı yandırmaq üçün çəkdiyi kibritin işığını onun üzünə saldı və gənc oğlanın islanmış kirpiklərini görərək:

– Sizə nə olub? – deyə təlaşla soruşdu.

Yaralı leytenant həyəcanını boğaraq yalnız:

– Ax, həkim... Mən səhv etmişəm... Mən xoşbəxtəm, – deyə bildi.

*1942*

## BALIQÇILAR

***(kinonovella)***

Dalğaların qeyzlə çarpdığı boz qaya üstündə ağsaçlı bir qoca balaban çalırdı. Onunla yanaşı oturmuş iki balaca oğlan gülümsəyərək nağara vururdular və bu musiqinin coşğun ahəngi ilə balıqçılar tor çəkirdi.

Külək şiddətlə vıyıldayırdı.

Dənizdə tufan var idi.

Dalğalar şiddətlə qayalara çarparaq parçalanır və balıqçıların başına tökülürdü.

– Bir də!

– Bir də!

– Ay Allah! – deyə balıqçıların şən və cəsur bağırtıları eşidilirdi.

Balabanı getdikcə qızışdıran qocanın gözləri gülürdü.

Bir-birinin ardınca iki balıqçı qayığı sahilə yan aldı.

Qoca, balabanı ağzından götürərək, onlara tərəf qışqırdı:

– Bəs, Qaytaran harda qaldı?

Qabaqca sahilə çıxan balıqçı ona bərkdən cavab verdi:

– Tufan bizi bir-birimizdən ayrı saldı, Qaytaranı itirdik.

– Necə itirdiniz? – deyə qoca həyəcanla ayağa qalxdı.

Balıqçılar toru sahilə çıxarmışdılar.

Gənc bir oğlan təll atılmış balıqları göstərərək:

– Döyüşçülərimizin bəxtindən bu gün dünənkindən xeyli çox tutulmuşdur, – dedi:

– Elə bil ki, dəniz bizim sovqat göndərəcəyimizi bilirmiş, – deyə gənc qız gülümsədi.

Balabançalan qoca ağır addımlarla balıqçılara yaxınlaşaraq:

– Uşaqlar, Qaytaran gəlmədi, – dedi.

Hamı ani bir təşvişlə qocaya baxdı.

Qocanın qalın qaşları çatılmışdı.

– Budur, Gülbəniz də gəlir, – deyə gənc qız əli ilə göstərdi.

Ucaboylu gözəl bir qız yaşıl ağacların arası ilə tələsik irəliləyirdi. Külək onun uzun saçlarını yelləyərək budağa ilişdirdi.

Qız bir an ayaq saxlayaraq saçını budaqdan araladı.

– O, Qaytaranın gəlmədiyini bilsə, qorxacaq, – deyə həmin gənc qız həyəcanla qocaya baxdı.

Qoca başını qaldıraraq:

– Hələlik ona demək lazım deyil, – dedi.

Gülbəniz balıqçılara yaxınlaşaraq, əlindəki zərfi yuxarı qaldırdı:

– Məktub!

– Hardandır? – deyə qoca balıqçı saxta bir təbəssümlə soruşdu.

Gülbəniz sevinclə:

– Cəbhədən... Qaytaranın dostundan.. Bəs, Qaytaran hanı?

Balıqçılar qızı dövrəyə aldılar.

Qoca irəli keçərək:

– Məktubu Qaytaransız da açmaq olar. Oxu, görək nə yazır.

Qız cəld məktubu açdı.

Zərfdən məktubla bərabər bir şəkil də çıxdı. Bütün nəzərlər şəkilə çevrildi.

– Nə gözəl oğlandır, – deyə gənc qız heyrətlə içini çəkdi.

Gülbəniz gülümsəyərək şəkili çevirdi.

Onun arxasında belə yazılmışdı: «Qaytaran, yəqin ki, məni təbrik edəcəksən. Dünən ikinci dəfə ordenlə təltif edildiyimi mənə xəbər verdilər. Bu əksimi, böyük talelərin həll olunduğu bu ağır günlərin kiçik bir xatirəsi kimi sənə göndərirəm».

Hamının üzündə sonsuz bir fərəh qanadlandı.

Yalnız Gülbənizin gözləri kədərlə kölgələndi. O, bir daha şəkilə baxaraq dedi:

– Bəli... Bunu indi bütün ölkə tanıyır, – dedi, – müharibə zamanı uğurlu tale çox az oğlanların nəsibi olur.

Qoca ona etiraz etdi:

– Elə demə, qızım, bu böyük vətən davası, hələ, kim bilir, nə qədər belə qəhrəmanlar yetirəcək.

Gülbəniz:

– Eh, Cəfər lələ, – dedi, – sən elə Qaytaranı da hey tərifləyirdin. Deyirdin, qəhrəman olacaq. Amma nə oldu?

– Nə oldu? – deyə qoca təcili soruşdu.

Gülbəniz:

– Hiss olunmadan vuruşdu... Hiss olunmadan da yaralanıb qayıtdı...

Hamının siması birdən-birə tutuldu.

Bütün nəzərlər dənizə çevrildi.





Gülbəniz bu ani dəyişikliyi duydu.

Və o, başqalarının tutqun üzlərinə diqqət yetirərək vahimə ilə soruşdu:

– Hanı Qaytaran?!

– ...

Gülbəniz:

– Demək, o hələ qayıtmamışdır? – deyə öz-özünə pıçıldadı.

Hamı dənizə baxırdı.

Tufan getdikcə şiddətlənirdi.

Dəniz nərildəyirdi.

Dalğalar əvvəlki hiddətlə sahili döyəcləyirdi.

Balıqçılar da hələ qırpımsız nəzərlərlə qan-qan deyən dənizə baxırdı.

Gülbənizin iri qara gözlərində ağır bir intizar var idi.

Və birdən uzaqlarda, sahilə yaxın yerdə nəhəng bir dalğa yüksəldi. Onun üzərində kiçik bir qayıq qaralırdı.

Balıqçılar həyəcanla hərəkətə gəldilər.

– Qaytaranın qayığıdır! – deyə Gülbəniz qeyri-iradi dənizə doğru bir-iki addım atdı.

Dalğalar qayığı bir oyuncaq kimi atıb tuturdu.

– O tərəflərdə sahil qayalıqdır, – deyə balıqçılardan biri qorxu ilə səsləndi.

– Doğrudur, – deyə qoca təsdiq etdi. – Oralarda sahilə yan almaq qorxuludur. Dalğalar qayığı qayalara çırparaq, parça-parça edə bilər.

Hamı gərgin bir həyəcanla baxırdı.

***

Hava qaralmaq üzrə idi.

Qaytaran var gücü ilə sahilə yan almağa cəhd edirdi.

Lakin tufan aman vermirdi.

Və birdən dalğalar arasından nisbətən böyük bir balıqçı qayığı çıxdı.

Qaytaran bir an əl saxlayaraq, bu nagahandan zühur etmiş qayığa və qayıqdakılara təəccüblə baxdı və öz-özünə dedi:

– Qəribədir... Bunlar bizim yerlərin balıqçılarına oxşamırlar.

Və bir an nəyi isə düşünərək, dərhal həmin qayığa tərəf avar çəkdi.

***

Qayıqda üç nəfər balıqçı var idi. Onlar özlərini itirmiş halda idilər.

– Yox... Burdan sahilə çıxmaq mümkün deyil, – deyə onlardan biri ümidsizliklə avar çəkən yoldaşlarına müraciət etdi. – Qayalar ölüm həvəsilə adamın gözünün içinə baxır. Şimala tərəf istiqamət al!

Və o, birdən onlara sarı avar çəkən Qaytaranı görərək:

– Bu kimdir? – deyə narahat bir vəziyyət aldı.

– Yəqin balıqçıdır, – deyə avar çəkənlərdən biri cavab verdi.

– Yaxşı ki, təkdir, – deyə əvvəlki balıqçı rahat bir nəfəs aldı. – Qoy gəlsin, görünür, tale özü onu bizə bələdçi göndərmişdir.

– Siz nə danışırsınız, kapitan?... O bizi... – deyə üçüncü balıqçı təəccüblə birinciyə baxdı.

Birinci, qaşlarını çataraq, onun sözünü kəsdi.

– Az qorxaq olun... Görmürsünüz o təkdir! Gedəcəyimiz yeri öyrənəndən sonra işini bitirmək asandır.

Qaytaran avar çəkə-çəkə onlara yaxınlaşdı.

– Deyəsən, sən də yol azmısan, – deyə birinci balıqçı ona baxaraq, qeyri-təbii bir təbəssümlə gülümsədi.

Qaytaran ciddiyyətlə cavab verdi:

– Yox, mən yol azmamışam. Qayığım zədələnib, içinə su dolur, məni də öz qayığınıza götürün.

Və o cavab gözləmədən qalxıb o qayığa keçdi.

***

Sahil.

Balıqçılar eyni təşvişlə baxırdılar. Qoca balıqçı başını bulayaraq:

– O, sahilə yan almağa cəsarət etmədi, – dedi.

– Hava qaranlıqlaşır. Bu tufanda o heç bir yerə çıxa bilməyəcək, – deyə başqa bir balıqçı cavab verdi.

Bir başqası:

– Nə cür olursa-olsun, kömək lazımdır, – dedi.

Gülbəniz diksinərək balıqçılara baxdı.

Lakin hamı susurdu. Hamının dənizə dikilmiş gözlərində bir cəsarətsizlik oxunurdu. Bu zaman qız yerindən tərpənib, sahildəki qayığa tərəf yüyürdü.

Qoca onun məqsədini duyaraq qışqırdı:

– Dayan!

Lakin Gülbəniz ona qulaq asmayıb, qayığı dənizə doğru itələdi.

Qoca yaxınlaşıb, qızı kənara itələdi və heç bir söz demədən qayığı suya salıb, özü də içinə mindi.

Sahilə hücum etmiş böyük bir dalğa qayığı alıb apardı.

Balıqçılar baxırdılar.

Cavan bir balıqçı:







– Niyə onu qoydunuz getsin? Yaşının bu vaxtında...

Başqa birisi onun sözünü kəsərək:

– Yaşına nə baxırsan, sənin kimi yüz cavandan ürəklidir, – dedi. – Ömrünün qırx ilini dənizdə keçirib, bu dalğalarla bacarsa, ancaq o bacara bilər.

Qocanın qayığı dalğalar arasında gah görünərək, gah da qeyb olaraq, getdikcə uzaqlaşırdı.

Hava artıq qaranlıqlaşmışdı. Dəniz indi daha amansız bir qeyzlə təlatümə gəlirdi. Dalğalar qalxıb-enirdi.

Tez-tez ildırım çaxaraq, böyük qayığın içində sükutla dayanmış Qaytaranı və naməlum adamların həyəcanlı üzlərini işıqlandırırdı. Birinci naməlum adam Qaytarana baxaraq, gizli bir əsəbiliklə soruşdu:

– Sən əminsənmi, biz Yaşıltəpə vətəgəsinə doğru üzürük?

Qaytaran qətiyyətlə cavab verdi:

– Necə əminsən! İyirmi dəqiqədən sonra biz mütləq orada olacayıq.

Birinci naməlum adam ayağa qalxaraq, avar çəkən yoldaşlarına yaxınlaşdı və onlardan birinə müraciətlə:

– Sən yoruldun. Avarı ver, bir az da mən çəkim.

O, avarı alıb, yoldaşını əvəz edərkən, yavaşca onun qulağına pıçıldadı:

– Sən keç qabağa, başını qarışdır.

Əvəz olunan adam Qaytaranın yanına keçib, onu söhbətə tutdu.

– Sən belə tufanda necə ürək eləyib dənizə tək çıxdın?

Qaytaran:

– Cəbhəyə sovqat hazırlayırdıq. Qızıl balıq ovuna çıxmışdım.

Arxaya keçmiş birinci naməlum adam avarı qaldırıb, Qaytaranın başına endirmək istədiyi anda o, bunu gördü və bir sıçrayışda qəməsini düz ürəyinə sapladı, sonra da qaldırıb dənizə tulladı. Qalan iki adam Qaytaranın üzərinə düşdülər. Şiddətli mübarizə başladı. İldırım onların dəhşətli üzlərini işıqlandırırdı. Qaytaran naməlum adamların silaha əl atmalarına imkan vermirdi. Lakin onlar birdən fürsət tapıb, Qaytaranı dənizə tulladılar.

* * *

Sahil.

Balıqçılar əvvəlki yerlərində idi. Baxışları hələ də dənizdə olan Gülbəniz, birdən qəlbinə bir şey sancılmış kimi, «ah!» deyib gözlərini yumdu.

* * *

Dəniz.

Qaytaran böyük bir dalğanın üstündən şığıyıb qayıqdan yapışdı.

Naməlum adamlardan biri onun əllərini qayığın kənarından qoparmağa cəhd etdi. O biri isə, balaca bıçağı var gücü ilə Qaytaranın kürəyinə sancdı.

Lakin Qaytaran qayıqdan əl çəkmədi və o, fövqəladə bir qüvvə ilə sıçrayıb təkrar qayığa mindi. Mübarizə yenidən qızışdı. Bəzən Qaytaran, bəzən də düşmənlər güc gəlirdi. Elə bu zaman dalğaların uğultusu arasından bir səs eşidildi:

– Ehey, Qaytaran!... Qaytaran, hey!

Qaytaran başını qaldırıb bu naməlum səsə cavab vermək istədi. Lakin düşmənlərdən biri əli ilə onun ağzını qapadı.

* * *

Sahil.

Cavan balıqçı yanındakına dedi:

– Heç olmazsa, qocanı gərək qoymayaydıq getsin. Qaytarana köməyə getmək artıq gec idi...

Yoldaşı pıçıltı ilə onun sözünü kəsdi:

– Yavaş danış, Gülbəniz eşidər. Yazıq, onsuz da, çox iztirab çəkir.

Gülbənizin gözlərində bir həyəcan vardı.

* * *

Qayıq.

Mübarizə davam edirdi. Uzaqdan gələn o səs yenə də eşidildi:

– Qaytaran, hey!

Lakin Qaytaran cavab verməyə imkan tapmırdı.

Düşmənlər getdikcə taqətdən düşürdü.

Qaytaranın bu qeyri-adi qüvvət və cəldliyi onları büsbütün şaşırtmışdı. Düşmənlərdən biri qurtuluşun qeyri-mümkün olduğunu hiss edərək, «donuz» deyə alman dilində mırıldandı və elə bu anda Qaytaran qəməsini onun xirtdəyinə sapladı. Düşmən xırıldayıb yıxıldı. Gözləri alov saçan Qaytaran bir həmlədə o biri adamı da xirtdəkləyərək vurmaq istədi, amma düşmən əllərini yuxarı qaldıraraq:

– Təslim! – deyə kəkələdi.

Qaytaran bir əlini düşmənin boğazına dayadı, dərindən nəfəs aldı və qəmə tutduğu əlinin arxası ilə alnının tərini sildi. Bu zaman «Qaytaran, hey!» deyə yenə də o səs eşidildi. Qaytaran cavab vermək istəyərkən kürəyindəki yaranın ağrısından sarsılaraq gözlərini yumdu. Onun bu halından fürsət tapan düşmən cəld iki əli ilə oğlanın boğazından yapışdı. Lakin Qaytaran, bütün gücünü toplayaraq, düşməni qaldırıb qayığın içinə çırpdı:





– Əclaf, mən səni diri aparmaq istəyirəm, – deyə cəld kəmərini açdı və onun əllərini arxasında çarpazlayaraq möhkəm bağladı.

Sonra qayığın kənarına söykənərək, yarıcan halda bayıldı.

Bu zaman qaranlıqdan balaca bir qayıq çıxdı. Saç-saqqalından su süzələnən qoca balıqçı sürətlə avar çəkirdi. O, qəfildən, dənizdə yırğalanan naməlum qayığı görərək qışqırdı:

– Qayıqda kim var?

– ...

– Qayıqda kim var? – deyə qoca bir də soruşdu.

Və heç bir cavab almadıqda bir neçə saniyə şübhəli baxışlarla qayığı gözdən keçirdi. Sonra qətiyyətlə ona doğru avar çəkdi.

Qoca, naməlum qayığa yaxınlaşaraq, diqqət etdi və gördüyü mənzərədən əvvəlcə heyrətə gələrək, bir an donub qaldı. Sonra birdən:

– Qaytaran! – deyə həyəcanla səslənərək, qalxıb o biri qayığa keçdi.

Qayığın şiddətli çalxanışından Qaytaran gözlərini açaraq, qocanı gördü və sevinclə:

– Cəfər lələ! – deyə bildi.

* * *

Ay, buludları yararaq, sahil meşələrini işıqlandırırdı.

Balıqçılar, üstündə yemək bişən ocağın ətrafında halay vurub, sükuta dalmışdılar.

Uzaqlardan kədərli bir mahnı axıb gəlirdi.

Balıqçılardan biri «ah» çəkərək tənbəki çubuğunu çıxartdı.

– Yazıq Gülbəniz, gör necə qəmli oxuyur...

Cavan balıqçı:

– Qaytaranı çox sevir, – dedi, – əgər, onun başına bir iş gəlmiş olsa, heç bilmirəm qızın halı necə olacaq.

* * *

Ağaclar arasında dikəlmiş təpə üzərində, çiyinlərini bir-birinə söykəyərək, iki qız oturmuşdu.

Ay işığında Gülbənizin üzü daha solğun, gözləri daha qara görünürdü.

O, qəzəbi soyumuş dənizdə qıvrılan işıqlı zolaqlara baxaraq kədərli sözlər oxuyurdu.

O biri qızın gözündən bir damla yaş qoparaq, ağır-ağır üzü aşağı yuvarlanırdı.

Gülbəniz oxuyurdu.

O, birdən susaraq diqqətlə dənizə baxdı.

– Nə oldu? – deyə o biri qız heyrətlə soruşdu.

Gülbəniz:

– Qayıq! – deyə qışqıraraq balıqçılara tərəf yüyürdü.

Hamı ayağa qalxaraq dənizə baxdı.

Qayıq getdikcə sahilə yaxınlaşırdı.

– Yox, bu onun qayığı deyil, – deyə Gülbəniz ümidsizliklə «ah» çəkdi.

Gənc balıqçı diqqət edərək:

– Bu, qocanın da qayığı deyil, – dedi.

Hamı sükutla baxırdı.

Qayıq sahilə yan alırdı.

Balıqçılar qocanı tanıyaraq, bir ağızdan qışqırdılar:

– Bəs, Qaytaran hanı?

Qaytaran gücünü toplayaraq, ayağa qalxdı və qocanın köməyi ilə sahilə çıxdı.

Gülbəniz onun əllərindən yapışaraq:

– Sənə nə olub, əzizim? – deyə qorxu ilə soruşdu.

Qoca balıqçı gülümsəyərək:

– Ona heç nə olmayıb, ancaq kürəyini bir balaca cızıblar.

Sonra balıqçılara müraciətlə:

– Qaytaranın bugünkü ovu pis olmayıb, gedin qayıqdan çıxarın, – dedi.

Balıqçılar qayığa tərəf yüyürdülər.

Cəfər lələ, Gülbənizə baxaraq, mehriban bir təbəssümlə:

– Hə, gündüz gileylənirdin ki, ay nə bilim, Qaytaran qəhrəman olmadı, cəbhədən hiss olunmadan qayıtdı... Bəs indi nə deyirsən?

Gülbəniz sonsuz bir fərəhlə gülümsəyərək Qaytarana baxdı.

Bu zaman balıqçılar düşməni gətirdilər. O, utandığından heç kəsin üzünə baxa bilmirdi.

Qoca ona nifrət dolu qəzəbli bir nəzər salaraq:

– Hə, necədir, faşist köpəkoğlu, üç nəfəriniz bir arıq oğlanın əlindən can qurtara bilmədi, – dedi.

*1942*

## GÜL SATAN

Mən gül satan idim.

Hər səhər pəncərənin ağzında fəryad edən bülbülün səsinə oyanaraq, tələsik geyinib, bağçamıza qaçardım. Yenicə açılmış qızıl güllərimi dərib, həsir zənbillərə doldurar və küçəyə çıxardım.

Yasəmən rəngli tül pərdəsi hələ qaldırılmamış o tək pəncərənin önündən ötdükcə qışqırardım:

– Ay gül alan, gül alan!..

O, pəncərəni açaraq, ağ səhər paltarında, yuxulu gözləri ilə mənə baxar və gülümsərdi.

Mən bağçamızdakı bülbül kimi fəryada gələrək ötərdim:

– Qızıl gül... Məxmər gül... Qərənfil!..

O isə, baxar və gülümsəyərdi...

Sonra başı ilə işarə edərək, məni çağırar:

– Bir dəstə gül ver, oğlan, – deyə əmr edərdi.

Əllərim titrəyə-titrəyə dəstə düzəldib yuxarı qaldırardım. O, balaca, şəffaf əlini uzadıb, gülləri alar və üzümə baxaraq gülümsəyərdi. Mən onun saçlarının ətrini köksümə dolduraraq:

– Qızıl gül, məxmər gül... Qərənfil!.. – deyə-deyə qaçıb uzaqlaşardım.

Və o, hər səhər pəncərəni açıb, mənə baxar, bahar kimi gülümsəyərdi...

Lakin bir gün xəzan gəldi, bülbül susdu. Gülüm daha açmadı.

Mən yenə də onun qarşısında dolaşır, «Ay qəzet alan» deyə qışqırırdım.

Nəhayət, bir gün pəncərə açıldı. O, yenə də yuxulu gözləri ilə mənə baxdı, sonra qaşlarını çataraq, pəncərəni qapadı...

Və bir daha açmadı.

Mən isə, hər səhər onun pəncərəsi ağzında dolaşır, baharımı və güllərimi gözləyirdim.

*1945*

## CAVAN YOLÇU

Mən nə dəliydim, qızılgül...
Yadındadırmı? O, hər səhər gəlib burdan keçərdi.
Mən sənə su çilərdim, o isə, baxıb gülümsəyərdi.
Mən qaşlarımı çatıb:
– Cavan yolçu, yolunla düz get, – deyərdim.
O, məyus olub gedərdi...
Mən isə, gözlərim dolmuş halda, arxasınca baxaraq:
– Ah, ürəksiz! – deyərdim...
Sonra bütün gecəni yatmayıb, sübhü gözləyərdim...
Və o, hər səhər gəlib buradan keçərdi...

Mən on beş bahar görmüşdüm. Onun on səkkiz yaşı var idi. Mən qara bir qız idim, o isə, qız kimi gözəldi.

Bir sabah yenə gəldi... Baxdı. Baxdı və gülümsədi.

Lakin təbəssümündə qərib bir hal var idi. Baxışları qürub kimi kədərliydi... Mən qaşlarımı çatıb:
– Cavan yolçu, yolunla düz get – dedim...
O, çıxıb getdi...
Ah, mən nə dəliydim, qızılgül...
Gözüm yollarda qaldı, lakin o cavan yolçu bir daha görünmədi.

Ah, nə deyim, qızılgül... Nə qəribəymiş taleyim... Dünən almışam onun uzaq... əziz sorağını...

Bilirsənmi hardaymış? Uzaq-uzaq ellərdə, qanlı müharibələrdəymiş...

Sən demə, mənim cavan yolçum adlı-sanlı bir qəhrəman olub... Döşündə nişanları, ər bir komandir olub...

Mən on doqquz bahar görmüşəm. Onun iyirmi iki yaşı var... Mən gənc bir qız olmuşam. O da igid bir əsgər...

Ver müjdəmi, qızılgül...
Deyirlər bu günlərdə, o, qayıdıb gələcək.

Yalvarıram gizlicə, o buradan keçəndə, bizi özün barışdır, ah, əzizim qızılgül!

*1945*

Hekayə



## BAHAR BULUDLARI

Mən on doqquz yaşında, öz gözəlliyinin təntənəsi ilə sərxoş bir qız idim. Mənə elə gəlirdi ki, dan yerini şəfəqləndirən, bahar çiçəklərini işıqlandıran mənim gözəlliyimdir. Mənə elə gəlirdi ki, yaz sabahları mənimlə açılıb gülümsəyir, yay gecələri mənim eşqimlə xülyalara qərq olur...

Mən, üstündə səhər şehi titrəyən hər qönçədə, yaşıl zəmilər arasında qızaran hər lalədə öz gözəlliyimi görürdüm.

Mən hüznlə oxunan mahnılarda, iztirablar içində boğulan kaman təranələrində öz gözəlliyimin həsrətini duyurdum...

Mənə elə gəlirdi ki, dünyada nə varsa – hamısı mənim xumar gözlərimin, dabanlarıma qədər uzanan sarışın saçlarımın həsrətini çəkir...

Bu məlun duyğu məni getdikcə amansız və məğrur edirdi. Küçə ilə gedərkən yanımdan keçən gənclərin ayaq saxlayıb, heyrətlə ardımca baxdıqlarını duyduqca, mənim xudpəsənd mənliyim öz yanğınından zövq alan Neron kimi məmnun qalırdı.

Böyük Füzulinin segahlarda oxunan qəzəllərini, «Hanı, ey zalım, bizimlə əhdi-peyman etdiyin» deyə fəryad edən xanəndəni dinlədikcə, mənə elə gəlirdi ki, kimsə, hansı naməlum bir aşiqsə mənim zalımlığımın iztirabları ilə əzab çəkir və bütün dünyanın halına yanır. Bu zaman mən rəhmdil duyğularla qəhərlənir, otağıma qaçaraq, şirin göz yaşları axıdırdım. Lakin bu, soyuq, qaranlıq gecədə qəflətən parlayıb sönən naməlum bir işığa bənzəyirdi. Mənim, amansız mənliyim yenə əvvəlki kimi öz yoluna davam edirdi. Mən başımı dik tutaraq, kimsənin üzünə baxmadan insanların yanından qürurla keçib gedir, kimisə gözləyirdim. Mən onun bir gün gələcəyinə inanırdım. O, mənim gördüyüm insanların heç birinə bənzəməməli idi. Onda başqalarında olmayan bir xariqüladəlik olmalı idi.

Bir yaz axşamı institutdan evə qayıdanda, anamı, adəti xilafına, öz otağında kitab oxuyan deyil, mətbəxdə cürbəcür yeməklər hazırlayan gördüm.

– Nə olub ana? – dedim. Qonağımızmı var?
O, üzümə baxıb gülümsədi:

01/01–17

Hekayə

– Bilirsən kim gəlib?

– Kim? – deyə səbrsizliklə soruşdum.

– Hidayət. Maşallah, bilirsən necə oğlan olub... gözləri, gülüşü eynilə anasınınkıdır ki, durub.

Anam xəfifcə «ah» çəkərək işinə davam etdi.

Hidayət mənim xalam oğlu idi. Bizim taleyimizdə qəribə bir oxşayış var idi. O da anasının bircəsi idi, mən də. O da beş-altı yaşında atadan yetim qalmışdı, mən də. Fərqimiz orasında idi ki, o, on yaşında olanda anası da vəfat etmişdi.

Moskva darülfünunlarından birində riyaziyyat professoru olan qoca əmisi onu yanına apararaq öz himayəsinə götürmüşdü. O, darülfünunun nəzdindəki aspiranturanı bu il parlaq bir imtahanla bitirmiş, texniki elmlər namizədi adı almışdı. Məndən yeddi yaş böyük idi.

Biz bir-birimizi görməmişdik. Lakin mən onun haqqında çox teztez düşünür, xəyalımda ona qəribə surətlər verirdim. Mənə elə gəlirdi ki, o yalnız mənim xalam oğlu olduğu üçün bütün insanlardan seçilməli, gözəl və fövqəladə olmalıdır. O, bəlkə də, mənim çoxdan bəri yolunu gözlədiyim qəhrəman idi.

Öz otağıma gedib tələsik paltarımı dəyişdim. Yasəmən rəngli axşam əlbisəmi geyindim. Saçlarımı zərif qoxulu bənövşə ətri ilə isladıb yenidən hördüm. Sonra qonaq otağına keçib, hər şeyi öz zövqümlə düzəltdim. Bir azdan qapı açıldı. Ucaboylu, nazik bir oğlan gülümsəyərək içəri girdi. Məni görərkən qəflətən sarsılmış adamlar kimi dayanıb heyrətlə üzümə baxdı. Bu mənim üçün heç də gözlənilməz bir vəziyyət deyildi (ax, məşum xudpəsəndlik).

İrəli yeriyərək:

– Xoş gəlmisiniz, xalaoğlu, – dedim.

O, xəfifcə qızararaq əlimi sıxdı.

Anam içəri girərək:

– Sizin kimi də xalaoğlu-xalaqızı olar, hələ indiyə kimi bir-birinizin üzünü görməmişsiniz, – dedi.

– Keçin əyləşin, xalaoğlu! – deyə yer göstərdim.

Üçümüz də oturduq.

Anam ondan bəzi şeylər soruşur, oğlan qısa cavablar verirdi. O, mən tərəfə baxmırdı. Fəqət bütün fikrinin məndə olduğunu hiss edirdim və bu məni əsəbiləşdirirdi...

Xalaoğlu da mənim hər gün gördüyüm adi insanlardan biri idi. Qarabuğdayı üzündə, tünd qonur gözlərinin mülayim baxışlarında mənə çoxdan məlum olan sadə bir ifadə var idi. Bu, sakit, adi bir həyatın ifadəsi idi. Danışığında və hərəkətlərində onu başqalarından fərqləndirəcək heç bir şey yox idi. Nazik qara şivyotdan kostyum, təmiz ağ köynək geyinmiş, ütüsü pozulmuş qara boyunbağı bağlamışdı.





Mən onun günəşdən yanıb, qaralmış geniş alnına, geriyə daranmış cod saçlarına, sadə dəmir qutudan çıxardığı ucuz qiymətli papirosuna, gəncliyinə baxmayaraq, yanları tüstüdən saralmış, enli barmaqlarına baxaraq, həyatımda ilk dəfə hiss etmədiyim acı bir ümidsizliyə uğradım.

– Məni bağışlayın, ana, – deyə ayağa qalxdım. – Bir az başım ağrıyır.

Xalam oğlu üzümə baxaraq gülümsədi. Bu təbəssüm mənə mənasız və dözülməz göründü. Otağın havasından boğulurmuşam kimi çevrilib sürətlə çıxdım. Öz otağıma gedib çarpayaya yıxılaraq, həyatda hamının nədən belə adi və yapışıqsız olduğu haqqında acı düşüncələrə daldım. Mən nə istəyirdim? İnsanların qəlbində, ruhunda nə kimi xariqüladəliklər axtarırdım? Öz qəhrəmanımın hansı yüksək və irişilməz keyfiyyətlərə malik olmasını istəyirdim? Bilmirəm. Bu barədə məndə heç bir aydın təsəvvür və ya mühakimə yox idi. Lakin mən sarsılmaq istəyirdim. Mən Ayın xülyalı nurunu, sabah günəşinin şən ziyalarını, insanların məftun nəzərlərini sakit, durğun bir göl kimi udan, heç nədən mütəəssir olmayan ruhumda qorxulu bir fırtınanın qopmasını istəyirdim.

Xalam oğlu saatlarca oturub anamla söhbət edir, əmisindən, Moskvadan, hər şeydən danışır, lakin özü haqqında bir kəlmə də olsun söyləmirdi. Romanlarda oxusaydım, bu, mənə gözəl, romantik bir təsir bağışlayardı. Qəhrəmanın öz həyatından hansı bir gizli sirri isə açmaq istəmədiyindən həyəcanlanırdım. Lakin xalam oğluna özü haqqında danışmadığı üçün qəlbimdə, sadəcə, təşəkkür edirdim. Çünki onun söhbətləri məni darıxdırırdı. Mən onun baxışlarından qaçırdım (halbuki, bu mehriban baxışlarda təhqiredici heç nə yox idi). Anamı incitməmək üçün yalnız yemək zamanı onların yanına gəlirdim. Anam məni anlayır və «ah» çəkirdi.

Bir dəfə onun başı ağrıyırdı (son dörd-beş ildə, bu, onda tez-tez olurdu), məni çağırıb çarpayısı yanında oturtdu. Yaz imtahanlarına (o zaman mən institutun üçüncü kursunda idim) necə hazırlaşdığımdan, filandan soruşduqdan sonra əsl mətləbə keçdi:

– Öz həyatın haqqında fikirləşmək yaşına çatmısan qızım, – dedi. – Görürsən mən də qocalmışam.

Gözlərini yerə dikərək bir neçə saniyə susdu. Sonra yavaş və cəsarətsiz bir səslə:

– Kaş, xalan oğlunu ürəyin tutaydı, yaxşı oğlandır, – dedi.

Mən heç bir cavab vermədim. Anamın qüssəli, solğun üzünə ba-

xaraq gözlərim doldu. Qəlbimdə özümə, öz məşum mənliyimə qarşı bir üsyan qopdu: «Kaş, onu sevəydim, ana! Bu dünyada mənim üçün sənin arzundan əziz nə var? Lakin nə edim, ana? Mən pis adamam, kimsəni sevə bilmirəm.»

Anam «kaş, bir-birinizi sevəydiniz...» demirdi. O, xalam oğlunun hisslərini anlayırdı. Bunu mən də anlayırdım və buna görə də, ondan mümkün qədər gen gəzirdim. Bakıda işə girməsini biləndən sonra ona qarşı daha da soyuq və sizdən nə gizlədim, qaba oldum. Təbəssümünə qaş-qabaqla, suallarına könülsüz, qırıq cümlələrlə cavab verirdim.

Mən uşaqlıqda, təzə puçurlanmış yarpaqcıqları dırnaqlarımla didib tökməkdən zövq alardım. İndi də məndə eynilə buna bənzər amansız bir hal var idi. Mən bu yazıq oğlanın qəlbində qönçələnən duyğuları görürdüm və onu dırnaqlarımla didib-tökmək üçün hər vasitədən istifadə edirdim. Mən heç kəsi sevmirdim. Buna görə də, başqalarının məhəbbəti məndə kin və qəzəb doğururdu.

Lakin mən nə qədər sərt və amansız olurdumsa, onun baxışları, rəftarı o qədər incə və mülayim olurdu. O, üzərinə dalbadal çaxılan güllələrə əhəmiyyət verməyərək, gülümsəyə-gülümsəyə irəliləyən adamlara bənzəyirdi. Bu hal bəzən məni qorxudurdu. «Doğrudanmı, o, geriyə dönmək istəmir?» deyə vahimə ilə düşünürdüm. Qəribədir, bütün qəzəbimə baxmayaraq, onun bu hərəkəti mənə bir həyasızlıq kimi görünmürdü. Mən onda öz ovundan asanlıqla əl çəkməyəcək bir ovçu inadı hiss edirdim. Burası da çox qəribədir ki, qəlbimin dərinliklərində onun bu inadından məmnun kimi olurdum.

Bir axşamçağı o, bizdə olduğu zamandan bəri birinci dəfə mənim otağıma gəldi:

– Sizi narahat etmədim ki, xalaqızı? – dedi.

– Xeyir, buyurun! – dedim.

Pəncərələrə vurulmuş açıq mavi tüllərə, yazı stolu üstündə büllur vazaya qoyulmuş çiçəklərə, divarlara vurulmuş mənzərə tablolarına (mən rəssamlıqdan yalnız mənzərə təsvirlərini sevirəm) baxaraq:

– Nə şairanə otağınız var! – dedi.

– Şairanə nə üçün? – deyə bütün cəhdimə baxmayaraq qəzəbimi gizləyə bilmədim.

O, diqqətlə üzümə baxaraq gülümsədi. Bu təbəssümdə sərbəst və mehriban bir ifadə var idi. Sanki o, körpə uşağın acıqlanmasilə əylənirdi:

– Yoxsa şairləri sevmirsiniz? – dedi.

– Onların buna ehtiyacları da yoxdur, – dedim.

– Necə ki yoxdur? Bəs, kimin üçün yazırlar?

– Hər halda, mənim üçün yox.





– Nə üçün?

– Çünki məndə, onların incə duyğularını anlamaq istedadı yoxdur.

O, yenə də mənə sürəkli bir nəzər salaraq gülümsədi. Və elə bil, bu təbəssümü ilə demək istəyirdi ki, «Sən özünə nahaq yerə böhtan atırsan. Nə demək istədiyini mən, onsuz da, başa düşürəm».

– Bu gecə dağüstü bağda müsamirə var. Mənimlə gedərsinizmi?

Birdən-birə cavab verə bilmədim. Rədd etmək həddindən artıq nəzakətsizlik olardı. Şəhərdə bizdən başqa kimsəni tanımırdı.

– Yaxşı, səkkizin yarısında gələrəm, gedərik, – deyib bayıra çıxdı.

Mən onun ardınca baxaraq:

– Qəribə adamdır, mənim istəyimlə hesablaşmaq belə istəmir, – dedim.

Sonra qalxıb anamın yanına getdim. Onun da bizimlə getməsini xahiş etdim.

Anam:

– Mən özümü bir az kefsiz hiss edirəm. İkiniz getsəniz olmazmı? – dedi.

– Gedək, ana, heç nə olmaz. Təmiz hava alarsan. Onsuz da, həkimlər sənə açıq havada gəzməyi məsləhət görürlər.

Anamın gözəl gözlərinə yenə də bir kədər çökdü. Yazıq arvad nə üçün onun da bizimlə getməsini istədiyimi anlayırdı...

Ah, əziz ana! Niyə sən onda razı oldun? Nə üçün mənə ağır sözlər demədin?

Axşam səkkizin yarısında getdik. Dağüstü bağda, həmişəki kimi, böyük qələbəlik var idi.

– İstəyirsiniz bir az gəzək. Müsamirənin başlanmasına hələ yarım saat var, – deyə, xalam oğlu təklif etdi.

– Çox gəzmək anama zərərdir, – dedim.

İnsan bəzən nə qədər xudpəsənd olurmuş. Bu sözləri mənə dedirdən anamdan çox öz mənliyim idi. Mən bu böyük izdiham içində onunla gəzməyi öz şənimə sığışdıra bilmirdim.

Dalda bir yer göstərərək:

– Burda oturaq, – dedim.

O, etiraz etmədi. Sonralar da o, heç nəyə etiraz etmirdi.

Nəhayət, zəng çalındı. Yay salonuna hamıdan sonra biz daxil olduq. Keçib yerimizdə oturana qədər yüzlərcə nəzərin bizə tərəf çevrildiyini, adamların bizə baxaraq pıçıldaşdığını hiss edirdim. Bu hiss mənim məlun izzəti-nəfsimi sarsıdırdı. Mənə elə gəlirdi ki, bu gözlər istehza ilə gülümsəyir və «Axır ki, sənin sevgilini gördük» deyə mənə tənə edirlər. Mən isə, gözucu da olsa, kimsəyə baxmırdım və sanki bununla onlardan intiqam alırdım.

Yerimizə çatdıqda geriyə qalaraq:

– Buyurun, – dedi.

Mən heç bir səbəbi olmadan:

– Rica edirəm, çox narahat olmayın, – deyə qəzəblə pıçıldadım və keçib anamın o biri tərəfində oturdum.

Müsamirə başlandı. Otuz-otuz beş yaşlarında, olduqca gözəl bir xanəndə səhnəyə çıxıb, birinci, ikinci nəğməni oxudu. Gurultulu alqış sədaları altında onun nəzərlərini birdən öz üzərimdə hiss etdim. Mən üzümü anama tərəf çevirərək onun baxışlarına heç bir əhəmiyyət vermədiyimi hiss etdirdim. Bütün salondakıların əksinə olaraq, mən əl də çalmırdım. Bu ona təsir etdiyi üçün gözlənilmədən məşhur «Suliko» mahnısını oxumağa başladı. «Suliko» uşaqlıqdan mənim ən çox sevdiyim mahnılardan biri idi və bu xanəndə onu elə bir ağı ilə oxuyurdu ki, mən bir anlığa hər şeyi unutdum. Mənə elə gəldi ki, çoxdan tərk edilmiş, xiyabanlarını vəhşi kol-koslar basmış viranə bir bağda bu nəğməni oxuya-oxuya öz sevgilisinin məzarını axtaran mənəm. Elə bil ki, ağaclara sarmaşan tənəklər, xaraba barılar arasından baş qaldıran çiçəklər mənim nakam sevgimin, pərişan gözəlliyimin dərdi ilə göz yaşları tökür. Elə bil ki, mənim nəğməm min il bundan əvvəl ölüb getmiş, vüsalə yetməmiş bir sevginin hicranlarından danışır...

Birdən göy şiddətlə şaqqıldadı. Aşağıda ildırım çaxaraq dənizi işıqlandırdı və bunun ardınca elə bir yağış başladı ki, elə bil, dəryaları qaldırıb göydən yerə tökdü.

«Suliko» susdu. Adamlar bir-birinə dəydi. Biz dalda bir yerə çəkilənə qədər təpədən dırnağa kimi islandıq. Yağış ara verən kimi sərin külək qalxdı. Anamın bənizi ağappaq olmuşdu.

– Tez maşın çağırın, – deyə xalam oğluna qışqırdım.

On beş dəqiqədən sonra biz artıq evdəydik.

Gecə anama titrətmə gəldi. Mən səhərə qədər onun yanında oldum. Xalam oğlu da oturdu. O, dərin peşmançılıq keçirirdi. Bir kəlmə də olsun danışmırdı. Səhəri həkim gəlib anamın ikitərəfli sətəlcəm olduğunu söylədi.

Siz yəqin ki, həyatınızda qorxulu xəbərlər eşitmisiniz. Lakin mənim bu anda keçirdiyim halı keçirməmisiniz. Bunu, bəlkə də, heç kəs keçirməyib. Həkimlərin üzündəki ifadədən vəziyyətin təhlükəli olduğunu hiss etdikdə, bütün bədənim birdən-birə sanki bumbuz oldu. Nitqim tutuldu. Elə bil ki, mənim papiros kağızı kimi yüngül olmuş vücudumu havanın xəfif cərəyanı götürüb hara isə qorxunc bir yerə aparacaq... Anam dünyada mənim yeganə sevdiyim, yeganə isinişdiyim adam idi.

Onun şam kimi yanıb qurtardığını gördükcə, mənə elə gəlirdi ki,





müdhiş bir zülmət hücum çəkib ağır-ağır üzərimə yeriyir. Mən, soyuq ölüm təri içində yeri-göyü köməyə çağırırdım.

Lakin həkimlərin bütün cəhdinə baxmayaraq, o, getdikcə sönürdü. Onun mənim üzərimdə dayanan bu dilsiz baxışlarında, nə isə, ağır bir əndişə, bir qayğı var idi.

Bir axşamçağı halı bir az yaxşılaşan kimi oldu. İşarə ilə məni və xalam oğlunu yanına çağırdı. Balıncları arxasına qoydurdu. Azca dikəlib oturdu. Üzü elə bil ki, səmavi bir nurla işıqlanmışdı. Əlini güclə qaldırıb əlimin üstünə qoydu. Ağır-ağır nəfəs alaraq:

– Qızım, – dedi, – ölüm hamı üçün var. Ancaq səndən nigaran qalmaqda çətinlik çəkirəm, söz ver ki, bir-birinizdən...

Birdən bütün vücudu ilə titrədi. Səsi batdı. Gözləri iri-iri açılaraq cavab istəyirmiş kimi mənə dikilib qaldı. Sonra nə görmüşəm, nə hiss etmişəm – bunu indi də xatırlaya bilmirəm. Ayılanda mənə elə gəldi ki, dünyanın üzərinə soyuq, qorxulu bir qaranlıq çökmüşdür və bu qaranlıq içində hər şey itib getmiş, mən öz günahlarımla tək qalmışam... Gözlərimdən, bir damla da olsun, yaş çıxmırdı. Qəlbimdə şəfqət, iztirab adlanan heç bir insani duyğu yox idi.

Atam vəfat edəndə anamın iyirmi altı yaşı varmış. O vaxtdan ərə getməmişdi. Oturub məni böyütmüşdü. Gəncliyini, gözəlliyini mənə qurban vermişdi. Axırda da ki, belə. Əgər, o gecə onun da bizimlə getməsini təkid etməsəydim, bəlkə də, heç xəstələnməyəcəkdi. Lakin mən təkid etdim. Çünki mən özümə yaraşdırmadığım bir adamla cəmiyyət hüzuruna tək çıxmaq istəmirdim.

Birdən mənə qəribə bir hiss hakim oldu. Mən öz mənliyimdən dəhşətli bir intiqam almaq fikrinə düşdüm. Anamın vəfatından bir ay sonra xalam oğlunun otağına gedib öz amansız düşmənim haqqında ölüm qərarı verirəmmiş kimi təntənəli bir əda ilə:

– Hidayət! – dedim. – Mən anamın arzusunu yerinə yetirməyə hazıram.

O, heyrətlə ayağa qalxdı. Rəngi ağarmışdı. Göyərmiş dodaqları titrəyirdi. Mən çevrilib çıxdım. Qəlbimdə çılğın, əsəbi bir sevinc var idi. Zəng eləyib qız yoldaşlarımı çağırdım. Pianino arxasına oturub coşğun akkordlar vurdum. Sürəkli və mənasız qəhqəhələrimlə otağı başıma götürdüm. Qızlar təəccüb içində mənə baxa-baxa qalmışdılar.

Axırda da əzəmətlə ayağa qalxaraq:

– Bilirsinizmi nə var, qızlar, – dedim. – Mən ərə gedirəm!

Kimə? – deyə hamı birdən səsləndi.

– Sonra bilərsiniz. İndisə xoş gəldiniz!

***

O mənim səadətim üçün nə lazım idisə hamısını edirdi. Onun üçün bu saat dünyada məndən başqa heç nə yox idi. Ən kiçik bir arzumu, ən əhəmiyyətsiz bir həvəsimi dərhal yerinə yetirirdi.

Əvvəllərdə mən öz mənliyimi boğaraq bütün bunlardan məmnun qalmağa çalışırdım. Mən, hətta, onun nə üzərində işlədiyi ilə maraqlanırdım. Bu barədə özü, adətən, heç danışmazdı. Lakin, nə isə, mühüm bir əsər üzərində çalışdığını söyləyirdilər. Mən isə, onun istedadı haqqında maraqlı söhbətlər eşidirdim. Mən onun ağlına, şöhrətinə aid hər bir şeyi böyük bir acgözlüklə izləyirdim. Mən nədənsə qorxaraq, öz dolambac və mənalı eyhamlarımla onu tələsdirirdim. Mən, fırtına buludlarının dağdan qalxdığını görərək mənzilə tez çatmaq istəyən yolçuya bənzəyirdim. Mən bu dəhşətli buludlar yaxınlaşana qədər solğun günəş kimi parlayaraq gözlərimi qamaşdırmaq istəyirdim.

Lakin fırtına bizi tez yaxaladı. Mənim qızdırmalı, əsəbi həvəsim birdən-birə pərişan bir ümidsizliyə çevrildi. Hər şey qaraldı. Hər şey söndü. Mən onun qəlbimin ətrafında hərlənən, oraya daxil olmağa can atan xəyalından birdən-birə min il qədər uzaqlaşdım. Onun qayğısı mənə cansıxıcı və dözülməz görünməyə başladı. İndi onun ağlı, istedadı haqqındakı parlaq sözlər məni əsəbiləşdirirdi.

Bir gün o, qızararaq:

– Nə üçün mənə qarşı belə soyuqsan? – dedi.

Bu sual mənə o qədər mənasız və şit göründü ki, əsəbiliklə ayağa qalxaraq:

– Rica edirəm bir daha mənimlə belə sözlər danışmayasan, – dedim.

Və o danışmadı.

Anamın cavab istəyən o son baxışı hər yerdə məni təqib edirdi. Mən getdikcə sıxılır, dalğın və əsəbi olurdum. Onun üsullu hərəkətlərini, qayğılı, mehriban baxışlarını gördükcə hirslənir, nəyisə vurub sındırmaq, çilik-çilik etmək istəyirdim. Onun xoşlandığı işin əksini etməkdən dərin bir zövq duyurdum. Mən istəyirdim ki, o, hirslənsin, məni söyüb təhqir etsin.

Lakin o bunu etmirdi. O, müvazinətini itirməyərək yoluna davam edirdi.

Əsərini müvəffəqiyyətlə bitirdi. Bütün qəzetlər onun haqqında yazdılar. Şəklini dərc etdilər. Lakin bunlar hamısı cansıxıcı hadisələr kimi keçib getdi: hamı onu təbrik etdiyi halda, mən bir kəlmə də söyləmədim. Bəs, mənə nə lazım idi? Bilmirdim. Mən yalnız əsəbiləşir və nifrət edirdim.

İnstitutu bitirdiyim günün axşamı təzə kostyumunu geymiş, üzünü





təraş etdirmiş halda bir dəstə çiçəklə mənim otağıma girdi. Gülləri mənə uzadaraq:

– Təbrik edirəm, – dedi.

Mən çiçəkləri burnuma belə tutmadan alıb stolun üstünə qoydum və heç bir cavab vermədim.

– Sənin institutu bitirməyin münasibətilə sabah balaca bir yığıncaq düzəltmək istəyirəm.

– Sən Allah heç nə lazım deyil, – deyə səbrsizliklə cavab verdim.

Gözlərim stolun üstündə unudulmuş qərib kimi görünən güllərə sataşdı. Göz yaşlarımın boğazımı tutduğunu hiss edərək qalxıb otaqdan çıxdım.

Səhəri müharibə başlandığı elan edildi. İnsanlar bir-birinə dəydi. Məndəki əsəbi gərginlik anlaşılmaz bir həyəcana çevrildi.

Həmin günün axşamı bütün gecə mən onun ayaq səslərini eşitdim. Səhər oğrunca diqqət etdim. Rəngi qaçmış, gözlərinin altında qara kölgələr əmələ gəlmişdi.

Çaydan sonra ayağa qalxdı. Üzümə baxaraq solğun bir təbəssümlə:

– Mən, – dedi, – bu gün getməyi qərara almışam.

– Haraya? – deyə qorxu ilə soruşdum.

O, qaşlarını çatdı. Sakit və ciddi bir tövr ilə:

– Müharibəyə, – dedi.

Səsində elə bir qətiyyət var idi ki, mən ikinci bir suala cəsarət etmədim. O, tələsmədən arxayınlıqla geyinib getdi və gedərkən ayaq saxlayıb mehriban bir səslə:

– Əgər, bir yerə getməli olsan, açarı qonşuya ver. Olsun ki, mən üç-dörd saatacan gedəcəyəm.

Ax, hər cürə istehza və kindən uzaq olan bu sözlərdə nə qədər qəmli bir məna var idi...

Birdən, nədənsə, diksinərək əllərimlə üzümü tutdum. Ağır, qorxunc bir əzab içində «Yox, bu, belə olmamalıdır» deyə düşündüm. «Getməyini bir neçə aylığa, heç olmasa, bir neçə günlüyə təxirə salmasını xahiş edəcəyəm (qəribədir, sanki bu bir neçə gündə mən, nə isə, fövqəladə bir iş edəcəkmişəm...), lazım gəlsə, yalvaracağam.»

Lakin o gələndə bütün qətiyyətim yox olub getdi. Mən, bir kəlmə də olsun, söz deyə bilmədim. O, şeylərini yığışdırdı. Balaca əl çamadanını götürərək mənə yaxınlaşdı:

– Maşın qapıda gözləyir, sağlıqla qal, – dedi.

Mənim buz kimi soyuq əlimi bərk-bərk sıxıb sürətlə otaqdan çıxdı. Mən durduğum yerdə donub qalmışdım. Heç nə düşünmürdüm. Heç nə hiss etmirdim. Bayırda maşın fit verdi. İlan vurmuş kimi yerim-

dən qoparaq küçəyə qaçdım. Maşın gözdən itmişdi. Mən geriyə dönmədən, qapıları bağlamadan vağzala doğru qaçmağa başladım. İki kilometrə qədər yolu necə dəqiqəyə gəldiyimi bilmirəm. Vağzala çatanda ayaq üstündə dayana bilməyərək, qapıçı arvadın üstünə yıxıldım. Nəfəsim tutuldu. Gözlərim qaraldı. Bir an mənə elə gəldi ki, ölürəm. Bu düşüncə məndə sevincə bənzər qəribə bir hiss doğurdu. «Mən ölürəm, hər şey də qurtarıb gedir. Bu nə qədər sadə bir şey imiş...»

Üzümə çilənən sudan diksinərək gözlərimi açdım. Əlində stəkan tutmuş qapıçı qadın:

– Al, iç qızım, – deyə suyu mənə uzatdı.

Elə bu zaman qatar fit verdi.

– Neçənci fitdir? – deyə qadından soruşdum və onun cavabını gözləmədən özümü içəri atdım.

Paravoz qorxunc bir səslə bağırdı. Sonra bu müdhiş səs boğuq bir xırıltıya çevrildi. Qatar tərpəndi. Mən damarlarımda qanımın donduğunu hiss edərək bir an dayandım. Sonra birdən ağır-ağır hərəkət edən qatarın yanınca yüyürərək, «Hidayət» deyə çağırmağa başladım və bir pəncərə qarşısında onun sakit, pərişan üzünü gördüm.

– Niyə zəhmət çəkirdin, – deyə xəfifcə gülümsədi.

Qatar sürətini artırdı. Bir an mənə elə gəldi ki, bu dəqiqə, nə isə, fövqəladə bir iş etməliyəm. Qatarın yanınca yüyürə-yüyürə:

– Hidayət! – deyə qışqırdım. – Mən səni gözləyəcəyəm!

O, inamsız, mehriban bir təbəssümlə gülümsədi. Əli ilə «Sağ ol!» işarəsi verdi. Qatar döngəni burulub gözdən itdi. Mən dayanıb baxırdım. O isə, inamsız və mehriban təbəssümlə getdikcə uzaqlaşırdı.

Bayaqdan bəri boğazımda boğulub qalan göz yaşları birdən sel kimi açıldı. Mən ağlayırdım. Ürəyi odlanmış kimi yana-yana ağlayırdım.

– Ağlamayın bacı, – deyə kim isə qolumdan yapışdı.

Əllərimi üzümdən götürdüm. Gənc, gözəl bir qadın ağlamaqdan qızarmış mükəddər gözləri ilə mənə baxaraq:

– Özünüzə toxtaqlıq verin! – dedi. – Hamımızın dərdi böyükdür. Gəlin gedək.

Biz orduya gedən adamlarını ötürməyə gəlmiş anaların, bacıların, cavan gəlinlərin, qoca anaların arasından keçib getdik.

– Ərinizi yola salırdınız?

Mən dinmədim. Hələ bu ana qədər onu ötürmək mənim ağlıma belə gəlməmişdi. Axı, o, heç olmazsa, mənim xalam oğlu idi... Gənc qadın uzaqlara baxaraq kövrəlmiş bir səslə:

– Mən də ərimi yola salırdım, – dedi və «ah» çəkərək susdu.

Yol uzunu heç birimiz bir kəlmə danışmadıq.

Bir evin yanında dayandı:





– Gedək bizə, yaxından tanış olaq, – dedi.

Mən tamamilə qeyri-şüuri bir hərəkətlə onu təqib etdim. Bu saat məndə bir şeyə etiraz etmək üçün hal yox idi.

Pillələri qalxdıq. Düyməni basdı. Təmiz geyinmiş qoca bir rus qadını qapını açdı. Balaca, səliqəli bir otağa daxil olduq. Yer göstərərək:

– Əyləşin, – dedi. – Mənim adım Gülzardır.

Dörd-beş yaşlarında, anası kimi gözəl, qaragöz, qıvrımsaç qızla ondan kiçik, kök, qarabəniz bir oğlan uşağı o biri otaqdan yüyürüb gəldilər.

– Mənim dövlətimi görürsünüzmü? – deyə gənc ana gizli bir fərəhlə uşaqları göstərdi. – Bunun adı Zöhrə, bunun da adı Soltandır.

Qız mirvari kimi balaca qəşəng dişlərini göstərərək gülümsədi. Oğlan başını azca qabağa əyərək qaşlarının altından acıqlı-acıqlı mənə baxdı. Ana uşaqların ikisini də öpdü.

– Yaxşı, gedin oynayın, – dedi.

– Bəs, atam nə vaxt gələcək? – deyə qız incə, qara qaşlarını çatıb qayğı ilə soruşdu.

– Tez gələcək, qızım.

Uşaqlar qaçıb getdilər.

– Sizinki də varmı? – deyə Gülzar məndən soruşdu.

– Biz hələ evlənməmişik, – dedim.

– A... demək nişanlısınız... Sizin üçün daha çətindir.

Susdu. Gözləri yol çəkdi. Sonra gülümsəyərək:

– Bizimki altı ildir, – dedi. – Dünən bütün gecəni yatmamışıq. Uşaqlıq günlərimizi, gəncliyimizin ilk çağlarını, ilk dəfə bir-birimizi gördüyümüz dəqiqələri xatırlayaraq səhərə qədər söhbət etmişik. Təsəvvür edirsinizmi, bu altı ildə bir dəfə də olsun bir-birimizdən inciməmişik.

O danışdıqca, gözləri yaxın xatirələrin həsrətilə alışıb yanırdı. Onun iztirabları mənimki kimi qorxunc deyildi. Onun kədərində mənim anlaya bilmədiyim şirin bir gözəllik var idi. Onun qara gözlərindəki qüssə xoşbəxt bahar gündüzü üzərinə enmiş ulduzlu gecəni andırırdı.

– Qatar hərəkət edənə qədər inana bilmirdim ki, biz ayrılırıq, – dedi.

Qalxıb kiçik bir albom gətirdi. Müxtəlif zamanlarda birlikdə çəkdirdikləri şəkilləri mənə göstərdi. Əri otuz-otuz beş yaşlarında heç bir gözəgəlimli cəhəti olmayan adi bir adam idi.

– Harda işləyirdi? – deyə soruşdum.

– Müəllimdir, – dedi.

Əri və uşaqları ilə birlikdə çəkdirdikləri son şəkillərdən birinə baxaraq əlavə etdi:

– Bəzən insan o qədər xoşbəxt olur ki, öz səadətinin böyüklüyü onu qorxudur. İnanırsınızmı ki, axır vaxtlarda mən, nə isə, anlaşılmaz bir qorxu hiss edirdim! Öz xoşbəxtliyimiz haqqında düşünəndə, mənə elə gəlirdi ki, bu, həddindən artıqdır, nə isə, bir şey olmalıdır.

Mən susmaqda davam edirdim. Mən onun səadətini dərk etməyə çalışırdım. Mən onların şəklinə baxaraq, fikirləşirdim ki, belə gözəl, zərif bir qız, çöhrəsindən insanın canı sıxılan bu müəllimlə özünü necə xoşbəxt hesab edirdi? Əlbəttə, bu çox aydın bir məsələ idi: sevirdi. Lakin bu sevgi necə yaranırdı? Özü də belə adi, boz bir adama qarşı...

– Nişanlınızın adı nədir?

Dedim.

Və birdən ürəyim şiddətlə sıxıldı. Ayağa qalxdım.

– Niyə belə tez gedirsiniz? Bir az oturun. Özünüzdən heç nə danışmadınız...

Güclə:

– Sağ olun, – deyə bildim.

Otaqdan çıxdım. Mən tək qalmaq istəyirdim... İnsanların nəzər və söhbətləri indi məni sıxırdı. Mən onların, ürəyimdə açılmış və səbəbini aydınlaşdıra bilmədiyim bir yaraya toxunacaqlarından qorxurdum.

Evə çatıb taqətsiz, əzgin halda çarpayıya yıxıldım. Üzümü yastıqlar arasında gizlədərək gözlərimi yumdum. O vəziyyətdə nə qədər qaldığımı bilmirəm. Başımı qaldırdığım zaman otağın qaranlıq, kimsəsiz sükutundan tüklərim ürpərdi. Birdən mənə elə gəldi ki, həyatdan, insanlardan ayrılıb uzaq bir zülmətə düşmüşəm. Mən bir vahimə içində gözlərimi yumaraq öz qəlbimdə bir zərrə işıq tapmaq, onu tuş tutub gedərək bu dəhşətli zülmətdən qurtarmaq istəyirdim. Lakin mənim qəlbim də otağım kimi qaranlıq idi. Onun da çırağı hələ yandırılmamışdı.

Mən, Gülzarın səadətini anlaya bilmədiyim kimi, öz iztirablarımın da səbəbini aydın dərk edə bilmirdim. Madam ki, sevmirdim, onda, bu işgəncə nə idi? Vicdan əzabımı çəkirdim? Əgər, sevmirdimsə, vicdanımın mənə əzab verməyə nə haqqı var idi?

Mən otağımda oturub pəncərədən bayıra baxırdım. Şəhər qaranlıq içində idi. Sanki uğursuz, nəhəng bir quş qara qanadlarını həyatın üzərinə gərərək hər şeyi ağır bir zülmətə qərq etmişdi. Bu zülmət içərisində boş, soyuq bir qəlblə yalnız qalmaq dəhşətli idi. Mən indi yanımda bir adam görmək, onun danışmasını, nəfəs almasını eşitmək, duymaq istəyirdim.

Birdən dəniz üzərindən Ayın azca kənarı görünərək qaranlığı par-





çaladı. Mən bu işıq içində onun gözəl gözlərini və bu gözlərdəki o inamsız, məhzun təbəssümü gördüm. Mən bu təbəssümdə indiyə qədər nə onda, nə də başqalarında görüb duymadığım ülvi, munis bir şey hiss etdim. Bu yalnız bir an çəkdi. Bu bir anda mənə elə gəldi ki, nəhayətsiz dərəcədə məsudam və hər kəs mənim səadətimə sevinir.

Səhəri gün axşam çağı ondan qısa bir məktub aldım.

Budur, həmin məktubu sakitcə oxuyuram:

«Hər şeydə mən özüm müqəssirəm. Bizim evlənməyimiz bağışlanılmaz bir səhv olardı. İlk zamanlarda sənin soyuq baxışların, laqeyd rəftarın mənə təbii görünmüşdü. Mənə elə gəlmişdi ki, bu, elə-belə də olmalıdır. Başqa cür ola da bilməz. Çünki sən öz gözəlliyinlə hər şeyin fövqündə idin. Lakin sonralar sənin mənə qarşı getdikcə daha çox soyuq olduğunu, mənim heç bir hərəkətimə dözə bilmədiyini gördükdə, öz səhvimin dəhşətini hiss etməyə başladım. Hər ikimiz əzab çəkirdik. Sən nifrətinlə, mən sevgimlə (qoy bu «sevgi» sözü artıq səni təhqir etməsin). İndisə, budur, gedirəm. Elə güman etmə ki, öz taleyimdən inciyərək gedirəm. Yox, məni o qədər də zəif adam güman etməyin. Mən vətənim qarşısında öz borcumu yerinə yetirməyə, son qüvvəmi ədalətli bir iş uğrunda verməyə gedirəm.

Sağ ol.»

Burada o, imza atmış, sonra, əlavə etmişdi:

«... Dünən vağzala gəldiyin üçün sənə təşəkkür edirəm. Axı, biz xalaoğlu-xalaqızıyıq...»

Məktubu oxuyub qurtarandan sonra divana yıxıldım. Elə bil, məni döyüb taqətdən salmışdılar. Öz həyatım özümə boş və mənasız göründü. Qarşıdakı bədənnüma güzgüdə əksimi görüb nifrətlə üzümü çevirdim. Hidayət haqlı idi. Mən onu sevmirdim. Mən ona əzab verirdim. Lakin, o, xoşbəxt idi. Daha böyük, daha ali bir hiss onu qanadları altına aldı. Və o, bu qadir hissin hökmü ilə mənim xudpəsənd soyuq qəlbimdən əl çəkib çıxıb getdi.

Qapının zəngi çalındı. Gülzar gülə-gülə içəri girdi. Sevinclə boynumu qucaqladı:

– Dünəndən canım qalıb sizin yanınızda, – dedi. – Səlimdən iki otkrıtka almışam. Elə məzəli sözlər yazır ki... Gödək, yoğun bir rusla yoldaş olub. Yazır ki, «Gülzar, onun boynunu qısıb ovurtlarını şişirdərək necə güldüyünü görsən, axıb gedərsən». Mən bilirəm ki, Səlim onun başına nə oyun açır. Axır ki, yaman zarafatcıldır. Hara getsə, gərək bir gülməli adam tapsın.

– Amma şəklindən heç zarafatcıl adama oxşamır, – dedim.

Qaşlarını qaldıraraq gülümsədi:

– Şəklinə nə baxırsınız? – dedi. – Məgər, insanlar şəkildə göründükləri kimi olur?..

Gülzar o qədər məsud, o qədər coşğun bir sevinclə danışırdı ki, mən təəccüb içində quruyub qalmışdım. Əlimdən tutaraq:

– Yaxşı, bir deyin görüm, siz necə, məktub almısınızmı?

Mən gözlərimi yerə tikərək yavaşdan:

– Almışam, – dedim.

– Darıxma nə olacaq, Allah qoysa, ikisi də sağ-salamat qayıdıb gələcək. Hə... bilirsiniz mən də sabahdan hərbi xəstəxanada işləyəcəyəm.

Mən ona baxaraq özüm haqqında düşünürdüm. Mən görürdüm ki, hər kəs öz arzusu, öz səadətilə mənim yanımdan keçib gedir. Mən isə unudulub qalıram. Əvvəllərdə mən həyatın yanından saymazca keçib gedirdim. İndisə əksinə, həyat mənim yanımdan amansız bir qürurla keçib gedirdi. Birdən ürəyim anası tərəfindən unudulmuş uşaq kimi kövrəldi. Göz yaşımı unudaraq:

– Gülzar, – dedim. – Məni hərbi xəstəxanaya şəfqət bacısı götürərlərmi?

Onun üzü ciddi bir ifadə aldı:

– Nə üçün götürmürlər, çox yaxşı fikirdir. Belə günlərdə evdə oturmaq olmaz. Sabah gələrsiniz birlikdə gedərik. İstəsəniz lap mən işləyəcəyim hərbi xəstəxanaya düzəldərik.

Sabah tezdən getdik. Məni Gülzarın həkim işləyəcəyi palataya şəfqət bacısı təyin etdilər.

***

Artıq üç aya yaxın idi ki, mən hərbi xəstəxanada işləyirdim. Bu müddətdə mənim həyatımda heç bir yeni hadisə baş verməmişdi. Son günlərdə yaralılar gəlməyə başlamışdı. Bizim xəstəxana yalnız ağır yaralılar üçün idi. Bir gün yeni gəlmiş yaralılar arasında keçmiş məktəb yoldaşlarımdan Aydın adlı gənc bir zabitə rast gəldim. Onu görərkən gözlərimə inana bilmədim. Saçları, az qala, yarıya qədər ağarmışdı. Halbuki, onun cəmi iyirmi bir yaşı var idi. Hələ beş-altı ay bundan qabağa qədər o, həmişə son dəblə geyinən, gözləri daima gülən qayğısız, oynaq bir gənc idi. «Necə olur üç ayda insanın saçları ağarır?» deyə düşünür və birinci dəfə olaraq müharibənin dəhşətini hiss edirdim. Mən gənc Aydının üç ayda ağarmış saçlarına baxaraq, min kilometrlərlə uzaqlarda həmvətənlərimin çəkdikləri iztirabları duyurdum. Mən hər cürə əzab və əziyyətlərə sinə gərərək düşmən üzərinə yeriyən milyonlar arasında «onun» müztərib çöhrəsini görürdüm. Aydın müharibədə yaralanmışdı. «O» isə, buradan yaralı getmişdi. Sə-





hərdən axşama qədər yaralıların başı üstündə dayanır, əllərinin hərəkətindən, baxışlarından ən kiçik arzularını duyub dərhal yerinə yetirməyə cəhd edirdim. Əli qələm tutmayanların məktublarını yazırdım. Yeməklərini yedizdirdim. Günlərlə yuxusuz qalıb keşiklərini çəkirdim. Birinin xidmətlərimdən məmnun qaldığını duyduqda sevincimdən gözlərim yaşarırdı. İndi özümdən yüksək və güclü hiss etdiyim bu insanların mehriban baxışları mənim pənahım olmuşdu. Mən bunu itirməkdən qorxaraq özümü oda, közə vururdum. Mən insanları bir-birinə bağlayan o sehrli ipi görürdüm. Bu ip qırılarsa, həyatın dözülməz və qeyri-qabil olacağına anlayırdım. Mən özümü getdikcə yüngül və azad hiss edirdim. Mən indi hamını, hər şeyi sevirdim. Bu sevgi şəfəqlənir və məni məsud edirdi.

***

Aylar, illər keçib getdi. Hidayətdən məktub gəlmədi. Başına bir qəzamı gəlmişdi? Mən buna inanmırdım. Özü yazmırdı. Qəsdən yazmırdı. Nə üçün yazmırdı? Mən kim idim ki?..

Bir axşamçağı palatanın pəncərəsi qarşısında dayanıb dənizə baxırdım. Gülzar həyəcanla yanıma gələrək dedi:

– Yaralı bir polkovnik gətirmişlər. Adı, famili, eynilə sizin nişanlınızınkı kimidir, – dedi.

Mən ayaq üstündə dayana bilmək üçün pəncərədən yapışdım. Gözlərim Gülzara dikilib qaldı. O, qaşqabağını tökərək:

– Niyə dayanmısınız, gedək bir baxın.

Qılçalarım uçuna-uçuna, dinməz-söyləməz, onun ardınca getdim. Xüsusi palatada arxası üstündə çarpayıya uzadılmış yaralını gördükdə, qapının ağzında donub qaldım. Bir addım daha atmağa nə cəsarətim oldu, nə də qüvvətim. Xəstəxana müdiri ilə iki başqa həkim onun çarpayısı yanında oturmuşdular.

Gülzar:

– Odurmu? – deyə pıçıltı ilə soruşdu.

Dinmədim. O, əyilərək müdirin qulağına nə isə dedi. Müdir həkimlərə işarə edərək ayağa qalxdı. Qapıdan çıxdıqları zaman yavaşcadan:

– Qorxmayın, ümid çoxdur. Ancaq çox narahat eləməyin, – dedi.

Mən dayandığım yerdə durmaqda davam edərək ona baxırdım. Çətinliklə nəfəs alırdı. Gözləri qapalı idi. Bu üç ilin ərzində xeyli dəyişmişdi. Üzünün sağ tərəfində çoxdan sağalmış bir çapıq var idi. Mən onun geniş alnındakı cizgilərdə, ağır-ağır gedib gələn nəfəsində çəkdiyi əzablardan peşman olmayan, nəcib, yaralı bir qəlbin sükunətini duyurdum. Mən böyük iztirabın ehtişamı qarşısında zəif bir məxluq ki-

mi səcdəyə gəlmək istəyirdim. Lakin mən yerimdən tərpənə bilmirdim.

Birdən o, alnını qırışdıraraq kirpiklərini qaldırdı. Od kimi yanan dumanlı gözləri bir neçə saniyə mənə zillənib qaldı. Bu baxışlarda güclə hiss olunan bir təəccüb var idi. Mən bütün gücümü toplayaraq, irəliləyib onun çarpayısı qarşısında diz çökdüm:

– Hidayət! – deyə pıçıldadım.

O, xəfifcə diksinərək, yenə də gözlərini açdı. Baxdı, baxdı. Bir şey xatırlayırmış kimi baxdı... sonra birdən gülümsədi. Güclə eşidiləcək zəif bir səslə:

– Elə bildim yuxudur, – dedi.

Göz qapaqları ağır-ağır endi. Mən üzümü onun yastığında gizlədərək hıçqırdım. Gülzar qolumdan tutub qaldırdı.

Güllə köksünün sol tərəfindən dəyərək, ağ ciyərini azca zədələyib, kürəyinin arasında qalmışdı. İki saatdan sonra cərrahiyyə əməliyyatı apardılar. Səhəri gün halı bir qədər yaxşılaşdı. Gözlərini açdı.

– Niyə özünə əziyyət verirsən xalaqızı? – dedi.

Mən inciyərək:

– Bu, onsuz da mənim borcumdur, Hidayət, – dedim.– Mən şəfqət bacısıyam.

Mən onun üzünə baxmağa cəsarət etməyərək, küskün və mənalı bir pıçıltı ilə:

– Niyə mənimlə belə rəsmi danışırsan? – deyə əlavə etdim.

O, mənə baxaraq uzun zaman susdu. Mən nəzərlərimi yerə dikərək, onun üzümdə nəyisə axtardığını, nəyəsə inanmaq istədiyini hiss edirdim və bu hiss məni öldürürdü.

– Çoxdanmı burada işləyirsən?

– Sən gedəndən üç-dörd gün sonra, – dedim.

Və gözlərimi qaldırıb ona baxdım. Baxışlarında elə məmnun, elə nəcib bir ifadə var idi ki, mən özümü saxlaya bilməyərək, əyilib onun gözlərindən öpdüm və bu, dörd ildə mənim ilk sevgi busəm oldu. Lakin yox. Dörd il yalandır. Mən onu indi görürdüm. Mən onun böyük qəlbi qarşısında öz kiçikliyimi ancaq indi dərk edirdim. Mən onun çarpayısı yanında diz çökərək, göz yaşları içində:

– Hidayət, – dedim, – keçmişləri unut. Mən unuda bilmirəm. Lakin sən unut. Sən buna qadirsən.

O gülümsədi. Qəlbimin üstündən ağır bir daş götürüldü. Əlimdən tutaraq:

– Niyə belə sözlər danışırsan! Sən nə etmisən ki? – dedi.





***

Mən öz qəhrəmanımı belə tapdım. Mənim səadətim belə başladı.

Pərvanə kimi gecə-gündüz başına dolandım. Həkimlərə yalvarıb onu tez sağaltmalarını xahiş etdim.

Və o, sürətlə sağalır. Sevincimdən uçmağa qanadım yoxdur. Hər gün qoluna girib bağçaya endirirəm. Cəbhə həyatından, vuruşlarından danışmasını xahiş edirəm. O, yalnız gülümsəyir və adəti üzrə, özü haqqında heç nə danışmır.

– Əsgərin işi nə olacaq... vuruşurdum, – deyir.

Ondakı nəciblik, sadəlik məni getdikcə heyran edir. Elə bil ki, bunların hamısını mən ancaq indi görürdüm...

1945

## XƏNCƏR

Şəhərin arxa tərəfi meşə, qabaq tərəfi isə göz işlədikcə uzanıb gedən geniş düzənlik idi. Palçıqdan hörülmüş hündür barılar içində yerləşən və demək olar ki, hamısı bir mərtəbədən ibarət kərpic evlərin yalnız damları görünürdü.

Qəsəbəyə ilk dəfə daxil olan nabələd adamı, onun palçıq divarlar arası ilə gedən əyri-üyrü küçələrinin boz və yeknəsəq ahəngi darıxdırır... Lakin təzə müsafir bu cansıxıcı palçıq barılardan birinin darvazasını açıb həyətə daxil olsa və əgər, o, şair təbiətli bir adam isə, əndəruni biruninin yasəmən, püstə, badam ağacları, qızılgül kolları arasındakı yarıqaranlıq xiyabanları, içində əlvan balıqlar üzən çarhovuzların kiçik fəvvarəsindən ətrafa səpələnən sərin su sıçrantıları bir əfsanə, bir nağıl kimi onun xəyalını çəkib uzaqlara aparar...

Əlbəttə, bu bağçaların dəbdəbəsi sahibinin varından və hansı sinfə mənsub olmasından asılıdır. Axşamlar, İranın üzərinə qorxulu xəyallarla dolu gecələr endiyi zaman, uzun yay gününün alış-verişindən yorulmuş tacir, çiynində ipək əba, bu çarhovuzların sərin mərməri üzərində salınmış Kirman xalçası üstündə zərli mitəkkələrə söykənir və gözləri yarıqapalı halda oturub Şiraz tənbəkisindən sulu qəlyan çəkir...

Çöl işindən yorğun-arğın gələn kəndli otların arası ilə axan duru arxda ayaqlarını yuyur, ağaclara sarınıb çadra kimi səmanı tutan yaşıl tənək altında salınmış həsirin üstündəki göy tərəvəzlə pendir-çörəyini yeyib, sabahkı gün üçün Allaha dua edir...

Bir ilə yaxın idi ki, şəhər xoşbəxt günlər keçirirdi... Bir ilə yaxın idi ki, İran Azərbaycanında milli hökumət qurulmuşdu. Dükanların üzərindən farsca lövhələr götürülmüş, yerinə Azərbaycan dilində yazılmış lövhələr vurulmuşdu. Küçələrin adları dəyişilib azərbaycanca olmuşdu. Adamlar «ana dili», «milli hökumət» və «Azərbaycan» sözlərini indi tez-tez və daxili bir məmnuniyyətlə təkrar edirdilər. Elə bil ki, onlar bu sözlərin tələffüzündən sonsuz bir zövq duyurdular... Elə





bil ki, onlar bu sözlərlə öyünür, fəxr edirdilər... Səhər tezdən tacir və peşəkarlar «Azərbaycan» qəzetinin təzə nömrəsini alıb oxumağa tələsirdilər. Onlar Azərbaycan dilində çap olunmuş xəbərləri, şer və hekayələri böyük ləzzətlə oxuyur, bir-birindən «Ağa, bu gün «Azərbaycan»da filan mənzuməni oxudunmu?» deyə soruşur, o birisi isə: «Bəli, ağa, çox duzlu yazıb, lap mərhum Sabirin şerlərinə oxşayır...» deyə cavab verirdi.

Bir ilə yaxın idi ki, qəsəbədə açılmış yeni məktəbdə gənc qız Südabə xanım, atası sərraf Məşədi Tağının iradəsi xilafına olaraq, müəllimlik edir, uşaqlara Azərbaycan dilində dərs deyirdi...

Məşədi Tağı qəsəbənin ən varlı taciri olub, yeganə övladı Südabə xanımı fars və firəng dillərində oxutduraraq yüksək təhsilə çatdırmışdır.

Məşədi milli hökumətin demokratik siyasətindən qorxurdu. O, səhərdən axşama qədər bazarın ən gurşad yerindəki sərraf dükanında qızıl-gümüş pullarla dolu kisələrin arxasında oturub təsbeh çevirir, ətrafında tez-tez eşitdiyi «milli hökumət», «milli azadlıq» sözlərini göz qapaqlarını aşağı salmış halda sükut içində qarşılayırdı.

Qızı Südabə xanım milli hökumət qurulandan sonra müəllimliyə getmək istədiyini bildirdikdə, o, əvvəlcə o qədər əsəbiləşdi ki, az qaldı vurub ev-eşiyi dağıda... Sonra qızın öz fikrində möhkəm durduğunu görüb, işi mülayimliklə yoluna qoymaq istədi...

– Bu qədər var-dövlətlə mənim qızımın gedib itin-qurdun uşaqlarına dərs deyib, pul alması biabırçılıqdır, – dedi.

Lakin qız «itə-qurda» deyil, öz həmvətənlərinə xidmət etmək istədiyini qəti bildirdikdə, ağıllı və hiyləgər Məşədi Tağı işin nə yerdə olduğunu anlayıb susdu. On doqquz yaşı yenicə tamam olmuş tacir qızında bu üsyan ruhu haradan yaranmışdı? Məşədi Tağı bunu anlaya bilmirdi. Ömrünün əlli ildən artıq bir dövrünü pul kisələri ilə keçirən, qızılların cingiltisindən başqa bir şey eşidib-duymayan bu qoca sərraf, az müddətdə bütün gəncliyin qəlbinə, ruhuna hakim kəsilən vətənpərvərlik duyğusunun hökmündəki sirri anlaya bilmirdi... Onun qəlbi də qarşısındakı qızıllar kimi soyuq və ölü idi...

Südabə xanım ucaboylu, nazik bədənli, ağ və zərif üzü iri, ala gözlərinin mehriban ifadəsi ilə işıqlanmış sakit və mülayim bir qız idi... Belə qızlar hər hansı bir məfkurəyə çətin aludə olurlar... Lakin aludə oldularmı, onları bundan döndərmək mümkün deyil!

Südabə xanımda milli hissin oyanması çox kiçik və adi bir təsadüfdən başlamışdı: bir dəfə rəfiqələrindən birinin evində verilən ziyafətdə o, gözəlliyi, dövləti və rütbəsi ilə qızlar arasında şöhrət qazanan gənc bir fars zabiti görmüşdü. Zabit ona baxıb fars dilində yanındakı

qıza demişdi ki: «Gözəl xanımdır, ancaq heyf ki, azərbaycanlıdır». Fars zabitindən təsadüfən eşitdiyi bu sözlər gənc qızın izzəti-nəfsini yaralamışdı...

Buna görə də, Südabə xanım İran Azərbaycanında qalxan azadlıq hərəkatına ürək yanğısı ilə qoşuldu və bu hərəkatın gözəgörünməz coşğun dalğaları onu öz ağuşuna alaraq çox uzaqlara apardı. Həyatında ilk dəfə olaraq bu gənc qızda milli qürur hissi baş qaldırıb, bütün varlığına hakim kəsildi. O, ürək çırpıntıları ilə səhərlər yerindən qalxır, bir stəkan çay içib məktəbə tələsir, öz şagirdlərini elə həyəcan, təşviş və ehtirasla qarşılayırdı ki, elə bil, onları itirəcəyindən, onlara bir şey olacağından qorxurdu. Çoxu cın-cındır içində olan bu yarıac körpələrin şikayətsiz, tələbsiz baxışları gənc müəllimin qəlbini odlayırdı. O, bu solğun və müəzzən üzlərə həyəcanla baxır, göz yaşları içində düşünürdü: «Bax, bunlar mənim həmvətənlərimdir!»

Bir dəfə tənəffüs zamanı o, bayırda bərk səs-küy eşidib, qapını açaraq arakəsməyə çıxdı. Şagirdlər, yaxşı geyinmiş və qorxusundan ağappaq ağarmış bir uşağın üstünə dartınan və əlində xəncər olan on dörd yaşlı arıq, qarabuğdayı bir oğlanı güclə tutub saxlayırdılar.

Oğlan dartınaraq:

– Buraxın! Mən ona kimin bişərəf olduğunu göstərərəm! – deyə qəzəblə qışqırırdı.

Bu hal Südabə xanımı çox əsəbiləşdirdi. O, uşaqları aralayıb, əlində xəncər olan oğlanın yanına gəldi. Oğlan onu görərək dərhal sakit oldu. Yoldaşları onun qolunu buraxdılar və o, xəncərini arxasında gizlədərək başını aşağı saldı.

– Bunlar niyə dalaşır? – deyə Südabə xanım şagirdlərindən soruşdu.

Yaşca o birilərindən böyük və diribaş olan oğlan yaxşı geyinmiş uşağı göstərib izah etdi:

– Bax, təqsir bundadır, müəllim, – dedi. – İldırım (əlində xəncər olan oğlan) deyir ki, ajanlar bişərəf adamlardır. Bu da deyir, bişərəf sənsən. Çünki özünün atası farsların vaxtında ajan olub...

Südabə xanım əlində xəncər olan oğlanın qolundan yapışıb müəllimlər otağına apardı. Onun təmiz, lakin onlarca yamağı olan köhnə libasına, qara, qıvrım saçlarına, mütəəssir halda yerə dikilən qara gözlərinə baxıb:

– Xəncəri ver bura! – deyə acıqla səsləndi.

Oğlan xəncəri arxasında tutub, cavab vermədi.

– Ver xəncəri! – deyə Südabə xanım təkrar etdi.

O zaman oğlan onun üzünə baxmadan, istər-istəməz, xəncəri ona





uzatdı. Südabə xanım ağ sümük qəbzəli və almaz kimi iti tiyəli xəncəri nəzərdən keçirərək:

– Şagird də özü ilə xəncər gəzdirərmi? – deyə acıqla oğlana baxdı.

Oğlan gözlərini yerdən çəkməyərək susdu...

Südabə xanım onu diqqətlə nəzərdən keçirdi:

– Deməl, xalqın uşağını öldürmək istəyirdin?! – dedi.

Birdən oğlan başını qaldırıb nəzərlərini müəllimin ala gözlərinə dikərək:

– O, xalqın uşağı deyil, ajanın oğludur! – dedi.

Onun səsindəki kin və qətiyyətdən Südabə xanımın acığı dərhal soyudu və o daha da maraqla baxaraq:

– Necə məgər, ajan xalqdan deyil? – deyə gizli bir təbəssümlə soruşdu.

Oğlan ona xəncər kimi kəskin bir nəzər salıb, təkrar yerə baxdı. Südabə xanım bu ani baxışın mənasını anladı...

– Yaxşı, get, – dedi. – Bu dəfə sənin təqsirindən keçirəm. Ancaq bir də belə iş etmə. Eşitdinmi?

Lakin oğlan yerindən tərpənmirdi.

– Niyə getmirsən?

Oğlan başını qaldırıb yavaş, lakin möhkəm səslə:

– Xəncəri verin! – dedi.

– Lazım deyil, get. Məktəb uşağı xəncər gəzdirməz!

Bir neçə saniyəlik sükutdan sonra oğlan güclə yerindən qopub, ağır addımlarla qapıya tərəf getdi və qapıya çatanda dayanıb geri çevrilərək:

– Xəncəri verin, müəllim, – dedi.

Südabə xanım onun alışıb-yanan qara gözlərinə baxıb:

– Dedim ki, şagird xəncər gəzdirməz! – dedi.

– Yox, verin! – deyə oğlan bu dəfə titrək səslə təkid etdi.

– Çıx bayıra! – deyə Südabə xanım qışqırdı.

Oğlan başını aşağı əyib yerindən tərpənmədi və acıqla ona baxan müəllim, oğlanın qarabuğdayı yanağından yavaş-yavaş yuvarlanan bir damla göz yaşı gördü.

– Sabah mən bunun əvəzinə sənə ayrı bir şey bağışlaram. Axı, xəncər sənin nəyinə lazımdır?..

Müəllimin səsindəki mərhəmət oğlanın qəlbini kövrəltdi. O yalvardı:

– Məni bağışlayın, müəllim – dedi, – vallah, bir də heç kəslə savaşmaram. Ancaq xəncəri verin...

– Dedim ki, mən sənə bundan da qiymətli bir şey bağışlayacağam...

– İstəmirəm. Xəncəri verin! O, atamınkıdır.
– Eybi yoxdur. Mən atanla danışaram.
– Atam yoxdur.
– Vəfat edib?
– Bilmirəm. Ajanlar dörd il bundan qabaq tutub apardılar.

Südabə xanımın iri açılmış gözləri oğlanın quru atəşlə yanan gözlərinə zilləndi. Bayaqkı bir damla göz yaşı oğlanın yanağında qurumuşdu.

– Necə? Bəs, o vaxtdan heç bir xəbər yoxdur?
– Yoxdur!

Bu sözü oğlan elə mükəddər, ümidsiz və yanıqlı ifadə ilə dedi və onun yanan gözləri elə bir ehtirasla müəllimin əlindəki xəncərə dikildi ki, Südabə xanım bütün vücudu ilə titrədi və qeyri-ixtiyari hərəkətlə əlini yavaş-yavaş qaldırıb, xəncəri ona verdi. Südabə xanım bu hərəkəti müqəddəs bir ayin icra edirmiş kimi elədi.

Oğlanın gözləri sevinclə parladı və o, xəncəri alıb pencəyinin altındakı qınına qoyaraq, çevrilib otaqdan çıxdı.

Südabə xanım bir neçə saniyə onun ardınca baxıb «ah» çəkdi.

O günü dərsdən çıxıb evə gələndə Südabə xanım qəsəbə adamları arasında nə isə bir həyəcan hiss etdi. Elə bil ki, onlar hara isə tələsir, nədən isə ehtiyat edərək susurdular. Qarşısına çıxan adamlar indi onu görərkən, dünənki kimi, şən və mehriban ifadə ilə gülümsəmir, soyuq bir ehtiramla baş əyib, cəld ötürdülər.

Bu nə demək idi?

Axşam ögey anası Zərintac xanım gəlib onu atasının hüzuruna çağırdı.

Başında araqçın, çiynində ipək əba olan Məşədi Tağı tirmə döşəkcənin üstündə oturub sulu qəlyan çəkirdi. Onun üzündə, adəti xilafına, narahat ifadə var idi.

Südabə xanım ayaq üstündə onun qarşısında dayanıb:

– Nə buyurursan, ata? – deyə ehtiramla soruşdu.

Bir neçə dəqiqə sükut içində keçdi. Nəhayət, Məşədi Tağı başını qaldırıb qızının üzünə baxmadan:

– Yəqin ki, təzə xəbəri eşitmisən, – dedi.
– Hansı xəbəri, ata? – deyə qız maraqla soruşdu.
– Necə hansı xəbəri?

Məşədi Tağı zəhərli bir təbəssümlə gülümsəyib əlavə etdi:

– Görünür, lotular (o, demokrat partiya üzvlərini belə adlandırırdı) başlarını götürüb qaçanda, sənə xəbər verməyə macal tapmayıblar!

O, «qaçanda» sözünü xüsusi vurğu ilə tələffüz etdi.





– Heç kəs qaçmayıb, ata! – deyə Südabə xanım acığını boğaraq cavab verdi.

Məşədi Tağı bu dəfə tamamilə sakit və mülayim bir ahənglə sözünə davam etdi:

– Bu barədə mübahisə etməyin indi mənası yoxdur, qız. Əgər qaçıblarsa, çox ağıllı iş görüblər. Şahın qoşunları dünən Zəncan şəhərinə varid olub, demokratların hamısını uşaqdan-böyüyə qılıncdan keçirib. Sabah, biri gün də burada olacaqlar!

Məşədi Tağı susub qəlyandan iki dərin qullab alandan sonra yenə də qızının üzünə baxmadan eyni sakit və mülayim səslə:

– Dayanmaq lazım deyil. Tezdən maşın gəlib səni Tehrana aparacaq. Aralıq sakitləşənəcən gedib orada, əmingildə qalarsan, görək sonra nə olar...

– Mən heç bir yerə getməyəcəyəm.

Məşədi Tağı başını qaldırıb qızının gözləri içinə baxaraq:

– Necə? Sən bu dəfə də mənim üzümə ağ olursan? – deyə qorxmuş halda soruşdu.

– Mən xalq müəllimiyəm!

Məşədi Tağı ayağa qalxdı:

– Demək, boğazından asılmaq istəyirsən!

– Xalq nə cür, mən də elə... Pis gündə mən onu qoyub düşmən qərargahına qaça bilmərəm!

Məşədi Tağı yenə də sakit bir ifadə ilə:

– Ağlını başına yığ, qız! – dedi. Onlar sənin ucundan məni bihörmət edərlər.

– Mən heç yerə getməyəcəyəm, ata! – Südabə xanım çevrilib çıxmaq istədi.

– Dayan! – deyə atası arxadan qışqırdı.

Və onun üzü müdhiş bir şəkil aldı. Alnının damarları qızarıb şişdi. Gözləri təhlükə qarşısında olan canavar gözləri kimi vəhşi və küt bir ifadə ilə parladı:

– Bu gecədən sonra mənim sən adlı övladım yoxdur! – dedi. – Allah sənə lənət eləsin! Çıx mənim evimdən! Bu saat çıx!

O, kobud hərəkətlə Südabə xanımı itələyib bayıra saldı.

Kişinin səsinə Zərintac xanım gəldi:

– A kişi, bu gecə vaxtı, soyuqda-qiyamətdə yazığı hara qovursan?

– Keç belə! – deyə kişi qışqırdı.

Südabə xanım yerindən qopub ağır addımlarla qapıya tərəf getdi. Zərintac xanım qızın paltosunu gətirib darvazanın ağzında ona verdi. Südabə xanım paltosunu geyib qapıdan çıxdı...

– Get! Aqibətini görərik!

Qaranlıqdan gələn bu səs qızın tüklərini ürpətdi.

Göz-gözü görməyən zülmət gecə idi. Qar qarışıq külək uğuldayırdı. Südabə xanım büdrəyə-büdrəyə gedirdi. Lakin haraya? Bilmirdi. Qəsəbədə yaxın bir kəsi yox idi. Mehmanxanayamı getsin? Mümkün deyil, pulu yoxdur.

Soyuq dekabr küləyi qarı sovurur, gecə quduz canavar kimi uğuldayır, o isə, gedirdi...

– Salam, müəllim xanım!

Südabə xanım diksinərək başını qaldırıb, belində odun şələsi, qarşısında dayanaraq, qaranlıqda işıldayan gözlərini ona zilləmiş İldırımı gördü və onun cingiltili səsinin şən ahəngi qəlbini birdən-birə yüngülləşdirdi.

– Belə gec vaxtda meşədənmi gəlirsən? – deyə Südabə xanım öz dərdini bir an unutmuş kimi təəccüblə soruşdu.

– Bəli, meşədən gəlirəm. Bəs, siz bu vaxt hara gedirsiniz?

Südabə xanım bu dəhşətli gecədə tək-tənha meşədən odun qırıb gətirən və əynində isti bir paltarı belə olmayan bu on dörd yaşlı oğlanın səsindəki həyat qığılcımına, şənlik və cəsarətə heyrət edərək, cavab vermədi. Onlar bir neçə dəqiqə sükut içində getdilər. Birdən Südabə xanım ayaq saxlayıb, qəti ifadə ilə:

– Evdə kiminiz var? – deyə soruşdu.

– Heç kəs, müəllim, bir mənəm, bir də anam.

– Məni bu gecə qonaq saxlayarsınızmı?

– Niyə saxlamırıq, müəllim. Lap istəyirsiniz bir il qalın...

– Gedək!

– Həmişə odunumuzu erkən gedib gətirirəm... Bu gün başım dərsə qarışıb, gecikmişəm, – deyə oğlan həvəslə danışırdı.

– Bəs, belə qaranlıqda qorxmursan, meşəyə tək gedirsən?

– Nədən qorxacağam.

Oğlan dişlərini ağardıb gülümsədi. Sonra birdən qaşqabağını tökərək:

– Atamın xəncəri yanımda olanda heç nədən qorxmuram, – dedi.

Onlar qəsəbənin uzaq və dar küçələrindən birində, balaca bir darvazanın qabağında dayandılar. Oğlan toxmağı vurdu. Az keçmiş qapı açıldı...

Qapını açan arvad əvvəlcə oğluna, sonra Südabə xanıma baxıb təəccüblə dedi:

– Hardasan, ay bala? Demirsən qurd-quş səni basar yeyər?

Oğlan sevinclə səsləndi:

– Get palazın üstünə döşəkcə sal. Müəllim bizə qonaq gəlib.

Ana hörmətlə geri çəkilərək:





– Buyurun, müəllim xanım! – dedi.

Onlar yeddilik çıraqla işıqlanmış kiçik bir otağa daxil oldular.

Otaq çox yoxsul, lakin təmiz idi. Ortada köhnə dəmir soba var idi. Sobanın yanına köhnə bir palaz salınmışdı. Otuz-otuz beş yaşlarında, ortaboylu, iri qara gözləri və yarıya qədər ağarmış qıvrım saçları olan ana, evin arxa tərəfinə yığılmış yükdən köhnə, təmiz bir döşəkcə çıxarıb, xəcalət çəkə-çəkə palazın üstünə saldı.

– Əyləşin, müəllim xanım!

Südabə xanım əyləşdi. İldırım sobanı qaladı. Ananın üzündə pərişan və həyəcanlı bir ifadə var idi. O, ümidsiz və məyus səslə:

– Bu nə işdir, başımıza gəlir, müəllim xanım? – dedi. – Qonşumuzun oğlu fədai Hüseyn bir az bundan qabaq Zəncandan gəlib. Deyir, şahın qoşunları camaata bir divan tutub ki, qan su yerinə axıb...

Südabə xanım dinmədi. Aralığa sükut çökdü.

– Tezliklə yəqin burada olarlar, – deyə ana vahimə içində oğluna baxdı.

Sonra Südabə xanıma sarı dönərək:

– Şəhərdə qalmayın, müəllim! – dedi. – Çıxın bir tərəfə gedin!

– Yox, mən heç yerə getməyəcəyəm! – Südabə xanım ananın üzünə baxmadan cavab verdi və bunu elə bir ifadə ilə dedi ki, elə bil qadına deyil, öz atasına cavab verirdi.

– Heyfsiniz, müəllim xanım! – Deyirlər, onlar arvadlara, uşaqlara da rəhm eləmirlər. Kimdən bir az şübhələnirlər, boğazından asırlar...

– Nə edək, bacı! Bu şəhərdə mən tək deyiləm!

Elə bu zaman qapı döyüldü. Ana qorxmuş halda Südabə xanıma baxdı.

Südabə xanım sakit və soyuqqanlı səslə:

– Gör kimdir? – deyə oğlana müraciət etdi.

İldırım yüyürüb qapını açdı. Çadraya bürünmüş bir qadın içəri daxil oldu, o, üzünü açdıqda Südabə xanım analığı Zərintac xanımı gördü. Qadın göz yaşları içində qızlığına dedi:

– Bayaqdan səni axtarmamış yer qoymamışam. Bu həyətə girdiyini bir uşaqdan bildim. İnad eləmə, qızım! Səhər tezdən gərək buradan çıxasan. Özünə yazığın gəlsin. Deyir, onlar sənin kimilərini sorğusuz-sualsız dar ağacından asırlar.

– Sən necə bilirsən, ana, yeddi aydır mən camaatın uşaqlarına tərbiyə verirəm. Onlara düşmənə nifrət etmək öyrədirəm. İndi təhlükə onların başının üstünü alanda qaçıb həmin düşmənə pənah gətirsəm, mənə nə deyərlər?

Zərintac xanım mat-məbhut qalıb, cavab vermirdi. İldırım iri-iri açılmış gözləri ilə müəllimə baxırdı.

Birdən Südabə xanım bir şeydən qorxurmuş kimi diksinərək:

– Yox! – dedi. – Bu mümkün deyil! Mən heç yerə getməyəcəyəm! Qoy yeddi ay dərs dediyim şagirdlər gələcəkdə məni lənətlə yad etməsinlər!

Bu sözlər qeybdən gələn fövqəladə bir səs kimi anaların qəlbini əzəmət və ilhamla doldurdu.

Zərintac xanım ayağa qalxıb:

– Allah sənə yar olsun, qızım! – deyə vüqarla otaqdan çıxdı.

Südabə xanımın üzü, dəhşətli əzab və çətinliklərdən xilas olub, nəhayət, ağ günə çıxan adamların üzü kimi, aydın və xoşbəxt bir hisslə işıqlandı və o, həyatın ürəkaçan, adi, xoş hadisələri barədə danışmağa həvəsləndi. Şagirdinin bayaqdan bəri ona zillənib qalmış və çıraq işığında şəvə kimi qapqara bir mayetək qaynayan parlaq gözlərinə baxaraq, şən təbəssümlə:

– İldırım sizi incitmir ki, xala? – deyə anadan soruşdu.

Onun bu qəribə nəşəsi bir anda ana ilə oğluna da sirayət elədi. Ana gülümsədi və bu təbəssüm onun vaxtından əvvəl qocalıq şaxtası vurmuş üzünə ani bir gənclik təravəti gətirdi.

Ana oğluna baxdı:

– Yaman nadincdir, müəllim, – dedi.

Lakin onun baxışı məzəmmət deyil, sonsuz məhəbbət və fərəh ifadə edirdi:

– Ancaq sizi çox istəyir. Evdə eyzən sizdən danışır. Neçə dəfə istəmişəm gəlib rizaməndlik eləyəm.

Onlar gecəyarıyadək oturub söhbət elədilər. Ev sahibəsi öz dərdini danışdı. Əri xalça karxanasında işləyirmiş. Açıq fikirli demokrat imiş. Dörd il bundan qabaq təqsirləndirilərək, həbsə alınmış və xəbərətərsiz yox olmuşdu...

– Təbrizə gedib Pişəvərinin özünə dedim, – deyə qadın dərd ilə yanan quru gözlərini yerə dikib nağıl edirdi, – hər tərəfi axtardı, heç yerdə gördüm deyən olmadı...

Oğlan sobanın o biri tərəfində dizi üstə oturub anasına elə diqqətlə baxırdı ki, elə bil, onun yüz dəfələrlə dediyi bu sözləri birinci dəfə eşidirdi.

– Belə soyuq bir gecədə gəlib apardılar... – deyə ana «ah» çəkib gözlərini yerə dikdi.

İldırımın qara gözləri kinli, amansız bir atəşlə parladı:

– Ajan böyüyü çox bişərəf adam idi, – dedi. – Qapıda anamı itələyib yerə yıxdı. Görsəm, bu saat tanıyaram. Üzü arvad üzü kimi qırmızı bir kişi idi.





O gecə Südabə xanım uzun zaman yata bilmədi. Qısa və müztərib bir ömrün kədərli xatirələri, son yeddi aylıq həyatının əziz xəyalları onun yuxusunu ərşə çəkirdi. O, bu yeddi aylıq həyatının indi artıq çox uzaq və irişilməz olan səadəti ilə vidalaşırdı, gözəl və məyus vətəni Azərbaycan haqqında nəğməni son dəfə öz şagirdlərinə oxutmaq üçün səhərin açılmasına tələsirdi...

Səhər açıldı...

Südabə xanım, İldırımla məktəbə gedərkən əhali arasında bir qarğaşalıq gördü. Tacirlər azərbaycanca yazılmış lövhələri götürüb, yerinə farsca yazılmışları asmışdılar.

Milli hissini itirmiş tacirlər:

– Sabah-şərəfiniz xeyir, ağa! Gözünüz aydın, deyir, gəlirlər, – deyə bir-birini təbrik edir və gülümsəyirdilər.

Əsnafın, yoxsulların, xırda alverçilərin üzləri isə tutqun və kədərli idi. Onlar salamlaşmadan: «Bu nə işdir, Dadaş?» deyə həyəcanlı pıçıltı ilə bir-birindən xəbər alırdılar.

Südabə xanım məktəbə çatıb, zəngi vurdurdu və paltosunu çıxarıb sinifə girdi. Lakin uşaqların yarıdan çoxu gəlməmişdi.

Axırıncı dərsdə o, şagirdlərinə «Azərbaycan» nəğməsini oxutdurdu. Dünən qəlbləri fərəhli, xoş duyğularla qanadlandıran bu nəğmə indi onda həsrət və hicran hissi yaradırdı. Elə bil ki, onun vətəni haqqında olan bu mahnı indi uzaqlardan, çox uzaqlardan axıb gəlirdi.

O, yaşarmış gözlərini uşaqlar görməsin deyə, üzünü pəncərəyə çevirdi. Elə bu zaman ayaq səsləri eşidildi, bir fars zabiti ilə iki sərbaz içəri girdi. Mahnı uşaqların boğazında qırılıb qaldı. Ucaboylu, cavan fars zabiti:

– Deyən, Azərbaycan haqqında nəğmə öyrədirsiniz, xanım? – deyə istehzalı bir təbəssümlə soruşdu.

– Bəli, ağa. Azərbaycan haqqında nəğmə öyrədirəm. Bəs, siz niyə silahlı əsgərlə sinif otağına girirsiniz?

Zabit qapını göstərdi və dedi:

– Ağayi Sərhəngin əmrinə əsasən, biz sizi narahat etməli olacağıq, xanım! Buyurun bizimlə gedək!

Südabə xanım danışmağın mənasız olduğunu hiss etdi.

Zabit bu dəfə sərt halda:

– Bizi ləngitməyin! – dedi.

Südabə xanım çevrilərək qorxmuş nəzərləri ona dikilib qalan uşaqlara baxdı. İldırım ayaq üstə dayanmışdı. İndi onun gözləri marığa

yatıb, öz ovu üzərinə atılmağa hazırlaşan pələng balasının gözlərinə oxşayırdı.

Südabə xanım arxayın səslə dedi:

– Sağ olun, uşaqlar! Məni yadınızdan çıxarmayın, bəlkə bir də görüşmədik... Böyük oğlanlar olanda vətəniniz uğrunda mübarizə edin! Heç bir zaman yaddan çıxarmayın ki, bunlar (o, fars zabitini göstərdi) bizim ən qəddar düşmənimizdir!

– Rədd kon! – deyə zabit farsca sərbazlara qışqırdı.

Lakin Südabə xanım sərbazların ona toxunmalarına yol verməmək üçün cəld paltosunu geyib qabağa düşdü. Onlar küçəyə çıxanda Südabə xanım, sərbazların qabağında qolubağlı aparılan tanış demokratları gördü. Onların ardınca gözüyaşlı arvadlar, bənizləri ağappaq ağarmış uşaqlar gedirdilər.

Qəsəbə ağır və dəhşətli bir səssizlik içində idi. Bu qorxunc sükut, adamların evlərdən çıxarılıb qolubağlı aparılması Südabə xanıma Varfolomey gecəsini xatırlatdı. O gecədə də insanları beləcə sükut içində qırırdılar!

Qəsəbə ilə meşənin arasındakı açıqlığa çatdıqda, Südabə xanım, meydanda qurulmuş dar ağaclarını gördü. Dar ağaclarının yanında bir dəstə qolubağlı demokrat durmuşdu.

Onlardan da on addım kənarda iyirmi nəfər fars sərbazı və üç zabit dayanmışdı.

Cavan zabit, yoğun və qıpqırmızı sifəti olan eynəkli sərhəngə təzim edib, müəllimi gətirdiyini və onun rəftarını ərz etdi.

Sərhəng gözlərini qıyaraq qıza diqqətlə baxıb cavab vermədi. Beş dəqiqədən sonra iki nəfər də gətirdilər. Onların ardınca köhnə kəlağayısı altından qar kimi ağ saçları dağınıq halda çıxmış, günəşdən yanıb qaralmış arıq sinəsi və üzü dırnaqları ilə cırıq-cırıq edilmiş bir qarı gəlirdi.

Qarı sərhəngin qabağında dayanıb:

– Onu öldürmə! – deyə təzə gətirilən cavanı göstərdi. – Allah dərgahında cavab verə bilməzsən! Onun günahı yoxdur!

– Ana! – deyə oğlan qışqırdı.

Ana onu eşitmədi. Sərhəngin qolundan yapışıb dedi:

– Bu saçlarımdan, çalın-çarpaz dağ çəkilən bu sinəmdən qorx! Yeddi oğuldan bircə o qalıb!

– Bu köpəyi susdurun! – deyə sərhəng üz-gözünü büruşdürdü.

İki cavan zabit ananın qolundan yapışıb kənara çəkdi. Ana, üzündə müdhiş bir təbəssümlə oğluna baxdı.

– Çıxart siyahını oxu! – deyə sərhəng yavərinə əmr etdi.





Südabə xanımın adına çatanda, sərhəng gözlərini yenə də qıyaraq ona baxdı və soruşdu:

– Bu hansı Məşədi Tağının qızıdır? Sərraf Məşədi Tağınınmı?

– Bəli, – deyə yavər təsdiq etdi.

– Onu tapın bura gətirin! – deyə sərhəng əmr etdi.

Yavər, Məşədi Tağının ardınca iki sərbaz göndərərək, siyahını oxuyub qurtardı.

– Daha qalan yoxdur ki? – deyə sərhəng sakitcə soruşdu.

– Xeyr, – deyə zabit cavab verdi. – Siyahıda olanların hamısı buradadır.

Sərhəng bir ingilis siqarı yandırıb damağına qoydu. Elə bu vaxt Məşədi Tağını gətirdilər.

Sərhəng gözlərini qıyıb ona baxdı:

– Sən nə vaxtdan satqın olmusan, Məşədi?

– Nə sarıdan belə hökm verirsiniz, ağayi sərhəng? – deyə Məşədi Tağı sakit və məğrur bir görkəmlə cavab verdi.

– Bu kimin qızıdır? – sərhəng müəllimi göstərdi.

Məşədi Tağı qızına tərəf baxmadan, mənfur sakitliklə cibindən bir kağız çıxarıb sərhəngə təqdim etdi.

Sərhəng kağızı açıb bu sətirləri gözdən keçirdi: «Mən... qəsəbəsi sakini Məşədi Tağı Məşədi Səlim oğlu, öz yeganə qızım Südabə Məşədi Tağı qızını, üzümə ağ olub, mənim iradəmin xilafına hərəkət elədiyi üçün, aşağıda imza edən şəxslərin şəhadəti ilə bu dəqiqədən etibarən övladlıq şərəfindən məhrum edirəm... Binaən-əleyh, mən məzkurənin nə ölüsünə, nə dirisinə sahib deyiləm, onun heç bir hərəkətinə özümü cavabdeh bilmirəm».

Sərhəng məktubu axıra qədər oxumadı, büküb kişiyə qaytardı və onun üzünə baxmadan dustaqların yanında dayanmış sərbazlara əli ilə başlamaq işarəsi verdi. Qabaq cərgədə duranlardan Südabə xanımla bərabər qarının oğlunu və qoca kişini çıxarıb dar ağacının altına gətirdilər.

– Yaşasın Azərbaycan! – deyə qarının oğlu qışqırdı.

Qarı müdhiş təbəssümlə gülümsəyib, oğluna baxdı...

– Kimin bunlardan şikayəti var? – deyə sərhəng silah gücü ilə oraya yığılan camaata müraciət etdi.

Bu qəribə sual hamını təəccübə saldı. Hamı sükut içində başını aşağı dikdi.

– Niyə dinmirsiniz? Yoxsa, Təbrizdən qorxursunuz? – sərhəng gülümsədi.

O zaman:

– Mənim şikayətim var, – camaatın arasından bir gənc səsi eşidildi və bunun ardınca İldırım irəli çıxıb sərhəngin yanına gəldi.

Sərhəng onu başdan-ayağa nəzərdən keçirərək:

– Şikayətin hansındandır?

Oğlan Südabə xanımı göstərib:

– Bax, o müəllimədən, – dedi.

– Sən bunun şagirdi olmusan?

– Bəli, – deyə oğlan sakit və nəzakətli səslə cavab verdi.

– Hə, bu çox maraqlıdır. De görüm şikayətin nədi? Qorxma! Nağıl elə. Sonra yavərinə müraciətlə:

– Bu uşağın dediklərini yazarsan, – dedi.

– Mən onu ancaq sizin qulağınıza demək istəyirəm! – deyə oğlan pıçıldadı.

Sərhəng gülümsəyib farsca yanındakı zabitlərə:

– Çox maraqlıdır! – deyə təkrar etdi.

Sonra uşağa sarı dönərək:

– Hə, gəl de görüm nə deyirsən? – deyib qulağını ona tərəf tutdu.

Oğlan yanaşıb onun qulağına pıçıldadı ki:

– Mən səni tanıyıram. Dörd il bundan qabaq mənim atamı da tutub aparan sənsən!

Söz ağzından qurtarmamış qolunun içində gizlətdiyi xəncəri var gücü ilə onun xirtdəyinə soxdu.

Sərhəngdən boğuq bir xırıltı eşidildi və o silkələnib yıxıldı.

Adamlar gözlərini sərhəngdən çəkib ona baxana qədər, İldırım izdihamın arasından keçib meşəyə girdi.

Dörd zabitin tapançası onun ardınca gurladı. Lakin sonra məlum oldu ki, güllələrin heç biri onu tutmayıb.

Meşəni nə qədər arayıb-axtardılarsa, oğlandan heç bir nişanə tapmadılar...ı

*1948*

## YAYLAQ QONŞUMUZ

İki nəbatat mütəxəssisi – mən və yoldaşım Əmin Zeynalzadə Turşsuya gedəndə iyunun axırları idi. Yaxşı yerlərin hamısı tutulmuşdu. Biz rahat bir yer axtara-axtara gəlib Turşsu bulağının lap başı üstündəki balaca meydançada qərar tapdıq. Burada, qoca palıd ağacının altında qurulmuş iri brezent çadırın qabaq tərəfində boş yer var idi. Çadırdan əlli səkkiz-altmış yaşlarında, əynində nazik qara şal paltar, başında bənövüş haşiyəli kəlağayı, ayaqlarında çust olan, saçları qaraya çalan kök bir qadın çıxıb, yoğun barmaqları arasında uzun papiros tutmuş olduğu halda dayanıb bir neçə saniyə bizə baxdı. Sonra gümrah və ötkəm səslə soruşdu:

– Deyəsən, bura düşmək istəyirsiniz?

– Bəli, – dedim, – istəyirik sizə qonşu olaq.

– Yox... yox, – deyə qadın etiraz etdi. – Uşağımız-zadımız var, ayrı yerə düşün.

Doğrusunu deyim ki, arvadın səsindəki amiranə ahəng mənə xoş gəlmədi. «Bura yaylaqdır. Kim harada istəyirsə, orada da düşə bilər.» deyə düşündüm. Bir də, axı, bizim onlara nə maneçiliyimiz ola bilər?

– Uşağınız olanda nə olar, ay xala, – dedim, – biz cəmi iki nəfərik, özümüz də iş adamıyıq, səhər çıxıb, axşam gələcəyik.

Lakin arvad sözündən dönmək istəmədi:

– Başınıza yer qəhət deyil ki!

Sonra səsini alçaldaraq, mühüm bir xəbər verirmiş kimi pıçıltı ilə əlavə etdi:

– Bura doktor Səfiyevin evidir. Başa düşürsünüzmü?

– Burada başa düşülməyəcək nə var ki, ay xala. Biz doktor Səfiyevlə şəxsən tanış olmasaq da, onun haqqında çox eşitmişik.

O, qaşlarını qürurla dartdı:

– Doktoru kim tanımır ki, – dedi. – Qapısında gündə yüz adam növbəyə durur.

Təbiətən hövsələsiz adam olan yoldaşım Əmin qolumdan dartaraq:

– Gəl bəri, sən Allah, gedək ayrı bir yer tapaq, – dedi.

Mən razılaşmaq istəyirdim ki, çadırdan iyirmi səkkiz-otuz yaşlarında, qıvrım qara saçları qabarıq halda yana daranmış, çəhrayı bənizli, kök bir qadın çıxaraq, bizə soyuq bir nəzər saldıqdan sonra arvada tərəf dönüb acıqlı səslə:

– Qoy düşsünlər, bu yerin ucundan baş-beynimiz getdi...

Gənc qadın bu sözləri deyib, qızıl zərli xalatının ətəklərini yelləndərək yenə də içəri girdi. Xala daha bir söz deməyərək, ocağın üstündəki qazanlardan birinin ağzını açıb qarışdırdı.

Bura həm Turşsuya, həm də şey-şüy satılan kiçik dükanlara yaxın olduğundan, mən ayrı yerə düşmək istəmirdim. Ona görə də Əminə:

– Qoy burada tikilək, – dedim, – eybi yoxdur, xalagillə barışarıq. Onsuz da günümüzün çoxu çöldə, bayırda bitki toplamaqla keçəcək.

Sonra yuxarıda, yolda dayanmış maşının şoferinə aşağı sürməsini işarə elədim...

... Mənim sözüm düz çıxdı. Xala ilə çox tez barışdıq. Çadırımız qurulub qurtarandan sonra o, papirosunu tüstülədə-tüstülədə yanımıza gəldi. Köhnə tanış kimi gülümsədi. Çadırımızı nəzərdən keçirib:

– Deyəsən, lap köhnə brezentdir, – dedi və iftixarla öz təzə, gözəl çadırlarına baxdı.

Birdən nə fikirləşdisə, dedi:

– Biz həmişə Kislovodska gedirik. Keçən il də Riqada idik. Bu dəfə doktorun yoldaşı dedi ki, mama, bu il heç yerə gedəsi deyiləm. Kurortlar bizi təngə gətirdi. Doktor da gülüb dedi, neynək, gedin bu yay da Zarıslı qaymağı yeyin.

Xala güldü. Ağzında qızıl dişləri parıldadı və böyük bir nəşə ilə məndən soruşdu:

– Yəni, doktoru lap yaxşı tanıyırsınız?

– Xeyr, o qədər də yaxından tanımırıq. Doktor sizin nəyinizdir?

– Kürəkənimdir də... Yarı canım qalıb yanında. İşi qoyub gələ bilmədi. Sənin canın üçün, düz dörd yerdə dərsi var. Xəstəxana onsuz keçinmir. On beş min elə təkcə dərslərindən alır. Yeddi otağı var. Bəs, burada sizin biş-düşünüzü kim eləyəcək?

– Bir adam taparıq, – dedim...

– Yeddi otaqdan çıxıb indi belə çadırda olmaq adama qəribə gəlir, – xala bərkdən güldü.

Əminin səbri tükənmişdi, o, acıqla üzünü yana çevirdi.

– Sizin canınız üçün, hər dəfə kassir pulu evə gətirəndə doktor ona düz əlli manat bağışlayır. Bəs necə...





O, bir an ara verib soruşdu:

– Deyəsən, bayaq deyirdiniz işə gəlmisiniz?

– Bəli, bu yerlərin bitkilərini öyrənmək istəyirik.

– Dosentsiniz?

– Xeyr, elə-belə elmi işçiyik.

Bizim, heç olmazsa, dosent belə olmadığımıza təəssüf etdiyini, hətta, acıdığını xalanın üzündən oxumaq olardı.

– Çalışın, bəlkə bir ad aldınız. Yoxsa, elmi işçinin donluğu nə olacaq ki? Doktor elə dərslərindən on beş min alır.

Əmin əsəbi halda qalxıb çadıra girdi. Xala onun ardınca baxaraq:

– Bu nə təşəxxüslü oğlandır, – deyə pıçıldadı. – Canın üçün, doktoru görsən, xasiyyətinə hayıl-mayıl olarsan. İpək kimi adamdır. Allahından dön, səhərdən axşamacan yemək vermə, alnını da turşutmaz. Amma onun yerinə hər kəs olsa, forsu yeri-göyü yırtar.

Bu zaman on iki-on üç yaşlarında, yaxşı geyinmiş, gözlərində eynək, başında zərli araqçın, əlində gödək ağac olan, həddindən artıq kök bir oğlan özünü zorla çəkərək, Turşsu dərəsindən çıxıb bizim yanımıza gəldi. Xala qaşlarını dartaraq çox ciddi:

– Doktorun oğludur, – deyə onu təqdim elədi. – Qubuş, gəl tanış ol. Bakıdan gəliblər.

Oğlanın balaca domba gözlərinin qara bəbəkləri eynəyinin altında qəribə tərzdə oynayırdı. Anlamaq olmurdu ki, o, bizim hansımıza və ya haraya baxır. Bir qədər gözlərini oynatdıqdan sonra irəliləyib ətli əlini mənə uzatdı. Köklüyünə uymayan cır səslə:

– Qurban Səfiyev, – dedi.

Xala məmnun halda gülümsədi:

– Doktor atasının adını qoyub. O vaxt qız nə qədər dedi ki, köhnə addır, istəmirəm, olmadı. Düzü, mən də doktora tərəfdar oldum. Nə qədər olsa da, atadır də...

Sonra xala nəvəsindən soruşdu:

– Qubuş, dağa çıxıb-düşdünmü?

Oğlan bəbəklərini oynadaraq başı ilə təsdiq etdi.

– Göz dəyməsin, çəkisi bir az artıqdır. Doktor tapşırıb ki, gündə bir dəfə o yoxuşu çıxıb-düşsün, ürəyini piy basmasın.

Bu zaman xalanın qızı, yəni, hörmətli doktorun arvadı çadırdan çıxaraq sərt və soyuq ifadə ilə:

– Qubuş, qəlyanaltıya gecikmisən, – dedi.

Sonra kök və çılpaq qolunu azca yuxarı qaldıraraq, brilyanta tutulmuş saatına baxıb əlavə etdi:

– Düz iyirmi dəqiqə!

Qubuşun bəbəkləri tez-tez oynadı.

– Niyə gəlmirsən? – anasının təhdidedici səsi təkrar eşidildi.

01/01–19

Qubuşun bəbəkləri fırfıra kimi hərləndi və nəhayət, o, yerindən qoparaq ürkək, cəsarətsiz addımlarla çadıra getdi. Bir-iki dəqiqədən sonra içəridən doktorun arvadının (adı Zərif xanım imiş) səsi ucaldı:

– Sənə deyirəm ki, yeyəcəksən! Hamısını!

Xala gülümsəyib başını buladı:

– Allah saxlamış yeməyə yamanca dağaldır. Mən gedib dilə tutmasam olmayacaq.

Xala qalxıb, kök qaz kimi yanını basa-basa çadıra getdi və azacıq sonra içəridən onun mehriban səsi eşidildi:

– Ye, qadan alım, adam dəli olmaz.

Zərif xanım isə amansızcasına deyirdi:

– Hamısını yeyəcəksən, vəssalam!

Xala yumşaq səslə xahiş edirdi:

– Bəs, bura niyə gəlmişik? Ye, başına dönüm...

Zərif xanım əlini stola döyərək uşağı hədələyirdi:

– Yeyəcəksən, vəssalam!

Xala yalvarırdı:

– Qubuş, sən mənim canım, ye...

– Ə... – oğlan qəribə bir səs çıxardı.

Sonra çəngəl-bıçağın cingiltisi eşidildi.

... Bütün bu əhvalatlardan xəbəri olmayan təbiət isə tamam bir gözəllik içində idi. Turşsu dərəsindən axan çay göy daşların üzərindən atlana-atlana günəş işığında şəfəq saçaraq şırıldayırdı. Çaydan o tərəfə dağ yuxarı qalxan meşə ağacları mavi göy qübbəsi altında sükut içində idi. Onların dibindəki yumşaq dağ otları və bu otların arasına səpələnmiş çiçəklər sanki çayın incə şırıltısı ilə həmahəng o yan-bu yana titrəşirdi. Hava şəffaf və ılıqdı, güllərin ətri ilə dolu idi.

Çadırda yenə doktorun arvadının amansız səsi eşidilirdi.

– Bu kiseli də içəcəksən, vəssalam!

... Gecə biz çox oturub işləməyimizə baxmayaraq, səhər tezdən durmağa məcbur olduq. Bayırdan eşidilən səs-küy bizi yuxudan elədi.

Mən geyinib çadırdan çıxanda bir neçə qonşu arvadı ilə xalanın moruq satan on iki-on üç yaşlı bir oğlanı dövrəyə aldıqlarını gördüm. Qonşu arvadlardan biri xalaya müraciətlə deyinirdi:

– Yaxşı deyil, bacı, oğlanı biz çağırırıq, moruğun hamısını siz götürürsünüz. Axı, biz də adamıq...

Lakin xala bu sözlərə əhəmiyyət verməyərək, oğlanın ovcuna iki iyirmibeşlik basıb, moruğun hamısını götürüb apardı və mənim yanımdan keçərkən öz qələbəsindən şadlanaraq gülümsədi:

– Rəhmətliyin qızları, tay bilmirlər ki, on bu qədər moruğun mürəbbəsi olsa, yenə doktorun qonaq-qarasına çatmaz.

Satıcı oğlan hirslənmiş qonşu arvada baxaraq dişlərini ağartdı:





– Narahat olma, xala, – dedi, – sabah yenə moruq gətirəcəyəm.

Mən oğlandan xahiş etdim ki, sabah bizə də moruq gətirsin.

– Baş üstə, – oğlan şən halda üzümə baxdı. – Ancaq bir az tez durun ki, o xala hamısını yığışdırıb aparmasın.

Turşsu dərəsi sərin kölgə içində idi. Çayın aşağı hissəsi ağ duman altında gizlənmişdi. Ağacların yuxarısındakı şehli yarpaqlar səhər günəşinin şüalarını əks edərək parlayırdı.

Biz çayın brilyant kimi şəffaf və soyuq suyunda yuyunub qayıtdığımız zaman Qubuşun, üzərinə qar kimi ağ örtük çəkilmiş stolun dalında oturaraq gözlərindən gildir-gildir yaş tökdüyünü görüb xeyli təəccüb etdik.

– Nə olub? – deyə mən yavaş səslə ondan soruşdum.

Oğlan cavab verməyərək, qabağında, stolun üstünə düzülmüş on dənə təzə və iri yumurtanı əli ilə mənə göstərdi. Nə demək istədiyini başa düşmədim. Lakin bu zaman xala içəridən çıxaraq:

– İç, qadan alım, sən papanın canı iç! – deyə oğlanı dilə tutdu.

Qubuş hədəqəsindən çıxıb qaçacaqmış kimi tez-tez fırlanan bəbəklərini nənəsinə dikərək:

– Hər səhər on çiy yumurtanı içməkdən zəhləm gedir axı... – dedi.

Və elə yanıqlı-yanıqlı ağladı ki, doğrusu, yazığım gəldi. Başqasının işinə qarışmaq hər nə qədər yaxşı olmasa da:

– Ay xala, – dedim,– axı, bu binəva on çiy yumurtanı necə içsin?..

– Bo... y, bəs atası bir o qədər pulu kimin üçün qazanır? İç, Qubuş, sən papanın canı, iç...

Qubuş gözlərindən yaş tökə-tökə, yan-yana düzülmüş on yumurtaya elə dəhşətlə baxırdı ki, elə bil, bu on yumurta dönüb on əjdaha olmuşdu.

Zərli xalat geymiş Zərif xanım içəridən çıxaraq soruşdu:

– Qubuş, hələ içməmisən?

Onun səsində elə amansız ahəng vardı ki, oğlan diksindi. Təlaş və qorxu içində bir-bir yumurtaları sındırıb içməyə başladı. Hər dəfə başını geri verib yumurtanı ağzına apardıqda bəbəkləri əcaib tərzdə fırlanır, üzü müdhiş ifadə alırdı.

Bütün bu əzab və məşəqqətə baxmayaraq, Qubuş on çiy yumurtanın onunu da içib qurtardı. Lakin qurtaran kimi, xala onun qabağına bir kasa bal qarışıq qaymaq və bir böyük fincan yumurtalı kakao qoydu. Qubuşun gözləri ağardı. Sanki çoxdan bəri təlaş içində olan bəbəklər, nəhayət, qaçıb itdi. Mən üzümü çevirərək çadıra getdim və Qubuşun səhər yeməyinin nə ilə qurtardığını bilə bilmədim.

... Xala ilə Zərif xanım – ana-bala səhərdən axşama qədər yeməklə məşğul olurdular. Ya özləri yeyir, ya Qubuşu yedirirdilər. Ya yemək barədə danışır, ya da yemək hazırlayırdılar. Lakin ana ilə qızın

xasiyyəti xeyli fərqli idi. Zərif xanım xala kimi hər şeylə maraqlanan, söhbətcil deyildi.

Yeməkdən azad vaxtlarında (belə vaxtlar çox az olurdu) onun kök və çəhrayı üzü hər şeyə biganə bir ifadə alırdı. Söhbətlərə qulaq asırdısa da, fəal münasibət göstərmirdi. Ya ağacın altında qıçlarını uzadıb oturaraq, çöplə qəşəng, yaraşıqlı dişlərini qurdalayır, ya şəkilli kulinariya kitabını vərəqləyərək baxır, ya da bir əlində balaca güzgü tutaraq, o biri əli ilə kömür kimi qara saçlarını darayırdı. Elə bil ki, Zərif xanım yeməkdən ayrıldıqda, bütün həyatdan, cəmiyyətdən ayrılırdı.

Lakin ya qəlyanaltı, ya nahar və ya da şam vaxtı yaxınlaşdıqda, onun üzü birdən-birə canlanır, gözləri nəşə ilə parlayır, sanki qadına yeni gözəllik, ilham gəlirdi.

Xala isə, əksinə, söhbətsiz dayana bilmirdi. Hər gün nahara nə bişirdiklərini, həmin xörəyin neçəyə başa gəldiyini bütün təfsilatı ilə bizə danışır və hər dəfə də «eh, doktorun canı sağ olsun» sözlərini əlavə etməyi unutmurdu.

Bizim yeməyimizi yaxın fermada olan ortayaşlı bir qadın hazırlayırdı. Xala, bir vəzifə kimi, hər gün ondan bizim üçün nahara nə bişirdiyini, hər xörəyə nə qədər xərc çəkildiyini mütləq öyrənirdi. Qəribə burası idi ki, bizdə də, onlarda olduğu kimi, plov və ya başqa bir bahalı xörək bişdiyini, bizim də onlar kimi hər gün qaymaq, moruq aldığımızı gördükdə, arvadın qaşları çatılır, üzündə acıqlı, soyuq bir ifadə əmələ gəlirdi. Elə bil ki, xala bizi məzəmmət edib deyirdi: «Daha sizinlə bizim nə fərqimiz oldu?!»

Xala belə fərq görmədikdə, Bakıdakı mənzillərini tərifləməyə güc verirdi: «Doktorun səkkiz otağı var (bəzən səkkiz, bəzən yeddi deyirdi). Səkkizi də xalı, gəbə ilə döşəniklidir. Doktor öz kabineti üçün bütöv bir xalı toxutdurub, otuz minə... Doktor Moskvadan mebel gətirdib...»

Mənim yoldaşım Əmin sarıbəniz, arıq, başqalarının yaxşı və ya nöqsan cəhətlərinə qarşı öz münasibətini gizləməyi bacarmayan açıq təbiətli bir oğlan idi. Xala gəlib doktoru və onun qazancını tərifləməyə başlayan kimi, Əmin ya durub əkilir, ya da kitabdan, qəzetdən götürüb baxırdı. Ona görə də, xalanın ondan xoşu gəlmirdi. Xala istəyirdi ki, onun doktor haqqındakı tərifləri hamını heyrətə salsın. Hamı qulaq asıb desin ki: «Pah... bir gör dünyada nələr var...»

Arvad, Əminin belə eləmədiyini gördükdə, əvvəl təəccüb etdi. Sonra acığı tutdu. Daha sonra isə, ona yazığı gəlməyə başladı. Əmin onun söhbətlərindən dilxor olub getdikdə, xala daha incimir, onun





ardınca him edərək, «yazıq arıqlığından belə nervinnidir. İşin olmasın» deyə mənə pıçıldayırdı.

... Bir dəfə axşamçağı biz qapıda oturub qonşu çadırda Ağcabədi mahalından gəlmiş bir cavan oğlanın tarın müşayiəti ilə oxuduğu «Segah»a qulaq asırdıq.

Uzaq Murov dağının zirvəsindən qüruba enməkdə olan axşam günəşi Turşsu meşəsini çəhrayı şəfəqə boyamışdı və bu şəfəq içində xəfif-xəfif tərpəşən yarpaqların, çiçəklərin görkəmində yay axşamının şirin hüsnü duyulurdu. Oğlanın oxuduğu «Segah» dil açıb insanlara və bütün təbiətə yeni bir səhər vəd edən o axşam mənzərəsinin, ömrümüzdə bir də heç zaman geri qayıtmayacaq o dəqiqələrin, o zaman sirlərinin nəhayətsizliyindən, möhtəşəm gözəlliklərindən danışırdı. «Segah»ı oxuyan iyirmi üç-iyirmi dörd yaşlarında gözəl bir oğlan idi. Sonradan bildiyimizə görə, nə o, nə də təxminən o yaşda, o geyimdə olan tarçalan oğlan peşəkar çalıb-oxuyan deyildi, adicə, kolxozçu idilər. Onları əhatə edən arvadlar və kişilər də kənddən gəlmiş adamlardı. Qarabağ camaatı ilə musiqi əkiz yaranmışdır. İstər çalanların, istərsə də oxuyanların üzlərindəki riqqətli, incə ifadədə uzaq əsrlərdən keçib gələn «Segah» təranələrinin şəfəqi var idi. Sanki onlar muğamın tərənnüm etdiyi məna və gözəlliklərə qərq olmuşdular. Mən və Əmin onları seyr edir, sükut içində qulaq asırdıq. Oğlanın səsindəki təravət və incəlik bizi heyran etmişdi. Bizlərdən hər birimizin xəyalı başqa-başqa aləmlərdə dolaşırdı. Bu dəqiqələrdə mənə elə gəlirdi ki, dünya yalnız sonsuz gözəlliklərdən, incə səslərdən, Turşsu meşəsini boyayan al şəfəqlərdən ibarətdir. Elə bil ki, bu gözəlliyin əzəli və nəhayəti yox idi. Xala, adəti üzrə, papirosunu tüstülədə-tüstülədə gəlib yanımızda oturdu və o dəqiqə məmnun təbəssümlə xəbər verdi: «Zərif bu gün Şuşadan səksən manata bir hindtoyuğu alıb, yalan olmasın, iki kilo yağı olar».

Birdən elə bil ki, qan Əminin başına vurdu, nazik və solğun üzü qıpqırmızı qızardı, hirsindən boğularaq:

– Ay xala, – dedi, – sən doktorun canı, qoy bu yaylaqda bir nəfəs alaq...

Xala:

– Bo... y, – deyə uzatdı. – Havanı əlindən alan yoxdur ki. Mən bu kişi ilə söhbət eləyirəm.

– Qəribədir, – xala durub gedəndən sonra Əmin deyirdi, – canım, belə də şey olar? And içirəm ki, bura gələndən nə bu xala, nə də onun qızı bir dəfə başlarını qaldırıb, o meşəyə tamaşa eləməyiblər. Bunlar üçün dünya – doktorun qazandığı pullardan, yağlı hindtoyuğundan ibarətdir. Doğrudanmı, bizdə hələ də belə insanlar var?

Xalanın dediyi kimi, çox varlı-hallı dolanmalarına baxmayaraq,

bizə moruq gətirən oğlanla (onun adı Həsənalı idi) Zərif xanım hər gün qiymət üstündə çənə-boğaz olurdular. Bəzən mübahisə lap xırda pulun, məsələn, əlli qəpiyin, bir manatın üstündə olurdu. Hər dəfə də Həsənalı «əşi, qurban olsun oğluna» deyə gözəl dişlərini ağardaraq, gülümsəyib güzəştə gedirdi.

Həsənalı ilə biz bərk dost olmuşduq. Əmin ona şahmat öyrətmişdi. Mən də söz vermişdim ki, biz Bakıya qayıdanda, şahmatı qutusu ilə birlikdə ona bağışlayacağıq. Bu, onu yaman sevindirmişdi. Hər gün moruğunu satandan sonra ya oturub bizim şahmat oynamağımıza baxır, ya da uşaqlarla futbol oynayırdı. Axşam gün əyiləndə səbətlərini çiyninə alıb meşənin arasından düşən dolayı cığırla, mahnı oxuya-oxuya, səkkiz kilometr uzaqda, Sarıbaba yaylağında olan kəndlərinə gedirdi.

Həsənalı ilə Qubuşun münasibətləri çox qəribə idi. Həsənalı moruq satmağa gələn kimi, Qubuş dərhal gəlib yanında dayanır və gözlərini eynəyinin altından bərəldərək ona tamaşa edirdi. Həsənalı isə, həmişə onu görən kimi, nə üçünsə gülümsəyirdi və o, gülümsədikcə, Qubuş narahat vəziyyət alırdı. Lakin, buna baxmayaraq, Həsənalı, moruq yığmaq üçün başqa uşaqlarla birlikdə gecə meşədə necə qaldıqlarını, özlərini ayı hücumundan qorumaq üçün növbə ilə tonqalın yanında necə keşik çəkib, necə qab dınqıldatdıqlarını nağıl etdikcə, Qubuş böyük maraqla qulaq asırdı.

– Bəs, orada nə yeyirsiniz? – deyə bir dəfə o, Həsənalıdan soruşdu.

– Plov! – təbiətən şən, zarafatcıl oğlan olan Həsənalı mənə göz vuraraq gülümsədi.

Sonra ciddiyyətlə əlavə etdi:

– Nə yeyəcəyik, hər kəs öz çörəyini xurcunundan çıxarıb közün üstündə qızardır, yeyir...

– Elə yavan? – deyə Qubuş təkrar soruşdu.

– Yavan, ya da pendirlə-zadla...

– Bəs susuzlayanda?..

– Susuzlayanda da ağzımızı dirəyib bulaqdan iç ki, içəsən...

Biz bu söhbətdə ikən hay düşdü ki, doktor gəlir, çadırlarımızın lap yanına qəhvəyi bir «Pobeda» endi. Yaylağa gələndən bəri daha da kökəlmiş xala, Zərif xanım və Qubuş bordağa bağlanmış qaz kimi yanlarını basa-basa yüyürüb maşını dövrəyə aldılar. Maşından təxminən əlli yeddi yaşında, ortaboylu, qırmızıyanaq, xoşsifət bir kişi düşdü. Onun əynində dəb ilə tikilmiş çesunça kostyum, başında qara lentli hasir şlyapa vardı.

Doktor mehribanlıqla gülümsəyərək oğlunun üzündən öpdü, qadınlarla əl tutdu.





Xalanın görkəmi çox təntənəli idi. O, arada bir fürsət tapıb mənə dedi:

– Doktor «Pobeda»nı təzə alıb.

Sonra məni itələyərək:

– Bo... y, niyə gedib doktorla görüşmürsən? – deyə əlavə etdi.

Tanış olmasaq da, irəliləyib doktora «xoşgəldin» elədim. O, məni çoxdan tanıyırmış kimi gülümsəyərək əlimi sıxdı.

... Həmin günün səhəri məni də nahara dəvət etmişdilər. Əmin isə meşədə idi. Biz palıd ağacının altında qoyulmuş ağ örtüklü stolun ətrafında əyləşmişdik. Ağ ipək köynək geymiş doktor tünd-qırmızı qalstuk bağlamışdı. Onun təraş edilmiş çəhrayı üzü, ətirlənib geri daranmış çal saçları, işıqlı qonur gözləri nəşə ilə təravət saçırdı.

Doktor, mənim də ağaran saçlarıma baxıb gülümsədi və başını tərpədərək:

– Daha qocalıq qapımızı döyür, – dedi. (Hərçənd aramızda iyirmi üç-iyirmi dörd il yaş fərqi var idi, ancaq nə olsun ki...)

– Hələ qocalıq hara, siz hara, – dedim.

Doktor bərkdən gülərək məmnun halda Zərif xanıma baxdı, sonra moruq mürəbbəsi ilə dolu qabı götürüb mənim qabağıma qoydu.

– Rica edirəm bundan buyurun, – dedi.

Çaydan sonra bütün dəm-dəsgahı ilə plov gəldi. Doktor bərk acmış olduğunu söyləməsinə baxmayaraq, lap az yeyib geri çəkildi.

– Həmişə belədir, yeməyi yoxdur, – xala mənə pıçıldayıb, «ah» çəkərək başını buladı.

Zərif xanım, Qubuş və xala isə yaxşı yeyirdilər.

Əvvəlcə Qubuşa bir dərin boşqab cücə suyu içirtdilər. Sonra para toyuqla bir iri nimçə yağlı plov yedirtdilər. Onun üstündən bir dərin boşqab küftəli dovğa içirtdilər. (Xalanın dağkeşnişi ilə bişirdiyi dovğaya söz ola bilməzdi.) Dovğanın üstündən yarım litrdən artıq tutan bir dolça kisel təqdim etdikdə, Qubuş:

– Ə... – deyə hər zaman dilxor vaxtlarında olduğu kimi qəribə bir səs çıxartdısa da, Zərif xanımın təzyiqinə davam gətirməyib onu da içdi. Kiselin üstündən təzə moruq, yay armudu və qarpız verdilər. Qubuş bunları etirazsız yedi. Lakin meyvədən sonra ona şəkərçörəyi verəndə, Qubuş yenə də «ə...» deyə bir qəribə səs çıxartdı. Doktor isə, bu mənzərəni seyr edərək gülümsəyirdi.

Xala ilə Zərif xanım bir-birinə macal vermədən Qubuşa deyirdilər:

– Ye!

– Ye!

Nəhayət, Qubuş bir-iki dənə şəkərçörəyi də yedi və birdən «su»

deyə elə səsləndi ki, doğrusu, mən qorxdum. Dedim, birdən uşağın halı xarab-zad olar.

Xala su əvəzinə Qubuşa bir stəkan meyvə suyu verəndə, o bu dəfə lap bərkdən «ə» eləyib arvadın qolunu itələdi, meyvə suyunun yarısı çalxalanıb yerə töküldü.

– Qubuş! – deyə doktor mehribanlıqla gülümsədi.

Büsbütün özündən çıxaraq üsyan etmiş Qubuş böyük dolçanı «Turşsu» ilə doldurub başına çəkəndə, xala ilə Zərif xanım diksindi, «Qubuş!» deyə hərəsi uşağın bir qolundan yapışdı.

– Sənə su içmək olmaz... Burax.

Nə üçün Qubuşa suyun zərər olduğunu bilə bilmədim. Ancaq Qubuş ikiəlli tutduğu dolçanı ağzına elə möhkəm dirəmişdi ki, onu qoparmaq mümkün deyildi. O, suyu yana-yana içir, içdikcə eynəyinin altında bəbəkləri fırlanırdı.

Nəhayət, Qubuş naharı bitirərək, böyük çətinliklə qalxıb çadıra girdi. İndi onun istirahət saatı idi.

– Yatmağı necədir? – doktor onun ardınca baxaraq arvadından soruşdu.

Zərif xanımın ağzı məşğul olduğundan, xala cavab verdi.

– Çox yaxşıdır, maşallah. Sutkada on iki-on üç saat yatır...

Zərif xanım isə hey yeyirdi. Heç kəsə – nə mənə, nə ərinə fikir vermədən, söhbətimizə müdaxilə etmədən yeyirdi. Toyuğun budu, yemişin kəhrəba kimi sarı dilimi, Həsənalının dağlardan yığıb gətirdiyi iri qırmızı moruq, soyutma qoyun ətinin seçmə tikələri onun kök barmaqları arasında çox yeməli görünürdü. Şair gözəl bir mənzərəyə və ya çiçəyə necə heyranlıqla baxırdısa, aşiq qarşısında dayanmış sevgilisinin gözəlliyindən necə vəcdə gəlirdisə, Zərif xanım da yağlı barmaqları arasında tutduğu tikəyə elə bir həzz ilə baxırdı.

Onun necə zövq və ilhamla yediyinə tamaşa etdikdə, yemək məsələsinin bu qədər coşğun bir ehtiras olduğunu indiyə qədər duyub-hiss etmədiyimə təəccüblənirdim.

Nahardan sonra ta axşam saat yeddiyə qədər Səfiyevlərin çadırında xorultudan və ağır-ağır alınan nəfəsdən başqa heç nə eşidilmirdi. Yeddi tamamda isə, hamısı yenə də stolun ətrafında əyləşib çay içirdi, yenə də gözəl-gözəl yağlı çöräklər...

Mən, doktorgilin şam yeməyinin təsvirindən sərf-nəzər edərək, onlarla olan yaylaq qonşuluğumuzun şirin xatirələrini yalnız kiçik bir əhvalatın hekayəsi ilə bitirmək istəyirəm.

Bir gün biz Əminlə çadırın qapısında oturub, topladığımız çiçəklər və otlar haqqında qeydlər edirdik. Birdən səs-küy düşdü. – «Ə...» – deyə Qubuş elə bağırdı ki, sanki uşağı ilan çaldı. Zərif xanım-





la xala çadırdan çıxaraq dəhşət içində yuxarıdakı balaca meydançaya tərəf yüyürdülər. Biz də qalxıb ora getdik. Uşaqlarla əhatə olunmuş Qubuş gözlərini yumub gücü gəldikcə bağırırdı. Rəngləri ağarmış Zərif xanımla xala, hərəsi Qubuşun bir qolundan yapışaraq:

– Nə olub? Nə olub? – deyə vahimə içində dalbadal soruşdular.

Qubuş qışqıra-qışqıra Həsənalını göstərib:

– Bu vurdu... – dedi.

– Necə?!

Fövqəladə heyrətlə deyilən bu söz xala ilə Zərif xanımın ağızlarından bir anda çıxdı və onlar Qubuşu buraxıb, Həsənalının qarşısında dayandılar.

– Sən necə cəsarət eləyib ona əl qaldırırsan, – deyə Zərif xanım gözlərini iri-iri açdı.

Həsənalı qaşqabağını sallayaraq:

– Bəs, o, nə cəsarət eləyib mənə «yolçu oğlu» deyir?

– Nə olsun deyir? Xan oğlusan? – xala guruldadı, – lap əlinin də içindən gəlir.

Həsənalı böyük adamlar kimi ciddi cavab verdi:

– Əlinin içindən gələr, elə də sillələr yeyər!

– Necə? – yenə də hər ikisi eyni anda səslənib, Həsənalını yumruqlamağa başladı.

Biz onları zorla aralaşdırdıq. Oraya toplaşan uşaqlardan biri Həsənalıya qəhmər çıxaraq:

– Niyə vurursunuz, xala? – dedi. – Təqsir sizin oğlunuzda oldu. Xalqı niyə təhqir edir?

Xala istehza ilə uşağa cavab verdi:

– O sizin tayınız deyil, bala. Onun atası hər ay elə təkcə dərsindən on beş min alır.

Uşaqlar bir-birinin üzünə baxıb gülüşdülər.

– Nə olsun? – deyə Həsənalı cavab verdi. – Mənim atam da bölgüdə otuz min qazanıb.

Xala daha dərin bir istehza ilə:

– Həə... – deyə uzatdı. – Ona görə səkkiz verstdən gəlib burada moruq satırsan?

– Ay arvad, uşaqla niyə elə ağız-ağıza verirsən? – Yaxındakı çadırın qapısında dayanmış bir qadın gülümsədi.

– Gəl bəri, – deyə Zərif xanım anasını dartışdırdı.

Onlar Qubuşu götürüb getdilər.

Doktor yaxası-başı açıq, çadırın qapısında dayanmışdı. Birinci dəfə idi ki, mən onun çəhrayı üzünü belə ciddi və həyəcanlı görürdüm.

– Bir yeri-zadı yaralanmayıb ki? – doktor qorxmuş halda arvadlardan soruşdu.

– Heç bir şey olmayıb, – deyə xala cavab verdi.

Sonra Qubuşdan soruşdu:

– Qorxub-eləmədin ki?

Qubuş dilxor halda səsləndi:

– Ə...

– Tez ona qənd şərbəti verin! – deyə doktor əmr etdi.

... O gözəl Turşsu günlərindən neçə illər gəlib keçmişdi. Mən bu müddətdə nə söhbətcil xalanı görmüşdüm, nə Qubuşu, nə də xoşsifət doktorla onun hörmətli rəfiqəsini. Lakin qəribə bir təsadüf bizi ikinci dəfə görüşdürdü.

Bir gün Əmin mənə zəng edərək, təzə mənzil aldığını xəbər verdi. Mən dostumun yeni mənzilini görmək üçün onlara getdim. Üçüncü mərtəbəyə çıxanda, soldakı açıq qapıdan eyvanda oturmuş qoca bir qadın gördüm. O, ayaq səsləri eşidərək üzünü döndərəndə xala olduğunu tanıdım. Ayaq saxlayıb sevinclə səsləndim:

– Xoş gördük!

Xala ayağa qalxaraq bir neçə saniyə üzümə diqqətlə baxdı. Məni tanıdıqda heç təəccüb etmədən:

– Xoş günün olsun, – dedi. – Yoldaşın da bura köçüb. Ona üç otaq veriblər. Dünən təzə mebel alıb. Yaxşı, sən harda olursan?

Mən onun sualını cavabsız buraxaraq:

– Necəsən, xala? – deyə soruşdum. – Doktor, uşaqlar necədirlər?

Xala başını buladı:

– Doktor naxoşdur, özüm də təngnəfəs olmuşam.

Xala xeyli qocalmış, üzünün əti sallaq-sallaq olmuşdu.

O məni içəri dəvət elədi:

– Gəl bir doktorla görüş.

Xala ilə birlikdə doktorun yanına gəldik. O, iri məxmər kresloda oturub başıaşağı nə isə fikirləşirdi. Məni tanıyıb gülümsədi. Lakin bu təbəssümdə, nə isə, bir qüssə sezilirdi. Onun yanındakı boş stulda oturdum. Doktor sağ qolunu göstərərək:

– Bir ilə yaxındır ki, hərəkətsizdir, – dedi.

Otağın pəncərələrinə bahalı pərdələr asılmış, içərisinə qədimdən qalma ağır mebellər qoyulmuşdu. Böyük salonun yarımqaranlığı içində doktorun üzü solğun, cansız və həyəcanlı görünürdü.

Yan qapıdan Zərif xanım daxil oldu. O, bu keçən illər ərzində daha da kökəlib yaşa dolmuşdu. Saçında ağ tüklər görünürdü. Üzünün rəngi, bir növ, təlx olmuşdu. Məni görən kimi tanıdısa da, tamamilə biganə salamlaşdı. Elə bil ki, canlı insan deyil, evindəki əşya kimi cansız bir şey görürdü. Elə bil ki, aldığı intibalar onun mənəvi aləmində heç bir reaksiya, heç bir fikir, heç bir tərpəniş doğurmurdu.





Biz doktorla ordan-burdan söhbət edərkən otağa, gözlərində eynək, qara bığlı, həddindən artıq kök bir oğlan girdi. Doktorla xalanın ona dikilmiş gözlərində anlaşılmaz bir qorxu hiss olunurdu. Zərif xanımın üzü isə, hər kəsə qarşı olduğu kimi, oğluna qarşı da hərəkətsiz və biganə idi.

– Yaxın gəl, Qubuş, gəl görüş, yadında deyil?.. Turşsu... – deyə xala çəkinə-çəkinə ona müraciət etdi.

Qubuş eynəyinin altından bəbəklərini fırladaraq bir qədər mənə baxdıqdan sonra irəliləyib əl tutdu.

Anası ona:

– Naharın bayaqdan hazırdır, – dedi.

– Ə... – deyə Qubuş mənim çoxdan eşitmədiyim o qəribə səsi çıxararaq, Zərif xanımın işarə elədiyi otağa deyil, o birisinə girdi.

Araya ağır, gərgin bir sükut çökdü. Qubuşun cavabı ilə xala da, doktor da, hətta, Zərif xanım da fikrə getmişdilər. Bayırda gün batdığı üçün evin içi xeyli qaranlıqlaşmışdı.

Mən ayağa qalxaraq xudahafizləşib çıxdım. Pəncərələri taybatay açılmış, böyük çilçıraqla işıqlanan otağa girib, Əmini təzə pijamada, kefi kök, üzü gülən görəndə qeyri-iradi olaraq dərindən nəfəs aldım. Əmin əlimi sıxıb şən halda dedi:

– Xəbərin varmı, xala ilə qonşuyuq.

Başımı tərpətdim və nə üçünsə mənə elə gəldi ki, xalagili gördüyüm vaxtdan bir dəqiqə deyil, tamam bir əsr keçmişdir.

*1955*

## ~ ŞƏHƏRDƏN GƏLƏN OVÇU ~

**O**vçu Piri Haramılara çatanda dan yerindən soyuq külək əsdi. Üfüqdən uzanmış şüalar altında parlayan körpə payız otları üşüyürmüş kimi titrəşdi.

Ovçu Piri, yaxındakı şehli yovşan koluna qonan çobanaldadandan gözünü çəkib, başını qaldırdığı zaman, aralanmaqda olan duman içindən, başqa bir ovçunun çıxdığını gördü. Onun əynində içi xəz gödəkcə, ayaqlarında iri əsgər çəkmələri var idi. Azca yana əyilmiş gümüşü papağının yanlarından vaxtından tez ağarmış qıvrım saçları görünürdü. Sol əlini belinə boş bağlanan qatara keçirmiş, sağ əli ilə, çiynindən asılan təzə qoşalülənin qayışından tutmuşdu.

İri çal bığları onun qarabuğdayı üzünə yetkin, ağır bir ifadə verirdi.

– Sabahın xeyir, ovçu qardaş, – deyə o, bərkdən səsləndi. – Papirosun yoxdu?

Ovçu Piri ayaq saxlayıb, qədim taxta qutusunu çıxartdı:

– Tütünüm var...

– Bəri ver görüm, – deyə dumandan çıxan ovçu ona yaxınlaşdı. – Papirosum yadımdan çıxıb qalıb maşında... nəfəsim lap qaralıb...

O, kişinin uzatdığı qutunu alıb, üstündəki naxışı pozulmuş şəkilə ani bir nəzər salaraq, papiros bükdü.

– Yaxşı tütündür, əldə doğranmağına baxma. Maşın hayanda qalıb ki?

– Ağcabədidən bir az bəri, kəndin yanında.

– Görünür, şəhərdənsən...

Ovçu papirosunu yandırıb dərin bir nəfəs alandan sonra:

– Bəli, – dedi. – Şəhərdənəm, bəs, sən haradansan?

– Mən də Lənbərandan...

Ovçu gülümsədi:

– Hə... Hacının vətənindənsən.

Ovçu Pirini birdən-birə od götürdü:

– Əşi, vallah, Hacı Qara Qarğabazardandır. Sonradan gəlib Lən-





bəranda sövdəgər dükanı açıb, rəhmətlik babam özü onun müştərisiymiş... Amma di gəl, kimə deyirsən «lənbəranlıyam», başlayır Hacı Qara belə getdi...

– Deməli, Hacını vətəndaşlığa qəbul eləmirsən, – deyə şəhərdən gələn ovçu qəsdən zarafatını davam etdirdi.

Lakin Ovçu Piri bu dəfə sakit və məğrur ifadə ilə cavab verdi:

– Bizim tərəflərdə elə adam olmaz...

Elə bu zaman otların arasından bir dovşan çıxıb qaçmağa başladı. Ovçu Piri tüfəngini hərləyib, demək olar ki, heç nişan almadan atdı. Xeyli aralanmış dovşan bir an havaya sıçrayıb yerə düşdü və bir neçə dəfə çapalayıb hərəkətsiz qaldı.

– Hə, necədir? Ovçu Piri gilizi çıxara-çıxara zarafatyana bir əda ilə şəhərdən gələn ovçuya baxdı.

O, cavab verməyə macal tapmamış, pırıltı ilə havaya iki turac qalxıb hərəsi bir tərəfə uçdu. Şəhərdən gələn ovçu tüfəngi hərləyib, Ovçu Piri kimi, heç gözləmədən əvvəlcə quşun birini, sonra dönüb o birini vurdu. Dalbadal iki tappıltı eşidildi.

– Bəs, bu necədir? – deyə şəhərdən gələn ovçu da eyni zarafatla Ovçu Piriyə baxdı.

Onun mor rəngli gözəl gözlərinin gülüşündə, nə isə, sirayətedici, dərin və xoş bir ifadə var idi. Bir an Ovçu Piriyə elə gəldi ki, onu haradasa görmüşdü, haradansa tanıyırdı.

– Sözüm yoxdur, görünür, atansan, zəhmət olmasa, o tüfənginə bir baxım...

Ovçu Piri öz tüfəngini çiyninə salaraq, şəhərdən gələn ovçunun tüfəngini alıb, diqqətlə nəzərdən keçirdi. Günəşdən, ayazdan yanıb qaralmış qumral bığlı, arıq və sağlam üzü birdən-birə canlandı. Gözləri ehtirasla parladı. Ovçu Piri bir daha tüfəngi nəzərdən keçirib dedi:

– Bunlar yaxşı tüfənglərdir... Mən də bir adamda bunun birinin yerini eləmişəm, ancaq zalım oğlu üç mindən aşağı enmir ki, enmir... Gərək, nə cür olsa, lap arvadın cehiz xalısını satmalı da olsam, pul düzəldib onu alam...

Ovçu Piri çat-çat olmuş qabarlı əlini ehmalca tüfəngin lüləsinə çəkərək sahibinə qaytardı.

Onlar dovşanla turacları götürüb, şehli otları ayaqlaya-ayaqlaya yollarına davam etdilər.

İndi duman tamam çəkilib getmişdi. Yeni göyərmiş otların, yayda qurumuş tikanlı qanqalların arasında tək-tük sarı, firuzə rəngli çiçəklər görünürdü. Havada boz yovşanın kədərli ətri duyulurdu. Solğun payız günəşi ilə işıqlanan düzənlik, elə bil, xəyala dalmışdı.

– Eh, – Ovçu Piri şirin həsrət və qibtə dolu səslə dedi, – biz gəldi-gedərik, sən yaşa, dünya.

– Bu haradan yadında qalıb, ay ovçu qardaş? – Şəhərdən gələn ovçu sanki diksinərək soruşdu.

– Heç bilmirəm haradan yadımda qalıb... Ancaq yaxşı deyib... Baxıram, fikir eləyirəm ki, mənim cavan çağlarımda burada at oynadan igidlər hanı?..

İndi şəhərdən gələn ovçunun səsində gərgin və həyəcanlı bir hal var idi...

Ovçu Piri qutusunu ona verərək sözünə davam etdi:

– Eh, bu Haramı nə oğullar görüb...

Lakin şəhərdən gələn ovçu onu dinləmirdi. Gözləri, tütündən saralmış barmaqları arasında bükdüyü papirosunda, xəyalı isə uzaqlarda idi.

– Bəli, – deyə, nəhayət, o, nəzərlərini kişiyə sarı qaldırıb, başını ağır-ağır tərpətdi.

Ovçu Piri onun bu hərəkətindən bir şey anlamadı. Görünür, o, zehnindən gəlib keçən hansı bir fikri isə ucadan təsdiq edirdi. Papirosunu yandırıb bir-iki qullab vurandan sonra sanki real həyata qayıtdı.

– Əqlin nə kəsir, bu yanlarda bir şey tapacağıq?

– Görək...

Qabaqda gedən Ovçu Piri birdən ayaq saxlayaraq, əlini gözünün üstünə qoyub diqqətlə irəliyə baxdı. Sonra lalətək qızaran üfüqü şəhərdən gələn ovçuya göstərərək yavaş və sakit səslə:

– Ceyrandı... – dedi.

Şəhərdən gələn ovçu xeyli uzaqda, düzənlə göyün birləşən yerində bir dəstə ceyran gördü. Onlar sükut içində dayanıb nəyi isə dinləyirdilər.

– Aşağı yat... – Ovçu Piri yerə çökərək şəhərdən gələn ovçunun ətəyini dartdı. Lakin birdən elə bil ki, sürü nədənsə ürkūb ildırım sürəti ilə gözdən itdi.

– Bay... – deyə Ovçu Piri təəssüflə səsləndi.

Ancaq çox çəkmədi ki, sürü yenidən göründü. Ceyranlar bir an dayanıb bir-birinə sığnaq verdilər. Sonra tərpənib o yandan bəri qaçmağa başladılar.

Ovçu Piri sevindi:

– Düz üstümüzə gəlirlər. Ancaq balaca qımıldandın, heç nə... Yüz addım qalmış atacağıq...

Hər ikisi üzü üstə uzanıb, diqqətlə irəliyə baxırdı. Qabaqda qaşqa təkə gəlirdi. Sürü yaxınlaşdıqca, onların açıq-xurmayı, yumru bədənləri daha aydın görünürdü.





Ovçu Piri yoldaşını dümsüklədi. Bu «hazır ol!» demək idi. Lakin şəhərdən gələn ovçu bunu hiss etmədi. Onun riqqət, sevinc və heyrətlə baxan gözləri kolların, uca qanqalların üzərindən atlanaraq şırıltı ilə gələn sürüdə idi. Onların şəvə kimi qara dırnaqları tez-tez havada parlayırdı. İndi şəhərdən gələn ovçu onların balaca, qəşəng ağızlarını, iri qara gözlərindəki mehriban və ürkək ifadəni aydınca seçirdi. Onlar incə qulaqlarını qısıb, dalbadal havaya atlandıqca, düzənliyin nəhayətsizliyi fonunda qəribə mənzərə yaranırdı.

Ovçu Piri nişan alarkən, şəhərdən gələn ovçu gözlərini ceyrandan çəkməyərək, qeyri-iradi bir hərəkətlə onun qolundan yapışıb:

– Dayan! – deyə həyəcanla əmr etdi.

Dəstə, səsdən ürkərək, burulub bir göz qırpımında uzaqlaşdı.

Ovçu Piri əvvəlcə şəhərdən gələn ovçuya, sonra da əldən çıxmış ceyranların ardınca baxdı. Sonra yenə şəhərdən gələn ovçuya sarı dönərək:

– Əşi, niyə dayan! – deyə təəccüblə soruşdu.

Sürünü nəzərləri ilə müşayiət edən şəhərdən gələn ovçu cavab vermədi. Ovçu Piri dikəlib oturdu:

– Vay, evin yıxılsın, heyf, heyf.

Sürü tamam gözdən itəndən sonra şəhərdən gələn ovçu dərin bir nəfəs alaraq, üzünü Ovçu Piriyə döndərib:

– Nə buyurdun? – deyə soruşdu.

– Nə buyuracağam.

Ovçu Piri təkrar, təəccüblə ona baxdı. Sonra, yuxudan təzə ayılan adamla danışırmış kimi bərkdən əlavə etdi:

– Bir sürü ceyranı əldən çıxartdın.

– Hə... gözəl sürü idi, – deyə şəhərdən gələn ovçu təsdiq edərək, tüfəngini götürüb ayağa qalxdı.

Elə bil ki, Ovçu Piriyə yenidən od vurdular:

– Hələ bir deyirsən də... payızın təzə otunu yeyib o qədər kökəlmişdilər ki, dərilərindən yağ damırdı... heyf...

Şəhərdən gələn ovçu tüfəngini çiyninə qoyaraq qabaqda gedir, Ovçu Piri isə, ürəyində deyinə-deyinə onu təqib edirdi.

Birdən şəhərdən gələn ovçu, papağının dalını qaldıraraq, islıqda «Çobanı» çalmağa başladı. Onun bu laübalı hərəkəti əvvəlcə Ovçu Pirini hirsləndirib özündən çıxartdı: «Heç gör bu da sözdür?.. Dayan...» Ovçu Piri bu cür gileylənir və ayaqlarının uclarını bir-birindən aralı qoya-qoya irəlidə gedən şəhərlinin islıqda çaldığı «Çobanı»ya qulaq asırdı... və qulaq asdıqca sanki əsəbləri yavaş-yavaş yumşalır, otuz-qırx il qabaq həmin bu yerlərdə qoyunu yaylıma çıxartdığı aydınlıq gecələr yadına düşürdü.

O, nəhayət, tamam yumşalaraq düşündü: «Qəribə işdi, şəhərli olasan, amma bu cür «Çobanı» çalasan?»

– Gözəl sürü idi, – deyə şəhərdən gələn ovçu islığı kəsərək, bayaqkı sözlərini təkrar etdi.

***

Axşama yaxın bərk yağışa düşdükləri üçün şəhərli maşınının yanına gedə bilməyib, Ovçu Pirinin təklifi ilə onlara getdi.

Evə daxil olduqları zaman elə bil ki, bütün günü bir dovşanla üç-dörd turacdan başqa heç nə vura bilməmiş Ovçu Pirinin dilxorluğu bir anda sovuşdu. Arvadı Gülgəzə:

– Tez ol, – dedi, – çaydan-çörəkdən hazırla. Qonaq səhərdən acdı...

– Yaman yorulmuşam, ovçu qardaş, – deyə şəhərdən gələn ovçu tüfəngini divara söykəyib, arvadın saldığı döşəkcədə əyləşdi.

– Mitəkkə-yastıq da qoy, – deyə Ovçu Piri arvadını səslədi.

Sonra özü də gəlib qonağın yanında oturaraq:

– Ayağını soyun, rahatlan, – dedi, – bu saat bir yaxşı çay içərik, yorğunluğumuz çıxar.

– Bir de görüm, acığın yatdı, ya yox? – şəhərdən gələn ovçu gözəl, yorğun gözləri ilə gülümsədi.

– Canın sağ olsun, əşi, – deyə Ovçu Piri mərdanə cavab verdi.

Onların qabağına təmiz ağ süfrə salan Gülgəz arvad ərindən soruşdu:

– Nə olub, əşi?

– Heç nə, işini gör, – Ovçu Piri yuxa bükümü ilə dolu boşqabı götürüb, qonağa yaxın qoydu.

***

Səhər Ovçu Piri oyananda şəhərdən gələn ovçu çıxıb getmişdi.

– Nə qədər elədim çaya qalmadı, – deyə Gülgəz xəbər verdi, – özünün tüfəngini qoyub səninkini götürdü, dedi kişiylə dəyişmişik.

– Necə? – Ovçu Piri qulaqlarına inanmırmış kimi tələsik qalxıb şəhərlinin divara söykənikli qalmış qoşalüləsini əlinə götürdü...

– Mən də, – deyə arvad sözünə davam etdi, – məəttəl qaldım ki, nə əcəb bu tüfəngi sənin köhnənə dəyişməyə razı olub.

Ovçu Piri hələ də əlində tutduğu qoşalüləyə xeyli baxdı. Sonra başını tüfəngin üstündən qaldırmadan ağır, ciddi ifadə ilə:

– Kişinin adını da soruşmadım... – dedi.





***

Bu hadisədən neçə vaxt sonra, sərin bir yay axşamı Ovçu Piri «öz zağlı qoşalüləsini» onun otuz ildən qalma köhnə tüfəngi ilə dəyişib xəbərsiz gedən o qəribə ovçunun əhvalatını klubun qabağına toplaşmış kəndlilərə yenicə nağıl edib qurtarmışdı ki, radioda böyük Azərbaycan şairi Səməd Vurğunun ceyranlar haqqındakı məşhur şerini oxudular. Xeyli müddət kimsə dinmədi. Hərənin nəzəri bir nöqtəyə dikilmişdi.

– Vah... – xəyal aparmış Ovçu Piri qəflətən səsləndi, – elə bil, kişi hamısını öz gözü ilə görüb yazıb...

*1956*

01/01-20

# ~ YUN ŞAL ~

«ZİL» markalı maşınımız sonsuz kimi görünən geniş çölü keçərək, nəhayət, axşam toran qovuşan vaxt çox da hündür olmayan dikdirin üzərində yerləşmiş üç-dörd balaca, kərpic evdən ibarət fermaya çatdı.

Mən sürücü Mikolaya:

– Düş gör, – dedim, – Südabə adlı qız bu evlərin hansında yaşayır?

– Evdə olsa nə deyim?

Mən bir qədər fikirləşəndən sonra:

– De ki, qohumlarınızdan biri gəlib, sizi görmək istəyir...

İri gövdəli sürücü Mikola maşından düşərək, palçığa bata-bata altdan-yuxarı yüyürdü və yoxuşun başına çatıb, sükut içində divarları ağaran evlərin arasında görünməz oldu, mən papiros çıxarıb yandırdım. Çox çəkmədi ki, dikdirin üstündə sürücü ilə yanaşı, ucaboy bir qadın da göründü. O, əlini qaranlıq üfüqə doğru uzadaraq, sürücüyə, nə isə dedi. Yavaş yeriməyə hövsələsi çatmayan Mikola qayıdıb üstdən-aşağı yuvarlandı, yoxuşun yarısında sürüşüb şappıltı ilə yerə dəyərək:

– «Çort», – deyə səsləndi.

Dərhal ayağa qalxaraq maşına çatanda səbrsizliklə soruşdum:

– Nə oldu?

– Deyir, evdə yoxdur, o qaralan təpənin dalında, ağıllardadır.

– Maşını döndər oraya.

Evlərlə ağılların arası daha bərk palçıq olduğundan, maşın bir kilometrdən də az məsafəni xeyli çətinliklə gəlib çıxdı.

İri qoyun itləri qəzəblə hürüşərək, tökülüb maşını dövrəyə aldılar.

– Ay it! Ay it... – kərpic hasarın ardından səslər eşidildi.

Sonra iki çoban yüyürüb gələrək, itləri qovub bizə yaxınlaşdı.

– Südabə xanım burada işləyir? – deyə Mikola başını kabinədən çıxarıb soruşdu.





– Bəli, bizim zootexnikimizdir, – başında saçaqlı dəri papaq, çiynində yapıncı olan çoban cavab verdi.

– Deyin şəhərdən qohumları gəlib, onu görmək istəyir.

Yapıncılı çoban, yaşca özündən kiçik yoldaşına dönərək:

– Yüyür Südabə bajını çağır, – dedi.

Sonra mənə müraciətlə:

– Düşün, içəri buyurun.

– Sağ olun, – dedim, – yol üstəyik.

Ağıldan boğunuq tüstü qalxır və yuyulmamış yun qoxusu gəlirdi.

Südabə gənc çobanla birlikdə tələsik addımlarla maşına yaxınlaşdı.

– Məni soruşan kimdir?

Maşının qapısını açaraq:

– Mənəm, – dedim.

O, bir neçə saniyə heç nə demədi.

Sonra:

– Sən hara, bura hara? – deyə təəccüblə pıçıldadı.

Mən maşından düşən işıqda onun ağ, qızılgül ləçəyitək zərif üzünə baxaraq:

– Gəl içəri, bayır soyuqdur, – dedim.

Və o, tamam qeyri-şüuri bir hərəkətlə qalxıb yanımda oturanda qapını örtdüm.

Yapıncılı çoban, maraqla bizə baxan gənc yoldaşına him elədi və onlar dönüb ağıla getdilər.

– Mən də qoyunlara baxmaq istəyirəm, – deyərək Mikola, yəqin ki, bizi tək qoymaq lazım gəldiyini hiss edib kabinədən çıxdı.

– Get, – dedim. – Ancaq mənim kim olduğum barədə onlara heç nə demə.

Biz tək qaldıq.

– Niyə bu vaxtacan evə getməmisən? – deyə soruşdum.

– Qoyunlarımız doğmağa başlayıblar...

– Sənin üçün burada çox çətin keçmir ki?

– Əvvəllər çətin keçirdi... İndi öyrəşmişəm.

– Evinizdən məktub alırsanmı?

– Alıram, tez-tez alıram.

– Nə üçün mənim məktubuma cavab yazmadın?

Üzümə ani və məyus bir nəzər salaraq dinmədi.

– Niyə susursan, Südabə?

– Axı, nə mənası var idi ki?

Doğrudan da, nə mənası var idi? Cavab yazsaydı belə, bu məktublaşma nə qədər davam edə bilərdi? Mən ki, heç bir zaman ev-

lənməyəcəyimi ona mərd-mərdanə demişdim. Ona görə yox ki, Südabə pis qız idi, yox! O, Bakıda beş qızın biri idi. Ona görə ki, gələcək üçün mənim bir sıra elmi planlarım var idi və o əqidədəydim ki, bunların həyata keçirilməsi üçün, hələlik, subay qalmağım lazımdır. Lakin, bununla belə, onun «nə mənası var idi ki...» deməsi ürəyimi ağrıtdı.

– Sən incimәkdə haqlısan, – dedim. – Mən sənin şəhərdə qalmağına kömək eləmədim.

– Mən ki, bu barədə sənə heç bir söz deməmişdim.

– Yadındadırmı, son kursda oxuduğun zaman bir dəfə işarə vurmuşdun.

– İşarəni başa düşməmək də olardı, – o, yenə də üzümə ani bir nəzər salaraq, zarafatla cavab verdi.

– Yox, mən başa düşmüşdüm, mən anlayırdım, ancaq... bilirsənmi, o zaman mən ağır bir çətinlik qarşısında qalmışdım. Mən sizin ikinizdən birinizi – ya səni, ya da bacımı şəhərdə işə düzəldə bilərdim. Anam, qohumlar... (Südabə ilə bacım institutu bir yerdə qurtarmışdılar.)

O mənim sözümü kəsib, bacımı soruşdu:

– Firəngiz necədir?

– İşləyir. Bu yaxınlarda toyları olacaq.

Südabə mehribanlıqla gülümsədi:

– Bilirəm. Özü yazmışdı.

– Məgər, siz məktublaşırsınız?

Qız başı ilə təsdiq etdi.

– Bəs, nə üçün Firəngiz heç mənə deməyib?

– Mən xahiş etmişdim ki, deməsin.

– Niyə?

– ...

Mən əsl məqamın çatdığını güman edərək:

– Südabə, – deyə təntənə ilə bildirdim, – sizin nazirlikdən xahiş etmişəm ki, sənin şəhərə dəyişilib, elmi sahədə işləməyinə icazə versinlər. Axı, sən institutu əla qiymətlə bitirmisən.

– Təşəkkür edirəm, ancaq nahaq zəhmət çəkmisən.

– Bəlkə, mənə acığın tutduğu üçün belə deyirsən?

O, kədərlə başını buladı. İkimiz də susub dinmirdik.

O, gözlərini qaldırıb mənə uzun bir nəzər saldı. Sanki üzümdə hər bir cizgini diqqətlə oxumaq istəyirdi.

– Şəhərə bir sözün-zadın yoxdur ki?

– Yoxdur, – deyə eyni mehribanlıqla cavab verdi.

Sonra birdən tərəddüdlə əlavə etdi:





– Anam üçün bir şal toxumuşam. Dedim, bəlkə...

– Ver aparım.

– Əziyyət olmaz ki?

– Nə əziyyət olacaq, sürücü ilə göndərərəm.

– Burada deyil, evdədir.

– Eybi yoxdur, gedərik, götürərəm.

Siqnalı basdım. Mikola ilə gənc çoban da gəldi və o, bu dəfə mənə əhəmiyyət vermədən təmiz Qarabağ şivəsi ilə:

– Südabə bajı, – deyə sevinclə bildirdi. – Qumral qoyunun bir cüt əkiz balası oldu.

Qız yerindən qalxaraq:

– Bir dəqiqə, – o, məndən üzr istəyib maşından düşdü.

Və gənc çobanla birlikdə qaranlıqda palçığı şappıldada-şappıldada ağıla sarı yüyürdü. İki-üç dəqiqədən sonra qayıdaraq:

– Oy, Cəmil, – dedi, – elə qəşəngdirlər, elə qəşəngdirlər, baxsan, xoşuna gələrlər.

O, mənim adımı əvvəllərdə olduğu kimi, mehriban, doğma, əziz bir ahənglə çəkdi və mən onun zərif üzünə həyat və gözəllik verən gözlərinin dərinliklərində alışan qığılcımları yenidən gördüm. Lakin o, mənim baxışlarımı hiss edərək kirpiklərini endirib susdu. Yalnız maşın fermaya çatanda:

– Düş gedək qonağımız ol, – dedi.

– Birdən söz-həkət olar.

– Mən söz-həkətdən qorxmuram!.. Siz bir az dincələrdiniz, mən də anamgilə balaca bir kağız yazardım.

Bu dəfə etiraz etmədim. Maşından düşdük. İndi göz-gözü görməyən bir qaranlıq olduğundan, o, cibindən balaca əl fənəri çıxarıb yandıraraq, yolumuzu işıqlandırdı.

– Sənin fənərin də varmış? – deyə zarafat elədim.

– Burada fənərsiz keçinmək olmaz. Sovxozda balaca bir «HES»imiz var. İndi onu böyüdürük. Ondan sonra işimiz yaxşı olacaq, bizə də işıq verəcəklər.

O sürüşdü, əl atıb qolumdan yapışdı. Mən onun əlinin tanış təmasını hiss edərək, Bakıda, dəniz kənarındakı körpə akasiya ağacları arasında gəzdiyimiz yay axşamlarını xatırladım. O bilirdi ki, biz evlənməyəcəyik. Bununla belə, heç bir zaman mən onu kədərli görməzdim. Yalnız bir dəfə ağlamışdı. Özü də ürəkdən, yana-yana ağlamışdı. Buna səbəb də mən olmuşdum. Mən ona elçi gəldiyini və qızın rədd cavabı verdiyini bacımdan eşitmişdim.

Elçi göndərən yaxşı oğlan idi. Ağıllı, gözəl, elmli! Ona görə də, axşam akasiya ağacları yanında görüşdüyümüz vaxt, söhbəti hərləyib bu məsələnin üzərinə gətirərək:

– Nahaq rədd eləmisən, – deyə ürəkdən təəssüf elədim. – O, çox yaxşı oğlandır.

Qız ilan vurmuş kimi dayandı. Diqqətlə üzümə baxdı. Mən heç bir zaman onun gözlərində belə ifadə görməmişdim. Mənə elə gəldi ki, o bu saat qışqırıb dünyadakı pis sözlərin hamısını üzümə çırpacaq.

Lakin o belə etmədi. Ağaca söykənib ağladı, ağladı... Ürəyi boşalandan sonra bu barədə bir kəlmə də söz demədən, yenə də sakit halda qoluma girdi.

... Biz yoxuşu qalxaraq, Südabənin neft çırağı ilə işıqlanmış balaca və isti otağına daxil olduq. Qapıya yaxın yerdə kiçik dəmir soba yanırdı. Evin ortasında, üzərinə təmiz ağ süfrə salınmış miz, üç-dörd kürsü qoyulmuşdu. Köhnə arakəsmənin arxasında qızın çarpayısı yerləşmişdi. Pəncərənin qabağındakı balaca yazı stolunun üstündə batareya ilə işləyən bir «Rekord» qəbuledicisi, sellüloiddən qayrılmış şəffaf mürəkkəbqabı, «Azərbaycan kənd təsərrüfatı» jurnalının bir neçə nömrəsi və açıq kitab vardı.

Südabə mənim paltomu və papağımı alıb sadə taxta asqıya keçirdi.

– Əvvəlcə çay içmək istəyirsiniz, yoxsa...

– Yaman acıq, – dedim.

Sonra sobanın üstündəki balaca qalaylı qazana işarə ilə:

– Qorxuram, bundan bir şey olmasın, – deyə zarafat elədim.

İçəridəki ucaboylu qadın əyilib Südabənin qulağına nə isə pıçıldadı və qız gülümsəyərək:

– Xala sizin üçün plov bişirmək istəyir, – dedi.

– Çox sağ olun!

– Bu qonağın düyü xörəyindən xoşu gəlmir, – deyə o, stolun üstünə çəngəl-bıçaq qoyaraq qadına cavab verdi.

Sonra təmiz boşqablara çəkilmiş qovurmanı gətirib bizim qabağımıza düzdükdə:

– Bəs özünə? – deyə soruşdum.

– Özüm də oturacağam. Bu gün nahara gəlməyə macalım olmayıb.

Lakin o, bizim kimi həvəslə yemirdi. Ağzını yavaş-yavaş tərpədərək mənim necə iştaha ilə yediyimə tamaşa edirdi. Keçmişlərdə, təsadüfən bir yerdə nahar elədiyimiz zamanlarda olduğu kimi, xəfif, fərəhli bir təbəssümlə tamaşa edirdi.

Çörəkdən sonra Südabə bizə çay töküb verərək, özü evlərinə məktub yazmağa başladı.

Mən onun çoxdan manikürsüz, dibdən kəsilmiş təmiz dırnaqlarına baxırdım. Mən onun soyuqdan azca çatlamış əllərində indi sərt, yabanı bir gözəllik duyurdum. Mən ixtiyarsız olaraq, başımı qaldırıb onun üzünə baxanda isə diksindim... sanki bu mənim indiyə qədər görüb





tanımadığım tamam ayrı, yad və uzaq bir sima idi. Lakin, bununla belə, çırağın sarı ziyası ilə işıqlanmış həmin bu yad simada mənim dünyada birinci dəfə görüb hiss etdiyim heyrətli bir gözəllik var idi. O, tünd-şabalıdı saçlarını yumrulayıb sancaqlamışdı. Aşağı enmiş kirpikləri gözlərinin altını kölgələndirmişdi. Bu iri kölgədəki əsrarəngizlik, düz burnu, uzun və şəffaf boğazının sol tərəfindəki qara xal onun ağ, qızılgül ləçəyitək zərif üzünün gözəlliyinə qeyri-adi bir ahəng verirdi. Mən əvvəllərdə də bunu hiss edirdim. Lakin indi... qaranlıq düzün ortasındakı bu balaca otaqda, neft çırağının sarı ziyası içində bu gözəlliyin ahəngi mənim üçün tamamilə yeni idi. Yeni bir nəğmə idi... Birdən bayırda, mənim keçib gəldiyim geniş düzənlikdə qalxan küləyin soyuq uğultusu bu sözsüz nəğməmi batırdı. Ürəyimdə ağır, çox ağır bir pərişanlıq hiss edərək, bütün həyat tərəfindən unudulmuş kimi qəribsədim.

O, məktubu bitirərək, qalxıb arakəsmənin dalından təzə toxunmuş bir yun şal gətirdi, zərfi də onun arasına qoyaraq, səliqə ilə qatlayıb balaca çit parçasına bağladı.

Artıq paltolarımızı geymişdik. O, şalı mənə uzatdıqda birdən dayandı. Bir an bayırdakı küləyin uğultusunu dinlədi. Sonra:

– Bəlkə qalıb səhər gedəsiniz, – dedi, – biz xala ilə o biri otaqda yatarıq.

Bu zaman əlində odun parçaları içəri girən ucaboylu qadın da:

– Qalsanız yaxşıdır, – deyə təsdiq etdi. – Yaman qarlayır, bu saat yolu-rizi tutacaq. Allah eləməmiş, birdən düzdə azarsınız.

Mən:

– Heç nə olmaz, – deyə şalı qızdan alıb, balaca əl çamadanına qoydum.

Və qadının təsvir etdiyi təhlükə ehtimalı məndə anlaşılmaz bir ruh yüksəkliyi doğurdu. Südabə daha təkid etmədi və mənim sözümə baxmayaraq, bizi ötürmək üçün yoxuşun ayağına, maşının dayandığı yerə qədər gəldi. Qaranlıq çöldə külək uğuldayır, seyrək qar səpələyirdi. Mikola yerinə keçəndən sonra mən:

– Südabə, – dedim, – nə üçün inad edirsən, nə üçün şəhərə gəlmək istəmirsən?

O mənim əllərimdən tutaraq keçmişlərdə, fərəhli axşam görüşlərindən qayıdıb ayrıldığımız zamanlarda olduğu kimi yaxın, doğma, əziz bir ahənglə:

– Cəmil, – dedi, – mən səndən inciməmişəm.

Nəfəsi daraldığı üçün bir an susdu. Sonra sözünə davam edərək dedi:

– Mən səni həmişə yaxşılıqla xatırlayacağam. Get, ancaq yaman

soyuqdur! Özünü gözlə! Əgər, yolu itirsəniz, mənim işığımı tuş tutub, geri qayıdın. Çırağı səhərə qədər söndürmərəm. Bizim işıqlar lap Bakı yolunacan görünür.

Mən ondan ayrılaraq iti addımlarla gedib maşına mindim.

– Do svidaniya, – həmişə bizimlə azərbaycanca danışan Mikola bu dəfə qıza rusca müraciət etdi:

– Do svidaniya, – deyə Südabə cavab verdi. Mən onun səsində bir titrəyiş hiss elədim.

Maşın tərpənib qar örtmüş düzləri işıqlandıra-işıqlandıra irəlilədi. Mən pəncərədən başımı çıxarıb geri baxdım və ağaran qarın üzərində Südabənin qaraltısını seçdim. O hələ də eyni yerdə durub baxırdı. Sonra, xeyli sonra balaca, zəif bir işığın ağır-ağır yuxarı qalxdığını gördüm. Yəqin ki, bu onun əl fənərinin işığı idi.

Daha sonra maşın uzaqlaşdıqca tez-tez pəncərədən başımı çıxarıb geriyə, fermanın işıqlarına baxırdım və zaman keçdikcə onlar da bir-birinin ardınca sönürdü. Nəhayət, qaranlıq düzənliyin ortasında güclə seçilən tək bir işıq qaldı. Sonra o da yox olduqda, «doğrudanmı, o, çırağı söndürdü?» deyə kədərlə düşündüm. Lakin o tək işıq yenə də göründü və yalnız biz gəlib Bakı asfalt yoluna çıxandan bir qədər sonra tamam gözdən itdi.

Elə bil ki, çölü bürüyən qaranlıq daha qatı, soyuq və kədərli oldu. O zaman mən balaca əl çamadanını götürüb dizlərim üstünə qoydum. Lakin onu açıb əllərimlə şala təmas etdikdə, iki saat bundan əvvəl neft çırağının işığında məktub yazan qızın siması bütün o qəribə gözəlliyi ilə qarşımda görünüb və bir anda da məndən uzaqlaşdı. Mən çölü bürüyən soyuq qaranlıq içində ağır, dərin bir ümidsizlik, bir qəriblik hiss edərək yun şalın üzərinə yıxıldım...

Səhər gəlib evimizə çatdığım zaman bütün ailəmiz böyük yemək otağında əyləşib çay içirdi. İnstitutda professor olan və yaşına nisbətən çox gənc görünən atam da, bacım Firəngiz və onun bakenbardlı, çəhrayı bənizli nişanlısı da, həmişə yaxşı geyinməyi sevən qəddqamətli anam da buradaydı. Hamısı məni xoşbəxt və mehriban təbəssümlə qarşılayıb, ordan-burdan sorğu-suala tutdu. Yalnız bacım Firəngiz susub mənə təəccüblə baxırdı və mən bunu hiss edərək, tələsik öz otağıma keçib qapını örtdüm, daha doğrusu, bağladım. Sonra yun şalı çıxarıb, açarı həmişə özümdə olan böyük kitab şkafında gizlətdim. Axşam saat doqquzda yenə də otağımın qapısını bağlayıb, yun şalı sahibinə göndərmək üçün şkafdan çıxartdım. Çit bağlamanın qırçını arasından təzə, merinos yunundan toxunmuş şalın bir parçası göründü.

Bu yun şalı o toxumuşdu və indi mən onu həmişəlik olaraq öz





sahibinə göndərməli idim. Mən pəncərədən başımı çıxararaq, aşağıda maşında gözləyən sürücüyə:

– Gedə bilərsən Mikola, bu günlük mənə lazım deyilsən, – dedim.

Maşın səslənib uzaqlaşdıqda, ürəyimdə ani bir yüngüllük hiss edərək, yun şalı çarpayımın böyründəki balaca stolun üstünə qoydum.

Lakin nə olursa-olsun, şalı sahibinə vermək lazım idi və mən o biri axşam yun şalı sürücü ilə göndərmədim, özüm götürüb apardım! Özü də yemək otağından deyil, o biri qapıdan çıxdım. Nə üçün? Bilmirəm. Heç nə bilmirəm.

Mən Südabəni qapılarına qədər çox ötürmüşdümsə də, nə evlərinə girmişdim, nə də ailəsi ilə tanış idim. Lakin bilirdim ki, o, atasının-anasının bircəciyidir. Onu da bilirdim ki, köhnə rus dili müəllimi olan atası üç il bundan qabaq pensiyaya çıxmışdır.

Balaca evin pillələrini qalxıb ümumi şüşəbəndə girdim və kəndirə sərilmiş paltarları yığışdırmaqda olan bir rus qadınından Möhsünzadəgilin hansı otaqda yaşadıqlarını soruşdum. Qadın çox həvəslə gəlib otağı göstərdi. Zəngi çaldım.

– Buyurun, – deyə içəridən kişi səsi eşidildi.

Mən daxil olduğum zaman ortada qoyulan balaca stolun arxasında oturmuş yaşlı kişi qəzet oxuyur, qapı tərəfdə oturmuş yaşlı qadın isə corab toxuyurdu. Onlar heyrət ediləcək qədər bir-birilərinə bənzəyirdilər. İkisi də bir yaşda görünürdü. İkisinin də saçları dümağ idi. İkisi də balaca, yumru və xoşsifət idi. İkisi də salamımı alıb, eynəklərinin altından maraqla mənə baxdı.

– Bu əmanəti Südabə göndərib, – deyərək bağlamanı stolun üstünə qoyanda ikisi də birdən ayağa qalxıb eynəklərini çıxartdı.

– Siz orada işləyirsiniz? – deyə kişi soruşdu.

– Xeyr, – dedim, – ezamiyyətə getmişdim.

– Əyləşin, əyləşin, – deyə ikisi də bir ağızdan təklif etdi.

Mən kürsü çəkib oturandan sonra özləri də əyləşdilər.

– Necədir, sınıq deyil ki? – deyə ana soruşdu.

– Xeyr, burdakından da yaxşıdır.

– Siz Südabəni burada görmüşdünüz?

– Bəli, görmüşdüm, – deyə cavab verdim.

Və onların maraqla mənə dikilmiş nəzərlərini öz üzərimdən yayındırmaq üçün:

– Şalın arasında məktub var, – dedim.

Ana tələsik bağlamanı açaraq zərfi götürüb cırdı və məktubu nəzərdən keçirmək istərkən ata eynəyini taxıb:

– Ver görüm, – deyə kağızı ondan alıb uca səslə oxumağa başladı:

«Əziz atam və anam!

Məktubunuzu dünən aldım. Məndən nahaq nigaran olursunuz. Lap yaxşıyam. Ana! Xahişini yerinə yetirib otağımda soba da qurmuşam. Xanım arvad yenə də mənimlə olur. Özümü soyuqdan gözləyirəm. Çörəyimi də vaxtında yeyirəm. Bu barədə arxayın olun. Sovxozda məndən çox razıdırlar. Dünən direktorumuz gəlmişdi, mənim işimi təriflədi. Deyir Möhsünzadə yoldaş gələndən bəri dördüncü ferma birinci yerə keçmişdir. Özümü də fermada yerli komitə sədri seçiblər. İndi mən də sovxoz rəhbərləri qarşısında məsələ qaldırmışam ki, ferma işçiləri üçün balaca bir hamam tiksinlər. Srağagün üç maşın bişmiş kərpic göndəriblər. Ana! Bu şalı öz merinosumuzun yunundan toxumuşam. Mənə mükafat vermişdilər. Yazın axırlarında gəlib sizi gətirəcəyəm, bir az burada qalasınız... Deyirlər, bu yerlərin baharı gözəl olur. Atamın qıçlarının ağrısı necədir? Rütubətli havada qoyma bayıra çıxsın. Bax, darıxmayın. Yazda gələndə sizin üçün televizor alacağam. Özünüzdən muğayat olun. İkinizi də bərk-bərk öpürəm.

Qızınız Südabə».

Ata hələ də məktuba baxırdı. Ana əllərini yun şalın üzərində gəzdirərək, «öz merinosumuzun yunundandır...» deyə şəfqətlə gülümsədi və mənə elə gəldi ki, yun şal ananın balaca bürüşük əllərinin təması ilə canlanır, xoşallanır. Mən yenidən özümü həyatda hər şeyi itirmiş adamlar kimi məyus və unudulmuş hiss edərək, ayağa qalxdım. Qocalar mənə çoxlu təşəkkür etdilər və mən xudahafizləşib çıxmaq istədikdə:

– Siz bir də ora qayıtmayacaqsınız ki? – deyə ana soruşdu.

Dünyada misli görünməmiş bir şey eşitmiş kimi yerimdə donub, gah kişinin, gah da qadının üzünə baxdım. Bu sual arvadın ağlına haradan gəldi? Mən ki, orada işləmirəm! Bayaq dedim ki, ezamiyyətə getmişdim. Bəs, bu qəribə sual ananın ağlına haradan gəldi? Mən bir də ora nə üçün getməliyəm ki?

– Bəli, – dedim. – Qayıdacağam, mütləq qayıdacağam!

– Qız üçün bir az ayın-oyun düzəltsək...

– Apararam.

– Nə vaxt gedəcəksiniz? – bu dəfə ata soruşdu.

Mən bir qədər fikirləşib:

– Üç gündən sonra, – deyə qətiyyətlə cavab verdim. – Nə göndərəcəksinizsə, hazırlayın, gəlib götürəcəyəm.

... «Bax belə!.. Bax belə!» deyə zehnimdə tez-tez təkrar edərək küçə ilə gedirdim və nədənsə, bu sözləri təkrar etdikcə, yerişimin sürəti də artırdı.

... Səhəri gün Nazirlər Sovetinə ərizə verəndən sonra, kimsəyə





deməndən şəhərə çıxıb özüm üçün bir nişan üzüyü aldım. Bu, bizim dədə-baba adətimizdir.

... Yenə də qaranlıq bir gecəydi. Yenə də qar yağıb ucsuz-bucaqsız düzənliyi örtmüşdü və ya kim bilir, bəlkə, bu elə beş-altı gün bundan qabaq biz bura gələndə yağan qar idi. Mən, əllərim rulda, gözlərim isə uzaqdan görünən ferma işıqlarına dikildiyi halda irəliləyirdim. Lakin mən indi «ZİL»də deyil, sovxozda mənim (baş mühəndis-mexanizatorun) sərəncamıma verilmiş balaca «QAZ-69»da gedirdim.

Mən irəlilədikcə, səhərə yaxın göydə ulduzlar sönüb, nəhayət, bir dan ulduzu qalana kimi, fermanın da işıqları bir-bir yox oldu. Qaranlıq düzdə tək bir işıq qaldı və mən o tək işığı tuş tutaraq, heç yerdə azmadan düz gəlib fermaya çıxdım...

*1957*

# ~ QIRÇI VƏ QIRMIZI ÇİÇƏK ~

Qoca qırçı ilə şagirdi cavan oğlan şəhərin lap ucqar yerindəki birmərtəbəli evin damına çıxanda günəş yenicə doğurdu.

Onlar ikisi də ucaboylu, enlikürəkli idi. İkisinin də əynində kobud brezentdən mazuta batmış iş paltarı vardı. Oğlan başıaçıq idi. Zil qara saçları səliqə ilə yana daranmışdı. Qocanın başında köhnə, palıdı kepka var idi. Oğlanın üzü təmiz təraş edilmiş, incə qara bığları şəvə kimi parıldayırdı. Qoca sağ əlində kömür kimi qaralmış köhnə qəlyan tutmuşdu.

Onlar ağır addımlarla damı gəzib hər tərəfini diqqətlə nəzərdən keçirdikdən sonra oğlan soruşdu:

– Başlayaq?

Qoca başını tərpətdi: «Başlayaq».

Oğlan cəld qayıdıb nərdivanla aşağı düşdü. Qoca tənbəki kisəsini çıxarıb tələsmədən qəlyanını doldurdu. Elə bu zaman onun gözləri qırın üstündə bitmiş balaca, qırmızı çiçəyə sataşdı. Günəşin təzə işığı altında bu çiçək qırın üstünə düşmüş yaqut kimi alışıb-yanırdı. Yenicə açılmış kiçik, incə yarpaqlar onu qayğı ilə dövrəyə almışdı.

Qoca, gözləri çiçəkdə olduğu halda, eyni yavaş hərəkətlə qəlyanını ağzına qoyub odladı. O, yaz və payız aylarında asfaltı deşib çıxan bu xırda çiçəkləri çox görmüşdü və hər dəfə də qocaya elə gəlmişdi ki, bu kiçik çiçək sevinclə ona baxıb nə isə deyir...

Lakin nə deyir? Qoca bu barədə fikirləşməmişdi, sadəcə olaraq, çiçəyin zühuru ilə onun dərin qırışları olan çöhrəsindəki sərt ifadə bir qədər yumşalmış, bu qədər balaca, bu qədər zərif bir varlığın qüdrəti onda riqqətli, mehriban duyğular oyatmışdı.

Günəş gömgöy səmanın nəhayətsizliyi içində yüksəlirdi. Qırı deşib çıxmış qırmızı çiçək yaqut kimi alışıb-yanırdı.

Qoca qəlyanını ağır-ağır tüstülədir və baxırdı. Sonra gözlərini çiçəkdən çəkib günəşin qalxdığı uzaq üfüqə zillədi. Elə bil ki, o, dünya bina olunandan indiyədək bu geniş göylərin fonunda bu heykəl süku-





nəti ilə dayanıb o uzaq və naməlum üfüqlərə baxırdı. Elə bil ki, bundan sonra da, dünya durduqca beləcə dayanıb o uzaq və naməlum üfüqlərə baxacaq.

Onun günəşdən, ayazdan yanıb qaralmış geniş alnındakı qırışlar kotan şumu kimi dərin idi.

Nərdivanla qalxan oğlanın qarasaçlı başı göründükdə, qoca irəliləyib onun qaldırdığı alətləri aldı, oğlan sıçrayıb damın üstünə çıxdı.

Sonra onlar damın qırını söküb yerə tökdülər. Damı tamam təmizləyib aşağı düşəndən sonra qoca döş cibindən bir təklik çıxarıb oğlana uzatdı. Oğlan:

– Məndə var, – dedi.

– Götür!

Oğlan pulu alıb iti addımlarla getdi.

Qoca divarın kölgəsindəki balaca dikdirdə oturub qəlyanını tüstülədirdi.

Qoca gəlib-keçən adamlara, maşınlara deyil, küçə boyu uzanıb gedən boşluğa baxırdı. Ətrafındakı bu qələbəlik ona çoxdan məlum idi. Elə bil ki, baxdığı uzaqlarda, nə isə, təzə bir şey görmək istəyirdi. Lakin o bu barədə düşünmürdü.

O, sadəcə olaraq baxırdı!

Nəhayət, oğlan tindən çıxaraq iti addımlarla yaxınlaşıb, gətirdiyi kağız torbanı yerə qoydu. Sonra o biri əlindəki qəzeti açdı.

Qoca soruşdu:

– Təzədir?

– Təzədir... Ancaq elə bir şey yoxdur. Baxmaq istəyirsən?

Qoca, qəlyanını ağzının yanında tutmuş olduğu halda, qəzeti alıb nəzərdən keçirməyə başladı.

Oğlan isə, torbadan bir dəstə qırmızı turpla bir dəstə vəzəri çıxardı:

– Bunları yuyum, gətirim, – deyib yandakı qapıdan həyətə girdi.

Qoca qəzetə baxandan sonra onu süfrə kimi yerə sərib, torbadakı çörəyi, pendiri, kolbasanı və iki şüşə pivə ilə karton stəkanları çıxarıb üstünə qoydu.

Oğlan göyərtini gətirib əyləşdi, şüşələrin ağzını açdı. Qoca tələsmədən cibindən sümük saplı çox qədim bir bıçaq çıxarıb açdı, pendirlə kolbasanı səliqə ilə doğradı.

Oğlan soruşdu:

– Axşam saat yeddiyə qədər damın qırını salıb qurtararıq?

– Qurtararıq, – qoca, oğlana ani bir nəzər salıb çörəyi götürdü, ehtiramla kəsdi.

«Saat yeddiyə qədər... Cavanlar üçün belə dürüst vaxtların əhəmiyyəti var.»

O özü də vaxtilə usta Qaradan soruşardı: «Görəsən, axşam saat yeddiyəcən qurtararıq?»

O vaxtdan, az qala, altmış ilə yaxın bir zaman keçir. Vaxtilə ona uzaq görünən gələcək, əslində, nə qədər yaxın imiş...

... Onlar qəlyanaltı eləyib qurtarandan sonra oğlan qırıntıları qəzetə büküb zibil qutusuna atdı. Sonra, dünən gətirib asdıqları qır qazanının altını yandırdılar.

Altmış ilə yaxın idi ki, cəhənnəm kürəsi kimi zəbanə çəkib yanan bu ocaq qocaya tanış idi.

Əlli-əlli beş il bundan qabaq o da bu oğlan kimi, kürəyin qulpundan yapışaraq sallanır, ərimәkdə olan qırı bu cür nəşə ilə qarışdırırdı. O zaman usta Qara da beləcə divarın kölgəsində oturub qəlyanını tüstülədə-tüstülədə ona, öz cavan şagirdinə baxırdı.

Qoca qırçı, yenə də vaxtın aldadıcılığı barədə düşünürdü. Aşağılarda, şəhərin gur yerində akademiyanın yerləşdiyi böyük binanın qədim zərləri qızıl kimi parıldayırdı. Bu bina öz incə, şairanə arxitekturası ilə qocanın gözəl vətəninin hər yerində məşhur idi.

Düz əlli beş il bundan əvvəl çərşənbə günündə usta Qara ilə o, həmin binanın damına qır salmağa başlamışdılar. Çərşənbə günü. Novruzun axırıncı çərşənbəsi. Onlar gün qalxana qədər işlədilər. Sonra o gedib xaşxaşlı təzə çörək, motal pendiri, vəzəri, göy soğan, bir çaynik də yaxşı dəmlənmiş çay alıb gətirdi.

Axşam isə, usta Qara onu qonaq apardı. Qapılarda tonqallar yanırdı. Uşaqlar sevinclə qışqıraraq bu tonqalların üstündən tullanır, göyə rəngli fişənglər buraxırdılar. Usta Qaranın arvadı Gülsüm bacı (Allah ona rəhmət eləsin, ustaya layiq adam idi) gətirib turşuqovurmalı plovu çəkdi. Üçü də qırmızı-ağ zolaqları olan döşəkçələrin üstündə oturub ləyaqət və hörmətlə plovu yedilər. Sonra Gülsüm bacı balaca, armudu stəkanlarda çay və xüşgəbar gətirdi... Elə bil ki, bütün bunlar dünən olmuşdu. Halbuki artıq bu dünyada nə usta Qara var idi, nə də Gülsüm bacı.

Oğlan kürəkdən sallanaraq, pıqhapıq qaynayan qır qazanını qarışdırır, qoca isə, divarın kölgəsində oturub baxırdı. Oğlanın günəşdən yanıb mis kimi qızarmış canlı qollarının tez-tez yumrulanıb qalxan əzələləri, tər damlaları yuvarlanan enli kürəyi qocanı fərəhləndirirdi: «Qırçılar nəsli möhkəm nəsildir».

Qoca, qəlyanının külünü yerə çırpdı, təzədən doldurub odladı. Sonra oğlana dedi:

– Yaxşıdır. Qoy qaynasın. Gəl otur, dincini al.






Oğlan bir-iki dəfə qırı qarışdırandan sonra kürəyi buraxdı, qazandan geri çəkilib cibindən yaylıq çıxardı.

Qoca birinci dəfəydi ki, oğlanda bu cür səliqə ilə yuyulub ütülənmiş yaylıq görürdü (oğlanın, yaşı səksəndən ötmüş nənəsindən başqa heç bir kəsi yox idi). Oğlan yaylıqla boyun-boğazının tərini silib:

– Mən, – dedi, – gedim bir stəkan limonad içim...

– Get! – deyə qoca həvəslə cavab verdi.

– Sənə də gətirimmi?

– Yox. Mən susamamışam.

Oğlan çevrilib sürətlə getdikcə qoca arxadan səsləndi:

– Buzlu içmə. Boğazın təzə yaxşı olub.

* * *

Oğlan aşağıda vedrələri, əriyib maye halına gəlmiş qırla doldurur, qoca isə, onları çəkib damın üstünə tökürdü.

... Artıq günəş qürubda idi, dam isə, hələ qırlanıb qurtarmamışdı. Qoca boşalmış vedrəni aşağı buraxaraq, şalvarının qabaq cibindən qədim iri saatını çıxarıb baxdı. Yeddi tamama on beş dəqiqə qalmışdı. Bir saat da işləsələr, qurtararlar.

Lakin qoca damın kənarına yaxınlaşıb, aşağıda vedrəni götürən oğlana xitabən:

– Doldurma, – dedi. – Bəsdir. Qalanını sabah eləyərik. Qolum ağrıyır.

Qoca, ürəyindəki incə hissləri dilinə gətirməyi sevmirdi. Qoca, oğlanın sifətindəki qayğını dərhal necə bir sevincin əvəz elədiyini və onun vedrəni yerə qoyub, brezent pencəyini necə cəld götürdüyünü gördü.

Qocaya başqa şey də lazım deyildi.

– Daha mənimlə ayrı işin yoxdur ki, – deyə oğlan altdan-yuxarı qışqırdı.

Qoca sakit səslə cavab verdi:

– Yoxdur.

– Onda mən getdim. Səhər tezdən buradayam.

Oğlanın axırıncı sözləri deməsi ilə tini burulub gözdən itməsi bir oldu.

Lakin qoca, damı bu gün mütləq qırlayıb qurtaracaqları barədə ev yiyəsinə söz vermişdi (o, heç vaxt yalan danışmamışdı).

O, tələsmədən, nərdivanla enib qır qazanının yanına gəldi. Vedrələrin ikisini də doldurdu, təkrar dama qalxdı. Sonra vedrələri yuxarı çəkdi. O, bu minvalla işləyərək, çıraqlar yananda damı tamam qırlayıb qurtardı.

... Qoca qəlyanı damağında, ağır addımlarla sahilə çatıb oleandr kolları arasındakı skamyaların birində oturdu. Sahil adamla dolu idi. Lakin qoca dənizə baxırdı. İri, çıraqban gəmilər limanda lövbər salıb dayanmışdı. Bir dəstə gənc oğlan, qız, təkadamlıq qayıqlarda avar çəkərək ötüşürdü. Uzaqda mayaklar yanıb-sönürdü. Dəniz isə asta-asta yırğalanırdı. Dənizin bu tərpənişində hər şeyə qarşı bir biganəlik var idi və qoca həmişə bu məğrur biganəliyi hiss edirdi.

Qoca iki dəfə daha qəlyanını doldurub çəkəndən sonra qalxdı. Onun yolu bayaq damına qır basdıqları evin yanından idi. O, bu evin küçəyə baxan pəncərəsi qarşısından keçəndə tül pərdə arxasından içərini gördü. İri elektrik çırağı altındakı ağ örtüklü stolun ətrafında ortayaşlı bir kişi ilə gənc qadın və iki oğlan uşağı oturub şam edirdilər. Radioda şən bir hava oxunurdu...

... Qoca, şəhər kənarındakı balaca otağına gəldi. Abajursuz lampanın tutqun işığında yeganə pəncərənin qabağına qoyulmuş dəmir çarpayı, ortada üzərinə köhnə müşəmbə çəkilmiş stol, onun ətrafındakı dörd stul və əhənglə ağardılmış divarlar göründü. Hər şey, çarpayının üzərindəki nimdaş yorğan-döşək kimi köhnə, lakin təmiz idi. Qoca tələsmədən pencəyini çıxarıb qapının yanındakı taxta asılqana keçirdi. Balaca mətbəxə gedib əl-üzünü yuyaraq, ağ məhrəba ilə qurulandı. Sonra taxçaya qoyulmuş bir banka qatığı götürdü (bu qatığı hər gün qonşudakı satıcı arvad gətirib buraya qoyardı), oturub dünəndən qalmış boyat çörəklə yedi.

... Qoca otağa qayıdıb balaca radioqəbuledicini qurdu və qəlyanını doldurub alışdırdı, oturub son xəbərlərə qulaq asdı.

Sonra diktor Xanın «Segah» oxuyacağını elan etdi. Vaxtilə o, Xana qulaq asmağı heç bir şeyə dəyişməzdi. Ancaq indi radionu bağladı. Oğlu Cahangir müharibədə həlak olandan sonra, qoca, «Segah»a qulaq asa bilmirdi. Ona görə yox ki, əsəbləri zəif idi... Ona görə ki, qocanın qəlbində əlavə kədərə yer yox idi.

... O, radionu söndürdü. Daha nə qalırdı? Heç bir şey... Əvvəllər oğlan tez-tez gecələr onunla söhbətə gələrdi. İndi on gündür... Düz on gündür ki, daha gəlmir. Qoca da səbəbini soruşmur. Cavan adamdan belə şeyləri soruşmaq olarmı?

... O soyunub işığı söndürdü, arxası üstə çarpayısına uzandı. Gözləri xeyli müddət otağın zülmətinə zillənib qaldı. Elə bil ki, bu zülmət bir əbədiyyət idi və o, bu əbədiyyətə qovuşmuşdu. Lakin onun şüuru işləyirdi. Bu şüur isə, işıq və ümidlər silsiləsindən ibarət idi. Qoca düşünürdü: «Oğlan səhər damın tamam qırlanıb qurtardığını görəndə, yəqin ki, təəccüb edəcək.»

Sonra onlar qonşudakı evlərin damlarını qırlayacaqlar. Üç gün





bundan qabaq ev sahibləri ilə danışıq aparıblar. Hələ indiyə qədər heç kəs onun işindən narazı qalmamışdır. Buna görə də ona hörmət edirlər. Onun üçün növbəyə dururlar. Usta Qara da beləydi. İndi isə... O, cavan şagirdi haqqında düşündü və qır qazanını qüvvətlə, nəşə ilə qarışdıran oğlanın qədd-qaməti gözləri qarşısında olduğu halda yuxuya getdi.

... Səhərisi onlar ikinci evin damını qırlayırdılar. Yenə də qoca yuxarıda, oğlan aşağıda işləyirdi. Günün axırında oğlanın yanında ortaboylu, lap cavan bir qız peyda oldu. Əynində əhəngə bulaşmış kombinezon var idi. Bədəni dolu olduğundan, kombinezonun şalvarı ona dar gəlirdi.

Son dəbdə kəsilmiş saçlarının üstündən (yəqin ki, işdə mane olmasın deyə) qırmızı lent bağlamışdı. Üzünü təzəcə yumuş olduğundan saçlarının qabaqdakı qıvrımları hələ yaş idi. O, əlləri arxasında dayanıb, vedrəyə qır dolduran oğlana baxırdı.

Qoca əvvəl elə güman etdi ki, bu qız elə-belə yoldan keçəndir. Lakin sonra gördü ki, oğlan çevrilib ona nə isə dedi və qız gözəl, ağ dişlərini göstərib gülümsədi.

Qoca daha baxmadı... Damı qırlayıb qurtarandan sonra tələsmədən düşüb onların yanına gəldi. Oğlan qızı göstərərək:

– Usta, tanış ol, – dedi.

Qız qocaya yaxınlaşdı, altdan-yuxarı ona baxıb əlini uzatdı. Qoca onun balaca, təmiz əlini əzəcəyindən qorxurmuş kimi astaca sıxdı. Qız gülümsəyərək adını dedi.

Qoca qəlyanını çıxardıb odluğunu təmizləyə-təmizləyə qızdan soruşdu:

– Harada işləyirsən?

– Təzə tikilən kinostudiya binasında, – deyə oğlan qızın əvəzində cavab verdi, – elə işdən birbaşa bura gəlib.

Qız isə, yenə əlləri arxasında, qocaya baxaraq biaram gülümsəyir və sanki onun daha nə deyəcəyəni gözləyirdi.

Lakin qoca daha heç nə soruşmadı. Oğlan pencəyini götürərək:

– Yaxşı, usta, – dedi, – tay bir işin yoxdursa, biz gedək.

– Gedin.

Oğlan tərəddüd içində ona daha nə isə demək istədi, lakin heç nə deməyərək, geri dönüb qızla birlikdə getdi.

– Rəşid! – deyə qoca arxadan səsləndi və oğlan geri çevrildikdə, əli ilə yaxınlaşmasını işarə elədi.

Qoca cibindən bir üçlük çıxarıb xəlvətcə oğlana verdi.

Oğlan qara gözləri ilə gülümsəyərək soruşdu:

– Bəyəm almısan?

– Yox, hələ almamışam.

01/01–21

– Sağ ol.

Oğlan çevrilib yüyürərək qıza çatdı.

Bundan sonra hər gün işin axırında, saçlarına qırmızı lent bağlamış o qız gəlir və oğlanla gedirdi... Qoca, oğlandan heç nə soruşmurdu. «Lazım olanda özü danışacaq.»

... Lakin bu qız peyda olandan bəri qoca tamam bir xəyal aləminə dalmışdı. O, demək olar ki, hər gün şagirdinə necə toy edəcəyi, sonra, əgər, oğlanları olarsa, ona usta Qaranın adını qoyacağı barədə düşünürdü. Hər gün, bu gələcək gənc ailə bütün aydınlığı ilə qocanın gözləri qarşısında canlanırdı. O, bu məhəllədəki evlərin qırını təzələyəndən sonra nə qədər pulları olacağını dəfələrlə haqq-hesab edir, toy üçün alacağı şeyləri bir-bir gözünün qabağına gətirirdi.

Oğlanın xəbəri olmadan qoca təmir idarəsindən əlavə sifarişlər qəbul edirdi. ...Lakin bir istirahət günü onun heç gözləmədiyi bir əhvalat oldu. Qoca hamamdan yenicə gəlib özünə çay dəmləyirdi. Elə bu zaman qapı yavaşca vuruldu. Qoca səsindən bildi ki, oğlandır.

Lakin oğlan bu dəfə tək deyildi. O, qızla gəlmişdi. Saçlarına qırmızı lent bağlayan həmin qızla! Uzun illərdən bəri birinci dəfə olaraq qoca yaman sevindi.

– Əyləşin. Xoş gəlmisiniz. – O, qıza müraciət elədi və təmiz hava gəlsin deyə tələsik otağın yeganə pəncərəsini taybatay açdı.

Oğlan da, qız da təzə paltar geymişdilər. Oğlan ağ köynəyin üstündən mavi qalstuk bağlamışdı. Qızın qolunda balaca qızıl saat var idi.

Birdən qoca hiss elədi ki, oğlan əvvəlki kimi qayğısız və sərbəst deyil. Günahkar adamlara oxşayır.

Qocanın sevincinə anlaşılmaz bir qorxu qarışdı.

– Bu gün yaxşı havadır, – deyə o gülümsədi.

Oğlan diqqətlə qocaya baxdı. O heç vaxt ustadan bu cür mənasız sözlər eşitməmişdi. Heç vaxt onun belə gülümsədiyini görməmişdi.

Sonra qoca tələsik mətbəxə keçib, qədim, güllü podnosun içində üç stəkan çay gətirdi.

Oğlan:

– Niyə zəhmət çəkirsən, ay usta, – dedi. – Qız gətirərdi.

– Zəhmət... nə zəhməti var, – qoca eyni təbəssümlə cavab verdi.

Sonra nəzərlərini oğlanın diqqətli baxışlarından yayındıraraq əlavə etdi:

– Siz oturun, mən bu saat gəlirəm.

Oğlan onun qolundan yapışaraq:

– Usta, – dedi, – biz çörək yemişik. Heç bir şey lazım deyil. Sən ac deyilsən ki?





Qoca eyni mülayim və çəkingən ifadə ilə «yox» mənasında başını tərpətdi.

– Onda, əyləş.

Birlikdə işlədikləri bu üç ildə oğlan birinci dəfəydi ki, onun bu cür ürkək, bu cür narahat oturduğunu görürdü.

– İçin, – deyə qoca stəkanlara baxdı. – Çay, isti yaxşıdır.

Birinci dəfəydi ki, oğlan onun səsində bu qədər mehribanlıq, nəvaziş hiss edirdi və bu hiss onun ürəyini ağrıdırdı.

Oğlan kəskin hərəkətlə balaca armudu stəkanı götürüb üç-dörd qurtuma boşaldaraq, təkrar nəlbəkiyə qoydu. Qoca əlini cəld stəkana uzatdı. Oğlan onun əlindən tutaraq:

– Tay içmirəm, – dedi.

Qoca, oğlana ani bir nəzər saldı:

– Bu səhər, – dedi, – İçərişəhərdən yenə iki nəfər gəlmişdi. Dedim işimiz çoxdur. Ayın on beşindən sonra...

Qız oğlana baxdı. Oğlan qaşqabaqlı halda nəzərlərini endirdi. Araya gərgin bir sükut çökdü. İndi qocanın təbəssümü daha narahat görünürdü.

Birdən oğlan başını qaldırıb düz onun gözlərinə baxaraq qəti və sərt ifadə ilə:

– Usta, – dedi, – mən tay sabahdan gəlməyəcəyəm.

Usta batqın səslə soruşdu:

– Hara gəlməyəcəksən?

– Qır salmağa.

– Niyə?

– Oxumağa gedirəm.

– Hara gedirsən?

– Oxumağa. Yol texnikumuna.

– Çətin olmaz?

Oğlan, onun nəyə işarə elədiyini anladı:

– Birtəhər dolanarıq, – dedi.

– Mən işləyəcəyəm, o oxuyacaq, – deyə saçlarına qırmızı lent bağlayan həmin qız amansızcasına əlavə etdi. – Bilirsinizmi, usta, tay qırçılığın dövrü keçib. Görürsünüz ki, indi təzə tikilən evlərin üstünə qır basmırlar.

Qoca düşündü: «Bəli... doğrudur... Təzə evlərin damına qır basmırlar.»

Qız eyni amansızlıqla davam edirdi:

– Sizə baxmayın. Rəşid çox cavandır. O, gələcək haqqında düşünməlidir.

Qoca düşünürdü: «Elədir... Əlbəttə...»

– Doğrusu, Rəşid heç sizdən ayrılmaq istəmirdi. Ancaq...

Qız cümləsini bitirmədi. Buna ehtiyac da yox idi.

O, saçlarına qırmızı lent bağlamış həmin qıza baxaraq mehribanlıqla gülümsədi. Qız ona həddindən artıq balaca və həddindən artıq güclü görünürdü. Oğlan eyni sərt ifadə ilə gözlərini bir nöqtəyə zilləmişdi.

Qız çayını arxayınlıqla içib qurtarandan sonra özünün və oğlanın stəkanını götürüb (qoca çayını içməmişdi) mətbəxə apardı, tərtəmiz yuyub taxçaya qoydu və o geri qayıdanda oğlan dərindən nəfəs alaraq qalxdı, qoca da durdu.

Oğlan ona baxıb dedi:

– Tay biz gedək.

– Gedin.

– Sağ ol.

– Siz də sağ olun.

Onlar qapıdan çıxarkən, birdən qız geri dönüb qocaya yaxınlaşdı və onun qollarından tutaraq, ayaqlarının ucunda qalxıb cod saqqallı üzündən öpdü. Sonra bahar küləyitək otaqdan çıxdı.

... Qoca bir neçə saniyə durduğu yerdə dayandı. Otağın yarıqaranlığı içində o, çox sakit və qədd-qamətli görünürdü. Qoca birdən sanki nəyi isə xatırlayaraq, başını qaldırıb pəncərədən bayıra baxdı. Onlar çoxdan getmişdilər.

Qoca tələsmədən qəlyanını çıxarıb doldurdu, odladı. Onun üzündə bayaqkı mehribanlıqdan əsər-əlamət yox idi. Kepkasını götürüb başına qoydu, otaqdan çıxdı.

O, ağır addımlarla gedirdi.

O, həmişə istirahət günləri qırçıların yığıldığı bağa tərəf gedirdi.

Yaz günəşi gömgöy səmanın sonsuzluğu içində yüksəlir, aşağılarda isə, akademiya binasının zər naxışları qızıl kimi parıldayırdı. O, sabah qırlayacağı damlar haqqında düşünərək gedirdi.

O, həyatın – böyük və qüdrətli həyatın qanununu hiss edərək ağır addımlarla gedirdi.

*1962*

## TUFANDAN SONRA
## *(kinonovella)*

Xorla oxunan qədim bir Azərbaycan mahnısı sıldırımlı dağlardan axıb dərələrə töküldü...

> Mənim adım – Sarı Laçın,
> Gəl, səni götürüm qaçım...
> Üçtelli, dördtelli,
> Beştelli durna...

Başı qarlı Murov dağının fonunda, yaşıl otlarla, təzə-təzə açılan lalələrlə dolu vadidə üç cavan oğlanla bir qız bu mahnını oxuya-oxuya çadır qururdular.

Elxan tək oxudu:

> Ovçu əlindən yaralı durna.

Hamı təkrar etdi:

> Ovçu əlindən yaralı durna,
> Yaralı, yaralı, yaralı durna,
> Ovçu əlindən yaralı durna...

Elxan məzəli bir əda ilə:

– Dünyanın qəribə təsadüfləri var, – dedi, – axı, necə olub ki, bizim bu Laçın (oğlanlardan birinə işarə etdi), məhz mahnıda deyildiyi kimi, sarı olub?

Laçın gülümsəyərək təkrar etdi:

> Ovçu əlindən yaralı durna...

Hamısı birdən oxudu:

Yaralı... yaralı... yaralı... durna...
Uca dağların maralı durna...

Qız dedi:
– Amma heyf ki, bizim Laçınımız ovçu deyil...
Elxan soruşdu:
– Yəni, ovçuluqdan bu qədər xoşun gəlir?
– Xoşum gəlir də sözdür, – deyə qız cavab verdi.
Laçın dedi:
– Bizim evdə hara baxsan, ovçuluq haqqında kitab görərsən.
Qız gülümsədi:
– Mən, – dedi, – pələng kimi igid yırtıcılar ovçusunun pərəstişkarıyam, dovşan ovçusunun yox...
Elxan yerə sancdığı dirəyin dibini bərkidə-bərkidə:
– Ümumiyyətlə, – dedi, – ovçuluq humanizmə zidd bir peşədir... Mənim əlimdə ixtiyarım olsaydı, ovçuluğu qadağan edərdim.
Mərdan çadırın o biri dirəyini yerə sanca-sanca:
– Daha bundan da boş söz eşitmək olmaz, – dedi.
– Nə üçün? – deyə Elxan zarafatla soruşdu.
– Onda gərək qoyun-quzunu, toyuq-cücəni kəsib yeməyi də qadağan eləyəsən və biz, Şeyx Nəsrullah demişkən, «gündə bir xurma ilə təam eləyək», – deyə Laçın səhnədə gördüyü Şeyxin ifasına uyğun tərzdə cavab verdi.
Elxan:
– Mən, – dedi, – əminəm ki, gələcəkdə elə qida həbləri tapılacaq ki, daha ətə-çörəyə ehtiyac olmayacaq.
– O zaman, – Mərdan cavab verdi, – onsuz da, darısqal olan bu Yer planetində heyvan əlindən tərpənmək olmaz...
– Ayılar... qabanlar hücum çəkib evlərə dolar, – deyə Laçın bərkdən güldü.
... Mərdan artıq qurub qurtardığı çadıra işarə ilə Laçınla qıza dedi:
– Bu gəlinimizlə özündənbəyin...
– Taleyimizdən xeyli razıyıq, – deyə Laçın zarafatla arvadına göz vurdu...
Elxan dərindən nəfəs alaraq, şairanə bir əda ilə dedi:
– Bu güllü-çiçəkli dağlarda gecələr uzaqdan gələn şəlalə şırıltısını dinləyə-dinləyə əbədi məhəbbət anları yaşamağı nə ilə əvəz etmək olar?
Qız dedi:





– «Əbədi» sözünü tulla!
– Tullamayacağam, – deyə Elxan hərarətlə davam etdi. – Böyük hisslərlə yaşadığımız hər an, məncə, bir əbədiyyətdir.
– Bəs, kiçik hisslərlə? – qız soruşdu.
– Kiçik hisslər göbələk kimidir. Birini qoparanda, səhər yerində beşi bitəcək. Amma nəcib hisslər... Leyla, demək, «əbədi» sözü artıqdır?
– Elxan, yox, artıq deyil. Böyük hisslər məhv olsalar da, biz onları heç bir zaman unuda bilmirik... Onlar bizim üçün əbədi işıqdır.
... Mərdan qurub qurtardıqları ikinci ağ çadıra işarə ilə:
– Bu da bizim yemək otağımız, – dedi.
... Mərdan qurub qurtardıqları üçüncü ağ çadırı göstərərkən özü ilə Elxana işarə ilə:
– Bu da biz qarımış oğlanların xanəsi, – dedi.

***

... Gecə idi.
Mərdanla Elxan öz çadırlarındakı balaca, qatlama stolun ətrafında oturub, geoloji xəritəyə baxırdılar. Qabaqlarında iki stəkan çay buğlanırdı...
Elxan xəritədə bir yeri göstərərək:
– Mən, – dedi, – burdakı püskürmə suxurlarında civə ola biləcəyinə inanıram.
– Mən də inanıram, – deyə Elxan siqaret yandırdı, – bu tərəflərdə ən qədim süxurlar onlardır.
– Professorun mülahizəsinə görə, qızılı isə, burda axtarmaq lazımdır, – deyə Mərdan xəritədə başqa bir yeri göstərdi.
– İnsan ayağı dəyməmiş bu tufanlı dağlarda qızıl mədəni tapmaq mənə bir nağıl kimi görünür, – deyə Elxan gülümsədi, – elə bil ki, biz tilsimli bir qala fəth etməyə hazırlaşırıq.
Mərdan fikirli halda:
– Bu saat, – dedi, – bizim üçün civə qızıldan da əhəmiyyətlidir.
– Görək nə olur... – deyə Elxan papirosundan dərin bir nəfəs aldı. – Səninlə Laçın bir çox ekspedisiyalarda olmusunuz... Təcrübəniz var... Amma Leyla ilə biz birinci dəfədir.
– Vətənimiz zəngindir, – deyə Mərdan dərindən nəfəs alaraq cavab verdi. – Bizi əliboş qaytarmaz...
– Görək, – deyə Elxan tranzistorun düyməsini basdı və «Gecələr... ay gecələr...» mahnısı ətrafa yayıldı.
... Və bu mahnı oxunduqca, gözlərimiz qarşısında Murov dağının sirlərlə dolu qaranlıq gecə mənzərələri gəlib-keçirdi...

... Əzəmətli dağ siluetləri arasında iki işıq görünürdü.
... Və mahnı davam edirdi: «Gecələr... ay gecələr...»

***

... Sonra bu mahnını qəflətən yuxarılardan qopub, üzüaşağı dərəyə yumalanan hansı bir qaya parçasınınsa gurultusu əvəz etdi.

... Öz çadırlarında, qatlama çarpayıda əri ilə yanaşı uzanaraq, xəyal dolu nəzərlərini məchul bir nöqtəyə dikmiş Leyla diksindi:

– Eşidirsən?

Laçın yuxulu gözləri ilə gülümsəyərək:

– Daşdı, yəqin ki, pələngin ayağının altından qaçdı, – deyə zarafatla cavab verdi.

– Yox, – deyə Leyla qalxıb, çılpaq qolu ilə yastığına dirsəklənərək cavab verdi, – pələng çox ehtiyatla hərəkət edir. O, heç vaxt möhkəm olmayan yerə ayağını basmaz...

– Nə bilirsən?

– Eşitmişəm... Mənim dayım məşhur ovçu idi. Bir dəfə Talış meşələrində bir pələng vurmuşdu...

... Və elə bu zaman bayırda yenə tappıltı eşidildi.

– Maral! – deyə Leyla qəribə bir sevinclə səsləndi və tappıltı uzaqlaşıb eşidilməz olanda, o, dərindən nəfəs alaraq, başını təkrar yastığa qoyub:

– Görəsən, – dedi, – bizim axtarışlarımızdan bir şey çıxacaq?

– Nə üçün şübhə edirsən? – deyə Laçın soruşdu...

Leyla yenə də gözlərini məchul bir nöqtəyə zilləyərək:

– Bilmirəm, – dedi. – Nə üçünsə həmişə bu barədə düşünəndə, mən çox həyəcanlanıram.

Laçın:

– Birinci dəfədir, ona görə, – dedi.

Sonra zarafatla əlavə etdi:

– Geoloqun taleyi təkcə özündən asılı deyil...

Leyla dərindən nəfəs alaraq:

– Yəqin ki... – deyə pıçıldadı.

***

... Günəş qalxıb dağları, meşələri brilyant kimi şəffaf işığa qərq etdi. Murov dağının döşü ilə sanki günəşdən qaçan süd kimi ağ duman layları sürətlə qərbə tərəf sürünürdü...

... Çadırların qabağında dayanmış Mərdan əli ilə sol tərəfi göstərərək dedi:





– Laçınla Leyla, demək, siz ora! Biz isə, bura! Saat beşdə, düşərgədə görüşərik.

Sonra gülümsəyərək əlavə etdi:

– Sizə də, bizə də uğurlu səfər!

... Bellərində dəri heybələr, ayaqlarında dağ-daşa, palçığa davamlı qalın çəkmələr olan Laçınla Leyla əl-ələ tutaraq, üzüaşağı götürüldülər.

– Ehtiyatlı olun! – deyə Mərdan arxadan qışqırdı...

– Arxayın olun! – deyə Laçın sol əlindəki dəmir uclu ağacı havada yellədi.

– Onların xoşbəxtliyi mənə ləzzət verir, – deyə Elxan gülümsədi.

***

... Gümüş kimi parıldayan dağ çayı özünü daşlara, qayalara çırparaq nərildəyirdi. Laçın hansı uzaq zamanlardasa yerin dərinliklərindən qalxan nəhəng qayaya çevrilmiş süxuru çəkiclə parçalayırdı. Leyla lupa ilə kiçik süxur qırıntılarını tədqiq edirdi...

– Hələ ki, bir əlamət görünmür, – deyə o, nəhayət, başını qaldıraraq Laçına müraciət etdi.

Laçın süxuru parçalamaqda davam edərək:

– Geoloq üçün ən vacib məsələlərdən biri səbr etməyi bacarmaqdır, – dedi.

Leyla lupa ilə nəzərdən keçirdiyi yeni süxur parçasını tullayaraq:

– Heç nə yoxdur, – deyə ümidsizliklə səsləndi.

– Sən indidən belə əsəbiləşməyə başlasan, qızıl tapanacan bizdə can qalmaz, – deyə Laçın zarafatla cavab verdi.

Leyla soruşdu:

– Yəni, sən bizim bir şey tapacağımıza inanırsan?

Laçın, çəkiclə qayaya yeni zərbə endirərək:

– Biz, – dedi, – bir şey yox, iki şey tapacağıq, qızıl və civə!

Sonra dikəlib, alnının tərini silərək saatına baxdı:

– Saat beşə işləyir. Sən tərpən düşərgəyə, yeməyə bir şey hazırla.

– Bəs sən? – deyə Leyla soruşdu.

– Mən hələ bir saat da işləyəcəyəm. Süxur gətirərəm, çadırda tədqiq edərik.

– Yorulmamısan?

– Yox, tərpən!..

... Leyla uzaqlaşanda Laçın arxadan qışqırdı:

– Gözlə, azarsan.

– Azaram, gəlib taparsan, – deyə qız zarafatla cavab verdi.

***

Leyla sıldırım qayaların arası ilə aşağı enirdi.

... Yamaclar, vadilər təzə-təzə açılan bahar çiçəkləri ilə dolu idi və Leyla gedə-gedə bu çiçəklərdən yığıb iri bir buket düzəltdi...

... Və nəhayət, Leyla dağı enib, meşəyə girdi.

... Leyla irəlilədikcə, sığırçın, sarıköynək zümrüd yarpaqların arasından ona baxaraq həyəcanla səslənirdi.

... Birdən zanbaq kimi gömgöy səma qaraldı...

Və şiddətli külək meşəni hərəkətə gətirdi.

... Külək güllə kimi vıyıldayaraq ağacların budaqlarını Leylanın üzünə çırpırdı...

... Sonra dalbadal göy gurultusu eşidildi...

... Dalbadal ildırım çaxıb, təlatümdə olan meşəni və göz açmağa imkan tapmayan qızı işıqlandırdı.

... Sonra dolu qarışıq şiddətli yağış başladı.

... Yağış və dolu zorla yeriyən qızı amansızlıqla döyəcləyirdi.

Qız hara getdiyini bilməyərək yıxıla-qalxa irəliləyirdi...

... Və nəhayət, o, balaca meşə açıqlığına çatdıqda, əynində başlıqlı neylon plaş, çiynində quşla dolu heybə və tüfəng olan ucaboylu bir adamın on beş-iyirmi addım aralıda dayanıb, ona baxdığını gördü.

... Neçə vaxtdan bəri qorxu və əzab içində yorulub əldən düşmüş qız insan gördüyünə sevindi.

Oğlan əlinin dalı ilə gözlərinə çırpılan yağış suyunu silərək, qıza yaxınlaşıb soruşdu:

– Bu tufanda hardan gəlib, hara gedirsiniz?

Qız bunun iyirmi yeddi-iyirmi səkkiz yaşında çox yaraşıqlı bir oğlan olduğuna yalnız indi diqqət yetirərək:

– Mən geoloqam, – dedi, – düşərgəmizə gedirəm.

– Düşərgəniz hayandadır?

– Bilmirəm, – deyə qız şiddətlə yağan yağışın arasından onun belindəki patron kəmərinə baxaraq cavab verdi, – yolu itirmişəm.

– Kompasdan, xəritədən yoxunuzdu?

– Kompas da, xəritə də Laçının yanında qaldı.

– Laçın kimdir?

– Mənim yoldaşım.

Sonra qız gülümsəyərək əlavə etdi:

– Yəqin ki, bu dolu ilə yağış indi ona da divan tutdu. Biz axtarışa bir getmişdik. Mən bir az tez qayıtdım ki, yeməkdən-zaddan hazırlayım... O cür gözəl havada birdən-birə bu cür tufan qopacağı kimin ağlına gələrdi.





– Bu dağların havasına inanmaq olmaz, – deyə oğlan ciddi ifadə ilə cavab verdi, – indi belədir, bir saat sonra başqa cür olacaq...

... Sanki qızın qorxusu və yorğunluğu bir andaca yox olub getmişdi. O, təkrar gülümsəyərək:

– Görünür, – dedi, – bu yerlərin havasını öyrənməkdə səhv etmişik. Siz ovçusunuz?

– Xeyr, elə-belə... həvəskaram... Vaxt olanda, çıxıram. Siz, düşərgənizin təxminən hansı səmtdə olduğunu da bilmirsiniz?

– Bizim düşərgəmiz, – deyə qız ruhla cavab verdi, – Göy gölə tökülən dağ çayının sağ sahilindədir.

– Göy gölə tökülən çay çox yerlərdən keçir... Özü də xeyli uzundur... – deyə oğlan bayaqdan bəri ilk dəfə xəfifcə gülümsədi, sədəf kimi ağ və yaraşıqlı dişlərini göstərdi...

– O da düzdür... – deyə qız qəribə bir qayğısızlıqla təsdiq etdi.

Sonra həvəslə soruşdu:

– Siz ancaq quş vurursunuz?

– Hər nə düşdü...

– Bu yerlərdə pələng, şir olmur?..

– Yox, olmur...

– Ayı necə?

– Ayı olur.

– Heç vurmusunuz?

– Yox.

– Yəqin rast gəlməmisiniz?

– Çox rast gəlmişəm... ancaq vurmamışam.

– Nə üçün axı?

– Çünki mənə hücum eləməyib...

– Yalnız buna görə?

– Ümumiyyətlə, ayıya güllə atmağı xoşlamıram.

Bu zaman göy şiddətlə guruldadığı üçün qız lap bərkdən soruşdu:

– Vəhşi qaban necə?

– Qaban vurmuşam, – deyə oğlan hövsələdən çıxaraq, cavab verdi və qızın qayğısızlığına təəccüb edərək, ciddi ifadə ilə əlavə etdi:

– Tufan bərkiyəcək. Siz düşərgəyə tez çatmalısınız.

– Bəs siz? – deyə qız öcəşirmiş kimi gülümsəyərək soruşdu.

– Mənimlə işiniz yoxdur, – deyə oğlan sərt ifadə ilə cavab verdi.

– Deyin görüm, sizin düşərgəniz Taya daşa yaxındır?

– Taya daş... Taya daş nədir?

Oğlan büsbütün əsəbiləşərək:

– Yaxşı, – dedi, – gəlin gedək...
– Hayana gedək?
– Bilmirəm. Hər halda, meşədə qalası deyilik ki...
... Və onlar yenidən şiddətlənən yağış altında yollarına davam etdilər.
... Oğlan plaşını çıxarıb qıza uzadaraq:
– Alın, geyinin, – dedi, – çimdiyiniz bəsdir.
– Yox... yox... lazım deyil. Mən, onsuz da, islanmışam. Özüm də soyuğa öyrəncəliyəm... Uşaqlıqdan üzgüçülüyə getmişəm.
– Siz üzgüçüsünüz?
– Bəli...
Və qız gülümsəyərək əlavə etdi:
– Hələ, desəniz, üzgüçülük üzrə Bakı çempionu da olmuşam. Leyla Cəfərzadə. Eşitməmisiniz?
– Yox... eşitməmişəm...
– Nahaq yerə.
Oğlan özünü saxlaya bilməyib, bərkdən güldü:
– Vallah, qəribə qızsınız...
– Siz də qəribə oğlansınız... Özünüz ovçu olduğunuz halda, ölkənin məşhur idmançılarından xəbəriniz yoxdur. Qəzet-zad oxumursunuz?
– Yox, oxumuram.
– Nə üçün? – Qız təəccüb etdi.
– Çünki bütün qəzetlər tutuquşu kimi eyni şeyi təkrar edirlər, – deyə oğlan yarızarafat cavab verdi.
– Bəs, dünyadan necə xəbər tutursunuz?
– Radio... Televiziya... Maraqlı jurnallar... kitablar...
... Onlar meşənin qurtaracağında sıldırım qayalardan ibarət bir təpəyə çatıb dayandılar.
Qayaların arası ilə üzüaşağı gurultulu sellər axırdı...
– Biz bu dağın o biri tərəfinə keçməliyik, – deyə oğlan irəlini nəzərdən keçirərək bərkdən səsləndi...

***

İliklərinə qədər islanmış Laçın çiynində dolu heybə, sel-suyun içi ilə yıxıla-qalxa irəliləyirdi...
... Və nəhayət, o bir qədər aralıdakı ağ çadırları görərək şən bir səslə oxudu:

Mənim adım – Sarı Laçın...
Gəl, səni götürüm qaçım,





Üçtelli... dördtelli,
Beştelli durna.

... Lakin Leyla qapıda görünmədi...
... Laçın çadırlarına çatıb, içəri daxil oldu. Leyla yox idi...
... Laçın tələsik heybəni və çiçəyi yerə ataraq, qapının ağzına gəlib çığırdı:
– Leyla!
... Laçın yüyürüb bir-bir çadırlara baxdı: heç kəs yox idi.
... Laçın hövlnak yüyürüb bulağın üst tərəfindəki qayaya çıxaraq, bərkdən çığırdı:
– Leyla!
... Bu zaman bellərində dolu heybə Mərdanla Elxan yoxuşu qalxaraq, ona çatıb dayandılar.
Onların paltarından su axırdı.
– Nə olub? – deyə Mərdan soruşdu.
– Leyla yoxdur.
– Necə yoxdur? – deyə Mərdan təəccüblə soruşdu.
– Mən iki saat bundan qabaq onu yola saldım ki, gəlib yeməkdənzaddan hazırlasın...
Mərdan dedi:
– Yəqin qayanın-zadın daldalığına çəkilib, yağışın dayanmasını gözləyir.
– Yox, o, yağışa görə yolundan qalmazdı... – deyə Laçın qayadan yerə tullanaraq, uzaqlarda görünən meşəyə tərəf yüyürdü.
– Dayan, biz də gəlirik!.. – deyə Mərdan arxadan qışqırdı.

***

... Leyla ilə oğlan dağın başına çatıb dayandılar.
... Yağış hələ də yağırdı.
... Tez-tez şimşək çaxaraq aşağıları – sel-su içində olan yaşıl çölləri, meşələri işıqlandırırdı...
... Saçlarından su axan Leyla bu mənzərəni heyran-heyran seyr edərək:
– Necə gözəldir, – deyə həyəcanla səsləndi.
Oğlan əli ilə aşağıları göstərərək:
– Təxminən də olsa, düşərgənizin hansı tərəfdə olduğunu təyin eləyə bilmirsiz? – deyə soruşdu.
Qız şad və biganə ifadə ilə:
– Yox, – dedi.
Oğlan bilaixtiyar gülümsəyib başını buladı.

– Nə olub? – deyə qız maraqla soruşdu.

– Heç...

Qısa pauzadan sonra zarafatla əlavə etdi:

– Heç bilmirəm mənə rast gəlməsəydiniz, sizin halınız necə olardı...

– Yəqin ki, yorulub əldən düşəndən sonra bir yerdə yıxılacaqdım... Canavar da buyurub arxayın-arxayın məni yeyəcəkdi... Daha bu barədə baş sındırmağa dəyməz. Bir də siz hələ məni bir yana çıxarın, sonra öyünün...

– Bu da düz sözdür, – deyə oğlan gülümsədi. – Getdik...

– Getdik! – deyə qız təkrar etdi və üzüaşağı götürüldü.

– Nə edirsiniz? – deyə oğlan qışqırdı. – Dayanın!

Qız addımlarını yavaşıtdı. Oğlan ona çatıb:

– Belə yerlərdə, – dedi, – zarafat olmaz...

***

... Mərdan, Laçın və Elxan meşə ilə irəliləyərək həyəcan və təlaş içində qızı axtarırdılar. Laçın tez-tez əlini ağzına qoyub çığırırdı:

– Leyla, hey!..

Elxan əlini ağzına qoyub çığırırdı:

– Leyla, hey.

Mərdan qaşqabaqlı bir sükutla budaqları aralayıb, kolların qaranlıq diblərini... mağaraları nəzərdən keçirdi...

***

Oğlan ilə Leyla sıldırımlı dağ aşırımını enirdilər.

Artıq qaranlıq düşmüşdü.

Oğlan qabaqda gedərək yolu əl fənəri ilə işıqlandırırdı...

– Buralar yaman sürüşkəndi, diqqətli ol, – deyə oğlan çiyni üzərindən geri qanrıldı...

Və sanki qız bir an nəzərlərini yerdən çəkib ona baxdığı üçün nəyə isə ilişib yıxıldı...

Oğlan hövlnak geri döndü və əyilib qızın əlindən tutaraq:

– Eybi yoxdur, – dedi, – qalxın.

Qız oğlanın əlindən yapışaraq qalxdı. Lakin həmin anda da:

Oy... – deyib, yerə oturdu.

– Nə oldu? – deyə oğlan təşvişlə işığı onun üzünə saldı.

Qız ağrının şiddətindən üz-gözünü turşudaraq:

– Deyəsən, ayağım burxuldu, – dedi.





... Meşədə üç balaca işıq sürətlə ora-bura hərəkət edirdi və ara-sıra, Leyla hey! – deyə gah Laçının, gah da Elxanın səsi eşidilirdi...

Oğlan qaranlıqda əlini qıza uzatdı:

– Gəl, bir də yoxlayaq, – dedi.

Leyla onun əlindən tutaraq, qalxmağa çalışdı. Lakin ağrının şiddətindən dodağını bərk-bərk dişləyərək, yerə oturub, bir neçə saniyə gözü yumulu qaldı, sonra oğlana müraciətlə və qəti şəkildə dedi:

– Bilirsinizmi, nə var? Siz gedin. Əgər, bir şenliyə rast gəlsəniz, atdan-eşşəkdən tapıb, gəlib məni də apararsınız.

– Elə şey olmaz. Mən sizi burda tək-tənha qoyub gedə bilmərəm. Qalxın, məndən yapışın, siz bir ayaqlı, mən də iki ayaqlı, yavaş-yavaş gedək.

... Və o qızın qollarından tutub qaldırdı.

– Ağrıyan ayağınızı yerə asta qoyun.

Qız əli ilə onun çiynindən yapışdı... Sonra onlar yoxuşu enməyə başladılar.

Qız ağrının şiddətindən dodağını bərk-bərk sıxmışdı. Oğlan bunu hiss edirdi.

***

... Meşənin içində, balaca bir təpənin üstündə üç işıq bir-birinə yaxınlaşdı.

– Gərək mən axmaq onu tək buraxmayaydım... – deyə Laçın yana-yana dilləndi.

– Sən hardan biləydin ki, bir dəqiqənin içində elə tufan qopacaq, – deyə Elxan məyusluqla cavab verdi.

– Gərək biləydi, – deyə Mərdan papiros çıxarıb yandırdı. – Mən sizə demişdim ki, bu yerlərin havası dəqiqədə bir rəngə düşür. Görürsünüzmü, on dəqiqə bundan qabaq göy zülmət idi... Amma indi ulduz ulduzu çağırır.

Və o, papirosundan dərin bir nəfəs alaraq:

– Ancaq indi bu barədə gileylənməyin vaxtı deyil, – dedi. – Leyla düşərgəyə qərb tərəfdən gəlməli idi. Ona görə, biz də şərqdən qərbə doğru, ta meşədən çıxana qədər axtarışı davam etdirməliyik. Bir-birimizdən on beş-iyirmi addımdan çox aralanmamalıyıq.

***

... Qız uzaq dağın döşündə zəif bir işıq görcək sevinclə səsləndi:

– İşıq!..

Oğlan gözlərini yoldan çəkib baxdı.

Qız dedi:
– Qoyun mən burda oturum, siz gedin o işıq gələn yerdən...
– Olmaz! – deyə oğlan onun sözünü kəsərək, papiros çıxarıb yandırdı və bir nəfəs çəkəndən sonra zarafatyana dedi:
– Bu saat canavarın cavan qadın ətinə yerikləyən vaxtıdır...
... Onlar böyük çətinliklə irəliləyirdilər. Oğlanın üzündən tər axırdı.
... Birdən qız yerə çökərək:
– Yox, – dedi, – daha gedə bilmirəm.
... O zaman oğlan tüfəngini belinə keçirib, ani bir çevikliklə qızı iki qolu arasına alaraq yoluna davam etdi.
– Nə edirsiniz? – deyə qız oğlanın qolları arasında çırpındı. – Axı, siz də taqətdən düşmüsünüz... Qoyun yerə.
– Sakit! – deyə oğlan qəzəblə səsləndi.
Və bir neçə saniyə sonra qəribə bir mehribanlıqla əlavə etdi:
– Siz o qədər də ağır deyilsiniz.
Qız ona baxdı. Oğlan bu baxışları hiss etsə də, gözünü yoldan çəkmədi...
... Oğlan çətinliklə nəfəs alırdı.
– Məni qoyun yerə, bir az dincəlin, – deyə qız, sanki ən yaxın adamına müraciət edirdi.
Oğlan cavab verməyərək, yoluna davam edirdi. Onun üzündən sel kimi tər axırdı.
– Ayağınız çox ağrıyır? – deyə oğlan eyni mehriban ifadə ilə soruşdu.
– Sizin əziyyətiniz məni ayağımdan çox incidir, – deyə qız üsyankar ifadə ilə cavab verdi.
... Oğlan cavab vermədən yoluna davam edirdi.
Qız sağ əlini qaldırıb, oğlanın çılpaq boynundan tutaraq, gözlərini yumdu və elə bu zaman işıq gələn tərəfdə itlər hürüşdü. Sonra:
– Əyə, kimsən hey, – deyə qaranlıqdan soruşdular...
İtlər daha bərkdən hürüşdü.
Oğlan bərkdən cavab vermək istədi. Lakin nəfəsi çatmadı.
– Ə, niyə dinmirsən? – deyə səs təkrar eşidildi. – Kimsən, səsini çıxar! Yoxsa odladım...
Və qaranlıqda çaxmaq şaqqıltısı eşidildi.
O zaman oğlan qızı usdufca yerə qoyaraq, nəfəsini bir an dərdi:
– Yol azmışıq, – deyə batqın səslə cavab verdi. – Yaxın gəl, kömək elə!..
– Nəyə kömək eləyim? – deyə indi səs yaxından eşidildi və oğlan əl fənərinin işığını həmin tərəfə saldıqda, çiynində yapıncı, əlində





beşatılan tüfəng olan cavan bir adamın dayanıb onlara baxdığını gördü və acıqlı bir ifadə ilə:
– Niyə durmusan, – dedi, – quldur-zad deyilik ki...
Çoban ehtiyatla yaxınlaşaraq:
– Bu qıza nə olub, ə? – deyə soruşdu.
– Bu oğlan, qızı yeddibaşlı divin tilsimindən qurtarıb qaçıranda yıxılıb, ayağı burxulub, – deyə qız cavab verdi.
– Necə? – deyə çoban təəccüblə səsləndi.
Oğlan belə bir vəziyyətdə zarafat eləyən qıza təəccüblü bir nəzər salaraq, əyilib onu yerdən qaldırdı... Sonra amiranə bir səslə çobana dedi:
– Düş qabağa...
... Çobanın balaca otağı fənər ilə işıqlanmışdı... Ortada ocaq yanırdı.
– Buyurun, – deyə çoban, onları özündən qabaq içəri buraxdı.
Oğlan qızı ocağın qırağındakı ayı dərisinin üstünə qoyaraq, dərindən nəfəs aldı.
– Deyəsən, yaman yorulmusan... – deyə çoban oğlana baxaraq, çayniki ocağın üstünə qoydu. Sonra qıza ötəri bir nəzər salıb soruşdu:
– Hansı ayağındır?
Qız sağ ayağını göstərdi.
Çoban bir anlıq tərəddüddən sonra, ocağın yanındakı kötüyün üstündə oturmuş oğlana müraciətlə:
– İzin versəydin, baxmaq olardı...
– Bəyəm başın çıxır? – deyə oğlan birdən-birə canlanaraq soruşdu.
– Bir az başım çıxır, mənim atam da, babam da sınıqçı olublar.
Qız ayağını irəli uzadaraq, – gəlin baxın, – dedi.
Lakin çoban yerindən tərpənməyərək, eyni tərəddüd içində oğlana işarə ilə:
– Əgər, – dedi, – yoldaşın razı olarsa, baxmaq olar...
Qız ayağının ağrısına baxmayaraq, bərkdən güldü:
– Yoldaşım qısqanc deyil, gəlin baxın, – dedi.
Oğlan ciddi ifadə ilə çobana dedi:
– Bax, görək nə olub?
... Çoban qızın çəkməsini, corabını usdufca çıxararaq, onun gözəl ayağını diqqətlə müayinə edirdi...
Oğlan qaşqabaqlı nəzərlərlə baxırdı.
Qız dodaqlarını bərk-bərk sıxaraq, ağrıya davam gətirməyə çalışırdı.
... Çoban qızın ayağına nə isə elədi. Qız bərkdən qışqırdı!
... Çoban qızın ayağını sarıyıb qurtarandan sonra:
– Qorxma, – dedi, – tez sağalar.

01/01-22

Sonra oğlana müraciətlə əlavə etdi:

– Ancaq beş-altı gün gərək uzansın.

– O... beş-altı gün... – deyə qız oğlana baxdı.

– Azı... – deyə çoban, nə üçünsə gülümsədi.

Sonra balaca taxta şkafı göstərib dedi:

– Orda çörək, pendir... çay, qənd də var... Mən gedirəm qoyunun içinə, siz pal-paltarınızı qurudun, rahatlanın.

Sonra qatlama çarpayıya işarə ilə dedi:

– O da mənim yorğan-döşəyimdir. Rəbiyə bu gün təzə döşəkağı, yastıqüzü göndərib... Heç hələ qatını da açmamışam...

– Rəbiyə arvadındır? – deyə qız maraqla soruşdu.

– Bəli, arvadımdır, – deyə çoban xəfifcə gülümsədi. – Özü də yeddi oğul, bir qız anasıdır. O «Vaqif»dəki küpəgirən qarı demişkən...

– Özünüz belə cavan... – deyə qız gülümsəyərək, cümləsini bitirmədi.

– Cavan deyəndə ki... siz deyən çox da cavan deyiləm. Otuz səkkiz yaşım var... Ancaq Rəbiyə ilə yarışa girmişik, o, uşaqların sayını artırmaqdadır, mən də qoyunların... görək axırı nə olur...

– Yaxşı yarışdır... – deyə qız bərkdən güldü...

– Gecəniz xeyrə qalsın, – deyə çoban qalxıb yapıncısını götürdü...

Qız soruşdu:

– Bəs, siz özünüz harada yatacaqsınız?

– Qoyunun içində.

Və gülümsəyərək əlavə etdi:

– Göydəki ağ buludlar yorğanıdır çobanın! Yadınızdadır, məktəbdə oxuyardıq...

... Çoban gedəndən sonra balaca otağa ani bir sükut çökdü. Hər ikisinin gözü çırtıltı ilə yanan ocağa zilləņmişdi.

– Yamanca kələyə düşdük... – deyə, nəhayət, qız gözlərini ocaqdan çəkib oğlana baxdı.

– Bir kələyi yoxdur. İşdir olub, ancaq, sizinkilər indi yəqin ki, yaman təşviş içindədirlər.

– «Bizimkilər», – deyə Leyla zarafatyana cavab verdi, – ərimlə iki geoloq yoldaşımdan ibarətdir... Onlar da kişidirlər, dözərlər...

– Ata-ananız yoxdur?

– Heç kəsim yoxdur.

... Yeganə stəkanda qıza, dəmir dolçada da özünə çay tökdü...

... Sonra oğlan yorğan-döşəyə təzə yastıqüzü, təzə döşəkağı çəkərək:

– Bu lap ingilis kraliçasına layiq yer oldu, – dedi və qızın əllərindən tutaraq qaldırdı.






– Bəs siz? – deyə qız çarpayının üstündə oturaraq soruşdu.

Oğlan ocağın qırağındakı ayı dərisini göstərdi:

– Siz soyunun yatın. Mənə görə narahat olmayın, – dedi və qapıdan çıxdı.

... Qız soyunub paltarlarını ocağın yaxınlığındakı stolun üstünə sərərək, çarpayıya uzandı...

***

... Məcməyi boyda Ay üfüqdən qalxaraq, meşəli dağları, çölləri gümüş kimi işıqlandırdı.

... Oğlan yavaş-yavaş addımlayaraq, böyük ağıla yaxınlaşdıqda, itlər bərkdən hürüşdülər...

– Ay it! – deyə qədd-qamətli çoban ağılda yatışan qoyunların arasında göründü.

... Oğlan ilə çoban ağılın kənarında dayanmışdılar.

Çoban deyirdi:

– Düzü, mən meşənin o biri tərəfində olmamışam. Ona görə də, o yerlərə bələd deyiləm. Bu tərəflərdə də qızıl axtaranlara rast gəlməmişəm... Səhər açılsın, xeyir gəlsin...

Qısa sükutdan sonra çoban əlavə etdi:

– Aydın burda olsaydı...

Oğlan soruşdu:

– Aydın kimdir?

– Mənim çoban yoldaşımdır. Toy eləyəcək. Ona görə də, kolxozdan bir aylıq məzuniyyət götürüb.

– Tək sənin üçün çətin olar...

– Eybi yoxdur, – deyə çoban arxayınlıqla cavab verdi. – Sağlığına işimiz pis deyil. Keçən il hər qoyundan iki bala almışıq. Bu il də elə olacaq... Qoyun bərəkətli heyvandır. Camaatı yavanlıqdan korluq çəkməyə qoymur...

– Kəndiniz bura yaxındır?

– Yox... Yüz səksən kilometrdir, odur, o işıq gələn də bizim kolxozun binələridir.

– Sənə əziyyət verdik...

– Sağ olmuş, əziyyət nədir? O gün nazir də gəlib bura çıxmışdı. Deyir, Rəşid, bu yiyəsiz dağlarda darıxmırsan? Dedim, əşi, bu qədər dövləti (çoban əli ilə ağılda yatışan qoyun sürüsünü göstərdi) bəsləyən də darıxarmı...

«Eh...» deyə o, dərindən nəfəs aldı:

– Çobanın canı bu dağlardadır. Evə gedib çimirəm, təmizlənirəm, sağlığına televizorumuz da var, radiomuz da. Rəbiyə ipək yorğan-

22*

döşəkdən taxtın üstündə yer salır. Di gəl ki, bu qoyunun içində yatmağın ləzzətini vermir.

– Uşaqlardan məktəbi qurtaran var? – Oğlan döşündən asdığı tranzistoru qurdalaya-qurdalaya soruşdu.

– Var. Böyük oğlum keçən il universitetə girdi... Qız da bu il məktəbi qurtarır...

Bir qədər susduqdan sonra əlavə etdi:

– Qoy oxusunlar. Onlar ayrı cür yaşayacaqlar.

... Sonra çoban göyə baxaraq dedi:

– Radionu bir açsana. Konsertin vaxtıdır.

– Nədən bilirsən? – deyə oğlan soruşdu.

– Ulduzlardan.

Oğlan tranzistoru qurdu...

Aydınlıq içində olan dağlara, çöllərə qədim bir Azərbaycan mahnısı yayıldı.

... Oğlan sakitcə otağa daxil oldu.

... Qız çarpayıda şirin yuxuya getmişdi. Onun yarıya qədər çılpaq sinəsi aramla enib qalxırdı...

... Oğlan səs salmamağa çalışaraq, çırağı söndürüb, çəkmələrini çıxartdı... Sonra plaşına bürünüb, ocağın qırağındakı ayı dərisinin üstünə uzandı.

... Murov dağlarının yiyəsiz ətəklərində bütün insanlardan uzaq üç nəfər yuxuya getmişdi.

... Çoban, yapıncısına bürünərək başını iri qoçun quyruğu üzərinə qoyub, qoyunların arasında yatmışdı...

... Artıq sönməkdə olan ocağın zəif ziyası oğlanın üzünü və qızın yarıaçıq sinəsini işıqlandırırdı.

***

... Qalın meşənin ortasında alovlanan böyük ocağın qırağında üç nəfər oturmuşdu.

... Mərdan kürəyini iri palıda söykəyərək yuxulamışdı...

... Elxan gözlərini ocağa zilləyərək xəyala getmişdi...

Laçın dalbadal papiros çəkərək, diqqətlə meşədən gələn səsləri dinləyirdi...

... Ay yavaş-yavaş dağların arxasına enirdi...

... Bir qırqovul xoruzu qanadlarını çırparaq, yarpaqlar arasından başını çıxarıb, günəşin üfüqdə lalətək qızaran ilk işığına baxdı.





***

... Sanki qız balaca pəncərədən üzünə düşən günəş işığından diksinərək gözlərini açıb, ocağın üstündə çay dəmləyən oğlanı gördü... Və oğlanın günəşdən, ayazdan yanmış sərt çöhrəsi onun nəzərləri qarşısında qəribə bir aydınlıqla böyüdü...

– Yaxşı yatdınız?

... Qız cavab verməyərək, ona baxıb gülümsəyirdi...

– Niyə gülürsünüz? – oğlan soruşdu.

– Gecə sizi yuxuda görürdüm.

– Nə cür?

– Görürəm ki, bulağın yanındakı qayanın üstündə bir ayı durub bizə baxır. Mən, «Vur o ayını» deyə qışqırıram. Siz isə, qaşqabağınızı töküb, cavab vermirsiniz... O zaman mən, sizi qollarınızdan tutub bərk-bərk silkələyirəm... Siz dinmirsiniz ki, dinmirsiniz...

– Sonra nə oldu?

– Daha heç nə xatırlamıram...

Sonra qız təkrar gülümsəyərək soruşdu:

– Siz həmişə belə qaşqabaqlı olursunuz?

– ... Bilmirəm... O barədə mənə bir söz deyən olmayıb. Məgər, mən qaşqabaqlıyam?

– Yox, yaman üzügülərsiniz... – deyə qız elə təbii üsyankarlıqla cavab verdi ki, oğlan özünü saxlaya bilməyib gülümsədi.

... Çoban içəri girib, his basmış badyanı oğlana uzatdı:

– Al bişir. Yoldaşın içsin. Qara qoyundan sağmışam.

Qız şaqqıltı ilə gülərək dikəlib oturdu.

Çoban gülümsəyib:

– Bacı, – dedi, – Molla Nəsrəddin demişkən, deyəsən, işin düzəlib, gülürsən...

– Necə məgər? – deyə qız heç də pərt olmayaraq soruşdu.

– Demək istəyirəm ki, deyəsən, ayağın incitmir...

– Az-az ağrıyır, – deyə qız yorğanı sarıqlı ayağının üstündən kənara çəkdi.

– Bu saat ona da əncam çəkərik... – deyə çoban çuvaldan balaca ləyənə bir ovuc un qoydu.

... Çoban qızın ayağını açaraq, yenidən diqqətlə nəzərdən keçirdi.

– Görürsənmi – topuğunu oğlana göstərdi – burada balaca şiş var.

... Sonra çoban həmin undan düzəltdiyi təpitməni usdufca qızın topuğuna qoyub sarıdı:

– Bu, ağrısını da, şişini də çəkəcək... Ancaq, hələlik, bu ayağını yerə lap usdufca qoy...

Sonra çoban dikəlib:
– İndisə, – dedi, – məni bağışlayın, qoyunu örüşə aparıram...
Və o, balaca şkafdan çörək-pendir götürüb:
– Xahiş edirəm özünüzü öz evinizdəki kimi hiss eləyəsiniz, – dedi və otaqdan çıxdı.
Qız oğlana baxıb:
– Bilirsiniz, – dedi, – bayaq nəyə gülürdüm? Çobanın sizi mənim həyat yoldaşım hesab eləməyinə...
Oğlan ciddi ifadə ilə cavab verdi:
– Bayıra çıxmaq istəyirsiniz?
– İstəyirəm.
... Oğlan qızın qoluna girərək, otaqdan çıxartdı...
... Bayırda yamacları, çölləri bürüyən lalələr, sarı çiçəklər yaz günəşinin brilyant kimi parlaq işığı altında alışıb-yanırdılar...
... Lap uzaqlarda çobanın qoyunları göbələk kimi dağın döşünə səpələnmişdi.
Oğlan, qızı qayadan qaynayıb çıxan bulağın yanına gətirərək: – Siz yuyunun, – dedi, – mən gedim südü qaynadım. Qurtaranda səsləyərsiniz.
– Oldu... – deyə qız cavab verdi.
Oğlan çevrilib otağa doğru addımladı... Qız onun ardınca baxdı...
... Qız ilə oğlan balaca stolun ətrafında oturub, səhər yeməyi yeyirdilər. Qabaqlarında çörək-pendir, yağ və süd var idi.
– Mən yeddi arxa dönənlərimizin hamısının adlarını sizə dediyim halda, siz nə üçün öz adınızı, nə işlə məşğul olduğunuzu demirsiniz?
– Adım ovçu... Özüm ovçu! – deyə oğlan zarafatyana cavab verdi.
Sonra süddən bir qurtum alaraq:
– Siz uzanarsınız, – dedi, – mən də gedib yoldaşlarınızı axtararam. Bəlkə bir şey çıxdı...
– Yox... yox... mən burda tək qala bilmərəm. Bir də ki, siz, onsuz da, mənim üstümdə az əziyyət çəkməmisiniz... Əgər, yaxşı yoldaşlardırsa, qoy onlar məni axtarıb tapsınlar...
– Onlar sizi axtarıb tapanacan, ərinizdə can qalmaz...
– Can qalar... – deyə qız başını tərpətdi. – Yoxsa ki, kişilərə etibar var...
– Nə üçün kişilər sizin nəzərinizdə belədirlər...
– Siz zarafat eləyirsiniz... Amma mən yox...
– Görünür, sizin, nə isə, ciddi bir narazılığınız var...
– Biz çox şairanə bir eşq macərası ilə evlənəndən iki ay sonra, ərim, tez-tez bizə gəlib-gedən bir rəfiqəmə eşq elan eləmişdi...
– Bəs, sonra nə oldu?





– Sonra o, and içib, məni inandırmağa çalışdı ki, guya, hissə qapılıb, səhv eləyib... Mən də onu bağışladım.
Oğlan qaşqabaqlı halda dedi:
– Madam ki, bağışlamısınız, daha o əhvalatı xatırlamaq lazım deyil.
– Mən ərimi ona görə bağışlamadım ki, ona inandım. Əksinə, onun xəyanəti (əgər, o hərəkəti xəyanət adlandırmaq düzgündürsə) məni başa salmışdı ki, əbədi məhəbbət... filan... boş sözdür... nağıldır...
– Hər halda, insanların yaxşı arzularından doğan nağıldır... Ona görə də, boş söz deyil.
Qız istehzalı təbəssümlə:
– Bilirsinizmi, – dedi, – belə-belə romantikanın Yer planetilə vidalaşdığı vaxtdan çox sellər... sular axıb gedib.
... Sonra qız zədələnmiş ayağına işarə ilə:
– Deyəsən, çoban qardaş çox bərk bağlayıb, bəlkə sarığı bir az boşaldasınız, incidir...
Oğlan sarığı açıb, yenidən bağlayırdı. Qızın çılpaq qılçı həddindən artıq cazibədar idi.
... Qız cavan oğlanın hər bir hərəkətini, üzünün ifadəsini qəribə bir maraq və diqqətlə izləyirdi.
Və oğlan bunu hiss edirdi...
– Ağrımır? – deyə, nəhayət, o, gözünü sarıqdan çəkməyərək soruşdu.
– Bilmirəm... – deyə qız gülümsəyərək müəmmalı cavab verdi. – Hiss eləmirəm...
Oğlan sarığı bağlayıb sərt səslə:
– Uzanın, – dedi.
Qız jaketini çıxararaq arxası üstə çarpayıda uzanıb çılpaq qollarını başının altında çarpazladı. Onun çöhrəsi, boğazı, sinəsi kamil bir gözəllik nümunəsi idi. Onun üzündə meydan oxuyan bir təbəssüm vardı.
Oğlan papiros çıxarıb yandırdı... Qız dedi:
– Özünüz haqqında danışmırsınız, danışmayın... Heç olmazsa, deyin görüm evlisiniz?
– Evliyəm... – deyə oğlan quru ifadə ilə təsdiq etdi.
– Yəqin ki, arvadınız çox gözəldir.
– Nədən bilirsiniz?
– Özünüz bu qədər gözəlsiniz, məlumdur ki...
Oğlan darıxırmış kimi onun sözünü kəsdi:
– Mən kişini gözəl adlandırmağı xoşlamıram, – dedi.
– Xoşlasanız da elədir, xoşlamasanız da... – deyə qız qəhqəhə ilə güldü.

– Yaxşısı budur, – deyin görüm nahara nə hazırlamağı əmr edirsiniz? Kəklik bulyonu, yoxsa qırqovul kababı?

– Ovladığınız quşları bişirib qurtararıq, sonra xanımınız acıqlanar.

– Acıqlanmaz. Mənim xanımım siz düşünən kimi darürəkli deyil, – deyə ovçu qaşqabaqlı cavab verdi. – Bağışlayın, mən zarafat elədim.

– Uşaqlar, gəlmək olar? – deyə çobanın bayırdan səsi eşidildi.

Qız jaketini tələsik əyninə geyəndən sonra:

– Gəl, – dedi.

Çoban ovladığı əliyi yerə qoyub:

– İndicə vurmuşam, – dedi.

– Harda? – deyə qız həyəcanla səsləndi.

– Sürünü meşəyə tərəf aparırdım, qəfil çıxdı qarşıma.

– Nə üçün vururdun?

– Nə təhər, yəni, nə üçün vururdum? – deyə çoban təəccüblə qıza baxdı.

– Gör necə gözəldir, – deyə qız heyranlıqla güllə dəymiş əliyə baxırdı...

– Bilmirsən ki, qadın tayfasının ürəyi nazik olur? – deyə oğlan gülümsədi.

Çoban qıza baxaraq:

– Bizim arvadlar elə deyil, – dedi.

Sonra əlavə etdi:

– Sürü yiyəsizdir, mən qaçdım...

Sonra çoban, oğlandan soruşdu.

– Soymaq əlindən gəlir, yoxsa, mən soyum?

– Əlimdən gəlir.

... Qız oğlana dedi:

– Mən siz düşünən qədər də ürəyinazik deyiləm... Məsələn, əgər, çoban pələng vursaydı, mənə ləzzət eləyərdi... Əlik isə, yazıq, köməksiz heyvandır.

Oğlan zarafatyana bir ifadə ilə:

– Yaxşısı budur, – dedi, – mən əliyi soyum, doğrayım...

– Kobud!!! – deyə qız anlaşılmaz bir qəzəblə səsləndi.

Oğlan gülümsədi:

– Ovçu kobud olmasa, o qədər qan tökə bilməz.

– Xahiş edirəm istehzanızı saxlayasınız, özünüzə lazım olar.

Görüşdüklərindən bəri, birinci dəfə olaraq, oğlan qəhqəhə ilə güldü. Qız ona məzəmmətlə baxaraq:

– Demək, məni yandırıb-tökməkdən ləzzət alırsınız?

Oğlan eyni şən əhvali-ruhiyyə ilə:

– Axı, – dedi, sizin yanıb-tökülməyiniz üçün heç bir əsas yoxdur...





Qız sanki birdən yuxudan ayılaraq, ovçuya ani bir nəzər salıb, üzünü pəncərəyə sarı çevirdi.

... Oğlan əliyi stolun üstünə qoyub, ov bıçağı ilə dərisini qarnından ta boğazına qədər cıraraq, mehriban ifadə ilə dedi:

– Bu saat xəstəmiz üçün elə bir kabab bişirəcəyəm ki, yeyən kimi ayağı sağalsın.

Lakin qız onu eşitmirdi...

***

... Böyük qoyun sürüsü dağın döşünə yayılıb otlayırdı.

... Çoban Rəşid, təzəcə doğulmuş quzunun yerə çökərək, anasını necə acgözlüklə əmməsinə baxırdı.

... Birdən itlər hürüşüb üzüaşağı götürüldülər.

Ay it, ay it! – deyə çoban qalxıb, onların ardınca yüyürdü.

... Büsbütün yorulub əldən düşmüş Laçın, Mərdan və Elxan ona çatıb dayandılar.

Çoban soruşdu:

– Kimsiniz?

Mərdan dedi:

– Mühəndisik, srağagünkü tufanda bir qız yoldaşımızı itirmişik. Bəlkə görmüş olasan...

– Xeyr, rast gəlməmişəm. O axşam mənim dəyəmə cavan bir ər-arvad gəlib çıxıb. Onlar da tufana düşüb azıblar...

– Ər-arvad? – deyə Laçın məyus halda soruşdu.

– Bəli, ər-arvad, yazıq qız da yolda yıxılıb, ayağı sərpib, dəyədə yatır.

Mərdan:

– Haradan gəlib, hara gedirlər?

– Soruşmamışam. Qonaqdırlar.

Mərdan yoldaşlarına dedi:

– Gedək onları görək. Bəlkə bir şey bildilər.

Sonra Mərdan çobandan soruşdu:

– Dəyən hardadır?

– Odur ey, o şiş dağın altında...

***

... Oğlan bişirdiyi kababları gətirib qızın qabağındakı boşqaba çəkdi:

– Yeyin.

Qız istehza qarışıq bir təbəssümlə dedi:

– Siz məni lap İran şahzadəsitək bəsləyirsiniz...

Oğlan gülümsədi:

– Neyləyək, borcumuzdur...

– Borcunuz olmasaydı, bəsləməzdiniz?

– Məni elə dərinliklərə çəkməyin...

– Dərinliklərə getməkdən qorxursunuz? – deyə qız götürdüyü tikəni hələ də barmaqları arasında tutaraq soruşdu.

– Qorxuram... – deyə eyni zarafatla davam etdi. – Dərinlik çox zaman qaranlıq olur... O qaranlıqda da bizi nə gözlədiyini bilmirik.

– Zənnimcə, siz qorxaq deyilsiniz...

– Bilirsinizmi, – deyə oğlan bu dəfə zarafatmı, ciddimi olduğu məlum olmayan bir ifadə ilə dedi, – qorxaqlıq da qəhrəmanlıq, cəsarət kimi çox mürəkkəb məsələdir... Ona görə də, kababı soyutmayın...

Qız dərindən nəfəs alaraq:

– Gəlin siz də oturun, – dedi.

– Bu saat, – deyə oğlan ocaqdakı şişləri çevirərək, gəlib qızla qabaq-qabağa oturdu.

Qız dedi:

– Ömrümdə belə ləzzətli kabab yeməmişəm.

– «Bir» – sizdə! – deyə oğlan gülümsədi.

– Nə üçün?

– Bayaq çobanın əliyi vurmağına təəssüf edirdiniz... Amma indi o günahsız heyvanın kababından ləzzətlə yeyirsiniz.

– Bir halda ki, həyat anlaşılmaz ziddiyyətlərdən ibarətdir... biz neyləyə bilərik...

– Siz bu yaxşı tikəni götürün, özünüz də o barədə narahat olmayın. Vaxtı gəldikdə, ziddiyyətlər aydınlaşır, bütün sirlərin tədriclə açılması həyatın gözəl qanunlarından biridir.

Qız oğlanın göstərdiyi tikəni yeyə-yeyə zarafatla dedi:

– Bütün ziddiyyətlərin sirri açılsa da, sizin rəftarınızdakı ziddiyyətlərin sirri açılmaz.

Oğlan səmimi təəccüblə soruşdu:

– Siz mənim rəftarımda nə ziddiyyət görürsünüz?

Qız cəsarətlə davam etdi:

– Nə üçün siz mənim üstümdə iş-gücünüzü buraxıb, bu qədər əziyyət çəkirsiniz? Siz məni ölümdən qurtararaq, bura gətirib çıxarandan sonra çobana tapşırıb, gedə bilərdiniz...

– Mən çobanın necə adam olduğunu bilmirdim. Ona görə də, sizi ona tapşırıb gedə bilməzdim...

– Siz özünüzün necə adam olduğunuzu bilirsiniz?

– Şübhəsiz.





– Sizə nə dəxli vardı ki, çoban mənimlə necə rəftar edəcəkdi?

– Dəxli var idi! – deyə oğlan sərt ifadə ilə cavab verdi. – Aydındırmı?

– Deyəsən, aydındır... – deyə qız dərindən nəfəs aldı.

... Bir-birilərinin ardınca gənc geoloqlar dəyəyə daxil olub, təəccüb içində dayandılar. Qız isə, heç bir təəccüb və həyəcan əlaməti duyulmadan gülümsəyib:

– Xoş gördük, köhnə dostlar... – dedi, – özünüzü yaxşı yerə verminiz... Biz əliyin kababına təzə başlamışıq... Sizi də yaman saqqal basıb. Gərək ki, mənim yox olduğumun üçüncü günüdür. Necəsən, Laçın?.. Saqqal sənə nə yaxşı yaraşır.

Sonra qız oğlana:

– Tanış olun, – dedi, – bu mənim həyat yoldaşımdır, bunlar da dostlarımız.

Oğlan əvvəl Mərdanla, sonra da Elxanla əl tutuşdu. Sonra gözlərini qəzəblə qıza zilləmiş Laçının münasibətini hiss edərək, ona əhəmiyyət vermədən:

– Siz əyləşin, – deyə Mərdanla Elxana müraciət etdi, – mən də kababın işinə baxım.

Və oğlan ət çəkilmiş şişləri götürüb bayıra, ocağın yanına getdi.

– Bu kimdir? – deyə Laçın buz kimi soyuq ifadə ilə soruşdu.

Leyla ona uzun bir nəzər salaraq:

– Mənim xilaskarım! – deyə sakit təbəssümlə cavab verdi. – Sən ona təşəkkür elə!..

– Üç gün səninlə bu otaqda qaldığına görə?

Leyla eyni sakitliklə:

– Yox, – dedi, – məni ölümdən qurtardığına görə, o qiyamətdə məni yeddi-səkkiz kilometr qucağında gətirib, bura çıxardığına görə... Üç gündən bəri gecə-gündüz mənə xidmət elədiyinə görə... Aydındır?

– Aydındır! – deyə Laçın kəskin istehza ilə cavab verərək, papiros çıxarıb yandırdı. – Çobanın nə üçün sizi ər-arvad adlandırdığı da aydındır...

Leyla qəhqəhə ilə gülərək dedi:

– Çobanın səhvini zarafata salırdıq... Ona görə də, həqiqəti açıb demirdik...

– Bəsdir, – deyə Laçın hiddətlə qışqırdı. – Xalqı uşaq yerinə qoyma.

– Yaxşı, – deyə Mərdan qaşqabaqla Laçına baxdı. – Məşədi İbad kimi o saat özündən çıxma görək...

... Leyla, Mərdan. Elxan və oğlan bayırda dayanmışdılar.

Oğlan balaca tranzistoru qıza uzadaraq:

– Rica edirəm, – dedi, – bunu verin çobana, deyin ki, ona bağışlayıram.

... Leyla gözləri ona dikilib qalmış olduğu halda, tamamilə qeyri-şüuri bir hərəkətlə tranzistoru alıb, boynuna aşırdı.

... Sonra oğlan onlara xəfifcə baş əyərək:

– Sağ olun... – deyib sürətli addımlarla getdi.

– Dayanın! Bir dəqiqə... – deyə Leyla arxadan qışqırdı.

Oğlan ayaq saxlayıb geri döndü. Leyla axsaya-axsaya ona çataraq, qollarını boynuna dolayıb, hər iki üzündən öpdü:

– İndi gedin...

Oğlan gedir... Leyla baxırdı...

– Məndən xanımınıza salam yetirin... – deyə Leyla təkrar arxadan qışqırdı, – deyin, mən ona həsəd aparıram, eşidirsinizmi, həsəd!

Oğlan qanrılıb əlini havada yelləyərək, yoluna davam etdi.

Və o, qayanın arxasına burulub, görünməz olduqda, Laçın hələ də oğlanın ardınca baxan Leylaya yaxınlaşıb soruşdu:

– Nə üçün onun arvadına həsəd aparırsan? Gözəl oğlan olduğuna görə?

– Yox, – deyə qız sakit ifadə ilə cavab verdi. – Həqiqi kişi olduğuna görə!

Və o çevrilib ağır addımlarla Laçından uzaqlaşdı...

*1972*

## SƏMƏD VURĞUN HAQQINDA HEKAYƏ

Səməd Vurğunun zil qara saçları indi qar kimi ağarmışdı. Alnında dərin qırışlar əmələ gəlmişdi. Yalnız gözəl qara gözləri məşəl kimi yanırdı. O da hiss olunurdu ki, bu gözlərin arxasında dərin bir dəniz dayanmışdır, fikir... xəyal dənizi... Baxan, şairə yetmişdən çox yaş verərdi. Lakin o, hələ əlliyə çatmamışdı. Son vaxtlar özünü yaxşı hiss eləmirdi. Bədənində cürbəcür ağrılar əmələ gəlmişdi... Böyük həkimlərin dava-dərmanı təsir eləmirdi... Məsləhət gördülər ki, «Uzaq Azərbaycan dağlarındakı İstisuya getsin. Bəlkə bir şey çıxdı».

Və şair getdi... Bu, bir də ona görə ürəyindən oldu ki, dağlardan çoxdan ayrılmışdı. Ona görə də, Kəlbəcər dağlarının adını tutanda, ürəyi qubar elədi... Çoxdankı həsrəti baş qaldırdı.

Və şair dağlara getdi.

İndi İstisu, əvvəlki kimi, dərədən çıxan bir bulaq deyildi... Onun üstündə böyük müalicə hamamı, sanatoriya... yeni dəbdə binalar tikilmişdi.

Şairə gözəl otaqlar verdilər. Həkimlər də, şəfqət bacıları da, adi işçilər də gecə-gündüz ona xidmət və hörmət edirdilər.

Dağlara səs düşdü ki, Səməd Vurğun İstisuya gəlib... Çobanlar, dağlı kəndlilər dəstə-dəstə axışıb onu görməyə gəldilər. Dəli dağın yaxınlığında yaşayan qoca aşıq Dədə Şəmşir də sazını götürüb onun görüşünə gəldi.

Aşığı görəndə, şairin həmişə fikirli olan gözləri birdən-birə canlandı. Sanki iki yad ovçu bir-birinə rast gəlmişdi.

– Hardan belə, aşıq? – deyə Səməd Vurğun gülümsəyərək soruşdu.

Onun təbəssümündə hər kəs üçün doğma bir alicənablıq var idi.

– Yuxarıdan... – Dədə Şəmşir qaxac kimi qurumuş əli ilə duman altındakı dağları göstərdi.

Ordan-burdan söhbət elədilər. Sonra Səməd Vurğun dedi:

– Bir şey çal, qulaq asaq...

Dədə Şəmşir sazda Dədə Qorqud dövründən qalmış qədim bir hava üstündə oxudu:

Ömür dedikləri bir karvan yolu,
Nə canlar gələrək, nə canlar gedib...

Şair, qaşlarını çataraq, axıra qədər qulaq asdı... Onun şerindən olan bu sözlərin, bəlkə də, Dədə Qorquddan da qədim saz havasına düz gəlməsinə təəccüb etmədi. Aşıq qurtaranda, şair papiroş yandırıb, dərindən bir nəfəs alaraq dedi:

– Yaxşı, aşıq, bu məndən... Bir az da özündən de...

Dədə Şəmşirin mahnısı dağ, duman və qəhrəmanlıq haqqında idi. Babaların igidlikləri və uçurumlardan atlanan yaxşı atlar haqqında idi.

Şair, papiros çəkərək, uzaqdan baxan dağlara tamaşa edirdi.

Aşığın sözləri o dağlardan gəlirdi. Şair uşaqlıqda gördüyü Göyəzən dağını və kəndlərindəki ceyran ayaqlı qaçağan boz atı xatırladı.

Qarayanız arıq bir uşaq olarkən, boz atı çılpaq minib enişaşağı necə çapdığını gözləri qarşısına gətirərək, dərindən nəfəs alıb, təzə papiros yandırdı. Onun tütündən saralmış arıq barmaqları arasında tutduğu bahalı papirosu titrədi. O, dağlar, uşaqlıq və yadına gəlməyən anası haqqında düşünürdü. Sarp qayalı bir dağın döşündən eşib çıxardığı o soyuq bulaq haqqında düşünürdü.

Dədə Şəmşir soruşdu:

– İstisu ağrılarına kömək eləyirmi?

– Eləyər... – deyə şair asta səslə cavab verərkən, nə üçünsə, düzünü demədi.

Dədə Şəmşir:

– Eləyər, əlbəttə, eləyər, – deyə təsdiq etdi. Şəfalı sudu... – Bir az susub, sonra dedi: – Gəlmişəm səni obaya qonaq aparam...

Şair soruşdu:

– Hardadı obanız?

Dədə Şəmşir demi tutduğu əli ilə altındakı dağları göstərdi:

– Odur ey, o əyri qayanın yanında.

Səməd Vurğun soruşdu:

– Ora maşın yolu var?

– Mən sənin üçün at gətirmişəm.

Şair ruhla soruşdu:

– Yaxşı atdımı?

– Babatdır... – deyə Dədə Şəmşir cavab verdi və deminin çubuğunu ağzının küncünə qoyaraq, bir nəfəs tüstü alıb buraxandan sonra yenə dilləndi:





– İndi sən deyən atlar hardadı!..

Şair yenə də o kəndlərindəki boz atı xatırladı...

Boz at yaman həşəri idi, kişnəyəndə yer titrəyirdi... Boz atın yüz erkək qiyməti vardı...

Şair dedi:

– Yaxşı, gedək.

Sonra gözlərinin gözəl təbəssümü ilə əlavə etdi:

– Ancaq həkimlər bilməsin. Birdən buraxmazlar.

Onlar atlara minib lap yuxarı dağlara qalxdılar.

Şair, günəş işığı ilə dolu dərələrin fonunda ucalan qədim qalanın hündür burnunda qanadlarını sallayaraq, oturub sakit nəzərlərlə uzaqlara baxan bir qartal gördü və birdən-birə qəribə bir zarafatla qartala işarə edərək aşıqdan soruşdu:

– Görəsən, o, nə fikirləşir?

Dədə Şəmşir ciddi ifadə ilə:

– Kim bilir, – dedi, – bəlkə də uçurduğu cavan qartalların qayıtmağını gözləyir. İndi onların bala öyrədən vaxtıdır.

Sonra gözlərini qıyıb qartala diqqətli bir nəzər salaraq, ehtiramla əlavə etdi:

– Qocalıb...

Sakit və saymaz nəzərlərlə uzaqlara baxan qartal sanki onları heç görmürdü... Köhnə ovçu olan şair, qartalın sallaq qanadlarına, fır bağlamış iri dimdiyinə diqqət yetirərək: «Elədir, – deyə qəlbində təkrar etdi, – qocalıb...»

Sarp qayalı dağın döşündən keçən cığır çox dar olduğundan atları dal-qabaq sürürdülər. İrəlidə aşıq gedirdi. Alt tərəf göz qaraldan uçurum idi. Sıldırım qayaların üzərində ipək kimi dağ otları, sarı, boz, ağ çiçəklər bitmişdi.

Şair soruşdu:

– Bu uçurumun dibindən çay axır?

Aşıq gümrah səslə cavab verdi:

– Axır... Havalar bərk isti keçdiyindən suyu azalıb... Yoxsa, indi gurultusu dərəni götürmüşdü...

Sonra aşıq xəbərdarlıq elədi:

– Uçuruma baxma, gözün qaralar. At özü gedəcək.

Şair arxadan gülümsəyərək zarafatla cavab verdi:

– Səməd Vurğun belə çətin yollardan çox keçib, aşıq...

Dədə Şəmşir geriyə çevrilmədən sakit ifadə ilə dedi:

– Bilirəm.

Şair, aşığın günəşdən yanıb qaralmış boynuna baxaraq, dərindən nəfəs aldı, sonra cilovu yəhərin qaşına keçirib papiros yandırdı. Dağın

yuxarısındakı açıqlığa çıxdıqda, şair atın üstündən qanrılıb, aralıda qalan qartala baxdı. İşıqlı dərələrin, gümüş kimi parıldayan uçurumlu dağların üzərində, zanbaq kimi gömgöy səmanın altında qoca qartal uzaq, yalqız və əzəmətli görünürdü.

Şair, nə isə, insan səsi eşitmək üçün birdən-birə özündə şiddətli arzu hiss edərək, bir əli ilə atın cilovunu, digər əli ilə ağzında tüstülənən demisini tutmuş aşıqdan soruşdu:

– Obaya hələ çox qalıb?

– O gədiyi keçəndən sonra bircə dərə qalır, – deyə aşıq demisi ilə göstərdi.

Aşıq bir qədər susduqdan sonra, bütün yol boyu birinci dəfə geri çevrilib soruşdu:

– Yorulmusansa, düşək, bir az dincəl...

Şair, aşığın «dincələk» deyil, «dincəl» deməsinə diqqət yetirərək gülümsədi:

– Yox, – dedi. – Hələ ki, yorulmamışam.

Həqiqətən isə, onun xəstə beli ağrıyırdı... Lakin şair zəif görünməyi sevmirdi. Elə bu anda dumanlı dağlar qəribə bir ünsiyyətlə şairə baxdılar. Şair çox uzaq zamanlardan gələn bu böyük ünsiyyəti hiss elədi. Dağların yaşı çox qədim idi. Dağlara çox ellər gəlib-getmişdi. Şair, bədənindəki ağrıları, vaxtsız qocalmağını, dərdinin dərmansız olduğunu indi, birinci dəfə olaraq, çox dərin, çox kədərli bir təəssüflə hiss elədi. Dağların ünsiyyətindən əl çəkmək çətin idi. Lakin şair hər dərdə mərdanəliklə dözən adam idi. Yosunlu boz qayadan çıxan göz yaşı kimi şəffaf bulağa çatdıqda, aşıq atının başını çəkərək, geri çevrilib dedi:

– Bəlkə içmək istəyirsən, yaxşı sudur...

– Nə olar, içək... – Onlar aşırılıb atdan düşdülər.

Bulağın suyu dadlı və buz kimi idi. Şair bilirdi ki, belə soyuq su onun öskürəyinə zərərdir. Şair onu da hiss edirdi ki, artıq bu barədə düşünməyin mənası yoxdur. Eyni ilə uşaqlıqda, öz yerlərindəki dağlarda elədiyi kimi, ovcunu iki-üç dəfə doldurub içdi. Ürəkdən, özü də doyunca içdi. Bərk susamışdı. Şairin dağlardan çıxan suyu bu cür ləzzətlə içməyi Dədə Şəmşiri fərəhləndirdi. Aşıq, heybəsindən dəsmala bağlanmış bir büküm yuxa ilə motal pendiri çıxardı. Bulağın qabağından körpə yarpız yığdı. Sonra süd ətirli otların üstündə oturub yavaş-yavaş tikələdilər.

Dərələr, dağlar, otlar parlaq işıq içindəydi. Şair ağzını asta-asta tərpədərək, günəşi əks eləyən bu genişliyə baxırdı. Bu işıq dənizində bir o idi, bir də Dədə Şəmşir... və qədim qalanın üstündə qanadlarını sallayaraq oturmuş qoca qartal.

Dədə Şəmşir sazını dınqıldadaraq, asta və usta səslə oxudu:





Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan,
Eşitmişəm uzaqlardan
Sakit axan Arazları,
Sınamışam dostu, yarı...

Bütün Azərbaycana – bütün ellərə çoxdan məlum idi ki, bu sözlər şair Səməd Vurğunundur. Lakin şair indi öz sözlərinə qəribə bir maraqla qulaq asırdı. Ona elə gəlirdi ki, bu sözlər min-min il bundan qabaq deyilib... Elə bil ki, bu sözlər bu əzəmətli dağların, bu dərin və işıqlı dərələrin əbədiyyətində idi. Elə bil ki, şair özü, indi, nağıl kimi gözəl bir ölkənin, igid bir xalqın bu əbədi musiqisini dinləyən tamam kənar bir yolçu idi. Şairə indi aydın oldu ki, o, çoxdan ürəyini bu dağlara verib... Bir an şairə elə gəldi ki, yönü dağlara tərəf durub, asta səslə saz çalıb oxuyan bu qoca elə Dədə Qorqudun özüdür və birdən şair öz ölümü haqqında düşündü. Bu dərələri, dağları bir anlığa özü olmadan xəyalına gətirdi. Lakin qəribə bir aydınlıqla o dolayı cığırla Səmədin yenə də gözəl gözlərilə gülümsəyərək gəldiyini gördü. Bu Səməd daha cavan, daha şən və daha gümrah idi. Şair gümüş tülə bürünmüş o qəlbi dağın döşündə də eyni gümrahlıqla gülümsəyən Səmədi gördü... Şair, bu işıqlı-güllü-çiçəkli, uçurumlu-qayalı dünyanın fonunda öz gələcək yoxluğunu xəyalında heç cür sabitləşdirə bilmirdi. O, dərin bir nəfəs alaraq təzə papiros yandırdı.

Sonra atlara minib yola düzəldilər...

Dağlardan mavi göyə ağ buludlar qalxdı. Yel əsib qayalıqlarda bitən yumşaq otları tərpətdi. Qoca qartal, nəhayət, qanadlarını ağır-ağır tərpədərək, uçuq qaladan havaya qalxıb uçurumlu dərələrin üzərində dövrə vurdu... başında tez-tez tufanlar oynayan Dəli dağın döşündən keçən dar cığırla dalqabaq iki atlı, iki nəğməkar gedirdi və elə bil ki, onlar günəşə yol almışdılar.

... Dədə Şəmşirin obasının qabağında böyük bir izdiham dayanmışdı. Ətraf obalardan da çobanlar, qoyun saxlayan qocalar, yeniyetmə cavanlar, yay tətilini burada keçirən tələbələr tökülüb gəlmişdilər. Hamı Səməd Vurğuna «xoşgəldin» elədi. Hamı şairin qar kimi ağarmış qıvrım saçlarına, gülümsəyən gözəl gözlərinə maraqla baxırdı. Bəziləri də onun «Şair, nə tez qocaldın sən...» misrası ilə başlayan məşhur şerini xatırlayırdılar. Şairin arıq, xəstə vücudu baxışlarda təəssüf və ehtiram doğururdu. Bu hissin hikməti böyük idi. Şair onların özü idi. Şair onların ürəyi idi... Buna görə də, özünün ağır xəstə olduğunu bilən şairin gözləri belə təravətlə gülümsəyirdi...

O öz ali faciəsinin yüksəkliyində dayanmış bir igid idi.

01/01–23

Qoyunlar kəsilmişdi. Süfrəyə sarı buğda unundan bişirilmiş papiros kağızı kimi nazik yuxa bükümləri, çini kasalarda qoyun qatığı, üzlü motal pendiri düzülmüşdü. Dalbadal kabab, bozartma bişib gəlirdi...

Cavan bir çoban seçmə tikə çəkilmiş bir şiş gətirərək:

– Səməd qağa, – dedi, – sənin gəlməyini eşidib bir əlik vurmuşdum. Onun ətindəndir.

Fermanın mötəbər adamı və hamının el anası kimi tanıdığı ucaboylu Ballı arvad da ağ qalaylı mis kasada üzərinə qırmızı dağ çiyələyi düzülmüş qaymaq gətirərək:

– Qadan alım, Səməd, – dedi, – qara qoyunun qaymağıdı, ye!

Heyf ki, şairin səhhəti iradəsinə tabe deyildi. Yoxsa, dədə-babaların xeyir-bərəkəti olan bu nemətlərdən doyunca yeyərdi. İndisə o, üç-dörd tikə alıb papiros yandırdı. Oba adamları şairin belə iştahasızlığına dərin bir təəssüflə baxırdılar. Bir əsri çoxdan yola salmış qoca Bayandur dedi:

– Səməd, çox tütün çəkirsən... Özünə heyfin gəlsin.

Şair gülümsədi. Zəif görünmək istəmirdi. Ona görə də zarafatla qocadan soruşdu:

– Neçə ildir demi çəkirsən?

Qoca Bayandur qırmızı çubuğu yarım metrdən uzun olan demisindən bir nəfəs tüstü alıb havaya buraxdı. Sonra Dəli dağa baxıb aramla cavab verdi:

– Gərək, hesabla, səksən ildən artıq olsun.

Yay tətilinə gələn tələbələr gülüşdülər... Qoca Bayandur mətləbi başa düşüb, Səmədə dedi:

– Bizə baxma, biz bu dağlara güvənirik...

Şair alındı. Axı, qoca Bayandur çox böyük söz dedi: «Biz bu dağlara güvənirik...» Şair, bayaq, uçuq qaladan qalxıb dərin uçurumların üzərində ağır-ağır dövrə vuran qoca qartalı xatırladı. Sonra Bakı, Moskva, London tribunalarından söylədiyi nitqləri xatırladı. Radio dalğaları onun səsindəki qüruru bütün dünyaya yayırdı. Şair qarabəniz, arıq bir adam idi. Lakin onun səsində təəccüblü bir təmkin və qürur vardı. O, bəzən tamam kənar bir adam kimi, şair Səməd Vurğundakı qüvvət haqqında düşünürdü. Qartal öz qüdrətini hiss etdiyi kimi, şair də arıq və xəstə Səməd Vurğundakı qüvvətli ruhu duyurdu, eyni zamanda, bu ruhla dağların əzəməti, azadlığı, əbədi şeriyyəti arasında da qəribə bir yaxınlıq hiss edirdi. Və bu duyğu bir fərəh dalğası kimi sanki bütün dünyanı bürüyürdü. Şair öz daxili aləmi haqqında danışmağı sevmirdi. Ona görə də, vəcdlə aşıq dostuna dedi:

– Gedək, çıxaq Dəli dağa.

– Gedək! – deyə aşıq cavab verdi.






– Gedin! – deyə qoca Bayandur, uca zirvəsində qar ağaran Dəli dağa baxdı.

Şairə elə gəldi ki, sağ əlində demi tüstülüyən qoca Bayandurun nəzərləri uzaq... çox uzaq əsrlərə dikilmişdir.

Səməd Vurğunla aşıq gedib çıxdılar Dəli dağa. Hardasa, lap yaxında tək bir kəklik qaqqıldadı və bunun ardınca pırıltı ilə havaya bir dəstə boz kəklik qalxdı. Şair gülümsədi. Xəstə olduğu üçün ov tüfəngini götürməmişdi. Lakin o, hiss etdi ki, əgər, tüfəngi burada olsaydı belə, yenə də atmazdı. Şairin ruhu təzələnmişdi! Şair yalnız dünyanın və gözəlliyin əbədiyyətini hiss edirdi.

Aşıqla Səməd Vurğun Dəli dağın zirvəsində dayanıb göz işləyən uzaqlara baxırdılar... Şair oradan bütün Azərbaycan ellərini və uçuq qala üzərində hərlənən qoca qartalı görürdü... və yaxud ona elə gəlirdi. Şair oradan Xan Arazın, Arpaçayın qıjıltısını eşidir və Xançobanla Arpaçay haqqındakı əfsanəni xatırlayırdı.

> Arpa çayı aşdı-daşdı,
> Sel Saranı aldı qaçdı...

Çaylar... igidlər... əfsanələr...

Şairlə aşıq dağı enib alaçığa daxil olduqda, Dəli dağın başında yeri-göyü titrədən bir şaqqıltı eşidildi. Dalbadal ildırım çaxdı. Sonra elə bir yağış yağdı ki, sel-su dünyanı götürdü. Alaçıqda dayanıb tamaşa eləyən şair gülümsəyərək dedi:

– Dəli dağ hiss elədi ki, Səməd Vurğun ondan həmişəlik ayrılır.

Səhəri gün şair, Dədə Şəmşirlə geri qayıdırdı. Onlar keçən dəfə başında dincəldikləri bulağa çatdıqda, uçuq qalanın uca bürcündə qoca qartal əvəzinə bir dəstə cavan qartal gördülər. Onlar maraqla, hardan gəlib, hara getdiklərini bilmədikləri yolçulara baxırdılar. Qoca qartalın yoxluğunu Səməd Vurğun da hiss elədi, Dədə Şəmşir də... Lakin onlar bu barədə danışmadılar...

Səməd Vurğun bulağın buz kimi soyuq suyundan doyunca içib, sazı aşıqdan aldı və kədərlə deyil, ruhla çalıb oxudu:

> Bir qonağam bu dünyada,
> Bir gün ömrüm gedər bada,
> Vurğunu da salar yada
> Düz ilqarlı bizim dağlar...

Bu əhvalatdan bir az sonra Səməd Vurğun vəfat etdi. Xalq onu böyük bir izdihamla yola saldı. Şəhər bağlarından birində ona heykəl qoydular...

Yuxarı dağlarda isə, Səmədin qoyub getdiyi mahnını unutmadılar.

Qoca Bayandura elə gəlirdi ki, o mahnının əks-sədasını dağlarda hey eşidir:

Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar.

*1973*

## DAŞ HASAR

Firəngizi heç bir şey təzə bir pyesin primyerası, ya tərifi yayılmış təzə bir roman, ya yeni açılmış bir rəsm sərgisi qədər maraqlandırmırdı. Belə hadisələr həmişə onda bir bayram əhvalı yaradırdı. O, məşhur kino artistlərinin, məşhur rəssamların, dəbdə olan yazıçıların adlarını, tərcümeyi-hallarını əzbər bilirdi. Xüsusən də müasirlərin. Əlbəttə, bunların sənətindəki gözəlliyin mahiyyəti ona məlum deyildi. Bu barədə düşünmək heç onun ağlına da gəlmirdi. Amma o, bu sənətdəki yeni ruhu (əgər, bu var idisə), yeni maneranı hiss edirdi və bu ona fövqəladə dərəcədə cazibədar görünürdü. Bu cazibədə bir fərəh, bir irişilməzlik vardı. Bir yaz gözəlliyi vardı. Ya mənasını dərk edə bilmədiyi adi bir pərişanlıq vardı. Elə pərişanlıq ki, bəzən onun ürəyini nəhayətsiz, lakin qəmgin yüksəkliklərə aparırdı. Belə anlarda onun məftunluğunun həddi-hüdudu yox idi. Orta məktəbdə oxuduğu zamanlar o, şirin xəyallara dalardı. Kaş, o da məşhur bir rəssam, ya Jorj Sand kimi, Merdok kimi bir yazıçı olaydı. Eh... heç kəs bilmirdi ki, o, məsələn, Konsuelanın, ya Romeo və Cülyettanın iztirablarını nə qədər dərindən hiss etmişdi. Nə qədər ürək yanğısı ilə yaşamışdı... Və məhz belə dəqiqələrdə onun kədərinin gözəlliyini heç nə əvəz etməzdi...

Lakin orta məktəbin son sinfində qız dərin bir kədərlə dərk elədi ki, ondan nə rəssam olar, nə bəstəkar, nə yazıçı. Bəlkə... bəlkə artist olaydı. O, güzgünün qarşısında dayanaraq özünə tamaşa edirdi. Boybuxun, orijinal gözəllik, zəriflik. O, ata-anasının narazılığına baxmayaraq, İncəsənət İnstitutunun aktyorluq fakültəsinə ərizə verdi və... kəsildi. İmtahan götürən müəllim eyhamla andırdı ki, aktyorluq üçün lazım olan cəhətlər onda yoxdur. Qız o qədər sarsıldı ki, heç olmazsa, bu cəhətlərin nədən ibarət olduğunu soruşub bilmək ağlına da gəlmədi.

...O, bir neçə ay bekar gəzdi... Əlbəttə, təzə filmlər, primyeralar tez-tez olmurdu. Firəngiz darıxırdı.

Atası iyirmi beş ildən artıq idi ki, statistika idarəsində işləyirdi. Bir gün qızına dedi ki, bekar gəzmək yaxşı deyil, öz idarəmizdə sənə balaca bir iş düzəldək, gir, işlə. Anası da bu fikrə şərik çıxdı:

– Onsuz da, – dedi, - gələn il ali məktəbə girmək üçün sənə iş barədə kağız lazım olacaq.

Və qız, istər-istəməz, statistika idarəsində işə girdi. Ah, bu statistika idarəsi... Bu rəqəmlər... Sarımtıl kağızlar... Daşlarının rəngi getmiş məhsəbələr... Hər biri otuz-qırx il işləyən yaşlı mühasiblərin eynək arxasından adama dikilən soyuq baxışları... Ucuz kolbasa ilə çay içən yaşlı qadınların kobud fincanları... Saçlarını rəngləyən müdirin iyirmi il bundan qabaqkı dəbdə olan solğun qalstuku...

... Gələn yay Firəngiz universitetin filoloji fakültəsinə ərizə verdi. Fikirləşdi ki, nə qədər də olsa, incəsənətə yaxın sahədir. Bəlkə... bəlkə təzə ruhlu müasir bir tənqidçi oldu.

Ancaq hələ orta məktəbdə oxuduğu zaman bərk zəhləsi getdiyi qrammatikadan olan sualların heç birinə cavab verə bilmədi və kəsildi...

Və birdən öz taleyi onu qorxutmağa başladı. Bu qorxu onun gözəlliyini gözündən salırdı. Həyata qarşı onda anlaşılmaz bir yadlıq, bir şübhə baş qaldırdı. Lakin, bununla belə, o özünü ləyaqətlə aparmağı bacaran bir qız idi. Sözsüz-hərəkətsiz təmiz ailədən idi.

Ordan-burdan elçilər gəlirdi. Telefon zəngləri olurdu. Lakin qız hamısını rədd edirdi. Bu da, xüsusən anasını əsəbiləşdirirdi. «İllər keçir...» deyə arvad deyinirdi. Firəngiz də cavab verirdi ki, «mən ali məktəbi qurtarmayınca ərə getməyəcəyəm».

Ancaq qızın, elçiləri rədd etməsinin əsl səbəbi bu deyildi. Məsələ orasında idi ki, onu istəyən oğlanların biri iqtisadçı, biri baş mühasib, biri riyaziyyat müəllimi, biri, nə bilim, kim idi. Bu adamların hamısı da ona yabançı görünürdü. Onların içində yaraşıqlı olanları, necə deyərlər, həyatda özlərinə möhkəm yer tutanları da var idi. Lakin onlar qıza tamam yabançı idilər.

... Nəhayət, o, ata-anasının təkidi ilə və yenə də, istər-istəməz, Xalq Təsərrüfatı İnstitutunun gecə şöbəsinə daxil oldu. İndi o, gündüzlər sevmədiyi statistika idarəsində işləyir, gecələr sevmədiyi institutda oxuyur və yenə hər dəfə güzgüdə öz gözəlliyinə tamaşa eləyəndə həsrətlə yazıçı haqqında, rəssam haqqında, bəstəkar haqqında düşünürdü.

O, yenə də incəsənət xəbərlərini acgözlüklə izləyirdi, yeni sərgilərin, yeni tamaşaların heç birini buraxmırdı, yazıçıları, şairləri, rəssamları, artistləri yaxından görüb-tanımaq üçün, fürsət düşdükcə, onların yığıncaqlarına, iclaslarına gedirdi. İndi onun ürəyində hamıdan





gizli saxladığı yeni bir arzu da baş qaldırmışdı: indi ki, onun özünə incəsənət qismət olmadı, heç olmasa... ah, heç olmasa, əri o aləmdən olaydı. Qız heç vəchlə ürəyini o sehrli aləmdən qopara bilmirdi. O aləmdən ayrılmaq ona həyatdan, dünyanın ecazkar gözəlliklərindən ayrılmaq kimi gəlirdi.

Və tale bu dəfə ona yar oldu, qız bir toyda bir qədər aralıdakı stolda ultra dəbdə geyinmiş, qabaqdan seyrəlməkdə olan saçlarını arxadan xeyli uzatmış, barmağına iri platin üzük taxmış bir oğlan görüb pıçıltı ilə yanındakı qızdan soruşdu ki, kimdi o?

Qız, oğlana ötəri bir nəzər salıb cavab verdi ki, toy yiyəsinin qohumu, rəssam Mürşüddür.

Bu rəssam, xalq arasında məşhur olmasa da, Firəngiz, bayram təntənələrində, rəsmi yığıncaqlarda oxunan və ya çap olunan siyahılarda onun adına rast gəlmişdi. Muzeylərdə, sərgilərdə bəzi rəsmlərini də görmüşdü. Doğrudur, bu rəsmlər onda elə bir təsir oyatmamışdı. Ancaq nə olsun? Pikassonun da tablolarını çox adam başa düşmürdü. Bəlkə, Mürşüdün də əsərlərində elə sirlər var ki, Firəngiz, ya başqaları onu dərk eləyə bilməyib yanından soyuq keçirlər.

Mürşüd, qızdan azı iyirmi yaş böyük idi, ancaq nə olsun ki, məşhur dramaturq Onilin qızı Una əlli altı yaşlı Çarli Çaplinə ərə gedəndə on yeddi yaşında idi. Pikassonun arvadı özündən nə qədər kiçik idi...

Mürşüd elə bir yaraşıqlı adam deyildi, ancaq rəssamlığı qızın gözündə ona orijinal bir görkəm vermişdi. Barmağındakı qara qaşlı iri platin üzük qıza əsrarəngiz təsir bağışlayırdı. Köynəyi, qalstuku da heç kəsinkinə bənzəmirdi. Toydakı kişilərin hamısı kostyumda olduğu halda, o, yaşıl məxmər şalvarla, şabalıdı, tumac pencək geymişdi. O, demək olar ki, heç nə yemirdi. Elə hey konyak içir, siqaret çəkir və Firəngizə baxırdı. Ona müraciət eləyən adamlara qarşı üzündə elə bir təbəssüm yaranırdı ki, elə bil, o, bu təbəssümü ilə sənə böyük bir iltifat göstərirdi. Elə bil, bu toya gəlişi ilə hamını şərəfyab etmişdi. Bütün bunlar da Firəngizə hədsiz dərəcədə yeni və maraqlı görünürdü. Rəssamın mərhəmətli baxışları altında qız bilmirdi neyləsin. Qız fərəh və səadət içindəydi. Qız rəssamın gözlərinə baxmağa cəsarət eləməsə də, bütün fikri onun yanında idi. Onun bütün hərəkətlərini görürdü...

Sonra qəribə bir hadisə oldu. Toy sovuşub, adamlar foyedə paltolarını alanda, rəssam, qıza yaxınlaşıb, tamam bir açıq-saçıqlıqla pıçıldadı:

– Xahiş edirəm, mənə zəng eləyəsiniz...

Ancaq o, telefon nömrəsini vermədi. «Yəqin, bilir ki, onun nömrəsini tapmaq asandır» deyə qız ürəyində gülümsədi... O gecə uzun za-

man gözünə yuxu getmədi. Səhər dərin bir həyəcan içində Mürşüdə zəng elədi. Hər şey sürətlə həll edildi və iki aydan sonra toyları oldu.

Qız göyün yeddinci qatındaydı. O, rəssamlar haqqındakı xəbərləri böyük maraqla izləyir, qəzetlərdə, radioda, televiziyada eyzən nişanlısının adını axtarır, rast gəldikdə, sevinclə ata-anasına xəbər verirdi. Ərinin emalatxanasını özü səliqəyə saldı. Elektrik çayniki, armudu stəkan, zərif nəlbəki, gümüş çay qaşığı, təmiz əl-üz dəsmalı, ətirli sabun qoydu. Balaca stolun üstünə kraxmallanmış süfrə saldı... Lakin Mürşüdün bu işdən xoşu gəlmədi, yarım saatın içində emalatxananın əvvəlki səliqəsizliyini bərpa etdi və qız bundan heç bir şey başa düşmədisə də, səbəbini soruşmadı, yəni, bunu soruşmaq heç onun ağlına da gəlmədi. Qız özünü xoşbəxt sayırdı. Düzü, qız ərinin rəssamlığı ilə o qədər məşğul idi ki, öz səadəti haqqında düşünməyə vaxtı çatmırdı... Onun işləməyinə sevinclə tamaşa edir, yarımçıq rəsmlərin tez çəkilib qurtarması üçün tələsirdi. Bir dəfə o, statistika idarəsindən işdən çıxmaq istədiyini bildirdi.

Mürşüd dedi:

– Niyə? Ayda yüz manat çölə tökülməyib ki...

Qız bunu ürəyinə salmadı. O, evlərində, idarələrində elə hey Mürşüdün rəsmlərindən danışırdı, özü də o qədər həvəslə danışırdı ki, qulaq asanların üzündə yaranan biganə təbəssümün fərqinə də varmırdı. Bir dəfə emalatxanada ərinin işləməyinə tamaşa edərkən dedi:

– Bu gün qızlar Nərimanın təzə rəsmlərini yaman tərifləyirdilər.

Əri soruşdu:

– Hansı qızlar?

– Nərminə, Turac, Şəfiqə...

(Bunlar Firəngizin yoldaşları idi. Ultra dəbdə geyinən Firəngiz kimi, heç bir primyeranı, heç bir təzə konserti buraxmayan, məşhur artistlərin adlarını, həyatını əzbər bilən şən qızlar idi və Mürşüd onları tanıyırdı.)

– Onlar tərifləyərlər... – deyə Mürşüd gözünü işindən çəkməyərək cavab verdi.

Və Firəngiz ərinin sözlərindəki istehzanı başa düşdü və bu, onun xətrinə dəydi, o, ilk dəfə olaraq, ərinə etiraz etdi:

– Onlar çox mədəni qızlardır, Mürşüd.

– Baxır necə mədənidilər, – deyə Mürşüd gülümsədi.

Firəngiz dinmədi. Firəngizə elə gəldi ki, bu təbəssüm ərini birdənbirə xeyli yaraşıqsız göstərdi.

Havalar isti keçdiyindən qərara aldılar ki, bağa köçsünlər. Firəngiz buna çox sevindi. Yayda Bakı bağları onun ən çox xoşladığı yerlər idi. O, bu bağların xüsusən axşamlarını, gecələrini yaman sevirdi. Heç bir





yerin sərinliyi Bakı bağlarının sərinliyi qədər ona ləzzət vermirdi. Hər yer ona Bakı bağlarının qurtaracağından başlayan dənizin mavi genişliyi kimi nəhayətsiz görünmürdü. Elə bil ki, bu genişlikdə ömrün heç bir zaman adama əyan olmayacaq sirri gizlənmişdi. Ancaq heyf ki, Mürşüdgilin bağı dənizdən xeyli uzaq idi və ətrafına uca daş hasar çəkilmişdi. Ev özü isə, daima sükut içində olan kiçik qalaya bənzəyirdi. Hər şey, hətta, birinci mərtəbədən ikinci mərtəbəyə qalxan pilləkən belə, binanın dörd divarı arasında, yəni, içindəydi. Pəncərədən isə, dəniz görünmürdü. Heyf ki, evin dörd tərəfinə və iri dəmir darvazaya gedən cığıra asfalt salınmışdı. Asfalt isə, həmişə qızda xoşagəlməz bir hiss doğururdu. Heyf ki, yasəmənlərin, oleandr güllərin başları da bulvardakı bitkilərin başları kimi kəsilib bir bərabərdə edilmişdi. Yalnız qumun üstünə sərilmiş tənəklərin pərakəndəliyində, bir də alma, nar ağaclarının qol-budağında, böyük əncir ağacının enli yarpaqları arasındakı kölgələrdə, bir də pırıltı ilə hey ağacdan-ağaca qonub, səs-küy salan quşların həyəcanında, nə isə, bir fərəh, bir azadlıq vardı. Yəni, Firəngizə belə gəlirdi. Ancaq ərinin bağını gözəl hesab etmək üçün qıza elə bu da kifayət edirdi. Və Firəngiz özünü xoşbəxt sanırdı.

Mürşüdün anasından başqa yaxın bir kəsi yox idi. Müxtəlif təsərrüfat idarələrində işləyən atası bir neçə il qabaq vəfat eləmişdi. Onun dədə-baba evində tək yaşayan anası vaxtilə dərzi atelyesinin müdiri, hamam müdiri kimi vəzifələrdə olmuş, keçən il təqaüdə çıxmışdı. Boylu-buxunlu, yaraşıqlı bir qadın idi. Ancaq, heyf ki, yaşının altmışı haqlamasına baxmayaraq, hələ də kosmetik bəzəklə çox ciddi məşğul olurdu. Firəngizin isə, yaşlı arvadların qaşlarını aldırıb, dodaqlarını qızartmalarından zəhləsi getsə də, qaynanasının təmiz-tarıqlığını, son dəbdə geyinməsini rəfiqələrinə tərifləyər, arvadın kosmetik bəzəkləfilanla məşğul olmasını fikrinə gətirməkdən çəkinərdi.

Bir axşam çay içdikləri zaman televizorda xəbər verdilər ki, rəssam Nərimanın təzə sərgisinin açılışı böyük müvəffəqiyyət qazanmışdır. Onun «Qız və oğlan» əsəri qarşısında hər gün dəstə-dəstə tamaşaçı dayanır və sairə...

– Oy, Mürşüd! – deyə Firəngiz həyəcanla səsləndi. – Sabah biz də gedək baxaq.

– İndi şəhər yaman istidir. Havalar bir az sərinləsin, gedərik.

Mürşüdün quru cavabı qıza toxundu:

– Yox, yox, sabah gedək, onsuz da gecikmişik, mən teatr tamaşalarına, sərgilərə həmişə birinci gün baxmaq istəyirəm, – dedi.

– Axı, nə təfavütü var, birinci gün olmasın, onuncu gün olsun, – Mürşüd, bir növ, üstüörtülü və əsəbi cavab verdi.

Qaynanası da aypara qaşlarını dartaraq, qəribə bir təbəssümlə dedi:

– Axı, birinci gün adam çox olur. Rəssamın özünü görürsən...

Firəngiz, qaynanasının cavabındakı soyuqluğunu hiss elədisə də, bunun səbəbi barədə düşünməməyə çalışaraq:

– Mütləq sabah gedək! – dedi.

Onlar gələndə sərgi salonu ağzına qədər dolu idi. Firəngiz bu cür qələbəliyi həqiqətən sevirdi. Bu, ona, doğrudan da, bayram təsiri bağışlayırdı. Ən gözəli də o idi ki, indi bu adamların çöhrəsində bir şadlıq, bir razılıq hiss edirdi. Rəsmdə qızla oğlan arasında başlayan məhəbbətin lap ilk qığılcımları təsvir olunurdu və Firəngiz özünü də, ərini də tamam unudaraq, bu yeni doğan məhəbbəti seyr edirdi. Firəngiz dünyada belə gözəl duyğular olduğuna heyran qalırdı, yəni, rəsmə tamaşa etdikcə, bu duyğular qızın öz qəlbində yaranırdı. Bunların nədən ibarət olduğunu soruşsaydılar, bəlkə də, izahda aciz qalardı. Orası da çox qəribə idi ki, bu duyğularla birlikdə onun qəlbində anlaşılmaz bir kədər də baş qaldırırdı.

Nəhayət:

– Gedək! – deyə Mürşüd onun qolundan tutdu.

Qız dərindən nəfəs alıb ona baxdı. Ərinin qızarıb pörtmüş üzü bir an ona təəccüblü dərəcədə yad göründü və tamam qeyri-şüuri bir hərəkətlə çılpaq qolunu çəkib Mürşüdün əlindən qopardı və dərhal da bu hərəkətinin namünasib olduğunu hiss edərək özü ərinin qoluna girdi. Sonra Firəngiz, rəssamın başqa rəsmlərinə baxmaq istədikdə, Mürşüd həmin qızarıb-pörtmüş çöhrəsilə:

– Yaxşı, sən bax, mən foyedə papiros çəkirəm, – deyib salondan çıxdı.

Qız ərinin əhvalında, nə isə, bir anlaşılmazlıq hiss edərək, onunla çıxmaq istədi. Lakin Nərimanın o biri rəsmlərinə də baxmamış çıxa bilmədi.

Çıxanda o, ərini yenə də eyni gərgin vəziyyətdə gördü.

Və onlar bağa qayıtmaq üçün Mürşüdün «Jiquli»sinə əyləşmək istədikdə, Firəngiz gülümsəyərək dedi:

– Qoy bu dəfə mən sürüm...

– Otur yerində!

Firəngiz ərinin bu sərt cavabından da bir şey başa düşmədi və bir qədər sükut içində gedəndən sonra soruşdu:

– Nə olub, Mürşüd?

– Nə olacaq, heç nə...

– Bəs, niyə pərtsən?

Elə bil, rəssama od vurdular.





– Pərt niyə oluram, – deyə açıldı. – Sən də qəribə adamsan. Sənətdən başın çıxmır, hər sözü danışırsan.

Qız təəccüblə ərinə baxdı:

– Sənət barədə mən heç bir söz danışmadım.

Rəssam çox kobud hərəkət etdiyini başa düşərək, elə bil ki, qorxdu. Çox mülayim bir ifadə ilə dedi:

– Bu yolda gediş-gəliş çoxdur. Ayrı yerdən sürərsən.

Firəngiz qətiyyən maşın barədə düşünmürdü. Hərçənd maşın sürməyi Firəngizə Mürşüd özü öyrətmişdi; bir yay gecəsi idi onda... kimsəsiz dəniz sahilində...

Firəngiz dinmədi. Ona görə yox ki, pərt olmuşdu. Ona görə ki, içində oturduğu bu maşın bir anda onun üçün yabançı, maraqsız olmuşdu. Elə bil ki, ərinin maşınında deyil, taksidə gedirdi və elə bil ki, əri məhz bu mülayim sözləri ilə birdən-birə kiçilib bir tikə oldu. O, bu yazıqlığı, eyni zamanda, özündə – öz varlığında hiss etdi. «Jiquli» bağa doğru sürətlə irəlilədikcə, qız məyus nəzərlərlə, yanlarından gəlib keçən, bəlkə də, bağlardan şəhərə qayıdan maşınlara baxırdı.

Axşam Firəngiz heç kəsdən heç nə soruşmadan, bura gəldikləri vaxtdan bəri ilk dəfə stol-stulları çıxarıb həyətə qoydu. Üzərinə də ağ süfrə saldı.

– Belə nə üçün? – deyə qaynanası soruşdu.

– Evdə nə var axı, yayın günüdür.

– Sonra külək qalxıb qumu dolduracaq ağzımıza-burnumuza.

– Külək qalxar, keçərik içəri, – deyə Firəngiz qaynanasına baxdı.

Qaynana aypara qaşlarını narazı halda yuxarı dartıb dinmədi.

Firəngiz çay, mürəbbə, tort, filan gətirdi. Sonra tranzistoru gətirdi. (Televizor otaqda idi.) Abşeronun axşam sərini başlamışdı. Əncir, alma, nar ağacları, isti qumun üzərinə sərilmiş tənəklər bu yarımqaranlıq içində sanki xəfif mehdən xoşlanırdılar. Uzaqdan dənizin şırıltısı eşidildi. Heyf ki, dəniz özü görünmürdü. Heyf ki, bu daş hasar nə dənizi, nə də bu tərəfdəki qum təpələrini görməyə imkan verirdi. Ancaq göy qübbəsi ulduzlarla dolu idi. Və elə bil ki, bu ulduzlar sevinc içində işıq saça-saça tərpəşirdilər.

Əvvəl ordan-burdan söhbət etdilər. Gündüzkü sərgi barədə nə Mürşüd danışdı, nə Firəngiz. Nə də qaynana o barədə bir söz soruşdu. Ancaq sərgi barədəki bu sükutun özündə soyuq bir gərginlik vardı. Və Firəngiz bunu hiss edirdi, yəni, bu gərginliyi hiss edirdi, amma səbəbini yox. Düzü, səbəb barədə düşünməkdən ehtiyat edirdi.

Heyf ki, bu daş hasar isti qumun üzərinə enmiş bu sərin yay axşamını hər tərəfdən sıxışdırırdı.

Mürşüd dedi:

– Son xəbərlərin vaxtıdır. Aç görək nə deyir.

Firəngiz əqrəbi hərlədi və diktor danışmağa başladı:

– Bütün istedadlı sənətkarlar kimi, Nərimanın da rəsmlərində yenilik hissi ilə Azərbaycan xalqının, Azərbaycan təbiətinin koloriti fövqəladə bir incəliklə birləşmişdir. Onun tabloları hər cür konyukturdan, hər cür sünilikdən uzaq, həqiqi sənət əsərləridir.

Mürşüd çayını yarımçıq qoyaraq, əsəbi halda qalxıb stoldan uzaqlaşdı, qayınana da aypara qaşlarını dartaraq oğlunun ardınca getdi. Firəngiz diktorun Nəriman haqqında dediklərinə axıra qədər qulaq asdı, sonra yavaş qurtumlarla çayını içdi. Abşeron gecəsinin sərinliyindən ləzzət alan əncir, alma, nar ağaclarına baxdı. Sonra dənizin uzaqdan eşidilən şırıltısına qulaq asdı. Heyf ki, bu hündür daş hasar dənizin, o qaranlıq təpələrin qabağını kəsmişdi. Heyf ki, bu hündür daş hasar, bu nəhəng dəmir darvaza adamı hər tərəfdən az qala məngənə kimi sıxışıb nəfəsini daraldırdı. Heyf ki, Nərminə, Turac, Şəfiqə burda deyildilər. Bu saat bu geniş, ulduzlu göyün altında dənizin ılıq suyunda çimməyin ləzzəti var – Firəngiz bunu fikirləşdi və... ağladı...

... O gecə Mürşüd əcaib və rabitəsiz bir yuxu gördü.

Gördü ki, iyrənc bir çamıra bata-bata hara isə gedir.

Sonra da birdən gördü ki, yenə də Nərimanın həmin tablosunun qabağında dayanıb. Amma şəkildəki oğlanın əlindən tutduğu qız Firəngizdir! Mürşüd isə, qışqırıb demək istəyir ki, Nəriman nə haqla onun arvadını bu cür, yad oğlanla çəkib? Ancaq nə qədər qışqırırsa, səsi çıxmır ki, çıxmır... O zaman Mürşüd yerdən bir ovuc çamır götürüb çırpdı şəkilə. Belə olduqda, şəkildəki oğlan çərçivədən çıxıb Mürşüdün boğazından yapışaraq başladı boğmağa.

... Mürşüd çapalayıb yuxudan ayılanda gördü ki, həqiqətən az qalır boğulsun. Özünə gələndən sonra Firəngizin üzü divara tərəf sakit halda yatdığını, heç nədən xəbəri olmadığını görüb, rahat nəfəs alaraq bayıra çıxıb siqaret yandırdı.

Səhəri gün Firəngiz şəhərə getmək istədiyini bildirdi.

– Bu istidə nə var şəhərdə? – Mürşüd soruşdu.

– Həkim məsləhətxanasına getmək lazımdır.

Firəngiz hamilə idi.

O, bir qədər susub, bir növ, ötəri ifadə ilə əlavə etdi:

– Bir də ki, burada darıxıram.

– Sən ki, bağdan ötrü sinov gedirdin... – deyə Mürşüd zarafat eləmək istədi. – İndi nə olub?

– Heç nə olmayıb. Ancaq darıxıram.

Mürşüd onun əlindən tutub mülayim ifadə ilə:

– Bəlkə, – dedi, – bir şeydən incimisən?





Yenə də əri bu mülayimliklə, bu qorxaq təbəssümlə (ondakı bu qorxaq mülayimlik hardan idi və bunu Firəngiz sonralar da anlaya bilmədi) onun gözləri qarşısında lap aşkar kiçildi. Kiçildi... Bir tikə oldu və Firəngiz kəskin hərəkətlə əlini ərinin əlindən çəkərək sərt ifadə ilə dedi:

– Heç bir şeydən inciməmişəm, Mürşüd!

O, belə dedi. Amma, o, incimişdi. Bu hündür daş hasar da, bu iri dəmir darvaza da, qalaya bənzəyən bu örtülü ev və qayınanasının kənarları alınıb-düzəlmiş aypara qaşları da bir tərəfdən onu sıxırdı, lap məngənə kimi sıxırdı. Ən pisi də o idi ki, o, bunların belə olduğuna daha əvvəlki kimi heyfsilənmirdi. O bunlardan qaçmaq istəyirdi.

Lakin şəhərin qələbəliyi, yay kinoteatrları, konsertlər, pəncərələrdən görünən dənizin genişliyi də onun ürəyindəki ağırlığı yüngülləşdirə bilmirdi. Mürşüd də daha bağa getməyib onunla birlikdə şəhərdə qalırdı. Və hamilə qadınına hər cür qulluq göstərirdi. Onun bu xidmətində, mehribanlığında suçlu bir hal var idi, elə bil ki, o, daima nədənsə ehtiyat edirdi. Və bu, səbəbi özünə də məlum olmadığı halda, Firəngizi əsəbiləşdirib haldan çıxarırdı, Firəngiz indi nə ərinin emalatxanasına gedir, nə də onun nə üzərində işlədiyi ilə maraqlanırdı. O da qəribə idi ki, Mürşüd bu vəziyyəti görüb duyduğu halda səbəbini soruşmurdu. Daha doğrusu, soruşmaqdan çəkinirdi.

Firəngiz saatlarla pəncərə qarşısında oturur və gələcək uşağı haqqında düşünürdü.

... Uşaq isə, bir neçə aydan sonra sağlam bir oğlan olaraq dünyaya gəldi. Onun dünyaya gəlişi ilə, elə bil ki, Mürşüd də birdən-birə dönüb ayrı cür adam olmuşdu. Elə bil ki, o, rəssamlığını da və o qorxaq mülayimliyini də büsbütün unutdu. Elə bil ki, indi daha təbii, daha canlı bir adam olmuşdu, ayağını yerə indi daha möhkəm dirəmişdi. Elə bil ki, ondakı o daxili gərginlik də birdən-birə yox olub getmişdi.

Lakin bu körpə sağlam oğlanın dünyaya gəlişi ilə Firəngizdə yeni bir təşviş peyda olmuşdu. Gənc ana bu ilkinə diqqətlə baxmaqdan və onun kimə oxşadığını təyin etməkdən çəkinirdi. Ultra dəbdə geyinmiş Nərminə, Turac və Şəfiqə səs-küylə rəfiqələrini təbrikə gəldilər. Uşağın beşiyi başına toplaşıb onu diqqətlə nəzərdən keçirdilər.

Nərminə dedi:

– Oy, lap atasının kopyasıdır.

Turac təsdiq etdi:

– Ağız-burnu, yumru alnı lap atasınınkıdır ki, durub.

Şəfiqə isə dedi:

– Amma gözləri eynilə anasının gözləridir.

Nərminə və Turac sevinclə təsdiq etdilər:

– Düzdür... düzdür. Lap anasının gözləridir.
– Anasınınkı kimi dupduru...

Firəngiz elə bil diksindi. Onun gözləri oğlunun gözlərinə zilləndi və yalnız bu zaman o, diqqətlə, məhəbbətlə oğluna tamaşa etdi.

*1976*

## UŞAQ HEKAYƏLƏRİ

### CEYRAN OVU

Babam ancaq ceyran ovuna gedərdi. Bu işdə onun gözəl məharəti var idi.

Ceyran çox iti qaçan və həssas heyvandır. Buna görə də, ceyran ovu başqa ova bənzəməz. Bizim yerlərdə, yəni, Qarabağda məşhur ceyranqovan atlar var. Onların boyları uca, ayaqları incə, başları kiçik olur. Qaçmaqda heç bir at onları keçə bilməz.

Kəndimizdə yaxşı at minənlərdən biri sayılan babamın ceyran ovunu bu qədər çox sevməsi, bəlkə də, buradan doğurdu.

Bir gün o, Haramıdan, ömründə birinci dəfə olaraq, əliboş qayıtdı və o gündən sonra bir daha ceyran ovuna getmədi. Biz bunun səbəbini soruşduq. O uzun zaman susub heç bir cavab vermədi. Bir gün sonra o, qaşlarını çataraq dərindən nəfəs aldı və bizə belə bir hekayə nağıl elədi:

– Bu yaz Haramıda ot qurşaqdan idi. Hər çiçək bir rəngə çalırdı. Elə bil ki, yaşıl otların üzərinə brilyant, yaqut, firuzə səpilmişdi, elə bil ki, onlar günəşdən od tutub yanırdı.

Mən kəhər ürgəmi yedəyimə alıb yavaş-yavaş irəliləyir və ovdan çox dünyanın bu gözəllikləri haqqında düşünürdüm. Birdən lap yaxında bir ceyran gördüm. O, otların arasından görünən uzun boynunu burub mənə baxırdı. «Niyə qaçmır?» deyə təəccüb etdim. «Bəlkə yaralıdır?» Mən əlli ildən artıq idi ki, ceyran ovuna gedirdim. Bu əlli ildə başımın tükü sayı ceyran ovlamışdım. Lakin yorulub yolda qalan və ya yaralı olan heyvana güllə atmamışdım. Ona görə də, qəsdən bərk öskürdüm ki, ceyran ürküb qaçsın, sonra güllə atım. Ancaq heyvan yerindən tərpənmədi. Mən ceyranı nişana götürdüm. Bu zaman ceyranın gözəl qara gözlərində bir yalvarış gördüm. Elə bil ki, o: «Görürsən ki, mən qaça bilmirəm, atma!» deyirdi.

Mən qəsdən çaxmağı şaqqıldatdım. Onun qara gözlərinin bulağında bir damla göz yaşı parladı. Qollarım boşalıb yanıma düşdü. «Bu nə sirdir?» deyə ona yaxınlaşdım. Ceyran yaralı deyildi. Lakin onun yanında yenicə doğulmuş bir cüt körpə quzusu var idi.

Gözlərim yaşardı. Bir də heç zaman ana ceyrana güllə atmayacağıma and içdim.

*1947*

## MARAQLI HADİSƏ*

### I

Payız vaxtı idi. El yaylaqdan arana köçmüşdü. Lakin biz – bir neçə çoban orada qalıb qoyunları bəsləyirdik. Dumanlı bir gün idi. Yoldaşlarım sürüləri otarmağa aparmışdılar. Mən isə, çörək və xörək bişirmək üçün daxmada qalmışdım.

Birdən bayırda qarışıq heyvan səsləri eşitdim. Elə bu anda böyük bir ayı qapıdan içəri soxuldu. Mən yerimdə donmuş kimi qaldım. Ayı bucağa qısılıb gah mənə, gah da bayıra baxırdı. «İndicə işimi bitirəcək» deyə düşündüm. Amma, deyəsən, ayı bu fikirdə deyildi. Onun tez-tez bayıra baxması və qorxmuş halı məni həm sakitləşdirdi, həm də maraqlandırdı. Əyilib pəncərədən bayıra baxdım. Bir neçə canavar qapını kəsdirib gözlərini içəri zilləmişdi. Demək, ayı bunlardan xilas olmaq üçün mənə pənah gətirmişdi. Dərhal divardan asılmış tüfəngi götürüb qapıya yaxınlaşdım. Canavarları nişan alıb atdım. Biri dərhal yıxıldı. Qalanları isə, qaçıb dumanın içində gözdən itdilər.

Ayı mehriban və qorxaq nəzərləri ilə mənə baxırdı. Sanki indi də onu vuracağımı gözləyirdi. Mən tüfəngi yerinə asdım. Bir qədər yetişmiş armud, bir parça quyruq götürüb «qonağın» qabağına qoydum. Sonra əyləşib xörək bişirməyə başladım. Qonaq armudlardan yeyir və mənə tamaşa edirdi.

### II

Axşam düşürdü. Lampanı yandırdım. Çayniki su ilə doldurub ocağın üstünə qoydum. Sonra qazana bir qədər ət doğradım. Duz və su tökdüm. Ocağın kənarına üç daş düzüb qazanı da üstünə qoydum. Beləliklə, hər şeyi hazırladıqdan sonra gedib lap «qonağın» yanında oturdum. O, balaca, boz gözləri ilə mənə baxırdı.

– Hə, dostum, – dedim, – yaxşı qurtardın, yoxsa, dərini didəcəkdilər. İndi biz həmişəlik dost olduq.

Bayırdan eşidilən ayaq səsləri qonağı diksindirdi. O, qorxaq baxışlarla bayıra baxdı. Bu vaxt çoban yoldaşlarım içəri girdilər. Onlar ayını gördükdə, az qaldılar ki, qayıdıb qaçsınlar. Mən bərkdən güldüm:

* Bu hekayənin məzmunu M.Prişvindən götürülmüşdür.





– Qorxmayın, – dedim, – özümüzünküdür.

Onlar mənim sakit vəziyyətimdən ürəkləndilər. Bir neçə saniyə gah mənə, gah da ayıya baxdıqdan sonra keçib oturdular. Mən əhvalatı söylədim, çox şad oldular. Qaynamaqda olan çayı dəmlədim. Sonra da stəkanları düzüb hərənin qabağına birini qoydum.

Biz yeyib içdik. Qovurduğum ətdən bir boşqab da «qonaq» üçün qoydum. Lakin o yemədi. Yatmaq zamanı gələndə qapını bir qədər aralı qoydum ki, bəlkə o, mağarasına getmək istədi. Lakin ayı çölə tərəf heç baxmadı da. Qapını bağladım. Biz ocağın yanında yatdıq. Ayı da başını qolları arasına qoyub gözlərini yumdu.

Səhər «qonaq» çıxıb getdi. Lakin o bizi unutmadı. Hər iki-üç gündən bir gəlib gecəni bizdə qalırdı. Biz ov zamanı onu görərkən tanımaq üçün göndən bəzəkli bir xalta qayırıb boğazına bağladıq. Mən xaltanın üstünə qırmızı bir mərcan da bənd elədim. Yoldaşlarımdan biri ona «Yaxşı dost» adı verdi.

Qış düşdü. Hər tərəfi qar bürüdü. Daha qoyunların yanında qalmaq mümkün olmadığından biz arana köçdük. «Yaxşı dost» da bir müddət bizimlə gəldi. Ancaq arana yaxınlaşdığımızı duyduğundanmı, nədənsə, daha gəlmədi. Bir qaya üstündə oturub biz gözdən itincəyə qədər arxamızca qəmli-qəmli baxdı.

### III

Aradan bir müddət keçdi. Bir gün yay vaxtı yaylağa gedərkən yolum həmin yerdən düşdü. Şiddətli yağış yağırdı. Vaxtilə içində yaşamış olduğumuz daxmanın bir tərəfi uçub tökülmüşdü. Yağış ara verənə qədər gözləmək üçün düşüb atı ağacın altına çəkdim. Özüm isə daxmaya girdim. İçəridə bir yığın sümük, qurumuş iri ayı pəncələri və hələ tükü getməmiş kəllə vardı. Sümüklərin arasında bir xalta gördüm. Onun üstündəki qırmızı mərcan mənim üçün hər şeyi aydınlaşdırdı. Gözlərim doldu. Öz-özümə: «Yaxşı dost» deyə pıçıldadım. Balaca bir yer qazıb «Yaxşı dostun» sümüklərini basdırdım. Xaltanı isə yadigar götürdüm...

*1947*

01/01–24

## QORUQLARDA

Bədənim zəif olduğundan məni yay imtahanlarından azad etmişdilər. Həkimlərin məsləhəti ilə atamgil məni yaylağa göndərməli oldular. Anam pal-paltarlarımı səliqə ilə hazırladı. «Sabir» kolxozunda ferma müdiri olan tanışımız Sultan dayı at gətirib, məni binəyə apardı. Mayın ortaları idi.

Binə, kənddən 30-40 kilometr aralı, Haramı adlanan geniş bir aran düzənliyində idi. Burada qışda başqa yerlərə nisbətən qar az yağır, yaz zamanı qurşağa qədər ot olur. Ona görə də, ətraf kolxozların qoyun-quzusu yaylağa köçənə qədər burada saxlanır.

Mən Haramını birinci dəfə görürdüm. Düz-dünya lalə idi. Yaz günəşinin parlaq işığı altında bu lalələr köz kimi qızarırdı. Otların hamısı, hətta, tikanlı boz qanqallar da çiçək açmışdı. Bu çiçəklərin hərəsi gün işığında bir rəngə çalırdı. Adama elə gəlirdi ki, göz işlədikcə uzanıb gedən yaşıl məxmər üzərinə minlərcə almaz, yaqut, mərcan dənəsi səpələnib və bunlar günəş işığında od tutub yanır. Ala-bəzək kəpənəklər, üstündə qara nöqtələr olan mərcan rəngli uçağanlar, şəffaf qanadlı bal arıları çiçəklərin üzərində dolaşır, oraya-buraya uçuşurdular. Atlarımızın qabağından bəzən bir çobanaldadan, bəzən də sarıköynək və ya bir şanapipik pırıltı ilə uçub havaya qalxırdı. Uzaqlarda isə dənizi andıran su görünürdü.

– O hansı çaydır? – deyə mən Sultan dayıdan soruşdum.

Sultan dayı gün işığında gözlərini qıyaraq, göstərdiyim səmtə baxıb gülümsədi:

– O çay deyil, ilğımdır, – dedi.

Mən ilğımın nə olduğunu coğrafiya dərsində oxumuşdum. Elmi dildə buna miraj deyirlər.

Biz balaca bir təpənin üstünə çıxanda uzaqdan bir dəstə ceyran qaçdı. Biz atlarımızı yavaş-yavaş sürürdük. Hər tərəf dümdüz idi. Nə bir cığır, nə də bir dağ-dərə var idi.

– Necə olur ki, burada azmırsınız?

Daima irəliyə baxan Sultan dayının günəşdə yanmış mis rəngli sağlam üzündə yenə də xəfif bir təbəssüm göründü:





– Bax, indi sən havada bir şey hiss edirsənmi?

– Xeyr, – dedim, – hiss etmirəm.

– Amma mən hiss edirəm. Havadan yataq qoxusu gəlir. Deməli, binələrə az qalıb.

Doğrudan da, beş dəqiqədən sonra alaçıqlar göründü.

Alaçıqların qabağından tüstü qalxırdı. Binəyə çatmamış itlər hürə-hürə tökülüşüb gəldilər və Sultan dayını tanıyıb, quyruqlarını buladılar. Təkcə qara xallı iri köpək qəzəblə üstümə atıldı. Əgər, Sultan dayı «Alabaş!» deyə qışqırıb fövqəladə bir cəldliklə onun qabağını kəsməsəydi, bu ayı boyda it, yəqin ki, məni atdan salacaqdı. O, sahibinə tabe olub susdu və başını aşağı salıb quyruğunu buladı. Bu halı ona birdən-birə sevimli və mehriban bir görünüş verdi.

– Nə böyük itdir! – deyə heyrətlə səsləndim.

Alabaş söhbətin, elə bil, özü haqqında getdiyini duyduğu üçün mənə soyuq bir nəzər salıb, Sultan dayının yanınca yavaş-yavaş yeriməyə başladı.

– Bu, atamın sağ əlidir. Bir yaxşı ata da dəyişməz, – deyə Sultan dayı məhəbbət dolu nəzərlərlə Alabaşa baxdı. – Qoyunu saxlayan budur.

Alaçıqlara çatdıq. İçəridən balaca uşaqlar çıxıb, maraqla mənə baxır və bir-birinə nə isə pıçıldayıb xısın-xısın gülürdülər.

Ağ keçədən tikilmiş böyük bir alaçıqdan əlli-əlli beş yaşlarında ucaboylu, enlisinəli, qarabuğdayı bir arvad olan Qızxanım nənə çıxdı və məni görcək:

– Xoş gəlmisən, ağrın alım, düş! – dedi.

Atdan düşdük.

Mən alaçığa girdim. Qızxanım nənə yükdən bir döşəkcə çıxarıb palazın üstünə saldı.

– Otur, ağrın alım. Maşallah, yekə oğlan olubsan. Mən görəndə bir tikə uşaq idin. Sağlıq olsun, Eldar da dərsini qurtarıb gələr. Bir yerdə gəzib oynayarsınız.

– Eldar kimdir? – deyə soruşdum.

– Mənim nəvəmdir. Sultan dayının oğludur.

Qızxanım nənə ayağa qalxıb ağ samovarı su ilə doldurdu, çıxarıb çöldə od saldı.

### ALMURAD BABA

Çay yenicə hazır olmuşdu ki, başında iri saçaqlı papaq, belində qara sümük qəbzəli və həddindən artıq enli xəncər olan uzunboylu, enlikürəkli, iricüssəli, sağlam bir kişi alaçığa girdi. Bu, Sultan dayının

atası Almurad baba idi. Onun artıq çallaşan qalın qumral bığları və yaşına uymayan şəfəqli iri ala gözləri var idi. Biləkləri pələng biləkləri kimi enli və tüklü idi. Görünüşündən ona əlli yaş ancaq vermək olardı. Əslində isə, altmışdan çox yaşı olduğunu sonralar öyrəndim.

O, saçaqlı papağını götürüb ülgüclə tərtəmiz qırxılmış başının tərini sildi və gur səslə:

– Ay uşaq, bu igid hansı qohumlardandır? – deyə soruşdu.

Sultan dayı kim olduğumu söylədi. Almurad baba mənə iti və mehriban bir nəzər salaraq:

– Ay sən buralara xoş gəlmisən! – dedi.

İri əli ilə əlimi ehmallıqla sıxdı; sanki barmaqlarımın qırılacağından ehtiyat edirdi:

– Məni bağışla, qardaşoğlu, tanımadım, – deyə gülümsədi.

– Ömründə bir dəfə şəhərə gedirsənmi ki, tanıyasan!

– Vallah, doğru deyirsən, Qızxanım, adam dost-aşnanı da unudur. Bilirsən, qardaşoğlu, şəhərə niyə getmirəm?..

– Evdə yatmağın dərdindən, – deyə Qızxanım nənə stəkanları təmiz, ağ məhrəba ilə silə-silə onun sözünü kəsdi.

Kişi təsdiq işarəsi ilə başını tərpətdi:

– Hə, bax, onun dərdindən. Axı, şəhər yeridir, gərək gecə evdə yatasan. Mən də ki, tikili altında yatdım, az qalır bağrım çatlasın. Elə bil, havası-zadı yoxdur.

– Sən bunlara fikir vermə, qadan alım. Bunlar pələng kimi adamlardı, – deyə Qızxanım nənə zarafatla dilləndi. – Bax, bizim bu kişi aylarla yorğan-döşək üzü görməz.

Qızxanım nənə mənimlə Sultan dayının qabağına çay qoydu. Mən öz stəkanımı Almurad babaya tərəf itələdim.

– O çay içmir, çək qabağına, – deyə Qızxanım nənə süfrəyə kərə yağı, qoyun qatığı və təzə pendir qoydu.

– Bu nədi, arvad, deyəsən, bununla qonağın başını aldatmaq istəyirsən? Oradan Mədədi səslə, mənim o qumral toğlumu gətirsin. Özün də mənə bir az ayran ver.

Almurad baba yarım litrdən artıq su tutan ağ, qalaylı mis parçı birnəfəsə başına çəkərək:

– Atanın ehsanı olsun, ay Qızxanım, nə sərindir? Zəhmət olmasa, birini də ver, – dedi.

Sultan dayı, Almurad babanın ikinci parçı da son damlasına qədər içməsinə heyrətlə baxdığımı görüb gülümsədi. Sonra cibindən bir qəzet çıxarıb:

– Ata, – dedi, – səni qəzetə yazıblar.

– Nəyimi yazıblar?





– Qoyunlara yaxşı baxmağını.

– Bu bir böyük məsələ deyil. Öz işimizdir, gərək can yandıraq. Belə şeyləri qəzetə niyə yazırlar?

– Axı, gerisi də var.

– Yaxşı, gerisində nə yazırlar? – deyə Almurad baba sakit və ciddi bir ifadə ilə soruşdu.

– Yazırlar ki, sən bu il üç yüz dişi qoyunun hər birindən iki quzu götürməyə söz vermisən.

– Hə, söz vermişəm, nə olsun?

– Nə olacaq, yazırlar ki, camaat da bilsin.

– Camaat nəyini biləcək? Məgər, məni tanımırlar? Yoxsa, o qəzetdə oturanlar mənim sözümə inanmırlar?

– İnanmasalar, yazmazlar ki, – deyə Sultan dayı gülümsədi.

Qızxanım nənə kişisinə sataşmaq məqsədilə oğrun bir təbəssümlə:

– A kişi, sənə dedim ki, əvvəlcə arxı tullan, sonra danış! – dedi.

– Qızxanım, məni bu qonağın yanında cin atına mindirmə! Nə vaxt mənim bir sözüm iki olub?

– Görərik, – deyə Qızxanım nənə zarafatla mənə göz vurdu.

– Görərik, – deyə Almurad baba da qəti bir ifadə ilə dilləndi.

Sonra xəncərinin altındakı dəri qından bir qəmə çıxarıb, iri gümüş kəmərindən asılan satıla çəkə-çəkə:

– Bir gör toğlu nə oldu? – dedi.

Qızxanım nənə qalxıb alaçıqdan çıxdı.

Almurad baba gözlərini qəmədən çəkərək qayğılı bir ifadə ilə Sultan dayıya dedi:

– Kəhər madyanın kefi yoxdur. Bilmirəm dərdi nədir.

– Qocalıb da, ay ata, iyirmidən çox yaşı var.

– Yox, yaş məsələsi deyil. Nə isə bir dərdi var...

Qapıda qoyun mələdi. On səkkiz-on doqquz yaşında qıpqırmızı, sağlam bir oğlan cəld hərəkətlə alaçığa girib:

– Toğlunu gətirdim, – dedi.

Qalxıb bayıra çıxdıq. Almurad baba beş dəqiqənin içində qoyunu kəsib soydu. Sonra Qızxanım nənəyə müraciətlə:

– Ocağı qala, sacı qoy üstünə, – dedi.

– A kişi, sac nədir?! – deyə Qızxanım nənə etiraz etdi. – Qoy uşağa əməlli-başlı xörək bişirək.

– Sən sacı qoy ocağın üstünə! Evlərində yediyi eyzən bozbaşdır, dolmadır, qoy bir dəfə də çobanların qovurmasından yesin.

O, qoyunu şaqqaladı, sonra bir xeyli doğrayıb sacın içində qovurdu.

Almurad babanın bişirdiyi bu saciçi mənə o vaxta qədər yemiş olduğum bişmişlərin hamısından ləzzətli gəldi.

– Qatıq tök! – deyə Almurad baba tez-tez süfrədəki qoyun qatığını mənə göstərirdi. – Loğman deyib: «Get can al gətir, can olmasa, yarım can al gətir, yarım can olmasa, zəhrimar al gətir». Zəhrimar, bax, həmin bu qatığa deyib. Dünyada özü kimi xeyirli şey yoxdur. İstəyirsən qocalmayasan, canın həmişə sağlam ola, qatıq ye.

Almurad baba tələsmədən, səliqə və nəzakətlə yeyirdi. Lakin çox yeyirdi. Bizim üçümüz qədər.

Xörəyin üstündən bir parç ayran içəndən sonra dedi:

– İstəyirsən səninlə dost olum, çox ye. Azyeyən adamla mənim aram yoxdur. Oğul gərək şir kimi yesin, bildinmi?

Nahardan sonra Qızxanım nənə yorğan-döşək salıb:

– Dur, bir az uzan, qadan alım, yorğunsan, – dedi.

Onlar qalxıb bayıra çıxdılar. Mən uzandım. Çöldən sərin yel əsir, çiçəklərin ətrini alaçığa doldururdu. Almurad baba ilə Sultan dayı qoyunlar barəsində danışa-danışa uzaqlaşdılar. Sultan dayı – ferma müdiri, Almurad baba isə onun baş çobanı idi. Əlli ildən artıqdı ki, ömrünü bu qoyunların arasında, bu çiçəkli çöllərdə keçirirdi.

Bayırdan əsən ətirli yel üzümü oxşayaraq, mənə şirin bir yuxu gətirirdi. Mən səhərdən bəri gördüyüm çöllər haqqında dadlı xəyallara dalaraq yuxuya getdim.

Qarmaqarışıq səs-küydən ayıldım. Alaçıqda heç kəs yox idi. Bayırda qoyun-quzu mələşir, çobanların və qadınların danışığı eşidilirdi. Qalxıb bayıra çıxdım. Böyük ağıla doldurulmuş quzular uzaqdan gələn sürünü görüb mələşirdi. Almurad baba və Sultan dayı bir neçə kənd adamı ilə orada dayanıb söhbət edirdilər. Nəhayət, fermanın sürüsü gəlib çıxdı. Quzular analarını görüb daha da bərkdən mələdilər. Çobanlar və qadınlar qab götürüb qoyunları sağmağa başladılar. Sağıcılar içərisində Sultan dayının arvadı Reyhan xala da var idi. O, kolxozun Staxanovçu sağıcısı hesab olunurdu.

Almurad baba isə sürünün içində dolaşır, qoyunları diqqətlə nəzərdən keçirir, bəzisinin ağzını ayırıb baxır, bəzisinin belini əlləyir ki, görsün kökəlib, ya yox.

Sağın qurtardı. Ağılı açıb quzuları buraxdılar.

Mən fikir edirdim ki, bu qədər böyük sürüdə bu quzular öz analarını necə tapacaqlar. Ancaq bu çox asan oldu. Bir quzu mələyən kimi ana qoyunlardan da biri mələyir və quzu dərhal ona doğru yüyürüb dizlərini yerə vuraraq tələsə-tələsə əmməyə başlayırdı. Beləliklə, bir-iki dəqiqənin içində bütün quzular öz analarını tapıb əmdilər. Sonra





yenə quzuları ayırıb ağıla doldurdular. Çobanlar sürünü yatağa çəkdilər.

Axşam sərini düşmüşdü. Hər tərəf göz işlədikcə dümdüz olduğundan, adama elə gəlirdi ki, uzaq üfüqdə günəş səmadan yerə enib yavaş-yavaş qeyb olur. Qürubun qızıl şüaları düzənliyin üzəri ilə uzanıb çiçəklərə, otlara xəyali bir gözəllik verirdi. Bir az keçəndən sonra bu qızıl şüalar qırıldı. Çəmənlərin üzərinə alator qaranlıq çökdü. Axşam yeli otları hərəkətə gətirdi.

Atların kişnəməsi eşidildi. İlxı qoruqdan qayıdırdı. Kürən, ala, qumral, kəhər daylar tullanıb düşür, bir-birilə oynayırdılar. Madyanlar isə, sakit-sakit yeriyərək, mehriban və tox nəzərlərlə yanlarında oynaqlayan balalarına baxır və elə bil ki, onların bu coşğun sevincindən gizli bir zövq duyurdular. Lap arxada ağır addımlarla bir kəhər madyan gəlirdi. Beli azca əyri olduğundan, o, yeridikcə ombasını çəkirdi. Onun üzündə ətrafındakı coşğun həyata qarşı biganə və kədərli bir ifadə var idi.

Almurad baba ona yanaşan kimi madyan dayandı. Baba onun başını tumarlaya-tumarlaya Sultan dayıya müraciətlə:

– Yox, kəhər madyanın kefi yoxdur! – dedi və üzünü mənə tutaraq əlavə etdi: – Qardaşoğlu, bayaq dediyim qoca madyan, bax, budur. Gördüyün bu atların çoxu onun törəməsidir.

Almurad baba gözlərini madyandan çəkməyərək susdu. Qocanın üzü birdən-birə sevinclə parladı. O, mənə dönüb:

– Bu qaşqa day da kəhərin törəməsidir, – dedi. – Bir-iki gündən sonra minməyə öyrədəcəyəm. Elə yorğası var ki...

Hava artıq tamamilə qaralmışdı. İndi də ağır addımlarla dəvələr gəlirdi. Onların bu ağır gəlişi mənə kitablarda oxuduğum dəvə karvanlarını xatırladırdı.

### QAŞQA DAYIN ÖYRƏDİLMƏSİ

Qarabağ mahalı öz atları ilə məşhurdur. Qarabağ atlarının şöhrəti ta qədim zamanlardan bəri dünyanın hər tərəfinə yayılmışdır.

«Sabir» kolxozu gözəl atlar bəsləyib böyüdür. Onun atları respublikamızın cıdırlarında ad qazanmışlar.

Bu gün Almurad babanın kefi çox kök idi; çünki kəhər madyan otlamağa başlamışdı. Bir də, nahardan sonra o, qaşqa dayı miniyə öyrədəcəkdi.

Qaşqa daya yaxın getmək mümkün deyildi. O, xam atların ən dəcəli idi. Adam ona yaxınlaşanda, sıçrayıb ildırım kimi qaçırdı. Boyu yaşına nisbətən uca görünürdü. Başı balaca, zərif ayaqları isə, ceyran

ayaqları kimi incə idi. Ceyran gözləri kimi iri, qara gözləri alışıb-yanırdı. Mən onu o qədər sevirdim ki, saatlarla qoruqda dayanıb onun otlamasına, oynaqlamasına tamaşa edirdim. Buna görə də, Almurad baba «Bu gün qaşqa dayı miniyə öyrədəcəyik.» deyəndə çox həyəcanlandım. Hamımız ilxı otlayan qoruğa getdik. Almurad baba cavan çobanlardan birini səsləyib, həmişə mindiyi göydəmir ürgənin gətirilməsini tapşırdı. Qızxanım nənə ona baxaraq:

– Nə qayırırsan, a kişi, deyəsən, dayı özün tutmaq istəyirsən? – deyə soruşdu.

– Bəs necə, yoxsa, elə bilirsən qocalmışam?

Nə qədər dilə tutdularsa, qocanı fikrindən daşındıra bilmədilər. Mən sonralar öyrəndim ki, cavan atları qovub tutmağa onun çox böyük həvəsi varmış.

Göydəmir ürgəni gətirdilər. Bu at öz yüyürəkliyi ilə rayon atları içərisində birinci idi. Almurad baba onun dik və məğrur başını sığallayaraq:

– Gözünə dönüm, göy ürgə, qaşqa daya ancaq sən çata bilərsən, – dedi.

Sonra kəmənd atmaq üçün möhkəm bir çatı götürüb, cəld və gümrah hərəkətlə qalxıb ata mindi.

Sultan dayı yenə onun qabağına keçərək:

– Ay ata, – dedi, – axı, niyə qoymursan uşaqlar tutsun?

Almurad baba oğluna cavab verməyib atını ilxıya tərəf səyirtdi və qaşqa daya yaxınlaşıb kəməndini atdı. Kəmənd tutmadı, day sıçrayıb güllə kimi qaçdı. Almurad baba da qaşqa dayın ardınca çapdı.

Taxta kimi dümdüz qoruqda biz onların hər hərəkətini aydın görürdük. Qaşqa day qaçır, göydəmir ürgə isə qovurdu. Onlar tez-tez qoşalaşırdılarsa da, Almurad baba kəməndini hələ atmırdı.

– Niyə atmır? – deyə səbirsizliklə Sultan dayıdan soruşdum.

– Gözləyir ki, qaşqa day tamam yorulub nəfəsdən düşsün.

Tamaşaçıların hamısı həyəcan keçirirdi.

– Ay gözünə dönüm, göydəmir ürgə!..

– Yox, deyəsən, qaşqa day onu yoracaq.

– Elə olsa, Almurad göydəmir ürgəni güllə ilə vurar.

– Xeyr, göydəmir ürgə qaşqa dayın nəfəsini kəsib, – deyə hərə bir cür fikir söyləyirdi.

Onlar hərlənib yenə də bizə tərəf gəlirdilər və təxminən bizə iki yüz addım qalmış Almurad baba kəməndini atdı. Başı kəməndə keçən qaşqa day elə bir qüvvə ilə dartınıb şaha qalxdı ki... mən Almurad babanın at üstündə dayanıb yıxılmadığına heyrət etdim.

– Afərin, Almurad!





– Zor deyil ki, kişi igiddir, vəssalam! – deyə yerbəyerdən çığırırdılar. Beləliklə, qaşqa day Almurad babanın kəməndinə keçdi. Çobanlar yüyürüb onu tutdular. Üç cavan oğlan onu zorla saxladı. Qaşqa dayın ağzını çatı ilə bərk-bərk bağladılar.

– Tullan üstünə! Qoyma nəfəsini dərə! – deyə Almurad baba oğlu Sultana qışqırdı.

Sultan dayı bir göz qırpımında qaşqa dayın üstünə atıldı. Xam day əvvəlcə intizamsız hərəkətlərlə atılıb-düşdü. Sonra, birdən, yenə də ildırım kimi getdi və çox çəkmədi ki, üfüqdə gözdən itdi.

– Birdən aparıb yıxar ha?! – deyə mən həyəcanla Almurad babaya baxdım.

– Sultan yıxılan oğul deyil, – deyə kolxozçulardan kim isə səsləndi.

– Day özü yıxılmasa, Sultana heç nə olmaz, – deyə başqa bir adam təsdiq etdi.

Qızxanım nənə tamamilə sakit və qayğısız halda yanındakı arvadla söhbət edirdi.

– Odur, gəlir, – deyə haçandan-haçana kim isə dilləndi.

Doğrudan da, Sultan dayının uzaqlardan bizə tərəf çapdığını gördüm. Bizə beş yüz metr qalmış o, qaşqa dayın cilovunu yığdı və qaşqa day yavaş-yavaş yorğalamağa başladı.

– Yorulub, – deyə Almurad baba gülümsədi.

Sultan dayı gəlib çatdı, qaşqa day başını dik tutub, ürkək və qəzəbli nəzərləri ilə bizə baxır, lakin daha atılıb-düşmürdü. O, deyəsən, yavaş-yavaş ram olurdu.

## ELDARIN GƏLMƏSİ VƏ İLK DOSTLUQ

Bir gün günortaçağı uzaqdan bir atlı göründü. Qızxanım nənə əlini gözünün üstə qoyub diqqətlə baxdı və bizə dönərək:

– Ay uşaq, gözüm seçmir, bir görün o gələn atlı kimdir?

Pendir mayalamaqla məşğul olan Reyhan xala yarım güllə mənzilində olan atlıya baxaraq:

– Eldardır, xala, – dedi.

Ancaq mən atlıya nə qədər baxırdımsa, onun qoca və ya cavan olduğunu, hətta, kişi və qadınlığını da seçə bilmirdim, halbuki mənim gözlərim tamamilə sağlam idi.

Gələn, doğrudan da, Eldar idi. O, mən yaşda, nazik, lakin bədəni dəmir kimi sağlam, əsmər bənizli bir uşaq idi. Eynilə anası Reyhan xala kimi itibaxışlı, xurmayı gözlü və qara, qıvrım saçlı idi...

Qızxanım nənə onun boynunu qucaqlayıb dedi:

– Ölüm qabağında, imtahanların nə cür oldu?

Oğlan iti nəzərlərini məndən çəkməyərək:

– Hamısını verib qurtardım, – dedi.

– Yəni, o biri sinfə keçdin?

– Bəs, keçməmiş nə edəcəkdim! – deyə oğlan böyük adamlar kimi cavab verdi.

– Hanı, kağızını göstər!

– Eh, ay nənə, elə bil, göstərdim, oxuya biləcəksən, – deyə Eldar gülümsədi.

Və döş cibindən bir vəsiqə çıxarıb ona verdi. Arvad kağızı üsulluca o tərəf-bu tərəfə çevirə-çevirə qəribə maraqla ona diqqət yetirirdi. Sonra vəsiqəni mənə uzadıb:

– Qadan alım, gör burada nə yazılıb? – dedi.

Mən tərəddüd içərisində gah Eldara, gah da nənəyə baxır, vəsiqəni alıb oxumaq istəmirdim. Fikirləşirdim ki, bəlkə o keçməmişdir. Oğlan isə, mirvari kimi incə və gözəl dişlərini göstərərək gülümsədi:

– Alsın oxusun, – dedi, – elə bilirsən yalan deyirəm?

Mən vəsiqəni alıb nəzərdən keçirdim. O, dərslərinin əksəriyyətindən «yaxşı», ədəbiyyatla idmandan isə «əla» qiymət almışdı.

– Beşinci sinfi bitirib altıya keçir, – deyə mən Qızxanım nənəyə cavab verdim.

Qarının üzü dərhal mehriban və xoşbəxt bir ifadə aldı:

– Nənən gözünə qurban olsun, keç içəri, – deyə nəvəsini əzizlədi.

Biz Eldarla tez dostlaşdıq. O məndən ov etməyi bacarıb-bacarmadığımı soruşdu. Heç ov etmədiyimi söylədim.

– Heyf ki, indi ov qadağandır. Yoxsa, ceyrana gedərdik, – dedi. – Ancaq eybi yoxdur, sabah gedərik, diri ceyran tutarıq.

– Deyirlər ceyrana at da çatmır. Biz onu necə tuta bilərik? – deyə soruşdum.

Onun gözlərində sevinc qığılcımları parladı:

– Elə bilirsən qovub tutacağıq? Yox, onun elmi var, ancaq gərək lap tezdən duraq. Sən tezdən dura bilirsənmi?

Mənim cavabımı gözləməyib:

– Mən səni oyadaram, – dedi.

Alaçıqda yaz yuxusu çox şirin olur. Səhər Eldar məni oyadanda güclə durdum. Geyinib bayıra çıxdıq. Dan yeri yenicə işıqlanırdı. Fermada isə qızğın iş kedirdi. Arvadların bir qismi maşında yağ çıxarır, o biri qismi isə, südü mayalayıb pendir tuturdu. Səhərin alator qaranlığında qoruqlarda otlayan qoyun sürüləri və çobanların qaladıqları ocaqların alovu görünürdü.





Biz belimizə qədər qalxan otların arası ilə qaça-qaça gedirdik. Eldar birnəfəsə yüyürürdü. Mən onunla ayaqlaşmaqda çətinlik çəkirdimsə də, utandığımdan dinməyib ardınca qaçırdım.

Gecə şeh düşmüşdü. Çiçəklərin ətri indi daha da kəskin duyulurdu. Qabağımızdan yuxulu quşlar uçuşurdular.

Alaçıqlardan təxminən iki kilometr uzaqda, balaca bir təpənin yanında Eldar dayandı. Yaxındakı kiçik arxı göstərib:

– Bu saat ceyranlar bu arxdan su içməyə gələcək, – dedi.

– Nə bilirsən, bəlkə ayrı yerdən gedib içəcəklər? – deyə soruşdum.

– Necə «nə bilirsən?» Bir ota fikir ver, görürsən ki, buraların otu tapdalanıb; demək, əvvəlcə bu təpəyə çıxıb, o yan-bu yana baxırlar ki, görsünlər adam-zad gəlmir ki. Arxayın olandan sonra gəlib su içirlər.

Bu sözlərdən sonra, o, ot və çiçəklərdən papaq kimi şey qayırıb birini öz başına, o birini də mənim başıma qoydu.

– Onlar çox itigörən olur, – dedi, – otur aşağı, mən «uzan» deyən kimi yerə yatıb, nəfəsini gizlədərsən. Elə ki, ceyran yanından ötdü, o saat əl atıb bərk-bərk qıçından yapışarsan.

Mən ceyranların məhz bu yerdən gəlib keçəcəklərinə inanmasam da, gözləməyə başladım. Eldar dizi üstə oturub, qırğı kimi iti gözlərini irəliyə zilləmişdi. Birdən onun gözləri pişik gözü kimi parıldadı.

– Gəlirlər, düz üstümüzə gəlirlər, uzan! – deyə o cəld yerə yatdı.

Mən də uzandım. Çox çəkmədi ki, bir az uzaqda xışıltı və ayaq səsləri eşidildi. Lakin birdən bu ayaq səsləri kəsildi. «Nə oldu?» deyə mən fikirləşirdim ki, qarışıq ayaq səslərinin bir anda uzaqlaşıb yox olduğunu eşitdim.

– Tfu, qayıdıb qaçdılar, – deyə Eldar əsəbi halda dizi üstə qalxıb irəliyə baxdı. Mən də qalxdım.

– Görürsən, necə qaçırlar...

Mən bir dəstə ceyranın ildırım kimi qaçıb çəmənlikdə gözdən itdiyini gördüm.

Eldar acıqlı-acıqlı deyindi:

– Heç bir yerimiz görünmürdü. Nə təhər oldu ki, xəbər tutdular.

İndi artıq dan yeri lalətək qızarmışdı; qalxıb alaçıqlara tərəf yol aldıq. Sabahın sərin yeli tər otları, açılmış çiçəkləri tərpədirdi. Bir azdan günəş yavaş-yavaş üfüqdən baş qaldırdı. Düzənlik birdən-birə yaşıla boyandı, minlərlə almaz dənələri parıldadı.

Yolda göydəmir ürgənin üstündə gələn Almurad babanı gördük.

– Haradan gəlirsən, babacan? – deyə soruşdum.

– Qoyunların yanından. Bəs, siz haradan gəlirsiniz?

– Biz də ceyran tutmaqdan.

O gülümsədi:

– Bəs, niyə tutmadınız?

– Otun içində gizlənib pusurduq, nə təhər oldusa, duyuq düşüb qaçdılar, – deyə Eldar cavab verdi.

– İyinizi alıblar! Ceyran çox həssas heyvandır, – deyə Almurad baba bizi başa saldı.

## YAYLAĞA KÖÇÜRÜK

Səhər Almurad baba bu gecə yaylağa köçəcəyimizi xəbər verdi. Axşam kolxoz sədri Alxan dayı binəyə gəldi. Bu, qırx beş-əlli yaşlarında, ortaboylu, dolubədənli bir kişi idi. Əynində təzə qara frenç, ayaqlarında par-par parıldayan qara boğazlı çəkmə vardı. Başına bahalı gümüşü dəridən tikilmiş papaq qoymuşdu. Balaca qonur gözləri həmişə gülürdü.

O, qoyun sürülərini, mal-qaranı, ilxını nəzərdən keçirib, hər bir heyvanı adı və nişanları ilə soruşur, filan atın və ya filan qoçun nə cür otladığı ilə maraqlanırdı.

Gecə ferma işçiləri Almurad babanın alaçığına yığıldılar. Alxan dayı pambığın və yaz əkinlərinin yaxşı bitməsindən, kənddə tikilən elektrik stansiyasının artıq qurtarmaq üzrə olduğundan və sairədən danışdı.

Ay doğanda köç atlandı. «Sabir» kolxozunun dörd yük maşını vardı. Lakin qoyun-quzu ilə ayaqlaşmaq üçün maşın əl vermirdi; çünki qoyunları arandan yaylağa otara-otara aparırlar. Alxan dayı boz atın üstündə bizi bir qədər ötürdükdən sonra xudahafizləşib qayıtdı. Almurad baba onun ardınca qışqırıb:

– Sən pambığa, taxıla fikir ver! Bizdən arxayın ol! – dedi.

Bu qayda ilə üç gün yol gedəndən sonra yaylağa çıxdıq. «Novlu bulaq» adlanan bulağın üstündə düşüb alaçıqları qurduq. Novlu bulaq yosun basmış boz bir qayanın altından – daşların içindən qaynayıb çıxırdı. Biz düşən yurdun adı Qızılboğaz idi. Uzaqlarda sıldırım dağlar və qalın meşələr görünürdü.

Qoruqlarda çiçəklər təzə açılırdı. Burada aran düzənliklərindəki kimi tikanlı bitkilər yox idi. Buradakı otlar ipək kimi yumşaq idi. Hava nanə və kəklikotu ətri ilə dolmuşdu.

## DAĞKEÇİSİ OVU

Bir gün Eldar uzaqdakı uçurumlu dağları göstərib:

– Bilirsən orada nə qədər dağkeçisi var? – dedi. – Heyf ki, nənəm





səni buraxmaz. Yoxsa, quş tüfəngimi götürüb ova gedərdik. Bir dəfə babam üçünü vurub gətirmişdi.

Sonra bir şey kəşf edibmiş kimi əlavə etdi:

– Bura bax, sən desən, babam sözünə baxar. Evə gələndə de, bizi dağkeçisi ovuna aparsın, yaxşımı?

Mən söz verdim. Ancaq Almurad baba həmişə qoyunların arasında olub evə çox gec-gec gəlirdi. O, qoyun-quzunu ən gözəl yerlərdə otarır, gecə biz şirin yuxuda ikən onları yaylıma çıxarır, hər bir toğlunun və quzunun kökəlməsinə xüsusi diqqət yetirirdi. Altmışdan çox yaşı olan bu qocа ən hündür dağı birnəfəsə çıxar, gecə-gündüz ayaq üstündə olar, yorulmaq nə olduğunu bilməzdi. Cavan çobanlar toya, şənliyə yığılıb gələndə, o böyüklükdə sürünü tək idarə edərdi. Özünün savadı yox idi. Lakin cavan çobanların kitab, qəzet oxumasına ciddi fikir verərdi. Hər gün müntəzəm surətdə yaxındakı dağ kəndindən qəzet gətirdib onlara oxutdurar və özü də qulaq asardı.

Bir gün Alxan dayı aranda pambıq və taxıl becərənlərə yavanlıq aparmaq üçün maşın göndərmişdi. Almurad baba maşını yağ, pendir və şorla doldurub yola salanda zarafatyana mənə dedi:

– Hə, eviniz sarıdan darıxırsansa, qoyum maşına get.

– Yox, darıxmıram, baba, nə olar ki, sabah dağkeçisi ovuna apar da.

Almurad baba dağlara tərəf baxıb:

– Sabah hava pis olacaqdır, o biri gün gedərik, – dedi.

Səhər, doğrudan da, bütün günü çən-duman oldu.

O biri gün Almurad baba tüfəngini götürüb, bizimlə bərabər evdən çıxdı. Biz xeyli gedəndən sonra yumşaq ot və çiçəklərin arası ilə dolama-dolama qalxan ensiz cığırla dağın başına çıxdıq. Üstündə olduğumuz dağla o biri dağın arasında dərin bir uçurum vardı. Dibinə baxanda adamın gözləri qaralırdı. Uçurumun o tərəfindəki dağın döşü divar kimi dik və hamar idi. Yalnız yuxarısında kələ-kötür yerlər görünürdü. Almurad baba həmin dağı göstərib:

– Keçilərin çox olduğu yerlərdən biri oradır, – dedi.

Söz kişinin ağzında qurtarmamış həmin dağın lap başında bir dağkeçisi göründü və sürətlə dağın dalına tullandı. Onun dırnaqlarının altından qopan daşlar dərəni gurultu ilə doldurdu. Mən keçinin yıxılmamasından heyrətə gələrək Almurad babanın üzünə baxdım.

– Baba, odur, biri də keçdi, – deyə Eldar yenə də həmən yerdən keçən ikinci keçini göstərdi.

Almurad babanın tüfəngi açıldı. Keçi bir an havaya qalxıb dağın hamar döşü ilə dərəyə yuvarlandı. Biz nə qədər baxdıqsa, vurulmuş keçini görə bilmədik. O tərəfdəki dağdan bir qartal qalxıb uçurumun

üstündə hərləndi. Biz dağı enib uçurumun dibi ilə axan və içində xırda balıqlar görünən dumduru, kiçik çayın yanında Almurad babanın vurduğu keçini tapdıq. Ancaq biz gələnə kimi qartal onu didib parçalamışdı.

Evə dönmək istədiyimiz zaman gün günorta yerinə qalxmışdı. Səma zanbaq kimi gömgöy və ləkəsiz idi. Buna görə də Almurad baba:

– Tez olun, uşaqlar, bərk yağacaq, – dedikdə mən təəccübləndim.

– Yağış nə gəzir, baba? – deyə etiraz etmək istədim.

– Yox, yağacaq! Bax, o dağın üstündəki balaca buludu görürsənmi, bu saat yağdıracaq.

Getdikcə həmin bulud böyüyür və daha da qaralırdı. On beş dəqiqədən sonra bir yağış başladı ki, elə bil, dünyadakı dənizlərin hamısını göyə qaldırıb şırıltı ilə yerə tökdülər. Tez-tez ildırım çaxırdı. Mənə elə gəlirdi ki, o lap qulağımızın dibində hansı qayanı isə parça-parça elədi. «Şaraq... şaraq» dalbadal göy gurulday ır, sellər qijhaqijla tüğyan edirdi. Sanki dağlar, qayalar uçub tökülürdü. Almurad baba olmasaydı, neçə yerdə sel, az qala, bizi aparacaqdı.

Tamam sel-su içində gəlib alaçığa çıxdıq. Almurad baba saçaqlı yapıncısını çiyninə salıb:

– Qızxanım, mən qaçdım qoyunların yanına, sən uşaqları rahat elə, – deyib qapıdan çıxdı.

– A kişi, heç olmasa, paltarını dəyiş! – deyə Qızxanım nənə arxadan qışqırdı.

– Qorxma, heç nə olmaz, qoyunlardan nigaranam, – deyə bayırdan Almurad babanın səsi eşidildi.

Yağış gecəyə qədər davam etdi. Almurad baba gecə qayıdıb islanmış paltarını yenicə dəyişmişdi ki, cavan çobanlardan biri içəri girdi və dedi:

– Sürüyə canavar təpildi, əlli qoyun təzib.

Almurad baba cəld geyinib getdi.

Eldarla mənim yerim yanaşı salınmışdı.

– Əgər, Alabaş da onlarla gedibsə, qoyuna heç zad olmaz, – deyə o belə hadisələrin yaylaqda tez-tez baş verdiyini mənə söylədi.

Bir azdan bizi yuxu tutdu. Gecənin yarısı oyanıb gördüm ki, yağış kəsib. Ay mavi göyün dərinliyində üzür, onun ətrafındakı tək-tək ulduzlar parlayır. Alaçığın yanında yatmış dəvələr isə ahəstə-ahəstə gövşəyirdilər. Onların ağzından təzə ot və çiçək qoxusu gəlirdi.

Səhər qoyunların tapılmadığını bilib Eldarla onları axtarmağa getdik.





**DAĞDA HADİSƏ VƏ QOYUNLARIN TAPILMASI**

Eldar quş tüfəngini və bir neçə patron da götürmüşdü. Biz dağları, dərələri axtara-axtara gəlib bir uçuruma çıxdıq. Uçurumun döşündən keçən dolayı cığırla gedirdik.

Eldar qabaqda, mən isə arxada gedirdim. Birdən lap ayağımın yanına iri bir daş düşüb uçuruma yuvarlandı. Lakin üç-dörd addım atmamış biri də düşdü. Başımı qaldırıb yuxarı baxanda böyük bir ayının təxminən otuz-qırx addım yuxarıda, qayanın üstündə dayanıb bizə baxdığını gördüm.

– Eldar! – deyə qışqırıb məndən on beş-iyirmi addım qabaqda gedən yoldaşımı səslədim.

– Nə olub? – deyə o çevrildi.

Mən vahimə içində ayıya işarə etdim. Elə bu zaman ayı donqularaq iki qabaq əlləri ilə iri bir daş götürüb yenə mənə tulladı. Əgər, əyilməsəydim, daş başımı parçalayacaqdı.

– Qorxma! – deyə Eldar qışqırdı və ayını nişan alıb atdı.

Ayı müdhiş bir bağırtı qopararaq yıxıldı. Biz qaçdıq.

Bir qədər aralanmış çevrilib gördüm ki, o nə qədər əlləşirsə qalxa bilmir. Durur, dərhal da yıxılır. İgid Eldar tüfəngi doldurub bir də atdı. İkinci güllədən sonra ayı daha tərpənmədi. Lakin biz onun yanına getməyə cəsarət etməyib obaya tərəf qaçdıq.

Yolda axşamdan bəri qoyunları axtarıb tamam yorulmuş Almurad babaya rast gəldik. Əhvalatı ona söylədik. O bizimlə ayının yanına gəldi və onun yaralarına baxıb:

– Bərəkallah, Eldar! – dedi. – Lap sinəsindən vurmusan, ancaq birinci güllən tutmasaydı, sizi parça-parça edəcəkdi. Gedək, mən yorulmuşam, uşaqları göndərərəm, gəlib dərisini soyarlar.

Qoyunları tapa bilmədiyimiz üçün Almurad babanın kefi yox idi. Ayıdan bir qədər aralanmışdıq ki, aşağıdan, dərənin dibindən it səsi eşitdik.

– Bu, Alabaşdır,– deyə Almurad baba sevinclə səsləndi.

Biz qabaq tərəfdən uçurumu enib dərənin dibinə çatdıqda, qoyunların orada yatdığını, Alabaşın isə, onların yanında durub bizə baxdığını və sevinə-sevinə quyruğunu buladığını gördük.

*1948*

## YASƏMƏN AĞACI

**M**əktəbimizin bağçasında ucaboylu, cavan bir yasəmən ağacı vardı. Yaz gələndə bütün ağaclar kimi o da çiçək açırdı. Onun açıq bənövşəyi gülləri salxım-salxım olub sallanırdı.

Məktəbimizin bağçasındakı ağ, çəhrayı çiçəkli alça, armud, şaftalı və ərik ağacları arasında bu yasəmən ağacının qəribə bir gözəlliyi vardı.

Kəndimizdə yasəmən olmazdı. Məktəbimizdəki yasəməni isə, Aslan müəllim əkmişdi. O, hər səhər, əkdiyi bu ağacın yanına gələr, budaqları əyib salxım gülləri iylər və dayanıb ağacın gözəlliyinə tamaşa edərdi.

Aslan müəllim ucaboylu, qarabəniz, zəhmli bir adam idi. Alnında sərt qırışlar vardı. Lakin onun, yasəmən ağacını seyr edərkən, üzünün nə qədər incə, mehriban və xülyalı bir ifadə aldığını bircə görsəydiniz!..

Bir gün dərsdə mənimlə bir skamyada oturan yoldaşım Cəfər əyilib qulağıma pıçıldadı:

– Müəllimin yasəmən ağacında bir bülbül yuva salıb.

Bu sözü eşitcək səbrsizliklə dərsin qurtarmasını gözlədim. Zəng vurulan kimi Cəfərlə bərabər yasəmən ağacının yanına qaçdıq.

Cəfər düz deyirmiş: salxım-salxım sallanan güllər arasında çör-çöpdən və palçıqdan qayrılmış bir yuva gördüm. Mən düşünmədən birbaş ağaca dırmaşdım. Elə yuvaya yenicə çatmışdım ki, onun içindən pırıltı ilə bir bülbül uçdu və ağacın gövdəsi ağırlığıma davam gətirməyib şaqqıltı ilə sındı. Mən yıxıldım, yuva da uçub töküldü.

Ətrafıma toplanmış uşaqlar çığır-bağır salmışdılar. Özümü toplayıb ayağa qalxdıqda, Aslan müəllimin yanımda durduğunu gördüm. Kürəyimin arasından soyuq bir şey keçdi. Bu halı müşahidə edən uşaqlar da susdular. Aslan müəllim heykəl kimi qımıldanmadan qəddi qırılmış yasəmən ağacına baxırdı.





Bu zaman birdən bülbül qanadlarını başımız üzərindəki alma ağacının çiçəklərinə çırpıb həyəcanla səsləndi. Aslan müəllim başını qaldırıb kiçik bir budaq üzərində oturmuş bülbülə, onun uçmuş yuvasına və mənə baxdı.

Sonra o dinməzcə dönüb getdi.

Zəng vuruldu. Mən peşman olmuşdum. Mən Aslan müəllimdən məzəmmət və cəza gözləyirdim. Lakin o mənə nə bir söz deyir, nə də üzümə baxırdı. Bu isə, mənim üçün hər şeydən ağır idi. Mən istəyirdim ki, o məni danlasın, cəza versin, lakin o susurdu.

Bir gün Aslan müəllim məndən keçən dərsi xəbər aldığı zaman onun baxışlarında elə soyuq bir ifadə hiss etdim ki, özümü saxlaya bilməyib cavab verməк əvəzinə ağladım.

O əvvəlki kimi sakit və təmkinli bir səslə mənə «əyləş» dedi və başqa bir şagirdi qaldırdı.

Mən ağlayırdım. O isə, elə bil ki, bunu görmür, sakitcə dərsini keçirdi.

Zəng bayıra vurulanda Aslan müəllim işarə ilə məni çağırdı. Biz birlikdə bağçaya endik. Heç bir söz danışmadan yasəmən ağacının yanına gəldik. İndi onun yerində başı hamar kəsilmiş bir kötük qalmışdı. Mən gözlərimi endirdim.

Aslan müəllim bir neçə saniyə ağaca baxdıqdan sonra mənə tərəf döndü və:

– Biz dünyaya, onu daha da gözəlləşdirmək üçün gəlmişik, – dedi. – Biz onun gözəlliklərini məhv etmək üçün doğulmamışıq!

Mən onun üzünə baxmadan:

– Məni bağışla, müəllim, – dedim.

... Gələn bahar yasəmən ağacının kötüyündən yeni pöhrələr qalxdı. Mən indi həmin pöhrələrə sevə-sevə qulluq edir, onları qoruyuram.

Axı, doğrudan da, biz dünyanın gözəlliklərini məhv etmək üçün doğulmamışıq!...

*1948*

# ~ IZ ILƏ ~

Cəfər ilə Nadir qış imtahanlarını verib bütün dərslərindən beş aldıqları üçün çox sevinirdilər. Onlar sözü bir yerə qoydular ki, aldıqları qiymətləri aparıb fermada çoban olan atalarına göstərsinlər.

Fermanın qış binələri kəndin on kilometrliyində yerləşmişdi. Cəfər və Nadir səhər tezdən çörəklərini yeyəndən sonra binəyə getdilər.

Binədə çobanlara yemək bişirən Güllü qarıdan başqa heç kəs yox idi. Çobanlar qoyun sürülərini otarmağa aparmışdılar. Güllü qarı uşaqların hərəsinə bir parça suluq verdi. Onlar da suluqları yeyib binənin yanındakı ağıllarda oynadılar. Axşamüstü çobanlar sürüləri örüşdən gətirdilər. Cəfər ilə Nadir qış tətilinə buraxıldıqlarını atalarına söyləyib dərslərindən aldıqları qiymətləri onlara göstərdilər. Çobanlar çox sevinib uşaqları təriflədilər. Cəfərin atası Muradxan fermanın baş çobanı idi. O, hər günkü kimi, bu gün də sürüləri yoxlamağa başladı və on beş dəqiqənin içində dörd min qoyunun hamısını yoxlayıb qurtarandan sonra məlum oldu ki, Qulunun sürüsündəki damazlıq merinoslardan biri yoxdur.

Qulu:

– Yəqin təzib meşədə qalıb, – dedi. – Mən bu gün sürünü meşənin yanındakı düzdə otarırdım. Gedim qaranlıq düşməmiş tapım.

Pərt olmuş Qulu çomağını çiyninə alıb meşəyə tərəf getdi.

– Dayan, səninlə bir adam da getsin, bəlkə tək tapa bilmədin, – deyə baş çoban Muradxan arxadan onu səslədi.

– Ata, qoy biz də onunla gedək, – deyə Cəfər xahiş elədi.

Atası etiraz etmədi:

– İstəyirsiniz gedin, – dedi.

Uşaqlar Qulunun ardınca yüyürdülər.

Onlar gəlib meşənin yanına çatanda Qulu dedi:

– Uşaqlar, hamımız bir yerdə axtarsaq, tapa bilmərik. Siz o tərəfə





gedin, mən də bu tərəfə. Ancaq meşənin içərilərinə tərəf çox uzaqlaşmayın. İndi canavarların pis vaxtıdır. Bir şey olsa, məni səsləyin.

Uşaqlar:

– Yaxşı, – deyib meşəyə yüyürdülər.

Onlar belə bir məsul və hətta, canavara rast gəlmək qorxusu olan işə getdikləri üçün qürurlanırdılar. Özlərini böyük qəhrəmanlar kimi güclü və cəsur hiss edirdilər.

Qabaqda Cəfər, dalda Nadir gedirdi. Onlar tez-tez dayanır, ətrafı dinləyir, sonra yenə yollarına davam edirdilər. Birdən Cəfər diqqətlə yerə baxıb, nəm torpaq üzərində qoyun ayağının izlərini gördü.

– Bura bax, Nadir, – deyə o, izi göstərdi, – görürsənmi, aşağıdan gəlib bu tərəfə burulub.

Uşaqlar izi tutub getməyə başladılar. İz bəzən qarağat kolları və ya cavan palıd pöhrələri arasında itir, sonra yenə görünürdü. Bu zaman hava yavaş-yavaş qarlamağa başladı. Uşaqlar izi itirməmək üçün gözlərini yerdən çəkməyərək yollarına davam edirdilər. Beləliklə, onlar meşənin xeyli dərinliklərinə getdilər.

Birdən sakit meşədə vahiməli bir gurultu eşidildi. Uşaqlar diksinib dayandılar. Gurultu hələ də davam edirdi. Sanki yaxında nəsə uçub, ağacları sındıra-sındıra dərəyə sarı yuvarlanırdı.

– Qayadır, dağdan qopub, – deyə Cəfər dilləndi.

– Qaya öz-özünə qopmaz, yəqin yuxarıda ayı-zad var, – deyə Nadir qorxmuş halda Cəfərin üzünə baxdı.

– Qışda ayı mağarasından çıxmaz, – deyə Cəfər ciddi surətdə cavab verdi.

Bu zaman harada isə bir qoyun mələdi.

– Eşidirsənmi? – deyə Cəfər sevinclə səsləndi.

Qoyun bir də mələdi.

– Gəl bəri, bu saat tapacağıq, – deyə Cəfər qabağa düşdü.

Onlar dağın döşü ilə yuxarı dırmanmağa başladılar. Birdən Cəfərin yadına düşdü ki, keçən il o, cavan çobanlardan quzu kimi mələmək öyrənib. Cəfər dayanıb eynilə quzu kimi bir səs çıxardı. Onun səsinin əks-sədası meşədən çəkilməmiş qoyun yenə də bayaqkı kimi mələdi.

– Tez gəl, – deyə Cəfər döşü sıx ağaclıq olan dağa dırmanmağa başladı.

Nadir ona güclə çatırdı. O tez-tez ağaca, kola ilişib yıxılırdı. Bir qədər getdikdən sonra Cəfər dayanıb yenə də mələdi. Bu dəfə qoyun onun səsinə xeyli uzaqdan cavab verdi. Onlar yollarına davam edib yenə bir xeyli getdilər. Qoyundan heç bir əsər-əlamət yox idi. Cəfər təkrar-təkrar səsləndi, lakin cavab gəlmədi.

– Gəl qayıdaq, gecə düşür, sonra azıb meşədə qalarıq.

– Qoyunu burada qoyaq gedək? – deyə Cəfər təəccüblə Nadirə baxdı.

– Qoyunu yəqin canavar parçaladı.

– Nə bilirsən?

– Görmürsən daha mələmir?

– Bilmək olmaz, – deyə Cəfər cavab verdi.

Sonra qaşqabağını tökərək:

– Mən merinosu tapmamış geri qayıtmayacağam, – dedi. – Sən istəyirsən qayıt get!

O yenə də qoyunu axtarmağa başladı.

Nadir nə edəcəyini bilmirdi. Yoldaşını tək qoyub qayıtmağa vicdanı yol vermirdi, meşədə də qalmaq onu qorxudurdu.

Hava artıq tamamilə qaralmışdı. İndi daha şiddətlə yağmaqda olan qar yeri ağartmışdı. Meşədən cürbəcür anlaşılmaz səslər eşidilirdi.

Cəfər kol-kosların arasını, qayaların dibini diqqətlə axtarırdı. Nadir də könülsüz onu təqib edirdi.

– Tərsliyi burax, gəl qayıdaq, qurd-quş bizi basar yeyər, silahımız yox, bir şeyimiz yox, – deyə Nadir yenə də Cəfəri dilə tutmağa başladı.

Cəfər acıqlandı:

– Dedim ki, qoyunu tapmamış qayıtmayacağam! Sən lap qorxağın biriymişsən!

Yorulub dildən düşmüş Nadir ürəyində Cəfərin tərsliyinə lənət oxudu. Ancaq heç bir söz demədi. Cəfər isə, pişik kimi qayalara dırmanır, kolların arasına soxulur, ətrafı diqqətlə axtarırdı.

Bu vaxt lap yaxında bir şaqqıltı eşidildi. Qarağat kolları tərpəndi, uşaqların ikisi də bərk qorxub dayandılar.

Cəfər fikirləşdi ki, əgər canavardırsa, bu saat üstümüzə atılacaq. Amma bu barədə yoldaşına heç bir söz demədi. Səhər atasına gətirdiyi kibritlərdən biri onun cibində idi. Canavarın oddan qorxduğunu xatırlayıb dərhal kibriti çıxarıb çəkdi. İşığı yuxarı qaldırıb şaqqıltı gələn yerə baxdı. Qarağat kolları arasında iri bir merinos dayanıb onlara baxırdı.

– Tapdıq! – deyə Cəfər sevinclə qışqırdı və irəliləyib merinosu kolların arasından çıxartdı.

– Mən düşdüm qabağa, sən daldan sür! – deyə Cəfər Nadirə tapşırıq verib qabağa keçdi.

Lakin onlar nə qədər getdilərsə, gəlib meşənin kənarına çıxmadılar. Cəfər zənn ilə gedirdi; çünki qaranlıqda heç bir cəhəti təyin etmək mümkün deyildi. Birdən o:

– Azmışıq! – dedi.

– Bəs, nə edək? – deyə Nadir zəif bir səslə Cəfərdən soruşdu.





Cəfər hiss etdi ki, yoldaşı çox qorxur, buna görə də, ona ürəkdirək vermək istədi.

– Nə olacaq, meşədə qalıb səhər gedərik.

– Bu soyuqda, qaranlıqda meşədə qalmaq olar?

– Heç nə olmaz, bu saat sənin üçün bir ocaq qalayım ki, istisi yeddi ağaca vursun!

O, kibrit çəkib ətrafı nəzərdən keçirdi. Yaxında hündür bir qaya var idi. Qayanın üst tərəfi tağ kimi irəli gəldiyindən dibini qar o qədər tutmamışdı. Cəfər Nadirə dedi:

– Qoyunu sür ora.

Sonra ağacların qol-budağından xeyli sındıraraq, qayanın dibində böyük bir ocaq düzəltdi. Lakin odunlar yaş olduğundan alışmırdı.

Cəfər, özünü sındırmamaq üçün papağının içinə qoyduğu kağızı çıxarıb onun vasitəsilə birtəhər ocağı alışdırdı. Alov qalxıb dörd bir tərəfi işıqlandırdı.

– İndi gəl otur, qızış, – deyə Cəfər gülümsünərək soyuqdan donmuş əllərini oda tutdu.

Bir qədər qızışandan sonra Nadir dedi:

– Gəl çıxaq ağacda oturaq. Canavarlar gəlib bizi parçalayar.

– Özümüz ağaca çıxdıq, bəs merinos nə olsun? – deyə Cəfər dilləndi.

– Onsuz da, əgər, canavar gəlsə, biz nə edə bilərik?

– Ocağın yanında canavarlar bizə hücum etməzlər! – deyə Cəfər arxayın və inandırıcı bir səslə cavab verdi.

Yoldaşının sözü Nadiri qane etməsə də, dinmədi.

Cəfər ağacların qol-budağından çoxlu sındırıb ocağın böyrünə yığdı.

– Bu gecə bizim silahımız bunlardır. Gərək səhərə qədər ocağı sönməyə qoymayaq.

Onlar arxalarını qayaya çevirib, ocağın qırağında oturub qızınırdılar. Merinos da onların lap böyründə qılçalarını qatlayıb asta-asta gövşəyirdi.

Meşə odunları çatırtı ilə yanır, alovun şölələri yaxındakı ağacların qarlı qol-budaqları üzərində oynayırdı.

Külək əsmirdi. Qar aram-aram yağırdı. Cəfərin ürəyi sakit deyildi. O fikirləşirdi ki, əgər, canavarlar onların burada olduğundan duyuq düşsələr, əl çəkməyəcəklər.

Lakin, o, öz təşvişi barədə yoldaşına heç bir söz deməməyi lazım bilib, ocağın təll atılmış közünə baxaraq:

– Bir az pendir-çörəyimiz olsaydı, lap qiyamət olardı! – deyə gülümsədi.

Yoldaşının sakitliyi və heç bir şeydən qorxmaması yavaş-yavaş Nadirə də sirayət elədi. O da gülümsəyib danışmağa başladı.

Onlar ləzzətlə qızınır və oradan-buradan söhbət edirdilər. Bir azdan Cəfər, Nadirin yatmaq istədiyini görüb dedi:

– Sən yat, mən oturmuşam.

– Sənin yuxun gəlmir?

– Yox, mən oturub ocağı sönməyə qoymayacağam.

Cəfər düz demirdi. O həm bərk yorulmuşdu, həm də yuxusu gəlirdi. Nadir paltosunu başına çəkib ocağın qırağına uzandı. Bir azdan onu yuxu apardı.

Cəfər oturub gözlərini qaranlıq meşəyə zilləmişdi. Birdən ona elə gəldi ki, qabaqda, nə isə, bir hənirti var. O, dizləri üstə qalxıb əlini gözünün üstünə tutaraq diqqətlə irəliyə baxmağa başladı. Qaranlıqda sanki fındıq boyda yaşıl elektrik çıraqları cüt-cüt ora-bura hərəkət edirdi.

Cəfər onları saydı: dörd cüt idilər.

Cəfər ocağa çırpı atıb, onu daha da alovlandırdı. Bu zaman canavarlar on beş-iyirmi addımlıqda dayanıb, uşaqlara və onların yanındakı kök merinosa baxırdılar.

Cəfərin ürəyi bərk döyündü. O, yoldaşını oyatmaq istədi. Lakin oyatmadı; ocaqdan alovlu bir kösöv götürüb canavarlara tulladı. Canavarlar sıçrayıb qaranlığa girdilər. Lakin bir azdan yenə də qayıdıb gəldilər. Cəfər gördü ki, bu çağırılmamış qonaqlar onlardan əl çəkəsi deyillər. Ona görə də daha kösöv tullamağı mənasız hesab etdi.

Onu indi bir məsələ düşündürürdü: görəsən, gün işığı canavarların onlardan əl çəkməsinə kömək edəcəkmi?

O tez-tez ocağa odun qoyub onu daha bərk alovlandırdı. Meşə dərin bir sükut içində idi. Heç nədən xəbəri olmayan Nadir şirin-şirin yatırdı. Canavarlar qızarmış həris gözləri ilə öz ovlarına baxırdılar.

Bir saata qədər belə keçdi. Birdən lap uzaqda güclü iki güllə səsi eşidildi. Canavarlar diksinib qulaqlarını şəklədilərsə də, yerlərindən tərpənmədilər.

«Yəqin atamgil bizi axtarır» deyə Cəfər düşündü. Birdən ətrafda heç bir səs-səmir olmadığı halda canavarlar güllə kimi qaçıb gözdən itdilər. Cəfər bu işə təəccüb qaldı. Bir neçə dəqiqədən sonra yenə iki güllə açıldı. Güllə səsi bu dəfə nisbətən yaxından gəldi. Cəfər ayağa sıçrayaraq ocaqdan alovlu bir kösöv götürüb yaxındakı ağaca dırmaşdı və bir əli ilə budaqdan yapışıb, o biri əli ilə kösövü yuxarı qaldıraraq havada yellədi:

– Biz buradayıq!.. Burada! – deyə səsi gəldikcə qışqırdı.







Lakin meşədən onun səsinin əks-sədasından başqa heç bir şey eşidilmədi. Cəfər kösövü yellədib bir də bərkdən qışqırdı:

– Biz buradayıq, Yastı qayanın yanında!

On-on beş dəqiqə tam sükut içində keçdi. Birdən lap yaxından bir səs eşidildi:

– Cəfər, hey!..

– Ehey!.. – deyə Cəfər cavab verdi.

– Haradasınız?!

– Burada, Yastı qayanın yanında!

İki-üç dəqiqədən sonra uşaqların ataları və Qulu gəlib onları tapdılar.

Məlum oldu ki, uşaqlar azıb meşənin xeyli dərinliklərinə gəlib çıxıblar. Cəfər yüyürüb bərk yatmış Nadiri oyatdı. Nadir oyanıb atasıgili gördükdə, əvvəlcə heç bir şey başa düşməyərək, çaşıb qaldı. Deyəsən, ona elə gəlirdi ki, yuxu görür.

Bir qədər oturub dincəldikdən sonra onlar uzun bir məşəl qayırıb binəyə yola düşdülər.

Bu əhvalatdan üç-dörd gün sonra iki məktəblinin itmiş merinos qoyunu qəhrəmanlıqla axtarıb tapdıqları haqqında rayon qəzetində balaca bir məqalə çıxdı. Məqalənin müəllifi Cəfər ilə Nadiri çox tərifləyirdi. Ancaq məqaləni oxuyanda, Nadir, nə isə, bir narahatlıq hiss etdi...

*1950*

## OVÇUNUN NAĞILI

Yayın son günləri idi. Meşəni ov üçün çox gəzib yorulmuşdum, həm də çox acmışdım. Bir tərəfdən də axşam düşürdü. Yerdə yatmaq, əlbəttə, qorxulu idi. Buna görə də, bir armud ağacına çıxdım. Yetişmiş armudlardan doyunca yedim. Sonra ağacın qalın bir yerində uzandım. Belimdəki kəmərlə özümü ağaca bağladım. Məni yuxu tutdu.

Gecənin bir vaxtı, elə bil ki, məni oyatdılar. Gözlərimi açdım. Arxa tərəfdən bir hənirti gəlirdi. Çevrilib baxdıqda qorxudan donub qaldım. Budaqda oturmuş böyük bir ayı mənə armud uzatmışdı. «Ayı mənə armud verir, bu necə işdir?!» deyə təəccübləndim.

Mən nəfəs çəkməyə qorxurdum. Əgər, əlimi budaqdan asmış olduğum tüfəngimə atsaydım, o məni dərhal parçalayacaqdı. Ayı armudu ağzına qoyub yedi. Sonra başqa birini dərib yenə mənə tərəf uzatdı. «Mən bunu da almasam, yəqin onu hirsləndirəcəyəm» deyə düşünüb, əlimi armuda uzatdım və özümü tamamilə itirmiş olduğum üçün bərkdən: «Sağ ol!» dedim. Söz ağzımdan çıxar-çıxmaz ayı diksindi və ağacdan birbaş yerə hoppandı. Lakin o, yıxıldığı yerdən bir daha qalxmadı. Mən səhərə qədər oyaq qaldım. Bütün bu müddətdə ayı kiçik bir hərəkət belə etmədi.

Hava işıqlandı. Mən ağacın bir qədər aşağısına enib, yerdə uzanmış ayıya diqqət etdim. O ölmüşdü. Ağac çox uca olduğundan yerə tullananda yəqin ki, beli qırılmışdı. Sonralar qoca ovçular söhbət zamanı mənə başa saldılar ki, «heç sənin orada olmağından ayının xəbəri yox imiş. O, armudu sənə vermirmiş, işığa tutub baxırmış ki, görsün yetişib ya yox; çünki ayı kal armud yeməz».

*1950*



## ZƏMİDƏ BİR TURAC SƏSLƏNİRDİ

Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarım kilometrliyindən axan Quruçay şırıldayır, elə bil ki, axıb gəldiyi qalın meşələrdən bizə qəribə əfsanələr hekayə edir. Qurbağalar aramla səslənir. Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur:

Tut-du-du, tut-du-du,
Tut-du-du, tut-du-du.

Bizim yaşıl yamaclarda, çay kənarındakı Laləli dərədə turac çox olur. Lakin evimizin yaxınlığında hər səhər, hər axşam oxuyan bu turac təzə peyda olmuşdu.

Biz iki yoldaş idik. İkimizin də atası ovçu idi. Onlar otuz-qırx il idi ki, balta dəyməmiş qorxulu Kirs meşələrində ovçuluq edirdilər. Başlarına gəlmiş işlər barəsində o qədər maraqlı nağıllar danışmışdılar ki, biz də ovçu olmaq xəyalına düşmüşdük. Lakin nə tüfəngimiz var idi, nə də ov itimiz. Bunların əvəzində alabəzək iplərdən toxunmuş sapandımız var idi ki, daş qoyub atanda tapança kimi şaqqıldayırdı. Yoldaşım Həsən kəndimizdə birinci sapand atan idi. Quşu gözündən vurardı. Onun qorxusundan zəmilərimizə bir qarğa qona bilməzdi. O, hətta, bunun üçün kolxozdan əməkgünü də alırdı. Bizim kənddə qarğa çox olur. Onlar dəstə ilə gələrək zəmi və bostanlara böyük ziyan vurur. Kolxoz sədri əkinləri onlardan qorumağı bizə tapşırmışdı. Həsən də sapandla iki qarğa vurub, hərəsini zəminin bir tərəfində ağacdan asmışdı ki, başqa qarğalar görüb yaxın gəlməsin.

Lakin, deyəsən, mən əsl mətləbdən uzaq düşdüm. Yuxarıda dediyim kimi, evimizin arxasındakı zəmidə bir turac peyda olub, səhər-axşam oxuyurdu.

Tut-du-du, tut-du-du...

Bir axşam Həsən bizə gəlib dedi ki, hər nə cür olsa, gərək o turacı sabah tapıb ovlayaq. Mən etiraz edib dedim:

– Axı, atamgil heç ova getmirlər, deyirlər quşların bala çıxaran vaxtıdır.

Həsənin bir pis xasiyyəti vardı ki, çox inadcıl idi. Başına bir şey girdimi, gərək hər nə cür olursa-olsun, yerinə yetirəydi. Buna görə də sözündən dönmədi:

– Məgər, – dedi, – quşların hamısı birdən bala çıxarır?

Mən, istər-istəməz, razı oldum.

Səhər balaca heybələrimizi yumru daşlarla dolduraraq, zəmidə gizlənib turacın oxumasını gözlədik. O oxumağa başlayan kimi, biz yavaş-yavaş səs gələn tərəfə doğru süründük. Çox axtardıq, lakin bir şey tapa bilmədik. Birdən lap ayağımızın altından pırıltı ilə bir quş havaya qalxdı. Həsən hazır saxladığı gödəkqollu sapandını tovlayıb atdı. Turac bir qədər havaya millənib, sonra qurğuşun kimi yerə düşdü.

Biz adam boyu qalxmış sünbülləri aralaya-aralaya quş düşən yerə yüyürdük və gördük ki, o, bir kolun dibində bir ayağı üstündə dayanaraq, ürkək nəzərlərlə ətrafına baxır. Bizi görən kimi, gücünü toplayıb havaya qalxdı. Biz də arxasınca yüyürdük. O bir qədər uçduqdan sonra balaca bir böyürtkən koluna qondu. Mən fikir elədim ki, yəqin heyvan yaralı canını bizdən qurtarmaq üçün bu balaca kola pənah gətirdi. Ancaq yaxınlaşdığımız zaman elə bir mənzərəyə rast gəldik ki, mən onu heç bir zaman unutmayacağam. Yumurtadan təzəcə çıxmış kiçik bala anasına baxaraq zəif səslə civildəyir və elə bil ki, deyirdi: «Ana, bəs, mənim üçün gətirdiyin yem hanı?» Yaralı turac isə, tək ayağının üstündə dayanıb, ürkək nəzərləri ilə gah bizə, gah da balasına baxırdı.

«Yazıq quşcuğaz! Sən sınıq ayağınla bu körpə balaya necə yem tapıb gətirəcəksən? Bəs, bu gecə o nə yeyəcək?» deyə düşünürdüm.

Bu mənzərə yoldaşıma da o qədər təsir etmişdi ki, qaşqabağını sallayaraq, başını buladı:

– Yaxşı iş görmədik, – dedi.

Mən onu məzəmmət edərək dedim:

– Axı, sənə dedim ki, indi quşların bala çıxaran vaxtıdır.

– Keçib, – deyə o, üzümə baxmadan kədərlə dilləndi.

Heç nədən xəbəri olmayan körpə bala anasına baxıb hey civildəyirdi.

– Bəs, bunlar necə olacaq? – deyə Həsəndən soruşdum.

– Aparaq evə, – dedi.

Körpə balanı və ananı üsulluca götürüb evə gətirdik. Onlar üçün qəfəsdə yer düzəltdik. Qabaqlarına dən səpdik, su qoyduq. Qoca nənəm sınıqçı idi. O, quşun qıçını sarıdı.

O gecə Quruçay yenə də əvvəlki kimi şırıldayır, qurbağalar səslənirdi. Yaz gələndə heç bir şey olmamış kimi yenə də öz əfsanələrini söyləyirdi.

Lakin bircə evimizin arxasındakı zəmidən daha turac nəğməsi eşidilmirdi.

*1950*

*Yaşar QARAYEV*

## *Əsrə sığmayan nəsr, yaxud zirvədə teatrı, səhnəni saxlayan lirika...*

Sənət və sənətkar o zaman doğulur ki, istedad ağ bir vərəqlə təkbətək və üzbəüz qalır. Poeziya ilə ilham və ülviyyət arasında ünsiyyət məhz bu ağ vərəqdə, bu bəyaz qanadlı genişlikdə baş verir. Ən xoşbəxt ədiblər bu ağ qanada saf hava dağıdanlar, qara mürəkkəblə də ağ kağıza ağ işıq artıranlardır...

Adətən İşıq – «zirvə» və «səma» anlayışlarını yada salır. Lakin sənətdə, poeziyada işıq həmişə Yer, həmişə Torpaq idealı ilə bir yerdə olur. Həmişə, hətta, bizim Kosmosun fəthi və qlobal texnogen tərəqqi dövründə də! Və bu gün də yazıçı kosmonavta yox, əkinçiyə, taxılçıya, kotançıya bənzəyəndə – sehrli və gərəkli görünə bilir. Məhz torpaq duyğusu, təbiətlə: iydə çiçəyi ilə, bulaq başı və dağ döşü ilə bağlı həyat, dirilik hissi içimizdə, ruhumuzda «mə'ı»imizin sarı simini, nəbzini, əsəbini tapmaqda və bizə çılpaq göstərməkdə sənətkara kömək edir.

Deyirlər, Günəşin işığı və istisi kimi, İnsanın əsəbi və ağrısı da mənəvi zərrələrə çevrilib, Planetə, Efirə yayılır. Ən etibarlı mənəvi yaddaşda – Kosmosda bütün dövrlərin ağrı və əsəb impulsları – əbədi genetik kodlar, arxetiplər yaşayır. Ən yeni sinergetika və asimmetriya elmi, qeyri-səlis tənliklərin fizikası hər hansı informasiyanın şifrini indi artıq hətta xaosda, məchulluqda tanıya və çağdaş monitorda, displeydə bizə göstərə bilir. Yalnız bu mənada poetik işığı müasir kosmik cihaza – biolokatora bənzətmək olar: böyük sənət əsəri də sənətkar dünyaya yayılan ağrını və əsəbi səhvsiz ədəbi dalğada tutanda (yalnız bu zaman!) və poetik haraya çevirəndə yaranır.

Sənətdə bədiilikdən də ucada duran, həm işığa, həm də ağrıya həssaslığı eyni vaxtda, vəhdətdə ifadə edən bir keyfiyyət var: insanilik! Yazıçı şəxsiyyətinin miqyası və ölçüləri insaniliyin də ölçülərinə

çevrilə biləndə, poetik imzalar və ünvanlar həm də işığın ünvanına, insana həssaslığın imzasına çevrilə bilirlər.

«İlyas Əfəndiyev» ünvanlı poetik bir işıqdan ilk dəfə hələ «Kənddən məktublar» və «Aydınlıq gecələr» xəbər gətirdi. Sonralar bu imza bizim milli-mənəvi tarixin həm keçmişinə, həm də indisinə məxsus işığı və dramatizmi vəhdətdə əks etdirən orijinal, məxsusi, təkrarsız bir bədii aləmin də ünvanına çevrilə bildi.

Bu poetik işığın tarixinin və taleyinin ən yaxşı sənədləri və səhifələri elə İlyas Əfəndiyevin öz əsərləridir. Lakin əsl sənət əsərlərində müəllifin məişət tərcümeyi-halı, empirik bioqrafiyası yox, bəlkə daha çox daxili «mən»i, mənəvi aləmi, ilahi ucalığı – Ruhu açılır; portreti yox, şəxsiyyəti görünür.

Əlbəttə, İlyas Əfəndiyevin heç bir əsərində ayrıca bir İlyas Əfəndiyev yoxdur. Lakin İlyas Əfəndiyevdən bir duz, bir iz onun hər əsərində və ayrılıqda hər obrazında var.

«Emma Bovari mən özüməm!» – məlumdur ki, bu məşhur ifadə şəxsən Floberin özünə məxsusdur. Mən İlyas Əfəndiyevlə onun qadın qəhrəmanları arasında bərabərlik işarəsi qoymaq istəmirəm. Lakin maraqlı və mənalıdır ki, məhz qadın surətlərinin bütöv bir silsiləsi bu yaradıcılıqda mühüm yer tutur və İlyas Əfəndiyevin özünün bir sənətkar kimi obrazını çox cəhətdən açıqlayır, büruzə verir. Səriyyələr, Səlimələr, Nuriyyələr, Nargilələr, Natəvanlar... – bu böyük silsilədə yalnız qadınlığın mənəvi inkişafında ən yaxın mərhələnin məzmunu yox, həm də müəllifin öz əqidə, əxlaq və etika axtarışlarının sabahı, gələcəyi əks olunmuşdur.

İlyas Əfəndiyevin ən «avtobioqrafik əsəri» hansıdır? Adətən, bu suala cavab olaraq «Geriyə baxma, qoca» əsərinin adını çəkirlər. Yox, onun bioqrafiyasından da çox şəxsiyyətinə, xarakterinə, taleyinə açılan pəncərəyə bənzəyən surətləri İlyas Əfəndiyevin bütün əsərlərində axtarmaq lazımdır.

Yox, balaca Murad ədibin özü deyil, İlyas Əfəndiyevin özündən çox, İlyas Əfəndiyevin İlyas Əfəndiyev haqqında təsəvvüründən ibarətdir. Bir obraz kimi o, həyatdan çox, yaddaşdan süzülüb gəlib və ədibin uşaqlığı ilə ağsaqqallığı arasındakı vəhdətdən doğulub. Daha doğrusu, o, uşağın yox, uşaqlığına boylanan ağsaqqalın düşüncələridir...

Obrazın özü kimi, əsərin adı – «Geriyə baxma, qoca» – sözləri də şərti səciyyə daşıyır. Axı, İlyas Əfəndiyev həmişə irəlini görmək üçün geriyə baxmağın tərəfdarı olub, gələcəklə keçmiş arasında bir körpünün üzərində dayanaraq, həyata və insanlara buradan boylanıb baxıb. Geriyə, kökə, əcdada boylanmayanda isə, nə şəxsiyyət, nə də





xalq irəlini görə bilməz – onun bütünlükdə bədii yaradıcılığının məntiqi ilə ifadə olunan qanunauyğunluq bir də bu həqiqətdən ibarət olub. Bu əsərin özündə də İlyas Əfəndiyev həmin həqiqətə sadiq qalır və geriyə baxa-baxa irəliyə hərəkət edir.

Ədibin bioqrafiyasına yox, bilavasitə şəxsiyyətinə, taleyinə məhrəm və doğma surətlər haqqında düşünəndə, mənim yadıma hamıdan əvvəl Həsənzadə gəlir. Ömrün, həyatın, həqiqətin mənasını axtaran gənc oğlan və qızlar gəlir. Onun nəinki müasir, həm də tarixi mövzuda yazdığı əsərlərin qəhrəmanları gəlir. Axı, o, tarixi obrazları da öz əxlaq və mənəviyyat aləminin güzgüsündə əks etdirir. Təkcə tarixdəki Natəvanı yox, ölümündən sonra tarixdə (milli, mənəvi yaddaşda!) yaşamaqda davam edən Natəvanı da bizə göstərir! Məhz Natəvandan əvvəlki və sonrakı Natəvanlar da Natəvanın özü ilə birlikdə, vəhdətdə bu obrazı həm tarixin, həm də müasirliyin ifadəsi olan obraz kimi qəbul etməyə bizə əsas verir. Eynilə biz də İlyas Əfəndiyevə yalnız bugünkü qəhrəmanlarından – Həsənzadədən və Nuriyyədən, Valehdən və Qədirxandan baxanda yox, həm də uzaqdan və kənardan – Natəvandan və Xiyabanidən nəzər salanda, onu daha tam və bütöv halda görə bilirik...

Klassik Azərbaycan nəsrinin və dramaturgiyasının ən yaxın və uzaq tarixinin ümumi, vahid mənzərəsində yazıçı İlyas Əfəndiyev məhz belə parlaq poetik fərdiyyəti ilə seçilən, son yarım əsrin ədəbi-bədii axtarışlarında yaxından və fasiləsiz iştirak edən, narahat, novator sənətkarlarımızdan biridir. Səməd Vurğunun ehtiraslı bədii romantikası, Sabit Rəhmanın bənzərsiz yumoru, Mirzə İbrahimovun sərt publisist realizmi ilə yanaşı, İlyas Əfəndiyevin lirikası da Azərbaycanda ötən əsrin milli ədəbi hərəkatının üslub əlvanlığını və forma zənginliyini qabarıq şəkildə əks etdirir. Altmış illik yaradıcılıq tərcümeyi-halı müddətində o, həmişə sənətdə müasirliyin çətin yolları ilə hərəkət etmiş və bu yol həmişə qəlb aləminin dərinliyindən gəlib keçmişdir. Burada mənəviyyat da, sosial mətləb və ictimai əxlaq da hər şeydən çox məhəbbətə, sevgiyə münasibətdə öz ifadəsini tapa bilir. Ədib, miqyaslı arzu, düşüncə və qayğılardan da ürək sərhədləri daxilində söhbət açmağı sevir, bizi hisslər dünyasının həqiqətlərinə, səmimiyyət və təmizliyin şeriyyətinə səsləyir. Təsadüfi deyil ki, o, bizim ən məhsuldar klassik dramaturqumuz və ən oxunaqlı lirik nasirlərimizdən biri kimi etiraf və təsdiq olunmuşdur.

Bu gün ədibin dram və nəsr əsərlərini, hekayə, oçerk, ssenari, povest, roman və pyeslərini Yaxın Avropa və Şərq xalqlarının dillərinə, ərəb, fars, türk, ingilis, fransız, alman, bolqar, macar, slovak, çex, pol-

yak dillərinə tərcümələrdə oxuyurlar. Onun bir sıra pyesləri digər xalqların (Alma-Ata, Daşkənd, Aşqabad, Səmərqənd, Mahaç-Qala) səhnəsində tamaşaya qoyulmuşdur. «Mahnı dağlarda qaldı» pyesinə görə, ona Azərbaycan Dövlət Mükafatı verilmişdir.

İlyas Əfəndiyev – haqqında ən çox yazılan və danışılan sənətkarlarımızdandır. Tənqidçilərimizin, demək olar ki, bütün nəsillərinin nümayəndələri ondan yazmışdır. Ədibin həyat və yaradıcılığı barədə bir neçə dissertasiya əsəri müdafiə edilmişdir. Azərbaycan ədəbiyyatının tarixi inkişaf mərhələləri, milli bədii-estetik tərəqqinin yeni dövrdəki hərəkət qanunauyğunluqları, müasirlik və novatorluq axtarışları barədə elmi-nəzəri ümumiləşdirmələrə münbit zəmin olan ən yaxşı bədii nümunələr sırasına İlyas Əfəndiyevin də nəsr və dram əsərləri daxildir.

* * *

İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü ildə Azərbaycanın ən səfalı guşələrindən olan Qarabağın Füzuli (keçmiş Qaryagin) rayonunda anadan olmuşdur. İlk təhsilini Füzulidə almış, ilk əlifba kitabı – klassik folklor, ilk sənət mürəbbisi – doğma anası olmuşdur: «Anam keçmiş müsəlman qızları kimi, evdə mollanüma adamlardan dərs almışdı. Ərəb və rus əlifbalarında yazıb oxuyurdu. Mütaliəni çox sevirdi. Azərbaycan dilində çıxan kitabların, demək olar ki, hamısını oxumuşdu. Mənə ərəb və latın əlifbalarında yazıb oxumağı da o, öyrətmişdi. Uşaq vaxtı anam bizə, oxuduğu kitablardan hədsiz-hesabsız əhvalatlar danışardı. Onun oxuyub bizə nağıl elədiyi «Ərmənusa», «İngilis xanımı», «Hind racisi», «Əlif Leyla» və sairə kitablar indi də yadımdadır. Füzulinin «Leyli və Məcnun» əsərini də mən ilk dəfə anamdan eşitmişdim. Ümumiyyətlə, anam çox incə zövqə malik bir qadın idi. Dövrün ictimai hadisələrindən də baş çıxarırdı. Allahsız olmasa da, mollalardan zəhləsi gedərdi. Məndə güclü mütaliə həvəsi məhz anamın təsirilə oyanmışdır» (Bax: *Yəhya Seyidov.* «İlyas Əfəndiyev», Bakı, 1975, səh. 10-11).

Ədib ilk əmək fəaliyyətinə də, müəllim kimi, doğulduğu şəhərdə başlamışdır. İki il Füzuli şəhər orta məktəbində ədəbiyyat və dil fənlərindən dərs dedikdən sonra Bakıya gəlmiş və burada Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutuna daxil olmuşdur. Lakin Bakıya ilk səfər uğurlu olmamışdır. Atasının vəfatından sonra gənc tələbə ailə vəziyyəti ilə əlaqədar olaraq, təhsilini başa çatdırmadan Füzuliyə qayıtmağa məcbur olmuşdur.

Taleyin hökmü və iradəsi ilə gələcək ədib Füzulidə pedaqoji fəa-





liyyətini dil-ədəbiyyat yox... coğrafiya müəllimi kimi davam etdirmişdir. Təhsilini başa vurmaq üçün bu dəfə artıq Pedaqoji İnstitutun qiyabi şöbəsinə daxil olmuş və coğrafiya şöbəsini bitirmişdir. Yaradıcılığa da ilk dəfə kənddə, məktəbdə coğrafiya fənnindən dərs deyərkən başlamışdır: «Qaryagində müəllim işləyirdim. Uzun qış gecələrindən birində, adətim üzrə, mütaliə edirdim. Fikirlərim haralardasa dolaşırdı. İçimdən, daxilimdən gələn bir səs mənə yazmağı, ürəyimi əzən, sıxan düşüncələri kağıza köçürməyi əmr edirdi. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu. Dalbadal doqquz hekayə yazdım. Qış tətili günlərində Bakıya gəldim. Yazıçılar İttifaqında tələbə yoldaşım, artıq tanınmış şair olan Ələkbər Ziyatayı tapdım. O, məni Əbülhəsənin yanına göndərdi. Əynində gödək palto, ayağında uzunboğaz çəkmə olan kənd adamını, yəni, məni görəndə Əbülhəsən təəccübləndi:

– Əzzim, nə istəyirsən?
– Hekayə yazmışam, istəyirəm baxasınız.
– Harada çap olunmusan?
– Heç yerdə.
– Nəçisən?
– Coğrafiya müəllimiyəm.
– Əşşi, camaatın işinə təəccüb qalmışam, coğrafiya müəllimi hara, yazıçılıq hara? – deyə o söyləndi.

Bir həftədən sonra onun yanına gələndə məni tamam ayrı cür qarşıladı:

– Əzzim, məni aldatmısan, sən bişmiş yazıçı imişsən, – dedi.

Sonra o məni Yazıçılar İttifaqının sədri Əli Məmmədovun yanına apardı. Əli Məmmədov Azərnəşrin direktoruna məktub yazıb kitabımı çap etməyi ondan xahiş etdi. Azərnəşrdə də məni diqqət və qayğı ilə qarşıladılar. Sabit Rəhman kitabıma redaktor təyin olundu.

Üç aydan sonra «Kənddən məktublar»ım işıq üzü gördü».

Bütün ölkədə olduğu kimi, o vaxt Qaryagində də hadisələr dramatik şəkildə inkişaf edirdi. Çox çəkmir ki, 1933–1937-ci illərin zorakı, qanlı repressiyası öz kölgəsini bu qədim, bəy soylu və familiyalı ailənin də taleyi üzərinə salır. Artıq bolşeviklər «onların mülkünü əllərindən alıb, beş ailə arasında bölüşmüş, özlərini isə həyətə tökmüşdülər, doqquz baş ailə çadır qurub yaşamağa məcbur olmuşdu. Valideynləri səs hüququndan məhrum edilmişdi. Mağazada onlara çörək, qənd, çay satmırdılar. Bütün bunlar az imiş kimi, məktəbdə uşaqlar onları «kulak» deyə cırnadırdılar. Orta məktəbi bitirib AHİ-nin ədəbiyyat

fakültəsinə daxil olanda da, «kulak»lığın zərbəsi ondan yan keçməmişdi. Birinci kursun sonunda institutdan çıxmağa məcbur olmuş, böyük fasilədən sonra coğrafiya fakültəsinə qiyabi bərpa olunmuşdu. Həmin il uzun get-gəllərdən sonra xahişlərini nəzərə alıb öz mülklərindən onlara balaca bir otaq verdilər. Doqquz baş ailə çadırdan ora köçəndə bu kiçik səadətciyi qəribə bir nisgillə, ürək ağrısı ilə qarşıladılar. Lakin onlara burada da rahatlıq vermirdilər. İki gündən bir qızıl, tapança axtarırdılar» (Bax: «Azərbaycan» qəzeti, 27 may 1994-cü il).

1938-ci ildə İlyas Əfəndiyev daimi olaraq Bakıya gəlir. Bakıda o, «Yeni yol», «Kommunist», «Ədəbiyyat» qəzeti redaksiyalarında əməkdaşlıq edir. Onun mətbuatla ilk yaradıcılıq ünsiyyəti də bu illərə təsadüf edir. Həmin dövrdən də oxucular, ilk dəfə olaraq, yeni, təravətli bir ədəbi imza ilə tanış olurlar: «Gözlənilməyən sevgi» hekayəsinin müəllifi elə ilk əsərindən gözləmədiyi bir sevgi və rəğbətlə qarşılanır.

1939-cu ildə İlyas Əfəndiyevin ilk hekayələr kitabı nəşr olunur: «Kənddən məktublar». Kitabda eyni adlı hekayədən başqa digər qələm təcrübələri də toplanmışdı: «Qarımış oğlan», «Uxajor», «Qızbəs xala», «Mirzə İman». İlk bədii sınaqlar üçün təbii olan bütün zəif tərəfləri ilə bərabər, bu hekayələr sənət dünyasına inamla və cəsarətlə qədəm qoyan yeni bir istedadın özü ilə gətirdiyi işıqdan xəbər verir. Sərt həyat müşahidəsi və kövrək lirika, psixologizm və yumor, sevginin poeziyası və sevgisiz yaşamağın gətirib çıxardığı mənəvi müflislik, dil, üslub, mövzu və problem müasirliyi – gələcək poetik fərdiyyətin bu işıqda görünən ilk əlamətləri bunlar idi... Lakin bu cizgilər hələ qızarmamış dan yerinin yalnız ilk işartıları idi. İlyas Əfəndiyevin nəsrə gətirdiyi poetik işıq «Aydınlıq gecələr»də (1940) daha qabarıq göründü. Bu, hər şeydən əvvəl, daxili-əxlaqi gözəlliyin, insani məhəbbətin işığı idi. Aysız və ulduzsuz gecələri, çırpıntısız eşqi, bülbülsüz, nəğməsiz «kimya laboratoriyasını» müəllif poetik ittihamın hədəfinə çevirirdi. Maraqlı və mənalı da elə o idi ki, hekayədə yalnız hərcayi, yüngül əxlaqlı Surxay yox, həm də işgüzar, ağıllı Kərimin fanatik və asket həyat idealı tənqid edilirdi: «Kərim onun ruhuna nüfuz edə bilməmişdi. Onun gənc qəlbi isə, öz həqiqi haqqını, həyat işığı olan o qüdrətli məhəbbəti istəyirdi. Bu, heyvani bir hiss, ya şəhvani tələb deyildi. Bu, büllur kimi saf qəlbin insanlığın ən adi, ən müqəddəs hisslərinə doğru çırpınışı idi...»

«Aydınlıq gecələr» – İlyas Əfəndiyevin növbəti hekayələr kitabının (1945) adıdır. Kitaba daxil edilmiş «Durna» (1941), «Kiçik bir poema» (1942), «Sən ey qadir məhəbbət» (1943), (sonrakı nəşrlərdə bu





hekayə «Yarımçıq qalmış portret haqqında mahnı» adı altında getmişdir), «Tar» (1943) əsərlərində də mənəviyyat ilə məişət, vətənə məhəbbət ilə şəxsi məhəbbət, ideal ilə həyat arasında heç bir uçurum və sərhəd yoxdur. Əxlaqda və davranışda ülviyyətin, həyatda və əməldə mənəvi qəhrəmanlığın tərənnümünü müəllif bilavasitə müharibə mövzusunun materialında da davam etdirir. «Durna» hekayəsinin qəhrəmanları – arxa cəbhənin adamlarıdır: səngərdə vuruşan əsgərə bəslədikləri ana və gəlin sədaqətində Durna ilə qaynanası sanki bir-birilə yarışırlar. Doğma oğul dərdinə başqa birisinin – gəlinin şərik olmasına bəzən ana, hətta, qısqanır, bütün iztirabları tək çəkmək, hətta, gəlinə öz həyatını yenidən qurmaq üçün sərbəstlik vermək istəyir. Lakin Durna məktubu kəsilmiş əsgərə sadiq qalmağı özünün daha uca mənəvi haqqı hesab edir və anaya and içir ki, «məni bu evdən ancaq ölüm çıxara bilər».

Maraqlıdır ki, Durna sənətlə – səhnə ilə bağlı bir surətdir, aktrisadır. Eldarla birlikdə ondan uzaq düşən həyat eşqinin, sevgi hissinin təravətini də ona təbiət və səhnə qaytarır. Məhz özünün həyatda yaşadığı bir faciəni səhnədə təbiiliklə yarada bilir. Bir anlığa az qalır ki, səhnədə yaşadığı sevgi də həyatında başlanan yeni bir sevginin özünə çevrilsin. Lakin Durna yalnız bir an tərəddüd göstərir, məhəbbətin müqəddəsliyini, səngərdə qoruyan əsgərə sədaqəti hifz etmək üçün özündə daxili qüvvə tapa bilir. Müəllif ani səhvi – qeyri-iradi zəifliyi üçün Durnanı qəzəb və ittiham hədəfi etmir, hekayəni, onun özünü də, oxucunu da düşünməyə və qərar verməyə çağıran sualla qurtarır: «Görəsən, Eldar onu bağışlayacaqmı?».

«Qəhrəman ilə bülbülün nağılı»nda (1942) da nə «qəhvəyi», supermen faşistin standart – robot sir-sifəti, nə də od-alov ələyən səngər döyüşünün naturada təsviri var. Bəs nə var? Şəhid qanı ilə qızaran ağ nərgiz gülləri, «kəpənək qanadı qədər» zərif bir yarpaq, gümüşü sulara boylanan sehrli su pərisi, meşədə tənha məzar və... əbədi məhəbbətin mahnısını oxuyan qərib bülbül. Burada əsgərdən də, ordudan da əvvəl, poeziya və əfsanə, musiqi və mahnı müharibəyə qalib gəlir! Yeddi düşmən qıran, on səkkiz yara alan igid yıxılır, fəqət ağlamır. Meşədə bülbül səsini eşidəndə isə, gözü yaşarır və qəribə, əfsanəvi bir yuxu görür. Gözünü açanda, indicə yuxuda onu oxşayan qızın yerində ağ bir göyərçin qalır:

«Göyərçin qanadlarını açaraq havaya qalxdı. Oğlan onu tutub saxlamaq istəyirmiş kimi əllərini qaldırdı və birdən bu əllər qartal qanadlarına çevrilib onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü.

Onlar getdikcə bir-birinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar. Sonra

26*

alov rəngli buludlardan keçərək, göylərin sakit, mavi ənginliklərinə yol aldılar...

Gələn bahar o qərib məzardan yabanı bir qızılgül qalxdı. Bülbül gəlib onun budaqlarında özünə yuva qurdu. İndi o vaxtdan bəri hər bahar o tək məzar üstündə bir bülbül oxuyur. Onun nəğmələri əzəli və qadir məhəbbətin bitmək bilməyən əfsanələrindən danışır».

Bu tragik miniatürdə əfsanə və işıq qüssədən daha qüvvətlidir. Özü də bu sehrli işıq həm də naməlum şəhidin, nakam və didərgin qəribin tənha məzarında yanan əbədi məşəldən ayrılan şüaya, yaddaşdan şəfəqə çox bənzəyir.

«Kiçik bir poema» (1942) adlanan hekayə də məhz bu işıqdan yaranan növbəti poetik natürmortdur... Buradakı «poema» sözünü yalnız əsərdəki şairanə hadisəyə yox, həm də şairanə üsluba, dilə işarə kimi başa düşmək olar. Bu hekayə də texnogen müharibə haqqında yox, füsunkar təbiət, ülvi gözəllik və saf məhəbbət haqqında poema olaraq qalır. Müharibə, faşizm adlı vulqar taunun, total çumanın antiqütbü kimi yazıçı təbiətin öz idilliyasını təsvir edir: «Göl tutqun bir intizar içindəydi. Birdən günəş yaşıl meşələr ardından qalxaraq onun ayna üzünə çəngə-çəngə qızıl lalələr tulladı». Bu hekayələri oxuyan əsgər üçün hansı torpağı, hansı təbiəti, hansı gözəlliyi düşməndən qoruduğu daha da aydın olurdu. Təbiət və gözəllik qəhvəyi çuma, taun qorxusu qarşısında qalan milli sərvət, insani, mənəvi gözəllik kimi təsvir və tərənnüm edilirdi.

Əgər, ilk iki hekayədə eyni bir sərt, amansız müharibəyə poetik əks qütb kimi verilən təbiət, yaxud, əsatir özüdürsə, növbəti iki hekayədə bu simvolik mənanı və vəzifəni öz öhdəsinə götürən musiqidir, muğam və tardır. «Tar» (1943) adlanan romantik mahnıda da müəllif cəbhədə, döyüşən orduda hünər göstərən qəhrəman bir qızı yox, arxada onunla ayrılığın qüssəsini çəkən həsrətli, intizar bir atanın səbrini, iradəsini ön xəttə və iri plana çıxarır. Sən demə, şəhid olan qızının son arzusunu yerinə yetirmək üçün qoca ata özündə gizli, daxili, ehtiyat bir qüvvə gizləyib saxlayıbmış; bu son ümid son dəfə inləyib çırpınanda ata sədəfli tarını yaralı sinəsinə sıxır: «Birdən yuxarıdan, qocanın otağından, şikayətkar bir tar təranəsi qopub gəldi və sanki bu qara örtüklərin altına sığışmayan müztərib insan ruhu üsyankar bir fəğanla son dəfə çırpındı və qəfəsdən qurtulan quş kimi kainatın əbədi sükunətinə doğru qanad çaldı».

Bayaqkı şəhid oğlan kimi, şəhid qızın da ruhu nəğməyə, təranəyə dönüb, müharibə dövrünün ulduzsuz və dibsiz səmasında ağ bir işıq kimi yox olur.





«Yarımçıq qalmış portret haqqında mahnı»da (1943) isə, işıq yalnız libasını dəyişir, rənglərdən, boyalardan ayrılıb, «musiqi şüalarına» çevrilir; rəssamın sevgi işığı ilə aşılanan natamam rəsmini bəstəkar tamamlayır. Vəfalı və gözəl Güllər ərinin gözlərində sönmüş işığı onun qəlbində yandırmaq istəyir və buna nail olur: «Pianonun dilləri oğlanın qəlbindəki inamsızlığı duyaraq, üsyankar fəğan qoparıb, dünyada hər şeyə qadir olan o böyük məhəbbətin əfsanəsinə keçdi. O zaman oğlan da yerindən qalxaraq, sehrə tutulmuş kimi irəlilədi... O, bu ecazkar musiqinin tərənnüm etdiyi hisslərlə özünün yarımçıq qalmış əsərində vaxtilə ifadə etmək istədiyi o qüdrətli məhəbbət arasında heyrətli bir oxşayış gördü».

Təbiətlə, torpaqla, musiqi ilə yanaşı, folklor surətlərini də biz İlyas Əfəndiyevin müharibə dövrü hekayələrinin qəhrəmanı şəklində görürük. «Apardı sellər Saranı» (1940), «Qarı dağı» (1944), həmçinin, artıq xatırlatdığımız «Qəhrəman ilə bülbülün nağılı» hekayələrində folklorun həm ideya-motiv, həm də forma-üslub xüsusiyyətlərindən geniş istifadə edilmişdir. Onlardan birincisində vətən hissinin tərənnümü xüsusilə romantik və tragik bir vüsət alır: Muğan ağsaqqalı Ata Muğan gözəlini yad nəfəsdən qorumaq üçün onu – öz doğma qızını – qolları arasına alaraq, Kürün aşıb-daşan sularına atır... İkinci hekayədə isə yenə də eyni yurdun, eyni torpağın ağbirçəyi Ballı ana quduz yağıdan el-obanın, torpağın qisasını aldığı üçün özü də diri-diri torpağa qarışır, «Qarı dağı»na çevrilir.

Gördüyümüz kimi, bu hekayələrin əsas qəhrəmanı – ziyalılardır: həkim, bəstəkar, rəssam, aktyor, müğənni... Onların bədii ədası – romantik və lirik üslubi çalarla aşılanıb. Eybəcərliyi ifşa eləməyin əsas üsulu – ülviyyətin və poeziyanın təsdiqi və təsbitidir. Qırxıncı illərin hekayələrində müəllifin gələcək yaradıcılığı üçün son dərəcə səciyyəvi olan başqa bir ənənənin də əsası qoyulur: «cənub mövzusu»na maraq elə bu vaxtdan yazıçı İ. Əfəndiyevin həm bədii zövqünün, həm də vətəndaşlıq mövqeyinin ortaq və dəyişməz tərkib özəyinə çevrilir. «Xəncər» (1948) – Cənubi Azərbaycanın ucqar şəhərlərindən birində müstəqil milli Azərbaycan hökumətinin devrilməsindən sonrakı bir hadisəni təsvir edir. Onun da qəhrəmanı – ziyalılardır: dil müəllimi Südabə və onun sevimli şagirdi İldırım. Elə bir dövrdür ki, adamlar «ana dili», «milli hökumət» və «Azərbaycan» sözlərini indi tez-tez və daxili bir məmnuniyyətlə təkrar edirdilər. Elə bil ki, onlar bu sözlərin tələffüzündən sonsuz bir zövq duyurdular... Bu sözlərlə öyünür, fəxr edirdilər... Fars və fransız dillərini mükəmməl bilən Südabə atasının iradəsi əleyhinə gedərək, məktəbdə ana dilində dərs deyir, daha doğ-

rusu, ana dilini və ana vətəni necə sevməyin dərslərini uşaqlara öyrədir. Məhz həmin dərslərlə tərbiyələnən balaca İldırımın təkcə bir şeyə – həmişə qoynunda gizlətdiyi xəncəri işlətməyə, bu dilin, bu torpağın intiqamını doğma atasının qatili olan bir ajandan almağa gücü çatır. Gördüyümüz kimi, qlobal milli-əxlaqi və sosial-ideoloji konflikti yazıçı yenə də ictimai hadisələrin və qüvvələrin baş-başa gəldiyi natural hərbi səngərdə, inqilab və döyüş meydanlarında yox, adi qəza müəlliminin və kimsəsiz bir cocuğun taleyində əks etdirə bilmişdir.

«Görüş» (1951), «Gülaçar» (1953), «Su dəyirmanı» (1954), «Yaylaq qonşumuz» (1955), «Şəhərdən gələn ovçu» (1956), «Yun şal» (1957), «Qırçı və qırmızı çiçək» (1962) İlyas Əfəndiyevin hekayə yaradıcılığında daha sonrakı illərin məhsuludur. «Görüş» – ana ilə oğulun, «Gülaçar» – iki nəsli təmsil edən iki müğənninin görüşünün təsviri olsa da, hər iki lirik hekayənin əsas tərənnüm hədəfi ilhamlı əməyin və halal zəhmətin şeriyyətidir, kənddə gündəlik məişəti, həyatı qurub-yaradanların işıqlı daxili aləmidir. Məhz zəhmətin cazibəsi və dirilik gücü qoymur ki, Güllü nənə doğma kəndini tərk etsin və öz «professor» oğlunun ardınca uzaq şəhərə yaşamağa köçsün. Xəstəlik nəticəsində öz sevincini və nəğməsini itirən müğənni Sənubər bu mənəvi neməti gənc bir fəhlənin – qurmaq-yaratmaq ehtirası ilə aşıb-daşan Gülaçarın təbii, fitri istedadında tapır. Hekayədə əməklə, zəhmətlə ünsiyyətin insanı gözəlləşdirən və saflaşdıran gücü də mənəvi sərvət kimi, musiqi, mahnı, şer kimi tərənnüm olunur.

Başqa bir hekayədə Eyvaz, Bəyim və Humay arasında əxlaqi münasibətlər süjetdəki ikinci planın – «elektrik dəyirmanına» çevrilən köhnə su dəyirmanının və onun sahibinin yaşadığı dramın fonunda verilir. Meşşan ziyalı məişətinin ifşasına həsr olunan «Yaylaq qonşumuz» isə, bu lirik etüdlər arasında öz satirik ruhu və istiqaməti ilə seçilir. Müəllif əvvəlki lirik qəhrəmanlardan hər birinin həyatının sehrli işığını, mənəvi məzmununu təşkil edən nəcibliyə, saflığa həssaslıq mövzusunu burada da davam etdirir, lakin artıq bu dəfə eyni məqsəd üçün əks qütbün, şeriyyəti, gözəlliyi duymayanların – «hindtoyuğunun» surətini yaradır: «and içirəm ki, bura gələndən nə bu xala, nə də onun qızı bir dəfə başlarını qaldırıb o meşəyə tamaşa eləməyiblər. Bunlar üçün dünya – doktorun qazandığı pullardan, yağlı hindtoyuğundan ibarətdir».

İlyas Əfəndiyevin iri nəsr formalarına qədərki əsərləri içərisində iki hekayə xüsusi maraq doğurur: «Yun şal», bir də «Qırçı və qırmızı çiçək». Hər iki hekayədə sərlövhədən finaladək sanki yalnız işıq və hərarət ifadə edən semantika və sintaksis – romantik obraz, ovqat və





emosiyalar bir yerə toplanmışdır. Əvvəldən axıra qədər oxucu üç adi, lakin həm də simvolik obrazdan – yun şal, ixtiyar qırçı və qırmızı çiçəkdən yayılan poetik rayihənin ab-havasında nəfəs alır. «Görüş» hekayəsində anasını həmişəlik öz yanına aparmaq istəyən gənc və məşhur professor, Güllü qarını «iş başında», əmək, təsərrüfat, məişət qayğıları və fərəhi ilə aşıb-daşan gördükdə, istəyindən vaz keçir, ona öz niyyətini deməyə belə cəsarət etmir, kənddən şəhərə yenə də tək, anasız qayıtmalı olur. Lakin, hər halda, qayıdır. Məşhur vəzifə sahibi, şəhərdə, Nazirlər Sovetində işləyən Cəmil isə, kənddə, ən ucqar bir təpədə, Südabənin xidmət etdiyi fermada gur işıqlı tək çıraqdan bir daha ayrıla bilmir: «Özünüzü gözləyin. Əgər yolu itirsəniz, mənim işığımı tuş tutub, geri qayıdın. Çırağı səhərə qədər söndürmürəm. Bizim işıqlar lap Bakı yolunacan görünür». Əlbəttə, Cəmil yolda azmır, lakin, o, bu dəfə Bakıya – kəndə dəyişilməkdən ötrü işlədiyi idarəyə ərizə vermək və nişan üzüyü almaq üçün qayıdır. Yun şal – könlündəki ülfət və ünsiyyət duyğularını isitmək, uzaq dağ kəndindəki o ferma çırağı isə, öz səadətini itirməmək, həyat yollarında azmamaq üçün ona gərək olur. Hekayənin sonunda Cəmili sovxozun mühəndis-mexanizatoruna məxsus maşında fermaya doğru irəliləyən görürük: «Mən irəlilədikcə, səhərə yaxın göydə ulduzlar sönüb, nəhayət, bir dan ulduzu qalana kimi, fermanın da işıqları bir-bir yox oldu. Qaranlıq düzdə tək bir işıq qaldı və mən o tək işığı tuş tutaraq, heç yerdə azmadan düz gəlib fermaya çıxdım».

«Qırçı və qırmızı çiçək»də də qırmızı şəfəqi heç zaman sönməyən, alışıb-yanan işığı ilə, hətta, qırı, asfaltı deşib çıxan və həyat eşqini, yanmaq, yaşamaq haqqını elan edən zərif və kövrək bir çiçək obrazı vardır: «Qırın əl boyda bir yeri azca yumurlanıb qalxaraq partlamış və onun ortasından həmin çiçək çıxmışdı. Günəşin təzə işığı altında bu çiçək qırın üstünə düşmüş yaqut kimi alışıb-yanırdı. Yenicə açılmış, kiçik, incə yarpaqlar onu qayğı ilə dövrəyə almışdı... O, yaz və payız aylarında asfaltı deşib çıxan bu xırda çiçəkləri çox görmüşdü və hər dəfə də qocaya elə gəlmişdi ki, bu kiçik çiçək sevinclə ona baxıb nə isə deyir».

Müəllif də məhz qırmızı çiçəyin qırçıya söylədiklərini qələmə alır və qoca, müdrik qırçı bu hekayətdən sonra öz qır tiyanı ilə yenə də tək, yenə də şagirdsiz, ümidsiz qalarkən, artıq bir daha öz taleyinin bu qismətinə heyrət etmir, onunla barışıb, «böyük və qüdrətli həyatın qanununu hiss edərək, ağır addımlarla gedir». Qırçı ilə oğlan, qırla qırmızı çiçək arasında hekayənin məzmununda əks olunan bu «həyat

qanununda» həm romantika və işıq, həm də tragik bir nikbinliklə aşılanan həzin bir kədər vardır...

* * *

İlyas Əfəndiyevin, bir yazıçı kimi, poetik fərdiyyətini təkrarsız edən, nəsrimizin və dramaturgiyamızın ümumi mənzərəsində hamıdan ayıran bədii cizgilər onun ilk hekayələrindən başlayaraq özünü qabarıq şəkildə büruzə verir. Ədibin bir neçə hekayəsi üzərində yuxarıdakı müxtəsər müşahidələr də göstərir ki, İlyas Əfəndiyev ilk qələm təcrübəsindən başlayaraq, həmişə axtaran, həmişə narahat sənətkardır. Fəal yenilik duyğusu, təzəni, işığı, sabahı ifadə edən hər şeyə şairanə, həssas və heyran bir münasibət bu istedadın zahiri əlaməti deyil, təbii fitri bir xüsusiyyətidir. Onun yazıçı «mən»inin ən çox və ən tam halda təzahür etdiyi keyfiyyətdir.

Əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturqdur? Hətta, mübahisə etmək olar ki, nəsrdə də, dramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev, hər şeydən əvvəl, bir lirikdir, şairanə istedad və üsluba malikdir.

Əslində, İlyas Əfəndiyev şer yazmamışdır, bədii yaradıcılığa şairanə nəsrlə başlamışdır. O, əfsanə, mahnı və nağıl kimi qələmə aldığı ilk hekayələrlə nəsrə gəlmiş və yaxşı mənada, bu əfsanə, nağıl və mahnı bu üslubu bir daha heç zaman tərk etməmişdir. Çünki İlyas Əfəndiyev əfsanəni də, mahnını da xəyali, əfsanəvi aləmdə axtarmır, real gerçəklikdə, canlı müasirlikdə axtarır. Əfsanə ilə adi adamların həyatı, məişəti arasında müştərək telləri tapmağa müstəsna həssaslıqla nail olur. Hətta, adilikdən danışanda, da onu adiliklə ülviyyət arasında ünsiyyət və əlaqə düşündürür. Adilikdən ülviyyətə doğru aramsız, fasiləsiz hərəkət və yol! İlyas Əfəndiyevin əsərləri bu yolun müxtəlif məqamları, dönümləri, düyümləri üzərində qurulur. Bu yolla hərəkət edən, bu məqamlar və dönümlər arasında körpü salan qəhrəman və müsafir isə, adətən, ədibin müasirləri olan ziyalılar, əmək və zəhmət adamlarıdır.

«Körpüsalanlar» – İlyas Əfəndiyevin bu məşhur əsərinin adını rəmzi mənada alıb, onun bütünlükdə qəhrəmanlarına aid etmək olar: çoxusu vəzifəcə də yol çəkən, buldozer sürən, maşınla, dəzgahla və ya qaldırıcı kranla işləyən bu qəhrəmanların hamısı həm də həyatla arzu, həqiqətlə nağıl arasında körpü salanlardır!..

Özü də, «nağıl», «əfsanə» sözlərini müəllif zahirən də gizlətmir, onu hətta başlığa, sərlövhəyə çıxarır. Çox maraqlıdır ki, «nağıl» sözü





ədibin ilk əsərinin də, ən son əsərlərindən birinin də adında işlədilmişdir. «Sarıköynəklə Valehin nağılı»nda belə səciyyəvi «nağıl ifadələri», hətta, təhkiyə və kompozisiya əlamətləri də vardır: «aldı Valeh», «aldı Sarıköynək» və s. Sanki aşıq dastan danışır. Lakin bu təhkiyə yalnız dastan poetikasını yada salmır, həm də ən yeni, novator təhkiyə üsullarından birini xatırladır: müasir kompüter təfəkkürü ilə, efir ekranı və kinodramaturgiya ilə, eyni hadisənin dörd şəxs (şahid) tərəfindən, dörd rakursda təqdimi axtarışları ilə vəhdət təşkil edir.

«Qəhrəman ilə bülbülün nağılı» və «Sarıköynəklə Valehin nağılı» – İlyas Əfəndiyevin bütünlükdə bu iki «nağıl» arasına sığışan dünyası, bu iki nağıl arasındakı nəsri sözün rəmzi mənasında qəribə, sehrli, mavi bir nağıla bənzəyir və həm öz poetikası, həm də ideya – məzmun aləmi ilə keçmişi və indini, qədim və müasir «əsatiri» özündə birləşdirir...

Burada «körpü» artıq təbiətin, nağılın, «min yaşlı əyri qayaya bənzəyən» qoca Qədirxanın ilkinliyi və əbədiliyi ilə müasir ekoloji böhranın, texnogen sivilizasiyanın, etnogenetik qlobalizasiyanın təzadları və ifratları arasındadır.

İlyas Əfəndiyevin bədii uğurları məhz belə bir vüsətli, miqyaslı fəlsəfi lirika ilə ifadə olunur. Babaların əxlaqı və gənclik, Vətən məhəbbəti və əməyin şeriyyəti – bu lirikanın əsas mübtədası bunlardır. Fədakarlıqda, sədaqətdə, mənəvi ucalıqda bir-biri ilə yarışan nəcib əxlaqlı insanların daxili zənginliyi – bu lirikanın etik pafosu, emosional məzmunu isə belədir. Bu məzmunu bu üslubda hər şey, ən çox isə, bədii dil ifadə edir. Azərbaycan dilində işıq, ülviyyət ifadə edən sözlərin leksikasını, dilimizin poetik lüğətini İlyas Əfəndiyevə məxsus nəsrin materialından seçib tərtib etmək olar.

Sənətdə məşhur Cabbarlı təliminin bir məqamı İlyas Əfəndiyevin yazıçı üslubunda xüsusi olaraq gözlənilir: məişətdə, əxlaqda inqilab və yenilik! Yalnız texnikada, sənayedə, paltarda və güzəranda yox, ürəkdə, fikirdə, daxili aləmdə yenilik! Məhz müasirlik – bir keyfiyyət kimi bu yaradıcılığı mövzu-problem baxımından tam xarakterizə edir: o, müasir olmayan pyes, müasirliyə xidmət etməyən nəsr yazmamışdır. Ən başlıcası isə odur ki, ədibin həyatda yenilik, müasirlik axtarışları sənətdə və sənətkarlıqda yenilik axtarışları ilə vəhdət təşkil etmişdir.

Onun tamamilə yeni ruhlu hekayə, povest və romanları Azərbaycanda epik nəsrin inkişafında maraqlı hadisə oldu, pyesləri dramaturgiya tariximizdə ayrıca, «lirik» bir mərhələni təşkil etdi. Ədibin nəsrə gəlişi bizim nəsri, dramatik ədəbiyyata gəlişi bizim dramaturgiyanı

parlaq poetik bir üslubla zənginləşdirdi. Müasirlərimizin əxlaqi simasını mənəvi-psixoloji fəaliyyət və ictimai əmək mühitində dərk etməyin səmərəli, uğurlu bir üsulunu indi bu üslubun timsalında ardıcıl izləmək olar. Bu üslub bütünlükdə ümumtürk məkanında, çoxmillətli yaxın Qafqaz və Orta Asiya ədəbiyyatları miqyasında qeyri-empirik, qanadlı və poetik realizmə yaxşı bir nümunədir.

Müasirliyə daimi marağı İlyas Əfəndiyevin gəncliyə və gənclərə olan marağının təbii davamıdır. O, əsas qəhrəmanı gənclər olan bir yazıçıdır. Vətənə, xalqa məxsus mənəvi nemət və sərvət axtarışlarında onun ən çox güvəndiyi nəsil gənclərdir. Tamamilə yeni bir mühitdə formalaşan müasir oğlan və qızların həyatı, axtarışları və səhvləri, anlayış, rəftar və əxlaq özünəməxsusluğu müəllifin bədii düşüncələrinin əsas predmetini təşkil edir. Cəsarətlə demək olar ki, Azərbaycan qadınının inkişafı tarixində yeni nəslə məxsus müasir psixoloji qəhrəman tipini (məhz nəslin tipini ifadə edən obrazlar silsiləsi səviyyəsində!) bizim nəsrə və dramaturgiyaya İ. Əfəndiyevin əsərləri gətirmişdir. Dramaturgiyada Cabbarlı qadınlarından sonra nəsrdə İlyas Əfəndiyevin qadın qəhrəmanları azərbaycanlı qadınının mənəvi aləmində növbəti mərhələnin ifadəsidir. Bu hökmü deməyə bizə haqq verən, birinci növbədə, onun roman və povestləridir.

«Söyüdlü arx» (1958), «Körpüsalanlar» (1960), «Dağlar arxasında üç dost» (1963) – bu əsərlərdə ifadə olunan yenilik, hər şeydən əvvəl, müəllifin «müsbət qəhrəman» və «mənəvi gözəllik» anlayışını o illərin stereotip ölçü, qəlib və normalarından fərqləndirən cəhətlərdə idi. Belə ki, müəllif bilavasitə mövcud ədəbi ənənədən yox, həyatdan, ictimai və mənəvi-əxlaqi inkişafda yeni mərhələnin formalaşdırdığı nəslin üzərində müşahidələrdən çıxış edərək, müasir insan, məişət və əxlaq haqqında öz anlayışlarını irəli sürürdü.

Dövrün məişət və əxlaq həqiqətləri üzərində belə «bədii tədqiqat» xüsusi həssaslıq tələb edirdi. Gəncliyin hiss və düşüncə tərzində özünü göstərən bir sıra xüsusiyyətlər mövcud ənənəyə və adətə qarşı «təhlükə», sevgi, nikah və ailə qanunlarının sabitliyi, müqəddəsliyi əleyhinə çevrilən etinasızlıq kimi də təsir bağışlaya bilirdi. Elə məsələ də onda idi ki, İlyas Əfəndiyev çoxlarının mənfilik kimi, əxlaqi naqislik və saxtalıq kimi qəbul etdiyi bir xüsusiyyətdə («Səriyyə» mübahisələrini xatırlamaq kifayətdir) yeniliyi, əxlaqi tərəqqi və gözəllik əlamətini tanıyır və ona, bir yazıçı kimi, vaxtında bəraət verirdi. Özü də, müəllifin həyatdan seçdiyi və nəsrə gətirdiyi yeni qəhrəman yalnız Nuriyyələr və Səlimələr deyildi, həm də Səriyyələr, Güləbətinlər, Gülcanlar idi. O, hətta, Güləbətinsayağı «ifrat yeniləşmə», «ultra müa-





sirlik» təzahürlərinə də real həyati həqiqət səviyyəsində bədii-psixoloji maraq doğuran hadisə kimi nəzər salır və ona adi karikatura, satira, həcv yox, düşündürən dramatik səhifələr həsr edirdi. «Gəncliyə inam» mövzusu gənclik haqqında ideal təsəvvürdən hələ çox uzaq olan, mürəkkəb və ziddiyyətli surətlərin təsviri xəttində də davam etdirilirdi.

Gerçəkliyin hələ normaya, qəlibə, ölçüyə düşməmiş mürəkkəbliyinə nəzər salmaq, gənc qəhrəmanı mövcud sxem və model əsasında yox, həyat dərslərinin sınağında, həyat məktəbinin «partaları» arxasında təsvir etmək – o dövrün bir sıra «istehsalat romanlarında» çatışmayan elə bu idi – bir yazıçı kimi, İlyas Əfəndiyevə məxsus «mövzu islahatlarını» və bədii novatorluğu obyektiv olaraq şərtləndirirdi.

Şəxsiyyətin bizim cəmiyyətdə yüksək ləyaqəti və qiyməti haqqında ideya bu əsərlərdə həyata yeni qədəm qoyan cavan ziyalının taleyi timsalında ümumiləşir. Ömrün və mübarizənin mənası haqqında düşünən və ona dərslikdə, kitabda yox, həyatın sınağı anında, real çətinliklərin və maneələrin dəfi prosesində cavab tapan belə qəhrəmanlardan biri olmaq etibarilə Səlimə surəti İ. Əfəndiyevin nəsri üçün çox səciyyəvidir.

«Dağlar arxasında üç dost» əsərində belə bir səhnə var: Səlimə mal-qaraya baxa-baxa, kənddəki köhnə bir tövləyə gəlib çıxır. Palçıq tövləyə gələnlər, adətən, yalnız buradakı heyvanları görürdülər, Səlimə isə, ilk dəfədir ki, həm də burada işləyən insanları görür. Adamların səhərdən axşamacan heyvanların altını kürüyüb atması (lap orta əsrlərdə olduğu kimi) onun vətəndaşlıq qüruruna, müasir mədəni bir adam kimi, insanlıq heysiyyətinə toxunur: «Mən adamların bu cür işlərlə məşğul olmasını istəmirdim. Bu əqidədəydim ki, hər bir zəhmətin öz gözəlliyi, öz şeriyyəti olmalıdır!»

Bugünkü möhtəşəm bilgisayarı, texnogen möcüzələri, səma gəmisini idarə edən qızların müasiri və bacısı belə düşünür, haqlı olaraq, tələb edir ki, əməyin bu cür sahələrində insanı texnika və avtomat əvəz etsin. Bu, artıq Almazın (C.Cabbarlı) toxunmadığı bir məsələ idi. Əməyin şeriyyəti, gözəlliyi məsələsi yalnız onda (yetmişinci illərdə) vaxtı çatmış bir problem idi və yazıçı bu barədə vaxtında, həm də cəsarətlə danışırdı.

Ümumiyyətlə, həmin illərdə yeni insan, xüsusən, dövrün müasir qadın qəhrəmanı problemi ədibi ciddi düşündürürdü. Nuriyyə, Səlimə, Səriyyə, Sarıköynək – məhz bu düşüncələrin və axtarışların bəhrəsi idi. İndi artıq çoxdan nəsrimizdə ayrıca bir nəsli təşkil edən bu qəhrəmanlar yüksək kamala və nəcib bir əxlaqa malikdirlər. Onlar əsl

«səadət» məfhumunun nə olduğunu axtarır, onu «kəşf edir», yalnız vərdişlə təmin olunan «birgə yaşayışdan» deyil, daha böyük mənadan və məzmundan ibarət yeni ailə, əxlaq və sevgi münasibətlərini təcəssüm etdirirlər. Bu nəcib qızlar xoşbəxtliyi həmişə fədakarlıqda görür və bu mənada, bir-birilərinə çox bənzəyirlər. Fədakarlığı isə, onlar – həyatdan əl üzmək və küsmək kimi yox, mənəvi bir intihar kimi yox, mənəvi qəhrəmanlıq (!) kimi edirlər. Bu qızlar – qadının kişilərlə bərabərliyini məhz qəhrəmanlıqda və hünərdə, mərdlikdə və nəcabətdə təsdiq edən qızlardır. Onlar bəzən şəxsi həyatda xoşbəxt ola bilmirlər. Lakin öz xoşbəxtlik imkanlarını başqalarının səadəti naminə böyük səxavətlə sərf edirlər! Onlar həyat haqqında, yaşamağın, qəhrəmanlığın gözəlliyi və mənası haqqında lirik suallar verməyi sevirlər. Lakin həyat və xoşbəxtlik haqqında lirik suallardan daha əvvəl onları işlədikləri kəndin vəziyyəti düşündürür. Nuriyyə o vaxtkı kolxoz kəndinin adamlarını nəzərdə tutaraq deyir: «Gecə-gündüz işləyirlər. Kolxozun var-dövləti istədiyiniz qədərdir, amma fərəhsiz, zövqsüz yaşayırlar. İşdən gələn kimi çörəklərini yeyib, başlarını qoyurlar yerə».

«Quş uçmaq üçün yarandığı kimi, insan da yaşamaq üçün yaranmışdır» kəlamını təkrar etməyi sevən Səriyyənin də, geniş mənada, «səadət» anlayışını onun aşağıdakı sözləri yaxşı ifadə edir: «Mənə elə gəldi ki, biz və bütün insanlar o «təzə dünyaya» məhz bizim saldığımız bu körpüdən keçib gedəcəyik...»

Şəxsi səadəti də, sevgini-kini də ağılla «hesablayan», köksündə ürək əvəzinə «dəqiq riyazi hesablamalar»ın, bilgisayarın modelini gəzdirən, bütün meşşanlara qarşı ehtiraslı bir üsyanı, etirazı ifadə edən, «mən duyğuların əsarətinə, köləliyə nifrət edirəm!» deyən bu qızlar həyatın, yaşamağın fərəhini, zövqünü və gözəlliyini artıran qızlardır! Bu qızlara ümumilikdə məxsus olan yeni əxlaqi sifətləri qabarıq təmsil etmək mənasında Səlimə xüsusilə maraqlı və səciyyəvi bir surətdir.

Qartallı dərəyə mal-qaraya baxmaq üçün gələn bu qız təkcə zootexnik olaraq qalmaqdan nə qədər uzaqdır! Kəndə hər cəhətdən tamam müasir bir qız gəlir və özü ilə yeni hava, yeni bir aləm gətirir. İnsanlarla təmasında o, «inəklərin cinsini və sağlamlığını yaxşılaşdırmaqdan» daha faydalı işlər görür. Nə vəzifədə olursa-olsun, düşdüyü mühitin adamları, ictimai həyatı ilə qaynayıb-qarışmaq fitri bir ehtiyac kimi ona Almazdan irs qalmışdır.

Səlimə «yasli, yoxsa tövlə» mübahisəsini körpələrin xeyrinə həll etməyə nail olur, rəhbərlə kütlə arasında müasir münasibət məsələsinə toxunur, nəzarətdə də, rəhbərlikdə də yeni əxlaqi məzmun tələb edir,





«biz özümüzlə eyni ləyaqət hissinə malik olan insanlara başçılıq edirik» deyir.

Səlimənin rast gəldiyi ən böyük müqavimət şüurlarda, görüşlərdə yaşayan mənəvi ətalət olur, sözün hər iki mənasında mənəviyyatda və patalogiyada «heyvanlıq kompleksini» ifadə edən davranış və düşüncə tərzi olur: «Sən maaşını al, otur yerində, heyvandı, həmişə nə cür, indi də heylə» – o, bu «fəlsəfəyə» qarşı döyüşə atılır. Səlimənin fəlsəfəsi: «Həyatın da, Ştrausun valsları kimi, öz ahəngi var. Bizim borcumuz bu ahəngin daha gözəl olmasına kömək etməkdir».

Təsərrüfata, məişətə gözəllik artıra-artıra bu qız sanki özü də gözəlləşir, əməyin və insanın vəhdətdə gözəlliyi və kamilliyi ideyasına bizi bir addım da yaxınlaşdırır: «Bütün bu tanışlıq zamanı mənim üçün ən maraqlı cəhət Səlimə xanımın hərəkətləri idi. Qız təsərrüfata baxmağa başlayanda, elə bil ki, birdən-birə dəyişildi. Elə bil ki, hardansa ona bir ilham, bir qüvvət gəldi. O, tövlələrə də, qaraja da, heyvanların doğum evinə də hamıdan əvvəl girir, hamıdan çox soruşurdu. Elə bil, bu səhər çay içdiyimiz zaman sakitcə oturub bizə qulaq asan, gizli bir kədərlə gülümsəyən o ağbəniz, incə qız deyildi...»

Bu gözəl qadın, ümumiyyətlə, təmas etdiyi hər yeri və hər şeyi gözəlləşdirir. Səlimənin mənəvi gözəlliyi bir də onun öz sevgisinə münasibətdə meydana çıxır. O, Şahları sevir. Təmiz və nəcib sevgisi yolunda qurban verə bilməyəcəyi heç nə yoxdur. Çünki bu onun «ilk və son sevgisi»dir. Bu məhəbbət onun öz xilaskarını tanıdığı birinci dəqiqədən başlayır, boranlı gecədəki igidliyə, hünərə bir mükafat kimi doğulur, get-gedə ən gözəl, nəcib və ülvi bir hissə çevrilir. Sevginin gözəlliyi, səadət duyğuları, uçmaq üçün verdiyi qanad bu münasibətlərin təsvirində təbii boyalarla əks olunur. Sevgi süjeti əsərin ən şairanə, lirik və poetik səhifələrini təşkil edir.

Səlimənin bütün hərəkətlərində mənəvi mənbədən gələn bir sərbəstlik də vardır. O, öz sevgisi və xoşbəxtliyi yolunda fəal olan və mübarizə edən bir qızdır, sevgidə də fəallıq və təşəbbüsü Şahlarla həmhüquq əsasda və nisbətdə bölür. O, bu əsl sevgini sevgisiz keçirdiyi bütün illərin həsrəti ilə axtarır, tapanda isə, onu «əvvəlinci-axırıncı» sevgiyə çevirir. O, Şahlar uğrunda bir də ona görə mübarizə aparır ki, Şahları, Şahların xoşbəxtliyini Güləbətindən xilas etsin.

Şahlar uğrunda mübarizədə Səlimə iki qorxulu rəqiblə qarşılaşır: Güləbətinlə və Gülnisə xala ilə. Gülnisə xala bütün varlığı ilə inanır ki, onun yeganə oğlunu yalnız «əsli-nəsəbi məlum», hörmətli bir ocaq sahibinin qızı xoşbəxt edə bilər. Məhz bu xoşbəxtlik naminə o, Səliməyə amansız hərb, müharibə elan edir.

Gülnisə bu mübarizəyə böyüdüyü dağlardakı ana qartalların ən qorxulusu, aslanların, qəzəbli pələnglərin yaralısı və dişisi kimi atılır. Lakin Gülnisə xala məqsədinə ona görə nail olmur ki, o, Şahları da özü kimi mərd, məğrur, qətiyyətli tərbiyə etmişdir. Səliməyə münasibətdə qartalla qartal rastlaşır və Şahlar qalib gəlir. O, daha nəcib mərdlikdə, saf və təmiz bir sevgiyə sədaqətdə, halallıq, düzlük və ləyaqətdə qalib gəlir. Qartallı dərədəki mühafizəkar bir adət yox, ən müqəddəs sayılan ənənə və qanun qalib gəlir...

Səlimə ilə Güləbətin arasında konflikt, xarakter toqquşması isə, daha maraqlı xüsusiyyətlərə malikdir. Deməк lazımdır ki, Güləbətin öz əxlaqi məzmunu etibarı ilə orijinal bir surətdir. Səlimə – Nuriyyənin, Səriyyənin davamı, inkişafıdır. Güləbətin isə, yeni bir surətdir. Həyatda çoxdan mövcud olan bu qəhrəmanı yazıçı ilk dəfə ciddi planda və yeni münasibətlər mövqeyindən nəsrə gətirməyə çalışmışdır. Yazıçı karikatura çəkməmişdir. Güləbətin artıq həyatda mövcud olan bir nəslin surətidir ki, onu bədii əsərə həyat həqiqəti və İ. Əfəndiyevin yazıçı cəsarəti gətirmişdir. Güləbətinin öz dünyagörüşü, həyata baxışı, çox aydın «fəlsəfə»si vardır. O, «yüksək sürətlər» əsrində yaşayır və kosmik sürətin ölçülərini öz hisslərinə, eşqin, vəfanın, sədaqətin «müddətlərinə» də aid etmək istəyir. Çox mənalıdır ki, bir zamanlar Çıraq dayının uzaq dağ səngərlərini müşahidə üçün gəzdirdiyi binokldan indi o, Şahların və Səlimənin intim hərəkətlərinə baxmaq üçün istifadə edir. Yazıçı da məhz bu simvolik cəhətə, fərqə, «yeni»yə diqqəti cəlb edir.

Onun zahirində və daxilində cəlbedici məqamlar da yox deyildir; ilk baxışda, dediklərində bir «həyat məntiqi» də duymaq olar: «Onun yanaqları, dodaqları eyni ilə qırmızı çöl laləsitək alışıb-yanırdı. Gözləri atasının gözləri kimi ala idi. Adama elə gəlirdi ki, zaman-zaman bu gözlərdən gah mavi, gah da firuzəyi rəngə çalan bir alov çıxır...»

Güləbətinin «həyat məntiqindən» nümunələr:

«İyirminci əsrdə «ayıb» sözü yoxdur», «İyirminci əsrdə sürət son dərəcə artmışdır. Bizim Romeo, Cülyetta olmağa vaxtımız yoxdur. Biz, bir neçə dəqiqəyə kosmosa çıxa bildiyimiz kimi, bir anda külə də dönə bilərik», «– Mən heç nə bilmirəm, bilmək də istəmirəm. Mən doğulub böyüdüyüm üçün yaşamalıyam. Həyatda mənə xoş gələn nə varsa tez götürməliyəm və ya götürməyə çalışmalıyam».

Realist təhlildə obrazın ruhi aləminə psixoloji bələdliyin rolu barədə yazıçı İlyas Əfəndiyevin öz qənaətləri maraqlıdır: «Əgər, həyati bir fakt və ya hadisə yazıçının, dolayısı ilə personajın ruhi-psixoloji aləminə daxil olmayıbsa, bu aləmin hərəkət və inkişafında bir rol oynamırsa, belə həyat materialının bir qəpiklik əhəmiyyəti yoxdur. Məsələn, Balzakın əsərlərindəki həyat materialı bizi ona görə valeh edir ki, insanın ruhi hərəkəti ilə, bütün varlığı ilə bağlıdır... Mənim eşitdiyimə görə, C.Cabbarlı kənddə çox az olmuşdur... Bəlkə də, uşaq vaxtı olmuşdur. Lakin, İmamyar, Hacı Əhməd və ya «Almaz»da təsvir olunan kənd demaqoqları kollektivləşmənin ilk illərində bizim kəndimiz üçün səciyyəvi olan çox real, çox canlı adamlardır.

Əlbəttə, mən görüb-götürməyin əleyhinə deyiləm. Həyatı bilmək lazımdır. Lakin incəsənətin bütün sahələri üçün istedad əsas amildir! Qəti meyardır! Həyat materialı yalnız istedadlı sənətkar üçün mövcuddur! İstedadsız yazıçı, ya rəssam əlli il sovxoz direktoru olsa da, bir şey çıxmaz! Hər şeyi yazıçının istedadı və bununla qaynayıb qarışmış mədəniyyəti həll edir. O da şübhəsizdir ki, həqiqi sənətkar bilmədiyi, bütün varlığı ilə nüfuz etmədiyi həyatı yazmaz!» (*Yusif Seyidov*. İlyas Əfəndiyev. Bakı, 1975, səh. 136 – 137.)

Bu düşüncələr nəzəri bir bəyanat kimi ifadə edilməmişdir. «Dağlar arxasında üç dost»un təhlili də bir daha göstərir ki, İlyas Əfəndiyev həmin nəzəri qənaətə bədii təcrübədə əməli şəkildə də sadiq qalmışdır.

Sual oluna bilər: Səlimə cəmiyyətin, qadınlığın yeni əxlaq və mənəviyyatını təcəssüm etdirir, lakin, axı, Güləbətin də yenilikdir? Yox, yeniliyin əsərdə təbliğ olunan təmayülünü təmsil edən Səlimədir. Əlbəttə, real bir surət kimi, Səlimə də qüsurlardan xali deyildir. O, bəzən Şahların xudpəsəndliyini, kobudluğunu da ideallaşdırır. Ümumiyyətlə, Səlimənin öz duyğularında yaratdığı Şahlar daha gözəldir. «Dağlar arxasında üç dost» romanında mənəvi aləmlə real məişət arasında ahəng sonralar da süjetin bütün gedişi prosesində izlənir. Əsərdə bu baxımdan maraqlı bir yer də var. Valsı dinlədikdən sonra Səlimənin mənəvi vəziyyətini müəllif belə təsvir edir: «Sanki mahiyyətini dərk etmədiyi şirin bir aləmdən təkrar həyata qayıdaraq soruşdu: – Arteldə cins inəklər çox azdır, elə deyilmi?» Heç də təsadüfi olmayaraq mətndə bir yerdə işlədilmiş «əsl həyat» və «şirin aləm» məfhumlarına diqqəti cəlb etmək istərdik. Artel və cins inəklər «əsl həyat», Ştrausun musiqi düşüncələri və qızın yaşadığı yüksək mənəvi anlar yalnız əfsanəvi və xəyali bir şəkildə qarşı-qarşıya qoyulmur. Romanda canlı, diri, müasir kənd həyatı haqqındakı anlayış yalnız arteldən və cins inəklərdən ibarət təsəvvürə sığışmır. Ştrausun musiqi düşüncələri altında Səlimənin yaşadığı yüksək mənəvi anlar da burada real həyatın özü, onun bir parçası kimi təsvir edilir. Yoxsa, «əsl həyat» haqqında yalnız

arteldən və cins inəklərdən ibarət bir təsəvvür bədii əsərdə mənəvi yoxsulluğun ifadəsi və bəraəti demək olardı. Bütün roman boyu yazıçı heç yerdə və heç nəyin bədii təsvirdə insanları, insani hissiyyatı kölgələməsinə yol vermir. Əsərdə haqqında çox danışılan silos məsələsini də müəllif əsas problemlə – müasir, humanist İnsan problemi ilə məharətlə bağlaya bilir. Qonşu kənddən ot gətirilməsini göstərən səhnənin təsviri bir neçə səhifə davam edir. Lakin bu çox maraqlı səhifələrdə də söhbət yenə də əslində otdan, silosdan deyil, yatmış pələngə bənzəyən qorxulu gədiyi fəth edənlərdən gedir. Xüsusən dal-dala düzülən maşın karvanı qabağında kürəklə yolu yoxlaya-yoxlaya gedən «ucaboylu oğlan»ın surəti oxucunun hafizəsinə həkk olunur.

Səlimə yeni tövlə tikmək, mal-qaraya xidmət sahəsində mədəni üsullar tətbiq etmək, «dayə sistemi»nə keçmək tədbirlərini irəli sürür. Bütün bunlardan əvvəl isə, körpələr üçün yasli binası tikilməsinə nail olur. Göründüyü kimi, o, yaşadığı kənddə artıq «sinfi mübarizə» aparmır, zəhmətdə və əməkdə şeriyyət, gözəllik, rahatlıq və bolluq uğrunda mübarizəyə qoşulur; vaxt bölgüsü, əmək, istirahət və mədəniyyətin təşkili, müasir rəhbərlik üsulunun forması və məzmunu kimi problemlərə toxunur.

Əməkdə, məişətdə, ictimai münasibətlərdə müasirlik mövzusu, yeniliklə ənənə arasındakı əlaqələrin məzmunu, bir motiv kimi, romanın bilavasitə məhəbbət və əxlaq məsələləri ilə bağlı süjetində də davam etdirilir.

Səlimənin – Şahları və Ştrausun valslarını sevən bu qızın zövqündə, gözəllik duyğularında daxili bir harmoniya vardır. Zahirən qəribə görünə bilər: nə üçün bu ali savadlı, yüksək mədəniyyətli qız Şahları özündən də yüksək tutur, ona bir qəhrəman, xəyalında, könlündə bəslədiyi bir ideal kimi pərəstiş edir? O, özü oğlanı niyə sevdiyini izah edə bilmir, lakin qəribədir, bu barədə düşünərkən, həmişə pəncərəni açır, Qartallı dərənin dağlarına baxır: bu dağlar uca, soyuq, sərt və əzəmətlidir. Qız bu dağların gözəlliyini və Şahların bu gözəlliyə bənzər təbiətini sevir.

Hər halda, Şahların və Səlimənin – bu iki gəncin simasında biz ənənələrin ziddiyyətini yox, vəhdətini görürük. Səlimənin zərifliyi və həssaslığı oğlandakı fitri, təbii açıqlığa, nəcibliyə, düzlük və təmizliyə yaraşır: yeninin ən yaxşı cəhətləri «köhnə»nin əxlaqi gözəlliyilə ahəng təşkil edə bilir (təsadüfi deyil ki, Şahlarla Güləbətin arasındakı münasibətlər belə ahəngi rədd edir). Səlimə – bu yüksək adətli-ənənəli qız Qartallı dərənin çox adət-ənənəsinə həsəd çəkir, onların üstünlüyünü etiraf edir və onlara doğru can atır, çırpınır.





Səlimənin səmimi sevgisi ailə qurmağın köhnə üsulu üzərində öz aşkar üstünlüyü ilə, əsərdəki bədii-fəlsəfi məntiqin təsdiq etdiyi bir üstünlüklə qələbə çalır, rəsmiyyətə, mənafe haqq-hesabına dözməyən, yüksək əxlaqa əsaslanan məhəbbəti ifadə edir. Bu məhəbbət gözəldir və əməyin, zəhmətin, həyatın gözəlliyini artırır...

Əxlaqi gözəllikdə o biri bacıları da Səliməyə oxşayırlar. Nuriyyə öz xoşbəxtliyini Səadətə bağışlayır. Həm də ilk və böyük məhəbbəti Murad olduğu üçün özünü Hümmətin səmimi sevgisinə layiq bilmir. Bəs Səriyyə? Onun tutduğu yol bu qızların birlikdə təmsil etdiyi ümumi əxlaqa bir təfriqə təşkil etmirmi? Əlbəttə, Səriyyə daha mürəkkəb obrazdır. Onun yeni əxlaqi prisiplərə meylini zahirən əyaniləşdirən cizgi və detallarda ifrat məqamlar da vardır. Lakin tam halda, əxlaqi konfliktin obyektiv bədii həlli prosesində yazıçı yenə də eyni qütbün, milli-əxlaqi meyarın və prinsipin tərəfində dayanır.

Əlbəttə, Səriyyə hələ Nuriyyə kimi, Səlimə kimi mənəvi qəhrəmanlıq etmir. Adillə münasibətlərində o, sadəcə olaraq, öz xoşbəxt olmaq hüququndan istifadə edir, vəssalam. Əsrlərlə davam edən bir ənənəni pozmağı da, bəlkə, kiçik bir «qəhrəmanlıq» hesab etmək olar. Lakin Səriyyəni Nuriyyəyə və Səliməyə yaxınlaşdıran bu kiçik «qəhrəmanlıq» deyil, onun Adilə yox, Qəribcana olan münasibətləridir. Adil – Səriyyənin keçmişdə buraxdığı səhvidir və Səriyyənin mənəvi gözəlliyini yalnız onun öz səhvini düzəltməsində görmək doğru deyil. Adil xətti, bütün ziddiyyətləri ilə təsvir olunan Səriyyənin səhvlərini, hələ kamilliyə qədərki əyintilərini əks etdirən xəttdir. Surətin bütünlükdə ifadə etdiyi əxlaqi gözəllik isə, Qəribcan xəttində meydana çıxır. Səriyyə Qəribcanı əsl bir Nuriyyə, Səlimə məhəbbəti, nəcibliyi, fədakarlığı ilə sevir və belə qarşılıqlı münasibətlərin rədd olunan əvvəlki ailə münasibətləri üzərindəki aşkar üstünlüyü bizi inandırır.

İlyas Əfəndiyev növbəti romanında da süjetdə dinamik və dramatik hərəkət prinsipinə sadiq qalır, «Sarıköynəklə Valehin nağılı»nda da öz fərdi, ənənəvi lirik təhlil üslubuna sədaqəti qoruyub saxlayır. Romanda mənəvi gözəllik, həssaslıq və onun qorunması problemi, əfsanəvi, lirik, «mavi dünyanın» nağılları mövzusu davam etdirilir. Təsadüfi deyil ki, əsərin qəhrəmanı Valeh məhz mənəvi gözəlliyin keşiyində duranların sırasına gəlməyə – hüquq mütəxəssisi olmağa can atır. Əsərdəki hadisələrin sahillərini birləşdirən körpünün digər tərəfində artıq qara və «qorxulu nağılların» qəhrəmanları durur – Məcidov, Yusifov, Cavanşir, Rövşən, Rəcəb və başqaları. Bu nağıllar artıq o dövrün «texniki tərəqqi» və «yenidənqurma» deyilən gerçəyinin «nağılları», cəmiyyətdə də yeni çeşidli və yeni məzmunlu «antipodla-

01/01–27

rın» yayıldığı və onlara qarşı xalqın mübarizəsinin vüsət tapdığı bir dövrün «nağıllarıdır». Məhz yetmişinci illərin eybəcər, tüfeyli və meşşan tipi kimi yaxşı müşahidə edilmiş və milli-xəlqi bir mövqedən, vətəndaş narahatlığı ilə təsvir olunmuş Məcidov obrazı diqqəti cəlb edir.

Bir nasir kimi, İlyas Əfəndiyev həmişə irəli baxır, nəsrin inkişafında hər yeni mərhələnin və hər yeni nəslin yaradıcılıq axtarışlarında yenidən iştirak etməkdən yorulmur. «Geriyə baxma, qoca» bu həqiqətin yeni ifadəsi və növbəti təsdiqi oldu. Roman digər bir cəhətdən də maraq doğurur: məlumdur ki, İlyas Əfəndiyevin bütün nəsri bir «mən»in dilindən deyilən monoloqa bənzəyir. Burada isə, həmin monoloq ilk dəfədir ki, birbaşa söylənilir, hər cür şərti, romantik haşiyə və ifratlardan təmizlənərək, «çılpaq» görünür. Üçüncü tərəfdən, burada təhkiyənin tərzi ilə yanaşı, predmeti də dəyişir: müasirlik axtarışlarını bu dəfə o, tarixi keçmişin materialında davam etdirir və ilk dəfədir ki, belə müstəqim şəkildə fərdi tərcümeyi-halına müraciət edir, bilavasitə öz «mən»inin keçmişindən danışır: «Hətta indi, yəni, yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə, elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: «Geriyə baxma, qoca». Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tamaşa etmək, nəyi isə anlamaq istəyirəm. Bəlkə də, mənim bu «nə isə»m o zaman babamla nənəmin, atamla anamın bir zamanlar yaşadıqları, xoşbəxt olduqları gözəl hissləri əzaba, kədərə, nifrətə döndərən qəddar səbəbi bilmək arzum idi ki, indi də məndən əl çəkmirdi...»

Yaddaş, xatirə, arxada qalan ömür və tale haqqında düşüncələr, ümumiyyətlə, romanın yalnız məzmununa yox, ifadə, təhkiyə üsuluna da həssas, emosional bir ruh aşılayır. Həm də, ömrün zirvəsindən salınan bir nəzərin işığında fərdi keçmiş vüsətli, miqyaslı ictimai məna alır və balaca Murad şəxsi tərcümeyi-halın yox, ictimai mühit və zaman haqqında romanın qəhrəmanına çevrilə bilir: «Mən o uzaq, doğma keçmişə yenidən baxır, orada nəyi isə anlamaq istəyirəm». Məhz bu ehtiras, ədibin «anlamaq istəyi» yaxın keçmişin bədii idrak ehtirası kimi ümumiləşir və oxucu da romanın səhifələrində baş verən bu dramatik aktın iştirakçısına çevrilə bilir.

Maraqlıdır ki, «Geriyə baxma, qoca»da əhatə olunan hadisələr zamanca da «bir ömrün» çərçivəsinə sığışmır. Ədib hadisələrin tarixini çox uzaqdan başlayır, babalar barədə nağılları da özü barədə «kədərli hekayə» ilə birləşdirir. Daha doğrusu, babaların əxlaqını bu günlə birləşdirən cizgilərin qovşaq və düyüm təşkil etdiyi dünyanı müəllif





bu dəfə artıq babalarla öz «mən»inin qaynaqları, öz ömrünün mərhələləri arasında axtarır.

Bütünlükdə əsər sənədli, real bir tarix kimi, Azərbaycanda yaxın ictimai keçmişin – sosializmin təşəkkülü dövrünün bədii nəsrimizdəki portretinə yeni təfərrüat və detal artıran roman-xatirə olaraq, həm dəyişməyən sənətkarlıq–üslub axarı, ahəngi, həm də məzmunun İlyas Əfəndiyev üçün həmişə konseptual, sabit, statik məcrada davamı, tamamlanması baxımından özünü doğruldur.

İyirminci-otuzuncu illərin Azərbaycan kəndində baş verən hadisələrə müasirliyin daha mürəkkəb sosial-tarixi və mənəvi-məişət problematikası baxımından nəzər salması «Üçatılan» povestini də həm ideya, həm də forma-poetika cəhətdən «Geriyə baxma, qoca» romanının təbii davamına çevirir. Bu povesti, həmin illərin dramatik, psixoloji cəhətdən çox mürəkkəb həyat, məişət və ictimai-sinfi mübarizə dramlarına bu gün yenidən qayıdan bədii düşüncənin nəsr sahəsində səciyyəvi, müasir ənənələrindən birinin də davamı hesab etmək olar...

* * *

Saf və namuslu gəncliyin, canlı müasirliyin və tarixi keçmişin təhlili yollarında ədibin rast gəldiyi digər qəhrəmanlarla biz onun dram əsərlərində tanış olduq.

Ədibin ilk dram əsəri onun yazıçı Mehdi Hüseynlə birlikdə yazdıqları «İntizar» (1945) pyesi idi. İlyas Əfəndiyevin bir dramaturq kimi səhnədə başlayan müstəqil sənət taleyinin böyük başlanğıcından söz düşəndə isə, adətən, «İşıqlı yollar» (1948) və «Bahar suları» (1950) pyeslərini qeyd edirlər.

«Bahar suları» və «İşıqlı yollar» teatra yeni hava və yeni meyllər gəldiyindən xəbər gətirən ilk qaranquşlar kimi qarşılandılar. Səhnədə yeni yaradıcılıq intibahına ümid və inamı o zaman çoxları bir də məhz bu meyllərlə bağladılar. Əlbəttə, dövrün estetik ehkamlarının da möhürünü bu və ya digər dərəcədə özündə daşıyan bu əsərlərin ən səmərəli məziyyətləri timsalında teatrda ritorik və didaktik üslubu əsaslı şəkildə təshih edə biləcək nümunənin yarandığını tezliklə həyat özü sübut etdi.

Həmin pyeslərdəki ən yaxşı xüsusiyyətlər özünün daha qabarıq və poetik ifadəsini «Atayevlər ailəsi»ndə (1954) tapdı. Pyesdə o dövrkü həyat öz ziddiyyət və mürəkkəbliyi, həm saflığı və işığı, həm də kölgəli cəhətləri ilə birlikdə səhnəyə gətirilirdi: «İctimai həyatın qüsurlarını əsl realist mövqelərdən açıb göstərən ən yaxşı əsərlər mənfiliyin bu cür təfsiri üsulunun («ifşaçı» pyeslər) yanlışlığını bir da-

27•

ha təsdiq etdi. Belə tamaşalardan biri İ. Əfəndiyevin «Atayevlər ailəsi» pyesi idi... Bu tamaşada ifşaçılıq daha da gücləndi, lakin o, həyat həqiqətinin təhrifinə, uydurma süjet xətlərinə və süni müsbət surətlərin yaranmasına gətirib çıxaran birtərəflilikdən uzaq bir tamaşa idi». (*C.Cəfərov*. «Azərbaycan teatrı». Bakı, 1974, səh. 255.)

Müasir milli-mənəvi inkişafımızın tarixində altmışıncı illərdə başlayan yeni dövr, ictimai əxlaq uğrunda mübarizənin yeni tarixi mərhələsi səhnəmizdə lirik-psixoloji təmayülün tərəqqisinə zəmin oldu. Həmin illərdə teatr həyatın, müasirliyin, gerçəkliyin dərinliyinə aparan yolda irəliyə doğru ən çox məhz «lirik dramaturgiyanın» nailiyyətləri ilə addımlaya bildi.

«Sən həmişə mənimləsən», «Unuda bilmirəm», «Məhv olmuş gündəlik», «Mənim günahım», «Mahnı dağlarda qaldı», «Qəribə oğlan», «Tənha iydə ağacının nağılı», «Sevgililərin cəhənnəmdə vüsalı» – bütün bu pyeslərdə toplanan qəhrəmanlar da, əsasən, xoşbəxtlik və işıq axtaran müasir gənclərdir.

İlyas Əfəndiyev dram yaradıcılığında yeni, perspektivli bir istiqamətin uğurlu başlanğıcı olmaq mənasında «Sən həmişə mənimləsən» (1964) pyesi xüsusilə səciyyəvidir. Əsərin əşxası çox məhduddur. Öz mahnısını oxumaq üçün müəllif gur və möhtəşəm bir orkestri səfərbər etmir; burada zərif bir nəğməni solo tək ifa edir. Süjet, əsasən, iki müsbət qəhrəman arasında lirik münasibətlərin tarixindən ibarətdir. Əsas qəhrəman – gənc, məktəbli qız Nargilədir. O, özündən 27 yaş böyük bir mühəndisə vurulmuşdur. Belə bir süjeti özözlüyündə, bəlkə də, qeyri-müasir və qeyri-səciyyəvi hesab etmək olar. Lakin məsələ də ondadır ki, dramaturq bu ənənəvi üsuldan, belə bir süjetin imkanlarından istifadə edib iki həssas, iki zəngin daxili mənəvi aləmi göstərə bilmişdir. Müəllif qəhrəmanlar arasında münasibətləri psixoloji cəhətdən əsaslandırmış, bizi Nargilə və Həsənzadənin təmiz mənəvi ünsiyyətinə və bu ünsiyyətin gözəlliyinə inandırmağa nail olmuşdur.

Təbiətcə insanlar müxtəlif olurlar. Həsənzadə həyatın gözəlliyini artıran, daxil olduğu mühitə bir işıq və səmimiyyət səpələyən insandır. Fərəclərin şikəst etdiklərinə belələri məlhəm qoyurlar. Gözəl bir gülüstanın zinəti qızılgüllərin bolluğunda olduğu kimi, cəmiyyətin, insan kollektivinin də gözəlliyi belə adamların çoxluğundadır. Həsənzadə öz fədakarlığı üçün mükafat tələb etmir, səadətdən qorxan və qaçan bir iradəsiz də deyildir. Hətta, öz gedişi ilə də o, Nargilənin qəlbində yaratdığı ideala bir əbədiyyət ömrü vermiş olur.

Pyesin konflikti də lirik xüsusiyyət daşıyır. Burada çarpışan qəhrə-





manlar açıq meydanda baş-başa gəlmirlər. Mənəvi dramı hər iki qəhrəman daxilən yaşayır.

Pyesdə simvolik bir surət vardır – boy çiçəyi! Boy çiçəyi – insanlar arasında nəcib mənəvi bir münasibətdir. Boy çiçəyi – yaxşı adamdan yadigar qalan kövrək və işıqlı yaddaş deməkdir. Pyesdə boy çiçəyini biz bir neçə yerdə məhz bu mənalarda görürük.

Həsənzadə öz həyat yoldaşının xatirəsini daim əziz tutur. Bu xatirə də boy çiçəyi kimidir: çoxdan xəzəl olsa da, ətri həmişə təzədir.

Nargilənin də öz boy çiçəyi var: atasının xatirəsi ona ləyaqətlə yaşamağa kömək edir.

Boy çiçəyinin ətrini unudanlar, ona xəyanət edənlər isə həyatda xoşbəxt ola bilmir, Nəzakət məhz bu çiçəyi təhqir etdiyi üçün bədbəxtdir.

Boy çiçəyisiz yaşamaq çətindir. Onsuz insan daxilən cırlaşır, mənən kiçilir və eybəcər olur. Sarısaç qızın faciəsi məhz belə faciədir. Ona görə, bu «fərsiz planetdə» əbədi olan heç nə yoxdur, demək, boy çiçəyi də mənasızdır. Hər şeyin ömrü bir an qədərdir. Həyat bir içim sudur. Elə isə, nə vəfa, nə hünər, nə sədaqət və sevgi? Sarısaçların həyatı məhz buna görə cılızdır. Onların həyatında da boy çiçəyi çatmır. Boy çiçəyisiz isə, xoşbəxt ola bilmək mümkün deyil. Pyesdə vahid bədii məntiqin ifadə və təsdiq etdiyi bu ideya gözəldir, işıqlı və şairanədir...

Lakin boy çiçəyi yalnız könüldə qorunan xəyal, təkcə mənəvi bir ətir və xatirə də demək deyildir. Bizim ən sadə, sıravi adamların mənəvi gözəlliyi hər yerdə – gündəlik həyatda, işdə və əməllərdə, qayğı və rəftar gözəlliyində təzahür edir. Nargilə belə bir gözəlliyi bütün mənası ilə, hörmətli bir zavod direktoru olan Həsənzadənin şəxsində tapır və ilk dəfə rast gəldiyi «ən yaxşı» adamı sevməyə başlayır. Onun bu məhəbbəti məzmunca mürəkkəbdir. Əlbəttə, bu məhəbbət, hər şeydən əvvəl, gözəlliyə, ideala, yaxşı insana məhəbbətdir, təmiz mənəvi bir münasibətdir. Lakin o, həm də tamamilə təbii, dünyəvi, real bir hiss deməkdir. Axı, o, gözəl və ülvi şeyləri bir yerdə, ailə sevgisini, kəbin, nikah məhəbbətini isə başqa bir yerdə axtarmır. Bu təmiz, doğruçu və romantik qızın həm idealı, həm də həyatı bir yerdə görmək arzusu, məgər, qeyri-təbiidir? Nargilənin Həsənzadəyə münasibəti məhəbbətin bütün mənalarını ifadə edir.

Dramatik süjetin əsasında dayanan məhəbbət düyümünün həllində Nargilə tək iştirak etmir. Həsənzadə özü bu məhəbbətə qarşı daha güclü bir cavab məhəbbəti yaşayır. Bu ikinci məhəbbətin daxili gücü və sarsıntıları, bəlkə də, Həsənzadənin təmkini və dəyanəti müqabi-

lində zahirən görünməz olur. Əslində isə, bu məhəbbət daha dramatikdir və humanist bir səciyyə daşıyır. Əgər, Nargilə bütün varlığı ilə işığa və xoşbəxt olmağa can atırsa, Həsənzadə öz məhəbbətini həmişə kimi isə xoşbəxt etmək arzusuna və məqsədinə tabe edir. O, Nargiləni tərk edir. Lakin o gedəndə də gənc bir qızın qəlbində işıqdan və inamdan yandırdığı məşəl yana-yana qalır. Qız həyatı və insanları bir zamanlar atasının sevdiyi kimi – böyük insan məhəbbəti ilə sevməyə başlayır. Onun taleyi, varlığında baş verən dönüşün səbəbi qızı əhatə edən ictimai-mənəvi mühitdəki əlaqə və münasibətlərin məzmunu ilə şərtlənir. Bu əlaqə və münasibətlərdə onu əhatə edən mühitin öz əxlaqi mənzərəsi də görünür. Bütün sahələrdə və səviyyələrdə «antipodlar» – Fərəclər bu mühitə nə qədər rəsmi, siyasi, «sinfi» yalan, ehkam və riya aşılasalar da, bütövlükdə xəlqi – milli adət-ənənəmizin mənəvi ləyaqətini Həsənzadənin təmsil etdiyi əxlaqi həqiqətlərin gözəlliyi təyin edir.

Pyes – forma, poetika baxımından da yeni, novator cizgiləri ilə təravətli, təzə-tər təsir bağışlayırdı.

Öz yeni əsərlərində İlyas Əfəndiyev, hər şeydən əvvəl, dramı təzələmə təşəbbüsləri ilə maraq doğurmuşdu. Bu təşəbbüslər mənalı idi və bir çox cəhətdən özünü tamamilə doğruldurdu. Səhnəyə gülüşün və təbəssümün zərifi gəlirdi, hissiyyat və ehtirasın şeriyyəti, poeziyası gəlirdi. Məhz buna görə də, tamaşaçı teatrda şitliyə, bayağılığa qarşı burada çoxdan darıxdığı nəyi isə görür və rəğbətlə qarşılayırdı. Təsadüfi deyil ki, əsər ədəbi ictimaiyyət tərəfindən də rəğbətlə qarşılandı. Pyes haqqında yazılan resenziyaların hamısında, demək olar ki, hətta, bir aludəlik vardı. Lakin biz pyes haqqında deyilən bütün təriflərə şərik olmaqla bərabər, bu tərifləri pyesin özündən çox, bu pyesin bizim teatrda, dramaturgiyada təmsil etməyə başladığı təmayülə, istiqamətə aid etmək istərdik. Elə bir təmayül ki, «Sən həmişə mənimləsən» əsərində onun hələ yalnız rüşeymləri görünürdü.

Təbiidir ki, hər tənqidçi, pyesi bir əsas motivin işığında şərh etmişdir. «Təklik faciədir» məqaləsinin müəllifi (professor Cəfər Cəfərov) isə, bizcə, pyesdə yapışılması mümkün olan motivlərin ən əsasından yapışmışdır. Biz müəllifin təklik haqqında başladığı düşüncələri, şübhəsiz, pyesin materialı ilə bağlı bir şəkildə davam etdirmək istərdik. Əlbəttə, bundan məqsəd, teatr fikrimizin görkəmli mütəxəssisinin təklik ətrafında monoloqunu dialoqa çevirmək deyil. Məqsəd – pyesin mahiyyətinə nüfuz edən iti bir fikrin qələbələrindən təhlili daha da dərinləşdirməyin xeyrinə istifadə etməkdir.

Fərdiyyət və təklik problemi hələ o vaxtdan XX əsrin modernist





dünyasını bütünlükdə düşündürən aktual bir problem idi. Zamanın doğurduğu fəlsəfələrin çoxu məhz təkliyi dərinləşdirən və mütləqləşdirən fəlsəfələr idi. Təkliyin ictimai-fəlsəfi rəhnini izah edən çoxlu ədəbi məktəblər və estetik cərəyanlar da mövcud olmuşdur. Lakin çağdaş ədəbi-ictimai və fəlsəfi fikirdə təklik hələ də problemdir, hələ də düşündürür, narahat edir və şərh olunur. Demək istəyirik ki, təklik, bir mövzu kimi, mürəkkəb və çətindir. Təkliyi ictimai-fəlsəfi bir problem kimi qoymaq, şərh etmək və ona təkcə o vaxtkı sosialist (hakim marksist) çərçivədə yox, həm də ən yeni (Freyd, Kafka, Yunq...) elmi, nəzəri-psixoloji estetik kontekstdə təhlil vermək dramaturqdan böyük sənətkarlıq məharəti tələb edirdi.

Dünya ədəbiyyatı təkliyin fərdiyyətçilik məzmununu əks etdirən çoxlu faciələr tanıyır, təkliyin – ictimai məhkumluq, bəşəri zəiflik, zəminsizlik, kollektivsizlik, xudpəsəndlik məzmunu XX əsrin sonunun qərb dramlarında geniş yayılıb. Təklik daha uzaq keçmişin çoxlu klassik dramlarının da vahid mənfi qəhrəmanı kimi özünü göstərir. Lakin, bizcə, təkliyin «Sən həmişə mənimləsən» pyesində ifadə olunan məzmunu bunların hamısından fərqlənir.

Həsənzadə kollektivsiz, zavodsuz və fəhlələrsiz tək görünmür, lakin Xurşid xanımsız, Aydınsız o, tək görünür. Təklik Həsənzadəni təkcə evdə, mənzildə yaxalayır. Biz onu öz dərdini, öz qayğısını kiminlə isə bölüşmək istəyəndə tək görürük. Bu zamanlar, adətən, Xurşid xanımın xəyalı peyda olur və təklik, şərti olaraq, silinir. Beləliklə, Həsənzadə üçün təklik «Xurşid xanımsızlıq» kimi mənalanır. Xurşid xanım sağ qalsaydı, o, tək olmazdı.

Ümumiyyətlə, əsərdə qəhrəmanlar cəmiyyətdə yox, şəxsi həyatda tək görünürlər. Nəzakət də belədir. Nargilənin «Tək niyə olurdun, sən ki, işləyirdin», – sualına onun cavabı çox səciyyəvidir: «Gündüzlər işləyirdim, gecələr isə...» Demək, Nəzakətin də təkliyi sirdaş və həmdərd yoxluğundan doğan mənəvi bir təklikdir. O, hamımıza aid olan nəyi isə itirdiyi üçün yox, təkcə ona aid olan kimi isə itirdiyi üçün təkdir. Eyni sözləri təkliyi «Həsənzadəsizlik» kimi qavrayan və yaşayan Nargilə haqqında da demək olar.

Bu qəhrəmanlar nə üçün təkdirlər? Bu təkliyi əsaslandıran və zərurətə çevirən hansı ictimai, psixoloji və əxlaqi motivlərdir? Doğrudanmı, əsər təkliyi ittiham edir və təkliyin məğlubiyyətini bizə göstərir? Elə isə, təkliyin öz konkret motiv və səbəbləri ilə birlikdə süqutunu əsaslandıran süjet hansıdır? Bu təkliyə qələbə nədə təzahür edir? Axı, finalda Həsənzadə yenidən tək qalır. Xurşid xanımdan sonra o, birinci dəfə tək qalmışdı. Nargilədən sonra ikinci dəfə tək qalır.

Süjetin ifadə etdiyi məntiq budur. O, iki dəfə tək qalan qəhrəmana məhəbbət bəsləməyə, pərəstiş etməyə bizi hazırlayır.

Əsərdə yalnız müsbət qəhrəmanlar təkdirlər. Həsənzadə «həddindən artıq yaxşı» olduğu üçün təkdir. Nargilə eybəcər bir mühitlə qaynayıb-qovuşmadığı üçün təkdir. Nəzakət Fərəcə mənən yaxınlaşıb doğmalaşa bilmədiyi üçün təkdir. Hətta, Sarısaç qız da özü ilə öz mühiti arasında tam bir uyğunluq gördüyü vaxtlar özünü tək hiss etmir, o da məhz bu mühitdən ayrılanda tək qalır.

Deməк, öz səadətindən əl çəkənlər tək qalırlar. İdeala, boy çiçəyinə əbədi sadiq qalanlar tək qalırlar. Axından ayrılanlar, başqa, daha təmiz, yüksək mühitə qovuşmaq üçün əvvəlki mühitdən ayrılanlar əvvəlcə tək qalırlar. Yüksəkdə qalanlar təklikdə qalırlar! Yalnız hər şey adiləşəndə, ümumiləşəndə belə təklik yox olur.

Yox, təklik düşmən deyil. Təklik bu qəhrəmanların dostudur. Nargilə Fərəclərə, Suriklər mühitinə qarşı mübarizədə təkliyi bir qələbə kimi qazanmışdır. Həsənzadənin təkliyi mənəvi bir qəhrəmanlığı və qələbəni mümkün edən səbəb və rəhn olmuşdur.

Odur ki, mən nə Nargilə, nə də Həsənzadə xəttində məhv olan təkliyin məğlubiyyətini görmürəm, tənha qalmağın süqutunu, prozasını hiss etmirəm, öz fədakarlığı, öz qəhrəmanlığı ilə hamıdan yüksəkdə dayanan və məhz yüksəkdə dayandığı üçün təklikdə dayanan iki qəhrəmanın şəninə söylənən bir himni, alqışı, mahnını eşidirəm! Eşidirəm və düşünürəm: nə yaxşı ki, Nargilə öz atasının xəyalı ilə tək qalmış, Fərəclə və Fərəclər mühiti ilə qaynayıb qovuşmamışdır! Nə yaxşı ki, Həsənzadə təkcə mənəvi məhəbbətin nəşəsi ilə tək qalmış, amma layiq görmədiyi bir səadəti sevdiyi Nargiləyə qıymamışdır.

Odur ki, tamaşa bitir, lakin biz «təklik müsibətdir!» demirik, «təklik gözəldir», «təklik qəhrəmanlıqdır!» deyirik.

Bu təklik – bahası mənəvi hünərlə ödənən, haqqı fədakarlıq olan, könüllü qazanılan təklikdir. Əsərdə təkliyin məhz qəhrəmanlıq məzmunu boy çiçəyi mövzusu ilə qaynayıb qovuşa bilir. Məhv olan, basılan təklik mövzusu və boy çiçəyi ideyası bir-birini rədd edərdi.

Məgər, biz tək qaldığı üçün Həsənzadəni ittiham edirik? Məgər, biz Nargilənin təkliyi üçün kimi isə məşhər ayağına çəkirik? Əksinə, biz onları elə tək qaldıqları üçün sevmirikmi? Finalda təklik Həsənzadəyə yaraşır, üfüqdə ən ucada yanan ulduza, səmada ən ucada uçan qartala yaraşdığı kimi yaraşır! Öz təkliyini o, yalnız öz əzəməti ilə birlikdə itirə bilərdi...

Tək – bütün allahlardan ayrılan Prometeydir; tək – Faustun zamandan ayırıb – «saxlan!» – dediyi bir andır; tək bəşəriyyətdən ayrılan qəhrəmandır; böyük təklər – bəşəriyyəti arxalarınca aparanlardır...





Qeyd etmək lazımdır ki, burada ictimai təklik, kollektivsizlik və kimsəsizlik mənasında təklik, «kapitalizmdən qalıq təklik» ittiham olunmur. Nə müəllif, nə də biz Həsənzadənin təkliyi üçün heç kəsi və heç nəyi ittiham etmirik. (Əlbəttə, kortəbii ədalətsizlikdən – vaxtsız ölümdən başqa.)

Burada tək qalmaq – boy çiçəyinə sadiq qalmaqdır. Bu təklik – əslində ən böyük mənəvi birlik deməkdir. Məhz buna görə Nargilə «Sən həmişə mənimləsən!» deyir. Məhz buna görə müəllif də öz əsərinə başlıq seçərkən Nargilə ilə birlikdə «Sən həmişə mənimləsən» deyir. Bu isə, «heç zaman tək deyiləm» demək deyilmi?!.

Belə təkliyə biz məftun oluruq. Belə təkliyi müəllif də tərənnüm edir. Təklik burada mənfi qəhrəmana oxşamır. Yoxsa, qəhrəmanları yalnız təklərdən ibarət bu əsər bizə bu qədər xoş təsir bağışlamazdı. Yalnız tək qəhrəmanlardan ibarət bu pyesi tamaşaçı bu qədər sevməzdi. Yoxsa, «Həsənzadə niyə təkdir?», «Nargilə niyə tək qalır?» sualları cavabsız qalardı. Əsərdə təkliyin məhz qəhrəmanlıq məzmunu var, məhv olan, basılan təklik mövzusu və onun sosial-fəlsəfi səbəbləri, kollektiv və tək fərd münasibətləri pyesdə yoxdur.

Göründüyü kimi, müəllifin qələmində, hətta, təklik də şairanələşir. Lakin, o, ayrı-ayrı təklərdən danışır, təkləşmə, tənhalaşma bir hadisə, bir proses, bir hərəkət kimi bədii, psixoloji və fəlsəfi təhlilin obyekti olmur: təklik – fərd və cəmiyyət arasında əlaqə və bağlarla şərtlənmir. Həsənzadə təkdir. O, bir zavoddan başqa zavoda keçəndə də tək olaraq qalır. Nəzakətin təkliyinin səbəbi ictimai köməksizlik, yaxud Nargilənin yoxluğu demək deyil, odur ki, əsərin sonunda Nargilə qayıdanda da o, yenə tək qalmaqda davam edir. Həmçinin, Nargilə üçün təklik yalnız «kollektivsizlik» demək deyil ki, onu kollektivə, zavoda gətirməklə həll olunsun. Bu təklik – «Həsənzadəsizlik» deməkdir. Yəni, yalnız sənə məxsus mənəvi işığa, insan qayğısına, ünsiyyətə və təbəssümə olan həsrətdir. Odur ki, məhz belə bir «həsrət» və «zavod» məfhumları o qədər də yaxın məfhumlar kimi səslənə bilmirlər. Şübhəsiz, Sarısaç qızın zavoda gəlməsində bir məna var: o, öz mühitini – təkliyinin mənbəyini dəyişir. Nargilənin, ələlxüsus isə Həsənzadənin ifadə etdiyi təkliyi doğuran dərin əxlaqi, mənəvi-psixoloji ziddiyyətləri həll etmək üçün isə, zavod finalı, şübhəsiz, özünü doğrultmur. Finalda zavoda gələn də təkdir, zavoddan gedən də. Şübhəsiz, fərdiyyət və təklik problemini – bizim qlobal texnogen sivilizasiya (stixiya) epoxasını bütünlüklə düşündürən bəşəri bir problemi Nar-

giləni yalnız zavoda tapşırmaqla həll olunmuş hesab etmək də pyesin bədii məntiqindən doğulan qənaət deyildir.

Nargilə mövzusu – əsl «İlyas Əfəndiyev mövzusu» – işığa və səadətə təşnəlik mövzusu idi. Lakin xoşbəxt olmaq, hər şeydən əvvəl, ləyaqətli və namuslu olmağı nəzərdə tutur. «Boy çiçəyi»ndən, vicdan və məslək bütövlüyündən kənar tam səadət yoxdur. Dramaturqun yeni pyesində – «Unuda bilmirəm» (1968) əsərində də məhz bu bəşəri düşüncələr davam etdirilirdi.

Konflikt daxili hisslərin ziddiyyət və toqquşmaları şəklində təzahür edirdi. Burada, hər şeydən əvvəl, Nərminlə Nərmin, Kamranla Kamranın özü qarşılaşırdı. Dramaturq mənəvi bütövlüyün gözəlliyini məhz daxilən baş verən əxlaqi çətinliklər və büdrəmələr üzərindəki qələbələrin gözəlliyi kimi əyaniləşdirirdi. Nərmin son səhnəni artıq sınaqlardan çıxmış, mənəvi cəhətdən kamala çatmış bir qəhrəman kimi tərk edirdi...

Nərmin daxilən təşəkkül prosesi keçirən, dəyişən, dinamik bir obrazdır. İlk səhnələrdə o, sərbəst düşünən, şıltaq, ərköyün bir professor qızıdır. «Nazik və kəsikburun çəkmə» Nərmini Kamranın «uzaq səfərlər üçün yaranmış» durnalar haqqındakı söhbətindən daha çox əyləndirir.

O, Kamranı kitablarda oxuduğu qəhrəmanlar kimi sevir, onu canlı, real gerçəklik, həyat kimi qəbul etməyə isə hələ hazır deyildir. Gözəl hisslərin şərəfinə, hələlik, yalnız qədəh qaldırmağı bacarır. And içdiyi sağlığı həyata keçirməyə isə onun gücü çatmır. Qız həyatın çətinlikləri ilə addımlayanda yox, rəqsin ritmləri altında fırlananda xoşbəxtdir, zövq duyur, «kosmosa uçur». İlk dəfə Kamrandan o, məhz rəqsin sərxoş ritmi və sədası altında, mahnının xumarı və dumanı, beynində, qulaqda ləngəri və toranı altında ayrılır, ayılıb baxanda isə, Kamran artıq yoxdur. Rəsmiyyətlərə meydan oxumaq, qızlığı, xanımlığı ilə risk etmək, sədaqətini sübut etmək üçün gecə Kamranla tək qalmaq Nərmin üçün öz məhəbbətini çətin mənəvi mübarizələrdə qorumaqdan daha asandır. Onun Kamrana təkrar-təkrar «mən səni, yalnız səni sevirəm, ancaq səni» – deməsi də sədaqət andından çox sevgisi üçün daxili bir qorxunun və şübhənin etirafı kimi səslənir. Qız özü hiss edir ki, Cəmilin onda oyatdığı daxili təlatümə və hisslərə qarşı mübarizədə o, zəif və kövrəkdir. Odur ki, o, Kamrana tez qovuşmaq, onunla birləşmək və «Cəmil» adlı bir təhlükədən bu yolla xilas olmaq istəyir. Cəmil hələ bütün silahları ilə hücuma keçməmiş, Kamranınkı olmaq, ehtiyat, qorxu qarşısında imtahanın, sınağın yüngülünü, asanını seçmək istəyir.





Cəmil Nərminə bütün daxili – ruhi aləmi ilə sonradan yadlaşdığı kimi, Kamran da ona, əsl mənada, sonradan doğmalaşır. Kamran sadəlövh, ərköyün, lakin özünə qarşı həmişə səmimi Nərminin əməli idealı ola bilmir.

Cəmil, Kamranın təmsil etdiyi əxlaqın əks qütbündə durur. Cəmil kosmosla, Kamran isə hüquq elmi ilə maraqlanır. Onun əxlaqi mövqeyi aydındır: insanın vətəndaşlıq vicdanını, əsrin əxlaqi ideallarını tapdayan elm müqəddəs tutula bilməz. Pyesdə əxlaqla və vicdanla hər cür saziş əleyhinə üsyanla dolu sözlərin konkret ünvanı vardır. Axı, hələ o vaxtdan bizim cəmiyyətdə, həyatda ənənəvi əxlaqın bir sıra ideallarını bu gün üçün gərəksiz və ağır bir yük kimi çiynindən atan və bunu bir fəlsəfə ilə «əsaslandıran» Cəmillər də yaranmışdı. Bu cür novator, «intellektual meşşanlıq» xüsusilə təhlükəlidir. Çünki burada abır da, intellekt də meşşanlığın gücünə çevrilir. Təsadüfi deyil ki, Cəmil zahirən heç yerdə gücsüz və silahsız görünmür. Lakin kamala, əxlaq təmizliyinə əsaslanmayan qəhrəmanlıq yoxdur. Sonda nə Nərmin, nə Mövsümzadə, nə də dramaturq Cəmili bağışlamır.

Final Nərminin qələbəsi ilə bitir. Kimin üzərində? Şübhəsiz, əvvəlki Nərminin üzərində! Odur ki, bu qələbədə özünə zəfər çalan bir qəlbin iztirabını, kədərini də hiss etmək çətin deyildir.

Hər şey üçün, ən çox isə, daxili ləyaqət, şəxsi davranış və mərifət üçün mənəvi cavabdehlik, əxlaqi məsuliyyət və borc hissi, bir vətəndaşlıq problemi kimi, «Məhv olmuş gündəliklər»də (1969) də davam etdirilir. İlyas Əfəndiyev dramaturgiyasının tanış, gəlişmiş estetik strukturu, psixoloji, lirik poetikası burada da vardır: uğursuz sevgi, səhvlər faciəsi, kədərli, lakin nikbin perspektivli final. Daxili psixoloji konflikt «gündəlik»də əksini tapan romantik xəyallarla həqiqi məişət arasında qurulur. «Gündəlik»lə həyatın, poeziya ilə canlı gerçəkliyin toqquşması hadisəsi baş verir. Sonda gündəliklər yanır, məhv olur, lakin bu «gündəliklər»in məhvi də tragik qəhrəmanların məhvinə bənzəyir: kağızlar, vərəqlər od tutur, sətirlərə həkk olunan arzular, poeziya isə yaşayır, qalib gəlir və daxili, mənəvi bir işıq kimi pyesin təbliğ etdiyi əxlaqi-estetik mövqeyi ifadə edir.

Məhv olan, yanan iki «gündəliyin» işığında görünən iki hadisədə, iki dramatik tarixçədə həm də psixoloji konfliktin əxlaqi məzmunu açılır. Həqiqət arzuları, günlər gündəlikləri təshih edir, «gündəlik» qəhrəmanları həyat qəhrəmanlarına çevrilirlər – konfliktin həllində reallaşan əsas dramatik hadisə, baş verən estetik vaqeə bundan ibarət idi. Xarakterlər, psixologiya, mənəviyyat və ehtiraslar da əsərdə bu vaqeənin gedişi prosesində şərhini tapırdı. Bu prosesdə «gündəliklər»i ya-

zanlar da, bu gündəlikləri məhv edənlər də əsl daxili aləmləri ilə görünə, təzahür edə bilirdilər. Əsas qəhrəmanlardan heç biri bu vaqeəyə hazır, formalaşmış qəhrəman kimi daxil olmurdu. İdeal əxlaqi münasibətlər öz-özlüyündə dramaturqu az məşğul edirdi. Onu ən çox düşündürən adi əxlaqi münasibətlərin kamala çatması, bədii-psixoloji bir hadisə kimi bu prosesin, çevrilmənin və kamala çatmanın özü, çətinliyi, mürəkkəbliyi idi. Təsadüfi deyildir ki, bu pyeslərin sonunda tamaşaçı həmişə səhvlərdən təmizlənən, daxilən yaşadığı mənəvi təkamüldə yeni bir ərəfənin sərhəddində dayanan, sabahlı, gələcəkli qəhrəmanların surətləri ilə rastlaşır. Adətən, belə əsərlərdə final dramatik sonluq kimi yox, yeni bir həyata proloq kimi, daxili bir böhranın həlli, tərəddüd və zəifliyin dəfi, parçalanmanın, «ikiləşmənin» aradan qalxması kimi mənalanır. Pyesin maraqlı surətlərindən biri olan Ancel gündəlik yazır. Lakin onun da tərcümeyi-halı həyatın öz əli ilə yazılan ibrətli bir gündəliyə bənzəyir. Həm də əsl tragik notlar məhz bu gündəliyin səhifələrində səslənir. Müəllifi hələ gənc ikən həyatın dibinə, çirkabına bulaşmağa məruz qalan bu qadının qəlbinin dərinliyində gizlənib qorunan işıq, dirilik, həyat gücü maraqlandırır. Həm də bu işığın, diriliyin və həyat nəfəsinin gücü Ədalətlərin cinayətlərə qarşı yönələn qəzəbin və nifrətin gücünə çevrilə bildiyi üçün, əsərdə əsas humanist və əxlaqi məndəricəni, ittiham və ifşa pafosunu özündə cəm edir. Mənəvi acizliyi, ikiüzlülüyü, idealsızlığa qarşı Fəridənin məktəb dostlarının mövqeyini Ancel, Fəridədən daha yüksək qiymətləndirir və pyesdə Ədalət – Qənimət konfliktinin həllində əsas rol oynayır.

Tamaşada müasir gəncliyin başqa bir qisminin surəti Savalanın və Qənimətin simasında verilmişdir. Əgər, qızlar həyatda şəxsi xoşbəxtlik üçün nə isə axtarır və «özləri üçün səadət» uğrunda mübarizədə səhvlər edirdilərsə, bu gənclərin «özüm üçün səadət» şüarı yoxdur. Vətəndən kənar, doğma xalqın mənafeyindən uzaq «səadət» və «gözəllik» anlayışını onlar tanımırlar. Saf əməyin, namuslu zəhmətin əxlaqını təmsil edən bu əsl həyat qəhrəmanlarını müəllif ədalətlər haqqındakı səhv, bəzəkli təsəvvürlərə qarşı qoyur və onları yanılan, sadəlövh yox, kamala çatmış, oyanmış qızların idealına çevirir.

İlyas Əfəndiyevin ilk komediya əsəri olan «Qəribə oğlan» (1973) isə, şən, işıqlı boyaların, nikbin rənglərin üstünlük təşkil etdiyi xalis lirik komediya idi. Dramaturq bu əsərdə də öz üslubuna sadiq qalmış, gəncliyin ehtiras və arzularından, xalqlar dostluğunun təntənəsindən bəhs edən müasir ruhlu məzhəkə yarada bilmişdir. Əsərin komik süjeti ilə aşkarlanan həqiqət odur ki, «qoca» və mühafizəkar meşşanlığın «müasirləşmək» iddiası yalnız zahiri dəbdə, modada öz əksini tapa bilir, mahiyyətcə isə o, heç zaman dəyişmir – ideya-əxlaqi bir keyfiyyət kimi, meşşanlıq hər yerdə və həmişə elə meşşanlıq olaraq qalır.





Meşşanlıq öz təzahürü üçün üfüq və meydan tapa bildikdə, müəyyən «mikro mühitdə» normaya çevrildikdə isə, əxlaqi ucalıq və mənəvi təmizlik «qəribəliyə» çevrilir! Bu zaman hələ dərk olunmamış meşşanlıq karyeristə öz karyerizmini, obıvatelə obıvatelliyini gizləməsi üçün pərdə kimi lazım olur, parçalanan, bir kənara tullanan meşşanlığın pərdəsi arxasında isə, hər şey olduğu kimi görünür: yalan və əyrilik, riya və ikiüzlülük. Məhz bu zaman «qəribəliklə» «həqiqət» bir-biri ilə yerlərini dəyişir, hərəsi öz həqiqi mövqeyində və məzmununda görünür. Səhnədə müəyyən bədii maraq doğura bilsə də, «komik tənə» bu üslubda sabit ənənəyə çevrilmir və İlyas Əfəndiyev məzhəkəyə bir daha qayıtmır.

İlyas Əfəndiyevin yaradıcılığını zamana münasibətdə bir xüsusiyyət həmişə qabarıq xarakterizə edir – müasirlik! O, müasir olmayan pyes, müasirliyə xidmət etməyən nəsr yazmamışdır. «Mahnı dağlarda qaldı» pyesi də tarixi mövzuda yazılsa da, bu ənənənin pozulması demək olmadı. İlyas Əfəndiyev həmin əsərində də öz üslubuna və qüvvətli müasirlik hissinə sədaqətini qoruyub saxladı.

Həmişə müasir, sabit, heç zaman köhnəlməyən milli-əxlaqi ideallarımızın tədqiqi bu pyesdə də davam edir. Lakin burada müəllifi artıq həmin ideallarin ideya-tarixi kökləri, zəmini, bu ideallar üçün mənəvi mübarizəmizin qurbanları, inqilabi qəhrəmanlıq mövzusundakı daxili, gizli məna, lirik və tragik notlar düşündürür. Özlüyündə epik hadisələr, açıq ictimai vuruş səhnələri yox, onun mənəvi aləmdə, mənəvi təzad və ziddiyyətlərin müstəvisində əksi düşündürür. Daha doğrusu, inqilabın, ictimai-siyasi döyüşlərin daxildə, ruhi mənəvi aləmdə də, fərdi talelərdə də davamı bu pyesin əsas mövzusuna çevrilir. Fərdi taleyə münasibət mövzusu pyesdə ictimai, kütləvi qəhrəmanlıq mövzusu ilə daha mürəkkəb, psixoloji cəhətdən daha mənalı bir şəkildə qaynayıb-qarışmış olur.

Tarixə münasibətin müasirliyi baxımından Nicat surəti də öz bədii sələflərindən fərqlənirdi. Əvvəlki tarixi-inqilabi tamaşalarda kütlənin, xalqın taleyi problemi bəzən fərdin daxili-mənəvi aləminə marağın nisbətən zəifləməsinə səbəb olurdu. Fərdi aləm ilə ictimai ideallar arasında mürəkkəb, dialektik daxili-mənəvi bağları təhlilə meyl müasir səhnə sənətində daha realist istiqaməti ifadə edən məziyyət kimi qiymətli idi.

«Mahnı dağlarda qaldı» əsəri İlyas Əfəndiyevin məhz müasir mövzulu pyeslərinin nailiyyətləri zəminində yazılmışdır. Böyükbəy

və Fəxrəndə surətləri yalnız xarakterlərinin mürəkkəbliyi, yeniliyi ilə yox, təmsil etdikləri ictimai dövr və təbəqə mənasında da Azərbaycan mülkədarlığının əvvəlki dram əsərlərindəki surətlərinin eyni deyildir. Böyükbəy amansız, qətiyyətli və qüvvətli bir xarakter idi. Bunun nəticəsidir ki, əsas müsbət qəhrəman kimi verilən Nicat inqilaba qarşı yalnız öz fitri stixiyası, kortəbii sinfi instinktləri ilə yox, öz məfkurəsi və intellekti ilə də mübarizə aparmağı bacaran daha qorxulu bir rəqib üzərində qələbə çalırdı. Bu isə, həmin qələbənin bədii-estetik mənasını və təsirini qat-qat artırırdı. Estetik idealın böyük qələbəsi üçün böyük ehtiraslı qəhrəmanlar və xarakterlər yaratmaq üsulu özünü doğruldurdu.

Şahnaz surətində öz sinfindən ayrılmağın əzabları, onun çətin sınaqları və faciəsi daxili-əxlaqi bir qanunauyğunluq kimi açılır və o, qüvvətli fərdi xarakterə çevrilə bilirdi.

«Mahnı dağlarda qaldı» pyesi tarixi mövzuda yazılsa da və yeni tarixi inqilabi keçmişimizi əks etdirsə də, əsərin mərkəzində konkret tarixi şəxsiyyət yox, bəlkə konkret – tarixi epoxa dururdu. Maraqlıdır ki, İlyas Əfəndiyev, əsasında tarixi şəxsiyyətin dayandığı ilk pyesinin qəhrəmanını da Azərbaycan qadınlarının sırasından seçir və qadın qəhrəmanlı ilk Azərbaycan tarixi dramını yaradır. Şairə və dövlət xadimi Natəvanda o, yüksək daxili aləmli, saflıq, xeyirxahlıq və fədakarlıq ehtirasları ilə aşıb-daşan müasir qadın qəhrəmanlarının milli-mənəvi sələfini, əxlaq və mənəviyyat mənşəyini, Sevil, Almaz, Səlimə, Nargilə, Şahnaz ənənələrinin qədimliyi və fasiləsizliyi ideyasını ifadə etməyi qarşıya məqsəd qoyur. Əsas tarixi və bioqrafik detallara sədaqət qorunub saxlansa da, dramaturq tarixi hadisələrin ifadə etdiyi sosial məntiqi, psixoloji qanunauyğunluqları bədii təxəyyülün imkanları ilə tamamlamaq və başa çatdırmaq yolu ilə gedir. Natəvanı həm doğma və füsunkar Şuşanın, həm də bütünlükdə məhkum, tragik taleli, parçalanmış Azərbaycanın taleyi, qayğısı eyni vaxtda və eyni dərəcədə narahat edir. Biz onu həm müdrik, vətənə və xalqa bağlı ictimai xadim, həm də həssas və zərif bir şairə, qadın və ana kimi tanıya və sevə bilirik. İran şahzadəsi Bəhmən Mirzəyə milli qürur və ləyaqət dərsini də, hərbi zabit, canişin yavəri Xasay Usmiyevə vətəndaşlıq və vətənpərvərlik dərslərini də şairə qadın Natəvan verir!.. Bununla belə, bu əsərdə də dramaturq bir yazıçı-tarixçidən çox, bir lirik-psixoloq olaraq qalır. Güclü müasirlik duyğusu bu pyesdə də İlyas Əfəndiyevi dövrünün ən aktual əxlaqi və sosial problemlərindən uzaqlaşmağa qoymur.

Əxlaq və mənəviyyət problemi İlyas Əfəndiyev yaradıcılığının





son dövrü üçün səciyyəvi olan digər bir pyesdə – «Bağlardan gələn səs»də yenə də qaldırılır.

Həmişə olduğu kimi, İlyas Əfəndiyevin bu pyesində də sadə, lakin işıqlı bir surət var. Şirin kişi... Şirin kişinin peşəsi dağdan dumanı qovmaqdır. O, vaxtsız çökən qara buludları üfüqdən dağıdır və bağların «buludsuz səması» keşiyində durur. Əslində «Bağlardan gələn səs» elə Şirin qocanın səsidir.

Bu buludlardan Vahidin – sovxoz direktorunun hələ xəbəri yoxdur. O, özünü namuslu bir ailə və idarə başçısı saydığı üçün hələ məmnun və xoşbəxtdir. İki yubileyi eyni vaxtda qeyd etməyə hazırlaşır: ailə həyatının və uğurlu əmək fəaliyyətinin ildönümünü. Lakin hadisələrin bütün sonrakı gedişi göstərir ki, Vahidin hər iki səadəti bir xəyal imiş.

Planı «cır şəftəlilərin», ailə həyatını isə, «cır məhəbbət»in hesabına təmin etmək olmaz – bütünlükdə ictimai-mənəvi həyatın özündə, real gerçəklikdə mövcud ab-havanı dəyişməyin düsturunu, əsl mətləbini ifadə edən bu fikir pyesdə də ideyâ-bədii leytmotivin əsasında durur.

Əxlaqi təmizlik fərdi məişətdə də, ictimai həyatda da eyni dərəcədə vacibdir. Yalnız bu ahəngə cavab verən şəxsiyyətin səadəti bir həqiqətdir. Pyesdə hər kəsin xoşbəxtliyi həmin meyarın sınağından keçərək təsdiq, yaxud da inkar olunur. Vicdan məsuliyyəti, əxlaqi ideallar üçün mənəvi cavabdehlik tamaha, mənfəətgirliyə, saxtakarlığa, meşşanlığa qarşı qoyulur.

Yalnız fərdi mənafedən ucada durmaq insanı yüksəldir. Əsərdə bu bədii niyyəti bilavasitə ifadə edən Kamandar və Fərəh surətləridir. Təsadüfi deyil ki, onların mövqeyi Şirin kişi ilə dərhal birləşir. Hər üçü bağların keşiyində dayanır və Hətəm – Qubuş psixologiyasına qarşı çıxır. Çünki Fərəhgil bilirlər ki, bu «qurumuş adamlar» da bağlardakı qurumuş ağaclar kimidir. Əvvəlcə Qubuşdan və Hətəmdən başlamaq, cəmiyyəti, ilk növbədə, bunlardan «alaq etmək» lazımdır. Məhz bunlar ətrafın saf havasını pozur, bağların müqəddəsliyinə xəyanət edir.

Cəmiyyətin «cırlaşmış, xəstə meyvələri» sırasına Gülcan da daxildir. Əlbəttə, Qubuş, Hətəm və Gülcan bir-birindən fərqli, fərdi surətlərdir. Bir ehtiras kimi, tamahkarlığın və nəfsin psixoloji şərhi üçün üç müxtəlif açarı müəllif bu üç surətin timsalında axtarır.

Vahid, bu müxtəlif xəttlərin süjetdə birləşib kəsişdiyi obrazdır. Lakin yeknəsəqlik, adilik və meşşanlıq əleyhinə həyəcanı, ən fəal, mübariz mövqeyi əsərdə o, ifadə etmir. Şirinin, Kamandarın, Fərəhin təmsil etdiyi cəbhəni meşşanlıq ilə ziddiyyətin əsas qütbü kimi ön plana çəkməklə müəllif haqlı hərəkət etmişdir. Vahidlə Gülcanın ailə

dramı isə, həqiqətlə saxtakarlıq arasındakı bu ümumi əxlaqi konfliktin konkret, fərdi təzahürlərindən biridir.

Gülcan dramaturqun Səriyyə, Güləbətin tipli qəhrəmanlarından prinsipcə fərqlənir, o, xislətcə, mahiyyətcə, xaraktercə mənfi qadının obrazıdır.

«Xəyanət» sözü onun Vahidə və Kamandara münasibətinin məzmununu tam və axıra qədər ifadə edə bilmir. Nə ərinə, nə də sənətinə ürəkdən bağlanmadan yaşamaqla əslində o, özünə də, ailəsinə də çoxdan xəyanət etmişdir. Kamandarın gəlişi ilə bu «xəyanət» yalnız dərk olunur və üzə çıxır. Yəni, Kamandara münasibətinin işığında onun Vahidə münasibətinin saxtalığı görünür, vəssalam. Vahidin itirdiyi saxta ailə səadəti, qazandığı, dərk etdiyi isə acı, lakin real, doğruçu bir ömür və tale barədə həqiqət olur...

Şəxsi və ictimai səadətin qaynayıb-qovuşmadığı məhəbbət yarımçıqdır. Məhz bu əxlaqi və estetik həqiqətlərin nəticəsidir ki, Vahid nə ailədə, nə də ictimai həyatda öz səadətini tapa bilmir. Nargilə, Həsənzadənin gənc və gözəl oğlunu yox (çünki qurban tələb edən, təmənnasız, fədakar məhəbbətə bu gəncin ehtiyacı yoxdur), onun özünü sevir; Fəridə Ədalətlə, Nərmin isə, Cəmillə xoşbəxt ola bilmir. Namusla qazanılmayan maddi rifah xoşbəxtliyi gətirib çıxaran müqəddəs yol deyil, əksinə, mənəvi miskinliyə aparır.

Məhz namusla yaşamaq əxlaqı bu pyeslərdə mənəvi qəhrəmanlıq təlimi kimi şərh olunur. Məhəbbət və əxlaqi-məişət mövzusu vahid bir vətəndaşlıq mövzusu səviyyəsində mənalı görünə bilir. Daxili tamlıq və bütövlük axtarışlarında qət etdikləri yol bu qəhrəmanları öz həqiqi mahiyyət və «mən»lərinə gətirib çıxarır. Əxlaqi konfliktin həlli prosesində ən böyük «xoşbəxtlik» və ən qiymətli nemət kimi bu qəhrəmanlar məhz özlərini, öz ləyaqətlərini və şəxsiyyətlərini dərk edirlər!..

* * *

İlyas Əfəndiyevin gəncləri axtardıqları işığı kənarda tapmırlar: kənarda yanan işıq onlara öz daxillərində gizlənən gözəlliyi görmək, tanımaq üçün lazım olur. Ürəyin daxili, gizli qatları aşkara çıxanda isə, həmin pyeslər artıq tamamlanmış olurlar. Həsənzadə məhz belə bir mənəvi vəzifəni yerinə yetirdikdən sonra Nargiləni tərk edir. Müəllif özü də həmişə və hər dəfə məhz belə bir mənəvi vəzifənin icrasından sonra (yalnız bu zaman) öz qəhrəmanlarını tərk edir!

Təsadüfi deyil ki, bu pyeslərin əksəriyyəti mənəvi intibah aktı ilə tamamlanır. Hər şeyi əxlaqi amil, şəxsi mənəvi məsuliyyət, «mən»in daxili iradəsinə inam həll edir. İnzibati tədbir, məhkəmə və iclas





protokolu, ürəyin, hissin həqiqəti səviyyəsinə qalxmayan şüar, kağız, anket həqiqəti bu pyeslər üçün qeyri-səciyyəvidir. Bu pyesləri çox cəhətdən tənqid etmək olar. Təkcə bir cəhətdən başqa – səmimilikdən!..

İlyas Əfəndiyev dramaturgiyasının bütün əsas motiv və ünsürlərinin iştirak etdiyi, dramaturqun bütövlükdə səhnə təcrübəsinin aşkar hiss edildiyi növbəti pyesi – «Büllur saray»da əsəri – həm dramaturgiya, həm də teatr həyatımızda maraqlı hadisə oldu. Dramaturqun məhz müasirlik marşrutu ilə irəliyə doğru fasiləsiz, ardıcıl hərəkəti növbəti bədii ünvana çatdı, həyata, ictimai məişətə vaxtında, cəsarətlə nüfuz etmək ənənəsi bir daha öz təsdiqini tapdı, hamını narahat edən əxlaqi problem ətrafında səhnənin dramaturqla ünsiyyət, ülfət, həmdərdlik axtarışları yenə də uğurla başa çatdı.

Budur, sarayın ağ, büllur tağları altında qara bir xəyanətin kabusu sürünür. Dramatik süjet büllur saraydakı bu qorxulu sakinin – xəyanətin üzə çıxmasının tarixi ilə başlayır. O, yaxına və uzağa, saf, namuslu adamların tənəffüs etdiyi təmiz havaya haram və tamah zəhəri dağıdır. Səhnədə vicdan əleyhinə qəsd baş verir və tamaşa bu mənəvi sui-qəsdin ictimai məişətdə, ailədə, məhəbbətdə doğurduğu şüur və əxlaq dramını təsvir edir.

Lakin finalda biz bir yox, iki sarayın süqutuna şahid oluruq: Qədimlə Ağahüseynin rüşvətdən və haramdan tikdiyi saray öz kölgəsini Həbiblə Aynurun həqiqətən büllur sarayı üzərinə salır və pyesdəki «uçulan saraylar» mövzusuna faciə notları aşılamış olur. Üçüncü saray – Qönçə ananın sarayıdır. İşıqla və saflıqla dolu olan, əbədiyyət və sabitlik ifadə edən müqəddəs ana mənzilidir.

Büllur tifaqın dağılması tarixini bütün sakinlər bir müsbət, təkcə Aynur isə kədərli, faciəli bir qələbə kimi yaşayır. Bütün tamaşa boyu Aynurun və sarayın taleyi kəsişir və qovuşur. Cəmiyyətdə baş verən və cəmiyyətin idealları əleyhinə çevrilən xəyanətə ən böyük etirazı ədib yenə də məhv olan, nəcib, işıqlı bir sevgini tərənnüm etmək yolu ilə bildirir.

Əsərdə baş qəhrəman memar kimi verilsə də, süjet inşaat problemi ilə bağlı olsa da, artıq gördüyümüz kimi, burada tikinti meydanı – insanın mənəvi aləmidir, mətləb və mövzu – ömürdə, taledə tikilən və uçulan binalardır. İlyas Əfəndiyev həmişə rəhbər tutduğu bədii üsluba və əqidəyə sadiq qalır, eyni əxlaqi problemi yenidən vaxtında, cəsarətlə qaldırır və tamaşaçını teatrla aktual dialoqa dəvət edir. Cəmiyyətdə və şəxsiyyətdə müasir mənəvi və əxlaqi sərvətlər, həqiqi və ya-



01/01-28

lançı səadət axtarışı, insanı ucaldan və alçaldan əqidə və ehtiraslar bu dialoqun əsas predmeti kimi dəyişməz qalır.

«Büllur saray»da yetişən mənəvi irtica ictimai əxlaqa, adamlar arasında vicdani – insani cavabdehlik və borc duyğusuna qarşı çevrilir. Bu havada nəfəs alanlar xoşbəxt ola bilmirlər. Onlardan hərəsinin öz xəyanəti və ona münasib bir müsibəti vardır. Ağahüseyn və Qədim, Sədaqət, Fariz və Cəvahir – hərəsi bir cürə bədbəxtdirlər. Onların hər şeyi, hətta, meşşanlığı da saxtadır, yırtıcılığın, oğruluğun, caniliyin büründüyü bir maska, əliəyrilik, xəyanət, tüfeylilik və riya vasitəsilə qazanılan bir «rütbədir». Qeyd etmək lazımdır ki, teatr, aktyorlar pyesin sosial məzmununu daha da qabardır, sərt realist üslubda təqdim etmək yolu ilə gedirlər.

Səhnədə adi, ailəvi bir meşşanlıq yox, hər hansı mənəvi sərvətə qarşı çevrilən xəyanət aktı baş verir. Və tamaşa bu xəyanət əleyhinə bədii-əxlaqi üsyan, ehtiraslı ittiham aktı kimi davam edir. Onun zirvə məqamında Aynur (A. Pənahova) və onun məhəbbət dramı dayanır. Rejissor (Ağakişi Kazımov) Aynurun səhvini və iztirabını, onun büllur qəfəsdən xilas olmağa təşnəliyini əsas leytmotiv kimi seçir və A. Pənahova öz rolunu həm daxilən, həm də zahirən sərt, təzadlı, ekspressiv üslubda, maksimalist psixoloji açarda rəsm edir. Bu ifada Nargilədən Aynura qədərki bütün rolların səhnə təcrübəsi və sənətkarlığı hiss olunur. İlk səhnələrdə o, şən, qayğısız və firavan bir yeniyetmədir. Bütünlükdə həyatı da özü kimi cins şalvarda və tül koftada görür: şəxsi maşını və üç dublyonkası var. Vətənə, xalqa, işə məhəbbəti, namuslu olmağı «köhnə psixologiya» adlandırır. Bir dəfə, hətta, məclisdə «İran şahzadəsi» ilə onu qarışıq salırlar: Aynuru yuxudan ayıldan itirdiyi məhəbbət olur. Ayılanda isə, görür ki, büllur sarayın divarları büllurdan yox, dəmirdəndir. Onu və bacısını həyatdan, dünyadan və cəmiyyətdən ayıran bu dəmir hasarlar olub. Qəfəsdən çıxmaq, ilk sevginin saflığına qayıtmaq üçün Aynur büllur külafirəngidə əsir quş kimi çırpınır. Lakin o, Həbibi axtararkən, Bayandura (Yaşar Nuriyev) rast gəlir. Bu qohum gənci atası ilə, büllur sarayla birləşdirən yox, ayıran cəhətlər Aynurda ona maraq doğurur. Maraqlıdır ki, Ağahüseynin qohumunda o, əslində Ağahüseynlə yox, Həbiblə doğma olan bir varlığı tanıyır və sevir. Məhz Həbiblə, Bayandurla və onun dostu ilə ünsiyyət məqamlarında Aynur, ilk dəfə olaraq, özü ilə öz doğma kəndi, ölkəsi, Bakısı və Təbrizi arasında təbii, fitri, doğma məhrəmliyin şirinliyini və istisini bu qədər yaxından hiss eləyir; dünyanın «büllur saray»dan daha geniş və işıqlı olduğunu ona inandıran Həbibdən sonra Bayandur olur. Məhz bundan sonra o, öz qəzəbini





və qisasını yaşadığı mənəvi mühitin qanun və həqiqətlərinə qarşı çevirir. Büllur saraya ittiham pafosu əsərdə hamıdan kəskin onun dilində səslənir. Öz ittiham və atmacalarında o, ardıcıldır, səhnədən-səhnəyə sərtləşir və dəyişir. Aktyor bu kəskin, «kosmik» keçidlər üçün təbii, məntiqi rənglər, emosional boyalar tapır. Aynurda daxili işığın sönmədiyinə, bu qızın təkcə analığı Cəvahirin yox, həm də bütünlükdə «büllur saray»ın ögey qızı olduğuna bizi inandıra bilir. Obrazın çılğın zahiri, amansız üst qatı özünü ona görə doğruldur ki, daxildə ürək kövrəkliyi və təmizlik gizlənir.

Əxlaqi zirvə, maksimalizm bu ifa və təfsirdə sona qədər qorunub-saxlanır. Finalda son isterik gülüş bunun ifadəsidir; həmin gülüş bütün olub-keçənlərdən sonra Həbibin yenidən qayıtması ehtimalına kinayəni, heyrəti ifadə edir və ucadan bildirir ki, köhnə Aynuru, hətta, Həbib belə bağışlasa, Aynur özü bağışlamır...

Əsas ittihamçı Aynur olsa da, əsərdə daxili əxlaqi konflikt Həbiblə Qədim arasında gedir. Onların Aynura münasibətində mənəvi vəzifəyə, ictimai borca və cəmiyyətə iki münasibətin sınaq və məhək daşı çarpazlaşır. Ülvilik və eybəcərlik tamaşada bu iki əks qütbdə mərkəzləşir. Gözəlliyə məftunluq, sevgi romantikası və məcnunluq birincidə həqiqət, ikincidə aşkar bir riya və parodiya təsiri buraxır və onlardan hər biri digərinin kölgəsində daha qabarıq görünür.

Həbib tamaşada az görünür, çox yadda qalır. Təkcə Aynurun sevgisi yox, bütünlükdə pyesin estetik idealı bu obraza möhkəm bağlıdır. Həqiqi büllur saray – Həbibin mənəvi məhəbbətidir. Onun geniş dünyasına hər şey – Aynura olan sevgi, Qönçəyə oğulluq məhəbbəti, xalqa, vətənə, ictimai borca təmənnasız, namuslu münasibət – hamısı sığışır. Tamaşanı başlayan və qurtaran eyni mətn iki dəfə – proloqda və epiloqda təkrar edilir. Fəqət yalnız mətn, yalnız kəlmələr təkrar edilir. İntonasiya isə təkrar deyil. Əksinə, proloqun epiloqdan fərqini biz məhz bu mənada – avazın və çaların ifadə tərzində hiss edirik: eyni kəlmələr eyni mətndə əvvəl səadət, sonra isə, faciə etirafı kimi səslənə bilir...

Bayandur obrazında müəllif fikrini daha da cilalayır, iti şux ovqata, satiraya ritorika və zahiri hay-küy hasabına yox, psixolizmin, səmimilik və təbiiliyin, daxili imkanların hesabına nail olur. Bayandur surəti bu kədərli, sərt tamaşanın nikbin və işıqlı səslənməsinə ən çox kömək edən surətlərdəndir. Belə ki, əsərə məhz onun gətirdiyi kinayənin, gülüşün işığında büllur saraylar, büllur oğlanlar və qızlar xüsusilə sönük və miskin görünür.

Mühitin həqiqətlərinə Lalənin etirazı Aynurdan fərqlənir. O,

sevmədiyi, pozğun və əyyaş Farizə ərə verilib. Ona xəyanət edir və bu xəyanətdə özünü haqlı hesab edir. Lakin Farizə xəyanət hələ «büllur saraya» üsyanın forması və ifadəsi demək deyil. Əksinə, bu saraya məxsus rəftar və vərdişlərin təsdiqidir. Yetişdiyi mühitin «ögey qızı» səviyyəsinə yüksəlməyin çətinliyi bu obrazın rəsmində çox təbii və səmimi görünür.

Pyesdə büllur sarayın həqiqətən «büllur» bir parçasına, əşyasına və əlavəsinə bənzəyən Cəvahirə əks qütbü Qönçə ana təşkil edir.

Aynurla son dialoqda o, təkcə Həbibin anası rolunda çıxış etmir. Səhnədə baş verən və neçə-neçə gəncin taleyində əks olunun xəyanət aktına mənəvi cavabdehliyi o, öz şəxsi səlahiyyəti və məsuliyyət borcu hesab edir. Aynura münasibətində o, həmişə daxilən mütəəssir və həyəcanlıdır. Aydın hiss edirsən ki, zahiri analıq təmkini arxasında daşınan iztirabın yükü Aynurun yaşadığı məhəbbət və xəyanət dramından heç də az olmayıb. Və tamamilə qanunauyğundur ki, rüşvət və sərvət ehtirasının məhv etdiyi sevgilər üçün ata və analara – salona xitabla söylənən mənəvi ittiham, ibrətli həqiqət məhz onun dilindən eşidilir: «Brilyantın, qızılın əsiri olan insanlar xoşbəxt ola bilməzlər. Özləri ağırlıqda brilyant sahibi olsalar belə, yenə də xoşbəxt ola bilməzlər».

Bəs, əsərdə əsas dramatik hadisəni – cəmiyyətə və xalqa, əxlaqa və gözəlliyə xəyanəti kim icra edir? Zahirən möhtərəm və mədəni görünənlər, planı vaxtında ödəyən, hətta, hər il təşəkkür alanlar, arxada isə, xalqın sərvətinə divan tutanlar. Nağıllardakı büllur qalalarda divlər, müasir büllur saraylarda isə Qədimlər, Ağahüseynlər yaşayırlar. Onlardan birincisi böyük bir idarə rəisidir. Onun yalnız adı Qədimdir, özü isə tamamilə yeni və müasir bir tüfeyli tipidir. Daha doğrusu, tüfeyli milyonerdir.

Qədim puluna, vəzifəsinə və «adamı»na o qədər əmindir ki, daxilinin xəstə, rəzil mahiyyəti ona əzab vermir. Hətta, bu mahiyyətin bəzən açıq, maskasız görünməsindən də qorxmur. Yırtıcı, həyasız və harın Qədimin «yeddi sifəti»ndən yeddisini də birbaşa göstərməyə onun məntiqi və «haqqı» da var: «Sən elə bilirsən mənim kimi hörmətli vəzifə sahibini ləkələmək asandır?» Laqeydliyin və mənəvi passivliyin mühitində qədimlər özlərini «fövqəlinsan», torlarına düşən Farizləri, Sədaqətləri isə, «həşərat» hesab edirlər. Əsərin tamaşasında maraqlı bir detal var: aktyor qəflətən əyilir, barmağını ayaqları altına yıxılan obrazın alnında bir nöqtəyə dayayır: «Ağcaqanad!» Bu detal və söz həmin surətin bir anda adi həşərata, heçliyə, ölülüyə məhkumluğunun etirafı və hökmü kimi yaxşı tapılmışdır.





Maraqlıdır ki, tamaşada biz iki dəfə bu «fövqəlinsanı» – Qədimi Aynurun ayaqları altında dizin-dizin sürünən görürük. Birincidə o, Aynurdan məhəbbətin, ikincidə – məhkəmənin amanını istəyir (müstəntiq Aynurla bir oxuyub). Qədim birinci səcdəyə – eşqdən divanə olduğuna bizi inandıra bilmir: tüfeylikliklə məcnunluq arasında müştərək nə ola bilər? Onun gözəlliyə yox, vəzifəyə sitayişi səmimi və həyatidir. O, Aynur aşiqi yox, mənsəb aşiqi ikən təbii və realdır.

Qədimdən fərqli olaraq, Ağahüseyn bütün tüfeyli təbiət ilə yanaşı, öz atalıq məhəbbətinin səmimiliyinə bizi inandıra bilir. O, hər şeyi «ailə üçün» edir. Lakin atanın rüşvətdən, haramdan yaratdığı cənnət qızlardan heç birinin səadəti üçün təmələ çevrilə bilmir. Onun vəzifə və sərvət günahının cəzası yalnız xalqın – qanunun hökmü yox, həm də iki saf, iki günahsız qızın taleyi və faciəsi olur.

Dramaturq Ağahüseynin – bu işbaz və harambaz tüfeylinin rəsmi üçün sakit, təmkinli və plastik boyalar seçir. Axı «Ağahüseynlik» – gizli, daxili xəstəlikdir, onu qışqıra-qışqıra, hündürdən bəyan etmək olmaz.

Bütünlükdə pyes təkcə Ağahüseyni yox, «Ağahüseynliyə» laqeydliyi məhv etməyə çağırır. «Ağahüseynliyə» laqeydlik Ağahüseynin yırtıcı ehtiraslarından daha qorxuludur. Çünki həmin ehtiraslar məhz həmin laqeydliyin olduğu yerdə baş verə bilir.

Pyes öz pafosu ilə bu laqeydliyə qarşı çevrilə bilir. Tamaşa zamanı həmişə səhnənin önündə qoyulan, bütün tamaşanı müşayiət edən və sanki əli ilə qulağını qapayaraq «görmürəm, eşitmirəm və demirəm» deyən üç meymun – kürsünün silueti əsərdəki bu ideyanın ifadəsi kimi düşünülmüşdür.

Mətbuatda əsərlə və əsərin tamaşası ilə bağlı arzu və qeydlər də maraqlı idi. Ədəbi tənqid qeyd edirdi ki, bütünlükdə müəllif konsepsiyası rejissor təfsiri və aktyor ifası kimi, bədii tərtibatın da əsas prinsipi – reallıq və həyatilikdir. Lakin mənəvi eybəcərliyin təşrihi üçün dramaturq İlyas Əfəndiyevin əlində tutduğu cərrah bıçağı eyni itilikdə rəssamın da (T. Tahirov) fırçasına çevrilə bilmirdi.

Pyesdə məkan geniş və işıqla doludur. O, yalnız büllur saraydan və büllur külafirəngidən ibarət deyil. Rəssam mətndəki büllur sarayın məcazi, mənəvi, ironik mənasını yox, hərfi mənasını predmetləşdirmişdir. Bu sarayla mühit, dəniz, təbiət arasında ziddiyyət tərtibatda öz əksini tapa bilmirdi. Dəyişməz, daimi, sabit külafirəngi əvvəldən sona qədər bütün hadisələrin fonunu təşkil edirdi. Nəinki səhnənin genişliyini tutur, həm də statik, durğun bir vəziyyət, hərəkətsizlik duyğusu aşılayırdı. Bəstəkar (Oqtay Kazımov) tamaşanın musiqi obrazını da-

xilən duymuşdu. Bədii leytmotivi, əsasən, doğru, dramaturqun öz dəstxəttinə münasib açarda və üslubda seçə bilmişdi.

Bütünlükdə teatr öz məqsədinə nail olmuş, səhnə ilə müasirimiz, dramaturq ilə tamaşa zalı arasında birbaşa dialoq baş tutmuşdur...

* * *

«Büllur sarayda»n eşidilən bədii harayın, ittihamın işığında görünən mənəvi laqeydlik, əxlaqi haram və əyriliklə dil tapmaq, barışmaq ovqatının təhlili», «Sevgililərin cəhənnəmdə vüsalı» daha geniş sosial müstəvidə, lakin eyni lirik üslubda davam etdirir. 1937-ci ildə qəsdə, təqibə, terrora məruz qalan mənəvi sərvət bir də elə lirika özü idi: həyatın ağrılı, göynəkli bir lirik təhlilə ehtiyacı daha çox ikən (məhz onda!) əsl, böyük lirika bir mövzu kimi səhnədən qovulmuşdu. Yalnız səhnədənmi? Bizim yerimizə həmişə «başqası» (ata və rəhbər!) düşündüyü üçün mexaniki bir vərdişlə çoxumuza elə gəlmişdi ki, vicdan əzabını, ürək ağrısını da bizim əvəzimizə başqası çəkə bilər. Hətta, fərdi ayıblıq hissi, şəxsi xəcalət duyğusu itkiyə məruz qalmışdı!.. Xüsusi mülkiyyətlə birlikdə «xüsusi cavabdehliyi» və «xüsusi məsuliyyəti» də itirmişdik. Hətta, o dərəcədə ki, çox uzun müddət xalis milli mənafe üçün narahatlığı və nigaranlığı da başqasının inhisarı hesab etmişdik. Milli düşüncə, vicdan və əxlaqla bağlı dəyərlər əməl və işimizdə heç də həmişə tam, bütün dolğunluğu, vəzni və siqləti ilə iştirak etməmişdi. Pyesin bədii toxumasında ən həssas psixoloji, lirik qat, mətləb də məhz bu məqamla bağlıdır: 1937-də ölkənin, xalqın məruz qaldığı ən böyük itki də ölən yazıçı, kəndli, fəhlə, qulluqçu deyildi, ölənə münasibətdə qalanın nümayiş etdirdiyi mərifət və əxlaq idi – nəinki tutulandan hamı imtina edirdi, hətta, onun nəvəsindən, nəticəsindən üz döndərirdilər. Cabbarın əxlaqi güzəşti, qorxu və zor qarşısında mənəvi təslimçiliyi Ayna Turanın intiharından qat-qat qorxulu, total, kütləvi faciə idi! Məhz insanın və xalqın mənəvi sərvətinə ən qorxulu zərbə və zədə idi. Təsadüfi deyil ki, pyesdə yaddaşa atılan güllə Ayna Turandan, Afşar Hüseyndən əvvəl milli dilə və əlifbaya dəyir. Və müəllif də insanı manqurta çevirən inzibati-sosial sistemdə əxlaqi məqamı bədii diqqətin əsas hədəfinə çevirir. Mircəfər Bağırov, Səlim Babayev, Mayis – hamısı eyni bir zəhmli qurğuda, vahid, total dövlət maşınında təkərcik və vintciklərdir. Hərəkətə gələn diktatura əyləcsiz, sükansız işləyir və qarşısına çıxan hər şeyi tərəddüdsüz udur. Təsadüfi deyil ki, «vintciklər» təkcə «köhnə» dünyanı yox, həm də yan-yörəsini, bir-birini, özlərini ağına-bozuna baxmadan məhv edirlər. Özü də hadisələr rəhbərin lap yuxarıdan, hamının başı üstdən asılan və





vintciklərə gülən portreti fonunda baş verir, hər şey sanki məhz bu təbəssümün soyuq işığında görünür. Madonnanın məşhur təbəssümünü deyil, İblisin qəhqəhəsini xatırladan bu təbəssüm hər dəfə, hər növbəti qətldən və cinayətdən sonra səhnədə yenidən «işıqlanır» və bütün süjet məhz həmin təbəssümdə gizlənən mübhəm, qorxulu, müdhiş mənanın bədii şərhi, açımı kimi davam edir. Dramatik konfliktdə tiranla – repressiya ilə qurban arasında əlaqələr və bunun tarixi və əxlaqi dərsləri əsas vurğu kimi fərqləndirilir. Müəllif sanki cəlladı vaxtında saxlaya bilmədiyi üçün hamını günahkar sayır, gecikən bədii «başsağlığını» da yaddaşa – bugünkü gənc, istedadlı nəslə verir və qürurla bildirir ki, şəxsiyyət və istedad adlanan qüvvətə, hətta, ən despotik dövran və tiran da qalib gələ bilmir. Elə şəxsiyyətlə qeyri-şəxsiyyət arasında təzad və fərq də məhz zamanla bu üzbəüzdə və əlbəyaxada meydana çıxır!

Zorakılıq və milli-tarixi yaddaş mövzusunun səhnəmizə bu miqyasda və kəskinlikdə məhz İlyas Əfəndiyevin adı və əsəri ilə daxil olmasında tamamilə təbii bir məntiq, qanunauyğunluq var. Artıq altıncı on ildir ki, o, bədii tərəqqi adlanan marafonda fasiləsiz və tənəffüssüz iştirak edir və öz sənət yürüşünü bu marafona qoşulan hər yeni nəsillə birlikdə, yenidən, yanaşı davam etdirir. Sosial-mənəvi inkişafımızda hər yeni mərhələnin əxlaqi-fəlsəfi problemi və bədii-estetik sualı birinci dəfə deyil ki, məhz bu yaradıcılıqda öz ilk və qabarıq ifadələrindən birini tapır. Bu gün həmin mərhələlərin hamısı bir daha zamanın – bədii yaddaşın imtahanı qarşısında qalır. Bu yaradıcılığın ifadə və təmsil etdiyi mənəvi sərvət və bədii dəyər yeni, suveren, müstəqil təfəkkürün, milli-estetik, inqilabi-etik meyarın sınağından necə çıxır? Axı, bizim qocaman dramaturq və ədib özü də ilk əsərlərini hələ vulqar kultun, daha sonrakıları isə, durğunluğun at oynatdığı bir səltənətdə qələmə almışdır. Tiranla sənətkar, istedadla dövran və mühit arasında münasibətlər onun öz şəxsi timsalında necə olmuşdur. Tiranlığa haqqın cəzasını səhnədən verməyə, Hüseyn Cavid və Abbas Mirzə kimi müqəddəs əzabkeşlərə yaddaşın borcunu öz əli və qələmi ilə qaytarmağa onun mənəvi haqqı varmı?

Axı, indi elə bir dövrdür ki, zamanın bünövrəsi altında Yer çox tez-tez gah orda, gah da burda yenidən titrəyib məhvərdən çıxır və hər dəfə də yeni-yeni əxlaqi-ideoloji «sərvətlər», sosial-siyasi postulatlar uçulan, aşan sütunların altında qalır. «Sosialist realizmi» deyilən bədii fenomenin yetmiş illik çox zəngin, mürəkkəb, təzadlı təcrübəsi tamamilə yeni tarixi dövrün və meyarın sınağına məruz qalır. Məlum olur ki, çox dəqiq layihə ilə ucalan, miqyaslı və möhtəşəm bina, sən demə,

tam halda o qədər də möhkəm deyilmiş, çox yerdən çatlayıb-uçulubmuş və indi neçə-neçə yazıçını, şairi, ədəbi nəsli bu uçuqlarda məhv olmaq, söküklərdə itib-batmaq qorxusu gözləyir. Nüfuzdan düşən, dəyişən meyarlarla bərabər, neçə-neçə heykəllər, abidələr də pyedestallardan düşür.

Suveren təfəkkürün məfkurə və sənət sınağına yalnız o əsərlər hazır olur, duruş gətirir ki, əbədi-mənəvi yaddaşa xəyanət o əsərlərə yol tapmayıb və onlarda iz salmayıb. Axı, çox tez-tez yaddaşdan sildiyimiz, həyatda və sənətdə yadırğadığımız meyarlar və prinsiplər, adətən, ən çox əxlaqa və vicdana münasibətilə bağlı olub. Əlbəttə, nəsrimizin və səhnəmizin ən yaxşı nümunələrinin həm kulta, həm də durğunluğa münasibətdə mənəvi vicdanı həmişə saf, ləkəsiz olub. Lakin bunun əksinə dəlalət edən hallar heç də onlardan az olmayıb. Ədibi təqvimdə tərənnüm mövsümü çox əsərdə bədii ovqata və ab-havaya çevrilir. Lakin söhbət mövsümün iqliminə zidd ab-havadan gedir. Məhz bu mənada İlyas Əfəndiyev sənətdə həmişə əbədi, həmişə sabit mənəvi və insani dəyərlərə, lirikaya və qəlb aləminə inadkar həssaslığı ilə seçilib, yaddaşa da, əxlaqa da, onların ən çox yaddan çıxdığı, kiliddə və yasaqda saxlandığı, ən səmimi – insani təbiiliyi, təravəti də qrafoman üslubun və məmur sxolastikasının əvəz etdiyi illərdə də sədaqət göstərib. Bütünlükdə, bu yaradıcılıqda məhz lirik psixolizmdən qiymətli sərvət, sevgidən və ürəkdən böyük mənəvi dəyər yoxdur. Özü də lirikaya, gözəlliyə o təkcə ideyada yox, həm də formada, üslubda, poetik mətndə və bədii dildə nail olub. Ümumiyyətlə, bütövlükdə bu yaradıcılığı sənətin əxlaqa xidmətinə nümunə hesab etmək olar. Xüsusən, onun altmışıncı illərdə yazdığı əsərlər həm bədii üslubda, həm də həyatda, psixologiyada və məişətdə hakim, dəb stereotipə müxalifəti ifadə edən pyeslər və povestlər idi. Məhz saf bir hissiyyat, bol, büllur bir romantika ona səbəb olub ki, ən çox yayılmış müasir xəstəlik – «ürək çatışmazlığı» bu bədii ədaya və üsluba heç zaman doğma olmayıb, mənəvi və əxlaqi dəyərlər bu yaradıcılıqda həmişə fasiləsiz iştirak edib: hətta, vulqar kult və amansız repressiya dövründə də ürək İlyas Əfəndiyevin nəsrində və teatrında heç zaman işsiz və bekar qalmayıb. Bu gün məhz bu məziyyət xüsusi dəyər və qiymət kəsb edir və məhz həqiqəti bütöv və axıra qədər demək məqsədinə xidmət göstərir.

Əgər, siyasi suverenlik həm də milli-ədəbi bir intibahdırsa, o, üç ünvana «qayıtmaq» əlaməti altında keçir: tarixə, təbiətə, milli təkrarsızlığa! Məhz ən qədim muğamda və folklorda yaşayan milli əxlaq, xalqımızın qəhrəmanlaq və sənət keçmişi: qalalarda, abidələrdə əbədiləşən hünər və qədimlik belə bir intibah üçün «antik təməl» rolunu öz öhdəsinə götürür. Və belə təməli biz bu və ya digər dərəcədə İlyas Əfəndiyevin nəsrinin və dramaturgiyasının bünövrəsində həmişə görürük...





* * *

Dramatizm və dialoq İlyas Əfəndiyevin nəsrində də əsas estetik çaları, xüsusən ona xas təkrarsız dildə, üslubda, ədada sabitliyi, qanunauyğunluğu ifadə edir. Təsadüfi deyil ki, tərcümeyi-halının son on ilində, ömrünün müdriklik və yaradıcılığının kamillik çağında da o daha çox dram janrına müraciət etmişdir. Yazıçı özü bunu yalnız fərdi üslubun yox, həm də fərdi ovqatının, xasiyyətinin özünəməxsuzluğu ilə izah edir: «Həm də dramaturgiya mənim ruhi müvazinətimə uyğun gəlir. Adətən, bir şeydən kədərlənəndə, məyus olanda bu janra müraciət edirəm. Yadımdadır, uşaqlarla Zuğulbada dincəlirdim. Qarşımızdakı bağda bir iydə ağacı var idi. Mənim ona çox tamaşa etdiyimi görən Elçin soruşdu ki, nə çox baxırsan, hekayə yazırsan? Əslində isə mən, doğrudan da, gələcək pyesim barədə düşünürdüm – «Tənha iydə ağacı» belə dünyaya gəlib».

İlyas Əfəndiyevin lap bu yaxınlarda səhnəyə yenicə təqdim etdiyi son pyesi də onun dramaturgiyaya tükənməz, sabit marağından və sədaqətindən xəbər verir:

«Son əsərim «Hökmdar və qızı» da faciədir. Onu İbrahim xanın həyatına həsr etmişəm. Bu adamın taleyi uzun illər məni düşündürüb. Bir gecədə on səkkiz baş ailəsini ruslar qırıblar... Teatrın bədii şurası əsəri bəyənib. Milli teatr onu mövsümün açılışına hazırlayıb. Bundan başqa, Mərahim Fərzəlibəyov mənim «Qaçaq Süleyman» adlı ssenarim əsasında film çəkir. Dövrün ictimai-siyasi havasını, insanın hiss və həyəcanlarını daha qabarıq, daha aydın canlandırmaqda roman janrının rolu əvəzsizdir. Ona görə də, müxtəlif illərdə «Geriyə baxma, qoca», «Valehlə Sarıköynəyin nağılı», «Üçatılan» kimi romanlar da yazmışam. Əlbəttə, maddi cəhətcə təmin olunsaydım, daha çox roman yazardım...»

* * *

Qızaran dan yerinin al-qırmızı kətanında, Cıdır düzünün yaşıldan və Əlyetməzin mavidən toxuduğu xalının çiçəkdən, otdan ilməsinin naxışında, Daşaltı çayının, İsa bulağının şırıltısına «Heyratı»dan və «Şikəstə»dən qarışan nalədə və zəngulədə – bir yerdə, bir cəmdə onların hamısında eşitdiyim qədər şeriyyəti, lirikanı mən təkcə «İlyas

Əfəndiyev» imzalı və ünvanlı səhnədə eşitmişəm. Bu qədər lirik təbiiliyi, bu qədər psixoloji realizmi bu səhnəyə – «İlyas Əfəndiyev teatrı»na təbiət özü (Qarabağ özü!) bəxş eləyib.

Klassik milli bədii səhnə irsinin tarixində son məbəd – «Cəfər Cabbarlı teatrı» idi. «Həyatda inqilab, şüurda inqilab» intibahı bu məbəddə baş vermişdi. Gəndə və qanda – ürəkdə intibahın baş verdiyi çağdaş məkan – «İlyas Əfəndiyev teatrı» oldu. Psixologiyada, mənəviyyatda özünüdərkin məhək və meyar sınağını millət və teatr düz qırx il bu ünvanda keçdi. Ən yeni, modern ifa və oyun üslubunun, cavan, təravətli istedadların yeni məktəbi və nəsli bu səhnədə formalaşdı.

O, bu teatrın estetik kodunu, bədii şifrəsini, mənəvi missiyasını dəyişdi: onu məbəddən məktəbə çevirdi. Teatra ilahi, müqəddəs həqiqətlər dinləmək, hikmət ayələri eşitmək üçün yox... günün məişəti, davranış və əxlaq tərzi barədə suallar vermək və cavablar axtarmaq üçün gəlməyə başladılar. Teatrda səhnənin özü boyda nigaran, narahat bir ürək çırpındı, səhnə «mən»ləşdi, ilkinliyə, təbiiliyə, özünə qayıtdı.

Özü də səhnə ona görə dəyişdi və «Cabbarlı teatrı» ona görə dönüb «İlyas Əfəndiyev teatrı» oldu ki, zaman özü dəyişdi, həyat özü dəyişdi: neobolşevik, stalinçi fanatiklər, yaşamağa yox, ölməyə «həmişə hazır» baş qəhrəmanlar (proletarlar, pionerlər və komsomollar!), vulqarlaşan firqə, fetişləşən ideya, sexləşən sənət fədailəri həm səhnənin, həm də zalın sakinləri arasında getdikcə tamam əriyib yox oldu. O vaxtkı hakim, elitar səhnədə, paytaxt teatrında Efrosu və Arbuzovu, Rozovu və Şukşini doğuran dövr Azərbaycanda da Tofiq Kazımov və İlyas Əfəndiyev məktəbini həyata gətirdi. Və bu məktəb həm teatrla həyat, həm də teatrla ədəbiyyat arasında yeni sintezin hadisəsi və mərhələsi oldu.

Rejissorluğun təzə səhifəsini açmaq üçün Tofiq Kazımova, teatr tarixinin təzə fəslini tamamlaması üçün Cəfər Cəfərova bədii qidanı «İlyas Əfəndiyev teatrı» verdi. Kamillik burada düşüncə ilə hiss, emosiya arasında vəhdətdən yaranır: fikrin humanizmini burada istedadın peşəkarlığı tamamlayır. Elə ona görə də, vəhdətə və sintezə biz burada intim lirika ilə sosial problematika, şəxsi «mən»lə qlobal ictimai məkan arasında da rast gəlirik. Hissin narınlığı, ruhun zərifliyi, düşüncənin duyğuda təzahürü və gözəlliyi! – bu teatrın və onun bədii təravətinin bugün üçün də, gələcək nəsil üçün də dəyişməyən, tükənməyən sehri, bax, bundadır.

Təbiətin, insanın, hətta, tarixin gizli qatını, «daxili aləmini» görmək üçün neçə on il biz bu teatra tələsmişik. Qədim keçmiş və uzaq tarixi qəhrəmanla da biz burada daha çox məhz günün, cariliyin





mətləb və sualına cavab almaq üçün görüşmüşük. Elə bütün bunlara görə də, bütövlükdə, tam halda «İlyas Əfəndiyev teatrı» öz dövrünün panoramında həm siyasət, həm də dövlət hadisələrinin özünün o vaxtkı teatrında «yeni teatr» kimi doğula, təsir edə, yaşaya bilib...

* * *

Qarabağın tarixi barədə klassik sənədlər – yeddi «Qarabağnamə» var. Bütünlükdə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci «Qarabağnamə» hesab edirəm! Qarabağın taleyi və gələcəyi barədə düşüncə, nigarançılıq və həsrət bu «Qarabağnamə»dən həmişə eşidilib.

Hələ altmışıncı illərdə Xan qızı Natəvan («Xurşidbanu Natəvan») Şuşada Təbriz barədə, Azərbaycanın tamlığı və bütövlüyü barədə həyəcanla düşünürdü. Xan qızının Şuşada dediyi Təbriz monoloqu bu gün Şuşasız Azərbaycanda və Qarabağsız Təbrizdə xüsusilə ibrətli və ağrılı səslənir...

Üçtelli durnanın, Xarı bülbülün, Səməndər quşunun yuvası – Şuşam mənim! Keçmişimin – Qala gözəli, bugünümün – «qalaça əsiri!» Mən sənin çiçəyindən dərib səksən yaşlı ədibin yubiley növrağına töhfə gətirə bilmədim. Nə etməli?! Təsəlli odur ki, İlyas Əfəndiyevin öz əsərləri Qarabağın dağlarından, düzlərindən dənələnmiş, seçmə, tər çiçək dəmətidir. O dəməti ədibin sənə töhfə gətirəcəyi gün uzaqda deyil, Şuşa!..

«Mahnı dağlarda qaldı!» – bu mahnının dalınca, zirvədə bitən boy çiçəyinin və Xarı bülbülün dalınca səksən yaşlı ədib neçə ildir yol gedir. Zirvədən aşağı boylananda göz qaralar. Ona görə də, ədib «Geriyə baxma, qoca» deyir, lakin, əslində, yenə də geriyə – kökə, mənşəyə, əcdada baxa-baxa irəli hərəkət edir... Boy çiçəyini dərməyə, Xarı bülbülə yetməyə, Şuşaya, Cıdır düzünə qovuşmağa gedir! Və bütünlükdə, tam halda İlyas Əfəndiyev qəhrəmanlarının bu külliyyatda, bu on cildli kitabda sizinlə bölüşmək istədiyi düşüncələr də əlinə taxta əsa alan, ayağına dəmir çarıq geyən bu səyyah – ədibin zirvəyə səfərdə qət etdiyi, yalnız irəliyə, yüksəyə doğru yürüşdə arxada buraxdığı yollar və yol ayrıcları barədədir...

* * *

Gördüyümüz kimi, İlyas Əfəndiyevin daxilən ülfət bağladığı, tarixi əsərdə də, müasir mövzuda da sadiq qaldığı «öz mövzusu», «öz qəhrəmanları» var. Ədibimizin ilk bədii əsərindən ta ömrünün son anına qədər davam edən əbədi gəncliyinin sirri və sehri də bəlkə elə bu

idi – gənclik mövzusuna, müasirimizin düşüncə və ehtiraslarına əbədi maraq?!

İlyas Əfəndiyev sevgi süjetini və lirik etiraf üslubunu sevirdi. Onun bir neçə romanı və çoxlu hekayəsi birinci şəxsin – gənc və sevən bir aşiqin dilindən yazılmışdır. İlyas Əfəndiyevin, ümumiyyətlə, üslubu və yaradıcılığı bütünlükdə belədir: eyni bir aşiqin dilindən söylənilən eyni məhəbbətin etirafı. Bu aşiq – sevən və sevilən ədibin özü, bu məhəbbət isə, oxucuya, xalqa etiraf olunan yazıçı və vətəndaş məhəbbətidir...

# KİTABIN İÇİNDƏKİLƏR

İlyas Əfəndiyev. Şəxsiyyəti və sənəti haqqında bir neçə söz *(Elçin)*....5

## HEKAYƏLƏR

### «KƏNDDƏN MƏKTUBLAR» KİTABINDAN

Qızbəs xala....71
Qarımış oğlan....76
Mirzə İman....84
Uxajor....93

### «AYDINLIQ GECƏLƏR» KİTABINDAN

Gözlənilməyən sevgi....99
Apardı sellər Saranı....109
Durna....112
Qəhrəman ilə bülbülün nağılı....120
Kiçik bir poema....122
Qoca tarını çaldı....130
Yarımçıq qalmış portret haqqında mahnı....136
Qarı dağı....144

## «HEKAYƏLƏR» KİTABINDAN

Görüş ....................149
Güləçar ....................157
Su dəyirmanı ....................174

## «SƏN EY BÖYÜK YARADAN» KİTABINDAN

Yusif və Esfir ....................211
Vəzir Allahverdi xan və Bəhlul Danəndə ....................216
Sən ey böyük yaradan... ....................222
Abidin yuxusu ....................228
Həyatın əbədi ahəngi ....................230
Sağsağan ....................233
İsa-Musa ....................236

## MÜXTƏLİF İLLƏRİN HEKAYƏLƏRİ

Berlində bir gecə ....................239
Qəhrəmanımın nişanlısı ....................244
Balıqçılar ....................247
Gül satan ....................255
Cavan yolçu ....................256
Bahar buludları ....................257
Xəncər ....................274
Yaylaq qonşumuz ....................287
Şəhərdən gələn ovçu ....................300
Yun şal ....................306
Qırçı və qırmızı çiçək ....................316
Tufandan sonra ....................325
Səməd Vurğun haqqında hekayə ....................349
Daş hasar ....................357

## UŞAQ HEKAYƏLƏRİ

Ceyran ovu ....................367
Maraqlı hadisə ....................368
Qoruqlarda ....................370
Yasəmən ağacı ....................384
İz ilə ....................386
Ovçunun nağılı ....................392
Zəmidə bur turac səslənirdi ....................393
Əsrə sığmayan nəsr,
yaxud zirvədə teatrı,
səhnəni saxlayan lirika... *(Yaşar Qarayev)* ....................395

*İlyas Əfəndiyev*

**İLYAS MƏHƏMMƏD OĞLU ƏFƏNDİYEV**

SEÇİLMİŞ ƏSƏRLƏRİ

*(7 cilddə)*

1-ci cild


NAŞİRİ
*Qoşqar İsmayıloğlu*

NƏŞRİYYAT REDAKTORU
*Məmməd Məmmədov,*

RƏSSAMI
*Evelina Əliyeva,*

BƏDİİ REDAKTORU
*İlham İsmayılov,*

TEXNİKİ REDAKTORU
*Akif Dənzizadə,*

KORREKTORLARI
*Rəfiqə İsmayılqızı,*
*Bətul Eyvazlı,*
*Rəfiqə Qənbərqızı,*

OPERATORLARI
*Məlahət Qurbanova,*
*Xalidə Hüseynova,*

ÇAPA MƏSUL
*Qasım Qasımov,*
*Anar Abdullayev,*
*Müsəddiq İsrafilov.*

*Yığılmağa verilmiş 08.07.2001,*
*çapa imzalanmış 13.04.2002,*
*formatı 70x100 1/16,*
*fiziki ç.v. 28,0, şərti ç.v. 36,12,*
*ofset kağızı №1, tayms qarnituru,*
*sifariş 01/01,*
*sayı 1500.*

*Kitab*
✉ ***"ÇİNAR-ÇAP"***
*nəşriyyatında nəşrə hazırlanmış*
☎ *Tel.: 902757, 850-3409191*
*və*
✉ ***"QAPP-POLİQRAF"***
*korporasiyasının mətbəəsində*
*ofset üsulu ilə çap olunmuşdur.*
☎ *Tel.: 989555, 937255*